AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

Beynəlxalq elmi-nəzəri jurnal

№ 2 (25)

Jurnalın bu sayı AMEA Fəlsəfə və Hüquq İnstitutunun yaranmasının 70 illiyinə həsr olunur

BAKI-2015

BAŞ REDAKTOR:
İlham MƏMMƏDZADƏ, *fəlsəfə üzrə elmlər doktoru, professor*

BAŞ REDAKTORUN MÜAVİNLƏRİ:
Bəhram ZAHİDOV, *hüquq üzrə elmlər doktoru,professor*
Roida RZAYEVA, *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

MƏSUL KATİBLƏR:
Həbib HÜSEYNOV, *fəlsəfə doktoru*
Zeynəddin ŞABANOV, *fəlsəfə doktoru*
Rəşad İLYASOV, *fəlsəfə doktoru*

REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:

FƏLSƏFƏ ELMLƏRİ ÜZRƏ
Səlahəddin XƏLİLOV,
fəlsəfə üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü
Sevda MƏMMƏDƏLİYEVA,
fəlsəfə üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü
Adil ƏSƏDOV, *fəlsəfə üzrə elmlər doktoru*
Əli ABASOV, *fəlsəfə üzrə elmlər doktoru*
Lalə MÖVSÜMOVA, *fəlsəfə üzrə elmlər doktoru*
Füzuli QURBANOV, *fəlsəfə üzrə elmlər doktoru*
Arzu HACIYEVA, *fəlsəfə üzrə elmlər doktoru*

SOSİOLOGİYA ELMLƏRİ ÜZRƏ
Əbülhəsən ABBASOV, *fəlsəfə üzrə elmlər doktoru*
Rəna MİRZƏZADƏ, *fəlsəfə üzrə elmlər doktoru*
Rəfiqə ƏZİMOVA, *fəlsəfə üzrə elmlər doktoru*
Hüseyn QARAŞOV, *sosiologiya üzrə elmlər doktoru*
Rafael HƏSƏNOV, *sosiologiya üzrə elmlər doktoru*

SİYASİ ELMLƏR ÜZRƏ
Əlikram TAĞIYEV, *fəlsəfə üzrə elmlər doktoru*
Həsən ƏLİBƏYLİ, *tarix üzrə elmlər doktoru*
Ramiz SEVDİMALIYEV, *siyasət üzrə elmlər doktoru*
Azər MUSTAFAYEV, *fəlsəfə üzrə elmlər doktoru*

İLAHİYYAT ELMLƏRİ ÜZRƏ
Sakit HÜSEYNOV, *fəlsəfə üzrə elmlər doktoru*
Aydın ƏLİZADƏ, *fəlsəfə üzrə elmlər doktoru*
Elsevər SƏMƏDOV, *fəlsəfə doktoru*

PSİXOLOGİYA ELMLƏRİ ÜZRƏ
Bəxtiyar ƏLIYEV,
psixologiya üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü
Kamilə ƏLİYEVA, *psixologiya üzrə elmlər doktoru, professor*
Svetlana MƏCİDOVA, *psixologiya üzrə elmlər doktoru*

HÜQUQ ELMLƏRİ ÜZRƏ
İsaxan VƏLİYEV, *hüquq üzrə elmlər doktoru, professor*
Mirağa CƏFƏRQULİYEV, *hüquq üzrə elmlər doktoru, professor*
Habil QURBANOV, *hüquq üzrə elmlər doktoru, professor*
Əli RZAYEV, *hüquq üzrə elmlər doktoru*
Aqşin QULİYEV, *hüquq üzrə fəlsəfə doktoru*
Rauf QARAYEV, *hüquq üzrə fəlsəfə doktoru*
Mirafərim SEYİDOV, *hüquq üzrə fəlsəfə doktoru*

BEYNƏLXALQ REDAKSİYA HEYƏTİ
Aleksandr ÇUMAKOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Eduard QİRUSOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Oleq BAKSANSKİ (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Valentina FEDOTOVA (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Nizami MƏMMƏDOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Tom ROKMOR (ABŞ) *Professor*
Fuat KEYMAN (Türkiyə)
Professor, fəlsəfə doktoru
Doğan ÖZLƏM (Türkiyə)
Professor, fəlsəfə doktoru
Taxir MAHAMATOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Yuriy POPKOV (Rusiya)
fəlsəfə elmləri doktoru, professor
Mahmud Erol KILIÇ (Türkiyə)
Professor, fəlsəfə doktoru
Şaban Teoman DURALI (Türkiyə)
Professor, fəlsəfə doktoru
Cafer Sadık YARAN (Türkiyə)
Professor, fəlsəfə doktoru
Ömer Mahir ALPER (Türkiyə),
professor, fəlsəfə doktoru
Paul BALLANFAT (Fransa)
fəlsəfə doktoru

REDAKSİYA HEYƏTİNİN ÜNVANI:
Azərbaycan Respublikası, Bakı şəhəri, Hüseyn Cavid pr.31, AMEA-nın əsas binası, IV mərtəbə.
Tel.: 537-22-79; Faks: (99412) 537-11-39; e-mail: elmieserler@gmail.com.
ISBN 9952 428-03-0
AMEA Fəlsəfə və Hüquq İnstitutunun Elmi Şurasının
qərarı ilə çap olunur. (23.12.2015, protokol № 12)
Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 1704. 17.02.06
Azərbaycan Respublikası AAK-nın 30.IV.2010-cu il tarixli qərarı ilə
elmi nəşrlər siyahısına daxil edilmişdir.

THE INSTITUTE OF PHILOSOPHY
AND LAW OF AZERBAIJAN NATIONAL
ACADEMY OF SCIENCES

SCIENTIFIC WORKS

The International Scientific and Theoretical Journal

№ 2 (25)

This issue of the journal is dedicated to the 70 th anniversary of the Institute of Philosophy and Law of ANAS

BAKU-2015

EDITOR-IN-CHIEF:
Ilham MAMMADZADE, *doctor of philosophical sciences, professor*

DEPUTIES EDITOR-IN-CHIEF:
Bahram ZAHIDOV, *doctor of juridical sciences, professor*
Roida RZAYEVA, *doctor of philosophy, assoc.prof.*

EXECUTIVE SECRETARIES:
Habib HUSEYNOV, *doctor of philosophy*
Zeynaddin SHABANOV, *doctor of philosophy*
Rashad ILYASOV, *doctor of philosophy*

EDITORIAL BOARD MEMBERS:

ON PHILOSOPHICAL SCIENCES
Salakhaddin KHALILOV, *doctor of philosophical sciences, Associate Member of the ANAS*
Sevda MAMMADALIYEVA, *doctor of philosophical sciences, Associate Member of the ANAS*
Adil ASADOV, *doctor of philosophical sciences*
Ali ABASOV, *doctor of philosophical sciences*
Lala MOVSUMOVA, *doctor of philosophical sciences*
Fuzuli GURBANOV, *doctor of philosophical sciences*
Arzu HAJIYEVA, *doctor of philosophical sciences*

ON SOCIOLOGOLICAL SCIENCES
Abulhasan ABBASOV, *doctor of philosophical sciences, professor*
Rena MIRZAZADEH, *doctor of philosophical sciences*
Rafiga AZIMOVA, *doctor of philosophical sciences*
Hussein GARASHOV, *doctor of sociological sciences*
Rafael HASANOV, *doctor of sociological sciences*

ON POLITICAL SCIENCES
Alikram TAGIYEV, *doctor of philosophical sciences, professor*
Hasan ALIBEYLI, *doctor of historical sciences, professor*
Ramiz SEVDIMALIYEV, *doctor of political sciences*
Azer MUSTAFAYEV, *doctor of philosophical sciences*

ON THEOLOGICAL SCIENCES
Sakit HUSEINOV, *doctor of philosophical sciences*
Aydin ALIZADEH, *doctor of philosophical sciences*
Elsever SAMADOV, *doctor of philosophy*

ON PSYCHOLOGICAL SCIENCES
Bakhtiyar ALIYEV, *doctor of psychological sciences, Associate Member of the ANAS*
Kamila ALIYEVA, *doctor of psychological sciences, professor*
Svetlana MAJIDOVA, *doctor of psychological sciences*

ON JURIDICAL SCIENCES
Isahan VELIYEV, *doctor of juridical sciences, professor*
Miragha JAFARGULIYEV,
doctor of juridical sciences, professor
Habil GURBANOV, *doctor of juridical sciences, professor*
Ali RZAYEV, *doctor of juridical sciences*
Agshin GULIYEV, *doctor of philosophy in law*
Rauf GARAYEV, *doctor of philosophy in law*
Miraferim SEYIDOV, *doctor of philosophy in law*

THE INTERNATIONAL EDITORIAL BOARD
Alexander CHUMAKOV
Doctor of philosophical sciences, professor
Eduard GIRUSOV (Russia),
Doctor of philosophical sciences, professor
Oleg BAKSANSKY (Russia),
Doctor of philosophical sciences, professor
Valentina FEDOTOVA (Russia),
Doctor of philosophical sciences, professor
Nizami MAMMADOV (Russia),
Doctor of philosophical sciences, professor
Tom ROCKMORE (USA) *Professor*
Fuat KEYMAN (Turkey), *professor, Ph.D*
Doghan OZLEM (Turkey), *professor, Ph.D*
Takhir MAKHAMMATOV (Russia),
Doctor of philosophical sciences, professor
Juriy POPKOV (Russia),
Doctor of philosophical sciences, professor
Mahmud Erol KILICH (Turkey),
Professor, Ph.D
Shaban Teoman DURALY (Turkey),
Professor, Ph.D
Cafer Sadik YARAN (Turkey),
Professor, Ph.D
Omer Mahir ALPER (Turkey), *professor, Ph.D*
Paul BALLANFAT (France) *Ph.D*

ADDRESS OF EDITORIAL STAFF:
Azerbaijani Rep., Baku c., Huseyn Javid ave.31, The basic building of ANAS, the IV floor.
Tel.: 537-22-79; Fax: (99412) 537-11-39; e-mail: elmieserler@gmail.com.
ISBN 9952 428-03-0
Published by Resolution of Scientific Council of the Institute of Philosophy and Law of ANAS (23.12.2015, proceedings №12)
The journal has been registered by the Ministry of Justice. Registration № 1704. 17.02.06.
By the decision of SSC of the Azerbaijani Republic dated 30.IV.2010 was included into the list of scientific editions.

MÜNDƏRİCAT

Mündəricat.....5

Fəlsəfə və Hüquq İnstitutu – 70 13

FƏLSƏFƏ BÖLMƏSİ

İlham MƏMMƏDZADƏ
Müasir dünya fəlsəfəsi kontekstində Azərbaycan fəlsəfəsinin
əsas prioritetləri haqqında..... 23

Əbülhəsən ABBASOV
Dünya problemləri və fəlsəfə 32

Rəna MİRZƏZADƏ
Aida İmanquliyeva fəlsəfəsində multikulturallıq və qadın hüquqları..... 44

Xatirə QULİYEVA
Maarifçilik dövründə Azərbaycanda milli-mənəvi əsaslar və milli ideya məsələsi 50

Afaq MƏMMƏDOVA
Romantizm qlobal-mədəni məkanın universal fenomen kimi..... 56

Rövşən HACIYEV
Tarixi prosesə daha bir baxış (sosial-fəlsəfi təhlil) 62

İradə ZƏRQAN
Qafqazda türk-müsəlman dirçəlişi və Əli bəy Hüseynzadə..... 69

Mirvari CƏFƏROVA
Müstəqillik dövründə Azərbaycanda təhsil və elmin inkişaf dinamikası
(sosial-fəlsəfi təhlil) 76

Eldar ƏMİROV
Riyaziyyatın əsaslarında sosiomədəni və metafizik determinasiyaların kəsişməsi
(Dekarta qədərki dövr) 80

XARİCİ ÖLKƏ TƏDQİQATLARI

Astrid GARRAUD
Dignité humaine et exécution des peines
La dignité humaine du détenu à l'aune de la jurisprudence européenne..... 88

Alexander V. KARPENKO
Die verwaltungs dienstleistungen als ein realisierungs mechanismus der modernen
staatlichen service-politik der Ukraine 105

Ирина ОРЕХОВА
Методика формирования информационной компетентности в подготовке специалистов в отрасли информационной безопасности
(На материале изучения гуманитарных дисциплин) 114

Алексей САВИЧЕВ
Виды правовых актов органов городского самоуправления в период реализации городской реформы 1870 г. 119

SOSİOLOGİYA BÖLMƏSİ

Cavid ŞAHMALIYEV
Yaşlıların intihar etmə səbəbləri və bunu önləyici tədbirlər 124

PSİXOLOGİYA BÖLMƏSİ

Lamiyə QURBANOVA
Diqqətə aid koqnitiv modellər (Doyçlər, Norman və Kaneman modelləri) 130

Кюбра ФАТУЛЛАЕВА
Взаимосвязь эмоционального интеллекта и копинг-стратегий у юношей и девушек 136

SİYASİ ELMLƏR BÖLMƏSİ

Etibar ƏSƏDOV
Dövlətin hərbi təhlükəsizlik problemi və onun təmin olunması sistemi..... 140

Zaur ƏLİYEV
Ermənilərin 24 aprel iddiasına qarşı Malta məhkəməsi qərarının siyasi və hüquqi əhəmiyyəti..... 147

Sənan FƏRƏCOV
Müasir cəmiyyətdə multikulturalizm fenomeni: nəzəri yanaşmalar..... 154

HÜQUQ BÖLMƏSİ

Aqşin QULİYEV
Maarifçi mütləqiyyətin ideologiyası 161

Aydın ƏLİYEV
Vəkilliyin anlayışına müasir yanaşma 167

Fikrət NƏBİYEV
Hüquqi hadisələrlə bağlı psixoloji proseslər 174

Daşqın QƏNBƏROV
İnsan hüquq və azadlıqlarının qorunmasının normativ-hüquqi əsasları 181

Mirafərim SEYİDOV
Azərbaycan Demokratik Respublikasında dövlət idarəetmə orqanlarının formalaşması 187

Xaliq ƏHMƏDZADƏ
Müasir dövrdə terrorizmə qarşı çoxtərəfli mübarizənin hüquqi aspektləri 194

Rahib ƏKBƏROV
Azərbaycan Xalq Cümhuriyyətində mülkiyyət münasibətlərinin
tənzimlənməsinə dair 200

Ромелла ГЮЛЬАЛИЕВА
Уголовно-правовые меры, применяемые к юридическим лицам, и их
соотношение с наказанием 205

Yaşar ƏLİYEV
Qəsdən adam öldürmə işləri üzrə hadisə yerinə baxışın aparılma taktikası 213

Səidə HƏSƏNZADƏ
Qadının analıq hüququ və onun mühafizəsi 217

Şəlalə HƏSƏNOVA
Hüquqi dövlət quruculuğu şəraitində cinayət yolu ilə əldə olunmuş pul vəsaitləri
və digər əmlakın leqallaşdırılması ilə mübarizə məsələləri..... 226

Aysel BABAYEVA
Mülkiyyətin formaları: dövlət, xüsusi, bələdiyyə mülkiyyəti 232

Bayram MƏHƏRRƏMOV
Kommersiya təşkilatlarının müflisləşməsinin anlayışı 239

Динара АГАЛИЕВА
Особенности юридической природы международного туристского права 248

Ильхам АЛИЕВ
Рассмотрение государственно-религиозных отношений через призму
нравственных ценностей..... 254

Elnur NƏCƏFOV
Casusluqla bağlı cinayət məsuliyyətinə dair hüquq normalarının tətbiqi..... 259

Гусейн ГУСЕЙНОВ
Некоторые актуальные вопросы нормотворчества в Азербайджанской Республике 266

Малейка АББАСОВА
Дифференциация понятий «вред» и «ущерб» применительно
к уголовному судопроизводству..... 274

Sima SÜLEYMANLI
Mədəni irsin qorunmasında qeyri-hökumət təşkilatlarının rolu 279

Ульвия КАСУМОВА
О правовом статусе и направлениях деятельности Комиссии ООН по Международному торговому праву (ЮНИСТРАЛ) 287

Ülkər ƏKBƏRLİ
Əmək münasibətlərinin hüquqi tənzimlənməsi mexanizmində hüquqi faktların rolu və əhəmiyyəti 292

Yubileylər

К 110-ЛЕТИЮ ЮСУФА МАМЕДАЛИЕВА
Свет неугасшей звезды 297

Oxucu rəyi 305

Elmi həyat 309

Yeni nəşrlər 319

C O N T E N T S

Contents 5

The Institute of Philosophy and Law - 70 13

PHILOSOPHY SECTION

Ilham MAMEDZADE
On the basic priorities of the Azerbaijani philosophy in the context of the modern world philosophy 23

Abulhasan ABBASOV
The world problems and philosophy..... 32

Rena MIRZAZADEH
Multiculturalism and women's rights in philosophy Aida Imanguliyeva 44

Khatira GULIYEVA
The national moral foundations and the question of national idea 50

Afag MAMMADOVA
Romanticism as a universal phenomenon in the global-cultural area..... 56

Rovshan HAJIYEV
One more view on the historical process (Social and philosophical analysis) 62

Irada ZARGAN
The Turkic-Moslem revival at the caucasus and Ali-bey Huseynzadeh 69

Mirvari JAFAROVA
Development dynamics of science and education in independence period of Azerbaijan (Social and philosophical analysis) 76

Eldar AMIROV
The intersection of socio-cultural and metaphysical determinations in the foundations of mathematics (Pre-Descartesian period) 80

FROM FOREIGN RESEARCHES

Astrid GARRAUD
Human dignity and execution of penalties. The question of a prisoner's dignity from the point of view of European law..... 88

Alexander V.KARPENKO
Administrative services as the mechanism of service-orientated state policy of Ukraine 105

Irina OREKHOVA
The method of forming the informative competence in preparation of specialists in the field of informative safety
(On material of studying the humanitarian disciplines) 114

Aleksey SAVICHEV
Types of legal acts of the bodies of city self-government during the implementation of urban reform in 1870..... 119

SOCIOLOGY SECTION

Javid SHAHMALIYEV
The causes of suicide among the elderly people and the preventive measures 124

PSYCHOLOGY SECTION

Lamiya GURBANOVA
Cognitive models of attention (models Deutsch, Norman, Kahneman) 130

Kubra FATULLAYEVA
The relationship between emotional intelligence and copying-strategies of the youth and girls..... 136

SECTION OF THE POLITICAL SCIENCES

Etibar ASADOV
Problem of military safety of the state and system of its providing 140

Zaur ALIYEV
The political and legal significance of the decision of Malta Tribunal against the action of the Armenians in connection with April 24..... 147

Sanan FARAJOV
Multiculturalism – is a fenomen in a modern society: theoretical approaches..... 154

LAW SECTION

Agshin GULIYEV
Ideology of enlightenment absolutism..... 161

Aydin ALIYEV
The new approach to the notion «advocacy» 167

Fikret NABIYEV
Psychological processes related to the juridical events 174

Dashgin GANBEROV
Standard and legal bases of protection of the human rights and freedoms 181

Miraferim SEIDOV
The bodics of state government of the Azerbaijan Democratic Republic 187

Khalig AHMADZADE
The legal aspects of the many-sided struggle against terrorism in the modern 194

Rahib AKBAROV
«About the settlement of property relations in the Azerbaijan Democratic Republic»..... 200

Romella GULALIYEVA
The criminal and legal measures applied to juridical persons and their correlation with punishment 205

Yashar ALIYEV
Tactics of carrying out examination of incident place of premediated murder..... 213

Saida HASANZADE
The right of women to maternity and its protection 217

Shalala HASANOVA
The issues of fight against legalization of money resources and other property got by criminal way in conditions of bilding a legal state..... 226

Aysel BABAYEVA
Property forms: state, private and municipal properties 232

Bayram MAHARRAMOV
The concept of bankruptcy of the commercial organizations 239

Dinara AGALIEVA
Special feature of juridical nature of international tourist right 248

Ilham ALIYEV
Consideration of state-religious relations in the light of moral values 254

Elnur NAJAFOV
Application of the legal norms related with criminal responsibility for espionage 259

Huseyn HUSEYNOV
Some topical issues in rule-making in the Republic of Azerbaijan 266

Maleyka ABBASOVA
Differentiation of the notions «harm» and «damage» in the context of criminal justice 274

Sima SULEYMANLY
The role of non-governmental organizations in preservation of cultural heritage..... 279

Ulviyya GASIMOVA
On the legal status and directions of UN Commissi activity on International trade law (UNCTAD) 287

Ulker AKBERLY
The role and importance of the legal facts in the mechanism of legal regulation of labor relations..... 292

Anniversaries

TO THE ANNIVERSARY OF YUSUF MAMMADALIYEV 110 YEARS BIRTHDAY
The light inextinguishable star 297

Reader′s opinion..... 305

Scientific life..... 309

New editions..... 319

Fəlsəfə və Hüquq İnstitutu – 70

Fəlsəfə və Hüquq İnstitutu Azərbaycan Elmlər Akademiyasının müstəqil elmi qrumu kimi 1945-ci ildə təşkil olunmuşdur. İnstitut 1950-1956-cı illərdə Tarix və Fəlsəfə İnstitutu, 1956-1967-ci illərdə Azərbaycan EA Fəlsəfə sektoru, 1967-ci ildən 2002-ci ilin iyun ayına qədər Fəlsəfə və Hüquq İnstitutu, 2002-2008-ci illərdə Fəlsəfə, Sosiologiya və Hüquqi Tədqiqatlar İnstitutu, 2009-cu ilin yanvarından 2014-cü ilin fevralınadək Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, 2014-cü ilin martından hal-hazıradək Fəlsəfə və Hüquq İnstitutu adı ilə fəaliyyət göstərir.

Bu İnstitutunun təşkili Azərbaycan xalqı və elmi qarşısında misilsiz xidmətləri olan akademik Heydər Hüseynovun adı ilə qırılmaz surətdə bağlıdır.

H.Hüseynovun Azərbaycan EA-nın vitse-prezidenti, İctimai elmlər bölməsinin sədri olması bu işdə, heç şübhəsiz, mühüm rol oynamışdır.

Aşağıda adları çəkilən alimlər müxtəlif illərdə İnstituta rəhbərlik etmişlər:

Akademik Makovelski Aleksandır Osipoviç - 1945-1950-ci illər.

F.e.d. Səmədov Vitali Yunisoviç, t.e.d. İskəndərov Məmməd Salman oğlu, t.e.d. Quliyev Əlövsət Nəcəfqulu oğlu – 1950-1956-cı illər.

F.e.d. Qasımov Mehbalı Məmməd oğlu – 1956-1958-ci illər.

F.e.d. Şakirzadə Əddin Sədrəddin oğlu – 1958-1959-cu illər.

Akademik Köçərli Firudin Qasım oğlu – 1959-1984-cü illər

F.e.d. Orucov Zahid Malik oğlu -1985-1987-ci illər.

Akademik Aslanov Aslan Məhəmməd oğlu 1987-1995-ci illər

F.e.d. Abasov Əli Seyidabas oğlu 1995-2001-ci illər.

F.e.d. Məmmədzadə İlham Ramiz oğlu 2002-ci il (may-noyabr)

F.e.d., prof. Rüstəmov Yusif İman oğlu 2002-2008-ci illər.

2008-ci ildən hal-hazıradək İnstitutda direktor vəzifəsində f.e.d. İ.R.Məmmədzadə çalışır.

Bu vəzifədə ən ox çalışan mərhum akademik F.Köçərli olmuşdur. O, 25 il bu instituta rəhbərlik etmişdir.

Akademik F.Q.Köçərli fəlsəfə elmləri doktoru alimlik dərəcəsini, Akademiyanın müxbir və həqiqi üzvü elmi rütbələrini İnstitutda işlədiyi illərdə almışdır.

Kadr hazırlığı, buna müvafiq olaraq elmi məhsuldarlıq baxımından F.Köçərlinin İnstituta rəhbərlik etdiyi 25 illik dövr xüsusilə fərqlənmişdir. Bununla əlaqədar belə bir faktı demək xarakterikdir ki, hazırda İnstitutun şöbə müdirlərinin baş və aparıcı elmi işçilərinin böyük əksəriyyəti onun rəhbərliyi dövründə doktorluq, eləcə də namizədlik dissertasiyaları müdafiə etmiş əməkdaşlardır. Akademik F.Köçərlinin yetirmələrinin çoxunun elmi rəhbəri, məsləhətçisi, opponenti olmuşdur.

Məhz bütün bunları nəzərə alaraq elmi-təşkilati fəaliyyəti sahəsindəki səmərəli xidmətlərinə görə ona «Əməkdar Elm Xadimi» kimi yüksək ad verilmiş, kollektivimiz isə onu «İnstitutun Fəxri Direktoru» seçmişdir.

Akademik Aslan Aslanovun 8 illik direktorluq fəaliyyəti də İnstitut üçün uğurlu olmuşdur. Akademik A.Aslanovun direktor olmaqla yanaşı Akademiyanın ictimai elmlər bölməsinin akademik-katibi vəzifəsini daşıması İnstitutun elmi-təşkilati fəaliyyətinə yaxşı təsir göstərmişdir. Həmin illərdə də doktor və namizədlərin sayı xeyli artmş, institut maddi-texniki cəhətdən nisbətən yaxşı təmin olunmuşdur. «Azərbaycan fəlsəfə tarixi»-nin hazırlanması sahəsində fəaliyyət onun rəhbərliyi dövründə daha da canlanmışdır.

İnstitutun fəaliyyət göstərdiyi 70 il ərzində Respublikanın görkəmli filosof və hüquqşünaslarının bütöv bir nəslinin yaradıcılığı İnstitutla bağlı olmuşdur.

Dünyasını dəyişmiş alimlərimizdən Akademiyanın həqiqi üzvləri Firudin Köçərli, Əfrand Daşdəmirov, müxbir üzvlər Ziyəddin Göyüşov, Zakir Məmmədov, fəlsəfə elmləri doktorları Şükufə Mirzəyeva, Şeydabəy Məmmədov, Zaman Məmmədov, Adil Nəcəfov, Midhəd Ağamirov, Həsən Şirəliyev, Ənvər Əhmədov, Artur Saqadeyev, Əhməd Əminzadə, Əbdülhüseyn Agahi, Cahid Quliyev, Zakir Bağırov, Qurban Bayramov, Rəşid Əliyev, Cəmil Əhmədli, Ağayar Şükürov, Həsən Quliyev, fəlsəfə elmləri namizədləri Mikayıl Məmmədov, Mirzəağa Rüstəmov, Gündüz Sarıyev, İrşad Əliyev, hüquqşünaslardan hüquq elmləri doktorları Vahid Qəhrəmanov, Qasım Cəfərov, Bilqeys Həşimzadə, Məmməd Xələfov, Tofiq Qafarov, Ağababa Rzayev, Cəfər Mövsümov, hüquq elmləri namizədləri Adil Babayev, İmran Rəsulbəyov, Zakir Qasımov, Çingiz Qasımov müxtəlif illərdə institutda çalışmışlar.

Hazırda müxtəlif elmi və pedaqoji fəaliyyət sahələrində çalışan filosoflardan akademik Ramiz Mehdiyev, AMEA-nın müxbir üzvü Səlahəddin Xəlilov, fəlsəfə elmləri doktorları Camal Mustafayev, Arif Bünyadov, Əsədulla Qurbanov, Nizami Nəcəfov, Nazim Səfərov, Əlipaşa Əliyev, Zahid Məmmədov, Gülnaz Abdullazadə, Məmməd Balayev, Qasım Kərimov, Rasim Osmanzadə, Qoşqar Əliyev, hüquqşünaslardan - Akademiyanın müxbir üzvü Məsumə Məlikova, hüquq elmləri doktorları Firudin Səməndərov, Şahin Əliyev, İlyas İsmayılov, Fuad Cavadov, Xanlar Hacıyev, İlham Rəhimov, Çingiz Mustafayev, hüquq elmləri namizədləri Aydın Yusifov və başqaları kollektivimizlə səmərəli elmi əməkdaşlıq etmiş və edirlər.

Yeri gəlmişkən demək lazımdır ki, hazırda respublikanın ali məktəblərində, elmi tədqiqat müəssisələrində eləcə də, rəhbər orqanlarında çalışan filosof və hüquqşünasların əksəriyyəti Fəlsəfə və Hüquq İnstitutunun yetirmələridirlər. Vaxtilə İnstitutun yetirdiyi alimlər hazırda Rusiyada (f.ü.e.d., prof. N.M.Məmmədov), Türkiyədə (f.ü.e.d. B.O.Qurbanov), İsraildə, ABŞ-da, Fransada, Almaniyada və bir sıra başqa ölkələrdə elmi və ictimai fəaliyyətlə məşğuldurlar.

Fəlsəfə və Hüquq İnstitutu nəzdində uzun illər müdafiə şurasının fəaliyyət göstərməsi nəinki İnstitutda və Respublikada, eləcə də keçmiş SSRİ məkanında fəlsəfə kadrlarının elmi potensialının artmasında əhəmiyyətli rol oynamışdır. Müdafiə Şurasında Rusiya Federasiyasının, o cümlədən, Moskva, Şimali Qafqaz, həmçinin Orta Asiya, Moldova alimləri doktorluq və ya namizədlik dissertasiyaları müdafiə etmiş, bəziləri isə opponent kimi iştirak etmişlər.

İnstitutun xüsusi diqqət yetirdiyi məsələlərdən biri xarici ölkələrlə elmi əlaqələrdir.

Hətta Sovetlər dövründə, xüsusən də ötən əsrin 70-ci illərindən bu istiqamətdə işlər daha da intensivləşdi.

Buna misal olaraq ötən əsrin 80-ci illərindən başlayaraq İnstitutumuz etnososioloji tədqiqatların hazırlanması ilə bağlı M.V.Lomonosov adına Moskva Dövlət Universiteti və ictimai rəyi öyrənən sosioloji tədqiqatlar Mərkəzinin işində iştirak etməyə başladı.

Diqqəti cəlb edən fakt kimi onu da göstərmək lazımdır ki, hələ o dövrlərdə İnstitut kollektivinin SSRİ EA Fəlsəfə İnstitutu, SSRİ EA Sosioloji Tədqiqatlar İnstitutu, Sov.İKP MK yanında Elm və Texnika üzrə Sosioloji Tədqiqatlar İnstitutu, Dövlət və hüquq İnstitutu, Cinayətkarlığın səbəblərini öyrənən və onların qarşısının alınması üzrə tədbirlərin görülməsi üzrə Ümumittifaq İnstitutu, eyni zamanda Zaqafqaziya respublikalarının müvafiq qurumları ilə geniş elmi əməkdaşlıq əlaqələri qurulmuş və müştərək elmi-tədqiqat işlərinin nəticəsi kimi həmin illərdə «НТР и развитие научного познания» (I, II, III buraxılış) ümumi ad altında kitab işıq üzü görmüşdür (1984, 1985, 1986-cı illər).

İnstitut öz ənənəsinə sadiq qalaraq, həmin illər ərzində xarici ölkələrdə fəaliyyət göstərən bir sıra milli mədəniyyət Mərkəzləri və Cəmiyyətləri, habelə milli problemlərlə bağlı tədqiqatlar aparan elmi müəssisələrlə əlaqələr gücləndirmişdir. Bu baxımdan ABŞ-n Texas Ştatındakı İnterneşnl linqvistik Mərkəzi, Təbrizdəki «Azərbaycan kültür və Araşdırmalar

Mərkəzi», İstanbuldakı Mərmərə Vəqfi Strateji Araşdırmalar Mərkəzləri ilə elmi əməkdaşlıq əlaqələrini göstərmək olar.

İnstitutumuz öz fəaliyyətində daima xarici ölkələrlə beynəlxalq əlaqələr və münasibətlərinin keyfiyyət səviyyəsinin yüksəlməsinə, ölkəmizin milli-mədəni siyasətinin düzgün istiqamətdə inkişafına, müstəqil, azad və demokratik dövlət quruculuğu və idarə edilməsi sahəsində, etik və dini amillərin problemlərinin öyrənilməsinə ciddi fikir vermişdir.

80-ci illərdə İnstitut vətənimizdən çox-çox uzaqlarda yaradılan Azərbaycan mədəniyyəti mərkəzləri və cəmiyyətləri ilə də əlaqələri genişləndirmiş, milli münasibətlər problemləri ilə məşğul olan xarici ölkələrin bir sıra elmi idarələri ilə əlaqə saxlamışdır. Bu elmi qurumlar arasında Moskva şəhərində Azərbaycan Beynəlxalq Vətəndaşlıq Assambleyasını, Cin Xalq Respublikasında milli münasibətlərin Tədqiqi İnstitutunu, YUNESKO yanında fəaliyyət göstərən ictimai və humanitar elmlər üzrə informasiya Mərkəzini, Türkiyədə türk xalqlarının tədqiqatları mərkəzini, Rusiya və Ukraynanın, həmçinin Gürcüstan və Qazaxıstanının milli və beynəlxalq münasibətlər üzrə elmi Mərkəzini göstərmək olar.

Məhz bunu nəzərə alaraq Elmi Şuranın təklifi ilə 1998-ci ildə fəlsəfə və hüquq elmləri üzrə «Fəxri Doktor» adı təsis edilmişdir. «Fəxri Doktor» adı alan ilk alimlərdən biri Azərbaycanın fəlsəfi fikrinin Avropada yayılması və təbliğində mühüm xidmətləri olan İsveç və ABŞ tədqiqatçısı Svante Kornelldir.

1990-cı illərin əvvəllərində dünyanın geosiyasi mənzərəsindəki dəyişikliklər, iqtisadi və sosial böhran özünü elmdə də kəskin surətdə hiss etdirmişdir. Ulu Öndər Heydər Əliyevin 2-ci dəfə hakimiyyətə gəlişindən sonra, cəmiyyətin mədəni-mənəvi tərəqqisi və xalqın rifahı elmin inkişaf səviyyəsi və Azərbaycan elminin dünya elm məkanına inteqrasiyası ilə birbaşa əlaqəli olduğu dərk edildi. Hazırda müstəqilliyinin bərpasının 25-ci ilinə qədəm qoymuş Azərbaycanda elmin inkişafı dövlət siyasətinin mühüm prioritetlərindən birinə çevrilmişdir.

İllər üzrə nəzər saldıqda, əgər 90-cı illərin əvvəllərində beynəlxalq əlaqələr yalnız əməkdaşlarımızın xarici ölkələrdə keçirilən tədbirlərdəki iştirakı ilə məhdudlaşırdısa, artıq 2000-ci ildən başlayaraq İnstitutun özünün müstəqil olaraq dünya elm mərkəzləri ilə əməkdaşlıq etmək təcrübəsi gözə çarpır.

Hazırda İnstitutumuz Rusiya, İİR, Türkiyə, Belarus, Ukrayna, Misir, Əlcəzair, Mərakeş, Qazaxıstan, Özbəkistan, İspaniya, Fransa, İtaliya, Belçika kimi ölkələrin elmi mərkəzləri ilə elmi əməkdaşlıq haqqında razılaşma protokolları imzalamışdır. Bu istiqamətdə işini davam etdirir. Son illərin uğuru kimi 1-3 iyul, 2015-ci il tarixində Sofiya-AntiPolis Universitetində (Fransa) hüquq və siyasi elmlər fakültəsində "İnsan ləyaqəti" mövzusunda və 20 oktyabr, 2015-ci il tarixində Venetsiya şəhərində Ka Foskari Universiteti (İtaliya) "Multikulturalizmin Azərbaycan və İtaliya perspektivləri" mövzusunda keçirilmiş beynəlxalq konfransı göstərmək olar.

Birgə elmi əməkdaşlıq formalarından biri də institut alimlərinin bir sıra xarici ölkələrdə nəşr olunan elmi jurnalların redaksiya heyyətinin üzvü kimi fəaliyyət göstərməsi, həmin ölkələrdə təşkil olunmuş elmi tədbirlərdə iştirakıdır. Yalnız 2015-ci il ərzində 50 nəfər əməkdaşımız xaricdə keçirilmiş beynəlxalq tədbirlərdə məruzə ilə çıxış etmişlər.

2010-cu ildə İnstitutumuz Avropa və Asiya ölkələrinin Fəlsəfə İnstitutlarının Beynəlxalq Assosiasiyasına üzv qəbul olunmuşdur. Bu da əlaqələrin genişlənməsində mühüm rol oynayır.

İnstitutumuz Respublikamızda fəaliyyət göstərən müvafiq nazirlik və idarələrlə də birgə iş qurmaq sahəsindəki işlərə yüksək önəm verir və bu istiqamətdə fəaliyyətini davam etdirir.

İnstitutda elmi kadr hazırlığı məsələsinə daimi xüsusi önəm verilmişdir. Kadr hazırlığı elmlər doktoru və fəlsəfə doktoru proqramları üzrə doktorantura və dissertantura yolu ilə həyata keçirilir. Təsadüfi deyildir ki, hal-hazırda elmi dərəcə və elmi adları olan əmək-

daşlarımız demək olar ki, vaxtilə institutda doktorantura və ya dissertantura yolu ilə dissertasiya müdafiə etmiş şəxslərdir.

Hazırda institutda fəlsəfə doktoru hazırlığı üzrə 7 əyani, 29 qiyabi doktorant, 40 dissertant və elmlər doktoru proqramı üzrə isə 20 nəfər doktorant və dissertant təhsil alır. Onlar təcrübəli alimlərin rərhbərliyi altında dissertasiya işlərini uğurla davam etdirirlər.

Əməkdaşlarımızın fəlsəfi-nəzəri səviyyəsinin yüksəldilməsini, onların elmi-tədqiqat bacarıqlarının artırılması daim diqqət mərkəzində olmuşdur. Elmi müşavirələr, konfranslar, simpoziumlar, seminarlar, elmi şurada əməkdaşların elmi hesabatları, məruzələri bu məsələlərin uğurlu həllinə xidmət edir.

AMEA-nın İİR-nın müvafiq qurumları ilə bağlanmış əməkdaşlıq müqaviləsi əsasında hal-hazırda 5 İİR vətəndaşı və 3 nəfər Türkiyə Respublikasının vətəndaşı dissertanturada təhsilini davam etdirir. İndiyədək 100-ə yaxın İİR vətəndaşı dissertantura yolu ilə təhsil almış və bir çoxu dissertasiya müdafiə edərək alimlik dərəcəsinə layiq görülmüşlər.

Elmi kadrların hazırlanmasında, onların yaradıcılıq əlaqələrinin genişlənməsində İnstitut direktorunun sədr olduğu fəlsəfə, siyasi elmlər, sosiologiya üzrə Elmi Əlaqələndirmə Şurasının və Respublika Fəlsəfə Cəmiyyətinin fəaliyyəti də mühüm rol oynamış və oynamaqdadır.

İnstitutda hazırda 285 əməkdaş çalışır. Onlardan 33 nəfəri elmlər doktoru, 95 nəfəri isə fəlsəfə doktorularıdır.

Vaxtilə 4 şöbədən ibarət olan İnstitutda indi 12 şöbə fəaliyyət göstərir.

İ.R.Məmmədzadənin rəhbərliyi altında son illərdə, dövrün tələblərinə müvafiq Institutun fəaliyyətində ciddi dönüş yaranmış, struktur-funksional yeniləşmələr aparılmış, əmək intizamı, elmi-tədqiqat işlərinin aparılması, İnstitutdaxili mühit, doktorant və dissertantlarla işin təşkili, şöbələrarası koordinasiya və əməkdaşlıq, tədqiqat mövzularının istiqamətlərinin müəyyənləşməsi təsirli dərəcədə müsbət yönümdə dəyişmişdir.

Tədqiqat dairəsi fəlsəfə və ictimai fikir tarixi, sosial fəlsəfə, sosiologiya və sosial psixologiya, siyasi elmlər, idrak nəzəriyyəsi və elmin fəlsəfəsi, müasir fəlsəfənin yeni istiqamətləri, etika və estetika, informasiya cəmiyyətinin fəlsəfi problemləri, dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri, mülki hüquq və mülki proses, cinayət hüququ və cinayət prosesi, dövlət və hüquq nəzəriyyəsi, konstitusiya hüququ, kriminologiya və cəza-icra hüququ, beynəlxalq münasibətlər və beynəlxalq hüquq sahələrini əhatə edir. Bu tədqiqatlar içərisində Ümummilli lider Heydər Əliyevin zəngin siyasi irsinin və azərbacançılıq ideologiyasının araşdırılması məsələləri xüsusi yer tutur.

İnstitutun fəaliyyətinin bütün dövrlərində başlıca məqsəd Azərbaycan xalqının mənəvi mədəniyyətinin, ictimai-fəlsəfi fikrinin tarixinə, fəlsəfə və hüquq elmlərinin aktual problemlərinə dair geniş tədqiqatlar aparmaq, araşdırmaların nəticələrinə həsr edilmiş elmi əsərlər, yeni kitablar hazırlamaq olmuşdur ki, bu gün də uğurla həyata keçirilir. O da qeyd olunmalıdır ki, son illərdə xüsusi diqqət Azərbaycanın yeniləşən dünyada bir müstəqil dövlət kimi milli maraq və prioritetlərinin gözlənliməsi, cəmiyyətimizin demokratik prinsip və normalar əsasında təşkilatlanması və idarə olunması, insan hüquq və azadlıqlarının təmin edilməsi məsələlərinə, hüquqi dövlətin başlıca əlamətlərini özündə uzlaşdıran milli dövlət və dövlətçilik problemlərinə yetirilməkdədir. Bu diqqətin təzahürü olaraq, milli-ideya və milli ideologiya, ideya-siyasi və sosial fəlsəfi cərəyanların cəmiyyətimizin inkişafında rolu, ictimai-siyasi institutların demokratikləşməsi və effektivliyi, vətəndaş cəmiyyətinin formalaşması, sosial idarəetmənin optimallaşdırılması kimi problemlərin öyrənilməsinə önəm verilmiş, zəruri hallarda yeni, qeyri-ənənəvi metodologiyalardan istifadə olunmuşdur.

Bu problemlərin həllində səmərəli yanaşmaların, yeni metodologiya və epistemoloji zəminlərin işlənib-hazırlanması institutda aparılan tədqiqatların mühüm tərkib hissəsi olmuşdur.

Bu dövrdə fəlsəfə və ictimai fikir tarixinin nəzəri problemlərinin tədqiqinə xüsusi diqqət yetirilmişdir. Eyni zamanda Azərbaycan fəlsəfəsini və ictimai fikrini təmsil edən ayrı-ayrı şəxsiyyətlərin fəlsəfi dünyagörüşünün, müxtəlif dövrlərin və problemlərinin yeni baxış bucağından bütövlükdə sistemli araşdırılması işi aparılırdı. Bunun nəticəsində F.Köçərlinin «M.Fətəli Axundovun dünyagörüşü» (1999), (Kollektiv) «Azərbaycan fəlsəfə tarixi» (I, II cildləri) (2002-2008), Z.Quluzadənin «Проблемы Физуливедения» (2006), «Концептуальные проблемы исследования социокультурного развития (конец XX-начало XXI вв.)» (I-II hissə, 2010), H.Hüseynovun «Seyid Mahmud Taleqaninin dini-siyasi təlimi və sosial fəlsəfəsi» (2006), Y.Rüstəmovun «Mövlana Cəlaləddin Ruminin sufilik fəlsəfəsi» (2006), Z.Məmmədovun «Şərq fəlsəfəsi (IX-XII əsrlər)» (1999), E.Zamanovanın «Türk estetikası: tarixi və müasir inkişafı» (2005), A.Hacıyevanın «Mədəni-tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti» (2004), "Akademik Heydər Hüseynov" (2015), K.Bünyadzadənin «İslam fəlsəfəsi: tarix və müasirlik» (2010), R.Əhmədlinin «Azərbaycan dövlətçilik fəlsəfəsinə dair» (2009), M.Ağayevin «Azərbaycan ictimai fikrində milli məsələ» (2007) və digər kitablar ərsəyə gəldi.

İnstitutda diqqət yetirilən sahələrdən biri də fənlərarası metodologiya, elmin fəlsəfəsi sahəsi olmuşdur. Bu istiqamətdə aparılan tədqiqatlarda elmi idrakın inkişaf xüsusiyyətləri, kiçik ölkələrin elm siyasəti, milli mentalitetin özəllikləri, yeni paradiqmaların yaranmasının fəlsəfi və metodoloji problemləri, dünyanın yeni ümumelmi mənzərəsinin formalaşması özəlliklərləri, elmlərarası əlaqələrin müasir tarixi mərhələdə əsas xüsusiyyətləri, elmi yaradıcılığın fəlsəfi problemləri və s. məsələlər öz əksini tapmışdır.

Sadalanan problemlər üzrə H.Quliyevin "Arxetipik azəri: mentalitetin simaları" (1999) (rus dilində), "Kiçik ölkələrin elmi strategiyası (Azərbaycan modelinin axtarışında)" (2007), F.Qurbanovun «Sinergetika: xaosun astanasında» (2004), "Tarixin "postqərb" mərhələsinə keçid. Risklər, proqnozlar və ssenarilər» I cild (2009), T.Bəşirovun «Учение Хайдеггера об истине» (2003), «Антопный мир» (2006), «Müasir idrak problemləri» (Toplu-2009), «Müasir mərhələdə sosiohumanitar elmlərin qnoseoloji və metodoloji problemləri» (Toplu-2000), «Cəmiyyət və din: tarix və müasirlik» (Toplu-2013), E.Əliyev "İnnovativ təlim metodları və texnologiyaların tezarusu" (2014), «Müasir idrak nəzəriyyəsinin aktual problemləri» (Toplu-2013) və s. göstərmək olar.

Qeyd etmək lazımdır ki, institutda aparılan tədqiqatlarda fayda verə biləcək klassik elmi paradiqmalara məxsus idraki üsul və prinsiplərlə yanaşı qeyriklassik və postqeyriklassik epistemoloji potensiala müraciət edilmiş, həmçinin sosial epistemologiyanın yeni məzmun-mahiyyətdə formalaşması istiqamətində xeyli işlər görülmüş və samballı nəticələr alınmışdır. Bu dövrdə alimlərimiz tərəfindən əldə edilmiş «tənqidi-sinergetik təfəkkür konsepsiyası», «sosial-siyasi optimum fəlsəfəsi», «mürəkkəblik fəlsəfəsi», «idarəetmənin sinergetik fəlsəfəsi», «postqeyriklassik sosial epistemologiya» kimi elmi nəticələr buna əyani sübutdur.

Həmin ideyalar 1996-2015-ci illər ərzində çap edilmiş kitab və toplularda öz əksini tapmışdır. Bunlardan «Müasir keçid dövründə Azərbaycan cəmiyyətinin inkişafının sosial-fəlsəfi problemləri» (Toplu-1996), «Azərbaycanda yeniləşmə prosesinin sosial-fəlsəfi problemləri» (Toplu-1998), D.İsmayılovun «Azərbaycan transformasiyası prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial demokratiya» (2005), A.Rüstəmovanın «Sosial linqvistikanın fəlsəfi problemləri» (2005), Ə.Abbasovun «İdarəetmənin sinergetik fəlsəfəsi: yeni dialoq naminə» (2006), "İnsan haqları və ictimai rəy" (2014), «Mürəkkəblik fəlsəfəsi» (2007), «Cəmiyyət və dövlət» (2007), Y.Rüstəmovun «Tarix zaman daxilində insan

reallığıdır» (2009), R.Rzayevanın «Rus və Azərbaycan kaynaklarında Türk modernləşməsi» (2012), toplulardan «Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris» (2010) və s. göstərmək olar.

«Cəmiyyətin problemlərini görə bilməyən, dövrün ideoloji tələblərini ödəməyən, sxolastik və ehkamçı ideya və mülahizələrin artmasına rəvac verən, yersiz, köhnəlmiş stereotiplərin şərhi ilə əlləşən «fəlsəfə» bu gün cəmiyyətin fəlsəfəsi ola bilməz» (R.Mehdiyev) ideyasını rəhbər tutan alimlərimiz çalışırlar ki, fəlsəfi təfəkkür və fəaliyyət tərzində, məsələlərə yanaşma üslubunda müasir tələblərə cavab verə biləcək yeniləşmə qərarlaşsın. Bu kontekstdə müasirliyin fəlsəfi problemləri sahəsində görülən işlər təqdirə layiqdir.

Bu mövzularla bağlı Ə.Abasovun «Müasir dövrün sosio-mədəni problemləri» - rus-ingilis dillərində (2005) və «Проблемы истории, теории и методологии познания» (2001), R.Mirzəzadənin «Azərbaycanda gender siyasəti» (2006), «Multikulturalizm siyasəti din və gender dialoqunda» (2013) adlı kitablar nəşr edilmişdir.

Müasir elmi-fəlsəfi istiqamətlər içində bu səpgidə genderin vurğulanması da xüsusi yer tutur, bunun da öz səbəbi vardır. Məhz bu dövrdə elmi və ictimai-siyasi çevrələrdə gender problemi, vətəndaş cəmiyyəti və qadın məsələsinə maraq artmışdır. Hazırda Azərbaycanda bu məsələlərin spesifik xüsusiyyətlərinin üzə çıxarılması istiqamətində işlər gedir.

İnstitutumuzun alimləri gender məsələsinin Azərbaycan üçün önəmliliyini və aktuallığını, onun nəzəri və praktiki aspektlərinin inkişafının vacibliyini nəzərə alaraq, sadəcə olaraq bu sahədə araşdırmalar aparmaqla kifayətlənmədi. Bu gün tam əsasla iddia etmək olar ki, Respublikada öz yolu, ənənəsi olan, xüsusi Azərbaycan Gender Tədqiqatlar Məktəbi formalaşmışdır. Mövcud olduğu 14 il ərzində gender tədqiqatları ilə bağlı çoxlu sayda elmi əsərlər, dərsliklər işıq üzü görmüşdür. Bunların içərisində Ə.Quluzadənin «Gender Azərbaycanda». (2003), R.Mirzəzadənin «Gender, cəmiyyət, insan hüququ, siyasət». (2003), L.Mövsümovanın «Анализ статуса женщины в контексте религиозного мировоззрения» (2007), Z.Şabanov və H.Abdallının «Qadın: cəmiyyətdə, siyasətdə, təhsildə, dində, ədəbiyyatda» (2013) əsərlərini xüsusi göstərmək olar.

Keçid dövrü yaşayan və dünyada qloballaşma meylinin gücləndiyi bir vaxtda cəmiyyətimizdə milli-mənəvi dəyərlərin, adət-ənənələrin itib-getmə təhlükəsi xeyli artmışdır. Bunu nəzərə alan İnstitut əməkdaşları Azərbaycan tarixi özəlliklərini nəzərə almaqla, Şərq-Qərb cəmiyyətləri dəyərlərinin qarşılıqlı təsiri kontekstində etikanın, estetikanın, aksiologiyanın və əxlaq fəlsəfəsinin aktual problemlərini tədqiq etmişlər. Bu baxımdan institutda aparılmış tədqiqat işlərini xüsusi qeyd etmək lazımdır. Bunlardan İ.Məmmədzadənin «Etikaya giriş» (2004), «Опыт интерпретации морали» (2006), «Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında» (2009), «Bir daha fəlsəfə haqqında» (2013), R.Bədəlovun «Правда и вымысел героического эпоса» (1983), D.Müslümzadənin «Идея дифференциации общества и государства: опыт философско-этического анализа» (2006), X.Quliyevanın "Azərbaycan maarifçiliyində fəlsəfi etik –məsələlər (XIX əsrin II yarısı XX əsrin əvvəllləri)" (2014), V.Ömərov "Peşə etikası: etiket və davranış mədəniyyəti" (2014), A.Əsədovun «Gözəlliyin fəlsəfəsi: mahiyyət və onun cismani təcəssümü spiritualist aristokratizm işığında» (2005), H.Əlizadənin «Estetika» (2006), toplulardan «Etikanın aktual problemləri» (Toplu-II) kimi kitabları göstərmək olar.

Sovetlər birliyinin dağılması ilə dövlət müstəqilliyinə qovuşan Azərbaycan milliözünədərk şüurunun formalaşdırılması problemi ilə də üzləşdi. Müstəqillik qazanan Azərbaycan qısa müddətdə milli mənəvi dəyərlərinə söykənərək,bu sahədəki bütün boşluqları doldurmağa çalışdı. 1990-cı illərin əvvəllərindən başlayaraq dini təfəkkürün düzgün formalaşması istiqamətində lazımi tədbirlər görülməyə başladı. Ümummilli lider Heydər Əliyevin, sonralar isə ölkə prezidenti İlham Əliyevin rəhbərliyi altında bu işin milli dövlətçilik prinsiplərinə

uyğun şəkildə aparılması dinin dövlət maraqlarına xidmət etməsinə şərait yaratmışdır. Dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri sahəsində institutda aparılan elmi-nəzəri tətqiqatlar respublikamizda azərbaycançılıq məfkurəsinin formalaşmasına öz töhvəsini vermiş oldu.

Bu illər ərzində alimlərimiz tərəfindən dinşünaslıq və mədəniyyətin fəlsəfi problemləri sahəsində bir-çox kitab və monoqrafiyalar nəşr olunmuşdur ki, bunlardan A.Əlizadənin «Xristianlıq: tarix və fəlsəfə (ilk cağlar)» (2006), E.Səmədovun «Azərbaycanda din-dövlət münasibətləri və dini təhsilin formalaşması»(2009), M.Şəkixanovanın "Sufizm fəlsəfəsində kamil insan konsepsiyası" (2007), R.Mustafayevin "Orta əsrlər müsəlman sivilizasiyasında bərabərlik problemi" (2010), H.Hüseynovun «Qərb-Şərq münasibətləri xristian və islam təfəkkürü baxımından» (2005) və s. göstərmək olar.

İnstitutda aparılan maraqlı elmi-tətqiqatlardan biri də davamlı inkişaf, davamlı insan inkişafı konsepsiyalarıdır. Bu tədqiqat işlərində davamlı inkişaf və davamlı insan inkişafı konsepsiyasının sosial-fəlsəfi cəhətdən araşdırılması ilk dəfə olaraq institutda həyata keçirilmişdir, eyni zamanda insan inkişafının əsas indikatorları sırasında mənəvi-psixoloji amillər də ilk dəfə olaraq ayrıca indikator kimi təqdim edilmişdir ki, bu elmi müddəaların düzgün olduğunu da indiki Azərbaycan reallığı sübut etməkdədir. Həmin fikirlər S.Hüseynovun "Davamlı insan inkişafının strateji istiqamətləri" (2003), "Davamlı insan inkişafı" (2009), S.Hüseynovun və R.Sarıyevin «Ekologiyanın fəlsəfi-hüquqi məsələləri» (2007) adlı kitablarda öz əksini tapmışdır.

Ekoloji problemlər sahəsində aparılan tədqiqatları istiqamətləndirmək, bu sahədə nəzəri bilikləri artırmaq, eləcə də 90-cı illərin əvvəlində elmlərarası problemlərin tədqiqinin aktuallığını nəzərə alaraq, İnstitutda "Ekologiya, Fəlsəfə, Mədəniyyət" adlı elmi məcmuə nəşr olunmağa başladı. 1991-ci ildən bəri elmi məcmuənin 40-a yaxın buraxılışı işıq üzü görmüşdür. Həmin məcmuələrin elmi səviyyəsi baxımından Respublikada ekoloji problemlərin həlli üzrə aparılan tədbirlərə konkret əməli yardımı olmuşdur. Respublikada ilk dəfə alimlərimizin təşəbbüsü ilə "Ekokultura araşdırma mərkəzi təsis edilmişdir".

Ekologiyanın və qloballaşmanın fəlsəfi problemləri ilə bağlı onlarca kitab, monoqrafiya və məqalə nəşr edilmişdir. Bunlardan A.Şükürovun «Sosial ekologiya» (1996), «Fəlsəfə və zaman» (1998), «Fəlsəfə və qloballaşma» (2002), A.Gözəlovun Moskvada çapdan çıxmış «Трансформация общества в эпоху глобализации (социально-философсий анализ)» (2009) adlı kitabları, toplulardan «Siyasi etika və keçid dövrünün bəzi problemləri» (1998) və s. göstərmək olar.

Bildiyimiz kimi, Azərbaycanın müstəqilliyinin bərpasınını ilk illəri Qarabağ savaşı hadisələri ilə üst-üstə düşmüşdür. Belə bir mürəkkəb və ziddiyyətli vəziyyətin yaranması cəmiyyətimizi çoxlu sayda siyasi, iqtisadi, sosial-mədəni, sosial-psixoloji problemlərlə üz-üzə qoydu. Məhz bu tarixi məqamları dərindən öyrənib, təhlil etmək, sosial-psixoloji cəhətləri üzə çıxartmaq, mövcud problemlərin aradan qaldırılması yollarını göstərmək sosiologiya və sosial psixologiya sahəsində çalışan alimlərimizin öhdəsinə düşdü. Bununla bağlı İnstitutda bu sahədə bir çox problemlər tədqiq edilmiş və nəticələri nəşr edilmiş kitab və monoqrafiyalarda əks olunmuşdur. Bunlar R.Əzimovanın «Orta sinif keçid dövrü cəmiyyətinin sosial stratifikasiyasında» (2006), «İnsanşünaslıq – XX əsrin elmidir» (2012), Ə.Süleymanovun «Millətləşmə prosesində Azərbaycan türkləri» (2006) və s. kitab və toplulardır.

Rusiya Elmlər Akademiyasının nüfuzlu nəşrlərindən olan «Вопросы философии» jurnalının 2013-cü ilin 10-cu sayında jurnalın baş redaktoru f.ü.e.d. B.İ.Prujininin və İnstitut alimlərinin də iştirak etdiyi «Filosof mədəniyyətdə» mövzusunda keçirilən «Dəyirmi Masa»-nın materiallarının nəşri də İnstitutumuzun uğurlarından sayıla bilər.

Cəmiyyətin sosial-siyasi inkişaf problemlərinin araşdırılması da İnstitutda aparılan tədqiqatların vacib sahələrindən biri olmuşdur. Burada Azərbaycan cəmiyyətinin müasir siyasi inkişaf problemləri politoloji mövqelərdən təhlil olunmuş və mühüm nəticələr əldə edilmişdir.

Bu sahədə tədqiqatların aparıldığı müddətdə Y.Rüstəmovun «Sosial-siyasi və hüquqi təlimlər tarixi» (2006), Ə.Tağıyevin «İnsan və siyasət», (2005), «Müasir qlobal siyasi proseslər və milli dövlət ideyası» (2006), «Ulu öndər Heydər Əliyevin irsi və politologiyanın aktual problemləri» (2012) adlı kitablar, 10 adda müxtəlif elmi jurnallar, məcmuələr və konfrans materialları çap edilmişdir. Ümumilli lider Heydər Əliyevin zəngin siyasi irsinə həsr olunmuş 9 konfrans materialı hazırlanmış və çap olunmuşdur.

Müstəqilliyin ilk illərindən başlayaraq ölkənin həyatında baş verən əsaslı sosial-iqtisadi və ictimai-siyasi dəyişikliklər siyasi-hüquqi təsisatların yenidən qurulmasına, elmi tədqiqatların məhz bu istiqamətlərdə aparılmasına zərurət yaratdı. Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı mürəkkəb siyasi proseslərin yalnız hüquqi tənzimlənmə yolu ilə böhrandan çıxarmağın mümkünlüyünü prioritet istiqamət kimi irəli sürdü.

Elmi tədqiqatların nəticələri vaxtaşırı olaraq İnstitutda nəşr edilən və AAK-nın vacib nəşrlər siyahısında olan "Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri" jurnalının 28 nömrəsi (hər biri 27 ç.v.), "Elmi əsərlər", "Hüquq elminin problemləri" və digər jurnallarında, o cümlədən xarici ölkələrin elmi nəşrlərində dərc edilmişdir.

Eyni zamanda hüquqşünas alimlərimizin tədqiqatlarının nəticəsi olaraq Z.Qasımovun "Hakimiyyətlər bölgüsü" (2005), Toplu «Dövlət və cəmiyyət» (2004), B.Zahidovun "Azərbaycan Respublikasında narkotizmlə və narkobizneslə mübarizənin aktual problemləri" (2006), «Narkotizm və narkobiznes: kriminologiya məsələləri» (2004), «İntihar (sosioloji, kriminoloji, psixoloji etüdlər)» (2012), «Narkobizneslə mübarizənin beynəlxalq hüquqi problemləri» (2013), İ.Vəliyevin «Cinayətin obyektiv əlamətləri haqqında» (2010), «Уголовно-процессуальная форма обнаружения признаков преступления (сравнительно-правовое исследование законодательства стран Содружества Независимых Государств и Балтии)» (Москва-2011), H.Qurbanovun «Azərbaycanın bələdiyyə hüququ» (2011), "Əməlin cinayət olmasını istisna edən hallar (müasir və gələcəyə baxış kontekstində)" (2014), «Обстоятельства, исключающие преступность деяния (в контексте современности и взгляда в будущее)» (2015), A.Quliyevin "Azərbaycanın siyasi-hüquqi təlimlər tarixi" (1999), «Hüquq sosiologiyası» (2010), M.Əliyevin "Sosial təminat hüququnun təşəkkülü və inkişafı" (2003), «Dövlət qulluqçularının pensiya təminatı haqqında» (2005), Ə.Rzayevin "Dövlət qulluğu: nəzəriyyə və praktika" (2005), V.Eyvazovun "Dövlətin ərazi bütövlüyü prinsipi xalqın öz müqəddəratını təyinetmə hüququna nisbəti" (2004), R.Qarayevin «Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq» (2010), E.Emir-İlyasovanın «Beynəlxalq və dövlət institutları və Azərbaycan Respublikasının xarici iqtisadi siyasətinin prioritetləri» (2010), S.Həsənzadənin "Əlillərin sosial müdafiəsinin hüquqi tənzimlənməsi sahəsində islahatlar" (2009), Z.Məmmədovun "Azərbaycanda notariat" (2009), M.Cəfərquliyevin «Azərbaycan Respublikası cinayət qanunvericiliyinin təkmilləşdirilməsi problemləri» (2008), A.Mirabdullayevin Российская Федерация – страны СНГ, Стратегические приоритеты и политические реалии постсоветского пространства» (Almaniya-2014), "Müasir dövrdə beynəlxalq münasibətlər və beynəlxalq hüququn bəzi problemləri" (Toplu-2015), Z.Ağayevanın "Mənəvi dəyərlər və sosial-siyasi gerçəklik" (2014), T.Allahyarova «Azərbaycanda siyasi transformasiyalar» (2014) və onlarla digər monoqrafiya, kitab, dərslik və kommentariyalar ölkədə və xaricdə çap edilmişdir.

İnstitut hüquqşünasları son 10 ildə 50-dən artıq normativ-hüquqi aktların layihəsinin hazırlınmasında, təkmilləşdirilməsində, onlara əlavə və dəyişikliklərin edilməsində fəal iştirak etmişlər. Bu sənədlər içərisində «Təhsil haqqında», «Elm haqqında», «Məişət zorakılığı haqqında» Qanun layihələrinin hazırlanmasında əməkdaşlığımızın xüsusi xidmətləri olmuşdur.

Azərbaycan Respublikasında 2009-2015-ci illərdə «Elmin inkişafı üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı»-ndan irəli gələn vəzifələrin həlli istiqamətində də AMEA-nın Rəyasət Heyəti tərəfindən hüquqşünas alimlərimizdən ibarət işçi qrupun yaradılması İnstituta göstərilən etimadın göstəricisi kimi qiymətləndirmək olar.

Son illər İnstitutumuzun hüquqşünas alimlərinin beynəlxalq əlaqələri və elmi əməkdaşlığı xeyli genişlənmişdir. Belə ki, institutda hüquq elminin inkişafına və tədrisinin təkmilləşdirilməsinə həsr edilmiş beynəlxalq və respublika səviyyəli silsilə konfranslar və seminarlar bu istiqamətdə fəaliyyətin əlaqələndirilməsinə, təkmilləşdirilməsinə və inkişafına mühüm təsir göstərmişdir.

İnstitutun beynəlxalq münasibətlər və beynəlxalq hüquq elmləri sahəsində tədqiqatlarında regional və beynəlxalq təşkilatların rolu, beynəlxalq hüququn milli hüquqla əlaqəsinin müxtəlif aspektlərinin elmi tədqiqinə diqqət artırılmışdır. Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında tənzim edilməsinə dair və ümumiyyətlə beynəlxalq hüquqla bağlı olan bir çox ciddi problemlərin araşdırılmasına xüsusi önəm verilmişdir. Beynəlxalq hüquq və beynəlxalq münasibətlər ixtisasları üzrə yetişdirilmiş hüquqşünas-alimlər hazırda Xarici İşlər Nazirliyində və ölkəmizin müxtəlif səfirliklərində öz təcrübi fəaliyyətlərini müvəffəqiyyətlə davam etdirirlər.

İnstitut əməkdaşları tərəfindən yalnız son 20 il ərzində elm aləmində yüksək qiymətləndirilən 700-dən artıq monoqrafiya, toplu, kitab və kitabçalar, 5000-dən çox məqalə çap olunmuşdur, yalnız son iki ildə 20 kitab və 200-dən çox məqalə xaricdə çap olunmuşdur. Bu dövrdə fəlsəfə və hüquq elminin ən aktual problemlərinə həsr olunmuş onlarla beynəlxalq səviyyəli elmi konfranslar keçirilmişdir.

Fəaliyyət göstərdiyi illərdə institutun müxtəlif elmi mətbu orqanları olmuşdur. Bunlardan «Əsərlər», «Genderşünaslıq», «Şərq-Qərb: sivilizasiyaların dialoqu», «Elmi əsərlər», «Sosial-siyasi problemlər», «Fəlsəfə» kimi jurnalları göstərmək olar.

1996-cı ildən başlayaraq İnstitut Azərbaycan MEA Rəyasət Heyətinin, Elm Assosiasiyası və Respublika Elm Fondu ilə birlikdə təsis etdikləri «Şərq fəlsəfəsi problemləri» adlı elmi jurnal çap etdirir. Jurnalın redaksiya heyəti və redaksiya şurası İslam regionu fəlsəfəsinin ənənələri və müasir nailiyyətləri ilə elmi ictimaiyyəti və geniş oxucu kütləsini tanış etməyi öz qarşısına məqsəd qoymuşdur. Jurnalın 6 xarici dildə xülasəsi verilir. Jurnalın baş redaktoru f.e.d. Z.Ə.Quluzadədir.

Azərbaycan, Tatarıstan, Türkmənistan, Türkiyə, İran, Qazaxıstan, Rusiya, Fransa, Tacikistan, Özbəkistan alimlərindən ibarət redaksiya heyətinin səmərəli fəaliyyəti nəticəsində indiyə kimi jurnalın 18 nömrəsi nəşr olunmuşdur.

Son dövrlər İnstitutun elmi yaradıcılıq və elmi təşkilati fyəaliyyətini əks etdirmək, xarici ölkələrin fəlsəfə və hüquq institutları ilə elmi əlaqələri genişləndirmək, fəlsəfə, sosiologiya, siyasi və hüquq elmlərinin hazırki vəziyyəti, bu elmlərin yeni istiqamətləri ilə oxucuları tanış etmək məqsədi ilə institutun «Elmi əsərlər» jurnalının redaksiya heyəti xarici mütəxəssislər cəlb olunmaqla təzələnmiş və yeni tərtibatda nəşr edilməyə başlamışdır.

2014-cü ildən başlayaraq fənlərarası tədqiqatlara həsr olunan "**Unikal**" adlı beynəlxalq-elmi nəzəri jurnalın nəşrinə başlanmışdır. İndiyədək 2 sayı işıq üzü görmüşdür.

Ölkəmizdə dünyanın və regionların elm və mədəniyyət təşkilatlarının, H.Əliyev Fondunun, Beynəlxalq Fondların yardımı ilə keçirilən tədbirlər artıq ənənə şəklini almışdır.

2009-cu ildən başlayaraq Heydər Əliyev Fondunun Rusiya təmsilçiliyinin dəstəyi, Rusiya Elmlər Akademiyasının aparıcı İnstitutları və Fəlsəfə və Hüquq İnstitutunun birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş və artıq ənənə şəklini almış **«Əliyev qiraətləri»** adı altında müasir dövrün ən aktual mövzularına, xüsusən də qloballaşma şəraitndə mədəniyyətlərin dialoquna həsr olunmuş **beynəlxalq Forumların** mütəmadi olaraq **Bakı və Moskva** şəhərlərində keçirilməsi mühüm elmi hadisə kimi qiymətləndirilə bilər.

2010-cu ildə Moskvada nəşr edilmiş «Qumanizm i filosofskie üennosti» adlı kitab da rus və azərbaycan alimlərinin birgə əməkdaşlığının bəhrəsi olmuşdur.

2011-ci ildə «Mədəniyyətlərin dialoqu» Beynəlxalq Forum çərçivəsində Avropa, Asiya və Afrika qitələrini təmsil edən tanınmış alimlərin iştirakı ilə «Mədəniyyətlərin müxtəlifliyi və müasir dünyada dialoqun fəlsəfəsi» adlı elmi konfransın keçirməsi də böyük etimad göstərilərək məhz bizim İnstituta tapşırılmışdı.

Beləliklə, alimlərimiz demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda qarşıya çıxan əsas problemlərin öyrənilməsində və onların həlli yolunda öz səylərini birləşdirmək, yeni metodologiyalar əsasında elmi-tədqiqat işlərinin keyfiyyət baxımından daha da yaxşılaşdırmaq istiqamətində öz fəaliyyətlərini davam etdirirlər.

Redaksiya Heyəti

FƏLSƏFƏ BÖLMƏSİ

UOT 101.1

İlham MƏMMƏDZADƏ
fəlsəfə ü.e.d., professor
AMEA FHİ, direktor

MÜASİR DÜNYA FƏLSƏFƏSİ KONTEKSTİNDƏ AZƏRBAYCAN FƏLSƏFƏSİNİN ƏSAS PRİORİTETLƏRİ HAQQINDA*

Müasir Azərbaycan fəlsəfəsinin əsas prioritetləri üzərində dayanmazdan əvvəl qeyd etmək istərdik ki, müasir Qərb fəlsəfəsində əsas bir istiqamət, məktəb deyil, istiqamət və cərəyanların plüralizmi üstünlük təşkil edir. Fəqət bəzi məsələlər vardır ki, onlara olan maraq filosoflarda müzakirə etmək, iştibahları bildirmək, öz nəticələrini əsaslandırmaq və sübuta yetirmək arzusu doğurur: birincisi, fəlsəfi həqiqət nədir, o, elmi həqiqətlərdən fərqlənirmi və elm üçün zəruriliyi nədən ibarətdir; ikincisi, siyasət, beynəlxalq münasibətlər əxlaqi (əxlaq qaydalarına uyğun) ola bilərmi və əxlaqda, dəyərlər sistemində və s. siyasətdən nə dərəcədə istifadə etmək olar; üçüncüsü, fəlsəfə tarixi ciddi, sübutedici, inandırıcı ola bilərmi? Bu suallarla, hər halda, milli və universal fəlsəfə arasında qarşılıqlı münasibətlər məsələsi bağlıdır.

Amerika analitik, Avropa kontinental və Rusiya fəlsəfələrinin mülahizələri və dəlilləri arasında fərqləri qeyd edək. ***Amerika analitik*** *fəlsəfəsi*, ilk növbədə, yuxarıda göstərilən məsələlərin məntiqi-linqvistik təhlilidir. Məntiq, dilin fəlsəfəsi həqiqətitapma vasitəsidir. ***Avropa fəlsəfəsi*** üçün postmodernizmin nə olduğunun qavranılması və ya dərk olunması, habelə multikulturalizm, mədəniyyətlərin dialoqu, kommunikasiyalar problemlərinin təhlili aktualdır. Burada elmilik çox vaxt multidissiplinar (çoxfənli) araşdırmaların köməyi ilə əldə olunur. Beləliklə, fəlsəfə ictimai elmlər üçün müxtəlif elmi bilikləri birləşdirməyə qadir elmə çevrilir. ***Rusiya fəlsəfəsi*** analitik və Avropa fəlsəfəsinin elementlərini birləşdirməyə çalışır. Ən azı, vurğulanır ki, dilin fəlsəfəsi ilə yanaşı, şüur, mədəniyyət və təcrübə fəlsəfəsi inkişaf etdirilməlidir. Məsələn, analitik fəlsəfə fəlsəfə tarixi ilə maraqlanmır, Rusiya fəlsəfəsi isə həm universal Qərb fəlsəfəsinə, həm də müxtəlif dünya xalqlarının fəlsəfəsinə ciddi diqqət yetirir. Son vaxtlar Rusiya fəlsəfəsində elm fəlsəfəsi məsələlərinə, həqiqət problemlərinə də fikir verilir. Onu da qeyd edək ki, Amerika filosofları arasında Avropa yönümlü ciddi filosoflara rast gəlmək olar (T.Rokmor).

Bu qeydlər bizə müasir fəlsəfəmizin əsas prioritetlərini ifadə etməyə imkan verir. Fikrimizcə, birincisi, bu yalnız fəlsəfəyə, fəlsəfə tarixinə deyil, həm də bütövlükdə ictimai elmlərə inandırıcılıq, sübutedicilik verəcək multidissiplinar (çoxfənli) tədqiqatlardır. Bundan başqa, həmin tədqiqatlar bu elmləri fəlsəfənin özündə sübutedici və əsaslandırılmış edərək onları birləşdirmək imkanı yaradır. İkincisi, milli tarix fəlsəfəsinin inkişafına və onun fəlsəfə tarixi ilə əlaqələrinin dərkinə xüsusi əhəmiyyət vermək lazımdır. Üçüncüsü, azərbaycançılıq ideologiyası, mənəvi və vətəndaşlıq tərbiyəsi, maarifçilik fəlsəfəsi və s. sahəsində tədqiqatlara diqqət artırılmalıdır.

I. *Fənlərarası tədqiqatlar haqqında.* Fənlərarası tədqiqatlar son illər elmdə aktuallıq kəsb etmişdir. «Kəşflər elmlərin qovuşuğunda baş verir» ifadəsi adiləşmişdir. Hətta demək

* Məqalə fəlsəfə ü.e.d. Dilarə Müslümzadə tərəfindən çapa məsləhət görülüb.

olar ki, onlar üstünlük təşkil edən istiqamət (trend) kimi məcburi, vacib yanaşma statusu qazanmışdır. Fəqət bu hələ o demək deyildir ki, bu cür araşdırmalar ciddi fəlsəfi tədqiqat obyekti olub. Təbii ki, onlar praktik mənada daha çox fundamental elmlərdə istifadə edilir. Faktiki olaraq, yeni fənlər, yeri həmhüdud, bir-birinə çox yaxın tədqiqat obyektləri meydana çıxmışdır. Bu xüsusda qeyd edək ki, fənlərarası qarşılıqlı əlaqələrin elmi tədqiqi onların fəlsəfi dərkindən fərqlənir.

Bizim fikrimizcə, müxtəlif sahələrə aid və əvvəlki bölgü, o cümlədən ictimai elmlərin bölgüsü çərçivəsində təhlili mümkün olmayan informasiyadan getdikcə daha çox istifadə etmək lazım gəlir. Bundan başqa, fəlsəfə, sosiologiya, biologiya və görünür ki, bütün fundamental elmlər arasında münasibətlərin mənalandırılması zərurəti hiss olunur. Beləliklə, fənlərarası problemlərin dərki fəlsəfəsi, onların keyfiyyəti və dərinliyi, bir tərəfdən, müəyyən anlayış, məna, obrazlar, məntiq və kommunikasiyalarla təmin olunmalıdır. Digər tərəfdən, elmin özünün də onlara tələbatı vardır. Elə həmin fizika, biologiya, kimya daha çox metafizikanın, fəlsəfənin onlara lazım olduğu həmsərhəd sahələrlə (məsələn, həyat və ölüm) qarşılaşır.

Fəlsəfə fənlərarası tədqiqatlardan çox şey qazana bilər. Lakin bunun üçün o özünü, keçmişini (fəlsəfə tarixini) yenidən, yeni dövrün ruhunda dərk etməlidir ki, indinin (məsələn, cəmiyyətin konsolidasiyası) və gələcəyin (proqnozlaşdırma) təmayüllərini əvvəlcədən görə bilsin. Aydındır ki, fənlərarası tədqiqatların spesifik xüsusiyyətlərinin fəlsəfi dərkinə bu problemin fəlsəfədə təşəkkülü tarixinə müraciətdən başlamaq, daha sonra isə onun hazırkı vəziyyətinin bəzi cəhətlərini, tədqiqat prioritetlərini nəzərdən keçirmək səmərəli olardı.

Fikrimizcə, fəlsəfə tarixinə müraciət dissiplinar və fənlərarası qarşılıqlı təsir və əlaqələrin inkişafı arasında bağlılıqları görməyə imkan verəcəkdir.

Bu gün artıq aydındır ki, fənlərarası araşdırmalar zəruridir, lakin fənlərarası tədqiqatların fəlsəfi təhlilinin əhəmiyyətini anlamaq, onların əhəmiyyətinin ayrı-ayrı fənlərin inkişafını inkar etmədiyini, əksinə, nəzərdə tutduğunu görmək və mütləq (hökmən) əsaslandırmaq lazımdır. Bir tərəfdən, fənlərarası tədqiqatlarla əlaqədar olan qeyri-klassik yanaşmaların, digər tərəfdən, fənn bölgüsünü ehtiva edən klassik elmin bir-birilə bağlı olduğu meydana çıxır. Lakin onların fundamental və ictimai elmlərdə, həmçinin bu və ya digər konkret tədqiqatın müxtəlif mərhələlərində necə olması aydınlaşdırılmalıdır. Nəzərə alınmalıdır ki, hər bir konkret biofizik, yaxud biokimyaçı özünün fənlərarası sahəsi və obyekti ilə məşğul ola, lakin müxtəlif səbəblərdən öz obyektinin klassik fizika, riyaziyyat, yaxud kimya və s. ilə əlaqələrini görməyə bilər. Amma filosof onları görməyə borcludur, çünki o, fəlsəfənin spesifikliyi, elm və fəlsəfənin inkişafının tarixi əlaqələri səbəbindən, metodologiya və epistemiologiyaya diqqəti sayəsində onları görə bilər.

Fənlərarası yanaşma fəlsəfəsi fənlərarası qarşılıqlı təsir və əlaqələrin müxtəlif tiplərini üzə çıxarmağa imkan verəcəkdir.

Hal-hazırda biz fənlərarası qarşılıqlı təsirin üç tipini fərqləndirə bilərik. Birincisi, biologiya və fizikanın, fəlsəfə və sosial kommunikasiya nəzəriyyəsinin, sosial linqvistikanın və s. fənlərarası qarşılıqlı təsiri. Bu cür qarşılıqlı təsir çərçivəsində qarşılıqlı təsirdə olan fənlərin predmetləri, metodları və nəticələrinin fərqlənməsini nəzərdə tutan hüdudların dəqiqliyi saxlanır. İkincisi, fənlər arasında dəqiq sərhədlərin olmadığı fənlərarası sistemlərin yaranması. Coğrafiya, iqtisadiyyat, beynəlxalq münasibətlər, kulturologiya, siyasi elm, məsələn, vahid ölkəşünaslıq sistemində birləşir, yaxud bir çox fənlərin qovuşuğunda təşəkkül tapan proqnozlaşdırma nəzəriyyəsi. Bu fənlər qarşılıqlı təsir göstərərək, bir-birini tamamlayaraq, bu və ya digər ölkənin, regionun gerçəkliyini, yaxud dünyanın yaxın gələcəyinin bütöv mənzərəsini yaradır. Burada ayrı-ayrı fənlər fənlərarası tədqiqat üçün ehtiyat bazası təşkil edir. Üçüncüsü, elmin fənlərarası sistemlərində ayrı-ayrı fənlərdə istifadə

oluna biləcək universal metodologiyanın (məsələn, marksizm, yaxud A.Toynbinin çağırışlar nəzəriyyəsi) təklif olunduğu və əsaslandırıldığı tip. Bunlara elmdə sərhədləri tanımayan sistemlər nəzəriyyəsi, informasiya nəzəriyyəsi, fəlakətlər nəzəriyyəsi aiddir.

Bizcə, bu da vurğulanmalıdır ki, fənlərarası tədqiqatların təşkili kifayət qədər mürəkkəb və məsrəf tələb edən işdir. Bir tərəfdən, onların aparılması üçün üç növ, özü də müxtəlif fəaliyyət sahələri ilə bağlı olan vəzifə yerinə yetirilməlidir: metodoloji vəzifələr (fənlərarası tədqiqat obyektini müşahidə və təsvir etmək). Dərhal daha bir sual yaranır: hansı fənn nümayəndəsi və hansı anlayışlar vasitəsilə onu «müşahidə və təsvir edə» bilər; təşkilati vəzifələr – fənlərarası tədqiqatların yaradılması (o cümlədən maliyyələşdirilməsi); informasiya vəzifələri – nəticələrin digər fənlərin nümayəndələrinə çatdırılmasının təmin edilməsi.

Digər tərəfdən, belə tədqiqatların təşkili sahəsindəki təcrübəmiz (seminar və konfransların keçirilməsi) göstərir ki, fənlərarası tədqiqatların prioriteti hansısa mənada bu və ya digər konkret fənlərdə alimlərin korporativ birliyinə «təhlükə» duyulmasına gətirib çıxarır. Biz hesab edirik ki, elmin ayrı-ayrı sahələri daxilində iyerarxiya pozulur, bu və ya digər fənnin keçmişinin, onun kateqorial aparatı təşəkkülünün yenidən dərk olunmasına gözəçarpan tələbat, bəzən isə qeyri-elmi bilik sahələrinin əhəmiyyətini görmək zərurəti də yaranır.

Fənlərarası tədqiqatlar fəlsəfəsi formal və qeyri-formal məntiq əlaqələrinin aktuallığını bərpa edir. Və əgər onlar fundamental elmlərdə riyazi məntiq kimi iştifadə edilirsə, ictimai elmlər üçün buna diqqət yetirmək zəruridir.

Fənlərarası tədqiqatlar fəlsəfəsi fəlsəfə və tarix, fəlsəfə və siyasət, fəlsəfə və şüur, təcrübə, fəlsəfə və mədəniyyət və s. arasında əlaqələrə və tədqiqatlara marağı şərtləndirəcək.

Fəlsəfə və tarixdə fənlərarası qarşılıqlı təsirin böyük təcrübəsi toplanıb. Belə ki, məsələn, Fukididin irsinə həm fəlsəfə, həm tarix, həm də siyasi elm iddia edə bilər. N.Makiavelli ilə bağlı eyni vəziyyət mövcuddur, bu siyahını artırmaq da olar. Fəlsəfəni hətta təfəkkür haqqında düşüncə (və ya fikir haqqında fikir) tarixi kimi müəyyən etmək olar, hərçənd R.Rorti bu fikri şübhə altına alırdı. Bu qarşılıqlı təsirin bir neçə forması mövcuddur: fəlsəfə tarixi, tarix fəlsəfəsi, nəzəri tarix və s. Bu problemə məqaləmiz kontekstində yanaşsaq, fikrimizcə, iki fundamental yanaşma fərqləndirilməlidir: fəlsəfənin fənlərarası qarşılıqlı təsirin keçmişdə necə olduğunun təhlilini ehtiva etməsindən çıxış edən tarixi-fəlsəfi yanaşma və bu qarşılıqlı təsirlərin hazırda necə olduğunu nəzərdən keçirən məhz fəlsəfi yanaşmanın özü. Məsələn, XX əsr fəlsəfəsi, başlıca olaraq, dil fəlsəfəsi olmuşdur (L.Vitgenşteyn). Bu yalnız analitik ingilisdilli fəlsəfəyə aid deyildir. Dil problemi elm fəlsəfəsi, fenomenologiya, ekzistensializm və s. üçün mühüm olmuşdur və olaraq qalmaqdadır. Belə çıxır ki, bu fəlsəfə üçün fənlərarası qarşılıqlı təsirin əsasında, ilk növbədə, linqvistika (dilçilik) durur. Amma, əslində, bu belə deyildir. Bizcə, dillə yanaşı, şüur və təcrübənin fəlsəfəsi aktuallıq kəsb edir. Problemin bu cür qoyuluşu çoxfənli tədqiqatların yeni dərkini doğurur. Bu tədqiqatların daxili qarşılıqlı əlaqələrinin ən təbii üsulu aşağıdakıdır: təcrübə bizə şüuru dərk etməyə imkan verir, dil isə onu ifadə etmək imkanını təmin edir. Bu kontekstdə Amerika filosofu C.Serlin əsərlərini, K.Popperin intellektual təcrübə ideyasını və s. yada salmaq olar. Məsələn, Serl özünün hələ 1992-ci ildə nəşr olunmuş "Новое открытие сознания" («Şüurun yeni kəşfi») kitabında qeyd edir ki, şüur beyində fiziki proseslərin doğurduğu real subyektiv təcrübədir (1). Diqqəti buna yönəltmək istərdik ki, şüur və təcrübə fəlsəfəsi yalnız sosial və humanitar elmlərin deyil, həm də fizika, kimya və biologiyanın qarşılıqlı əlaqəsini nəzərdə tutur. Təsadüfi deyil ki, Serl bu mövqeyini bioloji naturalizm adlandırır.

II. ***İndi isə tarix fəlsəfəsi və fəlsəfə tarixinin bizim üçün xüsusi aktuallığı haqqında.*** Onlar yalnız fəlsəfənin deyil, həm də vətəndaşlıq mədəni (vətənpərvərlik) şüurunun identikliyini təmin edərək, onun üçün keçmişi bu gün və gələcəklə bağlayır. Bizim fikrimizcə, tarix fəlsəfəsi, tarixə konseptual metodoloji yanaşmalar olmadan birliyin (cəmiyyətin) tarixi-

mədəni identikliyi formalaşa bilməz. Cəmiyyətin tipləri və formaları tarixən dəyişkəndir, buna görə də tarix fəlsəfəsi öz aktuallığını onları məntiqi surətdə birləşdirməklə saxlayır. «О философии: современные подходы, тенденции и перспективы» («Fəlsəfə haqqında: müasir yanaşmalar, təmayüllər və perspektivlər») adlı kitabımızda (2011) bu problemin yalnız bəzi aspektlərinə toxunmuşuq (2). Buna görə də vurğulayaq ki, birincisi, tarix fəlsəfəsi xalqın tarixinə onun dəyərləri, mənafeyi və identikliyinin təşəkkülü prosesi kimi baxmağa imkan verir, çünki əks təqdirdə o, dövrlər və hökmdarların fəaliyyəti, dəyərlər, nümunələr və modellərin əvəzlənməsinin adicə sadalanması olardı. İkincisi, bu və ya digər dövrü öyrənən tarixçi üçün öz dövrü daha maraqlı və əhəmiyyətlidir. Lakin xalqın tarixinin mənası, mahiyyəti bu və ya digər, hətta ən dərin tarixçinin marağı ilə məhdudlaşmır, o, bütün dövrlərdə təzahür edən və ötürülən, bütövlük kimi dərk edilməli fenomenlərdə təcəssümünü tapır. Yəqin ki, söhbət xalqın keçmiş, bu gün və gələcək kimi gerçəkliyə çevrilən konkret nəsillərdə həyatını birləşdirən ruhundan və təcrübəsindən gedir. F.R.Ankersmit «ruh» əvəzinə, onun fikrincə, sevgi və itki hisslərinin paradoksal birliyi olan, keçmişə münasibətimizi müəyyən edən «yüksək tarixi təcrübə» anlayışından istifadə edir (3, s.30) (Анкерсмит Ф.Р. Возвышенный исторический опыт. М., «Европа», 2007, с.30). Fikrimizcə, cəmiyyət onu digər cəmiyyətlərdən fərqləndirən dəyərlər, ruh, özünün «yüksək tarixi təcrübəsi» ilə maraqlanmırsa, yaxud onlara marağını itirirsə, o, tənəzzülə uğrayır. O, özünə qapandıqda, dəyərlər, mədəniyyətlər və şüurların qarşılıqlı təsirinə diqqət yetirmədikdə, yaxud, əksinə, özəllikləri, fərqləri yox edən mədəni bərabərçilik (sovetləşdirmə, radikal qloballaşma və qərbləşmə), yaxud fərdiləşdirmə prosesinə fəal surətdə qoşulduqda da tənəzzülə məruz qalır. Bu halda sonrakı dövrün filosof və tarixçilərinə bu və ya digər böyük imperiyaların, dövlətlərin və mədəniyyətlərin necə dağılması müəmması üzərində düşünmək qalır.

Bizim fəlsəfəmizdə bu problemləri sistemli şəkildə akademik Ramiz Mehdiyev araşdırmışdır. O bu barədə düşünərkən bilavasitə dünya tarixinin bir hissəsi, müsəlman və türk sivilizasiyasının bir hissəsi, fars, Rusiya və sovet imperiyalarının bir hissəsi kimi dərk etdiyi Azərbaycan tarixinə müraciət edir. Buna görə də o, xeyli tarixi analogiya və paralellər gətirir. Ramiz Mehdiyevin fikrincə, keçmişə bu günün gözü ilə baxan tarix fəlsəfəsi olmadan bu analogiya və paralellər dərk edilə bilməz, çünki «köhnə dünya» tarixinin təcrübəsini gerçək aləmə, bu günə keçirmək mümkün deyildir. O, müasir dünyada fəlsəfə, mədəniyyət və tarixin qovuşuğunda səmərəli tədqiqat aparan, ölkəmizin tarixini Azərbaycan mentallığının spesifikliyinin dərki üçün vasitə olan fəlsəfi-metodoloji kontekstdə təhlil edən nadir filosoflardan biridir. Tarixə bu cür fəlsəfi yanaşma ayrıca dövrün tarixinin dərki üzrə müxtəlif variantları aydınlaşdırmaq üçün zəruridir. Tarix özü müxtəlif dövrlərin reallıqları arasında qarşılıqlı asılılığı üzə çıxara, davam edən gerçəklik kimi yeni obraz (mənalar) yarada bilməz. Üstəlik, Azərbaycan tarixi olduqca mürəkkəb, fəlsəfi baxımdan lazımi dərkini tapmamış prosesdir. O, bir sıra səbəblərdən dərk olunmamışdır, onların arasında ölkənin sivilizasiyalar arasında yerləşməsi də qeyd oluna bilər, ictimai elmlərdə belə məkan frontir, həmsərhəd, müxtəlif mədəniyyətlərin qarşılıqlı təsir məkanı adlanır. Təbii ki, ölkə bütün tarixi boyunca müxtəlif mərkəzlərə meyil etmişdir. Onun fəlsəfi-tarixi baxımdan öyrənilməməsinin başqa bir səbəbi fəlsəfədə marksist, universal yanaşmanın hökmranlığı olmuşdur, üstəlik, uzun müddət tarix fəlsəfəsi filosoflarımızı az maraqlandırmışdır. Və XX əsrin sonu - XXI əsrin əvvəlində ayrı-ayrı xalqların və ölkələrin, regionların fəlsəfəsinin spesifikliyinə maraq yarandığı zaman bu xalqların tarix fəlsəfəsinə marağı da anlaşılandır. Lakin bu marağı reallaşdırmaq xeyli çətindir, çünki Azərbaycan ictimai elmində tarixi-fəlsəfi kontent hələ sovet illərində, hətta daha əvvəl formalaşdığı halda, fəlsəfi-tarixi kontent yalnız indi aktuallıq kəsb etməkdədir. O, aşağıdakı parametrləri ehtiva edir: Azərbaycan tarixi ölkənin müxtəlif dövrlərdə müxtəlif mərkəzlərə, mədəniyyətlərə meyil etməsi səbəbindən fasiləli proses kimi qiymətləndirilən

bütöv prosesdir. Bütövlük dərk və bərpa olunmalı, ümumi dəyər varisliyi qeyd və təsbit edilməli, habelə strategiyalar, mənafe və məqsədlər, onlarla birlikdə isə tarixi şəxsiyyətlərin rolu fərqləndirilməlidir, bunlar olmadan Azərbaycan tarixini bütöv proses kimi anlamaq çətindir. Və nəhayət, uzun müddət, hətta demək olar ki, bütün tarix boyunca imperiyaların bir hissəsi olmuş kiçik ölkələr üçün fəlsəfi-tarixi tədqiqatın spesifikliyi üzə çıxarılmalıdır. Özü də Azərbaycan bu baxımdan əlahiddə haldır, çünki onun xalqı müxtəlif dövrlərdə gah hakim etnos kimi imperiyanın qurulmasında iştirak etmiş (Şah İsmayıl Səfəvi), gah da bu keyfiyyətini itirərək imperiyaların hakimiyyəti altına düşmüşdür. Bu vəzifənin yerinə yetirilməsi yalnız ictimai fikrimiz və mədəniyyətimiz üçün önəmli deyil, bunun həm də ümumdünya elmi əhəmiyyəti vardır, çünki bir neçə regionun, mədəni mərkəzin və vahid dünyanın ayrılmaz hissəsi olan birlik haqqında informasiyanı açıqlayır.

III. Azərbaycan tarix fəlsəfəsinin inkişafı azərbaycançılıq ideologiyası sahəsində tədqiqatların inkişafını, vətənpərvərliyin (əxlaq və etikanın) tərbiyəsinə diqqət yetirilməsini şərtləndirir.

1. Azərbaycançılıq ideologiyası üçün fəlsəfə, birinci növbədə, dövlətin, cəmiyyətin həm xaricində, həm daxilində müasir dövrün əsas çağırışları, təhdidlər və cəmiyyəti birləşdirən mənafe və dəyərlər haqqında ümumi biliklər verir. Eyni zamanda, (iqtisadiyyatda, siyasətdə, humanitar sahələrdə) Azərbaycan milli xarakterini, aparıcı idarəetmə prinsiplərini nəzərə alan cavabları şərtləndirən ideoloji prinsiplər dəqiq təsbitini tapır. Onlar sonradan elmi araşdırmalarda, ictimai biliklərdə, ictimai elmdə, böyüməkdə olan nəsillərin indi və gələcəkdə azərbaycanlıları birləşdirən vətənpərvərlik ruhunda təlim-tərbiyəsi sistemində gerçəkləşərək Azərbaycanın transformasiyasını və modernləşməsini təmin etməyə qadir olmalı, zəruri tarixi-mənəvi, dini, sosial-aksioloji təsəvvür və biliklər verməlidir.

2. Keçmiş haqqında biliklər müasir Azərbaycan cəmiyyətinin birliyinə xidmət etməli, identikliyin pozulmasına imkan verməməlidir. Onlar, ölkənin müxtəlif inkişaf mərhələlərində, forma və rejimlərdən asılı olmayaraq, dövlətçiliyin bütövlüyünün, onun əldə edilməsində gələcək nəsilləri ictimai və mədəni islahatlarda yaradıcılığa, kreativliyə can atmaqdan məhrum etməyən tarixi şəxsiyyətlərin rolunun fəlsəfi-tarixi və elmi cəhətdən əsaslandırılmış dərki ilə üzvi vəhdət təşkil etməlidir.

3. Müstəqilliyin dövlət əsaslarının sivilizasiyanın tələblərinə cavab, vahid xarakterini qoruyub saxlamağa isə imkan verəcək dərəcədə cəmiyyətin etnik və dini müxtəlifliyində konsensusun əldə edilməsinə, tarixi köklərin tanınmasına imkan yaradılmalıdır.

4. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin mənəvi irsi, Azərbaycan Prezidenti İlham Əliyevin siyasət fəlsəfəsi və strategiyası bu məqsədlərə çatmaq üçün zəruri zəmin yaradır.

5. Azərbaycan Prezidenti İlham Əliyevin modernləşmə xətti, Azərbaycanda post-sənaye cəmiyyətinin və güclü dövlətin qurulması strategiyası ümummilli liderin ideyalarının ardıcıl transformasiyası və həyata keçirilməsidir. Bu transformasiya post-sənaye cəmiyyətinə doğru hərəkət, güclü sosial siyasətə, innovasiya və informasiya texnologiyalarının inkişafına əsaslanan milli vətəndaş cəmiyyətinin inkişafı və tərəqqisinə səmtləşmiş iqtisadiyyata və bilik cəmiyyətinə keçid strategiyası vasitəsilə təmin olunur. Burada habelə siyasi, iqtisadi transformasiyalar və ictimai biliklərin, elmin, təhsilin və mədəniyyətin (mənəviyyatın) inkişafı arasında ayrılmaz əlaqə vurğulanır.

Bizim fikrimizcə, həmin məqsədlərə nail olmaq üçün bu plan müəyyən imkanlar yaradır. Nəzərə alınmalıdır ki, Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin əsərləri bu prioritetlərin inkişafı üçün mühüm konseptual zəmin təşkil edir. Vurğulamaq vacibdir ki, bizdə bu prioritetlərin ön plana çıxması üçün müəyyən hazırlıq işləri görülmüşdür. Fənlərarası tədqiqatlar fəlsəfəsinin problemlərinə həsr olunmuş toplular nəşr

edilmiş, beynəlxalq konfranslar sayəsində müəyyən təcrübə toplanmışdır. Tarix fəlsəfəsi və azərbaycançılıq ideologiyası sahəsində dərin tədqiqatlar aparmaq planları tərtib edilib. «Azərbaycançılıq ideologiyası: tarix fəlsəfəsindən bu günə və gələcəyə» kitabının layihəsi hazırdır, bu kitabda aşağıdakı məqamlar əksini tapacaqdır:

1. Müasir dövrün əsas çağırışları sırasında dünya və regionun böyük dövlətlərinin (ABŞ, Rusiya, İran, Türkiyə) mənafeyinin üstünlüyü, transmilli korporasiyaların maraqlarının təsiri, neft-qaz bazarının qeyri-sabitliyi, dövlət suverenliyinə, iqtisadiyyata və mədəniyyətə (dil, milli dəyərlər, ailə institutu və s.) mənfi təsir təhlükələri kimi də təzahür edən qloballaşma. Dağlıq Qarabağ münaqişəsi böyük dövlətlər tərəfindən Azərbaycana qarşı istifadə olunduğundan təhdid və təhlükələrdən biri kimi çıxış edir.

Bu çağırışların cavabları ümummilli liderin xəttinin mahiyyətinin açıqlanmasını, Azərbaycan Prezidentinin modernləşmə, regional və dünya siyasətində (Azərbaycan və Qafqaz, Azərbaycan və Türkiyə, Azərbaycan və Rusiya, Azərbaycan və İran) güclü dövlətin inkişafı strategiyasının dərkini, millətin ideya birliyinin əhəmiyyətini (R.Mehdiyev. «Azərbaycan: qloballaşma dövrünün tələbləri - keçmişin dərsləri, bu günün reallıqları və gələcək perspektivlər», «Azərbaycanı dəyişdirən on il», «Dünya ikili standartlar düzəni və müasir Azərbaycan»), bilik, innovasiyalar iqtisadiyyatına, informasiya texnologiyalarının prioritetinə və cəmiyyətdə kreativ təbəqələrin üstünlüyünə, demokratiyaya və milli hüquq dövlətinə keçidi nəzərdə tutur (4). Qloballaşmanın alternativinin olmadığını nəzərə alaraq, tarazlaşdırılmış siyasət yeritməklə böyük dövlətlərlə münasibətlərdə paritetə can atılmalıdır (R.Mehdiyev. «Dünya ikili standartlar düzəni və müasir Azərbaycan»), bu da milli mənafelərin müdafiəsini, məna və əhəmiyyətinin müasir anlamında milli identikliyin inkişafını, fəal diaspor siyasətini nəzərdə tutur. Öz növbəsində, bu, informasiya texnologiyalarının inkişafı, dünya informasiya məkanına qoşulma və milli dəyərlərin inkişafı arasında qarşılıqlı əlaqənin əldə olunmasını tələb edir, bu zaman milli dəyərlər arxaik, statik və qeyri-konstruktiv şəkildə yox, bu günün keçmişlə, millinin beynəlmiləl ilə dialoqu kimi dərk olunmalıdır (R.Mehdiyev. "XXI əsrdə azərbaycançılıq ideyası kreativ insanlar milləti kontekstində") (5).

2. Hər bir cəmiyyət tarixən özündə daxili birliyə qabiliyyət formalaşdırır ki, xarici çağırışlara cavab verə bilsin. Azərbaycanda müasir milli identikliklə yanaşı, tarixən digər – dini, etnik identikliklər – islamçılıq (şiə və sünni variantlarında), türkçülük və s. formalaşmışdır. Hazırda bu identikliklərin hər biri milli identikliyin tərkib hissəsidir (köklərdir) və bundan sonra da olmalıdır, lakin bu və ya digər dəyişən şəraitdə təhdidə də çevrilə bilər. Müasir şəraitdə bizim üçün əsas dəyər dövlət, onun suverenliyi, ərazi bütövlüyüdür, məhz onlar milli identikliyin digər identikliklər üzərində prioritetini, müəyyən ideal və dəyərlərin başqalarına nisbətən üstünlüyünü müəyyən edir (6) (R.Mehdiyev. «Şah İsmayıl Səfəvi: hökmdar və döyüşçünün portreti», «Zaman haqqında düşüncələr və elitanı transformasiya edərkən»).

Nəzərə alınmalıdır ki, müxtəlif tarixi dövrlərdə başqa dəyərlər prioritet təşkil etmişdir (məsələn, uzaq keçmişdə dini dəyərlər, sovet dövründə ənənələr və dil). Buna görə də fərqləri vurğulamağa deyil, ümumi məqamlara səmtləşərək identikliyin dərkində bu dəyişkənliyi fəlsəfi-tarixi cəhətdən dərk etmək vacibdir. Başqa sözlə, bu proses millətin təbii tarixi-mədəni təkamülü kimi başa düşülməlidir. Ona görə də burada birliyi qoruyub saxlamağa çalışan tarixi şəxsiyyətlərin əhəmiyyətini vurğulamaq vacibdir (R.Mehdiyevin Şah İsmayıl Səfəvi, Ümummilli Lider, indiki Azərbaycan Prezidenti və ADR liderləri haqqında əsərlər silsiləsi). Din, ənənələr, dil bizə xas olan tolerantlıq kontekstində milli dəyərlərimizin ayrılmaz tərkib hissələri kimi dərk olunacaqdır. Hal-hazırda Maarifçilik dövrü xadimlərinin həm tarixi şəxsiyyət kimi, həm də müxtəlif dövrlər və şəraitlərdə cəmiyyətə xas olan, şanlı keçmişi bu

günlə birləşdirən və gələcəyin vektorunu müəyyən edən dəyərlər olan təhsil və biliyə səy göstərmə kimi iştirakını, bilik iqtisadiyyatına, bilik cəmiyyətinə, post-sənaye cəmiyyətinə Maarifçilik fəlsəfəsi və onun idealları vasitəsilə can atmanı, Azərbaycan Prezidenti İlham Əliyevin strategiyası və onun modernləşmə xəttinin həyata keçirilməsini qüvvətləndirmək nəzərdə tutulur. (R.Mehdiyev. «İctimai və humanitar elmlər: zaman kontekstində baxış»).

3. Daha sonra Azərbaycan xarakteri və arxetipləri haqqında. Nəzərə alınmalıdır ki, milli xarakter və arxetiplər cəmiyyətin çətin tarixi şəraitdə yaşamasına, sağ qalmasına imkan yaratmışdır. Eyni zamanda, müəyyən səbəblərdən, imperiyaların tərkibində olmaqla əlaqədar onlar çox zaman ictimai şüurda mənfi konnotasiya (davamlı assosiasiyalar) yaradır. Çox zaman qloballaşma şəraitində də bu neqativizm xarici ictimai təşkilatların təbliğat fəaliyyəti nəticəsində möhkəmlənir. Ona görə də bu günün və gələcəyin çağırışlarına cavabda xarakterin əhəmiyyəti, onun cəmiyyətin mədəniyyəti və mənəviyyatında, mədəniyyət və incəsənət xadimlərinin keçmişdə və indiki zamanda nailiyyətlərini müəyyən edən yaradıcılıq enerjisinin inkişafında polu, onlara təsiri və nəzərə alınması vurğulanmalıdır.

Liderlər və xalq arasında əlaqələrin ənənəviliyi haqqında. Eyni zamanda, yanlış başa düşülən xarakter cəhətləri və arxetiplər, miflərlə qidalanan xarici və daxili təhdidlərin müəyyən edilməsi önəmlidir.

4. Və nəhayət, millətin perspektivləri və yaxın gələcəyi, kiçik və orta biznesin inkişaf etdiyi, hər bir vətəndaşın mənafeyinə yönəlmiş iqtisadiyyat, siyasi sistemin inkişafı, milli-hüquqi dövlət, demokratiya və milli vətəndaş cəmiyyəti haqqında. Burada «Azərbaycan - 2020: gələcəyə baxış» proqramının materiallarından istifadə etmək məqsədəuyğundur.

Açar sözlər: fəlsəfə, Amerika fəlsəfəsi, Avropa fəlsəfəsi, Rusiya fəlsəfəsi, fənlərarası tədqiqatlar, fənlərarası yanaşma, azərbaycançılıq ideologiyası, əxlaq, etika.

İstifadə olunmuş ədəbiyyat

1. Серл С. Новое открытие сознания. М., 1992.

2. Məmmədzadə İ. Fəlsəfə haqqında: müasir yanaşmalar, təmayüllər və perspektivlər. Bakı: Təknur, 2011.

3. Анкерсмит Ф.Р. Возвышенный исторический опыт. М.: Европа , 2007.

4. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri – keçmişin dərsləri, bugünün reallıqları və gələcək perspektivlər. Bakı, 2004; Azərbaycanı dəyişdirən on il. Bakı, 2013.

5. Mehdiyev R. XXI əsrdə azərbaycançılıq ideyası kreativ insanlar milləti kontekstində. Bakı, 2012.

6. Mehdiyev R. Şah İsmayıl Şəfəvi: hökmdar və döyüşçünün portreti. Bakı, 2015.

Ильхам МАМЕДЗАДЕ

ОБ ОСНОВНЫХ ПРИОРИТЕТАХ АЗЕРБАЙДЖАНСКОЙ ФИЛОСОФИИ В КОНТЕКСТЕ СОВРЕМЕННОЙ МИРОВОЙ ФИЛОСОФИИ

Резюме

Прежде чем остановиться на основных приоритетах современной азербайджанской философии, отметим, что в современной западной философии нет одного преобладающего направления, школы, доминирует плюрализм направлений и течений. Однако есть вопросы, интерес к которым вызывает стремление у философов подискутировать, выразить свое сомнение, обосновать и доказать свои выводы: во-первых, что есть философская истина, отличается ли она от истин научных и чем она необходима для науки; во-вторых, могут ли быть этичными политика, международные отношения и насколько можно использовать политику в морали, в ценностной системе и т.д. и, в-третьих, может ли история философии быть строгой, доказательной. С этим вопросом связан так или иначе вопрос о взаимоотношениях между национальной философией и универсальной.

Отметим различия между американской аналитической, европейской континентальной и российской философиями. Американская аналитическая философия – это прежде всего логико-лингвистический анализ вышеотмеченных вопросов. Логика, философия языка – это путь к поиску истины. Для европейской философии актуально осмысление или понимание того, что есть постмодернизм, а также анализ мультикультурализма, проблем диалога культур, коммуникаций. Научность здесь зачастую достигается с помощью мультидисциплинарных исследований. Таким образом, для общественных наук философия оказывается наукой, способной соединить данные различных наук. Российская философия пытается сочетать элементы аналитической и европейской философии. Подчеркивается, что наряду с философией языка, следует развивать философию сознания, культуры и опыта. К примеру, аналитическая философия не интересуется историей философии, а российская уделяет значительное внимание и универсальной, западной философии и философиям различных народов мира. В последнее время в ней значительное место отводится вопросам философии науки, проблемам истины. Необходимо подчеркнуть, что среди американских философов есть серьезные европейски ориентированные философы (Т.Рокмор).

Эти замечания позволяют нам сформулировать основные приоритеты нашей современной философии: во-первых, это мультидисциплинарные исследования, которые придадут доказательность не только философии, истории философии, но и в целом общественным наукам. Кроме того, они позволят консолидировать, сделав их доказательными и обоснованными в самой философии; во-вторых, необходим особый упор на развитие национальной философии истории и осмысление ее связей с историей философии; в-третьих, следует направить усилия на исследования в сфере идеологии азербайджанства, ее мультикультуральных оснований, нравственного и гражданского воспитания, философии просветительства и т.д.

Ключевые слова: американская философия, европейская философия, русская философия, междисциплинарные исследования, междисциплинарный подход, идеология азербайджанства, мораль, этика.

Ilham MAMEDZADE

ON THE BASIC PRIORITIES OF THE AZERBAIJANI PHILOSOPHY IN THE CONTEXT OF THE MODERN WORLD PHILOSOPHY

Summary

To dwell on basic priorities of the modern Azerbaijani philosophy, we‘ll note first in the modern Western philosophy no one prevalent trend, school exist, there pluralism of directions and tendencies dominate. However, there are issues which arouse interest of philosophers to discuss, to express their doubts, to substantiate own conclusions: first, on that what is philosophical truth, does it differ from scientific truths and by what it is necessary for science; secondly, can politics, internation relations be ethical, and how much politics may be used in moral, in values system and so on; thirdly, can the history of philosophy be strict, provable. In any case, the question on interrelations between the national philosophy and universal one is linked with this question.

Let’s note the differences between American analytical, European continental and Russian philosophies. The American analytical philosophy is, first of all, logical and linguistic analysis of above mentioned questions. Logic, philosophy of language is a way to search of truth. For European philosophy an actual is comprehension or understanding of what is postmodernism, as well the analysis of multiculturalism, problems of dialog of cultures, communications. The scientific character is often achieved there by means of multidisciplinary studies.

Thus, for social sciences philosophy turns to be a science able to unite the data of different sciences. The Russian philosophy tries to combine the elements of the analytical and European philosophy. It is, emphasized that alongside with the philosophy of language that the philosophy of language philosophy of cognition, culture and experience should be developed. For istance, analytical philosophy has no interest in history of philosophy, and Russian philosophy pays a considerable attention also to universal, Western philosophy and philosophies of different peoples of the world. In recent time the questions of philosophy of science, problems of truth take abso a great place there. It is necessary to underline that among American philosophers there are serious ones oriented toward Europe (T.Rockmore).

These observations permit us to formulate the basic priorities of our modern philosophy: first, these are multidisciplinary researches which will attach proveness to philosophy not only, history of philosophy, but also to social sciences, on the whole. In addition, they will allow to consolidate making them conclusive and substantiated in philosophy itself, secondly, it is necessary to lay a special emphasis on development of national philosophy of history and comprehension of its links with history of philosophy; thirdly, an effort should be directed at researches in the sphere of ideology of Azerbaijanism, its multicultural foundations, moral and civic education, philosophy of enlightenment, etc.

Keywords: American philosophy, European philosophy, Russian philosophy, interdisciplinary studies, interdisciplinary approach, ideology of Azerbaijanism, moral, ethics.

UOT 316

Əbülhəsən ABBASOV
«Dünya professorları sülh uğrunda» Beynəlxalq təşkilatının üzvü, fəlsəfə ü.e.d., professor, baş e.i., AMEA FHİ

DÜNYA PROBLEMLƏRİ VƏ FƏLSƏFƏ*

1986-cı ildə Türkiyənin fəlsəfə cəmiyyəti tərəfindən təşkil olunmuş beynəlxalq seminar belə bir aktual mövzuya həsr edilmişdir: "Fəlsəfə dünya problemləri qarşısında". 17 il sonra, 2003-cü ilin avqustunda, fəlsəfə üzrə keçirilmiş XXI Ümumdünya Konqresi də eyni mövzu ilə bilavasitə bağlı olmuşdur. Hər iki hadisəni və bu arada həyata keçirilmiş digər tədbirləri vaxtilə (1982-ci ildə) YUNESKO-nun 1982-1989-cu illər üçün hazırladığı "Orta müddətli plan"ında vurğulanan vəzifələrin reallaşması istiqamətində təsirli addım kimi qiymətləndirmək olar. Elə həmin "Plan"ın ortaya çıxması ilə əlaqədar beynəlxalq elmi və siyasi disskusiyalara «dünya problemləri» ifadəsi gətirilmişdir. Ciddi fəlsəfi refleksiyaya duyulan zərurət də bu «Plan»da öz əksini tapmışdır. Lakin, əfsuslar olsun ki, 1982-ci ildən keçən müddət ərzində nə dünya problemləri azalmış, yaxud da həllini tapmış, nə də fəlsəfə ümumbəşəri problemlərin çözülməsində, ölkələrin və xalqların taleyinin müəyyənləşməsində təsirli söz sahibinə çevrilmişdir. Əksinə, bir tərəfdən dünya problemləri daha da mürəkkəbləşmiş, çoxalmış və kəskinləşmiş, digər tərəfdən isə «müdriklik elmi» sayılan fəlsəfə, günbəgün küncə sıxışdırılaraq, dar intellektual dairənin "özləri üçün" təfəkkür üsuluna çevrilmişdir. İndiki halda "nə üçün belə olmuşdur?" sualını lüzumsuz bilirəm. Sadəcə olaraq, onu deyim ki, fəlsəfə və, xüsusən, filosof üçün belə vəziyyət heç də yeni deyildir.

Məsələ heç onda da deyildir ki, filosofu ətrafı anlamayıb, ideyalarına laqeyd münasibət göstərilib və nəticədə o, faktiki olaraq, tənha qalıb. Əsl faciə ondadır ki, uzun müddət mütəfəkkir fikrinə, müdrik sözə kar-kor qalan insanlar, böyük sosial qruplar, ölkə və xalqlar, bir qayda olaraq, tənəzzülə doğru «irəliləyiblər», rasional, sağlam və həqiqi olandan qaçaraq irrasional, xəstə və yalan olandan yapışıblar. Fəlsəfənin və filosofun proseslərin gedişinə pozitiv təkan və istiqamət vermək imkanı məqsədyönlü və ya qeyri-iradi surətdə alınıb ki, nəticədə bu, hətta bəşəri fəlakətlə yekunlaşıb. Xatırladım ki, keçən əsrin 30-cu illərində Hitler nasional-sosializmi, ümumiyyətlə, «fəlsəfənin sonu»nu elan etmişdir, çünki bu doktrinanın müstəqil fəlsəfi fikri həzm etməyə qabiliyyəti yox idi.

Müasir dünya artıq elə bir "nöqtəyə" çatıb ki, nəinki professional filosoflar, zəmanəmizin tanınmış fikir sahibləri, həmçinin bir çox içtimai-siyasi xadimlər, dövlət başçıları cərəyan edən proseslərə fəlsəfənin bilavasitə müdaxiləsini olduqca zəruri hesab edirlər. "Fəlsəfə işə qarışmalıdır!" fikri son illər xüsusilə tez-tez səslənir. Bu gün dünyada yaranmış vəziyyətin düzgün anlanılması və şərhi fəlsəfəsiz mümkün deyil. Tarixi və sosial zamanın olduqca sürətləndiyi, ziddiyyətlər, dramatizmlər silsiləsinin şiddətləndiyi bir dövrdə fəlsəfi refleksiyaya güc vermədən, fəlsəfənin kateqorial-instrumental potensialından səmərəli istifadə etmədən dünya problemlərini təhlil müstəvisinə cıxarmağın özü səhvdir, daha dəqiq desək - ziyanlıdır. Bəşəriyyətin bugünü və gələcəyi problemi siyasətçilərin, hərbçilərin, transmilli korporasiya və şirkətlərin, maliyyə mərkəzlərinin inhisarından çıxmalı, mahiyyətlərə daha dərindən nüfuz edə bilən, hadisələrə obyektiv, tərəfsiz, daha əhatəli və humanistik mövqedən yanaşan subyektlərə-aktorlara yer verilməlidir.

* Məqalə fəlsəfə ü.e.d., professor Əli Abasov tərəfindən çapa məsləhət görülüb.

Qeyd edim ki, analoji fikirlər XXII Dünya Fəlsəfə Konqresində (30 iyul-5 avqust 2008-ci il, Seul, Koreya) də səslənmişdir. «Bu gün fəlsəfəni yenidən düşünərkən» adı altında keçirilmiş Seul Konqresi, bütün mövzu rəngarəngliyinə baxmayaraq, bir daha dünya problemlərinin həllində fəlsəfənin rolunu önə çəkmişdir. Hələ tədbirin açılışında Konqresin Prezidenti Peter Kemp iştirakçılara müraciətində demişdir: "Axı, fəlsəfə həm də sağlam zəkanın yolgöstərənidir. Və o, yalnız bu şərtlə yaşaya bilər ki, bizim zamanımızda bəşəriyyətin məhz nələr üzərində diqqətini cəmləməli olduğu rasional disskusiyalarını yeniləşdirməyi bacarsın. Deməli, bu gün fəlsəfəni yenidən düşünmək - bəşəriyyətin mövcud durumuna münasibətdə bizim fəlsəfi idrak qabiliyyətimizi yenidən sınağa çəkmək deməkdir" (15, s.147). Onun fikrincə, fəlsəfə sülh və rifahı təminatlandıran dünya düzənini yaratmaq üçün bizim səylərimizi ruhlandıran qüdrətli **Söz** kimi fəaliyyət göstərə bilər.

Bəs, konkret olaraq, fəlsəfənin bəşəri problemlərin həllində rolu nədən ibarət olmalı, yaxud ibarətdir?

Bu rolların əsas bir qrupu konseptual məsələlərlə bağlıdır ki, burada da, ilk növbədə, "**dünya problemləri**" anlayışına aydınlıq gətirmək lazımdır. Tanınmış filosof, Beynəlxalq Fəlsəfə Cəmiyyətləri Federasiyasının prezidenti, İ.Kuçuradi bura iki növ problemləri aid edir. "Bunlardan biri müəyyən *faktlarla* bağlıdır - bu gün bəşəriyyətin bir tam kimi çatdığı sivilizasion səviyyəyə baxmayaraq, həmin bu bəşəriyyətin əhəmiyyətli hissəsinin mövcud olduğu *dalanların* müxtəlif aspektlərilə: aclıq, müalicə oluna biləcək xəstəliklərdən ölüm faizinin yüksəkliyi, savadsızlıq, əsas hüquqların müdafiəsi sahəsində ayrı-ayrı insanlar və qruplar arasında kəskin fərqlər, işgəncələr və s." (7, s. 6). İkinci tip «dünya problemləri»nə İ. Kuçuradi həmin bu faktlarla bağlı ortaya çıxan gümanları, yaxud "dalanlar"dan gözlənilən çıxış yollarını aid edir. Bu kateqoriyaya, onun fikrincə, inkişaf, sülh, insan hyquqları, demokratikləşmə kimi problemlər daxildir.

Daha sonra İ.Kuçuradi göstərir ki, bu iki tip bəşəri problemlərin tədqiqi müxtəlif növ idraki fəaliyyət tələb edir: məsələn, faktlar səciyyəsi daşıyan problemləri *izah* etmək lazımdır, nəzərdə tutulan həlli yollarını isə - *əsaslandırmaq.* İzah etmək və əsaslandırmaq - epistemoloji fəaliyyətin iki müxtəlif növüdür. Alimin fikrincə, faktın düzğün diaqnozunu qoymaq fəlsəfənin ümdə vəzifələrindən biridir. Nəhayət, İ.Kuçuradi "dünya problemləri" məfhumuna belə tərif verir: "Dünya problemləri - ayrı-ayrı ölkələrdə və bütövlükdə dünyada sosial, iqtisadi, siyasi münasibətlərin necə qurulmasından asılı olaraq yaranan hadisələrin spesifik çarpazlaşmasından törəyən faktlardır" (7). İ.Kuçuradinin baxışları ilə ümumən razılaşsam da, fəlsəfənin konseptual məsələlərlə bağlı roluna dair bir sıra ciddi əlavələr etmək istərdim.

Konseptuallıqdan söhbət gedirsə, ilk növbədə, **hissədən** (faktdan) yox, **tam**dan (faktlar sisteminin özündən, bu sistemin məğzindən, ontoloji məzmun-mahiyyətindən və buna müvafiq qnoseologiyadan, habelə, aksiologiyadan) danışılmalıdır. Əfsuslar olsun ki, hörmətli filosof məsələyə belə yanaşmır, həqiqətən də müasir dünya problemlərinin **substansiyasını** təşkil edən mövzuya, demək olar ki, toxunmur.

Faktlar ümumi bir tamın (substansiyanın) təzahürləridir, tamın öz-özünə münasibətinin və özündən kənara (tam - ətraf mühit) proyeksiyasının nəticəsi olaraq ortaya çıxan "məhsuldur". Onlar, filosofun dediyi kimi, bəşəriyyətin böyük bir hissəsinin gəlib düşdüyü dalanların müxtəlif aspektləri, lapdan yaranan "özündə şeylər" deyil. O ki qaldı "dalanlara", heç bir dərindən düşünən adam bunların yalnız bəşəriyyətin bir hissəsinə (filosof, yazısından göründüyü kimi, bura yoxsul, əzilən, günahsız qırılan və digər bu qəbildən olan insan qruplarını, xalqları və reqionları aid edir) şamil edilməsinə razı olmaz, çünki, necə deyərlər, varlının da öz dərdi var!. "Dalanlar" ifadəsini işlətmək olar, bəlkə də - zəruridir, ancaq onlar hər bir insanın, hər bir sosial, siyasi, dini, etno-mədəni və s. qrupun, bütöv dünyanın

tərkibində olan xalqların və ölkələrin qismətidir. Heç bir şəxs, sosial qrup, sinif, xalq və ölkə bu məsələdə imtiyazlı deyil və hansısa sirrli qüvvə tərəfindən sığortalanmayıb.

Diğər tərəfdən: bəli, aclıq, səfalət, hüquqların pozulması, tibbi yardımsızlıqdan çoxlu ölüm halları (faktlar) var və bu gün onlar olduqca diqqəti çəkən, ürək ağrıdan, həllinə insanları, dövlətləri səsləyən problemlərdir. Dünya da onlara həssas olmalı, həllinə çalışmalıdır. Lakin bu problemlər müasir dünyanın bilavasitə səciyyəvi problemləri deyil. Belə ki, onlar yüz il, üç yüz il və min il bundan qabaq da mövcud olub. Heç kim elə bir tarixi dövr göstərə bilməz ki, həmin zaman kəsiyində tam firavanlıq təmin edilsin, aclıqdan, soyuqdan, müalicəsizlikdən ölən olmasın. İkinci bir tərəfdən, bu problemləri təkrar-təkrar sadalamağın fəlsəfi refleksiyanın konseptual müstəvidə rolunun həyata keçirilməsinə nə dəxli var? Əslinə qalsa, burada fəlsəfəlik də bir şey yoxdur, xüsusən də hansısa anlaşılmayan, mücərrəd «konseptuallıq» yüksəkliyindən yerə enmək istəməyən fəlsəfəçilik üçün.

Dünya dərdi, həqiqətən, insan dərdidir və bu dərd yalnız bir parça çörəyin olub-olmamasından ibarət deyil. Azmı vaxtlar, günlər olub ki, adamlar bir qara çörək parçasını bölüşdürüb, ancaq xoşbəxt olublar, süfrə arxasından sevgi-məhəbbətlə durublar, insanlıqlarını itirməyiblər? Yox, məsələ yalnız və mütləq olaraq maddi təminat çətinliklərində, fizioloji məqamlarda deyil. **Problematiklik ifrat dərəcədə maddiləşmiş və sürətlə maddiləşməkdə davam edən sivilizasiyanın həm lokal, həm də qlobal miqyasda ruha, ideal olana, müqəddəs sayılana divan tutmasında, sırf maddiyyat prizmasından, kapital amili müstəvisində insanları sayıb-seçməsində, çeşidləməsindədir**.

Nəzərə alsaq ki, sivilizasiyalaşmaq müəyyən mənada və xeyli dərəcədə mədəniyyətləşmədir, onda məntiqi olaraq deyə bilərik: müasir dünyada **maddiləşmiş və maddiləşməkdə** davam edən qlobal «mədəniyyətləşmə» həyata keçirilir. Mən vaxtilə bu «mədəniyyət»i "monstr-mədəniyyət" adlandırmışdım. İndi isə, düzü, fikirləşirəm: tamamilə asosial, antiinsani mahiyyət daşıyan, məqsədyönlü surətdə günbəgün içtimai və fərdi şuurda entropiyanı (nizamsızlığı, destrukiyanı, çürüməni) artıran, hiss və zövqləri qəbahətlər istiqamətində formalaşdıran bir dəhşətli fenomen-prosesin adında, ümumiyyətlə, "mədəniyyət" sözünü işlətmək nə qədər düzgündür? Elə, bəlkə, "**monstr-mədəniyyətsizlik"** ifadəsi daha uyğun gəlir.

Müasir dünyanın səciyyəvi, ən təsiredici problem-faktından söhbət gedirsə, ilk növbədə, məhz "monstr-mədəniyyətsizlik" problemini və onun kökündə dayanan əsas səbəbləri qeyd edərdim. Ən başlıca səbəb isə, fikrimcə, ifrat dərəcəsinə çatmış, məqsədli surətdə təşviq və təbliğ olunan "**kapital-gəlir ideologiyası**"dır. Bu ideologiya artıq dünya xalqlarını öz təsiri altına almış, insanların düşüncə və həyat tərzinə hakim kəsilmiş və dayanmadan insanlar, xalqlar, ölkələr üzərində öz nəzarətini həyata keçirməkdədir. Nəzarətin və məqsədli total idarəetmənin həyata keçirilməsində əsas rol kütləvi informasiya vasitələrinə, xüsusən də TV-lərə və internetə ayrılıb. Fəlsəfi-konseptual mövqedən yanaşsaq, belə sual yaranır: söhbət, əslində, nədən gedir, hansı qlobal problem və yaxud səbəblər dünyanı cəhənnəmə doğru aparmaqdadır?

Bütün tarixi keşməkeşlərə, qanlı müharibə və inqilablara baxmayaraq, indiyə qədər bəşəriyyətin hərəkət dinamikası bir aparıcı və ümdə «proqram»ın reallaşdırılmasına xidmət edib: ibtidaidən - aliyə doğru, primitiv düşüncədən - yüksək elmi idraka doğru. Məqsəd düşünən və bu düşüncə qabiliyyətini artıran, yüksək zövqə və zəkaya sahib varlıqların formalaşması olub. İnsan məhz bu proqram-məqsədin, əsrlərlə davam edən təkamülün nəticəsi, məhsuludur. Müasir dünyada isə nə baş verir? **O baş verir ki, insanı ali səviyyədən bəsit duyğular və instinktlər səviyyəsinə endirmək cəhdi reallaşdırılır**. Bir növ indiyə qədər gedilən yolu bəşəriyyətə tərsinə oxutmaq (özü də - zorən, məkr və inadkarlıqla!) istəyirlər.

"Soyuq müharibə" qurtarsa da, dünyanın mütərəqqi inkişafının təminatçısı ola biləcək yeni «davranış kodeksi» ortaya qoyulmur. Əksinə, beynəlxalq münasibətləri indiyə qədər az-çox tənzimləyən norma və prinsiplər də kobutcasına pozulur. Bu mənada xüsusi narahatçılıq doğuran problemlərdən biri **suverenlik** məsələsidir. Hal-hazırda suverenliyin həm fəlsəfi-siyasi anlamında və onun beynəlxalq hüqüq səviyyəsində şərhində, həm də dövlətlərarası əlaqələr sistemində etibarlı təminat əldə edərək praktiki reallaşmasında kəskin problem və ziddiyyətlər özünü göstərməkdədir.

Suverenlik ideyası bir prinsip kimi öz ilk təsbitini 367 il bundan əvvvəl, 24 oktyabr 1648-ci ildə, Vestfal sülh müqaviləsinin bağlanması ilə tapmışdır. Həmin saziş mövcud beynəlxalq münasibətlər sisteminin başlanğıcını qoymuşdur. O vaxtdan keçən müddətdə, bütün keşməkeşlərə baxmayaraq, suverenlik prinsipi yenilməz qalmışdır. Bu mənada ki, heç bir dövlət və ya ölkə başçısı bu prinsipi, özlülyndə bir ideya kimi, dövlətlərarası münasibətlərin etiraf olunmuş norması kimi şübhə altına almamışdır. Əksinə, suverenlik prinsipi beynəlxalq münasibətlər sisteminin dünyagörüşü əsaslarının mühüm tərkib hissəsi kimi təqdir edilmişdir. Lakin, bununla belə, əməli hərəkətlər, praktiki davranışlar səviyyəsində suverenlik prinsipinə dəfələrlə qəsdlər edilmiş, onun təminat qazanmasında və həyata keçirilməsində ayrı-seçkiliyə, ikili standartlara, açıq-aşkar laqeydliyə yol verilmişdir. Sözdə, nəzəri müstəvidə təqdir olunan əməli fəaliyyətdə pozulmuşdur, bəzən də çox qəddarcasına. Son illərdə ideya və reallıqlar arasında baş verən ziddiyyətlər, barışmazlıqlar nəinki azalmış, əksinə, daha da artmış və şiddətlənmişdir.

Rus alimi Vladislav İnozemtsev "XXI əsr dünya nizamı haqqında bir neçə hipotez" əsərinin "Suverenitet, demokratiya, insan haqları: uzlaşmayan üçluk" adlı birinci hissəsində mövcud beynəlxalq əlaqələr sisteminin dərin böhranını qeyd edərək, suverenlik prinsipinin yenidən baxılması zərurətini göstərir. Problemin xüsusi araşdırmaya ehtiyaclı olması fikrini tam dəstəkləyərək, bildirmək istərdim ki, onun əsaslandırmağa çalışdığı bir çox mülahizələrlə razılaşmaq qeyri-mümkündür. O, başlanğıcdan səhv müddəalardan çıxış edərək, ümumən qəbul edilməz, olduqca ziyanlı fikirlər irəli sürür. V.İnozemtsevin qənaətinə görə, "əgər beynəlxalq ictimaiyyət insan haqlarının müdafiəsini özünün məqsədi kimi etiraf edirsə, suverenlik prinsipini öz gücünü itirmiş elan etmək lazımdır", yox "əgər beynəlxalq ictimaiyyət suverenlik prinsipini qəbul edirsə, yalnız kollektiv təhlükəsizlik haqqında sazişin bağlanılması zəruridir" (6, s. 5).

O, inadkarlıqla vurğulayır ki, suverinitet hec də demokratiyanın, insan hüquq və azadlıqlarının təmin olunmasını nəzərdə tutmur, yəni, bu üçlük bir-birilə uzlaşmır. Saxta arqumentlərə söykənərək formulə etdiyi psevdomövqelərin qarşılıqlı dolaşıqlarında itib-batan V.İnozemtsev nəticədə belə bir fikir söyləməyə məcbur olur: "Təəssüflər olsun ki, yeni dünya nizamının yaranması üçün nə birinci, nə də ikinci yanaşmanın reallaşdırılması sualına cavab vermək mümkün deyil" (6, s. 6). Bu, bir tərəfdən, alimin öz təfəkkürünün məhsulu olan psevdosuallar qarşısında acizliyinin üstüörtülü etirafıdırsa, digər tərəfdən, həm də Rusiya ziyalılarının konkret nümayəndəsinin reaksion ab-havaya tutulmasının, imperiyapərəstliklə zəhərlənməsinin sübutudur. Heç də təəccüblü deyil ki, V.İnozemtsev suverenlik hüququnun bütün ölkə və xalqlara şamil edilməsində müasir beynəlxalq münasibətlər sisteminin ən başlıca qəbahətini görür. Onun açıqca söylədiyi fikir bundan ibarətdir: dünya xaosa yuvarlanır, burada isə əsas günahkarlar o kəslərdir ki, bütün ölkələri beynəlxalq ictimayyətin suveren üzvü kimi tanımışlar və hər bir xalqın özünəlayiq hökumət (siyasi hakimiyyət) təşkil etməsini alqışlamışlar (6, s.7). İnozemtsevin bu fikrinin məntiqi davamı, konkret olaraq, o deməkdir ki, Rusiya kimi «suverenlik hüququna layiq olanlar», yəni, tarixən imtiyazlılar, indən sonra da, suverenliyə aparan qapıları bağlamalı, başqa dövlətlərin işinə qarışmalı, hətta siyasi hakimiyyətlərini seçib-müəyyənləşdirməlidir. Bu barədə hələ 2004-cü ildə "Dünya

problemləri, fəlsəfə və beynəlxalq hüquq" başlıqlı bir məqaləmdə fikirlərimi bildirmişdim (9, s. 12).

Vəziyyət indi o həddə çatıbdır ki, dünya ekspertləri, hərbçi və siyasətçiləri Rusiyanın atom silahından istifadə etmək niyyətinin olmasından danışır və ehtiyatlanırlar. Məsələn, 7 noyabr 2015-ci il tarixində "Virtualaz.org" saytında "Pentaqon: Rusiya nüvə silahı tətbiq etməyə hazırlaşır" (16) başlıqlı məqalə verilib. Saytın yazdığına əsasən, ABŞ Müdafiə Nazirliyinin sabiq yüksək vəzifəli əməkdaşı, müdafiə nazirinin müşaviri Evelin Farkas hərbi mövzuda ixtisaslaşmış amerikalı jurnalistlərlə işgüzar nahar zamanı çıxışında deyib ki, Putin nüvə silahından istifadəni ciddi nəzərdən keçirir.

Məqalədə o da bildirilir ki, ABŞ Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin sədri, general Mark Milley də Rusiyanın nüvə silahından istifadə riskinin yüksək olduğunu deyib. Generalın fikrincə, Rusiya hazırda ABŞ-ı məhv edə biləcək nüvə potensialına sahib yeganə ölkədir. Mark Milley Rusiyanın siyasətinin "aqressiv" olduğunu və Birləşmiş Ştatların maraqlarını təhdid etdiyini söyləyib. General xəbərdarlıq edib ki, Rusiya prezidenti Vladimir Putinin bu yaxınlarda etdiyi hərəkətlər Moskvanın nüvə silahını tətbiq etməyə hazır olduğunu göstərir.

ABŞ rəsmiləri və ekspertlərinin ehtiyatlanmaları ilə razılaşmaq məcburiyyətindəyik. Bunu gedişatın dinamikası diktə edir, ancaq o da danılmaz həqiqətdir ki, proseslərin belə təhlükəli məcrada cərəyan etməsində və qlobal durumun fəlakətli xarakter almasında məhz ABŞ-ın rolu, bəlkə də, həlledici olmuşdur. Son onilliklər ərzində bu ölkənin «xarici siyasət neoliberalizmi» heç də ürək açan deyildir. Əlamətdardır ki, hələ XXI əsrin əvvəllərində C.Soros öz kitablarında ABŞ-ın siyasətini, prezident C.Buşun özünü ciddi tənqid atəşinə tutmuşdur. O, "Amerikan üstünlüyünün sabun köpüyü" adlı əsərində yazırdı: "Yer üzərində ən güclü ölkədə hakimiyyət sosial darvinizmin ən vəhşi formasını rəhbər tutan ekstremistlərin əlindədir: həyat mövcudluq uğrunda mübarizədir və biz sağlam qalmaq üçün əsasən gücə arxalanmalıyıq. Buş administrasiyasının rəhbər tutduğu azadlıq və demokratiya konsepsiyası ilə azadlıq və demokratiyanın real prinsipləri arasında ziddiyyətlər var. Prezident Buş deyəndə ki, o isə kifayət qədər tez-tez deyir, azadlıq qələbə çalasaq, həqiqətdə Birləmiş Ştatların qələbəsini nəzərdə tutur… Prezident Buş azadlıq və «amerikan dəyərləri» arasında bərabərlik işarəsi qoyur. Nəyin yaxşı, nəyin pis olması barədə onun bəsit baxışı vardır. İraqa hücum Buş doktrinasının ilk praktiki istifadəsi oldu" (5, s. 6).

ABŞ-ın xarici siyasəti, xüsusən, oğul-prezident Corc Buş zamanından bir çox istiqamətlərdən və bir çoxları tərəfindən tənqid edilirdi. Onu birbaşa terrorist ölkə olmaqda da suçlayanlar az deyildir. Məsələn, tanınmış yazıçı-publisistlər Z.Sardar, M.V.Devis "Nə üçün insanlar Amerikaya nifrət edirlər?" əsərində yazırdılar: "Dünyanın əksər hissəsi, haqlı olaraq, ABŞ-ın simasında terrorist ölkə görür" (9, s. 31). Analoji fikirlərlə politoloq C.Stiqlits çıxış edirdi (10). Şübhəsiz ki, Amerikaya yönəlmiş "terrogen nifrətin" (8, s. 84) real səbəbləri vardır. Başlıca səbəblərdən biri isə, artıq qeyd etdiyim kimi, müasir beynəlxalq münasibətlər sistemində suverenlik prinsipinin etirafı və ödənilməsi problemi ilə bağlıdır. Daha geniş konseptual kontekstdən yanaşsaq, başlıca səbəb dünyanın ümumbəşəri ədalətə, rasional tələblərə cavab verən **yeni "davranış kodeksi"nə** ehtiyaclığı məsələsi ilə əlaqədardır.

Müasir dünya yeni "davranış kodeksi"nə ehtiyaclıdırsa, deməli, ilk növbədə beynəlxalq əlaqə və münasibətləri tənzimləyən **beynəlxalq hüququn** özünə yenidən baxılmalıdır. Həm bütövlükdə, həm də müxtəlif kontkestlərdə, səviyyə və aspektlərdə, o cümlədən, suverenlik prinsipi kontekstində. Aydındır ki, belə ümdə, taleyüklü və köklü problemin həlli üçün müvafiq fəlsəfi baza, epistemoloji sistem gərəkdir. Düşünürəm ki, bu missiya üçün mürəkkəblik fəlsəfəsinə əsaslanan və tənqidi-sinergetik təfəkkür konsepsiyasından qaynaqlanan postneoklassik epistemologiya daha məqbul və yetərlidir.

Görkəmli filosof Yurgen Habermas "Beynəlxalq hüququn keçmişi və gələcəyi barədə mübahisə. Milli konteksdən postmilli kontekstə keçid" əsərində yazır: "Problem artıq onda deyil ki, millətlərarası münasibətlərdə ədalət ümumiyyətlə mümkündürmü, ondadır ki, belə ədaləti həyata keçirmək üçün hüquq yararlı vasitədirmi? Liberal və qlobal müdaxiləyə malik böyük dövlət *beynəlxalq hüququn* prosedurlarını öz *əxlaqi arqumentləri* ilə əvəzlədiyi bir zamanda beynəlxalq hüquq hələ də hansısa rol oynayırmı?" (13, s.12).

Y.Habermas yaranmış situasiyadan çıxış yolunu beynəlxalq münasibətlərin kosmopolit hüquq istiqamətində konstitusionallaşmasında görür, beynəlxalq siyasətdə milli kontekstdən postmilli kontekstə keçidin artıq özünü bildirən və bir zərurət kimi gələcəkdə tam reallaşmaya qadir proses olduğunu əsaslandırmağa çalışır. Bu mövqedən çıxış edən alim İmmanuil Kantın konstitusionallaşma proyektinin, kosmopolitik ideya üzərində qurulsa da belə, məhdudluğunu, qeyri-reallığını (sosial zamanın cərəyanı, bəşər tarixinin inkişafı baxımından) qeyd edir. İ.Kant, Y.Habermasın fikrincə, "öz dövrünün uşağı kimi" üç mühüm faktoru görə bilməmişdir:

1) Yeni tarixi şüurun yüksəlişinə və mədəni fərqlərin anlaşılmasının artmasına hissiyatsız qalan Kant, XIX və XX əsrlərin millətçilik potensialının kinetik duruma keçidini və partlayışını öncədən görə bilməzdi.

2) Avropa sivilizasiyasının və irqinin üstünlüyü fikri ilə buxovlanmış Kant o faktın nəticələrini nəzərə almırdı ki, beynəlxalq hüquq bir neçə imtiyazlı xristian millətlərinin ölçüsü üzrə "biçilib-tikilmişdir" - bütün yerdə qalan dünya kolonizasiya və missionerlik üçün açıq qaldığı halda, yalnız bunlar bir-birilərinə bərabər tərəf kimi baxırdılar.

3) Kant, həmçinin, beynəlxalq hüququn ümumi xristian mədəniyyətinin hüquqdan kənar fonunda asılılığını anlaya bilməmişdir; bunun hesabına, heç olmasa, zorakılığı hökumətlərarası məhdud müharibələr çərçivəsində saxlamaq mümkün olmuşdur.

Bütün bu "ləkələr", Habermasa görə, beynəlxalq hüququn kosmopolit hüququna çevrilməsi perspektivinə hesablanmış Kant proyektinin çatışmazlıqlarını göstərir ki, sonrakı dövrlərdə onlar özlərini tam aydınlığı ilə büruzə vermişlər.

Habermas problemlərlə bağlı bir səciyyəvi baxışa da – görkəmli alman hüquqşunası, filosofu, siyasət nəzəriyyəçisi Karl Şmittin (1888-1986) mövqeyinə də ciddi nəzər yetirir. Qısaca formulə etsək, K.Şmitt, ümumiyyətlə, kosmopolit hüquq ideyasının beynəlxalq münasibətlər sistemində reallaşmasını mümkün hesab etmir. Şmittin qənaətinə görə, millətlər üçün hüquq və ədalətin hər bir anlayışı həmişə mübahisəli olacaqdır, burada heç vaxt konsensus baş tutan deyil. O, bu fikrində israrlıdır ki, millətlər arasında antaqonizm daim mövcud olacaqdır. Qeyd edim ki, K.Şmittin mövqeyini daha realist sayan və bölüşdürən şəxslər, bəlkə də, çoxluq təşkil edir. Y.Habermas isə Şmittin kontrarqumentlərini ciddi hesab etsə də, onunla razılaşmaq istəmir və opponentinin yanaşmasını «siyasi ekzistensializm»in bir növü sayır.

Y.Habermasın şəxsiyyətinə, yaradıcılığına böyük hörmət bəsləməklə yanaşı, düşünürəm ki, yaranmış tarixi şəraitdə və gələcək ən azı yüzillik perspektivdə K.Şmittin mülahizələrinin özünü doğruldacağı daha inandırıcı görünür. Bir az da dəqiq deyə bilərik: **beynəlxalq hüquqda ciddi dəyişikliklərə zərurət vardır, lakin bu dəyişiklikləri millətlərin, necə deyərlər, üzərindən sıçramaqla, sivilizasion-mədəni məxsusluqları hansısa mücərrəd ümumi qazanda əritməklə, kosmopolit fəlsəfi əsas** (guya ki!) **yaratmaqla əldə etmək mümkün deyil**. Əks halda, dəyişikliklər cəhdi, sadəcə olaraq, vaxt və intellektual enerci itkisinə, proseslərin tamamilə çərçivədən çıxmasına, beynəlxalq miqyaslı xaosun qarşısıalınmaz dərəcədə tüğyan etməsinə və deməli, bəşəriyyətin məhvinə gətirib çıxara bilər. Yeni davranış kodeksinə, adekvat beynəlxalq hüquq sisteminə, qlobal siyasi arxitekturanın yaranmasına yol elə ilk növbədə milli olana hörmət və qayğıdan, xalqların millətləşməyə

güclü ehtiyacından və onların bu istiqamətdə yaşayıb-yaratmaq hüquqlarının etirafından və təminatından keçir. Xalqlar üçün nə yaradılırsa, onların kimliyi ilə hesablaşmalıdır! Yeni – postneoklassik fəlsəfənin mühüm bir tələbi də məhz bundan ibarətdir: fikirdə və əməldə daha çox gerçəkliyə yaxınlaşmaq, reallığı daha dərindən anlamaq və ona həssas yanaşmaq; təbii-tarixi varlıqlarla münasibətdə, L.Zadənin təbirincə desək, "yumşaq hesablamalar"a üstünlük vermək! Bəşəri təkəmülün cərəyanına sərgilənən baxış və əməldə hökmran mövqedən əl çəkmək! (4, s. 34-46; 2, s. 276-283).

Bəli, bugün və gələcək üçün elə bir yenidən işlənilmiş, kamil beynəlxalq hüquq sistemi lazımlır ki, dövlətlər, ölkələr, xalqlar vahid dünyada vahidləşə, daha da yaxınlaşa bilsinlər, bir-birini anlamaq qabiliyyətlərinə malik olsunlar, bir sözlə, Karl Yaspersin təbirincə desək, "**kvantitativlik**" (14, s. 142) əldə etsinlər. Bununla belə, böyük mütəfəkkir Konfutsinin irəli sürdüyü mühüm bir prinsipi - **müxtəliflik vasitəsilə vahidliyə cəhd və onu əldə etmək prinsipini** unutmamalıyıq. K.Yaspersin başqa məqsədlə istifadə etdiyi anlayışlardan yararlanaraq, deyə bilərik: xalqların **"kvantitativliyi"** naminə onların "**kvalitativliyinə**" daha həssas və qayğıkeş olmaq gərəkdir.

Hər bir xalq öz daxili strukturlaşmasına, fərqləndirici xüsusiyyətlərinə, ənənə və keçdiyi sivilizasion yola, tarixin qalın qatlarına gedən köklərə, yaddaş koduna malikdir, öz həyati qayda-qanunlarında, təfəkkür və əxlaq tərzində özünü anlayır, fəaliyyət göstərir və güc toplayır, bu səviyyədən də dünyanı özünün refleksiya, əlaqə, əməkdaşlıq, ünsiyyət obyektinə çevirir, başqa xalqlarla tərəf-müqabillik edir, ya dostluq, ya da düşmənçilik münasibətində olur və s. Etno-milli özünəməxsusluq, kimlik kimi fenomenlər, həm də, lokallaşmanı özündə ehtiva edən universal tarixin mühüm daşıyıcıları sırasına daxildir. Bütün bu şeylərin üzərindən keçərək xəyali bir fəzada (özlüyündə pozitiv element və motivlər daşısa da belə!) kosmiopolit ideyanı reallaşdırmaq olarmı? Əsla yox! Ən yaxşı halda yer üzərindəki insanlardan nəsə qatmaqarışıq bir toplum, lap aşağı şüur səviyyəsində qımıldanıb-tərpənən kor və kar kütlə yaratmaq olar ki, onun da heç beynəlxalq hüquq deyilən nəsnəyə ehtiyacı qalmaz. Pis halda isə onsuz da ayaq üstə güc-bəla ilə dayanan dünyanı «nokaut»a göndərmək olar ki, yer üzündən, A.Toynbi demişkən, Afrika piqmeyləri - neqritosları da daxil, insan nəsli silinsin. Xatırladım ki, həmin Toyinbi fəlakətin bu son nəticəsini heç də istisna etməimiş, onu tamimilə mümkün saymış və həyacan təbili çalaraq bəşəriyyətə müraciət etmişdir: "Bizə, bizim nəslə çağırış ondan ibarətdir ki, tarixin belə yozumunun baş tutmaması üçün əlimizdən gələn bütün mühüm olan şeyləri edək" (11, s. 369). Bu gün klassik məktəbin böyük tarixçisi, kulturoloqu və sosioloqunun həyacan dolu çağırışı daha da aktualdır.

A.Toynbi (1889-1975) keçmiş tarixin möhtəşəm dərki hesabına gələcəklə bağlı çox əhəmiyyətli fikirlər söyləməyə, proqnoz verməyə müvəffəq olur. Onun uzaq gələcəklə bağlı proqnozu, dini rəngdə təqdim edildiyinə baxmayaraq, kifayət qədər nikbin olsa da, XX əsrin sonuna və XXI əsrin əvvəllərinə dair öncəgörmələri xeyli dərəcədə həyacanlıdır. Mütəfəkkir əvvəlcədən bir sıra dramatiq proses və hadisələrin baş verə biləcəyini söyləmişdir, məsələn: artan qloballıq görüntüsü fonunda sivilizasiyaların bir-birilə uzlaşıb-anlaşmamasını, bir-birini təkzib etməsini, hətta bir-birilə toqquşmasını və bu durumun formalaşmasında ABŞ-ın, onun arxasınca itaətkarcasına gedən Qərbi Avropanın təhrikçi-fitnəkar rolunu. O da çox maraqlıdır ki, başlıca çatverməni A.Toynbi Qərb dünyası ilə kommunist dünyası arasında yox (o vaxtlar, proqnozun verildiyi 1947-ci ildə, SSRİ-in və sosialist-kommunist düşərgəsinin gələcək mövcudluğu əksəriyyət tərəfindən şübhə altına alınmırdı!), məhz Qərblə İslam dünyası arasında görürdü (12). Bu da düşündürücüdür ki, o, gələcək tarixi subyekt kimi SSRİ-dən deyil, Russiyadan danışır – ingilis tarixçisinin proqnostik qabiliyyəti burada da özünü göstərir.

A.Toynbi bir sivilizasiyanın və yaxud ayrıca bir ölkə tarixinin mütləqləşdirilməsinə qarşı xəbərdarlıq edir. Onun fikrincə, qərb sivilizasiyasının özünüdərkinə xas olan əlahiddəçilik, öz "kamilliyinə" əminlik həm bəşəriyyət üçün bir bəlaya çevrilə bilər, həm də Qərbin özünü zəiflədər və tükəndirər, çünki gələcək gedişatın istiqamətini və miqyasını qiymətləndirməkdə aciz qalar. Keçmiş tarixin obyektiv dərkinə və şərhinə qadir olan A.Toynbi, gələcək tarixlə bağlı bəşəri fəaliyyətdə daha düzgün və məqbul hesab etdiyini də obyektiv, qərəzsiz təqdim etməyi özünə borc bilir. Ümumiyyətlə, istər keçmişə və müasirliyə, istərsə də gələcəyə dair baxış və mülahizələrində o, olduqca həssas, nəzakətlidir, obyektivliyə və realistliyə, həqiqi humanistikliyə və insanpərvərliyə dəlalət edən "yumşaq hesablamalar"a üstünlük verir.

Tarixçiyə görə, **sivilizasiyanın inkişafı onun yaradıcı azlığının çağırışlara cavab tapmaq qabiliyyəti ilə müəyyənləşir**. Bu müddəa olduqca əhəmiyyətlidir. Diqqət yetirin, o, inkişafın başlıca səbəbini maddi olanda (qızılda, neftdə, torpaqda, ərazi böyüklüyündə, insanların sayında və s.) deyil, qeyri-maddi, ideal olanda (ağılda, şüurda, təfəkkür və dərketmə səviyyəsində, idraki yaradıcılıqda və bu amillərə söykənən əməkdə, fədakarlıqda) görür. İstər təbiətdən, istər cəmiyyətin ziddiyyətlərindən, istərsə də xarici mühitdən gələn çağırışlar olsun, əgər füsünkar intellektə (mənəviyyat kamilliyi bura daxildir!) malik yaradıcı azlıq varsa və o, fəaliyyətdədirsə, deməli, sivilizasiyanın yaşamaq və inkişaf etmək üçün həm potensialı, həm də bu potensialı hərəkətə gətirib, dinamik durumda saxlayan kinetikası var.

Toynbiyə görə, sivilizasiyanın yaranışı və boyvermə mərhələlərində yaradıcı azlıq çağırışlara cavab tapa bilir, onun nüfuzu artır və sivilizasiya inkişaf edir. Sivilizasiyanın sınması, daxilən parçalanması və qarşısıalınmaz entropiyaya məruz qalması mərhələlərində isə yaradıcı azlıq çağırışları cavablandırmaq qabiliyyətini itirir və **elitaya** çevrilir – o elitaya ki, cəmiyyət üzərində hökmranlıq edir və onu ağıl, nüfüz hesabına yox, zor və qorxu hesabına idarə edir. Belə durumda əhalinin böyük çoxluğu maddi və mənəvi mülkiyyətə tamamilə sahib olmayan **proletariata** çevrilir ki, ondan da elita öz şəxsi maraqları müstəvisində xarici və daxili çağırışlarla qarşıdurmada istifadə edir. Get-gedə daha çox kütləşən və kütləviləşən, lümpenləşən və aqressivləşən, qarşılıqlı nifrət, kin, həsəd və qisasçılıq alovuna tutulmuş proletariat yalnız elitanın yox, həm də özünün qəbrini qazır, bütövlükdə sivilizasiyanın, cəmiyyətin axırına çıxır (12).

"Yaradıcı azlıq" haqqında Toynbinin fikirlərini müxtəlif səviyyə və istiqamətlər üzrə davam etdirsək, çox maraqlı və düşündürücü mülahizələr, əqli nəticələr ortaya qoya bilərik. Məsələn, bizə aydın olar ki, müasir bəşəri durum üçün "yaradıcı azlıq"la elita arasında əksliklər artıq çoxtan mübarizə vəziyyətindədir və buradan doğan ziddiyyətlər xeyli dərəcədə qeyri-ənənəvi xarakterlidir.

Birincisi, bu ziddiyyətlər yalnız bir ölkə və yaxud ölkələr qrupu üçün yox, ümumən, müasir bəşəriyyət üçün səciyəvidir. Məncə, müasir dünya problemlərindən danışarkən, həmin ziddiyyətlərin yeri və önəmliliyi xüsusi vurğulanmalıdır. Elita ilə yaradıcı azlıq arasındakı ziddiyyətlər antaqonistliyi qədər də ümumbəşəri hadisədir. Siyasi idarəetmə və rejimlərin indiki formaları üçün elita və yaradıcı azlıq bir-birinə, yumşaq desək, müxalifdir və bu müxalifliyin demokratiyaya aidiyyəti yoxdur. O, demokratiyanın bolluğundan, onun norma və prinsiplərinin ödənilməsindən yox, demokratiya adı altında məhz anti-demokratiyadan, qlobal kapitalizmin supermaterialist xislətindən törəyib və boy-buxuna çatıb (3). Və bu gün var gücü ilə anti-demokratizmə və bunun davamı olaraq hər cür ictimai neqativlərə, insanın və insaniliyin tənəzzülünə yol açan episentrlər, ilk növbədə, elə qlobal kapitalizmin gecə-gündüz demokratiyadan dəm vuran aparıcı ölkələridir. Bəlkə, həm də bütün bunları görərək, A.Toynbi vaxtilə Qərb sivilizasiyasını və avropamərkəzçiliyi ciddi tənqid atəşinə tutub.

İkincisi, hakim elitalar üçün həqiqi rəqib onların özləri tərəfindən formalaşdırıb ortaya çıxartdıqları siyasi müxalifət deyil. Siyasi müxalifət mafiyalaşmış elitaların əlində idarəolunan, kütlələri aldatmaq və azdırmaq, onların beyinlərini laxlatmaq, etiraz enerjilərini tükəndirmək, iradə birliyini dağıtmaq üçün bir vasitədir. Mahiyyətçə məsələ eyni qoyuluşdadır: ortada oliqarxlaşmış elita ilə, güya, ölüm-dirim savaşı aparan siyasi müxalifət var-gəl etməli, "ədalət" və "qanun" naminə "mübarizə" aparmalıdır. Anadangəlmə özünəvurğunluğu və eqoizmi, sırtıqlığı və həyasızlığı, biliksizliyi və acgözlüyü, bir sözlə, mütləq səfehliyi, psixopatik mentallığı, yaradıcı qabiliyyət və sərişta yoxluğu ilə fərqlənən "demokratiya və ədalət uğrunda mübarizlər"lə, yeri gələndə, hər cür rəftar da etmək olar – döymək, söymək, təhqir etmək, lap bir müddətə həbs etmək və s. Lazımdırsa, haqsız və günahsız təqib olunanların "insan hüquqları" naminə ABŞ-ın Dövlət Departamentindən, ATƏTdən, Avropa Parlamentindən, Avropa Şurasından hayacan və naratlıq da bildirmək, vaveyla da salmaq olar. Əlbəttə ki, supermaterializmə qulluq edən demokratiya və liberal dəyərlər oyunu xatirinə! Bu, sadəcə oyun da, deyil! Oyun yalnız yeni demokratiyalar üçün qurulur. Oyun quranlar, ikili standartlarla yanaşanlar üçün isə real dividentlər gərəkdir – geopolitik qazanclar, neft-qaz, qızıl-almaz, ucuz fəhlə quvvəsi, satış-alver bazarı, kapital artımı, milli dövlətləri zəiflətmək, asılı etmək, xalqları içindən parçalamaq, insanları qarşılıqlı nifrət, kin-küdurət girdabına sürükləmək.

Qlobal kapitalizmin elitaları üçün həqiqi müxalif qüvvə - düşünən, yeni bilik istehsal edə bilən, analitik təfəkkürə və inteqrativ şüura malik məsuliyyətli-vicdanlı azlıqdır ki, həmin yuxarıda qeyd etdiyim quraşdırma, süni, idarəolunan siyasi "müxalifətin" də nişangahında olur. Süni müxalifətin başlıca hədəflərindən biri odur ki, qətiyyən yaradıcı azlığın formalaşıb üzə çıxmasına yol verilməsin. Bunlar üçün bu hədəf sadəcə bir sifariş deyil, mövcudluq üsuludur! Son həddə, tamamilə faş olmaq və siyasi səhnədən silinmək təhlükəsi yarandıqda, onlar yaradıcı azlığın hansısa tanınmış nümayəndəsini qətlə yetirməkdən də çəkinən deyillər.

"Beşinci kolon" deyilən nəsnə məhz bu iki kateqoriyadan təşkil edilir – hakimiyyət eşalonunda qeyri-qanuni yollarla (yəni, pul-para, qohumluq, yerliçilik, yaltaqlıq, riyakarlıq, hiylə, donosçuluq, sırtıqlıq-həyasızlıq və sair bu kimi amillər hesabına) özlərinə yer etmiş cinayətkarlardan və həm bu haram kapital sahiblərinin, həm də pay-puş müqabilində xarici siyasi dairələrin təsirində olan quraşdırma müxalifətdən, daha dəqiq desək, bu müxalifətin aparıcı şəxslərindən. Qlobal kapitalizmin nüvəsini təşkil edən qurumlar həmişə bu iki kateqoriyanın mövcudluğunda maraqlı olmuşlar və bu gün də xüsusi maraq göstərməkdədirlər.

Söz yox, hansı dövlətin təmiz, hansının isə çirkli olması, həm də, xalqın özündən, onun xarakterindən asılıdır. Bu həqiqəti artıq dəfələrlə böyük mütəfəkkirlər söyləyib və tarixin özü təsdiqləyib. Qayda-mizanı, ədaləti rəhbər tutan təmiz visdanlı hakimiyyət və "yaxşı xalq" bir-birini törədən, şərtləndirən məfhumlardı. "Yaxşı hakimiyyət" – "yaxşı xalq" varsa, deməli, fəzilətlərin artmasına və tərəqqiyə aparan yol etibarlıdır.

Müasir insanın yaşadığı çətinləklər içərisində yüksək mənəvi-psixoloji gərginliyi, insani münasibətlərdə təəssübkeşliyin və istiliyin itməsini, oriyentir rolunu oynayan bir çox ənənəvi dəyər və meyarların sarsıntıya uğramasını, həyat tərzində instrumental-maddi amillərin təsirinin artmasını və s. qeyd etməmək mümkün deyil. Bunlar, son nəticədə, ağır keçən psixotokslara, stresslərə, ruhi xəstəliklərə, müxtəlif pozğunluqlara, narkomaniya və alkoqolizmin geniş yayılmasına, cinayətlərin artmasına gətirib çıxarır, insan həyatının keyfiyyətini aşağı salmaqla, onu daha da dəyərsizləşdirir. Ümumi götürdükdə, müasir insanların əksəriyyəti gələcəyə inam hissinin yoxluğu halında yaşayırlar.

Bazar fundamentalizmi, "kapital ideologiyası" elə bir maddiləşmiş dünya və elə "iqtisadi adam" yaradır ki, hər bir fərd kiməsə rəqibə, düşmənə, yaxud da kimin üçünsə qur-

bana çevrilir. Biri o birisindən daha çox mənfəət götürmək, onu öz quluna çevirmək istəyir. Biri digərini özünə tabe etmək, sındırmaq, nəyəsə məcbur etmək, kiminsə müstəqilliyini əlindən almaq ovqatı, sanki, ümumi bir marağa çevrilir. Bunun üçün hər cür üsullar və vasitələr işə salınır: açıq-aşkar və birbaşa zorakılıqdan tutmuş üstüörtülü təzyiqlərə qədər. Faktiki yanaşdıqda, əksər insanlar maddiləşmiş dünyanın girovundadırlar, kapital diktəsi altında həm azadlıqlarını, həm də həqiqi seçimlərini itirirlər. Bütün bunlar bəşəri durumun qeyri-hümanistliyinə, tənəzzüldə olmasına dəlalət edir. Tamahkarlıq, eqoizm və başqa mənəvi-əxlaqi qəbahətlər, fəsadlar belə mühitdə daha da stimullaşır. "İqtisadi adam" ruhi fəzilətlərdən imtina edir, onun üçün maddi dəyərlər (göstəricilər), iqtisadi status (prestij) hər şeydən yüksəkdə durur.

Dünyada formalaşan absurd həyat dinamikasına uyğun olaraq, hətta elm, incəsənət və bədii ədəbiyyat sahəsi kommersiyalaşır. Belə olduqda, daha çox məzmunsuz, ideyasız, ictimai yükünə görə mənasız və hətta birbaşa ziyanlı «əsərlər», «mədəniyyət nümunələri» bolluğu bütün sərhədləri aşır, get-gedə daha çox ibtidailəşən istehlakçı tələbini ödəməyə başlayır. Heç bir sosial-fəlsəfi, elmi yükü, bədii orijinallığı olmadığı halda, onlar həqiqi yaradıcılığı, mədəniyyəti ortadan çıxardır. Mənfəətdar, bəsit təfəkkürün məhsulu olan "əsər" və "nümunə"lər yalnız bir məqsəd güdür - kommersiya maraqlarını təmin etmək, əlverişli «bazar mühiti»ni formalaşdırmaq.

Oliqarxik liberalizmin bütün dünyaya yaymaq istədiyi homogen, daxilən boş, əxlaqi-mənəvi vektoru olmayan «mədəniyyət»in istilası nəticəsində tarixi-irsi ənənələr, ictimai dəyərlər, faktiki olaraq, müdafiəsiz qalmışdır. Müasirləşmə adı altında ibtidai, bəsit stereotiplər, instinktlər aqressiyası mənəvi-ruhi həyatı fəth etməkdədir. Fikrimcə, belə vəziyyətə, yəni, milli özünüifadədən, intellektin mənəvi-əxlaqi gücündən, ruhlandırıcı enerjidən, məsuliyyət və vicdan hissindən xali «mədəniyyət»ə dözümlülük göstərmək heç də düzgün yanaşma deyil. İnsanları ruhi, mənəvi-psixoloji inkişafının sağlam əsaslarının dağılmasına, insani potensialın tükənməsinə yol verilməməlidir. Mənəvi resurslar dağıdıldıqdan sonra hansısa milli maraqların, milli mənafenin reallaşmasından söhbət gedə bilməz. Mütərəqqi modernləşmə və tərəqqi hər bir zaman və hər bir yerdə yalnız milli maraqların reallaşması, milli özünüdərkin pozitiv inkişafı və tarixi irsin, sosial dəyərlərin qorunması zəminində mümkündür. Bu vacib müddəa həm ümummilli lider Heydər Əliyevin, həm də prezident İlham Əliyevin çıxış və nitqlərində dəfələrlə vurğulanmış, önə çəkilmişdir.

Müasir dünyanın formalaşdırdığı «iqtisadi adam», mənfəətdar korporasiya və şirkətlər, transmilli mafiya şəbəkələri **təbiətin** özünə durmadan ölümcül zərbələr endirməkdədir. Təbiətə anti-rasional münasibət irrasional şüuru, düşüncəni doğurur, və əksinə, irrasional şüur epidemiyası təbiətə olan anti-rasional münasibəti daha da kəskinləşdirir. Təbiət, bütövlükdə, istifadə olunan və israfçılığa məruz qalan xalis materiyaya müncər edilir.

Belə gedişatda həqiqi fəlsəfi əqlin bəşəriyyətə təklif etdiyi səmərəli qulluq həm də ondan ibarət ola bilər ki, zəfər çalmaqda davam edən instrumental, qeyri-humanist düşüncə ifşa olunsun, tərəqqiyə can atan bəşəriyyət alverçi ruhdan təmizlənsin. Bəşəriyyət yeni davranış kodeksinə və ona təminat verən **sinergetik mahiyyətli praqmatik fəlsəfəyə** ehtiyaclıdır. Dünyanın nicatı qarşılıqlı fayda verən və humanizmin artmasına xidmət edən **qlobal sinergizmdədir.**

Açar sözlər: dünya problemləri, beynəlxalq münasibətlər, beynəlxalq hüquq, postneoklassik fəlsəfə, epistemologiya, idarəetmə.

İstifadə olunmuş ədəbiyyat

1. Abbasov Ə.F. Dünya problemləri, fəlsəfə və beynəlxalq hüquq //Dünya.Cəmiyyət. Fəlsəfə. Bakı: "Nafta-Press". 2004.

2. Abbasov Ə.F. Milli fenomenlərin dərki və şərhində adekvat epistemologiya zərurəti //Müasir fəlsəfə, elm və mədəniyyət: postqeyri-klassik epistemologiya. Bakı: "Təknur", 2011.

3. Аббасов А.Ф. Демократия: наличная и должная. Баку: «Адилоглу». 2005.

4. Аббасов А.Ф. Постнеоклассическая эпистемология: необходимость и сущность //Müasir fəlsəfə, elm və mədəniyyət: postqeyri-klassik epistemologiya. Bakı: "Təknur", 2011.

5. Журнал «Право и безопасность». 2003, № 3-4.

6. Иноземцев В.Л. несколько гипотез о мировом порядке XXI века //«Свободная мысль-XXI». 2003, №10.

7. Кучуради И. Философия перед лицом мировых проблем //«Вопросы философии». 2004, № 3.

8. Лунеев В.В. Политическая, социальная и экономическая несправедливость в мире и терроризм //«Общественные науки и современность». 2004, № 3.

9. Сардар З., Девис М.В. Почему люди ненавидят Америку? М., 2003.

10. Стиглиц Дж. Глобализация: тревожные тенденции. М., 2003.

11. Тойнби А.Дж. Цивилизация перед судом истории: Сборник /Пер. с англ. 2-у изд. М.: Айрис-пресс. 2003.

12. Тойнби А. Дж. Постижение истории. Сборник /Пер. с англ. Е.Д.Жаркова, М.Рольф. М., 2001.

13. Хабермас Ю. Спор о прошлом и будущем международного права. Переход от национального к постнациональному контексту //«Вопросы философии». 2004, №3.

14. Ясперс К. Смысл и назначение истории. Издание второе. М., 1994.

15. Kemp Peter. XXII Dünya Fəlsəfə Konqresinin iştirakçılarına müraciət //«Fəlsəfə və sosial-siyasi elmlər» jurnalı. 2008, № 4 (22).

16. http://virtualaz.org/reyler/57415.

Абульгасан АББАСОВ

МИРОВЫЕ ПРОБЛЕМЫ И ФИЛОСОФИЯ

Резюме

Под понятием «мировые проблемы» подразумевается совокупность сопряженных друг с другом проблем глобального характера. В этой совокупности особое место занимают, например, такие весьма актуальные на сегодня проблемы: формирование глобальной политической архитектуры и нового кодекса поведения в международных отношениях, пересмотр принципов традиционного геополитического реализма, выработка адекватных основ международного права. Плодотворное решение этих проблем во многом зависит от действенной роли философии. В этом смысле возлагаемая на философию миссия серьезно возрастает. Согласно атору, постнеоклассическая философия, опирающаяся на теорию сложных систем, идеи и принципы синергизма, может внести существенный вклад в разрешение мировых проблем. Человечество нуждается в новой прагматической философии осмысления и освоения действительности.

Ключевые слова: мировые проблемы, международные отношения, международное право, постнеоклассическая философия, эпистемология, управление.

Abulhasan ABBASOV

THE WORLD PROBLEMS AND PHILOSOPHY

Summary

The whole complex of conjudate problems of global character is implied to the notion «world problems». In this aggregate such highly actual for the present problems as the formation of global political architecture and a new Code of conduct in the international relations, revision of the principles of traditional geopolitical realism, working out the adequate foundations of international law take a particular place. The fruitful decision of these problems mostly depends on actual role of philosophy. In this sence the mission entrusted to philosophy is being seriously increased. According to the author, postneoclassical philosophy relying on theory of complex systems, ideas and principles of synergism may make essential contribution to solution of world problems. The mankind needs in a new pragmatical philosophy of comprehension and coping with reality.

Keywords: world problems, international relations, international law, postneoclassical philosophy, epistemology, government.

UOT 316

Rəna MİRZƏZADƏ
fəlsəfə ü.e.d., professor,
şöbə müdiri, AMEA FHİ

AİDA İMANQULİYEVA FƏLSƏFƏSİNDƏ MULTİKULTURALLIQ VƏ QADIN HÜQUQLARI*

XX əsr Azərbaycan ictimai elmində dəyərli əsərləri ilə öz yeri və rolu olan professor Aida İmanquliyeva araşdırmalarının vacib əhəmiyyəti vardır. Aida İmanquliyevanın əsas tədqiqat predmeti olan ərəb muhacir ədəbiyyatının nümayəndələri öz fikir və yanaşmalarında bir Şərqli olaraq, həm də Qərb dünyası düşüncəsi ilə bağlıdırlar. Aida İmanquliyeva yaradıcılığında milli mənəvi dəyərlər sistemi bəşəriliklə verilərək, mədəniyyətlər və sivilizasiyalararası problemlərin oxşar və fərqlilikləri multikultural vəhdətdə elmi təhlilə gətirilmişdir. Belə təhlil məhz nəzəriyyədir, həm də bu nəzəriyyədə bir fəlsəfi sistemlilik vardır. A.İmanquliyeva, öz araşdırmalarında sosio-mədənilik ilə ədəbiyyatşunaslığın əlaqəsində məhz Şərq və Qərb komparativistikasının fəlsəfi nəzəriyyəsini yaratmışdır. Bu da müasir elmi yanaşmalarda multidissiplinar tədqiqatlar kimi xarakterizə olunur. Bu baxımdan Aida İmanquliyeva fəlsəfəsində diqqəti cəlb edən xüsusi bir məqam da nəzəri məsələlərlə bahəm, sosio-bədii komparativistika zəminində Qadın Hüquqları probleminə də nəzər yetirməsidir. Aida İmanquliyeva Şərq və Qərb düşüncəsini, Dövrün və Zamanın diqtə etdiyi həyat təcrübəsinin mədəni xüsusiyyətlərini təhlil etməklə, apardığı müqayisələr Azərbaycanda multikulturallıq sahəsində olan elmi tədqiqatlar üçün də vacib əhəmiyyət daşıyır. Bu nöqteyi-nəzərdən də A.İmanquliyeva C.Cübranın "Banlı Marta", "Hanili Varda", "Qırılmış Qanadlar" hekayələri, Ər-Reyhaninin "Nohur Zanbağı", "Hərəmxana divarlarından kənarda, yaxud Cihan" povestində, "Belə bir gündə cəhənnəm də yaxşıdır" kimi əsərlərində qoyulan süjetlərə əsasən *multikulturallıq və qadın hüququ* məsələsini geniş təhlil etmişdir.

Qeyd edək ki, məhz XX əsr Azərbaycan ictimai elmində sosio-mədəni və ədəbi istiqamətdə qadın hüquqları məsələsini yeni ərəb ədəbi nümayəndələrinin fikirləri ilə vəhdətdə İlk dəfə Aida İmanquliyeva elmi təhlilə gətirmişdir. Adları çəkilən əsərlərdə müəllifin elmi, nəzəri tutumlu açıqlamaları, informasiya baxımından təhlillərində yenilik, problemin aktuallığı aspektindən isə məsələyə fəlsəfi-ədəbi və *çoxmədənilik* kontekstindən yanaşmasını görürük. Belə bir düşüncə meyarından qadın hüquqlarına da fəlsəfi baxış tərzi diqqətçəkən elmi sanbala malikdir. Nəzərə yetirək ki, dövr o dövr idi ki, Avropa artıq gender tədqiqatları ilə ictimai-siyasi elmdə yeni bir istiqamət kimi modern baxış tərzində araşdırmalara başlamışdı. Belə bir Zamanda Aida İmanquliyevanın XX əsr Qərb elmi mühiti ilə uzlaşan fikirləri müəllifin Azərbaycan sosiomədəni genderşunaslıq elm tarixinə imza atan İlklərdən biri olduğu göstəricisidir.

Tədqiqatçı Alim yeni ərəb mühacir ədəbi məktəbinin müasir korifeyləri nümunəsində təhlil aparanda yaşadığı zamanın sosiosiyasi strukturu ilə çox yaxşı tanış idi. O, qadın hüququ, qadın azadlığı, cəmiyyətdə kişi-qadın münasibətləri – yəni Gender faktoruna Şərq və Qərb mətnində paralellər aparmaqla qadını mənəvi-ideoloji buxovlardan azad edə biləcək məqamları C.X.Cübran və Əmin-ər-Reyhani motiviasiyasında təsvir edirdi.

A.İmanquliyeva bu əsərlərdə nə açıqlayırdı? O, bu təhlillərdə məhz qadın düşüncəsini, qadın azadlığını *multikulturallıq* zəminində önə çəkirdi. A.İmanquliyeva göstərir ki: "Yazıçı

* Məqalə fəlsəfə ü.e.d., professor Sakit Hüseynov tərəfindən çapa məsləhət görülüb.

(C.Cubran) şərq qadınının azadlığı mövzusuna müraciət edir və onu sosial-ictimai səpkidə deyil, yalnız ailə münasibətləri müstəvisində, qadınların hisslərinin və hüquqlarının müdafiəsi baxımından şərh edir. Qadın azadlığı probleminə bu cür yanaşma ərəb maarifçiləri, xüsusilə millətin dirçəlişinin, tərəqqi uğrunda mübarizəsinin, qadının həyat şəraitinin dəyişdirilməsi, ailənin mütərəqqi əsaslar üzərində qurulması ilə başlamalıdır".(2, s.75) Aida İmanquliyeva açıqlayır ki, "Banlı Marta" və "Hanili Varda" hekayələrində C.Cübran digər ərəb maarifci-yazıçıları kimi ilk növbədə məhəbbət mövsusunu önə çəkir: "Ərəb Şərqi üçün o illərdə qadın məsələsi Avropada olduğu kimi hələ siyasi hüquqlara dair məsələ deyil, ailə və nigah, qadını sevmək və xoşbəxt olmaq hüququ məsələsi idi, ədəbiyyat göstərməli idi ki, qadın da "sevməyi bacarır" (2, s.76). Aida İmanquliyeva təhlilərinin tapıntısında nə görürük? Bu görüntüdə Şərq qadınının mübarizliyi təsvirində qadının nə qədər əzilsə də, öz daxili üsyanı ilə, öz daxili sözü ilə Qərbdə o zaman tüğyan edən feminizm işartılarının əlaməti inikas olunur. O, C.Cübrana istinad edərək göstərir: "Ey, bu cinayətkar dünya arxasında gizlənən gözə görünməz Ədalət! Sən... sən mənim qəlbimin fəryadını, ürəyimin harayını eşidirsən" Bu çağırışa A.İmanquliyeva münasibət bildirərək yazır ki: "bu əlbəttə ki, əxlaqsızlıq etməyə məcbur olmuş savadsız kəndli qadının nitqi kimi qəbul edilmir, bu sözlərdə alçaldılmış qadına qarşı sentimental mərhəmət hissi ilə dolu olan müəlliffin özünün səsi eşidilir" (2, s.77).

Biz bu təhlilimizi müasir Azərbaycanın digər tədqiqatcı alimi Nərgiz Paşayevanın fikirləri ilə paralelləşdirək. Nərgiz Paşayeva 2011-ci il Bakı Humanitar Forumunda çıxışında söylədiyi kimi: "Dünya daha çox inkişaf etdikcə, hər bir fərd özünü daha çox müstəqil şəxsiyyət kimi dərk edir. Və bir fərdin maraqları ilə ümumi maraqlar arasında qarşıdurma yaranır... Müasir dövrün mürəkkəblikləri unudulmuş haqqı-ədalət ideyaları ilə bağlıdır. Onlar haqq-ədalətin özündən yox, onun şərhindən asılı olmağa başladılar". Məhz bu məqamda Nərgiz Paşayeva fəlsəfi məntiqi Aida İmanquliyeva fəlsəfi düşüncələri ilə "ədalət" formulunda paralelləşir.

Nərgiz Paşayeva Fits Cerald Skottun bir məqaləsində yazdığı dahiyanə fikrinə müraciət edərək göstərir ki: "Çoxdan anlamaq lazımdır ki, bu dünyada hər şey ümidsizdir, ancaq onu dəyişmək üçün qətiyyəti itirməmək lazımdır" (4).

Qeyd olunan qadın hüquqları, qadın azadlığı, multikultural fərqlilik kimi fikirlərə isə Ədalət fonunda Akademik Akif Əlizadə məhz "müasir cəmiyyətdə elmin, təhsilin rolunun zəruriliyinin əsas olduğunu qeyd edir" (3). Bu nöqteyi nəzərdən Aida İmanquliyeva C.Cubranın "Qırılmış qanadlar" povestini təhlil edərkən də, gender stereotiplərini açmaqla yazır ki: "Hekayəçi öz izharında, ictimai, sosial problemlərə toxunmur. Onu başlıca olaraq, mənəviyyatın, fəlsəfənin problemləri, qəlbin və ruhun həyatı maraqlandırır. Onun dini klerikal movzuda və qadının ailədə rolu mövzusunda düşüncələri istisna təçkil edir" (2, s.79) və fikrini də C.Cubrandan daha bir nümunə ilə göstərir..." görənin hissləri ilə görünənin həqiqəti arasında gizli zərrəciklər insanın zahirini nurlandıran müqəddəs ruhların ziyasıdır, bu, kişi və qadın arasında tam anlaşmadır" (2, s.79). Bax, bu tam gender fəlsəfəsidir. Bu gender multikulturallığıdır. Bu tapıntı isə Aida İmanquliyevaya məxsusdur.

A.İmanquliyeva fəlsəfəsində "sentimentalizm metodunun həm Qərbi Avropa, həm də rus ədəbiyyatında – S.Ricardson, L.Stern, J.J.Russo, N.Karamzinin əsərlərində əsas səciyyəvi xüsusiyyətlərindən biri məişətə, əşyalar aləminə və gündəlik həyatın təfərrüatına olan maraqdır. Məsələn, N.Karamzin Erastın bir stəkan süd xahiş edərkən Lizanın davranışını təsvir edir" (2, s.8) kimi fikirləri də məhz Qərb – Şərq multikulturallığı məişət tərzinin müqayisəli təhlillərdir. Aida İmanquliyeva gender rollarını xarakterizə edərək yazır: "Səlma obrazı ilə onun psixoloji durum və yaşantılarına uyğun olan və əsrin yumşaq lirizmini nəzərə çarpdıran mənzərə təsvirlərinə yetirilən diqqət və sentimentalizm metoduna cavab verir"(2, s.80).

Aida İmanquliyevanın araşdırması gender stereotipləri və qadın diskriminasiyası nöqteyi nəzərindən də Azərbaycan genderşunaslıqı üçün qiymətli bir vəsaitdir. A.İmanquliyeva məntiqincə: "Cubran ərəb ədəbiyyatında romantik metodun inkişafını qabaqlamaqla yanaşı, o, daha iki mühüm mövzunu – qadın və antiklerikal mövzunu da öz adına yazdırdı. Qadın azadlığı mövzusu povestdə sadəcə bir qadının şəxsi dramı çərçivəsindən çıxaraq, özünün daha geniş şərhini tapır... qadının taleyini sosial-hüquqi aspektdə deyil, yalnız ailə, nigah münasibətləri hüdudlarında təhlil edir. Yazıçı gələcəkdə qadının cəmiyyətdə layiqli yer tutacağına inanır" (2, s.83). A.İmanquliyeva göstərir ki, "Qadında gözəlliklə təhsilin (Akif Əlizadə məntiqi), zərifliklə xeyirxahlığın, bədənin zəifliyi ilə ruhun gücünün, birləşdiyi gün gələcəkmi? Mən hesab edirəm ki, mənəvi tərəqqi (Nərgiz Paşayeva deyimi) bəşəriyyətin yoludur, onun kamilliyə yaxınlaşması ləng olsa da, labud prosesdir" (2, s.84).

Biz bu "qadının cəmiyyətdə layiqli yer tutacağına" fikrini günümüzün aktuallığında "Gender bərabərliyi" adandırırıq. Bu məhz A.İmanquliyevanın gender düşüncəsidir.

A.İmanquliyeva bütün cəmiyyətlər üçün aktual bir sosial problem olan nigah məsələsinə də münasibət bildirir. O qeyd edir ki, C.Cübran nigah probleminə toxunaraq, yazır: "Bizim zəmanəmizdə nigah gənc insanlarla qızların ataları arasında gülüş və göz yaşı doğuran sövdələşmədir. Birincilər bir qayda olaraq udur, ikincilər həmişə itirirlər. Qızlarını satlıq mal kimi əldən-ələ ötürürlər"(2, s.84). Bu məsələlər bu günün prizmasından "Erkən nigah" adlanır.

SİZ, Aida Xanım, qadın hüququ, qadın azadlığı, erkən nigah, multikulturallıq, gender münasibətləri kimi XXI əsrin aktual mövzularını necə dəqiqlik, necə sistemli təhlilə gətirmisiniz və burada da bir təhqiqatcı kimi Sizin fəlsəfi düşüncələrinizlə Dünəndən Bu günümüzə gələn elmi Yola bir daha nəzər salaq... Aida İmanquliyeva yazır: "Cubran məzlum qadını məzlum millətə, onun əzabı, hüquqsuzluğu və rüsvayçılığını millətin əzabı, hüquqsuzluğu və rüsvayşılığı ilə bərabər tutur: "Məgər bu qadın bu məzlum milləti təcəssüm etdirmirmi? Məgər ruhunun çırpintiları və cisminin əzabları ilə üzülmüş qadın öz ağaları və din xadimləri tərəfindən əldən salınmış bir millətə bənzəmirmi?" (2, s.84) Məhz bu fikirlər gender multikulturallığını əks etdirir.

"Qırılmış qanadlar" adlı C.Cubranın povestini təhlil edən A.İmanquliyevaya görə "Şərq qadının asılı vəziyyətinin pislənməsi, klerikalizmin, zadəgan nümayəndələrinin pozğun həyat tərzinin ifşa edilməsi və əsərdə toxunulan digər aktual problemlər həm obyektiv olaraq əsərə müəyyən dərəcədə sosial kəskinlik verir, həm də yazıçının müasir həyatla əlaqəsini aşkara çıxarır" (2, s.84). Beləliklə, A.İmanquliyeva fəlsəfəsi C.Cübranın əsərləri nəticəsində onun maarifçi humanizm və sentimentalizm motivlərini birləşdirdiyini göstərir (2, s.85).

Aida İmanquliyeva ƏR-Reyhaninin də yaradıcılığında pozitiv ideyaları izləyərək, öz dərin mülahizələri ilə "maarifçiliyin ən başlıca mövzularından birinin - Şərq qadınının əsrlər boyu məruz qaldığı əsarətdən azad edilməsi movzusuna da" (2, s.175) toxunmuşdur. Aida İmanquliyeva qeyd edir ki, ƏR-Reyhani qadın azadlığı mövzusuna "Nohur zanbağı" povestində ilk müraciət etmişdir. ƏR-Reyhaninin "Hərəmxana divarlarından kənarda, yaxud Cihan" povestində "başlıca ideya qadının onu şəxsiyyət kimi alcaldan, fəaliyyətini tapdalayan zehniyyət və mövhümatın hakimiyyətindən azad olması uğrunda mübarizəsidir" (2, s.175). Söyləyən Aida İmanquliyeva Azərbaycan ictimai elmində qadın hüquqları üzrə yazan ilklər sırasında ilkdir. Yenə də Alimin fikirlərinə müraciət edək: A.İmanquliyeva: "Cihan ətrafındakı bütün insanların fövqunə yüksələn, güclü hiss və ehtirasa malik, tənha, hamıdan uzaqlaşmış, borc və məhəbbət, qisas və vətənpərvərlik hissləri arasındakı daxili ziddiyyətlər içində əzab çəkən müstəsna qadın surətidir. Cihanın bütün davranışlarının əsas fəaliyyət motivi – azadlığa can atmadır. Bu fəlsəfədə Qadın, gender rolları, əri digər millətdən (alman)

olan Cihanın xarakterinin təsvirində dünyanın bu gün aktual məsələsi olan multikulturallıq faktoru durur. A.İmanquliyeva göstərir: "Cihanda hər şey qeyri adi gözəllik, yüksək əsl nəcabət, cəmiyyətdə tam müstəqil mövqe (Bu gender bərabərliyi anlamıdır – R.M) zənginlik, çox yaxşı təhsil, təbiətin bənzərsizliyi, böyük iradə güvvəsi, qətiyyət və cəsarət onu qalan insanlardan kəskin şəkildə fərqləndirir" (2, s.176). Bu fəlsəfədə XX əsr fransız filosof və ilk genderşunaslardan olan Simona de Bovuarın "Mən qadınam" bəyanatı ilə öz mənsubiyyətinə böyük hörməti yada düşür.

A.İmanquliyeva vurğulayır ki: "ƏR-Reyhaninin povestinin qadın qəhrəmanı qadın azadlığı uğrunda mübarizə aparır, "ictimai" fəaliyyətlə məşğul olur, məqalələr yazır, jurnalarda dərc olunur, Nitşeni tərcümə edir – lakin bütün bunlar onun həyatına, əhatəsinə, insani əlaqələrinə təsir göstərmir – o həmişə tənhadır" (2, s.177). "Yazıçı Valenşteyni (Cihanın əri – R.M) təsadüfən Nitşe fəlsəfəsinin davamçısı kimi təqdim etmir, belə ki, o dövrdə Şərqdə Nitşenin nəzəriyyəsi geniş şöhrət qazanmışdı. Ərəb ziyalılarının bir çox nümayəndələri belə hesab edirdi ki, vətənin başına gələn bütün bəlalar, xalqın kifayət qədər fəallığa malik olmamasından irəli gəlir" (2, s.180). Aida İmanquliyeva ictimai – siyasi görüşləri XX əsrdən sanki hazırki Ərəb dünyasına yönələn bir baxışdır. Məhz belə fikirlər uzaqgörən Alim təfəkkürü, qadın məsələsindən yazan bir Alim Qadının cəmiyyətə, Qərb dünyası prizmasında Şərqə söykənən multikulturallıq fəlsəfəsidir. Bu fikirlər bir Alim düşüncəsi ilə bahəm çoxmədəniyyətlilik-multikulturallıq təsvirində həm də Gender meyarıdır.

Digər məqamlara diqqət edəndə görürük ki, Aida İmanquliyeva tətqiqatında qadın məsələsi ilə əlaqəli nəinki qadın fərdiyyəti, azadlığı, hüququ, həmçinin gender stereotipleri nöqteyi nəzərindən də münasibətlər, açıqlamalar yetərincədir. A. İmanquliyeva yazır: "Çadra örtməyə borclu olan müsəlman qadının Avropada "fransız dayənin əllərində" böyüməsini, Avropa dillərinə və xüsusilə, Nitse fəlsəfəsi ilə tanışlığın da daxil olduğu, yaxşı təhsilə yiyələnməsini də mühüm obyektiv "şərt" hesab etmək olar. Belə bir müstəsna şəxsiyyət "sərt adət və ənənələr" içində yanaşmağa məcburdur. Onun təbiətinin ikiləşməsi buradan-vətənə məhəbbətdən və onun geriliyinə, cəhalətinə qarşı etirazdan irəli gəlir" (2, s.181). Bu fikirlər də A.İmanquliyevanın *multikulturalist baxışlarıdır.*

A.A.Dolinina hesab edir ki, müəllif təsadüfən bütün şərq qadınları arasında məhz türk qadınını qadın hüquqlarının müdafiəçisi kimi təqdim etməyib. Bu həm də real gerçəkliyə cavab verir, belə ki, o zaman başqa müsəlman ölkələrin qadınları ilə müqayisədə türk qadınları daha əlverişli şəraitdə yaşayırdılar" (5, s. 18). Məhz öz təhlilində A.Dolininadan misal çəkən A. İmanquliyeva azadlıq anlayışının da açmasını verir. O yazır ki, "Azadlıq anlayışı azad şəxsiyyət və müstəmləkə zülmündən azad olma ideyasını özündə birləşdirir" (2, s.181).

A.İmanquliyeva yaradıcılığını izləyərkən çoxçalarlı gender fəlsəfi məhfumları içrə çoxsaylı multikulturalizm terminlərinə, yeni ifadə tərzinə, qadın hüquqları kontekstində yeni anlayış açımlarına da rast gəlinir. Belə ki, misal üçün "Cihanın kişi və qadın arasındakı qarşılıqlı münasibətləri" (2, s.182) və yaxud "Şərq qadının zəkasının və qəlbinin oyandığı günə, onun qəlbini, dirçəlməkdə olan bütün millətin qəlbini öz nuru ilə dolduran şəfəqə eşq olsun"(2, s.185) nümunələrini göstərə bilərik. Bu nöqtədə böyük Hüseyn Cavid fəlsəfəsi də yada düşür. H.Cavid "Uçurum" əsərində Şərq-Qərb münasibətlərinə toxunaraq yazmışdır: "Avropada işıq da var, zülmət də" (6, s. 114). Bu paralellərdə isə A.İmanquliyeva təhlillərində olan işıq və Şərq Qadınının bu günkü yolu vardır. Məhz A.İmanquliyeva fəlsəfəsində insanlıqğa, xüsusuən də qadınlığa münasibət, qadın hüquqları mətnində etik normalar vardır. Öz dövrünün ictimai tərzini yaxşı bilən bir tədqiqatçı Alim kimi təhlilində isə müqəddəs Kitabımız Qurani Kərimdən olan bir nümunə ilə fikrimizi əsalandıraq: "Kişilərin qadınlar

üzərində şəriətə görə hüquqları olduğu kimi, qadınların da (kişilər) üzərində hüquqları vardır" (7, s. 228).

Qeyd edək ki, bir məqalə ilə Böyük Qadın Alim, filosof – filoloq, dərin məntiqli tədqiqatçı Aida İmanquliyeva araşdırmaları Okeanından yalnız bir damla göstərə bildik. Əsrlərlə A.İmanquliyevanın qadın hüquqları ilə bağlı araşdırması Ulu Şərq kontekstindən Modern Qərbə bir Körpü olacaqdır. Professor Aida İmanquliyevanın irəli sürdüyü ümumi müddəalar, orijinal düşüncə tərzi, Alimin romantizimlə vəhdətdə fəlsəfi mətnli multikulturalist baxışlarıdır, yazdığı və izlədiyi mənəvi meyarlar, prinsiplər milli sosio-ədəbi prosesin də bu kimi elmi-metodoloji kontekstdə bu günkü, hətta gələcək tədqiqatlar üçün belə geniş fəlsəfi məna daşıyır və sistemli təhlil imkanı yaradır. A.İmanquliyevanın müqayisəli araşdırmaları və onların sosiofəlsəfi, ictimai-ədəbi dəyəri Azərbaycan romantizminin dünya romantizmi vəhdətində oxşarlıqlar və fərqliliklər zəminində bir baza məktəbidir. Məhz bu kontekstdə fikrimizdə Ölkənin Birinci Xanımı Mehriban Əliyevanın söylədiyi fikirlə yekunlaşdıraq: "Bütün tədqiqatçılar hesab edirlər ki, sivilizasiyanın inkişaf dövründən başlayaraq qadınlar demək olar ki, bütün cəmiyyətlərdə dini mənsubiyyətdən və ya siyasi quruluşdan asılı olmayaraq, kişilərdən asılı vəziyyətdə olublar. Hazırda dünya öz inkişafını elə bir dövrünə dəqəm qoyur ki, yekun məqsəd bu vəziyyətin dəyişməsindən ibarətdir. Vəziyyətin dəyişməsində uğurlar bir çox siyasi, ictimai, sosial, dini və mənəvi amillərdən asılıdır. Lakin, yekun nəticədə hər şey bizdən, bu planetdə yaşayan kişilər və qadınlardan asılıdır" (6, s.162).

Açar sözlər: Aida İmanquliyeva, fəlsəfə, multikulturallıq, qadın hüquqları, araşdırma, ictimai elmlər.

İstifadə olunmuş ədəbiyyat

1. Əliyeva M. "Tərəqqi və Yüksəliş yolları ilə". I cild, Bakı, 2014.
2. İmanquliyeva A. "Yeni Ərəb Ədəbiyyatı korifeyləri". Bakı, Elm, 2003.
3. Akif Əlizadə Bakı Humanitar forumunda çıxışından. Bax: http://www.bakuforum.orq./summary2013/
4. Nərgiz Paşayeva Bakı Humanitar Forumunda çıxışı. Bax: www.bakuforum.orq/main - page - Forum 2011/stenoqrama/multicu
5. Долинина А.А. Предисловие. В кн. Арабская романтическая проза XIX-XX веков.
6. Mirzəzadə R. "Multikulturalizm siyasəti: Din və Gender Dialoqunda". Bakı, 2013.
7. Qurani-Kərim. Bakı, 1993.

Рена МИРЗАЗАДЕ

МУЛЬТИКУЛЬТУРАЛИЗМ В ФИЛОСОФИИ АИДЫ ИМАНГУЛИЕВОЙ И ПРАВА ЖЕНЩИН

Резюме

В статье автор обращается к творчеству профессора Аиды Имангулиевой занимавшей видное место в общественной науке Азербайджана XX века. Аида Имангулиева занималась исследованием арабской эмигрантской литературой. В статье схожие и различные межкультурные и межцивилизационные проблемы рассматриваются в аспекте мультикультурализма. Далее отмечается, что в XX веке Аида Имангулиева в общественной науке впервые коснулась вопроса прав женщин в социокультурном аспекте.

Ключевые слова: Аида Имангулиева, философия, мультикультурализм, права женщин, исследования, общественные науки.

Rena MIRZAZADEH

MULTICULTURALISM AND WOMEN'S RIGHTS IN PHILOSOPHY AIDA IMANGULIYEVA

Summary

The author refers to the creative works of Prof. A.Imanguliyeva which takes up an important place in the social science of Azerbaijan in the XX century. Aida Imanguliyeva engaged un research of Arabian immigration literature. In this article similar and different enltural civilization problems are considered in the aspect of multiculturalism. Further notes-that in the XX century Aida Imanguliyeva in social science for the first time touched problems to women's rights in the socio-cultural aspects.

Keywords: Aida Imanguliyeva, philosophy, multiculturalism, women's right, research, social science.

UOT 1(091)

Xatirə QULİYEVA
a.e.i., filol.ü.f.d., dosent, AMEA FHİ

MAARİFÇİLİK DÖVRÜNDƏ AZƏRBAYCANDA MİLLİ-MƏNƏVİ ƏSASLAR VƏ MİLLİ İDEYA MƏSƏLƏSİ*

Sivilizasiyaların dəyişilməsini şərtləndirən mühüm amil olaraq milli-mənəvi əsaslar və onun yaradıb formalaşdırdığı milli ideya məsələsi maarifçilik dövründə öz aktuallığı ilə maraq doğurur.

Xalqın adət etdiyi, yaşatdığı ənənələr, sürdüyü həyat tərzi artıq yeni dünya, cəmiyyət qanunlarına cavab vermədiyi üçün yenilənmə tələb edirdi. Bu yenilənmə isə əlbəttə ki, ilk növbədə İnsan şüurunda baş verməli idi. Köhnəlik, gerilik buxovlarına bürünmüş cəmiyyətə sıradan çıxmış etik qaydalardan, ümumi əxlaq qanunlarından xilas yolunu yalnız maarifçilər öz proqram xarakterli əsərləri ilə çatdırırdılar.

Maraqlıdır ki, Azərbaycanın ilk maarifçiləri məsələn, A.Bakıxanov, M.Ş.Vazeh, Q.Zakir, S.Şirvani və b. istərsə də XIX əsrin ikinci yarısından fəaliyyətə başlamış M.F.Axundov və onun davamçıları öz maarifçilik missiyalarını məhz əxlaq məsələləri üzərində qurub davam etdirirdilər. Lakin əlbəttə ki, onların əxlaq məsələsindəki ümumi mövqeləri Avropa maarifçiliyindən, deməli Qərb svilizasiyasının yeni beşiyindən qaynaqlanırdı.

Fəlsəfə elmləri doktoru Səlahəddin Xəlilov "Şərq və Qərb ümumbəşəri ideala doğru – fəlsəfi etüdlər"(1, s.623) əsərində bu məsələni konkret olaraq təhlil etməsə də maarifçiliyin ana məkanı Qərb mədəniyyəti və düşüncəsi üzərində dayanaraq problemi daha yeni bir istiqamətdən qiymətləndirir. Məsələn, alim yazır ki, "Rusiya vasitəsilə qabaqcıl Avropa ictimai-siyasi fikirlərinin və maarifçilik ideyalarının Azərbaycana keçməsi, Şərq və Qərb dəyərlər sisteminin bu ölkədə qovuşması üçün münbit şərait yaratmışdır. A.Bakıxanov, Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, Həsən bəy Zərdabi kimi simalar bu iki sivilizasiya arasında körpü rolunu oynayan böyük şəxsiyyətlər idi. Lakin məhz M.F.Axundov Şərq və Qərbin vəhdət simvolu götürülmək üçün daha uyğundur. Çünki onun simasında hər iki mədəniyyət və düşüncə tərzi zirvədə birləşir. Eyni zamanda M.F.Axundov öz şəxsi timsalında vəhdətə nail olmaqla qalmır və bütövlükdə xalqın yeni dəyərlər sisteminə yiyələnməsi uğrunda fəal mübarizə aparırdı. Onun bütün elmi, fəlsəfi və bədii yaradıcılığı məhz bu amala xidmət edir"(8, s.413).

Bu dövrdə milli mühitdə elmin, dünyavi təhsilin tamamilə qəbul edilməzliyi, mollaxanaların isə yalnız din və şəriət dərsləri verməklə tərəqqi işinə heç bir fayda verməməsi, digər tərəfdən qız uşaqlarının nəinki mövcud olan bu dini mollaxana məktəblərinə getməməsi, hətta çox az yaşda ərə verilməsi, çoxarvadlılıq, bərabərsizlik, asılılıq və s. Azərbaycan gerçəkliyində cərəyan edən milli-mənəvi əsasların real mənzərəsini əks etdirirdi.

Məsələn M.F.Axundov "Yek kəlmə haqqında" məqaləsində cəmiyyətdə ədalətli idarə üsulu məsələsini təhlil edərək yazır ki," Əgər şəriət ədalət çeşməsi isə, konstutusyonun birinci əsası olan hüquq bərabərliyini mühakimələrdə icra etməlidir. Hüquq bərabərliyi yalnız kişi tayfasınamı məxsusdur? Şəriətin nə haqqı var ki, qadın tayfasını hicab ayəsi vasitəsi ilə daimi həbsə atıb, ömrü boyunca bədbəxt edir yaşamaq nemətindən məhrum edir? ... Əgər şəriət ədalət çeşməsi isə, o konstutusyonun üçüncü əsası olan şəxsi azadlığı icra etməlidir. O halda şəriət hətta islamiyyətin qəbulundan sonra da büdpərəstlərdən və müşriklərdən qul və kənizlər

* Məqalə fəlsəfə ü.f.d. Vahid Ömərov tərəfindən çapa məsləhət görülüb.

alıb-satmağa nə üçün icazə verir? Məgər bu ən alçaq zülm deyilmi və azadlığa zidd deyilmi?" (1, s.308).

Bu baxımdan dünya maarifçilərinin əsas konsepsiyası "Millilikdən kənar maarifçilik yoxdur, Maarifçilik kosmopolit deyil, ümumbəşəridir" (9, s.15.) kimi ideyalarından çıxış edən Azərbaycan maarifçiləri daxil olduqları milli mühiti sağaltmaq üçün maarifçiliyin ən mühüm tənqid, ifşa ilə islah prinsiplərindən çıxış edirdilər.

Nəyi tənqid, nəyi islah sualına da əlbəttə ki, ilk növbədə cavab, gerilik, ağla sığmaz hala salınmış milli adət və ənənələr, tarixi simasını tam itirmiş Azərbaycan insanı idi.

M.F.Axundov və davamçılarının insanların dünyabaxışını yenilənməyə qoymayan əsas amil kimi Dini, o cümlədən İslam dinini kəskin tənqid etməsi də məhz dünya maarifçiliyinin tənqid və yenə də konkret olaraq dini tənqid konsepsiyasından irəli gəlirdi.

Məsələn, M.F.Axundov yazırdı ki, "Min iki yüz səksən ildir ki, biz din, məzhəb, etiqad və iman ilə yaşayışı, get-gedə halımız yamanlaşır, get-gedə saysız-hesabsız müsibət və bəlalara düçar oluruq, bir qədər də imtahan üçün dinsiz, məzhəbsiz, etiqadsız və imansız olub, mərifət və hikmətlə yaşayaq. Görək halımız daha yaman olar, yoxsa daha yaxşı? Əgər yaman olarsa keçmiş əqidəmizə qayıtmaq üçün heç bir maniə yoxdur"(1, s.291).

M.F.Axundov "Yek kəlmə" haqqında" məqaləsində də cəmiyyətin maariflənməsi ideyasından çıxış edərək yeni şüur, yeni dünyagörüşü məsələsinə toxunur. Həmçinin də biz bu kontekstdə dövrün milli-mənəvi əsaslarının xarakterik mənzərəsi ilə tanış oluruq.

Belə ki, "Yek kəlmə" kitabının müəllifinə mürtaciətlə "Sizə elə gəlir ki, şəriət hökmlərinin köməyi ilə Fransa konstitusyonunu Şərqdə həyata keçirmək olar, yəni zülmü aradan qaldırmaq olar . Yox qətiyyən belə deyil! Bu çətindir və mümkün olan şey deyil" deyən M.F.Axundov bu əsərində həm milli-mənəvi əsasların dövrü səviyyəsini təsvir edir, həm ondan çıxış yollarını göstərir: " ...Ədaləti yerinə yetirmək və zülmü aradan qaldırmaq ancaq yuxarıda dediyim şəkildə mümkündü, yəni millətin özü bəsirət və elm sahibi olmalı, ittifaq və yekdillik əsaslarını əldə etməli, sonra zalıma müraciət edərək deməlidir: Səltənət və hökumət büsatından əl çək!.. Sonra özü, zamanın vəziyyətinə uyğun olaraq qanun qoyub kons titusyon yazmalı və ona əməl etməlidir. O zaman millət yeni həyat tapacaq və Şərq torpağı gözəl cənnət kimi olacaqdır" (1, s.311).

Onu da qeyd edək ki, böyük maarifçimizin insanları geridə qoyan mövhumatı deyil, dini və islam dinini, müqəddəs Qurani-Kərimi, hətta ərəbləri tənqid etməsi dövrü düşüncə, dünyabaxışı idi ki, onun özü də bugünün təhlil istiqamətində tənqid obyekti kimi aktualdır.

Lakin dini, xüsusilə bütün dinləri və o cümlədən müqəddəs Qurani Kərimi tənqidlərini çıxmaqla M.F.Axundovun gəldiyi nəticə bütün dünya maarifçilərinin ümumi məqsəd və ideyası ilə üst-üstə düşür və dövrü üçün də, müasir dünya fəlsəfi fikri üçün də kifayət qədər dəyər kəsb edən düşüncə kimi diqqəti cəlb edir: Məsələn konkret misalla biz bunu təsdiqləyə bilərik: "Beləliklə bəşəriyyətin xoşbəxtlik və səadəti o vaxt mümkün olacaqdır ki, istər Asiyada, istərsə də Avropada insan əqli əbədi zindandan tamamilə xilas edilib, işlər və fikirlərdə nəql, rəvayət deyil, yalnız insan əqli sənəd və sübut hesab edilsin və qəti söz onun olsun!" (1, s.295).

S.Xəlilov zaman-zaman M.F.Axundov tədqiqatçılarını düşündürmüş, böyük mütəfəkkirin anlaşımasında maneələrə səbəb olmuş bu ciddi məsələ ilə bağlı özünün elmi qənaətlərdən çıxış edərək fikir söyləyərkən məhz vətən sevgisi kimi aydın bir fikir-milli ideya məsələsi üzərində dayanmışdır. Məsələn, alimə görə "...Əgər Axundov yeri gələndə hətta ifrata varırdısa bütövlükdə şərq poeziya ənənələrindən, sevgi-məhəbbət dastanlarından, romantik meyllərdən uzaqlaşıb diqqəti ictimai həyatın gerçək problemlərinə yönəltməyə səsləyirdisə, dini-mövhumata qarşı kəskin mövqe tuturdusa bunu heç də onun sadəcə qərbpərəstliyi kimi qələmə vermək və guya Şərq poeziyasını dəyərləndirə bilməməsi kimi

yozmaq düzgün olmazdı. O, öz milli mahiyyətini dərindən dərk etdiyindən və məhz millətini ürəkdən sevdiyindən ətalətdən xilas olmağa və svilizasiyanın yeni nailiyyətlərinə yiyələnməyə səsləyir, öz həmvətənləri arasında maarifçilik ideyalarını yaymağa çalışırdı"(8, s.413-414).

Alimin M.F.Axundovun "Aldanmış kəvakib" povestini təhlilləri də bilavasitə Azərbaycan maarifçiliyində, xüsusilə də böyük mütəfəkkirin irsində milli ideya məsələsinin qiymətləndirilməsi baxımından maraq doğurur: "İctimai şüurun rolu məsələsi "Aldanmış kəvakib məsələsində də əsas ideyalardan biridir. Yəni millətin ümumi şüur səviyyəsi inkişaf etməyincə, hər hansı bir təsadüf nəticəsində (yaxud yazıçı təxəyyülü sayəsində) hakimiyyətin ədalətli əllərə keçməsi, millət üçün xilas yolu ola bilməz. Burada yüksək sənətkarlıqla göstərilir ki, hakimiyyət forması milli şüurun (milli ideyanın - X.Q) inkişaf səviyyəsi ilə tən gəlir. Və bu tənasüb birtərəfli qaydada pozula bilməz"(8, s.417).

M.F.Axundovun aşağıdakı fikirləri isə ümumiyyətlə onun etik baxışlarını, din də daxil olmaqla əxlaq fəlsəfəsi ilə bərabər öz həmvətənlərininin həyatını, deməli milli ideyanın varlığına münasibətini yaxşı ifadə edir. O yazır:" ... hər din üç müxtəlif əməldən ibarətdir: etiqad, ibadət və əxlaq. Hər dinin icad olunmasından əsl məqsəd üçüncü əməldir. Etiqad ilə ibadət bu əsl məqsədə görə təfərrüatdır. İnsanın gözəl əxlaq sahibi olması üçün lazım görürük ki, xəyalən gözəl əxlaq sahibi, təzim və sitayiş icad etdirən bir varlıq fərz edək və öz əxlaqımızı onun əxlaqına oxşadaq" (1, s.295).

Tədqiqatlarda da qeyd olunduğu kimi "Maarifçilərin fəaliyyəti etnosəfərbəredici prosesləri sürətləndirir, cəmiyyətdə Azərbaycan dilinin, adət-ənənələrinvə adətlərinin inkişafı doğma torpağa bağlılıq ideyaları yayırdı"(4, s.153).

Bu düşüncə, maarifçi konsepsiya M.F.Axundovun davamçıları olan digər maarifçi klassiklərimizin də əsas dünyabaxışı olduğundan biz gecikmiş maarifçilik ənənələri kimi qiymətləndirdiyimiz C.Məmmədquluzadə irsi sahəsində milli-mənəvi əsaslarımızın maarifçilik dövründəki xarakterik simasını, həmin dövr Azərbaycan cəmiyyətinin, mühitin reallıq mənzərəsini nəzərdən keçirməyi məqsədəuyğun hesab edirik.

C.Məmmədquluzadə də maatifçiliyin tənqid qamçısından istifadə edirdi və o da sələfləri kimi ilk növbədə dini tənqid edirdi. Lakin onun məqsədi heç də dinin özünün deyil, din pərdəsi altında mövhumatın tənqidi idi.

İstər məşhur "Ölülər" dramında, istərsə də felyeton və digər satirik əsərlərində C.Məmmədquluzadə maarifçi tənqid prinsipi ilə öz xalqının düçar olduğu geriliyi, köhnəlmiş adət-ənənələri, bütünlükdə hakim milli-mənəvi əsasları tənqid atəşinə tuturdu.

Milli-mənəvi əsaslara bağlı Vətən, millət, din, dil, məktəb və bütün digər sahələrdə çatışmamazlıqlar C.Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalının tənqid hədəfi idi.

C.Məmmədquluzadənin "Din" adlı məqaləsindən ucalan "Bizarafat deyirəm ki, hər kəs rastıma gəlir, hamısını yavaş-yavaş dinə soyumuş görürəm. Niyə və nədən? Günah özümüzdədir" ideyası dövrün ümumi maarifçilik əhval-ruhiyyəsini əks etdirir. Burada aşura günü müsəlmanların başlarını yarması kimi xalqın köhnəlmiş şəriət inancı M.F.Axundov yaradıcılığında da tənqid olunan məsələ C.Məmmədquluzadə satirik pafosu ilə ifşa olunur.

Lakin xüsusi olaraq qeyd etməliyik ki, tənqid hədəfi heç də ayrı-ayrı şəxslər, hadisələr, sahələr deyil, bütünlükdə sıradan çıxmaqda olan əbədi miras - milli dəyərlər idi.

Məsələn, C.Məmmədquluzadə Azərbaycanda maarifçiliyin mühüm sahəsi olan dünyavi məktəblərin acınacaqlı vəziyyətini, onların mollaxanalardan fərqlənmədiyini hələ yeni XX əsrin ilk dekadasında "Məscidlər" məqaləsində tərəqqidən geri qalmağımızı kəskin tənqid satira atəşinə tutaraq yazırdı ki, " Bir tərəfdən bizi gözləri götürməyən qonşularımızdan təvəqqe edirəm ki, çox da ehtiyat eləməsinlər və məktəblərimizin övzaına baxıb görsünlər ki, biz axirətdən savayı heç bir şey axtarmırıq və onlara hər halda mane ola bilmərik və nə qədər yuxarı da atılsaq, öz boyumuzdan yuxarı atıla bilmərik. Behiştliklərimizdən də təvəqqe

edirəm ki, məktəblərimizin proqramına baxıb görsünlər ki, bunların hər biri özlüyündə bir balaca məsciddir və dəxi bundan sonrta bir tikə də ürəklərini sıxmasınlar"(14, s.33-34).

Böyük maarifçi digər "Məscid" məqaləsində isə yeni məktəblərin daha uyğun növü olan məscidlərin ümumi dövrü simasını işıqlandıraraq yazır ki, " ... məscid Allah evidir, burada yaraşar ki, fəzilətli və həqiqi alimlərimiz hərdən bir camaatı yığıb millətdən, insaniyyətdən, dindən və dünyadan bir para nafe mouzələr edələr. Amma sən İranın bikar əmmaməlilərini və ağ seyidlərini çıxardırsan minbərə, onlar da məsciddə avamdan savayı bir qanan adam görməyib, başlayırlar "Bəhrülməsaib" kitabından imamlar və peyğəmbərlər barədə elə mövhumat söyləməyə ki, iyrənib, durub çıxırsan çölə. Onunçün mən də məscidə getmirəm "(14, s.160).

Maarifçilik dövrünün tipik əxlaq mənzərəsi C. Məmmədquluzadənin adları ilə belə kəskin tənqid ruhu aşılayan "`Çaqqal", "Dörd yüz qız", "Qənaət", "Dərd", "Ruhanilər yığıncağı", "Zina", "Nişanli qız", "Paklar", "Din", "Cavanlara", "Qız tərbiyəsi", "Ballı-Badımcan", "Müsəlmançılıq", "Əlifba", "Övrət məsələsi" və digər bir çox realist səpkili əsərində öz əksini tapmışdır.

Bu əsərlər, ümumiyyətlə C.Məmmədquluzadə irsi maarifçi tənqid ruhu ilə dövrün milli-mənəvi əsaslarından boylanan fəlsəfi-etik qayəni işıqlandırır. "Molla Nəsrəddin" jurnalı və C.Məmmədquluzadə əsərləri ilə tanışlıq maarifçilik dövründə xeyir və şərin nisbəti, cəmiyyət üzvləri arasında ədalət, azadlıq, bərabərlik, vicdan, ləyaqət, sevgi, inam və digər əxlaqı sifətlərin gerçək vəziyyəti və onların tərəqqi zamanın ümumi kanonlarına uyğunluğu haqda dolğun məlumat mənbəyidir. Hər bir əsərin mövzu dairəsi, təqdim etdiyi insanlar tipik varlıqları ilə etik dəyərlərin səlnamə mahiyyətini də təmsil edirlər.

Burada Azərbaycan maarifçiliyində milli ideyanın mənbəyi ilə bağlı təhlillərimizi yekunlaşdırarkən aşağıdakı iqtibasdakı fikirləri diqqətə çatdırmağı zəruri hesab edirik: "Dərin sosial dəyişikliklərin baş verdiyi məqamlarda insanlar ən yeni tarix üçün səciyyəvi olan öz milli köklərini, onlara bağlılığı aydınlaşdırmağa, yeni ictimai-siyasi reallıqlar kontekstində etnik cəhətdən özünə qayıdış adlananı daxili istinadgah kimi hiss etməyə, öz etnik mədəniyyətini tapmağa xüsusi ehtiyac duyurlar. Əslində bu uzun illər boyu tarixi varisliyin pozulması, məcburi "etnik sükut" etnosiyası məhdudluq və hüquqsuzluğa səciyyələnən faciəvi keçmişimizə cavablar siyasi idi. Keçmişin spesifik sindromlar və mühafizəkar təsəvvürlər formalı yükü millətin bu gününə və gələcəyinə açıq gözlə baxmağa mane olaraq milli şüurda möhkəm kök salmışdı"(3, s.114).

Belə ki, bu iqtibasda irəli sürülmüş fikirlər tədqiqat obyektimiz olan maarifçilik dövrünün ümumi mənzərəsinin xarakterini və prespektivlərini düzgün dərk etməyimizə kömək etməklə bərabər, ümumiyyətlə bütün keçid dövrü cəmiyyətlərində milli şüur və milli ideya məsələsinin mütləq mənada tarixi keçmişə üz tutması, özünün yeni varlığını müəyyən edərkən, milli arxiologiyanın mənəvi sərvətlərindən geniş şəkildə bəhrələnməsi kimi obyektiv elmi nəticəni təsdiqləyir.

Bu baxımdan heç də təsadüfi deyil ki, bu əsərlər vətən, dövlət, vətəndaş adlı varlığın inkişafını, bütünlükdə milli məfkurəmiz - Azərbaycançılıq ideyasını yetişdirirdi.

Açar sözlər: maarifçilik dövrü, milli ideya, əxlaq nəzəriyyəsi, mənəvi əsaslar, maarifçi tənqid, gecikmiş maarifçilik.

İstifadə olunmuş ədəbiyyat

1. Axundov M.F. Bədii və fəlsəfi əsərlər. /Tərt.ed. H.Məmmədzadə. Bakı: Yazıçı, 1987, 368 s.
2. Axundov M.F. 1960, Az. EA nəşr III cild, 1960, 560 s.
3. Daşdəmirov Ə. Millət və cəmiyyət tarixin sərt dönəmində. Bakı: Elm, 2008, 344 s.
4. Əlimirzəyev X. Problemlər və xarakterlər dramaturgiyası: C.Məmmədquluzadə haqqında. Bakı: Yazıçı, 1970, 356 s.
5. Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir. 8-ci kitab, Bakı: Azərnəşr, 1998, 488 s.
6. Əliyeva Z. Azərbaycan maarifçiliyi və dünya ədəbi-nəzəri fikri. Bakı: Səda, 2008, 114 s.
7. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı: BDU nəşriyyatı, 2002.
8. Xəlilov S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 2004, 623 s.
9. Quliyeva X. Azərbayjanda maarifçi estetika. Bakı: Elm, 2000. 212 s.
10. Quliyeva X. Maarifçilik dövrü fəlsəfi fikrində etika məsələləri. AMEA FSHİ, «Elmi Əsərlər», Bakı, 2012, №2(19), s. 49-54, 326 s.
11. Mehdiyev R. İctimai və humanitar elmlər zaman kəsiyində. Azərbaycan qəzeti, 13 dekabr, 2009-cu il. (http: azertağ. com. /store/ Neüs/ Polirics).
12. Məmmədquluzadə C. Əsərləri: 6 cilddə. II c. Bakı: Azərnəşr, 1984, 196 s.
13. Məmmədquluzadə C. Əsərləri: 6 cilddə. IV Bakı: Azərnəşr, 1985, 276 s.

Хатира КУЛИЕВА

НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫЕ ОСНОВЫ И ВОПРОС НАЦИОНАЛЬНОЙ ИДЕИ

Резюме

В статье широко анализируется вопрос национальной идеи и национально-нравственных основ. Вместе с тем автор в сравнительной форме рассматривает единство философского мировоззрения, философско-этических взглядов и литературно-философского творчества азербайджанских просветителей. Прослеживается философия, особенно философская этика в художественно-эстетическом наследии классиков. Автор выражает свое отношение к ценным мыслям философов-просветителей о национальной идее, национально-нравственных ценностях и морали.

Ключевые слова: эпоха Просвещения, национальная идея, теория морали, нравственные основы, просветительская критика, позднее просветительство.

Khatira GULIYEVA

THE NATIONAL MORAL FOUNDATIONS AND THE QUESTION OF NATIONAL IDEA

Summary

In the article the broad analysis is made of the question of national idea and the national-moral foundations. With this the author considers comparatively unity of philosophical world outlook, philosophical-ethical views and literary philosophical creative work of the Azerbaijani thinkers. Philosophy is traced back, in particular philosophical ethics in artistic aesthetic heritage of the classics. The author expresses her attitude to the valuable thoughts of philosophers and philosopher-enlighteners on national idea, national and moral values and ethics.

Keywords: the lige of Enlightenment, national idea, theory of moral, moral foundations, enlightener's creticism.

UOT 1 (091)

Afaq MƏMMƏDOVA
a.e.i., fəlsəfə ü.f.d., AMEA FHİ

ROMANTİZM QLOBAL-MƏDƏNİ MƏKANIN UNİVERSAL FENOMEN KİMİ*

Giriş.

XXI əsrdə mədəni və ictimai həyatda baş verən mühüm dəyişikliklər bütün sosio-humanitar elmlər kimi fəlsəfənin də özündən əvvəlki tarixi-mədəni irsə münasibətinin yenidən dəyərləndirilməsi zərurətini yaratmışdı. Ümumbəşəri humanitar və fəlsəfi təfəkkürün postklassik paradiqmalara keçidlə bağlı nəzəri-metodoloji səpgidə böhranı onun yüksəldiyi tarixi mənəvi zəminin bütöv mənzərəsini yaratmaq və ictimai-fəlsəfi fikrin sonrakı inkişafına təsirini müəyyənləşdirmək üçün yeni bucaqdan baxış müstəvisini aktuallaşdırır. Son iki yüzillikdə mənəvi mədəniyyətin müxtəlif sahələrində aparıcı mədəni-tarixi hərəkatlardan biri kimi çıxış etmiş Romantizm cərəyanı nəinki Sovet, həmçinin postsovet məkanı ədəbiyyatşünaslığında filoloji aspektdən müəyyən şəkildə öyrənilmişdir. Lakin bir cəhəti xüsusi qeyd etmək vacibdir ki, sovet cəmiyyətində hər şeyə, bütün fəaliyyət növlərinə hakim kəsilmiş metodoloji, nəzəri və xüsusilə, ideoloji ehkamçılıq və qəliblər bütün sosio-humanitar sahələr kimi fəlsəfənin də başı üstündən "Domokl qılıncı" kimi asılmışdı. Həmin məkanda tədqiqatçı səriştəsindən və intellektual səviyyəsindən asılı olmayaraq "müəyyən edilmiş" nəzəri, ideoloji və metodoloji stereotiplərdən kənara çıxa bilməzdi. Romantizm cərəyanı nümayəndələrinin irsinin tədqiqatçıları da belə totalitar ideoloji hökmranlığa məruz qalmışdılar. Bu nöqteyi-nəzərdən etiraf etmək lazımdır ki, sovet cəmiyyətində Romantizm cərəyanın tədqiqindəki bu nöqsan və çatışmazlıqlar müəlliflərin ağlı və zəkasının, təfəkkürünün naqisliyi ilə deyil, dövrün, sosial zamanın və sosial məkanın törətdiyi konkret şəraitlə əlaqəlidir. Digər cəhətdən, belə bir məqamı diqqətə almaq lazımdır ki, romantik şair və mütəfəkkirlərin elmi və fəlsəfi irsini öyrənmədə müxtəlif yanaşmalar və qiymətləndirmə meyarları ola bilər. Dövrün sərt şəkildə qoyduğu nəzəri və ideya məhdudluqlarına qarşı heç də hamı eyni cür təpər göstərə bilmir. Fiziki və mənəvi xof və vahimənin ağır təsiri altında çox hallarda müəlliflər bildiklərini yox, tələb olunanı söyləməyə üstünlük verirdilər. Bu isə onların nöqsanı olmaqdan daha çox əqli faciələri idi. Buna görə XVIII əsrin sonlarından etibarən formalaşan və mədəniyyətin müxtəlif sferalarında təzahür edən romantizm cərəyanı da qeyri-obyektiv yanaşma tərzindən uzaqlaşmaq imkanından məhrum idi və dialektik materializm və marksist ideologiyası çərçivəsində "saf-çürük" edilmişdir. Bu ehkamçı tədqiqatçılıq meyli bütün sosio-humanitar sahələr kimi fəlsəfə tarixinə münasibətdə də özünü təzahür etdirmişdir. Bu ciddi nöqsanı aradan qaldırmaq üçün araşdırılan problemin obyektiv elmi-nəzəri, ideoloji, metodoloji plüralizm prinsipi səpgisində tədqiqinin zəruriliyi bir daha aydın olur.

Sosio-mədəni universal cərəyan kimi Romantizmin tədqiqinin aktuallığının ictimai siyasi əsasları.

Romantizmin aktuallığı həm də gerçəklikdə cərəyan edən ictimai, siyasi və ideoloji hadisələrlə də şərtlənir. Fəlsəfi fikir tarixinə dair məsələləri çağdaş siyasi reallıqlardan və ictimai praktikadan təcriddə öyrənmək qeyri mümkündür. Postindustrial cəmiyyətdə sosiumların sistemli transformasiyası, dövlət suverenliyi və milli-mədəni inteqrasiya prinsiplərinə söykənən ənənəvi siyasi sistemlərin və siyasi idarəetmə alətlərinin tədricən zəifləməsi insanlarda rasional

* Məqalə fəlsəfə ü.f.d., dosent Zeynəddin Şabanov tərəfindən çapa məsləhət görülüb.

nizamlanmış ictimai quruluşun perspektivlərinə inamı azaldır. Sosial optimizmin aşınması və rasional səviyyədə əsaslandırılmış ideoloji hədəflərə, «sosial dövlət», «rifah cəmiyyəti» ideallarına qarşı ictimai laqeydliyin mövcudluğu aydın şəkildə nəzərə çarpır. Sanki klassik yüksək humanist dəyərlər həyata keçmiş faktik praktika kimi artıq «öz missiyasını başa vurmuş» təəssüratı yaradır. Bu reallıq isə, tarixi yaddaşla müasirliyin, varisliklə ənənəviliyin əlaqələndirilməsi baxımından, mövcud olduğu ölkələrin milli intibahının ayrılmaz tərkib hissəsi kimi çıxış etmiş Romantizmin ictimai, mədəni və siyasi mühitə sirayətinin, milli və fərdi mənlik şüurunun formalaşdırması vasitələrini düzgün müəyyənləşdirmək təcrübəsinin adekvat nəzəri və metodoloji əsaslarda tədqiqini zərurətə çevirir.

XXI əsrdə geniş vüsət almış şüurun planetarlaşması prosesinin lokal milli mədəniyyətlərin dialoquna köklənməsi, qloballaşmanın milli özünüdərkə və mənəvi dəyərlərə söykənməsinin yeni əsaslarını araşdırmaq, xalqların sosial və mənəvi yaddaşının obyektiv, qərəzsiz öyrənilməsi, hazırda aktual məsələlərdən biridir. Yeni minilliyin başlanğıcında informasiya cəmiyyətinin qərarlaşması, qloballaşma və inteqrasiyanın dərinləşməsi məhz milli mənəvi mədəniyyətə söykənir. Tarixi mədəni dəyərlər irsini, mənəvi sərvətlər sistemini aydın və əhatəli dərk etmədən, mənimsəmədən bəşəri mədəniyyətin gələcək taleyini və sosial tərəqqinin perspektivini müəyyənləşdirmək mürəkkəb məsələdir. Bu baxımdan milli mədəniyyətlərin mahiyyətini və inkişaf meyillərinin tam mənzərəsini formalaşdırmaq üçün ictimai və fəlsəfi fikrin bütün mərhələlərinin, habelə, sosio-mədəni universal cərəyan olmaq etibarilə, Romantizmin dərin tədqiqinə xüsusi ehtiyac duyulur. Çünki, bəşəriyyətin mənəvi mədəniyyət irsini, bu irsi yaratmış görkəmli filosofların yaradıcılığını, sonrakı nəsillərə miras qoyduqları mənəvi sərvətlər sistemini dərk etmədən, mənimsəmədən müasir fəlsəfi situasiyanı anlamaq və gələcək perspektivlərini müəyyənləşdirmək çətindir və mürəkkəb məsələdir.

Şərqdə Romantizmin səciyyəsi.

Romantizm cərəyanı XVIII əsrin əvvəllərindən etibarən qlobal-mədəni məkanda universal fenomen kimi formalaşmış, dünya sosial, fəlsəfi və ədəbi-bədii fikrində özünəməxsus əhəmiyyətli yer tutmuşdur. Fəlsəfi fikir tarixində Maarifçilikdən sonrakı mərhələ kimi səciyyələnən Romantizm mövcudluğu ərzində cəmiyyətin mənəvi həyatının bir çox sferalarına - bədii ədəbiyyata, fəlsəfəyə, musiqiyə, təsviri sənətə, teatra və habelə, sosiologiya, tarixşünaslıq, tibb, təbiətşünaslıq və digər elm sahələrinə sirayət etmişdir. O, aləmin bədii-obrazlı, rasional və irrasional mənimsənilməsinin bütün sahələri ilə – fəlsəfi, təbii, elmi, sosial, siyasi, estetik, etik və s. – birbaşa bağlı olmuş, mövcud olduğu tarixi dövrün və sosial məkanın mənəvi mədəniyyətinin bütün sferalarına nüfuz etmişdir. İctimai inkişafın müəyyən mərhələsində Romantizmin çoxistiqamətli fikir cərəyanı kimi yaranması qanunauyğunluq kəsb edir.

Müxtəlif ölkələrdə təzahür edən Romantizm bu və ya digər xalqın milli tarixi yaddaşının daşıycısı və ifadəçisi kimi dünyanın qavranılması və mənimsənilməsinin özünəməxsus tərəflərini inikas etdirməklə spesifiklik kəsb etmiş, millilik və bəşəriliyin, rəngarənglik və yekcinsliyin bütöv ideya istiqamətində vəhdətini əks etdirmişdir. Bir sıra ziddiyyətli məqamlardan sərfnəzər etsək, həmin cərəyanın Şərqin fəlsəfi və sosial mədəni mühitində də ortaq fəlsəfi problemlər dairəsinə və nəzəri metodoloji prinsiplərə malik olduğunu görmək mümkündür.

Romantizm cərəyanı mövcud olduğu ölkələrin - Amerika, Avropa, Yaxın, Orta və Uzaq Şərqin ictimai-mədəni həyatında milli intibahın ayrılmaz tərkib hissəsinə çevrilərək ideoloji və siyasi həyata nüfuz etmiş, mənsub olduğu millətin mənəvi mədəniyyəti zəmini üzərində inkşaf etmiş, təmsil etdiyi ölkənin mövcud gerçəkliyinin doğurduğu problemlərə özünəməxsus, fəal emosional münasibəti ilə seçilmiş, görkəmli nümayəndələrinin simasında siyasi həyata sirayət etmiş, ideoloji səpgidə təsir göstərməyə nail olmuşdur.

Bütün Şərq ölkələrində Romantizmin sosio-mədəni hərəkat kimi formalaşmasını obyektiv xarakterli amillər şərtləndirmişdir. Bu proses müstəmləkəçilik siyasətinə, xalqın tarixi yaddaşına və milli mənlik şüuruna, dininə, dilinə, milli mənsubiyyətinə qarşı yönəlmiş şovinizm siyasətinə etiraz kimi xalqın oyanması, öz varlığı və mənliyi uğrunda mübarizə əzmi, həmin mübarizədə aparıcı qüvvə kimi tarixi şəxsiyyətlərin yetişdirilməsi zərurəti ilə bağlı olmuşdır. Şərqdə Romantizmin bütün nümayəndələrinin yaradıcılıqlarının ana xəttini məhz belə məqamlar təşkil etmişdir. Mistik, dini və milli-mühafizəkarlıq ideyaları isə həmin prosesin reallaşmasına xidmət edən mənəvi amillər kimi çıxış etmişdir.

Bununla yanaşı, Şərq Romantizmində universal din arzuları milli və dini təəsübkeşlik hisslərindən təcrid olunmuş halda ifadə olunsa da din milli istiqlal mücadiləsinin hərəkətverici qüvvələrindən biri kimi dəyərləndirilmiş, yadelli işğalçılara qarşı milli və ictimai birliyi şərtdləndirən başlıca mənəvi amil kimi səciyyələndirilmişdir. Şərq Romantizmində isə Qərb mədəniyyəti milli ictimai tərəqqinin meyarı kimi təqdir olunmuş, ona rasional konservativ münasibət ifadə edilmişdir. Şərq Romantiklərinin irsinə realizm-romantizm qarşıdurması mövqeyindən yanaşmaq yolverilməzdir. Onların yaradıcılığı son dərəcə ziddiyyətlidir. Şərq romantikləri peşəkar filosof deyirlər. Əlbəttə, onların yaradıcılığında fəlsəfi təfəkkür tərzi ilə poetik təfəkkür tərzinin əlaqələndirilməsinə səmərəli cəhd edilir. Bu məsələlərdə dəqiq meyarlara əsaslanmayan Şərq romantikləri bəzən fəlsəfi təfəkkürə, bəzən isə bədii təfəkkürə üstünlük verirdilər.

Bununla yanaşı, müxtəlif ölkələrdə təzahür edən Romantizm yerli həyat və düşüncə tərzini, dünyanın qavranılması və mənimsənilməsi üsullarını, xalqın tarixi inkişaf yollarını, adət və ənənələrini, milli mənşəyini, dil və mədəniyyətini inikas etdirməklə spesifiklik əxz etmişdi. XIX əsrin II yarısında formalaşan Şərq romantizminin, bir qədər əvvəl təşəkkül tapan Avropa romantizmindən fərqini də, məhz, bu yöndə axtarmaq vacibdir. Gerçəklik və onun inikası zərurətindən çıxış edərək, belə qənaətə gəlmək olar ki, Şərq romantizmi Şərq gerçəkliyinin zəruri tələblərinə, xalqın düşdüyü ağır müstəmləkə vəziyyətindən, sosial bəlalardan çıxış yollarının axtarılması zərurətinə, milli mənlik şüurunun təşəkkülü üsullarının tədqiqinə məntiqi cavab kimi təzahür etmişdir.

Ümumiyyətlə, qeyd etmək olar ki, Qərb və Şərq Romantizmində fəlsəfi problematikanın təfsir və tədqiqində ümumi paralellər və kəsişən məqamlar mövcuddur. Bir sıra ziddiyyətli məqamlarına baxmayaraq söyləyə bilərik ki, Romantizm cərəyanı Şərqdə də rasionalizmin böhranına reaksiya kimi təşəkkül tapmışdır. Qərbdə olduğu kimi Şərq romantikləri də dünyanın, insanın və cəmiyyətin dərk olunmasında irrasional məqamlara – təxəyyülə, dini vəhyə, intuisiyaya və s. üstünlük verirlər. Lakin Şərq romantizmində Qərbə nisbətən maarifçilik elementləri və ictimai siyasi məqamlar özünü daha qabarıq şəkildə təzahür etdirir. İrrasional idrak vasitələrinə xüsusi üstünlük vermələrinə baxmayaraq, Şərq romantikləri özlərinin utopik cəmiyyətlərinin təşkili ideallarında aparıcı rol oynayacaq mükəmməl şəxsiyyət tipinin formalaşmasında elm, təhsil və maarifin mühüm rolunu müntəzəm surətdə qeyd etmişlər. Lakin romantik mütəfəkkirlərin gördükləri və qavradıqları gerçəklik hadisələri və prosesləri ilə onların təsəvvür etdikləri utopik romantik gerçəklik arasındakı ziddiyyətləri görmək çətin deyildir.

Şərq Romantizminə xas olan milli özünəməxsusluqlardan bərtərəf etdikdə, onu bütövlükdə vahid dünya Romantizminin tərkib hissəsi və elementi kimi dəyərləndirmək olar.

Romantizmin fəlsəfi aspekti: nəzəri qaynaqları və başlıca məsələləri.

Romantizm fəlsəfəsi özünəməxsus və orijinal cəhətlərə malik olsa da ideya nəzəri cəhətdən özündən əvvəlki irsdən bəhrələnmiş, klassik və postklassik fəlsəfi ənənələr zəminində formalaşmışdır. Sokratın özünüdərki kamilliyə cəhd kimi dəyərləndirməsi, ironiyanın qnoseoloji rolu haqqında mülahizələri, Platonun yaradıcılıq prosesini ideallaşdırması və ideyalar aləmi,

neoplatonizmin ilahi yaradıcı ruhun təbiətdə təzahürü, Orta əsrlərin teosentrizmi, Spinozanın panteizmi, Russo və Herderin xalq ruhu ideyası, Kantın "özündəşeylər" aləmi, Hegelin "Qut" ideyası və tarix fəlsəfəsi və s. Romantizm fəlsəfəsinin ideya mənbələrini təşkil etmişdir.

Romantizm dövründə sosio-mədəni həyatın müxtəlif sahələrinə fərqli və özünəməxsus yanaşmalar, fəlsəfi problemləri tədqiq üsulları və yeni meyarlar sonralar tədqiqatçılar tərəfindən inkişaf etdirilmiş və müasir dövrə qədər elmi-nəzəri fikirdə aktuallığını saxlayan metodoloji istiqamətlərə çevrilmişdir.

Romantizm fəlsəfəsində gerçəkliyin hadisə və predmetləri vahid universumun çoxcəhətli təzahürü kimi tədqiq olunur, ontoloji və qnoseoloji məsələlər ümumivəhdət kontekstində araşdırılır. Romantik filosoflar varlıq və idrakın vəhdətini və eyniyyətini qəbul edərək fəlsəfi problemlərin dərk olunmasını məhz bu səpgidə əsaslandırmağa cəhd edirdilər. Sonralar post-qeyri-klassik fəlsəfədə şüur və varlıq qarşıdurması problemindən imtina edilməsi məhz Romantizm fəlsəfəsi ənənəsindən qaynaqlanmışdır.

Romantizm fəlsəfəsində varlıq mütləq yaradıcının öz-özünü dərk etməsi istəyinin, özünü özgələşdirmənin məhsulu olmaqla, ilahi atributların və simvolların təzahürüdür. Varlığın sirləri məntiqi təfəkkürün deyil məhz irrasional və ezoterik biliyin imkanları sayəsində idrakın obyekti ola bilər.

Romantizm fəlsəfəsində mif, din, dil, bədii ədəbiyyat, musiqi, rəsm əsərləri və bu qəbildən olan mənəvi həyat fenomenləri tədqiqat obyekti olmaqla yanaşı, həm də romantik təfəkkürün əsaslandığı başlıca idraki vasitələr rolunda çıxış edir.

Romantizm nümayəndələrinin fəlsəfənin klassik problematikası və predmetinə qeyri-ənənəvi yanaşması mifologiya, mistika və panteizmin dirçəlməsinə səbəb olmuş, fəlsəfi fikir tarixində ezoterizm və irrasionalizm meyillərini daha da dərinləşdirmişdir.

Romantik filosoflar belə hesab edirlər ki, universumun vahidi olmaq etibarilə insan varlığın sirrlərinin daşıyıcısıdır. İnsanın özünü dərk etməsi bütövlükdə kainatın dərk edilməsidir. Öz-özünü dərk edən insan fərdi imkanlarının sonsuzluğunu və möhtəşəmliyini anlayaraq, şəxsiyyət kimi ictimai münasibətlərin obyekti deyil, məhz subyekti kimi çıxış edir, qəhrəman və dahi səviyyəsinə yüksəlir, tarixi prosesləri istiqamətləndirmək bacarığına və qabiliyyətinə malik olur. Fərdi özündərk həm də milli identifikasiyanın təməli kimi çıxış edir.

Fəlsəfi romantizmdə etiqad fəlsəfi təfəkkürün predmeti kimi çıxış edir, Allah teologiyanın deyil, teosofiyanın obyekti kimi səciyyələndirilir. Dində sxolostik ehkamlardan daha çox, mistika və xürafata üstünlük verən romantiklər Tanrını sadəcə etiqad obyekti kimi deyil, möhtəşəm gözəlliyin, təbii harmoniyanın yaradıcısı kimi təqdir etməyi əsaslandrmağa səy göstəririrdilər. Romantiklər fəlsəfəni akademik elmi bilik sahəsi kimi rasional və məntiqi təfəkkürün tədqiqat obyekti «hədlərini aşmağa», fəlsəfəni bütün biliklərin inteqrativ sahəsi, daha geniş universal dünyagörüşün predmeti kimi tədqiq etməyə cəhd edirdilər. Romantizmdə fəlsəfə sözün əsl mənasında müdrikliyə məhəbbətin, hikmətə ehtiramın simvolu kimi öz ali səviyyəsinə yüksəlir. Romantizm cərəyanına hərtərəfli baxış belə bir nəticəyə gəlməyə əsas verir ki, bu cərəyanın inkişafı üç mərhələdən keçmişdir: Birinci mərhələ cərəyanın təşəkkülünü və erkən dövrünü, ikinci mərhələ onun geniş sferalarda gerçəkləşməsi və universal hərəkata çevrilməsini, üçüncü mərhələ isə Romantizmin süqutunu və fəlsəfi ənənələrinin digər fikir cərəyanlarında davamını ehtiva edir.

Fəlsəfədə Romantizm ənənələri.

Fəlsəfə və ictimai fikir tarixində Romantizmin təsiri və ənənələri bir çox fəlsəfi məktəblərdə və filosofların yaradıcılığında sezilir. Xüsusilə, Romantizm cərəyanı nümayəndələrinin mifologiya, etiqad, poeziya, musiqi və sənətə fəlsəfi baxışları Şopenhauer və Nitsşe kimi bir çox fikir dühalarının, o cümlədən, A.Berqson, M.Haydegger, S.Kerkeqor, A.Kamyu,

Diltey, J.Derrida, M.Fuko və digərlərinin yaradıcılıqlarında davam etdirilmiş və yeni şəkildə dəyərləndirilmişdir. Bəhs olunan bu filosofların dünyagörüşündə aydın təzahür edən romantik təsir və ənənələr həmin mütəfəkkirləri Romantizm fəlsəfəsi ənənələrinin davamçısı kimi səciyyələndirməyə imkan verir.

Belə mühakimə irəli sürmək olar ki, postklassik və post-qeyri-klassik fəlsəfə Romantizmin ənənələrinə əsaslanaraq formalaşmışdır. Universal sosio-mədəni cərəyan olmaq etibarilə Romantizmin yeni "alternativ fəlsəfə"nin və müasir humanitar təfəkkürün ilkin tarixi nəzəri qaynaqlarından biri kimi dəyərləndirilməsi, onun fəlsəfi müstəvidə araşdırılması və ənənələrinin öyrənilməsinə cəhd tədqiqatımızı aktuallaşdıran məziyyətlərdəndir.

Neoromantizm və Postromantizm dövrünün bir çox nümayəndələrinin fəlsəfi dünyagörüşünün təhlili belə bir elmi qənaətə gəlməyə əsas verir ki, Romantizm fəlsəfəsinin nəzəri-ideya və metodoloji prinsipləri sonralar daha sistemli şəkildə fəlsəfi cərəyanlarda öz əksini tapmışdır. Xususilə, Modernizm və Postmodernizm nümayəndələrinin yaradıcılığında Romantizm fəlsəfəsi ənənələrinin yeni şəkildə dəyərləndirməsi bu fikir cərəyanını fəlsəfə tarixinin önəmli zəruri mərhələsi kimi səciyyələndirməyə imkan yaradır.

Nəticə.

Məqalədə tədqiqatın başlıca elmi nəzəri müddəalarından biri bundan ibarətdir ki, Romantizm çoxşaxəli bir cərəyan olaraq ictimai inkişafın müəyyən mərhələsində qanunauyğun surətdə yaranmışdır. Fəlsəfi fikir tarixində Maarifçilikdən sonrakı mərhələ kimi təşəkkül tapmış Romantizm cərəyanı XVIII əsrin sonu XX əsrin əvvəlləri qlobal-mədəni məkanda universal fenomen kimi dünya, o cümlədən, Şərq xalqlarının sosial, fəlsəfi və ədəbi-bədii fikrində özünəməxsus yer tutmuşdur.

Fəlsəfi fikirdə postklassik dövrün əsasını qoyan Romantizm fəlsəfəsi ənənələrindən Ekzistensializm, Həyat fəlsəfəsi, Modernizm, Postmodernizm kimi cərəyanlar bəhrələnmişdilər. Xüsusilə, XX əsrdən etibarən fəlsəfi məkanda üstünlük edən ssyentizm və rasionalizm tendensiyalarına qarşı əvvəl Modernizm, bir qədər sonra isə Postmodernizm cərəyanının təşəkkül tapması Romantizm fəlsəfəsi ənənələrinin dirçəlməsi və yeni şəkildə dəyərləndirilməsi ilə bağlı olmuşdur. Modernizm, Postmodernizm nümayəndələrinin simasında Romantizm ənənələri XX əsrin sonu və XXI yüzilliyin əvvəlləri davam etməklə fəlsəfi fikirdə romantik tendensiyanın dərinləşməsinə və inkişafına səbəb olmuşdur.

Açar sözlər: Romantizm, fəlsəfi fikir, Qərb və Şərq, Postmodernizm, postklassizm, postqeyri-klassik fəlsəfə, ənənə.

İstifadə olunmuş ədəbiyyat

1. Russel B. History of Wester Philosophy. London: Routledge, 1999, 842 p.
2. Reale J., Antiserri D. Western philosophy from background to nowadays. V.4 (From Romanticism up to present). TOOTK "Petropolis" StP, 1997, 880p.
3. Gadamer H.G. Das Problem Diltheys. Zwischen Romantik und Pozitivismus //Gadamer H.G. Gessammelte Werke/ Tuebingen, 1999. Bd. 4. S. 423.
4. Nikolas Kompridis. Philosophical romanticism, Routledge, 2006, 304 p.
5. Manfred Frank. The philosophical foundations of early German romanticism, SUNY Press, 2004, 286 p.
6. Məmmədova A.S. Məhəmməd Hadi Romantizminin fəlsəfəsi. Bakı: İqtisad Universiteti, 2003, 168 s.

7. Спиркин А.Г. Философия. Романтизм. Немецкая классическая философия. http://society.polbu.ru/spirkin_philosophy/ch75_i.html
8. Дианова В.М. Постмодернистская философия искусства: истоки и современность. СПб.: ООО Издательство «Петрополис»», 1999, 240 с.

Афаг МАМЕДОВА

РОМАНТИЗМ КАК УНИВЕРСАЛЬНЫЙ ФЕНОМЕН ГЛОБАЛЬНОГО-КУЛЬТУРНОГО ПРОСТРАНСТВА

Резюме

В статье проводится исследование романтизма как особо важного этапа в истории глобального литературного пространства и философской мысли. Отмечается, что романтизм, характеризующийся как социально-культурное универсальное течение, зародился непосредственно как последующий важный этап в истории философской мысли. Согласно автору, несмотря на различия в пространстве и во времени, романтизм как определенный этап развития духовной культуры Востока и Запада представляет целостное и законченное идейное течение в истории общественной и философской мысли.

Ключевые слова: романтизм, философская мысль, Запад-Восток, постмодернизм, постклассицизм, постнемодернистская философия, традиция.

Afag MAMMADOVA

ROMANTICISM AS A UNIVERSAL PHENOMENON IN THE GLOBAL-CULTURAL AREA

Summary

The article studies Romanticism as a stage of special significance in the development of the global-cultural area and the history of philosophical thought. It is noted that Romanticism characterized as a universal social and cultural trend was established naturally as an important and subsequent stage in the history of philosophical thought. According to the author, despite the differences in space and time, Romanticism characterized as a certain stage in the development of Eastern and Western spiritual culture, presents an integral and complete ideology trend of the history of social and philosophical thought.

Keywords: Romanticism, philosophical thought, the East and West, postmodernism, post-classicism, postnonclassical philosophy, tradition.

UOT 101.1: 316

Rövşən HACIYEV
b.e.i., fəlsəfə ü.f.d., AMEA FHİ

TARİXİ PROSESƏ DAHA BİR BAXIŞ*
(Sosial-fəlsəfi təhlil)

Bəşəriyyət öz intellektual inkişafının müasir, daha sivil səviyyəsinə çatması üçün (burada sosial təkamülün elə bir inkişaf mərhələsi nəzərdə tutulur ki, artıq insan azadlığı prinsipi yalnız ayrı-ayrı dövlətlərin deyil, ümumən beynəlxalq hüququn başlıca qanununa və ya normasına çevrilir) uzun və keşməkeşli tarixi yol keçmişdir. Qeyd etmək lazımdır ki, vahid bəşəriyyət anlamının formalaşması tarixi baxımdan yaxın keçmişə, Avropanın Maarifçilik dövrünə (İ.Q.Hörder) təsadüf edir. Təqribən bu dövrdən başlayaraq Avropanın bir sıra böyük mütəfəkkirləri ictimai inkişafın ümumi qanunauyğunluqlarını ortaya çıxarmağa cəhd etmişlər. Bu istiqamətdə daha çox materialist (marksizm) və idealist (Hegel) yönlü nəzəriyyələr şöhrət tapmışdır. Yeri gəlmişkən qeyd etmək istərdik ki, ictimai inkişafın məlum konsepsiyaları, xüsusən postsovet məkanında daha çox tanınan marksizm təlimi tarixi prosesdə mərhələli şəkildə baş qaldıran və qlobal səciyyə daşıyan hadisələrin hansı səbəbdən ortaya çıxması sualına ziddiyyətsiz şəkildə cavab verə bilmir. Belə tarixi hadisələrə misal olaraq aşağıdakıları qeyd etmək mümkündür:

- nə üçün tarixi inkişafın mezolit və ya protoneolit mərhələsində əvvəllər, yəni paleolitin on və hətta yüz minillikləri əhatə edən dövrü ərzində sırf yığıcılıq və ovçuluq fəaliyyəti ilə məşğul olan insanlar nisbətən qısa zaman kəsiyində bitki və heyvanların domestikasiya olunmaları istiqamətində ilk addımlarını ata bildilər, kollektiv həyat tərzindən fərdi fəaliyyətə meyl göstərdilər, ox və kamanı kəşf etdilər və ümumən keyfiyyətcə yeni həyat tərzinə üz tutdular?;
- nə üçün neolit dövründə əvvəllər ovçuluğa və yığıcılığa üstünlük verən, daha çox köçəriliyə meylli olan icmalar nisbətən qısa zaman ərzində oturaq həyat tərzinə keçid etdilər, maldarlıqla məşğul oldular və irriqasiyaya əsaslanan iri əkinçilik təsərrüfatları yarada bildilər, dulusçuluğu və metallurgiyanı kəşf etdilər (1, s.63)?;
- nə üçün ilk sivilizasiyalar dövründə ilk şəxsiyyətlər, yəni hökmdarlar və ali kahinlər meydana gəldi, dastanlar yaradıldı, yazı kəşf edildi, cəmiyyətdə sosial differensiasiya baş verdi və insanlar elmlə məşğul olmağa başladılar?;
- nə üçün zaman oxu dövründə (K.Yaspersin ifadəsi ilə desək) ilk müdriklər, peyğəmbərlər və filosoflar meydana gəldi, yəni tarixdə ilk dəfə olaraq azad düşüncə sahibləri öz təlimləri ilə çıxış etdilər və bununla da bəşəriyyət tabulardan azad oldu, mifoloji dünyagörüşün hüdudlarını aşa bildi?

Bu tip sualların sayını bir qədər də artırmaq olardı, lakin qaldırılan problemin dərki baxımından sadəcə buna yəqin ki, ehtiyac qalmır. Belə ki, tarixi prosesdə mərhələli şəkildə qlobal əhəmiyyətli hadisələr cərəyan etmişdir ki, onların təsiri nəticəsində insanların çox minillik monoton həyat tərzində qısa zaman kəsiyində köklü dəyişikliklər baş qaldırmışdır. Bu hadisələrin hansı səbəbdən baş verməsi məsələsinə isə indiyə qədər dolğun, ziddiyyətsiz izah verilməmişdir. Daha konkret desək, postsovet məkanında indi də öz nüfuzunu saxlamaqda olan marksizm təlimi yuxarıda qaldırılan sualları birmənalı şəkildə cavablandıra

* Məqalə fəlsəfə ü.e.d. Afaq Rüstəmova tərəfindən çapa məsləhət görülüb.

bilməmişdir. Dediyimiz fikrin qəbul edilməsi üçün ilk sivilizasiyalar dövründə baş vermiş hadisələrin marksist nöqteyi-nəzərindən izahına bir daha səy göstərək.

Marksizmə görə, dövlətlər ona görə təşəkkül tapmışdır ki, həmin dövrdə (e.ə. IV minilliyin sonunda) irriqasiyaya əsaslanan əkinçilik təsərrüfatları yaradılmış və bunun nəticəsində əldə edilən əlavə gəlir cəmiyyətdə sinfi təbəqələşmənin baş tutmasını şərtləndirmişdir. Beləliklə də, ilk padşahların, eləcə də yazının meydana gəlməsi mümkün olmuşdur. Tarixi hadisələrin bu cür ənənəvi şərhi ilk baxışdan məntiqli görünür və elə təəssürat yaradır ki, marksist yanaşma dövlətlərin yaranmasını ziddiyyətsiz şəkildə izah edə bilir. Lakin bu yerdə məntiqi şəkildə irəli sürülən sual məsələnin ziddiyyətsiz şərhini mümkünsüz edir – bəs nə üçün ilk dövlətlər məhz e.ə. IV minillikdən etibarən meydana gəlmişdir? Nə üçün bu proses əvvəlki dövrlərdə təzahür etməmişdir? Bu sualların ənənəvi cavabı belədir ki, əvvəllər iri əkinçilik təsərrüfatları olmamışdır və ona görə də əlavə gəlir əldə edilməmişdir, cəmiyyətdə sosial təbəqələşmə hələ baş tutmamışdır. Lakin arxeoloji tədqiqatlar belə cavabı şübhə altına alır. Artıq mütəxəssislərə yaxşı məlumdur ki, hələ e.ə. VI minillikdə Yaxın Şərqdə iri şəhərlər mövcud olmuş (Hacılar, Çatal-Hüyük və s.), o arada məbədlər inşa edilmiş, cəmiyyətdə sosial differensiasiya artıq baş tutmuş və heç şübhəsiz ki, əlavə gəlirin meydana gəlməsi mümkün olmuşdur. Lakin şübhə edən oxucuların diqqətini arxeoloji tədqiqatlar sahəsində əldə edilən daha bir yeni fakta çəkə bilərik. Belə ki, Suriya ərazisində yerləşən və Tel-Zeydan adlanan təpəlikdə aşkar edilən artefaktlar ilk dövlətlərin meydana gəlməsi üçün tələb olunan əsas şərtlərin mövcudluğundan xəbər verir. Lakin ilk dövlətlər, məlum olduğu kimi, VI minillikdə deyil, məhz IV minillikdə meydana gəlməyə başlamışdır. Bu yerdə konkret arxeoloji faktlara diqqət yetirək: "ABŞ-ın Çikaqo Universitetinin Şərq İnstitutu əməkdaşlarının və onların suriyalı həmkarlarının heç bir şübhəsi yoxdur ki, bu arxeoloji tapıntı Ubeyd mədəniyyətinin (e.ə. təqribən 5300-4000 illər arasında mövcud olmuşdur) ən mühüm tarixə qədərki məskənlərindən biridir. Artefaktlar ondan xəbər verir ki, bu şəhər mis metallurgiyasının və dulusçuluq istehsalının yaxşı inkişaf etdiyi ticarət-sənaye mərkəzi olmuşdur. Faktlar belə deməyə əsas verir ki, burada artıq sinfi cəmiyyət təşəkkül tapmışdır. Belə ki, imtiyaz sahiblərinin şəxsi mülkiyyətə malik olduqlarını bildirən daş möhürlər aşkar edilmişdir. Beləliklə, Ubeyd mədəniyyəti Yaxın Şərqdə irriqasiyaya əsaslanan əkinçiliyin və mərkəzləşdirilmiş məbəd təsərrüfatlarının geniş yer tapdığı bir dövr olmuşdur. Məhz bu dövrdə ilk tayfa başçıları meydana gəlmiş, sosial bərabərsizlik baş qaldırmışdır" (2). Maraqlıdır ki, bu cür faktların mövcudluğuna baxmayaraq, mütəxəssislər adları yuxarıda qeyd edilən şəhərləri "protoşəhər" (yəni erkən şəhər) kimi təqdim edirlər və hələ e.ə. VI minillikdə yaranmış böyük mədəniyyətləri *sivilizasiya* və ya *dövlət* adlandırmırlar. Yəqin ona görə ki, həmin dövrdə hələ yazı meydana gəlməmişdir, ilk hökmdarlar peyda olmamışdır. Lakin nə üçün? Bu suallar isə öz cavabını gözləyir.

Yeri gəlmişkən, tarixi prosesdə baş qaldırmış qlobal əhəmiyyətli hadisələrin izahı yalnız tanınmış fəlsəfi və ya sosioloji konsepsiyalar əsasında aparılmır. Bəzi hallarda bu hadisələrin baş vermə səbəbləri ekoloji, yəni təbii amillər vasitəsilə izah edilir. Belə ki, bir çox mütəxəssislər mezolitdə baş vermiş qlobal dəyişikliklərin izahını məhz ekoloji amil əsasında aparırlar. Məs., mütəxəssislər hesab edirlər ki, pleystosendən holosenə keçid dövründə iqlimdə baş vermiş istiləşmənin səbəbindən iri heyvanlar (mamontlar və d.) yoxa çıxmış və nəticədə, insanlar fərdi ovçuluqla məşğul olma zərurətindən oxu və kamanı kəşf etmiş və həyat tərzində digər köklü dəyişikliklər aparmağa meyl göstərmişlər. Lakin arxeoloji faktlar bu cür izahın aparılmasına da şübhə ilə yanaşmağa əsas verir. Belə ki, mezolit dövründə oxun və kamanın yayılması yalnız istiləşmənin baş qaldırdığı buzlaqətrafı ərazilərdə deyil, floranın və faunanın dəyişmədiyi isti bölgələrdə də (yəni tropik və subtropik regionlarda) özünə yer tapmışdır. Bu barədə yay üclüqlarının aşkar edildiyi mezolit dövrünə dair Hindistanda (3,

s.156) və Cənubi Afrikada (3, s.182) əldə olunan arxeoloji tapıntılar (bunlara daşdan düzəldilən həndisi mikrolitlər deyilir) xəbər verir.

Lakin tarixi prosesdə baş vermiş qlobal əhəmiyyətli hadisələrin məlum nəzəriyyələr və ya təbii amillər əsasında verilən izahları daha bir ciddi məsələnin ortaya çıxması səbəbindən öz əhəmiyyətini itirmiş olur. Məsələ burasındadır ki, haqqında danışdığımız tarixi hadisələr yüz minillikləri əhatə edən paleolit dövrünə nəzərən qısa zaman kəsiyində təzahür etmişdir. Konkret olaraq, bəşər övladının, yəni neoantropun təqribən 40 min il bundan öncə meydana gəlməsi qısa bir zaman kəsiyində (paleolit dövrünün ümumi müddəti fonunda) baş verdiyi səbəbindən mütəxəssislər bu tarixi hadisəni *üst paleolit inqilabı* kimi dəyərləndirmişlər (4). Bu kontekstdə ilk dəfə məşhur ingilis arxeoloqu Q.Çayld tərəfindən əsaslı şəkildə səciyyələndirilən neolit inqilabını da qeyd etmək lazımdır. Maraqlıdır ki, neolit dövründə baş verən inqilabi hadisələr yalnız arxeoloqların və ya paleoantropoloqların (5, s.164-165) deyil, həm də təbiət elmləri nümayəndələrinin (6) heyrətinə səbəb olmuşdur. Bu yerdə dialektikanın məlum qanunu (kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişikliyinə keçməsi) əsasında tarixdə baş verən inqilabi hadisələrin izahı vəziyyətdən çıxış yolu kimi təsəvvür edilə bilər. Lakin növbəti sualın qoyuluşu bu cəhdin də uğursuzluğundan xəbər verir: tarixi proseslərin sinxron şəkildə, dünyanın müxtəlif bölgələrində və mərhələli şəkildə baş verməsini hansı səbəblə izah etmək olar? Axı təsəvvür etmək mümkün deyil ki, dünyanın fərqli rayonlarında yaşayan ibtidai insanlar öz aralarında həyat tərzinin köklü şəkildə dəyişdirilməsi ilə bağlı razılığa gəlmiş və nəticədə, dialektikanın məlum qanununun reallaşdırılmasına nail olmuşlar. Gəlin bu kontekstdə məlum elmi mənbələrə müraciət edək: 1. Neoantropun (müasir elmi terminologiyada mənsub olduğumuz bioloji növ həm də "Homo sapiens sapiens" adı ilə tanınır) meydana gəlməsi dünyanın fərqli bölgələrində, eyni zamanda təqribən 39 min il bundan öncə baş vermişdir (7, s.34; 8, s.37); 2. Mezolit dövründə domestikasiyanın ilk rüşeymlərinin baş qaldırması, oxun və kamanın meydana gəlməsi dünyanın müxtəlif regionlarında (Meksikada, Tailandda və Yaxın Şərqdə e.ə. X-IX minilliklərdə) sinxron şəkildə təzahür etmişdir (9, s.159; 10, s.255); 3. Neolit dövründə ərzaqı istehsal edən təsərrüfata keçid (e.ə. VII-VI minilliklər) nisbətən paralel şəkildə, dünyanın fərqli ərazilərində və bir-birindən asılı olmadan baş tutmuşdur (3, s.263; 10, s.253-255; 11, s.115); 4. E.ə. IV minillikdə İlk dövlətlərin meydana gəlməsi (Mesopotamiyada, Qədim Misirdə, Qədim Hindistanda və s.) sinxron şəkildə, dünyanın müxtəlif bölgələrində müstəqil şəkildə mümkün olmuşdur (12, s.26; 13, s.332; 14, s.42-44); 5. Zaman oxu dövründə (e.ə. I minillikdə) ilk peyğəmbərlərin və filosofların meydana gəlməsi paralel şəkildə dünyanın fərqli bölgələrində baş vermişdir (14, s.33). Yuxarıdakı misallarda qlobal hadisələr arasındakı üç minillik fərq açıq-aşkar diqqət çəkir. Bəşər tarixində özünü büruzə vermiş və paralel şəkildə təzahür etmiş (bəlkə də əhəmiyyəti baxımından əvvəlkilərdən daha az əks-səda doğurmuş) hadisələrin sayını artırmaq da mümkündür (məs., üst paleolitdə "paleolitik Veneraların" düzəldilməsi, ilk sivilizasiyalar dövründə meqalitik tikililərin paralel şəkildə meydana gəlməsi və s.), lakin misalların çoxaldılması qarşıya çıxan sualın cavablandırılması baxımından elə də əhəmiyyət daşımayacaqdır. Məntiqi şəkildə ortaya çıxan sualı isə bir daha səsləndirək və onun cavablandırılmasına səy göstərək: sinxron şəkildə ortaya çıxan və mərhələli şəkildə təzahür edən qlobal əhəmiyyətli tarixi hadisələr hansı səbəbidən baş vermişdir?

Əslində qaldırılan sualın ətraflı, elmi faktlara söykənən cavabını uzun illər apardığımız elmi tədqiqatlarda (15), beynəlxalq konfranslardakı çıxışlarımızda (16) və 2013-cü ildə Afina şəhərində keçirilən filosofların XXIII Dünya Konqresində etdiyimiz məruzəmizdə [17] verməyə çalışmışıq. Apardığımız elmi fəaliyyətdə tədqiqatların metodoloji aspektləri də öz əksini tapmışdır. Bu kontekstdə qaldırılan sualların cavablandırılması baxımından metodoloji əhəmiyyət daşıyan və tərəfimizdən irəli sürülən ***bəşəriyyətin intellektual təkamülünün yaş***

dövrləşdirilməsi hipotezasının əsas müddəalarının bir daha ifadə olunmasını məqsədəuyğun hesab edirik:

1. Neoantrop, yəni bəşəriyyət vahid sosiomədəni sistem olaraq yarandığı gündən indiyə kimi intellektual inkişaf etməkdədir;

2. İntellektual inkişaf immanent xarakterlidir və müəyyən qanunauyğunluqla baş verməkdədir;

3. Bu qanunauyğunluq bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası əsasında müəyyən edilir;

4. Yaş dövrləşdirilməsi ontogenez və filogenezdə baş verən intellektual inkişafın müqayisəli təhlili əsasında aparılır;

5. Tədqiqatlar göstərir ki, ontogenezə müvafiq olaraq filogenezdə neoantropun intellektual inkişafı prosesində qanunauyğun şəkildə müəyyən yaş dövrləri özünü büruzə verməkdədir;

6. Müəllif tərəfindən aparılan tədqiqatlar belə deməyə əsas verir ki, bəşəriyyət intellektual təkamülü prosesində hər üç min ildən bir "1" yaş böyüməkdədir (16, s.268);

Konkret misallar vasitəsilə yuxarıda qeyd edilən tezislərin əhəmiyyətinin üzə çıxarılmasına cəhd göstərək. İlk növbədə onu vurğulamaq lazımdır ki, tərəfimizdən ilk dəfə dissertasiya işində irəli sürülən (18, s.118-138) bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası tarixdə baş verməkdə olan qlobal əhəmiyyətli hadisələrin sinxronluğunu və mərhələləli qaydada baş verməsini ziddiyyətsiz şəkildə izah edə bilir. İndi isə irəli sürülən hipoteza əsasında qeyd etdiyimiz tarixi proseslərin şərhinə cəhd edək. Konkret olaraq mezolitdə baş vermiş köklü dəyişikliklərin baş verməsi səbəbini bəşəriyyətin öz intellektual inkişafında "9" yaşa çatması (əgər 9 rəqəmini ölçü vahidinə, yəni üç min ilə vursaq, 27 min il cavabını alacağıq; 39 min ildən 27 min il çıxıldığı təqdirdə 12 min ili, yəni e.ə. X minilliyi müəyyənləşdirmiş olacağıq) amili ilə izah edə bilərik. Belə ki, ontogenez prosesinə nəzər salıb J.Piajenin fikirlərindən ayırd edə bilərik ki, 9 yaşlı uşaqlarda üç ölçülü məkan qavrayışının və eynivaxtlılıq hissinin yaranması qabiliyyəti özünü büruzə verir (19, s.199). Filogenezə nəzərən bu o deməkdir ki, bəşər övladı tarixi inkişafının "9" yaşında məkanın "bu yerindən" və zamanın "indisindən" azad ola bilmiş və beləliklə də, həyat tərzində köklü dəyişikliklərin aparılmasına nail olmuşdur. Başqa sözlə, filogenezdə mezolit dövrünün insanlarında yeni üç ölçülü statik məkan qavrayışının meydana gəlməsi imkan vermişdir ki, A.Lerua-Quranın ifadəsi ilə desək, fərdlər "marşrut məkan" hissindən azad olmaqla (3, s.510-511) individual ovçuluğa meyl göstərsinlər. Digər tərəfdən, zamanın indisindən azad olub keçmişə nəzər salmağı bacararaq əcdadların kultu fenomenini yarada bilsinlər. Bu baxımdan heç də təsadüfi deyildir ki, kollektiv məzarlıqlar məhz mezolit dövründən etibarən meydana gəlmişdir, çünki keçmişi yada salmadan buna nail olmaq sadəcə mümkün deyildi. Eynilə yabanı bitkilərin müəyyən sahədə əkilərək nə vaxtsa məhsul verəcəyini anlamaq üçün insanlarda statik məkanın və eynivaxtlılıq hissinin meydana gəlməsi zəruri idi.

Mezolitdən üç min il keçdi və neolit inqilabı adlandırılan tarixi dövrün hadisələri təzahür etməyə başladı. Onotogenezlə müqayisə zəminində aşkar etmək olar ki, bəşəriyyətin "10" yaşa çatdığı neolit dövründə bəzi insanlarda refleksiyanın ilk rüşeymləri baş qaldırmışdır (20, s.279). Nəticədə, tədricən sırf kollektiv təsəvvürlərdən azad olma hesabına fərdi şüurun və deməli, individual maraqların ortaya çıxması üçün intellektual zəmin yaranmışdır. Başlayan bu proses cəmiyyətdə sosial differensiasiyanın meydana gəlməsinə yol açmışdır (əvvəlcə ailə və qəbilə, sonra isə tayfa başçılarının, ağsaqqallar şurasının ortaya çıxması). Üç ölçülü məkan qavrayışının tam şəkildə bərqərar olması isə irriqasiyaya əsaslanan iri əkinçilik təsərrüfatlarının meydana gəlməsini mümkün etmişdir. Lakin dövlətin və yazının təşəkkül

tapması üçün bu intellektual qabiliyyətlər hələ yetərli deyildi. Bunun üçün refleksiyanın tam şəkildə təzahür etməsinə ehtiyac var idi, yəni ontogenezə analoji olaraq bəşəriyyətin "11" yaşının tamam olması zəruri idi (19, s.202). Bu tarixi hadisə isə üç min ildən sonra mümkün oldu. Beləliklə, məhz ilk sivilizasiyalar dövründə şəxsiyyət amilinin ortaya çıxması nəticəsində hökmdarlar meydana gəldi ki, bu da dövlətlərin yaranmasına səbəb oldu. Eləcə də yazının meydana gəlməsi üçün refleksiyanın, yəni abstrakt təfəkkürün meydana gəlməsinə zərurət var idi ki, bu da məhz e.ə. IV minillikdən etibarən gerçəkləşdi. Bu baxımdan heç də təsadüfi deyil ki, elmlərin meydana gəlməsi də həmin tarixi dövrə təsadüf edir. Lakin baş verən intellektual dəyişikliklər yalnız bir neçə şəxsiyyətlərin meydana gəlməsi üçün yetərli ola bilərdi. Şəxsiyyət amilinin geniş şəkildə təzahür etməsi üçün, başqa sözlə insanlarda azad təfəkkürün meydana gəlməsi üçün intellektual inkişafda "12" yaşın tamam olması, yəni formal məntiqin tam şəkildə ortaya çıxması tələb edilirdi. Məlumdur ki, ontogenezdə məhz bu yaş dövründə fərdlərin artıq tam şəkildə şəxsiyyətə çevrilməsi baş verir (21, s.779). Eləcə də zaman oxu dövründə, yəni e.ə. I minillikdə bəşər övladının məhz "12" yaşına çatmısı hesabına ilk filosofların, peyğəmbərlərin, yəni öz şəxsi adından danışan, cəmiyyətin tabularından yaxa qurtarmağı bacaran azad fikirli insanların tarix səhnəsinə çıxması mümkün olmuşdur.

Çəkilən misallardan aydın olur ki, müəllif tərəfindən irəli sürülən bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası tarixi prosesdə təzahür etmiş qlobal hadisələrin hansı səbəbdən baş verməsi sualını cavablandıra bilir. Bu məqalədə qaldırılan sualların cavablandırılması və tədqiqatın gedişində konkret elmi faktlara istinad edilməsi tarixi hadisələrin izahı baxımından bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezasının əhəmiyyətini üzə çıxarmağa imkan verir. Beləliklə tədqiqatın gedişi boyu tarixi prosesə daha bir baxış həyata keçirildi və ictimai inkişafın maraq doğuran bir sıra qlobal əhəmiyyətli hadisələrinin baş verməsi səbəbləri işıqlandırıldı. Belə demək mümkünsə, tərəfimizdən irəli sürülən hipoteza bəşər tarixinin bir sıra çətin məsələlərinin dərkinə imkan verir, baş verən tarixi hadisələrin ziddiyyətsiz izahını mümkün edir, onların paralel şəkildə, bir-birindən asılı olmadan və mərhələli şəkildə təzahür etməsi problemlərinə aydınlıq gətirir və bununla da marksizmə və digər tanınmış ictimai inkişaf konsepsiyalarına alternativ olan bir nəzəriyyə kimi çıxış edir.

Açar sözlər: ontogenez, filogenez, tarixi proses, homo sapiens sapiensin intellektual yaş dövrləşdirilməsi, bəşəriyyətin intellektual təkamülü.

İstifadə olunmuş ədəbiyyat

1. Мунчаев Р.М. Культуры дописьменной Месопотамии. Наука и человечество, М., 1991, 400 с.

2. В Сирии найден один из крупнейших протогородов древности, http://historic.ru/news/item/f00/s07/n0000733/ (информация от 04.07.2010, дата просмотра: 11.04.2014).

3. История первобытного общества. Эпоха первобытной родовой общины (под ред. академика Ю.В.Бромлея). М., «Наука», 1986, 574 с.

4. Вишняцкий Л.Б. Верхнепалеолитическая революция: география, хронология, причины. //Журнал «STRATUM plus», №1, 2000.

5. Тейяр де Шарден П. Феномен человека. М.: «Наука», 1987, 240с.

6. Пригожин И.Р. Сетевое общество. Социологические исследования, № 1, 2009.

7. Вишняцкий Л.Б. Культурная динамика в середине позднего плейстоцена и переход к верхнему палеолиту. Автореф. дисс…. доктора ист.наук. СПб., 2006, 37 с.

8. Всемирная история. В 6 т., т.1. М.: Ин-т. всеобщ. истории РАН, 2011, 822 с.

9. Борисковский П.И. Древний каменный век Южной и Юго-Восточной Азии. М.: «Наука», 1972, 175 с.

10. Кабо В.П. Первобытная доземледельческая община. М.: «Наука», 1986, 304 с.

11. Чеснов Я.В. Земледельческие культуры как этногенетический источник. Ранняя этническая история народов Восточной Азии. М.: «Наука», 1977, 288 с.

12. Оппенхейм А. Древняя Месопотамия. М.: «Наука», 1990, 319 с.

13. Токарев С.А. Религия в истории народов мира. М.: «Политиздат», 1976, 575 с.

14. Ясперс К. Смысл и назначение истории. М.: «Республика», 1994, 527 с.

15. Гаджиев Р.С. Динамика развития общественного сознания, или еще один взгляд на интеллектуальную эволюцию человечества (на азерб.яз.), Баку: «Наука», 2012.

16. Гаджиев Р.С. К обоснованию гипотезы о возрастной периодизации интеллектуальной эволюции человечества //Многомерность и целостность человека в философии, науке и религии: материалы Международной научно-образовательной конференции. Казань: «Казанский университет», 2012, с.266-273.

17. Hajiyev R.S. On substantiation of hypothesis of age periodization in intellectual evolution of humanity // XXIII World congress of philosophy: Philosophy as Inquiry and way of life, University of Athens, School of philosophy, Athens 04-10 august 2013, Abstracts, 818 p.

18. Гаджиев Р.С. Проблема смысла жизни. Баку: «Текнур», 2007, 158 с.

19. Пиаже Ж. Избранные психологические труды. М.: «Просвещение», 1969, 659 с.

20. Психология. Словарь (Под общ. ред. А.В.Петровского, М.Г.Ярошевского). М.: «Политиздат», 1990, 494 с.

21. Выгодский Л.С. Психология развития человека. М.: «Смысл», 2004, 1136 с.

Ровшан ГАДЖИЕВ

ЕЩЕ ОДИН ВЗГЛЯД НА ИСТОРИЧЕСКИЙ ПРОЦЕСС
(Социально-философский анализ)

Резюме

В настоящей статье анализируется еще один взгляд на историю человечества. Освещаются глобальные проблемы исторического процесса, которые все еще далеки от своего однозначного толкования. Рассматривается авторская версия, альтернативная марксизму и другим концепциям общественного развития, которая проливает свет на некоторые важные события исторического процесса. С ее помощью, в частности, предпринимается попытка объяснения исторических процессов, носящих глобальный характер.

Ключевые слова: онтогенез, исторический процесс, филогенез, возрастная периодизация, щомо сапиенс сапиенс, интеллектуальная эволюция человечества.

Rovshan HAJIYEV

ONE MORE VIEW ON THE HISTORICAL PROCESS
(Social and philosophical analysis)

Summary

In the article one more view on the history of the mankind is considered. The global problems of the historical process that are still far away from their unambiguous solution are looked through. The author's version that is alternative to Marxism and other social development concepts sheds light on some important issues of the historical process. Using this, an attempt of treating the historical process of global nature is being taken.

Keywords: ontogenesis, historical process, philogenesis, age periodization of homo sapiens sapiens, intellectual evolution of humanity.

UOT 1(09)

İradə ZƏRQAN
b.e.i., fəlsəfə ü.f.d., AMEA FHİ

QAFQAZDA TÜRK-MÜSƏLMAN DİRÇƏLİŞİ VƏ ƏLİ BƏY HÜSEYNZADƏ*

"Hər millətin yer üzündə icra edəcəyi tarixi və mədəni missiya vardır. Türk millətinin missiyası isə əxlaqın ən yüksək fəzilətlərini gerçəkləşdirmək, görünməmiş fədakarlıqların və igidliklərin mümkün olduğunu isbat etməkdir".
Ziya Gökalp

İctimai-tarixi proseslərin gedişi zaman və məkan anlayışları ilə, habelə hərəkətverici qüvvələrin mahiyyəti və məzmunu ilə sıx bağlıdır. Bu və ya digər amillər ictimai-tarixi proseslərin yetişməsini və təşəkkülünü, inkişaf və tənəzzülünü gerçəkləşdirir.

XVIII-XIX yüzilliklərdə türklərin yalnız Osmanlı dövləti və İranda Qacarlar sülaləsi müstəqil idi. Türk xalqlarının bir qismi Rusiya və Çin dövlətinin idarəçiliyi altında idi. Müstəqil dövlətlərdə də milli kimlik təfəkkürü tam formalaşmamış və ideoloji səviyyəyə qalxmamışdı.

Ziya Gökalp "Türkçülüyün əsasları" əsərində 1853-cü ildə Osmanlı imperatorluğunda yaşayan türklərin vəziyyəti haqqında aşağıdakı qənaətin olduğunu yazmışdır: "Türkiyədə türkləri hakim sinif adlandırmaq çətindir" (1, s.6). O dövrdə türklərin durumunu fransız yazıçısı Röne Pinon belə təsvir etmişdir: "Osmanlı imperatorluğunda hər bir kəs üçün yer vardır. Türklər üçün də" (1, s.9). Qeyd olunan vəziyyət türk sultanlarının bəzi hallarda ifrat təəssübkeş siyasətinin və yersiz canfəşanlığının nəticələri kimi meydana gəlirdi. Məsələn, Sultan II Mahmud demişdi ki, "mən təbəəmdəki din fərqlərini ancaq came, kilsə və sinaqoqlara girdikləri zaman görmək istərəm" (1, s.9). Halbuki dini əqidə insanın olduğu hər yerdə - onun bütün həyat və fəaliyyətində təzahür edir. Əqidə yalnız müəyyən ayinləri icra etməklə məhdudlaşmır, insanın ruhundan qaynaqlanaraq düşüncəsini, davranış və hərəkətlərini tənzimləyir, təbiətə, cəmiyyətə, ümumiyyətlə, dünyaya münasibətini formalaşdırır. Natamamlıq duyğusu düşüncədən başlayır. Əgər insan dünya maraqlarına, yaxud zənnə (təhlükə hesab etdiyi öz fantaziyalarına) qapılaraq ilahi hikmətdən üz çevirirsə, nəticələrini də tezliklə görür. Osmanlı sultanları tərəfindən imperiyanın bütövlüyünü saxlamaq üçün bəzi hallarda yeridilən qeyri-milli, formal dini siyasət öz acı nəticələrini verməyə başlamışdı.

Osmanlı dövlətində humanist məqsədlə qəbul olunmuş və 1839-1876-cı illərdə qüvvədə olan "Gülxanə xətti hümayunu" tənzimat fərmanı türkləri daha acınacaqlı vəziyyətə saldı. 1909-cu ildə albanların üsyan etməsi, "Əlmühdül ərəb" cəmiyyətinin fəaliyyəti (1, s.11), qeyri-türk millətlərin Balkan müharibəsində (1912-1913) çörəyini yedikləri, suyundan içdikləri Türk torpaqlarını bir vətən kimi müdafiə etməmələri həqiqəti gün kimi aydınlatdı. Türk dövlətçiliyinin dostları və düşmənləri məlum oldu. Hakimiyyətdəki ideoloji boşluq cəmiyyətin siyasi və milli iflasını reallaşdırmaqla yanaşı, dövlətciliyin əsas hərəkətverici qüvvəsinin müəyyənləşdirilməsi problemini də aktuallaşdırdı.

Bilgə Kağanın (673-732) "Ey türk oğuz bəyləri! Türk xalqı, eşidin! Üstdən göy çökmədikcə, altdan yer dəlinmədikcə, bil ki, türk ulusu, türk yurdu, türk dövləti, türk törəsi

* Məqalə fəlsəfə ü.e.d., professor Sakit Hüseynov tərəfindən çapa məsləhət görülüb.

pozulmaz. Su kimi axıtdığın qanına, dağlar kimi yığdığın sümüklərinə layiq ol! Ey ölümsüz türk ulusu, özünə dön!..” (1, s.3) kəlmələrinin unudulduğu, dünyada daha bir türk dövlətinin də çökmək üzrə olduğu bir zamanda türkləri hansı ideya dirçəldə, yenidən öz ruhuna, milli mənsubiyyətinə qaytara bilərdi?

O dövrdə türkləri üç əsas mənafe birləşdirə bilərdi: dini yaxınlıq, milli yaxınlıq, yaxud iqtisadi-strateji maraqlara söykənən ərazi yaxınlığı, yəni qonşuluq əlaqələri.

Əli bəy Hüseynzadə 1906-cı ildə “Kuhi-qaf və simurq” (2) məqaləsində Qafqazın türk-müsəlman dirçəlişinin əhəmiyyətinə diqqət çəkərək yazırdı: “Qafqaz Asiya ilə Avropa arasında bir körpüdür, Bakı Avropanın Asiyaya olan qapılarından biridir… Belə bir məkanda həm də dünyanın ruhən və cismən ən gözəl xalqı yaşayır və irqi-Qafqaziyyə mənsubiyyəti ilə fəxr edirlər. Bəs ərəblərin “Huristan” adlandırdıqları bir məkanın azadlığı niyə olmasın?” (3, s.140-141).

Əli bəyə görə ruh və fikir gözəlliyinin əlaməti azadlıqdır. O bu haqda yazmışdır: “Şən, namus və tar, heysiyyət, istiqamət, şücaət, həmiyyət, qeyrət, rüfət, nəcabət kimi sifətlərin cümləsi hürriyətdən, azadlıqdan törər. Bu sifətlər ruhda olduqca insanın simasına inikas edər… Bəncə, Qafqaz türkləri ətrakın ən hürriyətpərəstidir” (3, s.141-142). Lakin hürriyətpərəstlik məsələnin bir tərəfidir. Əsas problem türk-müsəlman birliyini gerçəkləşdirəcək və gələcəyə aparacaq vahid ideologiyanın olmaması idi.

Əli bəy Qaf dağına zəncirlənmiş və ciyəri qaraquş tərəfindən yeyilən, lakin vüqarını itirməyən Prometeyi Qafqaz türklərinə bənzədir. Prometeyin ciyərini parçalasalar da, onun azadlıq hissini məhv edə bilmədikləri kimi, Qafqaz xalqını da əsarətdə saxlamaq olmaz. Əli bəy Hüseynzadə Prometeyi xilas edən Heraklla Zal oğlu Rüstəmin köməyinə çatan Simurq quşunu müqayisə edir və bildirir ki, bu əfsanələr əbəs deyildir. Təbiətlə cəmiyyətdə bir harmoniya vardır. Qartallar yurdunun insanları da ucalıqda pərvəriş tapırlar. O, türk-müsəlman dirçəlişinin Qafqazda gerçəkləşəcəyinə inamla yazır: “Qafqaz ölkəsi aləmin istibdad və bidad altında inləyən qismini əsarətdən xilas etmək xüsusunda ən böyük rol oynayacaqdır!” (3, s.143).

Üç tərəfdən dənizlə, cənubdan isə Türkiyə və İranla əhatə olunan Qafqazda yaşayan yüzdən artıq xalq və tayfa milli, dini və dil fərqlərinə baxmayaraq, əsrlər boyu sülh və qardaşlıq münasibətlərini qoruyub saxlaya bilmişdilər. Lakin ermənilər 1890-cı ildə şovinist “Daşnaksütyun” partiyasını yaradaraq mənfur “Böyük Ermənistan” ideyasını reallaşdırmağa başlayan andan əvvəlcə yaşadıqları Osmanlı dövlətinin, sonra isə gəldikləri Qafqazın asayişini pozdular.

Məlum olduğu kimi, sultan Əbdülhəmidin humanist münasibətindən sui-istifadə edən ermənilər 1890-cı ildə “Daşnaksütyun” və “Qnçak” partiyalarını yaratmış, Türkiyənin Qars, Van, Ərzurum, Xarput, Diyarbakır, Bitlis, Sivas, Adana və Kilikiyanın cənub vilayətlərində yerli türk əhalisini məhv etmək, qovub çıxarmaqla zor gücünə, silahlı basqın və vəhşi qırğınlar hesabına “Böyük Ermənistan” yaratmaq iddiasına düşmüşdülər. Qəsbkar siyasətlərinə və azğın hərəkətlərinə görə 1896-cı ildə Türkiyədən qovulan ermənilər Qafqazdakı 54 qəzadan yalnız beşində məskunlaşmalarına (4, s.120) baxmayaraq, mənfur niyyətlərini həyata keçirməkdən əl çəkmədilər.

Erməni şovinistləri Osmanlı dövlətindəki məğlubiyyətlərinin acısını Qafqaz müsəlmanlarından çıxır, rus məmurlarının himayədarlığı sayəsində İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Şuşa, Gəncə, Bakı və Şirvanda müsəlmanları öldürür, təsərrüfatlarına ziyan vurur, torpaqlarından çıxarır, nəyin hesabına olursa olsun məqsədlərinə çatmağa çalışırdılar. Nikolay hökuməti isə Qafqazda böyük qüvvə olan türklərin əleyhinə kütbeyin övladlarının ağlasığmaz hərəkətlərinə göz yumurdu. “Rus əsgərləri, polislər və jandarmlar türklərin qırılmasını

kənardan seyr edirdilər. Elə ki ermənilər türklər tərəfindən sıxışdırılırdı, başlayırdılar onlara kömək etməyə...” (4, s.123).

Rəsmi mənbələrə görə, Rusiya ilk olaraq Şərqi Anadolu və İranda yaşayan 70 min ermənini 20 il müddətinə vergidən azad etməklə Cənubi Qafqaza yerləşdirmişdir. 1914-cü ilə qədərki məlumatlarda isə Naxçıvan, İrəvan, Qarabağ, Gəncə və Bakı ətrafına köçürülən ermənilərin sayının 1 milyonu keçməsi qeyd olunmuşdur (5, s.15-16).

Hadisə və proseslərin gedişi qəti tədbirlər görməyi tələb edirdi. Qafqaz müsəlmanlarını qırğınlardan qorumaq məqsədilə 1905-ci ildə Bakıda Əhməd Ağaoğlunun rəhbərlik etdiyi “Difai” (“Müdafiəçi”) partiyası yaradıldı və fəaliyyətə başladı. Bu əhəmiyyətli hadisə Qafqazda türk-müsəlman dirçəlişinin ilk sanballı təzahürü hesab oluna bilər.

Türk-müsəlman dirçəlişinin növbəti addımları Qafqazdan kənarda gerçəkləşsə də, qeyd olunan nəzəri platformanın davamı idi. 8 aprel 1905-ci ildə Peterburqda Rəşid əfəndinin evində kiçik bir heyətin iştirakı ilə Rusiya Müsəlmanları İttifaqının birinci qurultayı keçirildi. Daha bir əlamətdar hadisə - ikinci qurultay 22 yanvar 1906-cı ildə Peterburqda Həsən Həbibullanın evində iki yüz nəfərin iştirakı ilə baş tutdu. Avqustun 15-də Nijni Novqorodda kirayə tutulmuş gəmidə 13 saat davam edən və daha artıq nümayəndənin qatıldığı “Rusiya Müsəlmanları İttifaqının” üçüncü qurultayında artıq “Xalq partiyasının proqramı” qəbul edilmişdi. Rusiyanın müxtəlif ərazi nümayəndəliklərindən təqdim olunmuş 7 proqram layihəsi Kazanda davam etdirilən həmin qurultayda müzakirə olunmuş və Əlimərdan bəy Topçu-başovun 79 maddədən ibarət Proqram layihəsi qəbul olunmuşdu. (4, s.146).

Proqramda siyasi məqsədlər, əhalinin hüququ, dövlət quruluşu, dini qaydalar, məhəlli muxtariyyət, məhkəmə, maarif, maliyyə işləri, torpaq məsələsi, qadınların seçki hüququ kimi aktual məsələlər öz əksini tapmışdı.

Rusiya Müsəlmanları İttifaqının əsas simalarından biri olan Əli bəy Hüseynzadə milli birlik naminə müxtəlif təkliflərlə çıxış edirdi. Onun araşdırmalarının əhatə dairəsini və ictimai mövqeyini qələmə aldığı yazıların mövzusunda aydın görmək olur: “Türklər kimdir və kimlərdən ibarətdir” (3, s.41-70), “Ramazanül-mübarək və hürriyyət” (3, s.85-86), “Milliyyət və insaniyyət” (3, s.110-114), “Müxtəlif bəhanələrlə adam öldürmək” (7, s.188-191), “Həyat və meyli-füyuzat” (7, s.225-229), “Vəqayeyi-aləmə bir nəzər” (7, s.241-246), “Qırmızı qaranlıqlar içərisində yaşıl işıqlar” (3, s.181-190), “Siyasəti-fürusət” (3, s.274-410), “Nicat məhəbbətdədir!” (3, s.194-199) və s.

Əli bəy millətin istiqlalı üçün siyasi güc və nüfuzu əsas hesab edərək göstərirdi ki, bunun üçün tərəqqi, tərəqqi üçün isə xalqın birliyi lazımdır. O, rəhbəri olduğu “İttihad və tərəqqi” firqəsinin strategiyasında da silaha deyil, siyasətə, sözün gücünə, mədəniyyətə və maarifə, ədalətə və qanunlara güvənilməsini ifadə edir və nizam-intizamlı idarə üsulunun vacibliyini vurğulayırdı.

“Bir millət üçün hər şeydən əqdəm arzu ediləcək şey qüvvətdir... Qüvvət üçün tərəqqi, tərəqqi üçün ittihad (birlik) lazımdır” - deyən Əli bəy Hüseynzadə “İttihad və tərəqqi” firqəsinin strategiyasını aşağıdakı kimi açıqlayırdı: “Qılınc degil, siyasət lazım, lisan lazım, əhli-maarif lazım, qələm lazım, ədalət lazım, adilanə və müdəbbiranə üsuli-idarə lazım!” (3).

Əli bəy Hüseynzadə tarixi prosesdə mədəniyyət, sivilizasiya, ictimai-iqtisadi formasiya-lar mövzusunu şərh edərkən öz mülahizələrini açıq bildirir: “Tarixi dövrlərə təqsim üçün vəhşət və heyvaniyyət ilə mədəniyyət və insaniyyətdən daha mətin əsas olamaz! İnsaniyyəti heyvaniyyətdən, mədəniyyəti vəhşətdən təfriq edəcək bir əlamət varsa, o da qətl və qitalın, xunxarlığın və xunrizligin ortadan rəf olmasıdır... İstanbul fəth edildi, Amerika kəşf olundu, müqatilə, səfkidəmə xitam buldumu, bəşəriyyət heyvanlıqdan xilas oldumu? Əsla!.. Vəhşətində, heyvaniyyətində bu günə qədər israr edib durmuşdur!..” (3, s.137-138). Mütəfəkkirin fikirləri bu gün də aktualdır. Müasir dünyada gedən proseslər, İraqda, Suriyada

səngimək bilməyən müharibə fitnə-fəsadları, Kobani hadisələri bəşər düşüncəsinin ümumilikdə heç də dəyişmədiyinin göstəricisidir.

Bu dəyişməzliyin səbəblərindən birini Əli bəy müsəlmanların mütiliyində görürdü: "Bizə dedilər ki, "Çirkabə daş atma, üzərinə sıçrar!" Biz də bu sözü bir hikmət zənn edərək atmıyoruz... Bu çirkabların qoxusu, üfunəti getdikcə artıyor... Xeyr, əfəndim! Belə olmaz. Çirkablara daş atılmalıdır, həm də doluncaya, yox edilincəyə, ortadan vücudları qaldırılıncaya qədər..." (3, s.251). O davam edərək bildirir ki, daş, qaya yetməsə, tibbi, mikroböldürücü üsullarla, neftlə odlamaq lazımdır ki, üfunət və pislikdən əsər qalmasın. Həqiqətən də, bizə laqeydlik və ətalət yox, mübarizə gərəkdir.

Azərbaycan alimi Yaşar Qarayevin şərh etdiyi kimi, Əli bəy Hüseynzadə irsini öyrənməklə müasir dövrdə baş verən müharibələrin, o cümlədən Azərbaycanın da cəlb edildiyi Qarabağ savaşının səbəb və məqsədlərini, ideya qaynaqlarını, habelə problemdən qurtuluş yollarını görmək olar (3, s.4-21).

O, şəraitdən asılı olaraq çıxış yolunu gah inqilab, gah da təkamüldə görürdü (3, 440). Lakin düşüncəni dəyişmədən vəziyyətin dəyişəcəyini gözləmək çətindir. Klassik metodların hansını seçmək məsələsi də yenə "sahələrdən" və "əkinçilərdən", zaman, məkan və hərəkətverici qüvvə amillərindən asılıdır.

Əli bəy Hüseynzadə Türk dövlətçiliyindəki ideoloji boşluqları görür və insanların düşüncəsində inqilab yaratmaq istəyirdi: "... Fədai lazımdır, fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qiyafətli fədai! İngilis, amerikan kibi tizrəftar, yeni yaponlar kibi kütahdamən fədai!.." (3, s.252).

O bəzən də təkamülün tərəfdarı kimi çıxış edərək yazırdı: "Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, ülum və maariflərinə, kəşfiyyat və ixtiraatlarına müraciət etmək istəyiriz, özlərinə deyil. Biz istəyiriz ki, İslam ölkəsinə onların beyinləri, dimağları girsin, boğazları, mədələri girməsin. Biz istəriz ki, ölkəmiz onların beyinlərini həzm etsin. Yoxsa mədələrində həzm olunmasın" (3, s.265).

Onu ən çox narahat edən məsələlər: millətinin bəzi hallarda mütiliyi, ləngliyi, zamanın nəbzini tuta bilməməsi, öz dəyərlərinə sahib çıxmaması, istedadına müvafiq davranmaması, şəraiti nəzərə almaması və s. idi.

Məqalələrindən birində Ə.Hüseynzadə təəssüfünə yumor qataraq yazırdı: "...Tiflisdə də bomba partladı, Bakıda isə altmışa qədər bomba partlamadan zabitiyyə tərəfindən tutulub müsadirə oluna bildi... Demək ki, bizim Bakı cəmaəti dəxi bombalar üzərində oturuyormuş..." (3, s.158).

Əli bəy Hüseynzadənin XX əsrdə qələmə aldığı mədəniyyət və tərəqqi haqqındakı mülahizələr bu gün qloballaşma və mədəniyyətlərin inteqrasiyası şəraitində türk xalqlarına öz hərəkətverici qüvvələrini təyin etməkdə müəyyən istiqamət verir. O, birlik haqqında düşünərkən tarixi şərait, ərazi, əqidə və milli amilləri nəzərə almağın vacibliyini diqqətə çəkir, azadlıq mübarizəsində türk xalqlarını Qərbə, avropalılara deyil, məhz özlərinə arxalanmağa çağırırdı. Ə.Hüseynzadə bu məsələlər haqqında yazırdı: "Nə ingilis məmləkətində, nə də Fransada, Avstriya və Germaniyada İran və Türkiyəyi oyandıracaq bir hürriyyət ədəbiyyatı hüsula gəlmədi və gələməz də… İsveçrənin sizə biganə olan soyuq Alplarından, Misirin lal və samit olan ehramlarından, hətta Avropanın mərakizi qeylü-qalından imdad gözləməyərək, oralardan səsinizi, fəryad və fəqanınızı vətənə eşitdirəməzsiniz. Oralarda sizi kimsə himayə edəməz! Gəliniz, gəliniz Qafqaza, Simurğun qanadları altına!.." (3, s.144).

Onun fikirləri biliyin, Avropa dəyərlərindən bəhrələnməyin əleyhinə deyildi. Əli bəy Hüseynzadə millətin kimə və nəyə etimad etməsi problemini çözməyə çalışır, müsəlmanların çəkdiyi zillətlərin səbəblərini aydınlaşdırır, "yeni türklərin zəlalətlərini" aşağıdakı kimi sıralayırdı: "Bunları hər vəqt yanıldan üç məsələdir: məsələlərin birisi - sünniliyi, şiəliyi ayrı-

ayrı şey hesab edib, islamiyyəti həqqilə anlamamalarıdır; ikincisi - xilafət bəhsini islamiyyətlə qarışdırıb aləmi-islama mənafei-xilafət nöqteyi-nəzərindən baxmalarıdır, üçüncü məsələ isə sülalə bəhsi olub türklüyü osmanlılıqdan, yəni xanədani-ali-Osmana mərbut bilməkdən ibarətdir" (3, s.159).

Məzhəb ayrılığı üzündən birləşə bilməyərək mübahisə edən müsəlmanlara Əli bəy Hüseynzadə irsindən maraqlı bir cavab vardır: "...imam-əzəm Əbu Hənifə həzrətləri o cənabın (İmam Cəfəri-Sadiq) şagirdlərindən olub həlqeyi-tədris və təlimlərində bulunmuşlardı... İmam əzəmin tutduğu təriq İmam Cəfəri-Sadiqin göstərdiyi yoldan başqa bir şey deyildir... bizlərə ittihad üçün ayrı bir təriq aramaq əbəsdir, zənn edəriz..." (3, s.238). Bu qeydlər Ə.Hüseynzadənin 1907-ci ildə "Füyuzat" jurnalının 15-ci nömrəsində İslam peyğəmbərinə həsr etdiyi "Mövludi-nəbi" məqaləsindən götürülmüşdür. Tamamilə haqlıdır, belə ki, İmam Cəfəri-Sadiq həzrətləri də Muhammməd əleyhissəlamın yoluna sadiq olduğundan bu ismi almışdır. Deməli, kitabı Quran, peyğəmbəri Muhammməd olan bir millətin ittihad yolu birdir – Allahın yoludur.

Əli bəy Hüseynzadənin Avropaya nisbətən Rusiya haqqında fərqli düşüncəsinin əsasında da doğmalıq əndişəsi, orada yaşayan türk soylu millətlər və onların ortaq dilləri amili dururdu. O yazırdı: "Rusiya ölkəsində hürriyyət sayəsində bir millət tərəqqiyə başlayır ki, onun dili Türkiyə və İran xalqına biganə deyildir. Bu millət Kazandan, Ufadan Səmərqəndə, Mavərayi-Baykaldan Krıma qədər müntəşir olan türk və tatar əqvamıdır" (3, s.144).

O, Qafqaz və Rusiyada yaşayan türk-müsəlman ziyalılarının azadlıq ideyalarını İran və Türkiyəni ağuşuna alacaq selin məcraları hesab edərək yazırdı: "Bu selin də məcrası bilaşəkk və şübhə bu iki məmləkətə Qafqaz bərzəxi olacaqdır!.. İştə, görünür ki, Qafqaz hürriyyəti-aləmin tarixində mühüm rollar oynayacaqdır. Bu rolların da ən böyügü Qafqaz və Azərbaycan türklərinə aiddir " (3, s.144).

Maraqlı burasıdır ki, Əli bəy Hüseynzadə hələ 1906-1907-ci illərdə yazdığı məqalələrində Türkiyənin demokratik inkişaf yolu tutacağını və İran inqilabının labüdlüyünü bütün təfərrüatı və cəhətləri ilə proqnozlaşdırmışdı (3, s.241-242).

Lakin bir acı həqiqət vardı ki, Qafqazda yaşayan gürcü, erməni və türklərdə eyni dövlət içində, bir bayraq altında, bir və bərabər yaşama iradəsi, əzmi və mövcud ortaqlığı davam etdirmə arzusu yox idi. Bu üç millətin milli maraqları bir-birinə zidd idi və aralarında da tarixi düşmənçiliklər və dərin ayrılıqlar var idi. (5, s. 82).

Milli şüuru və vətənpərvərlik ölçüləri müxtəlif olan xalqları bir ideologiya ətrafında birləşdirmək çox çətindir. Buna baxmayaraq Ə.Hüseynzadə Qafqaz seyminin (18 yanvar 1918 – 28 may 1918) dağılması əleyhinə idi. O, türk-müsəlman birliyinin gücünə, türklərin cəsarət və nüfuzuna inandığı üçün düşünürdü ki, Qafqaz seymi daxilində də söz sahibi olmaqla millət üçün çox şey etmək olar. Onun düşündüyünü ümummilli lider Heydər Əliyev Azərbaycanın SSRİ tərkibində olduğu illərdə tamamilə aydın şəkildə sübut etdi. Hətta adlarının çəkilməsi qadağan olunan bir şəraitdə Azərbaycanın ilk qurucuları M.Rəsulzadənin, Ə.Hüseynzadənin, Ə.Ağaoğlunun, Ə.Topçubaşovun ideyaları əməli şəkildə həyata keçirilir, Azərbaycanın bugünkü müstəqilliyinin təməllərinin möhkəmləndirilməsi yolunda böyük işlər görülürdü.

Ə.Hüseynzadənin düşündüyü kimi, həqiqətən də, o zamanlar ərazilərin parçalanması özü ilə arzuolunmaz nəticələr gətirdi. 30 oktyabr 1920-ci ildə N.Nərimanovun başçılıq etdiyi Sovet Azərbaycanı türklərin yaşadığı ərazinin yalnız bir hissəsində qurulmuş, Göyçə mahalı və Borçalı ərazisi orada yaşayan türk-müsəlman əhali ilə birlikdə respublikanın sərhədlərindən kənarda qalmışdı.

XIX əsrin sonu XX əsrin əvvəllərində Qafqazda reallaşmağa başlayan türk-müsəlman dirçəlişi Orta Asiya və Anadolunu ağuşuna alaraq hazırda bütün dünyanı əhatə etməyə

başlamışdır. Əli bəy Hüseynzadə dirçəlişin üç aspektini "İttihad, qüvvət, tərəqqi"devizində ifadə etmiş, ittihadı (birliyi) isə "Türkçülük, islamçılıq, avropaçılıq (müasirlik)" dəyərlərinin sintezində görmüşdü.

"Türkçülüyün babası" (1, s. 9; 6, s.141) hesab olunan Əli bəy Hüseynzadənin eyni zamanda beynəlmiləlçi və bəşəri şəxsiyyət olması bütün yaradıcılığına sirayət etmişdir O, 1905-ci il hadisələri barəsində "Bundan sonra nə etməli?" sualına belə cavab vermişdi: "...millət və milliyyət tərəfdarlığı etməyib, insaniyyət və səadəti-məmləkət naminə... qeyrət və himmət etməli, ..., millətin heyəti-məcmuəsinə isnad etməyib, ancaq cinayətin faili olan şəxsi, fərdi günahkar bilməlidirlər!" (7, s. 112-113).

O, XIX-XX əsrlərdə Avropanın tərəqqisini protestantlıq və xüsusilə də Martin Lüterin xidmətləri ilə bağlayaraq yazırdı: "Bu gün İsveç, Germaniya, Hollanda kimi protestant məmləkətlərində bir fərd yoxdur ki, İncili oxuyub anlamasın. Bu əqvamın, öz Quranlarının mənasından bixəbər qalan müsəlmanlara əxlaq və məişətcə təfəvvüqləri əsbabından biri budur... " (3, s.241).

Müasir dövrdə müsəlman aləminin problemlərindən biri hələ də İslam dininə mənsub insanların böyük bir hissəsində elm və əqidə vəhdətinin olmamasından irəli gəlir. Əqidədə qətiyyət göstərən zümrənin bir qismi elmə maraq göstərmir, elm adamlarının əksəriyyəti isə əqidə məsələsinə ciddi yanaşmır. Əli bəy Hüseynzadən söylədiklərindən 100 il keçməsinə, sələflərimizin müdrik kəlamlarından əsrlər keçməsinə, texnologiyaların həyatın ən həssas sahələrinə daxil olmasına, dünyanın mənzərəsinin tamam dəyişməsinə baxmayaraq, əksər cəmiyyətlərin problemləri köhnədir.

Dəyərlər onlardan istifadə olunarkən, əməli fəaliyyət nəticəsində əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan xalqı yalnız sələflərinin izləri ilə getməklə kifayətlənmir, onların açdığı cığırları daha geniş yollara qovuşdurur, şəhid qanları bahasına qorunmuş vətəni gülüstana çevirir. Bir zamanlar Əli bəy Hüseynzadənin düşüncə və firçasından pərvəriş tapan Azərbaycan bayrağı hazırda Müasir Azərbaycan dövlətinin dünya arenasındakı müvəffəqiyyətlərinə vüqarla şahidlik edir. Azərbaycan dövləti isə əsrin əvvəllərindən fərqli olaraq bayrağında əks olunan simvolları mətanətlə qorumaq və yaşatmaq iqtidarını bütün dünyaya nümayiş etdirir.

Açar sözlər: Qafqaz, türk-müsəlman dirçəlişi, Əli bəy Hüseynzadə, Azərbaycan.

İstifadə olunmuş ədəbiyyat

1. Göyalp Ziya. Türkçülüyün əsasları. Tərcümə, ön söz, izah və şərhlərin müəllifi Elman Mustafaoğlu. Bakı: "Maarif", 1991, 175 s.

2. "Həyat"qəzeti. 1906, № 143.

3. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. İki cilddə. 1-ci cild. Bakı: "Çaşıoğlu", 2008, 580s.

4. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992, 276 səh.

5. Görüryılmaz Mustafa. Türk Qafqaz İslam Ordusu və ermənilər (1918) Bakı: "Qismət", 2009, 408 s.

6. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2007, 480 s.

7. Mustafayev İmam. Murtuzayev Sadıq. İmam Şamil (tarixi-publisistik oçerk). Bakı: "Vətən", 1993, s. 240.

Ирада ЗАРГАН

ТЮРКСКО-МУСУЛЬМАНСКОЕ ВОЗРОЖДЕНИЕ НА КАВКАЗЕ И АЛИ-БЕК ГУСЕЙНЗАДЕ

Резюме

В статье анализируется вопрос тюркско-мусульманского возрождения на Кавказе в конце XIX – начале XX века и роль Али-бека Гусейнзаде в этом процессе. Рассматривая данный период в контексте времени, пространства и движущих сил, автор выявляет факты, характеризующие тюркско-мусульманское возрождение, и выдвигает научные умозаключения, связанные с этой проблемой. На основе обзора произведений Али-бека Гусейнзаде выявляются его социально-политические взгляды, составляющие основу идеологии возрождения. Отмечается, что ценные мысли Али-бека Гусейнзаде являются основными принципами независимого Азербайджана.

Ключевые слова: Кавказ, тюркско-мусульманское возрождение, Али-бек Гусейнзаде, Азербайджан.

Irada ZARGAN

THE TURKIC-MOSLEM REVIVAL AT THE CAUCASUS AND ALI-BEY HUSEYNZADEH

Summary

In the article an analysis is made of the issus of the Turkic-Moslem revival at the Caucasus in the end of the XIX and beginning of the XX century and the role of Ali bey Huseynzadeh in this process. On considerig this period in the light context of time, area and moving forces the author brings to light the facts characterizing the Turkic-Moslem revival and draws the scientific conclusions, related with this problem. In the work relying on the survey of Ali bey Huseynzadeh`s works, his socio-political views, making up a ground of ideology of revival are presented. It is noted that the valuable thoughts of Ali bey Huseynzadeh are the basic principles of independent Azerbaijan.

Keywords: Caucasus, the Turkic-Moslem revival, Ali-bey Huseynzadeh, Azerbaijan.

UOT 101.1:316

Mirvari CƏFƏROVA
fəlsəfə ü.f.d., Nizami rayonu, 238 saylı
məktəbin tarix müəlliməsi

MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANDA TƏHSİL VƏ ELMİN İNKİŞAF DİNAMİKASI (Sosial-fəlsəfi təhlil)*

Giriş.

Sovetlər Birliyinin dağılması ilə dövlət müstəqilliyinə qovuşan Azərbaycanda demokratik cəmiyyət quruculuğunda ortaya çıxmış bir sıra problemlər sosial-mədəni sahədə özünü daha aydın hiss etdirirdi. Belə ki, ölkə ziyalıları, alim və tədqiqatçılarının qarşısında keçmiş ideoloji məngənədən qurtularaq milli özünüdərk şüurunun formalaşdırılması vəzifəsi dururdu. Əlbəttə, bu qısa dövr ərzində müəyyən uğurların əldə edilməsinə baxmayaraq, cəmiyyətin davamlı inkişaf naminə müxtəlif sahələrin sistemli tədqiqi və təhlili də özünü göstərməkdə idi. Bu sahələrdən biri də məhz təhsil və elm sahələri olmuşdur (1, s.45).

Belə ki, Azərbaycanın təhsil sahəsində keçdiyi yolu təhlil edərkən, ilk öncə təhsilimizin tarixinə nəzər salmalıyıq. Tarixi yaddaş isə onu deməyə imkan verir ki, Azərbaycan təhsilinin yüksək sürətlə inkişafı məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər 1969-cu ildə ilk hakimiyyətə gəldiyi dövrdən başlayaraq Azərbaycanda orta və ali təhsilin yüksək səviyyədə inkişafi, o cümlədən ölkədən kənarda kadr hazırlığı başlandı. Məhz Ümummilli lider Heydər Əliyev 1970-1980-ci illərdə SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox ali məktəbində ölkəmizin elm, təhsil və mədəniyyətinin 80-dən artıq sahəsini əhatə edən 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına köməklik göstərmişdir. Bütün görülən bu işlər Azərbaycan xalqının gələcəyi və gəncliyi üçün atılmış addım idi. Ulu öndər Heydər Əliyev hər zaman, bütün sahələrə olduğu kimi, gənclərə və gənclərin təhsilinin yüksək səviyyədə olmasına da böyük qayğı və diqqət göstərmişdir. Bir faktı yada salmaq lazımdır ki, 1970-ci ilə qədər ölkədən kənarda təhsil alanların 40 faizi azərbaycanlı idisə, 1970-ci illərin sonu və 1980-ci illərin əvvəllərində bu rəqəm 97,7 faizə yüksəlmişdir (2).

1988-ci ildən etibarən isə təhsil sahəsində tənəzzül, təhlükəli dağıdıcılıq halları müşahidə olunmağa başlandı. 1992-ci ildə respublikada təhsilin inkişafını müəyyənləşdirən təhsil konsepsiyası olmadan tələsikliklə qəbul olunmuş Təhsil Qanunu bu prosesin qarşısını almağa qadir olmadı və əksinə, bir sıra yeni problemlər yaratdı (3). Belə ki, həmin Qanunda normativ xarakterli müddəaların olmaması, bir çox maddələrin bir-birinə ziddiyyət təşkil etməsi, real inkişaf prosesinin nəzərə alınmaması nəticədə müəllimlərin sosial vəziyyətini daha da ağırlaşdırmış, qeyri-qanuni təhsil müəssisələrinin açılmasına şərait yaratmış, təhsil sistemini tənzimləyən normativ sənədlərin hazırlanmasına və tətbiqinə maneçilik törətmişdir.

Müstəqillik illərində elm və təhsilin inkişaf dinamikası

Beləliklə, 1992-ci ildə qəbul olunmuş Təhsil Qanunu respublikada təhsil prosesinin inkişafına kifayət qədər şərait yarada bilmədi. 1993-cü ildən sonra elm və təhsil Azərbaycan Respublikasının Prezidenti, Ümummilli lider Heydər Əliyev cənablarının daha çox diqqət mərkəzində olmuş, vətəndaşların təhsil hüquqları məhz möhtərəm Prezidentin rəhbərliyi ilə işlənilmiş və qəbul edilmiş Konstitusiyada da dünyanın ən inkişaf etmiş ölkələrinin səviyyəsinə

* Məqalə fəlsəfə ü.f.d., professor Sakit Hüseynov tərəfindən çapa məsləhət görülüb.

qaldırılmış, bütün Şərqdə ilk dəfə olaraq ümumi icbari orta təhsilin həyata keçirilməsinə başlanmışdır.

Ayrıca qeyd etmək lazımdır ki, 1998-ci il sentyabrın 25-də keçirilən Azərbaycan Respublikasının Müəllimlər Qurultayı ölkəmizin ictimai-siyasi və mədəni həyatında, xüsusən də müəllim və ziyalıların inkişaf tarixində çox böyük hadisəyə çevrilmişdir. Heydər Əliyev cənablarının bu qurultaya göndərdiyi təbrik məktubunda Azərbaycan ziyalılarına, xüsusən də müəllimlərə olan diqqət və qayğısı özəlliklə hiss edilirdi. Bu isə irəliki illərdə müəllimlərin səylərinin daha yaxşı işləmək arzusu ətrafında cəmləşməsinə təkan vermişdir (4).

Ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründən başlayaraq ölkədə elm sahəsində də islahatlar aparılmağa başlanmışdır. Bildiyimiz kimi, müstəqilliyin ilk illərində Milli Elmlər Akademiyasının gələcək taleyi sual altında qalmışdı. Bəziləri düşünürdülər ki, Sovetlər Birliyindən qalan hər bir şeyi məhv etmək lazımdır. AMEA da məhz məhv edilən qurumların arasında yer almaqda idi. Amma onlar fikirləşə bilmirdilər ki, AMEA Azərbaycan xalqının XX əsrdə qazandığı ən böyük nailiyyətlərin başında gəlir. AMEA Azərbaycan xalqının elmi, bədii və mədəni irsini formalaşdıran tək qurum olaraq tarixə düşmüşdür. Elmi müəssisə kimi, böyük elmi nəticələr əldə edən AMEA bu gün də yeni elmi nailiyyətləri ilə Azərbaycan xalqına töhfələr verməkdə davam edir.

Bu baxımdan Ümummilli lider Heydər Əliyev cənabları hakimiyyətə gələn kimi ilk görüşlərindən birini AMEA-nın Rəyasət Heyətində məhz ölkə ziyalıları ilə keçirmişdir. O orada AMEA-nın əhəmiyyətindən və heç bir halda bu müəssisənin bağlanmasından söz belə gedə bilməyəcəyindən bəhs etmişdir. Bu hadisədən sonra AMEA inkişaf strategiyasını müəyyənləşdirmiş və yenilənməyə doğru irəliləmişdir.

Gördüyümüz kimi, istər elm, istərsə də təhsil sahəsinin inkişaf strategiyasının başlanğıcı məhz ümummilli lider Heydər Əliyev cənablarının prezidentliyi dövründən qoyulmuşdur. Heydər Əliyev məktəbinin və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu siyasəti davam etdirmişdir. 2003-cü ildən etibarən elm və təhsil sahəsi yeni inkişaf dövrünə başlamışdır. Prezidentin xüsusi göstərişi əsasında ümumrespublika səviyyəsində məktəblərin təmirinə və yenilərinin inşasına start verilmişdir. Bu fəaliyyətdə Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın da rolunu qiymətləndirmək lazımdır. Bu quruculuq və təmir işləri nəticəsində yeni onlarla məktəblər inşa edilmiş, köhnəlmiş təhsil müəssisələri isə əsaslı təmir edilmişdir.

Bütün bunlarla yanaşı, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Bəs bu təhsil strategiyası cəmiyyətimizə nə qazandıracaqdır? Belə ki, cəmiyyətin ümumi inkişafı üçün çox böyük əhəmiyyət kəsb edən sahələrdən biri də təhsil sahəsidir. Müasir dövrdə təhsilin iqtisadi həyatda rolu əhəmiyyətli dərəcədə artmışdır. Hazırda təhsil iqtisadiyyatda tələb olunan bilik və bacarıqların aşılanması ilə bərabər, vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiyasına hərtərəfli hazırlığı kimi vəzifələri yerinə yetirməlidir. İnsanın ömür boyu təhsil almaq tələbatının ödənilməsi isə təhsilin iqtisadi həyatda rolunu yüksəldən amillərdən ən mühümüdür.

Bu səbəbdən də, son dövrlərdə neftdən əldə edilən gəlirləri insan kapitalına çevirmək əsas hədəflərdən biri olmuşdur. Bu baxımdan dövlət bütün ölkədə mövcud təhsil müəssisələrinin elmi və texniki təchizatını zənginləşdirmiş və bu istiqamətdə müasir dövrün tələblərinə cavab verən təhsil sistemi formalaşdırmağı qarşıya hədəf qoymuşdur. Təhsilin inkişafı üçün Kurikulum və Boloniya sistemlərinə keçid təhsildə yeni nəticələrin əldə edilməsi məqsədi daşıyır. Yaxın gələcəkdə təhsildə əldə edilən nəticələr yaxşı mənada özünü büruzə verəcəkdir. Belə ki, bütün bunlar dövlətin, xüsusən də ölkə başçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham

Əliyev və ölkədə təhsil və elmin keşiyində duran ölkə ziyalılarının səyləri nəticəsində reallaşmaqdadır.

Son dövrlər təhsillə bərabər elmdə də yeniliklər müşahidə edilməkdədir. Bildiyimiz kimi, elmin inkişafı üzrə dövlət proqramı hazırlanıb Milli Məclisin müzakirəsinə verilmişdir. Bu ilin yazında müzakirəsi və təsdiqi gözlənilən elm haqqında qanun, gələcəkdə dövlətin inkişafında öz töhfələrini verəcəkdir. Ayrıca qeyd etmək lazımdır ki, bu qanunun təsdiqindən sonra elmdən daha da böyük nailiyyətlər gözləniləcəkdir.

Elm xadimləri qeyd edirlər ki, Azərbaycan Milli Elmlər Akademiyasının son dövrlər əldə etdiyi nailiyyətlər ölkə əhəmiyyətli hadisələrə çevrilmişdir. Bu nailiyyətlər tarix, fəlsəfə, dilçilik, ədəbiyyat, geologiya, kimya və s. elm sahələrində daha çox nəzərə çarpmaqdadır. AMEA-nın Prezidenti, Akademik Akif Əlizadə Heydər Əliyev Mərkəzində gənclərlə görüşündə qeyd etmişdir ki, AMEA-nın gələcəyi elmin təhsillə vəhdət təşkil etməsindən aslıdır (5). Yəni, əgər yaxın gələcəkdə Akademiyanın nəzdində elmlə təhsil birləşməsə, o zaman Akademiya elmi müəssisə kimi öz nüfuzunu qoruya bilməyəcəkdir. Yəni, bu o deməkdir ki, AMEA-da yaxın vaxtlarda dərin və fundamental islahatlar gözlənilməkdədir. Elmi nəticələri praktikada tətbiq etməyə və ya ölkədə ehtiyacı qarşılayan kadr hazırlığına başlanılacaqdır. Burada söhbət magistr və doktorant hazırlığından gedir. Belə ki, bu proses başlayacaqsa, o zaman alimlərin maddi durumlarında da kifayət qədər dəyişiklik gözlənilir.

Alimlərin araşdırmalarının nəticələri isə Akademiyanın nəzdində təhsil alan magistr və doktorantlara tədris ediləcəkdir. Bu isə onların elmlərinin artmasına və inkişafına böyük təkan verəcəkdir. Elm və təhsilin bir müəssisə altında birləşməsi, əslində, çoxdan gözlənilən bir proses olmalı idi. Bildiyimiz kimi, universitetlərdə tədrislə məşğul olan müəllimlər elmi tədqiqatlara o qədər da vaxt ayıra bilmirlər. Onlar daha çox başqa tədqiqatlara müraciət edərək dərs materiallarını hazırlayırlar. Akademiyanın nəzdində fəaliyyət göstərən institutlarda fəaliyyət göstərən alimlər isə daha çox tədqiqata zaman ayırırlar. Onların gərgin əmək̂ləri nəticəsində əldə etdikləri elmi nailiyyətlər ölkənin inkişafına, xüsusən də elm və təhsilin inkişafına birbaşa təsir etməkdədir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda elm və təhsilin inkişafı dövlət büdcəsindən ayrılan maliyyə xərclərindən asılıdır. Təhsil elm sahəsindən fərqli olaraq, müəyyən qədər özünü stimullaşdıra bilməkdədir. Bu isə təhsildə özəl sektorun mövcudluğu, müəyyən qədər ödənişli əsaslarla təhsil verən ali təhsil ocaqlarının qatqıları nəticəsində formalaşa bilmişdir. Elm sahəsində isə özünü maliyyələşdirmə mexanizmi istənilən qədər inkişaf etməmişdir. Bu səbəbdən də elm sahəsi tamamilə dövlət büdcəsindən maliyyələşməkdədir. Məsələn, məlumat üçün bildirək ki, inkişaf etmiş ölkələrdə büdcədən elmə ayrılan vəsaitlərin büdcə xərclərində xüsusi çəkisinin yüksək olmasına baxmayaraq, tədqiqat və işləmələrə çəkilən ümumi xərclərdə büdcənin payı 50%-dən aşağıdır. Məsələn, ABŞ, Almaniya, İtaliya, Fransa, Yaponiya və s. ölkələrdə bu, 20-50% arasında dəyişir. 2004-cü ildə bunun MDB ölkələrindən: Belarusda - 52%, Ermənistanda - 52%, Qazaxıstanda - 50%, Moldovada - 48%, Rusiyada - 60%, Ukraynada - 35% təşkil etdiyi göstərilir. Azərbaycanda isə bu göstərici 78,3% təşkil edib (6). Göründüyü kimi, Azərbaycanda elmə çəkilən xərclərin tərkibində büdcənin payı yüksəkdir. Bunun da səbəbi son illərdə elmi tədqiqatlara və işləmələrə çəkilən daxili xərclərin tərkibində büdcədənkənar fondların vəsaiti, təşkilatların öz vəsaitlərinin, sifarişçilərin vəsaitlərinin aşağı düşməsidir. Ümumiyyətlə, inkişaf etmiş ölkələrdən fərqli olaraq, bazar iqtisadiyyatına yeni keçid alan ölkələrdə biznes fəaliyyətinin elmi-tədqiqat işlərinin nəticələrinə tələbi yüksək deyildir. Bu baxımdan elm sahəsində, xüsusən də elmi müəssisələri özündə birləşdirən AMEA-da elmlə təhsilin vəhdəti qaçılmazdır. Bu belə olarsa, Azərbaycanda elm sahəsi də müəyyən qədər özünü maliyyələşdirə bilər. Bu isə o deməkdir ki, zamanla elmdən əldə edilən gəlirlər dövlət büdcəsinə kifayət qədər gəlir gətirməyə qadirdir.

Nəticə olaraq deyə bilərik ki, Azərbaycan müstəqillik dövründə elm və təhsil sahəsində böyük inkişafa nail olmuşdur. Elm və təhsil sahəsində ölkədə aparılan dövlət siyasəti, quruculuq işləri elm və təhsilin inkişafına zəmin yaradan amillərdən olmuşdur. Ayrıca, ölkədə elm və təhsil sahəsində qəbul edilən qanunlar və planlaşdırılan layihələr bu inkişafı daha da intensivləşdirmişdir. Bu inkişaf prosesində ölkə ziyalılarının da rolu danılmazdır.

Açar sözlər: elm, təhsil, təhsilin inkişaf strategiyası, ziyalılar.

İstifadə olunmuş ədəbiyyat

1. Səmədov E. Azərbaycanda din-dövlət münasibətləri. Bakı: Təknur, 2009.
2. «Şərq qapısı» qəzeti, 23 fevral 2015.
3. Heydər Əliyev və Azərbaycan təhsilinin inkişaf strategiyası. http://www.tehsilproblemleri.com/, 23 fevral 2015, Bazar ertəsi.
4. «Xalq» qəzeti, 26 sentyabr 1998.
5.http://azertag.az/xeber/Heyder_Aliyev_Merkezinde_Heyder_Aliyev_ve_Azerbaycan_elmi_movzusunda_seminar_kechirilib-832901
6. «Elm» qəzeti, №37-38 (843-845), 30.11.2007.

Мирвари САФАРОВА

ДИНАМИКА РАЗВИТИЯ НАУКИ И ОБРАЗОВАНИЯ В ПЕРИОД НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА (Социально-философский анализ)

Резюме

В статье осуществляется социально-философский анализ динамики развития науки и образования в период независимости Азербайджана. Автор особо подчеркивает роль общенационального лидера Гейдара Алиева в деле развития науки и образования, отмечается внимание государства к этой проблеме в современный период. В статье проанализированы социально-философские аспекты динамики развития науки и образования и принятие стратегии в области образования и права науки в будущем.

Ключевые слова: наука, образование, стратегия развития образования, просветители.

Mirvari JAFAROVA

DEVELOPMENT DYNAMICS OF SCIENCE AND EDUCATION IN INDEPENDENCE PERIOD OF AZERBAIJAN (Social and philosophical analysis)

Summary

In the article the socio-philosophical analysis of development dynamics of science and education and social-philosophical aspects of science in the independence period of Azerbaijan is made. The author emphasizes the National Leader Haydar Aliev`s particular role in development of science and education and notes attention of State to this problem in the contemporary period. In the article the social and philosophical aspects of future development dynamics of science and education and adoption of strategy in the field of education and the law on science are analyzed in future.

Keywords: science, education, development strategy of education, intellectuals.

UOT 51.1

Eldar ƏMİROV
doktorant, AMEA FHİ

RİYAZİYYATIN ƏSASLARINDA SOSİOMƏDƏNİ VƏ METAFİZİK DETERMİNASİYALARIN KƏSİŞMƏSİ*
(Dekarta qədərki dövr)

Riyaziyyat tarixinə nəzər saldıqda görünür ki, riyazi ideyaların, riyazi nəzəriyyələrin yaranması, riyazi problemlərin həlli ya sosiomədəni mühitlə əlaqələndirilir (belə araşdırmalarda sosiomədəni determinasiya dominantdır), ya da apriori olaraq bütün riyazi ideyaların, nəzəriyyələrin hər hansı şəxsin və ya ümumilikdə insanın apriori biliklərinin nəticəsi kimi götürülür. Biz isə bu araşdırmamızda bu araşdırmaların əslində birtərəfli olduğunu göstərməyə çalışacağıq və əsl həqiqətin bu ikisinin kəsişməsində ortaya çıxdığını vurğulayacağıq.

Ədədlərin yaranması ilə bağlı əsas mülahizə aşağıdakı kimidir. Təxmin edilir ki, 35000-20000 il bundan öncə qədim insanlar ovladıqları heyvanların hər biri üçün kiçik daşlar düzürdülər (1, s.9). Heyvanların sayı artdıqca daşların da sayını artırırdılar. Onlar beləcə ovladıqları heyvanların sayına uyğun kiçik daşlar düzürdülər. Yəni, ədədlər belə sayma nəticəsində meydana gəlib. Amma maraqlıdır ki, riyaziyyat tarixində ədədlərin yaranması ilə bağlı ilk rəy bundan uzağa getmir, araşdırmaçılar bu mülahizələrlə kifayətlənirdilər. Bu qarşılıqlı birqiymətli uyğunluğa imkan verən, bu əlaqəni yaradan nədir sualına cavab axtarılmır. Bizim mövqeyimiz isə ondan ibarətdir ki, bu əlaqəni yaradan, bu körpünü quran insana öncədən xas olan simmetriya prinsipidir. Heyvanların əşyaların sayının digər əşyalarda, məsələn, kiçik daşların sayında əks etdirilməsi. Düşünürük ki, təbiətin parçaları olan bu şeylər arasında oxşarlığı, analogiyanı yaradan instinkt insana öncədən xas olan simmetriya nəticəsidir. Simmetriya prinsipinin insana öncədən xas olması ilə bağlı, Q.Veylin "Simmetriya" əsərində ortaya qoyduğu mövqe ilə biz də razılaşırıq və öz növbəmizdə bu prinsipi ədədlərin mənşəyi ilə bağlı suala cavab axtarışında istifadə edirik (2). Beləliklə, simmetriya duyğusu qədim insana imkan verdi ki, o, heyvanlar çoxluğu ilə digər əşyalar, məsələn, daşlar çoxluğu arasında əlaqə qursun. Belə insanların həyat tərzi heyvanların həyat tərzindən çox da fərqlənməyən, danışıq dilinə malik olmayan homo sapinesin belə oxşarlığı duymasını təbii ki, onların "ictimai" mühiti ilə yox, anadangəlmə biologiyası ilə bağlamaq birmənalıdır. Hələ nəinki dilə malik olmayan, instinktlərlə yaşayan, qəbilə quruluşunun rüşeym halında olduğu bu primitiv insan toplusunda analogiya duyğusunu nə dil, nə də ki, ictimai məhsul kimi qiymətləndirmək olmaz. Belə olan halda sanki, instinkt şəklində ortaya çıxan bu duyğu çox təbii ki, onların biologiyasında əvvəlcədən mövcud olan, aprior determinasiya olmalıdır. Məhz elə bu simmetriyadır. Müxtəlif tədqiqatlarda sayların yaranmasını əl barmaqlarının olması ilə bağlayan tədqiqatçılar var. Lakin burda bir şey aydın deyil. Əgər, ilkin insan öz əlinin barmaqlarını saya bilirdisə də, bu say onun üçün heç bir şey ifadə etməzdi. Çünki təbiətdən hələ ki, qopmayan, onunla həmahəng yaşayan, əsasən praktikadan asılı olan ilkin insan üçün barmaqların sayı öz-özlüyündə heç nə ifadə etməzdi. Onların praktikasına söykənməyən sayma öz-özlüyündə ortaya çıxmazdı. Sayların barmaqlara "köçməsi" sonrakı mərhələdir. Bu barədə D.J.Stroyk yazır: "Beləliklə, aydındır ki, Yakob Qrimdə rast gəldiyimiz və tez-tez təkrarlanan fikir səhvdir. Belə ki, ədədlər guya barmaqlarla sayma nəticəsində meydana gəlmişdir. Lakin barmaqlarla sayma yalnız ictimai inkişafın

* Məqalə fəlsəfə ü.e.d., professor Zakir Məmmədəliyev tərəfindən çapa məsləhət görülüb.

müəyyən mərhələsində meydana çıxmışdır.” (3, s.24). Bunun kimi bu və ya digər tədqiqatlarda sayların barmağa qədərki yolu haqqında heç bir fikir söylənmir (4-9).

Beləliklə, heyvanların topaları ilə daş topaları arasında oxşarlığa imkan verən analogiya eynilə daş topaları ilə əl barmaqları arasında oxşarlığı şərtləndirdi. Həmişə özləri ilə daşıya bilmədikləri daşlar ilə malik olduqları əl və ayaq barmaqları arasında da qarşılıqlı birqiymətli uyğunluq gördülər. Həmişə onlarla olan bu vasitə onların işini daha da asanlaşdırdı. Sonradan onlar bu məlumatları digərlərinə ötürmək üçün və ya öz aralarında əlaqə qurmaq üçün sayları barmaqlara oxşar olan düz kərtiklərlə ağac, sümük və daşlar üzərində oymağa başlayacaqlar. Burada bu kəsiklərin barmağa oxşamasını xüsusi qeyd etmək lazımdır. Başqa sözlə simmetriyanın işə düşməsi çox aydın görünür. Yox əgər, ilkin insanların sümük üzərində belə barmağa oxşar düz kəsiklər oymasını təsadüf nəticəsində baş vermiş hadisə kimi izah etsək, onda biz ağlasığmaz fikir irəli sürmüş olarıq. Yəni, onlar nə vaxtsa belə kəsikli sümük və ya ağac budağı görüblər və bu onları sayları sümüklər, daşlar və ağaclar üzərində işarə etməyə sövq edib desək, yanılmış olarıq. Çünki arxeoloji qazıntılar nəticəsində müxtəlif ərazilərdən tapılan bu tip əşyalar, müxtəlif yerlərdə eyni təsadüfün baş verməsi ehtimalını heçə endirir. Həmin ərazilərdə yaşayan ilkin qəbilələrin eyni təsadüflə üzləşməsi və həmin təsadüfün də eyni ideyanı meydana gətirməsi fikri absurd görünür.

Ümumiyyətlə, ədədlərin yaranmasına simmetriya prinsipi nöqteyi-nəzərindən yanaşdıqda, ədədlərin yaranması ilə bağlı olan bütün tədqiqatları, mülahizələri bir işıq altında görmək olur. Belə ki, tarixi tədqiqatlarda müxtəlif polemikalar var. Məsələn, yuxarıda gətirdiyimiz sitatdan da göründüyü kimi, ədədlərin yaranması ilə bağlı müxtəlif başlanğıclar seçilir. Amma təklif olunan mülahizə nəticəsində ədədlərin yaranması ilə bağlı birmənalı fikir söyləmək olar. Maraqlıdır ki, simmetriya prinsipi Q.Veyl göstərilən əsərində riyaziyyatda bütün fundamental ideyaların əsasında durduğu göstərilir. Bizim yanaşmamız da öz növbəsində ədədlərin yaranmasını riyaziyyatın sonrakı inkişafı ilə bağlamağa imkan verir. Çünki sonrakı riyaziyyat üçün doğru olan prinsip ilkin riyaziyyat üçün də doğru olmalıdır. Ən azı ona görə ki, riyaziyyat daha çox kumulyativ elmdir. Bu mənada onu ilkin əsaslara qədər reduksiya etmək mümkündür.

Bizim burada qısa şəkildə toxunduğumuz bu ideyamızı diqqət mərkəzində saxlayacağıq və gələcək tədqiqatlarımızda geniş şəkildə tarixi-fəlsəfi aspektdə araşdırmağı nəzərdə tuturuq.

Bu mülahizədən həm də asanlıqla görünür ki, niyə saylar yarandığı zaman sıra da yaranmayıb. Sıra məhz bir texniki məsələ kimi, sonradan meydana çıxır. Məsələn, qədim işarələrdən ta Rum rəqəmlərinə qədər mövqesiz say sistemi davam edir. Sonradan texniki məsələ kimi hindlilər həm sıfrı, həm də mövqeli say sistemini yaradırlar. Meninqer sıra ilə saymanın meydana çıxmasını isə əl-ayaq barmaqlarının nizamlı düzülüşü ilə bağlayır: “Əgər daşlara, bədənin müəyyən hissələrinə mənimsədilən say kəsilməz, differensiallaşmamış idisə, əl və ayaq barmaqları artıq təbiət tərəfindən təsnif olunub və qruplaşdırılmışdı; 5 barmaq bir əli təşkil edir, 10 – iki əli, 20 - əllər və üstəgəl ayaqlar. Çox təbiidir ki, dildə də bu izlənir, beş – “1 əl”, 10 – “ 2 əl”, iyirmi – “bir adam”. Bu təkcə ilkin insanlarda yox, yüksək cəmiyyətlərdə də müşahidə olunur... Nəticədə, əsası qoyulan ədədlər sırasının sonrakı inkişafı bunun davamı olur...Beləliklə, bu təbiətin insanlığa ərmağanıdır” (9, s. 52).

Bu iki fundamental ideya sayma və sıralama, yaxud riyazi terminlərlə desək, kardinal və ordinal ədədlər şəklində bu gün də riyaziyyatın əsas ideyalarından biridir. Qədim köklərə söykənən bu ideya, G.Kantor tərəfindən işlənən və riyaziyyatda yeni paradiqmaya yol açan çoxluqlar nəzəriyyəsinin və kontinium gücün kəşfində bir daha özünü biruzə verir (10).

Buradan maraqlı bir nəticə də alınır. İlkin insanlar kosmosla daha sıx bağlı olduqlarından onların təbiət haqqındakı yarımistik, yarıgerçək görüşləri bu simmetriya nəticəsində ədədlərə də keçmişdir. Və ədədlər də onlar üçün belə xassələrə malik olmuşdu. Bu

ən qabarıq şəkildə Pifaqorçuların təlimində üzə çıxmış və maraqlıdır ki, sonrakı dövrlərdə də davam etmişdir. Onlar üçün 1-başlanğıcı, yaradanı, 2-yer varlıqlarının bölgüsünü, 3-can, bədən və ruhu, 7-planetləri və.s, ifadə etdiyi üçün müqəddəsdir. Pifaqor bu mistik rəqəmlərin sayını 5040-a çatdırırdı. Bundan başqa dost ədədlər, mükəmməl ədədlər, tək, cüt ədədlər, sadə, mürəkkəb ədədlər və.s. kimi ədədlər arasında münasibətlər var idi. Ən qəribəsi isə odur ki, bu əlamətlərin bəziləri hələ heç indinin özündə də bəzi ədədlərdən qopmamışdır. Məsələn, 7 ədədi kimi.

Ədədlərin sonrakı inkişafı Pifaqorçularla bağlıdır. Pifaqorizmin təsiri nəinki həm antik dövrə, həm də günümüzdə də hiss olunur. Pifaqorun həyatı və fəlsəfəsi haqqında çox yazılıb. Lakin biz burada bu geniş məlumata toxunmayacayıq, çünki bu bizim məqsədimiz çərçivəsində deyil. Məqsədimiz Pifaqorun fəlsəfəsinin nüvəsi olan "hər şey ədəddir" deyiminin metafizik yükü ilə tanış olmaqdır.

Ümumiyyətlə, Pifaqorçular (e.ə. VI əsr) ədədlərlə dini ayin şəklində məşğul olurdular. Onların təlimi mistik təlim idi. B.Rassel qeyd edir ki, baxmayaraq ki, bu təlim mistik təlim idi, lakin bu mistika spesifik intelektual xarakterli idi (11, s.51). Pifaqorçular ədədləri hər şeyin əsasında görürdülər və bütün dünyanı ədədlərin idarə etdiyinə inanırdılar. S.Trubetskoy bu metafizik ideyanın meydana gəlməsini belə izah edir:

Özündə şeylərin həqiqətini saxlayan dünya harmoniyası, vahidin çoxluqda və çoxluğun vahiddə yerləşməsidir. Buradan isə belə bir sual ortaya çıxırdı: çoxu vahiddə və vahidi çoxda necə dərk etmək olar? Bu sualın birbaşa cavabı ədəd idi. Ədəd özündə çoxluğu birləşdirir, çoxluq ədəddə bütovləşmiş kimi təsəvvür olunur. Ədəd vəhdətin simvoludur, formasıdır. Pifaqor ilk dəfə musiqi qanunlarını, səma cisimlərinin hərəkətini öyrənir və görür ki, onlar ölçüyə və ədədlər arasındakı münasibətlərə tabe olur. Bütün bunlardan o belə nəticəyə gəlir ki, səma harmoniya və ədəddir, ədəd ruhdur, harmoniyanın qanunudur, onun sirridir (12, s.183).

Göründüyü kimi, əgər Fales dünyanın başlanğıcında suyu, Anaksimandr sonsuzluğu, Anaksiman havanı görürdüsə, Pifaqor başlanğıcın ədəd olduğunu deyirdi. Eləcə də ədəd bunlardan fərqli olaraq həm başlangıcda, həm də şeylər arasındakı münasibətlərdə var idi. Yəni artıq o cismani başlanğıcdan fərqli olaraq bir idraki çalar da qazanmışdı. Fikrimizcə, Rassel elə məhz bu məqamı nəzərdə tuturdu.

Ədədlərin tək və cüt bölgüsü Pifaqorçular üçün, xüsusən xarakterik idi. Ədəd və harmoniya arasında əlaqə həm də iki başlanğıca əsaslanırdı. Pifaqorçulardan olan Filolaya görə, dünya sonlu və sonsuzun qarışığından ibarətdirsə, sonlu tək ədədə, sonsuz isə cüt ədədə uyğundur. Çünki tək bütövün simvoludur, o parçalanmır, cüt isə bölünür, iki yerə bölünür, sonradan onlar da öz növbəsində iki yerə bölünür (13, s.34-35). Qeyd edək ki, müasir riyaziyyatda tək ədədi də istənilən hissəyə bölmək olar, amma pifaqorçuların ədədləri yalnız bizim bu günkü adla natural ədədlər olduğundan onlar bölunmürdülər. Elə bu mənada da irrasionallığın kəşfi də bu bölgu ilə bağlıdır, yəni irrasional ədəd tək və cüt ədədlərin nisbəti şəklində göstərilə bilməmişdi. İrrasional ədəd ilk dəfə pifaqorçu Hippas tərəfindən kəşf olunur. Tərəfləri vahid olan kvadratın diaqonalı onun tərəfləri ilə ölçülə bilən olmaması irrasional ədədin, yəni $\sqrt{2}$ -nin kəşf olunmasına gətirir. Və rəvayətə görə bu kəşfdən sonra Hippas dənizdə boğulur. Çünki bu dünyagörüşünə görə Hippas dünya nizamına zidd olan sirrin üstünü açmışdı, ona görə də o, qəzəbə düçar olmalı idi.

Antik ruha xas olan irrasional ədəd haqqındakı bu qaranlıq düşüncələr XV-XVII əsrə qədər davam edir. Lakin burada irrasional ədədin dünya nizamını pozan şeytan kimi yox, onun təbiəti haqqında, daha doğrusu əsl ədəd olması haqqında idi. Bu dövrlərdə riyaziyyatçılar öz şübhələrinə baxmayaraq irrasional ədədlər üzərində bütün əməliyyatları yerinə yetirirdilər və həm də riyazi məsələlərin həllində onlardan istifadə edirdilər. XVI əsrdə

Con Neper (1550-1617) tərəfindən loqarifmin kəşfi irrasional ədədlər üçün geniş tətbiq sahəsi açdı. Onlar üzərində hesablamalar heç bir çətinlik çəkmədən yerinə yetirilirdi. Dövrün məşhur riyaziyyatçıları, avropalılar, italyan riyaziyyatçısı Luka Paçoli (1445-1514), alman rahibi və riyaziyyat professoru Yene Mixael Ştifel, italyan həkimi və alimi Cirolamo Kardano (1501-1570), flamandiya hərb mühəndisi Simon Stevin (1548-1620) hind və ərəb ənənəsinə sadiq qalaraq irrasional ədədlərdən sərbəst şəkildə istifadə edirdilər (14, s.195). Lakin buna baxmayaraq, irrasional ədədin doğurdan da əsl ədəd olması haqqında onların şübhələri var idi. Məsələn, Ştifel öz tərəddüdlərini belə ifadə edirdi: "Həndəsi fiqurların xassələri isbat edəndə irrasional ədədlər hər dəfəsində rasional ədədləri əvəz edirlər. Rasional ədədlərin bizə xidmət etmədiyi hallarda irrasional ədədlər bizə yardım edirlər. Bu da bizi belə bir fikrə gətirir ki, onları əsl, tam hüquqlu ədəd kimi qəbul edək. Digər tərəfdən isə, başqa təsəvvürlər bizi bu fikirdən daşındırır. Çünki irrasional ədədləri onluq sistemdə yazmaq olmur və məlum olur ki, onlar bizdən getdikcə uzaqlaşırlar... Əgər ədədin təbiətinə dəqiqlik məxsus deyilsə, biz onu ədəd kimi qəbul edə bilmərik... Necə ki, sonsuzluq ədəd deyil, irrasional ədəd də əsl ədəd deyil, o, sanki bizdən qaçaraq sonsuzluq dumanında gizlənmişdir" (14, s.196).

Burda çətinlik ondan ibarət idi ki, irrasional ədədlər də natural ədədlərlə ifadə edilməyə çalışılırdı. Necə ki, Ştifel daha sonra davam edir ki, əsl ədədlər natural ədədlər və kəsrlərdir, irrasional ədədlər heç birinə aid olmadığından onları əsl ədəd hesab etmək olmaz (14, s.196). Yəni göründüyü kimi hələ antik dövrün ruhu bu dövrdə də hiss olunurdu və onlar üçün ədəd adlandıra biləcək obyekt yalnız natural ədəd idi. Kəsr ədədlər natural ədədlə ifadə oluna bilirsə deməli ədəddir, irrasional ədəd natural ədədlə ifadə oluna bilmədiyindən o ədəd deyil. Hələ üstündən yüz il keçdikdən sonra da bu antik ruh itmir, Paskal və Barrou hökm edirlər ki, irrasional ədədlər ümumiyyətlə simvoldan başqa bir şey deyillər, onlar həndəsi kəmiyyətdən kənarda mümkün deyillər və irrasional ədədlər üzərində aparılan hesab əməlləri Evklidin kəmiyyətlər nəzəriyyəsi ilə əsaslandırılmalıdır (14, s.196).

Bu fikirlə qismən o mənada razılaşmaq olmaz ki, $\sqrt{2}$ konkret bir ədədi ifadə edir. Belə bir ədəd var. Tərəfləri 1 olan düzbucaqlı üçbucağın hipetonuzunun uzunluğudur. Yəni bu ədəd konkret bir real uzunluğu göstərir və əslində bu ədəd 1,4142135... kimidir. Amma bu yazılış sonsuz bir yazılış olduğundan və hesablamalarda çətinlik yaratdığından onun $\sqrt{2}$ kimi yazılışı daha rahatdır, hesablamalarda çətinlik törətmir. Yəni əslində, $\sqrt{2}$ simvolu ilə göstərilən 1,4142135... ədədi də 1, 2, 3, 4, 5, ... ədədləri ilə bərabər hüquqlu ədəddir. Necə ki, 4, 5, 100, ... ədədləri müəyyən kəmiyyətin ölçüsüdür, məsələn əşyaların sayı, məsafənin uzunluğu göstərir, eləcə də $\sqrt{2}$. Yəni bu mənada onu tam simvol kimi də qəbul etmək düzgün olmaz. Anlaşılmazlıq nədədir? Anlaşılmazlıq ondadır ki, real obyektə uyğun gələn bu ədəd üzərində aparılan riyazi əməliyyatlar radikalın xassəsidir. Hansı ki, ərəb və hindlilərin analogiya nəticəsində tapmışdılar: $\sqrt{36} = \sqrt{4} * \sqrt{9}$. (14, s.188). Bu metod rasional üstlü qüvvət nəzəriyyəsinin bütün teoremlərinə, düsturlarına cavab verir. Göründüyü kimi, irrasional ədədlər üçün aldığımız xassələr birbaşa yox, dolayı yolladır, irrasional ədədin sırf öz təbiətindən gələn xassələr, əlamətlər deyil.

Natural ədədlər üçün nəhəng teorem sistemləri işlənib hazırlanıb. Amma irrasional ədədlər isə belə müstəqil deyillər, onlar ya kəsrlərlə ya da ki, radikallarla ifadə olunurlar. Bizim fikrimizcə, irrasional ədədlər üçün məxsusi işarələr qəbul edib (bəlkə də kəşf edib), onlar üzərində yeni cəbr qurmaq lazımdır.

Burada belə bir qeyd yerinə düşər ki, riyaziyyat tarixinə nəzər saldıqda məlum olur ki, müasir riyazi obyektləri birdən-birə dərk və təsəvvür etmək olmur. Çünki hər birinin arxasında uzun tarixi təkamül durur. Riyazi obyektin canında yatan bu təkamül enerjisini birdən-birə “tutmaq” olmur.

Beləliklə, müasir riyaziyyatın gözü ilə baxdıqda, riyaziyyat hər bir hal üçün, həm sayma üçün, həm də kəmiyyətlərin ölçüsü üçün ədədlərə malik olur. (Təbii olaraq belə bir sual meydana çıxır, başqa ədədlər də varmı? Bu sualın cavabını 1931-ci ildə görkəmli rus riyaziyyatçısı L.S.Pontryaqin verir. O, isbat edir ki, ədəd deyə biləcəyimiz riyazi obyektlər həqiqi, kompleks, kvarternionlardır. Bu tip ədədlərdən savayı ədədlər daha meydana çıxmayacaq (15, s.98). Bir növ həm diskret həm də kəsilməzlik üçün ədədlər mövcud olur. Lakin antik ruha uyğun olmayan kəsilməzlik ədədinin qəbulu hələ orta əsrlərə qədər davam edəcək. Bu yanaşmanı alman filosof O.Şpenqler belə təsvir edir: "İrrasional ədədlər, yunan ruhu üçün tamamilə qəbul olunmaz oldu. Evklid deyirdi ki, (hansı ki, onun sözünü birbaşa qəbul etmək lazımdır) ölçülə bilməyən məsafələr arasındakı münasibətlər ədəd kimi deyil. Doğrudan da artıq irrasional ədədin oturuşmuş anlamı, ədəd və kəmiyyət ayrımındadır. Bunun da səbəbi ondadır ki, irrasional ədəd, məsələn Pi, heç vaxt məhdud deyil və heç vaxt da məhdud məsafə ilə ifadə oluna bilmir. Buradan isə belə çıxır ki, kvadratın tərəfinin onun diaqonalı ilə ifadəsi üçün antik ədəd kifayət etmədi. Çünki bu ədəd hisslərin sərhəddi idi, qapalı kəmiyyət idi. Ona görə də, antiq dünyaduyumuna yad olan, yeni ədəd ideyasına ehtiyac var idi, hansı ki, onlar bununla qarşılaşanda, sanki, onların məhvinə səbəb olacaq dəhşətli bir sirr ilə üz-üzə gəlmişdilər" (16, s.101). Daha sonra Şpenqler öz mülahizələrini davam edərək, irrasional ədədin qəbulunun sonsuzluğun qəbulu nəticəsində mümkün olduğunu deyir. Hansı ki, tamamilə doğrudur. "Antik ruh Pifaqorun simasında özünün apollonsayağı ədəd konsepsiyasını işlədi, oxşar olaraq Qərbi Avropa da faustsayağı sonsuzluğa yaxınlaşma ehtiraslı ruhu ilə Dekart və onun müasirlərinin (Paskal, Ferma, Dezarq) simasında tamamilə öz dövrünə uyğun ədədləri kəşf etdilər" (16, s.115).

Beləliklə, Pifaqorçuların, dünya ədəd və onlar arasındakı münasibətlərdir, ideyası həmişə öz qüvvəsində qalır. Əgər, onlar bu ideyanın birinci hissəsi ilə öz vaxtlarında məşğul olub, onunla tamamilə həmahəngdə idilərsə, ideyanın ikinci hissəsi olan – dünya, həm də ədədlər arasındakı münasibətlərdir - fikrinin qəbulu isə orta əsrlərə qədər davam edir.

Göründüyü kimi, bu problemin həlli irrasional ədədin natural ədədlə ifadə olunmasında yox, onun özünün varlığının qəbul olunmasıdır. Bu ideyanın ortaya atılması və qəbulu hələ əsrlərlə gözləməli olacaq. Əgər doğrudan da biz yuxarıdakı mülahizələrə qayıtsaq, görərik ki, ilk çaşqınlıq Pifaqorçularla bağlıdır. Çünki insanın gerçək aləmin obyeklərinə qarşı qoyduqları ədəd natural ədəd idisə, ovladıqları heyvanların sayı natural ədədlərlə ifadə olunurdusa, vahid kvadratın dioqnalı da belə real aləmin obyekti idi, ona da qarşı qoyulan müəyyən bir ədəd olmalı idi. Lakin bu faktla ilk dəfə rastlaşanda Pifaqorçuların belə ədədləri yox idi və əvəzində əllərində olan ədədlərdən-natural ədədlərdə istifadə etmişlər. Hansı ki, bu da min illəri yoran həll olunmayan problemə çevrilmişdi. Nəhayət, həlledici ideya Bombelli və Stevinin adı ilə bağlıdır. XVI əsrin ən qabaqcıl düşünürlərindən olan - Bombelli və Stevinin təklif etdikləri ideya, şübhəsiz ki, bütün həqiqi ədədlərin qəbulunu şərtləndirdi. Bombelli təklif etdi ki, müəyyən vahid ölçü seçilmiş düz xətt parçasının uzunluğu ilə həqiqi ədədlər arasında qarşılıqlı birqiymətli uyğunluq var. Və Bombelli parçanın uzunluğu üçün dörd əsas əməli də daxil etdi. Onun fikrinə görə həqiqi ədədlər üzərindəki hesab əmelləri parçanın uzunluğu ilə təyin olunur və həndəsi əməliyyatlara uyğundur. Bununla da Bombelli həqiqi ədədlər sistemini həndəsi olaraq əsaslandırdı. Stiven də, həmçinin həqiqi ədədlərə uzunluq kimi baxdı və hesab etdi ki, bu cür interpretasiya irrasional ədədlərin daxil edilməsi ilə bağlı bütün çətinlikləri aradan qaldırır. Şübhəsiz ki, bu cür yanaşmada həqiqi ədədlərin həndəsi ilə sıx bağlılığı ortaya çıxır (14, s.201).

Riyaziyyat tarixində dönüş yaradan növbəti ideya dəyişən kəmiyyətlərlə bağlıdır. XVI əsrə qədər, riyaziyyat, əsasən, konkret məsələlərin fonunda inkişaf edirdi. Ərəb və hind ölkələrində riyaziyyat konkret riyazi məsələlərin həllindən ibarət reseptlərdən ibarət idi. XVI

əsrdə estafet avropalılara ötürülür. Burada da riyaziyyatçılar, əsasən, iki dərəcəli, üç dərəcəli və yüksək dərəcəli tənliklərin həlli ilə məşğul olurdular. Kardano, Tartali kimi riyaziyyatçıların işləri bəzi konkret tənliklərin həlli ilə bağlı idi. Bu riyaziyyatçılar tənlikləri ədədlərin və radikalların köməyilə həll edirdilər. Lakin əsas dönüş və riyaziyyatın sonrakı inkişafı üçün və xüsusən də Dekartın analitik həndəsəsini şərtləndirən ideya fransız hüquqçusu və riyaziyyatçısı F.Viyetin adı ilə bağlıdır (17, s.6). Viyet ilk dəfə olaraq ədədləri və dəyişənləri simvollara işarə etməyə başlayır. Belə simvolik işarələmə məsələləri ümumi şəkildə həll etməyə və əsaslandırmağa imkan verdi. Demək olar ki, bu ideyanı hesabdan cəbrə keçid kimi qiymətləndirmək olar. Viyet bu ideyanın möhtəşəmliyini çox gözəl dərk etmişdi və özünün əsas cəbri ideyalarını ifadə etdiyi "Analitik sənətə giriş" əsərində onu belə təsvir edir: "Mənim burda ifadə etdiyim sənət yenidir və baxmayaraq ki, o zamanla aşınmaya məruz qalıb və bəziləri tərəfindən təhrif olunub, yenə də mən ona yeni görüntü verməyi vacib hesab edirəm... Bütün riyaziyyatçılar bilir ki, onların cəbri altında müqayisəyə gəlməz xəzinələr yatıb. Amma onlar bunu tapa bilmədilər. Onların çətin hesab etdikləri onlarla məsələ bizim sənətin köməyilə asanlıqla həll olunur və bununla da riyazi axtarışlara düzgün istiqamət verir" (14, s.92). Göründüyü kimi, bu ideyanın çox gözəl nəticələr verəcəyini görkəmli riyaziyyatçı əvvəlcədən duymuşdur.

Simvolikanın üstünlüyü Viyetə imkan verdi ki, o nəinki yeni nəticələr alsın, həm də əvvəlki nəticələri bütöv şəkildə, əsaslandırılmış şəkildə ifadə etsin. Əgər, Viyetin sələfləri konkret məsələlərin həlli üçün bir neçə qayda, resept və nümunə göstərirdisə, Viyet dördüncü dərəcəyə qədər tənliklərin həlli ilə bağlı məsələləri tam dolğunluğu ilə ifadə etdi (18, s.92).

K.Rıbnikov bu ideyanın mahiyyəti üzərində mühakimə yürüdərək yazır ki, XVI əsrin sonunda sabit kəmiyyətlər öz dövrünü başa vurdu. Söz yox ki, çox işlər hələ yarımçıq qalmışdı, amma buna bamayaraq kifayət qədər məlumat vahid bir sistem altında birləşə bildi. Düzdür, elementar riyaziyyatın yarım qalmış işləri və təkmilləşməsi bu gün də davam etməkdədir, amma riyaziyyat XVII əsrin gündəliyinə başqa məsələ çıxardı. Tədqiqatların ağırlıq mərkəzi dəyişən kəmiyyətlər üzərinə cəmləndi. Bununla da riyaziyyatda yeni dövr başladı (19, s.126).

Viyetin bu ideyası ilə bağlı, həm də onu demək olar ki, (bu xüsusən fəlsəfəyə aiddir), sadə şəkildə, parça-parça verilmiş hissələr öz daxili məntiqi çərçivəsində qavrana bilmədiklərindən, onlar bir pillə yuxarı iearxiyanın işığında daha aydın görünürlər və belə konteksdə məna qazanmış olurlar.

İnsana hadisələri sağlam düşüncə çərçivəsində dərk etmək xasdır. Məsələn, iki ədəd arasında fərqi sağlam düşüncə ilə dərk etmək üçün biz iki qrup əşya arasındakı say fərqinə baxırıq. 5-3=2 ifadəsi bizim üçün, məsələn 5 almadan 3 alma götürdükdə yerdə 2 almanın qalmasıdır. Yəni, biz əməliyyatları təsəvvür etməyə çalışırıq. Kant bunu apriorilərlə bağlayırdı. Kanta görə dərk etmək əslində, hisslərlə aldığımız məlumatın bizə öncədən xas olan fəza və zaman intuisiyası ilə yerbəyer edilməsidir. Amma bütün riyazi obyektləri təsəvvürdə canlandırmaq olmur, hər biri üçün ətraf aləmdən onların təsəvvürünü verən material tapmaq olmur. Lakin irəlidə görəcəyik ki, əslində Kantın irəli sürdüyü prinsip dəyişmir, o, bir şəkildən başqa şəklə keçir. Məsələn, əgər biz kubun həcminin hesablanmasını təsəvvür etmək istəsək, maddi aləmdən çoxlu misallar gətirə bilərik; hər hansı kub formasında olan su çəninin içərisindəki su bizə həcm, tutum intuisiyasını verir. Bu cür düşüncə antik insanın şüuruna xas idi. Lakin belə cismani təsəvvürlər müasir riyaziyyatda, kvant mexanikasında, nisbilik nəzəriyyəsində qeyri-mümkündür. Müasir nəzəri fiziklər etiraf edirlər ki, kvant mexanikasının bütün riyazi aparatları ilə çox rahatlıqla işləyirlər, amma heç vaxt onların nə olduqlarını və necə təsəvvür olunduqlarını bilmirlər.

Bizə görə isə əslində təsəvvür mexanizmi riyaziyyatın müasir üst qatları üçün də mövcuddur. Ən müasir riyazi aparatlar metrika, limit, metrik fəza, topoloji fəza, qrup və.s bir növ arxa fon kimi riyazi əməliyyatlar üçün fəza təsəvvürüdür. Riyazi idrak bu kvazitəsəvvürlər üzərindən ucalır. Məhz elə buna görə də, şərti olaraq "riyaziyyat" adlanan idrak sahəsi yarandığı gündən bu günə kimi qoşa qanad kimi çalışan iki sahədən ibarətdir: həndəsə və cəbr. Biri fəza intuisiyası üçün, o biri zaman intuisiyası üçün. Başqa sözlə, fiziki intuisiyanın bitdiyi yerdə riyazi intuisiya başlayır. Riyaziyyat gerçək, cismani olanla zəkavi olanın hibridinə çevrilir. Sanki, o bir riyazi kentavrdır. Nisbilik nəzəriyyəsi, kvant mexanikası belə riyazi kentavrlardır. Nisbilik nəzəriyyəsi gerçək dünyamızı ifadə etsə də təsəvvür olunan deyil. Əgər bir qədər əvvələ qayıtsaq, hələ vaxtilə Nyuton da deyirdi ki, mən cazibə qüvvəsini riyazi ifadə etdim, amma cazibənin təbiəti haqqında heç bir bilgim yoxdur. Nisbilik nəzəriyyəsinin mahiyyəti sağlam düşüncə üçün təsəvvür olunan etmək üçün çox məşhur olan əkizlər misalı çəkilir. Əkiz qardaşlardan biri Yerdə qalır, digəri isə işıq sürəti ilə Kainata səyahətə çıxır. Uzun müddətdən sonra qayıdanda o, görür ki, Yerdəki qardaşı artıq qocalmış, özü isə hələ cavandır. Təbii ki, bu qocalmanı bizim bildiyimiz bioloji qocalma ilə heç vaxt izah etmək olmur. Yəni nisbilik nəzəriyyəsi əslində, riyazi kentavrdır. Beləliklə, bizdən dünya nizamını idrak etmək üçün təsəvvürlərdən daha çox bu quruluşlara inam gərəkdir. Bu inam olmadan biz reallıq haqqında heç nə bilməyəcəyik. Eynşteynin təbiri ilə desək: “Yaratdığımız nəzəri konstruksiyalarımızın reallığı ifadə etdiyinə inamımız olmasa, həm də dünyamızın daxili harmoniyaya malik olmasına inamımız olmasa, heç bir elm mümkün ola bilməz. Bu inam elmi yaradıcılığın həmişəlik motivi olaraq qalacaq” (20, s.256).

Açar sözlər: ədədlər, simmetriya, irrasional ədəd, sayma və sıralama, simvolika, kvazitəsəvvür.

İstifadə olunmuş ədəbiyyat

1. Ifrah G. The Universal History of Computing: From the Abacus to the Quantum Computer. John Wiley & Sons Inc., 2001, 416 p.
2. Вейль Г. Симметрия. М.: Наука, 1968, 192 с.
3. Стройк Д.Я. Краткий очерк истории математики. М.: Наука, 1990, 256 с.
4. Roger L. The history of mathematics: A brief course. John Wiley & Sons Inc., 2013, 615 p.
5. Кэджори Ф. История элементарной математики. Одесса, Матщесис, 1910.
6. Берман Г.Н. Число и наука о нем. М.: ГИТТЛ, 1954, 164 с.
7. Нейгебауэр О. Точные науки в древности. М.: Наука, 1968, 224 с.
8. Юшкевич А.П. История математики. Т.1., М.: Наука, 1970, 352 с.
9. Меннингер К. История цифр. Числа, символы, слова. М.: Центрполиграф, 2011, 598 с.
10. Кантор Г. Труды по терии множеств. М.: Наука, 1985, 430 с.
11. Рассел Б. История западной философии. В 2-х кн., кн.1. М.: Миф, 1993, 509 с.
12. Трубецкой С.Н. Метафизика в Древней Греции. М.: Мысль, 2010, 589 с.
13. Гайденко П.П. История греческой философии в ее связи с наукой. М.: Либроком, 2009, 264 с.
14. Клайн М. Математика: Утрата определенности. М.: Мир, 1984, 434 с.
15. Понтрягин Л.С. Обобщение чисел. М.: Наука, 1986, 126 с.
16. Шпенглер О. Закат Европы: Очерки морфологии мировой истории. Т.1. Образ и действительность. Минск: Попурри, 2009, 656 с.

17. Хайвер Э., Ваннер Г. Математический анализ в свете его истории. Пер. с англ. М.: Научный мир, 2008, 396 с.
18. Никифоровский В.А. Из истории алгебры XVI-XVII вв. М.: Наука, 1979, 208 с.
19. Рыбников К.А. История математики. Т.1. М.: Издательство Московского Университета, 1960, 191 с.
20. Эйнштейн А. Эволюция физики. Сборник. М.: Устойчивый мир, 2001, 264 с.

Эльдар АМИРОВ

ПЕРЕСЕЧЕНИЕ В ОСНОВАНИИ МАТЕМАТИКИ СОЦИОКУЛЬТУРНОЙ И МЕТАФИЗИЧЕСКОЙ ДЕТЕРМИНАЦИЙ (Додекартовский период)

Резюме

В статье кратко излагается история математики додекартовского периода. Обстоятельное изучение исследований по основаниям математики показывает, что все фундаментальные идеи в этой области основываются на двух источниках – социокультурной среде и априорных структурах человеческого познания. Автор стремится доказать, что истина находится на пересечении двух тенденций, проистекающих из указанных выше источников.

В статье разработан новый подход относительно возникновения чисел. Выдвигаются также новые идеи о природе математического познания.

Ключевые слова: число, симметрия, иррациональное число, подсчет и нумерация, символика, квазиописание.

Eldar AMIROV

THE INTERSECTION OF SOCIO-CULTURAL AND METAPHYSICAL DETERMINATIONS IN THE FOUNDATIONS OF MATHEMATICS (Pre-Descartesian period)

Summary

The article considers briefly the history of mathematics of pre-Descartes period. The careful study of researches on mathematics bases has showed that all fundamental ideas in mathematics stem from two sources – socio-cultural environment and apriory structures of human cognition. Author strives to convince that truth is in the junction of two tendencies springing from these two sources.

The article sets out an innovative approach concerning the origin of figures. As well the new ideas on nature of mathematical cognition are put forward in the article.

Keywords: number, symmetry, irrational number, count and numbering, symbolics, quasi - account.

XARİCİ ÖLKƏ TƏDQİQATLARI

UOT 347

Astrid GARRAUD
Doctorante et ATER à la Faculté de Droit de Nice Sophia-Antipolis
Membre du Centre d'Études et de Recherches en Droit des Procédures
(CERDP; EA n 1201)
(France, Alpes-Maritimes)

DIGNITÉ HUMAINE ET EXÉCUTION DES PEINES LA DIGNITÉ HUMAINE DU DÉTENU À L'AUNE DE LA JURISPRUDENCE EUROPÉENNE*

«Nous, nous sommes ici parce que l'on n'a pas respecté la loi, alors pourquoi l'État bafoue les lois de l'Europe au détriment de la vie humaine?»[1] Cette question adressée par un détenu à Adeline Hazan, actuelle Contrôleure générale des lieux de privation de liberté illustre parfaitement la situation sur laquelle il nous ait donné l'occasion de discuter dans le cadre de ce colloque[2] sur la notion de dignité humaine.

Notre analyse part du constat que la dignité humaine, «valeur éminente appartenant à toute personne physique du seul fait de son appartenance à l'espèce humaine»[3] peut se trouver contrariée lorsqu'une personne est détenue dans un établissement pénitentiaire, lequel doit évidemment répondre à des impératifs de sécurités carcérale et plus largement, publique. Dans ces conditions, le respect du droit à la dignité humaine prend toute son importance et la réunion, dans notre sujet, des notions de dignité humaine et d'exécution des peines n'est donc pas anodine.

Jusqu'au XVIIe siècle, la sanction pénale consistait non pas en une peine de prison mais en un châtiment corporel infligé à une personne condamnée dont la dignité préoccupait peu. À la fin du XVIIIe siècle, la prison nouvellement érigée en sanction pénale, la question de la dignité des personnes détenues n'est pas encore posée mais c'était sans compter l'intervention du Britannique John Howard qui, à cette époque, lors de ces communications n'hésite pas à rappeler que parce que les prisonniers sont des hommes, ils doivent bénéficier d'un «traitement humain»[4]. Depuis, ce discours est soutenu par le nouveau souffle venu du droit européen des droits de l'Homme.

---

* Məqalə filologiya ü.f.d. Zöhrə Əliyeva tərəfindən çapa məsləhət görülüb.

[1] CONTRÔLEUR GÉNÉRAL DES LIEUX DE PRIVATION DE LIBERTÉ, *Rapport d'activité 2014*, éd. Dalloz, 2015, p. 208. Le Contrôleur est une autorité administrative indépendante de contrôle de tous les lieux de privation de liberté (pas seulement des établissements pénitentiaires). Il exerce son contrôle en visitant ces lieux privatifs de liberté depuis 2008. Après Jean-Marie DELARUE, c'est Adeline HAZAN qui est actuellement Contrôleure générale des lieux de privation de liberté.

[2] Cet article est issu d'une communication produite lors du Colloque «La dignité humaine saisie par le Droit» qui a eu lieu à l'Université de Nice Sophia-Antipolis le 1er juillet 2015 à la Faculté de Droit et de Science politique de Nice. Le colloque était organisé par l'Institut de Droit et de Philosophie de l'Académie des Sciences d'Azerbaïdjan et par le Centre d'Études et de Recherches en Droit Administratif, Constitutionnel, Financier et Fiscal de la Faculté de Nice.

[3] «Humain-e (dignité de la personne)» *in* CORNU (G.), Association Henri Capitant, *Vocabulaire juridique*, éd. PUF, 2011, p. 510.

[4] HOWARD (J.), *L'état des prisons, des hôpitaux et des maisons de force en Europe au XVIIIe siècle*, traduction nouvelle et édition critique par C. CARLIER et J.-G. PETIT, éd. de L'Atelier, coll. Champs pénitentiaires, 1994, p. 91.

Le droit du Conseil de l'Europe au premier rang duquel l'on trouve la Convention européenne de sauvegarde des droits de l'Homme et des Libertés fondamentales, dont l'analyse se propose d'en faire son champ d'étude, doit être perçu comme l'une des premières sources protectrices de la dignité humaine et principal vecteur de responsabilisation des autorités pénitentiaires. Toutefois, il faut noter que s'il existe de nombreuses autres sources européennes qui traitent spécifiquement de la condition des personnes privées de liberté comme par exemple les règles pénitentiaires européennes, la Convention européenne ne fait, quant à elle, pas explicitement référence à la personne détenue. Le traitement différencié lié à la condamnation de la personne incarcérée n'est, cependant, aucunement écarté des préoccupations des juges de la Cour européenne des droits de l'homme (CEDH) et garants du respect de la Convention européenne. Les juges européens considèrent d'ailleurs que la dignité humaine est «l'essence»[1] de la Convention.

Les personnes incarcérées dans les quarante-sept États membres du Conseil de l'Europe sont donc concernées par l'analyse jurisprudentielle déductive et dynamique du texte.

Parce que cette dernière personne connaît une situation particulière, encouragée par un état de dépendance certain du fait de l'emprisonnement, le juge européen œuvre à l'élaboration d'une protection catégorielle de la situation de la personnes détenue, ce qui ne manque pas d'améliorer le respect de son droit à la dignité humaine **(I).** Cette construction prétorienne du droit à la dignité humaine du détenu reste cependant souvent d'opportunité car les juges de Strasbourg sont conscients des conditions inhérentes à l'incarcération. C'est, d'ailleurs, ce qui caractérise la dignité humaine durant la phase de l'exécution des peines privatives de liberté. Effectivement, l'on sait que si la personne est privée de liberté, l'application du principe de la dignité humaine devra être conciliée avec les impératifs sécuritaires respectés par les établissements pénitentiaires. De plus, ces derniers lieux étant touchés par la problématique ancrée de la surpopulation carcérale, il ne fait aucun doute quant aux conséquences concessives de ce phénomène sur le respect complet du droit à la dignité humaine (**II**).

I) Le respect du droit à la dignité humaine aveugle à la condition inhérente à l'incarcération

Le juge européen impose le respect de l'article 3 de la Convention, spécialement en raison de la protection nécessaire au respect de l'intégrité physique et morale des individus, qu'ils soient libres ou détenus (**A**). Cette jurisprudence porte ses fruits directement en droit national. En effet, la France, plusieurs fois condamnée, cherche à respecter au mieux le principe de la dignité humaine (**B**).

A) L'absence de liberté étatique liée au respect de la dignité humaine

Tout d'abord, la Convention européenne distingue deux éléments: la protection de la vie humaine et le respect de la dignité humaine[2]. Ensuite, la dignité est principalement protégée par trois articles de la Convention européenne: les articles 2, 3 et 4 du texte, encadrant respectivement le droit à la vie, l'interdiction de la torture et des peines ou traitements inhumains ou dégradants et l'interdiction de l'esclavage et du travail forcé. Tout ce qui tend donc à nier l'humanité de l'homme sera donc considéré comme une atteinte à la dignité. Les trois articles protègent des droits dits intangibles, inconditionnels: aucune application limitative ne peut être réalisée. Concrètement, l'interprétation de ces trois articles laisse peu

[1] CEDH *Sw c. Royaume-Uni*, 22 nov. 1995, n 20166/92, § 44.

[2] *Cf.* not. SAURON (J.-L.), CHARTIER (A.) et REGUER-PETIT (L.), *Les droits protégés par la Convention européenne des droits de l'homme*, éd. Lextenso, 2014, p. 19 s.

de marge d'appréciation aux autorités pénitentiaires, ce qui devrait, *a priori*, les empêcher d'en faire une application libérale.

Généralités. Précisons d'ores et déjà que l'analyse ici effectuée va se focaliser sur l'article 3 de la Convention européenne[1]. Notons quelques définitions. D'abord, le traitement inhumain est considéré comme le «traitement appliqué avec préméditation pendant des heures ayant causé soit des lésions corporelles, soit de vives souffrances physiques ou mentales»[2]. Le traitement dégradant, quant à lui, est le «traitement de nature à inspirer à ses victimes des sentiments de peur, d'angoisse et d'infériorité propres à les humilier et à les avilir»[3]. Enfin, la torture correspond à des actes intentionnellement infligés «dans le but d'obtenir des informations et ayant provoqué des souffrances et douleurs particulièrement aigües»[4].

La CEDH procède en deux temps: elle regarde si le mauvais traitement dépasse le «seuil minimum de gravité»[5], et qualifie ensuite les actes[6]. S'il lui est d'abord obligatoire d'épuiser toutes les voies de recours internes[7], le détenu peut donc se présenter devant le juge européen dont l'interprétation dynamique intéresse particulièrement cette analyse. Le juge européen profite de chaque requête qui lui est présentée pour définir le cadre de cette protection dite catégorielle. Elle est qualifiée ainsi car elle a pour objectif de prendre en compte la condition spéciale des personnes incarcérées composant une catégorie de personnes humaines vulnérables mais dont l'effectivité des droits pourtant proclamés comme universels doit être singulièrement reconnue et protégée sur une même base d'égalité que ceux des individus

---

[1] La Convention européenne pour la prévention de la torture et des peines ou traitements inhumains ou dégradants adoptée le 26 juin 1987 et signée pour la première fois le 26 novembre 1987 complète l'article 3 de la Convention européenne de sauvegarde des Droits de l'Homme et des Libertés fondamentales. Cette convention européenne a été ratifiée par la France (L. n 88-1843 du 30 déc. 1988; D. n 89-283 du 2 mai 1989 portant publication de la convention européenne pour la prévention de la torture et des peines ou traitements inhumains ou dégradants faite à Strasbourg le 26 nov. 1987, entrée en vigueur le 1er mai 1989, *JORF* 6 mai 1989) puis révisée conformément aux dispositions des protocoles n 1 et n 2 entrés en vigueur le 1er mars 2002. Elle a été ratifiée par les quarante-sept États membres du Conseil de l'Europe. L'article 3 a d'ailleurs inspiré l'écriture de cette convention européenne contre la torture. Cette convention a institué un Comité européen pour la prévention de la torture et des peines ou traitements inhumains ou dégradants: *Cf.* not. SENNA (E.), «25 ans du Comité européen pour la prévention de la torture et des peines ou traitements inhumains ou dégradants», *Gaz. Pal.*, 21 mai 2015, n 141, p. 4 s.

[2] SAURON (J.-L.), CHARTIER (A.) et REGUER-PETIT (L.), *Les droits protégés par la Convention européenne des droits de l'homme*, éd. Lextenso, 2014, p. 59.

[3] SAURON (J.-L.), CHARTIER (A.) et REGUER-PETIT (L.), *Les droits protégés par la Convention européenne des droits de l'homme*, éd. Lextenso, 2014, p. 59.

[4] SAURON (J.-L.), CHARTIER (A.) et REGUER-PETIT (L.), *Les droits protégés par la Convention européenne des droits de l'homme*, éd. Lextenso, 2014, p. 59.

[5] *Cf.* not. CEDH *Idalov c. Russie*, 22 mai 2012, n 5826/03, § 91 s.; CEDH *Enea c. Italie*, 17 sept. 2009, n 74912/01, § 55.

[6] *Cf.* not. CEDH *Gäfgen c. Allemagne*, 1er juin 2010, n 22978/05, § 101.

[7] La procédure de référé devant le juge administratif français est plus efficace pour le détenu puisque selon l'article L. 4 du Code de Justice administrative, le recours n'a pas d'effet suspensif. Le détenu peut présenter une requête en référé: ordinaire ou urgence afin, par exemple, de suspendre des actes en cas de référé-suspension ou de prendre des mesures de protection d'une liberté fondamentale ayant subi une atteinte en cas de référé-liberté. La liberté fondamentale serait celle qui est prévue par une règle supra réglementaire et dont l'objet est important pour justifier de l'application de l'article L. 521-2 du Code de justice administrative. *Cf.* MORALES (V.), «La protection juridictionnelle des droits fondamentaux: révélation d'une entente conceptuelle», *VIe Congrès français de droit constitutionnel*, Atelier n 2: Le renouveau du droit constitutionnel par les droits fondamentaux, Montpellier, 9, 10 et 11 juin 2005; FAVOREU (L.), «La notion de liberté fondamentale devant le juge administratif des référés», *Recueil Dalloz*, 2001, p. 1739 s.

libres[1]. La CEDH précise qu'en matière de peine privative de liberté, les actes qui entrent dans le champ d'application de l'article 3 sont des actes qui vont au-delà de la souffrance ou de l'humiliation inhérente à la peine[2]. Du point de vue de la preuve de ces actes, notons d'ores et déjà que la violation de l'article 3, dont le requérant peut demander réparation, est possible lorsqu'est présent un «faisceau d'indices, ou de présomptions non réfutées, suffisamment graves précis et concordants»[3].

Santé carcérale et dignité. La position du juge européen est ferme et les trop nombreuses condamnations des autorités nationales démontrent précisément son souhait de faire rayonner la protection de ce droit à l'intérieur des établissements pénitentiaires[4].

Une sélection de quelques condamnations sur la base d'une violation de l'article 3 commise par les autorités nationales françaises va nous permettre désormais d'apprécier différentes situations interdites par les juges de Strasbourg en matière d'exécution des peines. L'on apprendra que l'interprétation produite par le juge européen relève d'une interprétation concrète car le seuil de gravité pour tomber sous le coup de l'application de l'article 3 doit être apprécié en fonction des circonstances propres de l'affaire qui lui est présentée.

Citons donc quelques exemples en matière de santé des détenus où les situations contentieuses peuvent s'avérer particulièrement nombreuses. Cela nous permettra ensuite de mieux apprécier la réception qu'en fait le droit national. C'est dans une affaire *Duval contre France*[5] que la CEDH a condamné la France en raison de l'usage abusif de menottes et d'entraves pendant les soins lors de plusieurs extractions médicales[6]. Le requérant s'est dit humilié et observé par les surveillants. La Cour, qui avait déjà condamné la Russie pour les mêmes raisons dans un arrêt *Tarariyeva contre Russie*[7] a considéré que «les moyens de contrainte utilisés en l'espèce [...] étaient disproportionnés[8] au regard des nécessités de

---

[1] LOCHAK (D.), «Penser les droits catégoriels dans leur rapport à l'universalité», *in* Séminaire Droit des femmes face à l'essor de l'intérêt de l'enfant, *La Revue des Droits de l'Homme*, n 3, juin 2013, https://revdh.files.wordpress.com/2013/06/1secc81minairelochak1.pdf.

[2] *Cf.* not. CEDH *Idalov c. Russie*, 22 mai 2012, n 5826/03, § 93; CEDH *Enea c. Italie*, 17 sept. 2009, n 74912/01, §56; CEDH *Kafkaris c. Chypre*, 12 févr. 2008, n 21906/04, § 96.

[3] *Cf.* not. CEDH *Jalloh c. Allemagne*, 11 juill. 2006, n 54810/00, § 67.

[4] Il oblige d'ailleurs les États à mener une enquête efficace pour déterminer et punir les responsables des actes commis. Si cela n'est pas effectué, la CEDH pourra considérer que l'article 3 a été violé dans son aspect procédural. L'article 3 n'évoque pas cette obligation de mener une enquête mais il s'agit d'une consécration jurisprudentielle des juges de Strasbourg. *Cf.* not. CEDH *Naumenko c. Ukraine*, 10 févr. 2004, n 42023/98, § 129; *Cf.* SAURON (J.-L.), CHARTIER (A.) et REGUER-PETIT (L.), *Les droits protégés par la Convention européenne des droits de l'homme*, éd. Lextenso, 2014, p. 59 s.

[5] CEDH *Duval c. France*, 5e sect., 26 mai 2011, n 19868/08, *Dalloz actualité*, 07 juill. 2011, obs. PRIOU-ALIBERT (L.) ; *Gaz. Pal.*, 25 août 2011, n° 237, p. 11 s., obs. SENNA (E.) ; *Procédures*, n° 7, juill. 2011, comm. 230, FRICERO (N.) ; *RSC*, 2011, p. 707 s., note ROETS (D.).

[6] Dans le même sens: CEDH *Henaf c. France*, 27 nov. 2003, n 65436/01, *JCP G.*, 2004, II, 10093, note DI RAIMONDO (L.) (Dans cette affaire, le détenu concerné avait été attaché à son lit la veille d'une intervention chirurgicale.); CEDH *Mouisel c. France*, 2 déc. 2004, n 67263/01, *Recueil Dalloz*, 2003, p. 303 s., obs. MOUTOUH (H.), (Dans cette affaire, le détenu subissait des conditions de détention inadaptées à son handicap l'obligeant à se faire porter pour passer l'étroitesse des portes avec son fauteuil roulant.); *Cf.* RENUCCI (J.-F.), *Traité de droit européen des droits de l'homme*, éd. LGDJ, 2e éd., 2012, p. 145.

[7] CEDH *Tarariyeva c. Russie*, 14 déc. 2006, n 4353/03.

[8] Elle avait auparavant reconnu que le port de menottes ne posait normalement pas de problème au regard de l'article 3 de la Convention européenne lorsqu'il est lié à une détention légale. *Cf.* CEDH *Paradysz c. France*, 29 oct. 2009, n 17020/05; *RPDP*, n 4, oct. - déc. 2009, p. 885 s., chron. RENUCCI (J.-F.).

sécurité»[1] et que les soins avaient été prodigués avec la «présence constante de surveillants ou de policiers lors d'examens médicaux dont certains présentaient un caractère intime»[2].

Dans une affaire *Rivière contre France*[3], la CEDH, qui - au demeurant - a confirmé plus tard sa décision[4], a condamné la France considérant que le maintien en détention du requérant avait constitué «une épreuve particulièrement pénible et a*(vait)* soumis le détenu à une détresse ou une épreuve d'une intensité qui excèd*(ait)* le niveau inévitable de souffrance inhérent à la détention»[5]. La CEDH a considéré que l'article 3 avait été violé car le détenu, souffrant de graves troubles psychiatriques et présentant des risques suicidaires, n'avait pas bénéficié d'une adaptation de son régime de détention à son état de santé[6] ou d'une hospitalisation qui aurait pu être plus appropriée[7].

Dans une autre affaire *Raffray Taddei contre France*[8], la CEDH a constaté une violation de l'article 3 pour défaut de soins appropriés à une détenue anorexique. Si le juge européen précise ici que «d'une façon générale, la détention d'une personne malade ne constitue pas, en soi, un traitement inhumain ou dégradant», il précise que cette détention ne doit pas entraîner «une aggravation de l'état de santé et que des soins médicaux appropriés»[9] doivent être prodigués. Selon la Cour, l'intéressée n'avait pas eu un suivi spécialisé dans une structure adaptée à sa pathologie[10]. De plus, elle avait subi de nombreux transferts qui l'avaient fragilisée.

Dans un arrêt plus récent, lequel date en effet du 19 février 2015, *Helhal contre France*[11], la Cour européenne a considéré que les autorités pénitentiaires avaient à nouveau violé l'article 3 de la Convention dans le cas du maintien en détention d'une personne gravement handicapée paraplégique, état résultant d'une chute de plusieurs mètres lors d'une tentative d'évasion. La Cour confirme ainsi deux éléments. Premièrement, la détention d'une

---

[1] CEDH, *Duval c. France*, 5e sect., 26 mai 2011, n 19868/08, § 50.

[2] CEDH, *Duval c. France*, 5e sect., 26 mai 2011, n 19868/08, § 50.

[3] CEDH *Rivière c. France*, 11 juill. 2006, n 33834/03, *Dalloz actualité*, 05 août 2006, DALEAU (J) ; CÉRÉ (J.) et *Recueil Dalloz*, 2007, Pan. p. 1229 s., HERZOG-EVANS (M.) ; *RTDH*, 2007, pp. 261-268, note CÉRÉ (J.-P.) ; *RSC*, 2007, p. 350 s., spéc. p. 361, chron. PONCELA (P.).

[4] CEDH *Renolde contre France*, 16 oct. 2008, n 5608/05, *JCP G.*, 2008, II, 10196, note BELDA (B.) (Dans cette affaire, le détenu qui présentait des risques suicidaires a été placé dans une cellule d'isolement disciplinaire après l'agression d'une surveillante et s'est pendu dans sa cellule.). V. aussi: CEDH *Ketreb c. France*, 19 juill. 2012, n 38447/09, *Dalloz actualité*, 19 sept. 2012, obs. LÉNA (M.) (Dans cette affaire, il s'agit d'une condamnation de la France pour le suicide d'un détenu atteint de troubles graves du comportement et qui avait été placé en quartier disciplinaire sans que le service médico psychologique régional en soit avisé alors qu'il avait déjà commis des actes automutilation quelques mois auparavant).

[5] CEDH *Rivière c. France,* 11 juill. 2006, n 33834/03, § 62.

[6] Dans le même sens et pour une autre pathologie notamment la schizophrénie: CEDH *G. c. France*, 5e sect., 23 févr. 2012, n 27244/09, *Dalloz actualité*, 13 mars 2012, obs.BACHELET (O.); *Droit de la famille*, n 4, avr. 2012, comm. 73, obs. BRUGGEMAN (M.); *AJ Pénal*, 2012, p. 357 s., obs. CÉRÉ (J.-P.); *RDSS*, 2012, p. 678 s., note HENNION-JACQUET (P.) ; *L'essentiel Droit de la famille et des personnes*, 15 avr. 2012, n 4, p. 2, obs. LARRALDE (J.-M.); *RSC*, 2012, p. 683 s., obs. ROETS (D).

[7] Solution qui contraste avec les arrêts CEDH *Papon c. France*, 7 juin 2001, n 54210/00, *D.*, 2001, p. 2335 s., obs.CÉRÉ (J.-P.); *D.*, 2002, p. 683 s., obs. RÉNUCCI (J.-F.); *D.*, 2002, p. 2893 s., HERZOG-EVANS (M.) et CEDH *Gelfmann c. France*, 14 déc. 2004, n 25875/03, *AJ Pénal*, 2005, p. 33 s., obs. HERZOG-EVANS (M).

[8] CEDH *Raffray Taddei c. France*, 5e sect., 21 déc. 2010, n 36435/07, *Dalloz actualité*, 18 janv. 2011, BACHELET (O.); *AJ Pénal*, 2011, p. 129 s., obs. CÉRÉ (J.-P.).

Органы городского самоуправления в Российской Империи, введенные Городовым согласно положению 1870 года по вопросам, относящимся к их компетенции, выносили решения, которые выражались в документах установленного порядка. К этим документам относились: определения, обязательные постановления, постановления и инструкции. Выражение воли органов городского самоуправления в этих документах так или иначе соотносилось с тем, насколько важный вопрос рассматривался указанными органами и, следовательно, какую юридическую силу необходимо было придать волеизъявлению соответствующего органа городского общественного управления (1, с.84).

Указанные правовые акты, безусловно, следует отнести к нормативно-правовым документам, так как они носят общий характер и чаще всего касаются неопределенного круга лиц. Р.Ф.Асанов и Е.В. Иванютина достаточно подробно рассматривают основные особенности правовых актов в работе «Городское самоуправление в России во второй половине XIX века». Рассмотрим их.

1. Определения. Распространяя свое действие на всю территорию муниципального образования, они обладали наиболее высокой юридической силой. Их главное отличие от других нормативно-правовых актов органов городского самоуправления рассматриваемого периода состояло в том, что для придания им юридической силы необходимо было соблюдение специальной процедуры. Речь идет непосредственно об актах по вопросам, относящимся к совместному ведению органов городского общественного управления и государственно-властных структур. Для вступления в силу этих актов требовалось согласование их с соответствующими органами государственной власти. Речь идет об актах, которые затрагивали вопросы безопасности, городского строительства, банковской отрасли и др.

Эти документы, по сути, приобретали силу законоположения после утверждения

* Məqalə hüquq ü.e.d., professor Habil Qurbanov tərəfindən çapa məsləhət görülüb.

их административной властью. Чаще всего проекты этих документов подлежали рассмотрению министром внутренних дел, министром финансов и губернатором (1, с.84). Последний направлял их по назначению. Рассмотрение большинства проектов определений органов городского самоуправления министром внутренних дел и министром финансов в целом соответствует тем сферам правового регулирования, которые были отнесены к совместному ведению государства и местного самоуправления (т.е. это безопасность, охрана общественного порядка и банковская деятельность).

Высшая юридическая сила определений органов городского общественного управления во многом предопределяется именно тем, что данные нормативно-правовые акты издавались по вопросам, требовавшим согласования с органами государственной власти. Следовательно, место этих документов в иерархии актов органов городского самоуправления рассматриваемого периода в целом предопределено структурой аппарата государственного управления, в который органы городского самоуправления так или иначе интегрировались ввиду указанной процедуры согласования данных актов.

2. Далее по юридической силе следовали постановления и обязательные постановления. Исследователи отмечают, что в иерархии нормативно-правовых актов органов общественного городского управления второй половины XIX столетия эти акты находились на одном уровне. Однако полностью отождествлять их не следует.

Постановления также выступали актами, распространявшими свое действие на всю территорию муниципального образования непосредственно по тем вопросам, круг которых был очерчен законодательством. По своей сути это акты издавались по вопросам, относившимся исключительно к компетенции правотворческого органа городского самоуправления (Городской думы). Эти вопросы определялись законодательством. Так, к ним относились: назначение выборных должностных лиц (постановления по такого рода вопросам не следует рассматривать в качестве нормативно-правовых актов) и дела общественного устройства; назначение содержания должностных лиц городского общественного управления и определение его размера; установление, увеличение и уменьшение городских сборов и налогов; установление правил для заведования городским имуществом и сооружениями и др. В этой связи именно Городская дума обладала правом предоставления органу исполнительной власти полномочий по осуществлению конкретных действий по предметам его ведомства. Но вопросы, которые определены в данной статье, Городская дума не могла возложить на управу думы. Они должны были решаться непосредственно постановлениями Городской думы. Поэтому перечень этих дел представлен в особой статье как прямые предметы ведения Думы. Следовательно, можно выделить различные постановления в зависимости от принадлежности их к тому или иному органу городского общественного управления.

На законодательном уровне были особо установлены полномочия Городской думы по утверждению так называемых обязательных постановлений по вопросам городского самоуправления. Как подчеркивают исследователи, существовал исчерпывающий перечень тех предметов ведения, по которым Городская дума должна была выносить обязательные постановления. Более того, сама по себе Городская дума была обязана выносить по конкретным вопросам нормативно-правовые акты в указанной форме. Специфика состоит также и в процедуре принятия данных актов. Проекты рассматриваемых обязательных постановлений доводились до сведения начальника местного полицейского управления, который в свою очередь давал по ним свои заключения. Он также выносил на обсуждение Городской думы проекты тех

постановлений, которые так или иначе затрагивали вопросы городского благоустройства и развития. В Москве в качестве начальника местного полицейского управления, с которым согласовывались обязательные постановления, выступал Обер-Полицмейстер (2, с.115-116).

В качестве примеров конкретных предметов, по которым издавались обязательные постановления, также можно привести предметы ведения Нижегородской Городской думы в период с 1871 по 1892 гг. В указанный период данная Дума приняла обязательные постановления по следующим предметам городского благоустройства: 1) о порядке осуществления извозного промысла (1871 г.); 2) о мерах по обеспечению безопасности от домашних животных (1876 г.) и др. (1, с.85-88).

3. Инструкции представляли собой акты, обладавшие наименьшей юридической силой по сравнению с рассмотренными выше документами. По своей сути данные акты касались вопросов регламентации Городской думой порядка деятельности Городской управы и ее исполнительных комиссий (постоянных, решавших вопросы в отдельных сферах городского благоустройства, и временных, или чрезвычайных, учреждавшихся в особых, чрезвычайных ситуациях) (1, с.89).

Итак, если говорить о разновидностях правовых актов органов городского общественного управления, то предложенные Р.Ф.Асановым и Е.В.Иванютиной виды актов подразделяются по форме. А именно: 1) определения; 2) постановления и обязательные постановления; 3) инструкции.

На основании изложенного выше можно выделить также другие варианты классификации данных актов.

I. По органу городского самоуправления, принявшему акт: 1) акты Городской думы; 2) акты Городской управы.

II. В зависимости от сфер, регулируемых актами общественных отношений: 1) акты, регулировавшие отношения в отдельных сферах городского благоустройства и развития (например, о правилах торговли, охране общественного порядка и др.); 2) акты, регламентировавшие отношения в области организации деятельности органов городского самоуправления (инструкции о порядке деятельности Городской управы, акты о назначении должностных лиц городского общественного управления, об установлении им содержания и т.д.).

III. В зависимости от необходимости согласования актов с органами административно-полицейского управления: 1) требовавшие такого согласования (обязательные постановления, определения); 2) не требовавшие согласования (например, инструкции).

IV. Еще одна классификация, которая фактически во многом предопределяла наличие предыдущей классификации, – по предметам ведения: 1) акты по предметам ведения органов городского самоуправления (например, акты по вопросам коммерческого пользования участками городской земли); 2) акты по предметам совместного ведения городских дум и государственно-властных структур (например, акты, касавшиеся банковской сферы).

Указанным разновидностям актов соответствовали конкретные виды деятельности органов городского самоуправления:

I. 1) деятельность Городской думы; 2) деятельность Городской управы.

II. 1) деятельность непосредственно по городскому благоустройству и развитию; 2) внутриорганизационная деятельность.

III. 1) направления деятельности, требовавшие согласования с органами административно-полицейской власти; 2) направления деятельности, не нуждавшиеся в таком согласовании.

IV. 1) деятельность по предметам ведения органов городского самоуправления; 2) деятельность по предметам совместного ведения городских дум и структур административно-полицейского управления.

Таким образом, анализ отдельных видов правовых актов органов городского самоуправления позволяет лишний раз подчеркнуть такую характерную для данного исторического периода тенденцию функционирования системы городского самоуправления, как высокий уровень ее зависимости от органов административно-полицейской власти и порой даже излишнее проникновение последней в сферу исключительных интересов города.

Ключевые слова: правовые акты, органы городского самоуправления, органы административно-полицейской власти, городская реформа 1870 года, Городская дума, городское общественное управление, органы государственной власти, нормативно-правовые акты.

Список использованной литературы

1. Асанов Р.Ф., Иванютина Е.В. Городское самоуправление в России во второй половине XIX века. Нефтекамск: РИЦ БашГУ, 2007.

2. Журналы Московской Городской Думы за 1890 год. Московская городская типография, Тверская, Гнездниковский переулок, собственный дом. М., 1890.

Aleksey SAVİÇEV

1870-Cİ İL ŞƏHƏR İSLAHATLARININ REALLAŞMASI DÖVRÜNDƏ ŞƏHƏR ÖZÜNÜİDARƏ ORQANLARINDA HÜQUQİ AKTLARIN NÖVLƏRİ

Xülasə

Şəhər ictimai özünüidarə strukturlarının hüquqi sənədlərinin müxtəlifliyini nəzərə alaraq, müəllif məqalədə onların konkret növlərini fərqləndirir. Hüquqi aktların bu və ya digər növə bölünməsi bu sənədlərin hansı sferaya aid olması ilə tənzimlənir, bu zaman inzibati-polis idarəsi ilə razılıq əldə edilməlidir. Müəllif eyni zamanda hüquqi sənədlərin növləri ilə şəhər ictimai idarəetmə orqanlarının fəaliyyəti arasındakı bağlılığı təhlil edir. Müəllif baxılan dövrdə şəhər özünüidarəetmə orqanlarının inzibati-polis hakimiyyətindən asılı olduğunu əsaslandırır.

Açar sözlər: hüquqi aktlar, şəhər özünüidarə orqanları, inzibati-polis hakimiyyəti orqanları, 1870-ci ilin şəhər islahatı, Şəhər Duması, şəhər ictimai idarəsi, dövlət hakimiyyət orqanları, normativ-hüquqi aktlar.

Aleksey SAVICHEV

TYPES OF LEGAL ACTS OF THE BODIES OF CITY SELF-GOVERNMENT DURING THE IMPLEMENTATION OF URBAN REFORM IN 1870

Summary

The article relates to the recognition of legal acts of the bodies of city self-government during the implementation of urban reform in 1870. Starting from the main varieties of the legal instruments of the urban public administration, the author proposes a number of possible reasons for the selection of specific species. The division acts on certain species is conditioned on areas controlled these documents public relations, presence or absence of the need to harmonize acts in administrative bodies of the police department. In addition, the author analyzes the relationship between the considered views of the individual instruments and activities of municipal public administration as well. He justifies the conclusion that the individual species acts once again attest to the high level of dependence on the structure of municipal government bodies of administrative and police authorities, which, of course, hindered the development of municipal government in this period.

Keywords: legal acts, bodies of city self-government, bodies of administrative and police authorities, the urban reform of 1870, City Council, City Government, urban public administration, bodies of authorities, normative-legal acts.

SOSİOLOGİYA BÖLMƏSİ

UOT 316.34

Cavid ŞAHMALIYEV
doktorant, BDU

YAŞLILARIN İNTİHAR ETMƏ SƏBƏBLƏRİ VƏ BUNU ÖNLƏYİCİ TƏDBİRLƏR*

Urbanizasiya və sənayeləşmənin yaşlılar üzərindəki mənfi təsirləri, yaşlılıq faktını bir problem olaraq qarşımıza çıxarmaqdadır. Yaşlılıq insan həyatının ən həssas və qaçılmaz bir dövrüdür. Yaşlı əhalinin cəmi əhali içindəki faizi yüksəldikcə göstəriləcək xidmətlərin artırılması və genişləndirilməsinin zəruriliyi yaranır. Xidmətlərin planlaşdırılması, yaşlıların problemlərinin həlli və ehtiyaclarının aradan qaldırılmasında dəqiq araşdırmalara, məlumatlara ehtiyac vardır. Bu baxımdan yaşlılara istiqamətli xidmətlərin müxtəlif ölkələrdə hansı durumda olduğunun müəyyənləşdirilməsində fayda vardır. Xüsusi ilə də bizim cəmiyyət üçün yenicə aktuallaşmağa başlayan yaşlı intiharları, onların araşdırılması və önləyici tədbirlər planının hazırlanması üçün beynəlxalq təcrübə mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, məhz bu problem üzrə Avropa və Amerika psixologiya və sosiologiya məktəbləri geniş araşdırmalar aparmışlar.

Baxmayaraq ki, əksər insanların beyinlərində intihar dedikdə daha çox yeniyetmələr, gənclər və orta yaş nümayəndələri assosiasiya olunur və bu da daha çox həmin yaş dövrlərindəki krizislə bağlıdır, ancaq 60 yaşından yuxarı olan yaşlılar arasında da intihar və intihara cəhdin yüksək faiz dərəcəsi var. Xəstəliklərin Müayinə Mərkəzinin (Center for Desease Control) verdiyi statistikaya görə, 65 yaş və yuxarı insanlardakı hər 4 intihar cəhdindən biri intiharın baş verməsi ilə nəticələnir (1, s.21). Hələ də çoxlarımız elə fikirləşirik ki, yaşlıların ömürlərinə az qaldığı üçün onlar bu dünyada daha çox qalmaq barədə düşünürlər. Ancaq təəssüflər olsun ki, yaşlılar cəmiyyət tərəfindən onların daha çox diqqətə və qayğıya ehtiyacı olduğu zaman inkar olunurlar. İnkar olunma isə özü ilə intihara cəhd davranışı meydana gətirir. Belə ki, 1897-ci ildən intiharın ilk sosioloji tədqiqatına başlayan sosioloq Emil Dürkheymin qoyduğu hipotezaya əsasən, intiharın səviyyəsi sosial inteqrasiyanın səviyyəsindən və ya izolyasiyadan asılıdır. Belə ki, bunlar insanların arzu və emosiyalarına təsir edən əsas faktorlardır (2, s.102).

Qeyd etmək lazımdır ki, yaşlılıq fərdin fiziki görünüşü, gücü, cəmiyyətdə tutduğu rolu və mövqeyinin itirdiyi bacarığı və fiziki xəstəliklərinin artdığı bir dövrdür. Digər yaş qrupları ilə müqayisədə yaşlı qrupda xroniki xəstəliklər, asılılıq və imkanların məhdudluğu daha çox müşahidə olunur. Bu günə qədər yaşlılar arasında intiharın əsas səbəblərini öyrənən araşdırmaçılar əsas böhran faktorları kimi əsasən müxtəlif fiziki xəstəlikləri (ürək xəstəlikləri, nevroloji xəstəliklər, xərçəng və s.), tənhalıq, depressiya, spirtli içkilərə aludəçilik və narkoloji asılılığı, dolanışıq çətinliyini və sair bu qəbildən olan risk faktorlarını göstərmişlər (3, s.12). Təbii ki, bu risk faktorları ölkədən ölkəyə faiz nisbətinə görə dəyişir. Əgər Avropa yaşlısının intihara cəhd etməsi üçün əsas risk faktoru kimi depressiya götürülürsə, ABŞ-da bu risk faktorları əsasən fiziki məhdudiyyət və xəstəliklərdir.

Ən ümidverici məqam budur ki, intihar əvvəlcədən müəyyən edilə bilərsə, qarşısı alına bilinən bir problemdir. Bu çərçivədə cəmiyyətin diqqətini artıraraq intiharların, xüsusilə yaşlı

* Məqalə fəlsəfə ü.e.d. Rəfiqə Əzimova tərəfindən çapa məsləhət görülüb.

intiharının səbəbini araşdırmaqla bərabər onlara xidmət edəcək işçilərin və yaxın qohumların maarifləndirilməsini də təşkil etmək olar. Xüsusilə fiziki məhdudiyyəti və ağır xəstəlikləri olan, depressiyadan əziyyət çəkən yaşlı qrupun həyatla əlaqələrinin öyrənilməsi intiharı önləyə bilən əhəmiyyətli işlərdəndir. İntihar fərdin özünə qəsd və yoxetmə hərəkəti nəticəsində, öz istəyi ilə həyatına son qoymasıdır (4, s.130). Beynəlxalq Səhiyyə Təşkilatı intiharları həqiqi intihar və intihara cəhd olaraq iki hissəyə ayırır. Həqiqi intihar ölümlə nəticələnən intiharlardır. İntihar cəhdləri isə fərdin özünü yox etmək, zərər vermək və zəhərləmək məqsədi ilə reallaşdırdığı intihar istiqamətli ölümlə bitməyən cəhddir (5, s.8).

Qeyd etmək lazımdır ki, intihar bütün dünyada cəmiyyətlərin qarşılaşdığı ən aktual problemlərdəndir. Beynəlxalq Səhiyyə Təşkilatının bildirdiyinə görə, 2000-ci ildə dünya üzrə 815.000 (səkkiz yüz on beş min) insan intihar edib. Bu rəqəmə görə dünyada hər 40 saniyədə bir insan özünə qəsd edib öldürür. Hazırda intihar bütün ölkələrdə ölüm səbəbi olaraq ilk onluqda sıralanır. Maraqlı məsələ bundan ibarətdir ki, eyni qitədə və oxşar coğrafi məkanlarda yerləşən ölkələrdəki intihar sayı fərqlidir. ABŞ-da intihar ölüm səbəbləri arasında 8-ci yerdədir (6, s.2). Beynəlxalq Səhiyyə Təşkilatının müşahidələrinə əsasən ölkələr arasında ən çox intihar ölümləri Şərq ölkələrindədir. Ölkələrinə görə dəyişən intihar sayları eyni ölkədə qadın və kişi ayrılıqlarına görə də fərqlənir. Aparılan araşdırmalarda həmçinin ölümlə nəticələnməyən intihar cəhdlərinin qadınlarda, ölümlə nəticələnən intiharların isə kişilərdə daha çox olduğu bildirirlir. Məsələn, Yaponiyada kişilərdə intihar sayı qadınlardan 2.6, Belçikada 2.7, ABŞ-da 3.9 dəfə çoxdur (7, s.134). Cəmiyyətdə intihara gətirib çıxaran digər əhəmiyyətli faktorlardan biri də yaşdır. Ümumiyyətlə, yaşla birlikdə intiharın səviyyəsinin də artdığı müəyyənləşir. Bütün dünyada olduğu kimi ölkəmizdə də initihar sayları qadın və kişiyə görə fərqlidir.

Sosial, mədəni və inanclarla bağlı faktlar fərqli ölkələrdə intiharın sayına və növünə təsir edir. Mütəxəssislər tərəfindən qadınlarda intiharın az müşahidə olunması dini inanclara daha çox bağlı olmaları ilə dəyərləndirilir. Qadınların əxlaqi cəhətlərində bəzi inanc və baxışlar daha fərqli olduğundan, ailəsi və dostlarına duyduğu məsuliyyət və sevgi, ölümdən qorxmaq kimi bəzi səbəb və dəyərlər onları dünyaya bağlayaraq intihar düşüncələrini məhdudlaşdırır (8, s.85). Həm də qadınlar həyatda kişilərə nisbətən daha çox dəstəklənirlər və ehtiyac duyduqları köməyə daha tez və professional yiyələnərək intihara gətirib çıxaran səbəbləri həll edirlər. Cəmiyyətin sosial quruluşu və ictimai münasibətlərin vəziyyətinə görə intiharlar fərqlənir. Ailə bağlarının zəif, sosial münasibətlərin az olduğu cəmiyyətdə intihar sayları artır. Sosial və iqtisadi böhranlarda isə cəmiyyətdə həm intihara cəhd, həm də intihar sayları yüksəlir (9, s.375).

İlkin olaraq yaşlılarda intihara gətirib çıxaran ən əsas risk faktorları kimi ağrılı və fiziki nasazlıqların olması, tənhalıq, əvvəllər də intihara cəhd etmək, ailə daxilində intihar təcrübəsinin olması, spirtli içki aludəçiliyi və narkotika aslılığı, intihar planı və depressiya göstərilə bilər (10, s.109). Həmçinin yaşlı intihar riskini artıran xəstəliklər arasında bacarıqsızlıq, taqətsizliyə yol açan xroniki xəstəliklər, depressiya, ürək-damar xəstəlikləri, nevroloji və xərçəng xəstəlikləri də yer alır. Xüsusilə də xərçəng xəstəlikəri olan yaşlılar arasında intihar məntiqli "çıxış yolu" olaraq müşahidə olunur. Bu xəstələrdə müayinədən dərhal sonra və müəyyən kimya terapiyası zamanı intihara cəhd riski ən yüksək həddə qalxır. Amerikada xərçəng diaqnozu qoyulan 18.604.308 nəfər insan arasında intiharın ən çox 80-84 yaş qrupuna daxil olan adamlarda müşahidə olunduğu (22%) müəyyənləşdirilmişdir. Bu araşdırmaya görə yaşlılarda xərçəngin ən çox qarşılanılan intihar səbəbi olduğu (52.3%) müəyyənləşdirilmişdir. Araşdırmada həmçinin qadın və kişilərdə ağ ciyər və mədə xərçəngi ən çox adı hallanan və intihara səbəb olan risk faktorları kimi göstərilmişdir (11, s.23). Nevroloji xəstəliklər, o cümlədən yaşlılar arasında şüur və hərəkətlərdə pozulma intihar

riskini artırır. Epilepsiya xəstələrində intihar riski normal insanlardan statistikaya görə 4 dəfə çoxdur. Xüsusilə temporal lop (temporal lobe) epilepsiyasında intihar riski 25 dəfə artmaqdadır. Həmçinin depressiyaya səbəb olan nevroloji xəstəliklərdə və aurayla birlikdə müşahidə edilən miqrendə intihar riskinin artdığı müşahidə olunur (12, s.46). Parkinson xəstələrinin 30-50 %-ində major depressiv sindromu müəyyənləşdiyi və intihar riskinin artdığı məlum olur. İflicin bir növü olan parkinson xəstəliyi depressiya və gələcək mərhələdə inkişafına görə intihar riskini artıran nevroloji xəstəliklər arasındadır. Amerikada 116 parkinson xəstəsi ilə aparılan araşdırmada xəstələrin 28%-i ölüm düşüncəsi, 11 %-i intihar fikri olduğu və 30%-nin intihara cəhd etdiyi bildirilmişdir (13, s.128).

İntihar vaxtında öyrənilib qarşısı alına bilinən ictimai problemdir. İntiharların qarşısının alınması üçün yaş qruplarına görə intihar səbəbləri araşdırılıb müəyyənləşdirilməlidir. Məhz buna görə də ilk növbədə yaşlılarda baş verən fiziki, psixoloji, mənəvi, iqtisadi çətinliklər aradan qaldırılmalıdır. Fiziki asılılığı və yaxud da məhdudiyyətləri olan yaşlılarda yaşadıqları cəmiyyətdə ətrafları tərəfindən dəstəklənməsi, həyata bağlılıqlarının davam etdirilməsi, artımlarının qorunması yaşlı intiharın qarşısının alınmasında vacib rol oynayır. Bundan başqa cəmiyyətin sosial-iqtisadi imkanlarına görə pensiya qanunları yenidən təşkil edilməli, dövlət tərəfindən qocalar maddi cəhətdən zəmanət altına alınmalıdır. Yaşlıların ehtiyacı olduğu xidmətlərin müəyyən edilməsi və bu xidmətlərin yaşlılara uyğun şəkildə çatdırılması üçün yeni siyasətin inkişaf etdirilməsi lazımdır. Yaşlı qrupun cəmiyyətdə iştirakının təmin edilməsi və gündəlik ehtiyaclarının qarşılanması üçün evdə xidmət mərkəzlərinin işi və yaşlıların sosial fəaliyyətləri əhəmiyyət kəsb edir. Yaşlılara istiqamətli xidmət və fəaliyyətlərin təkmilləşdirilməsi bu qrupda tez-tez müşahidə edilən depressiyaya bağlı intihar faizini aşağı salacaq.

Qeyd edək ki, hazırda ölkəmizdə təkcə 60 yaşından yuxarı 423 min 800 ahıl vardır ki (2009-cu ilin Dövlət Statistika Komitəsininin göstəricilərinə görə), bu da ölkə əhalisinin 4,8 faizi deməkdir. Bu rəqəm dünya ölkələri ilə münasibətdə aşağı olsa da, yaşlılara göstərilən xidmətlərlə bağlı bəzi problemlər qalmaqdadır. Belə ki, MDB ölkələrinin ahıllara və yaşlılara xidmətlə bağlı ən ümumi problemləri aşağıdakılar hesab oluna bilər:

- yaşlılara məxsus xəstəxanaların azlığı,
- yaşlaşanda hələ də fəaliyyət göstərməmələri,
- yaşlı yoxsulluğu, xüsusilə də yaşlı qadın yoxsulluğu,
- yaşlı istismarı və s. problemlər.

Dünya ölkələrində yaşlı intiharında artmaların müşahidə edilməsinin ən başlıca səbəbi preventiv tədbirlərin vaxtında aparılmaması olub. Belə ki, yaşlılıq dövründə yaşanılan depressiyanın erkən diaqnoz və müalicəsi intihar riskinin azaldılmasında əhəmiyyətli bir faktordur. Depressiya zamanı müalicə planı yaşlıya uyğun olmalı, yaşlıya sistemli yanaşılmalı, yaşlı ilə iş zamanı ailəsi ilə əməkdaşlıq da kənarda qalmamalıdır. Təbii ki, bu cür kompleks yanaşma ilə intihara cəhdin qarşısı alına bilər və cəmiyyətdəki bu hallar azalar. Sadə bir məsələlərə diqqət etməklə yaşlı depressiyasının qarşısını asanlıqla almaq olar. Belə ki, onların psixoloji vəziyyətinə mənfi təsir edən dərmanların istifadəsini diqqətdə saxlamaqla önləyici tədbiri ən sadə formada nəzarətdə saxlamaq mümkündür. Xidmətə cəlb edilmiş yaşlılarda depressiya əlamətləri izlənməli, yaxınlarına bu barədə məlumat verilməlidir. İntihar riskini azalda bilmək üçün həm mövcud fiziki xəstəliyin, həm də psixi pozuntunun bir tam olaraq nəzarətə alınıb sürətli və təsirli bir şəkildə müalicə edilməsi lazımdır (14, s.11).

Xəstəliklərlə əlaqəli intiharların qarşısının alınmasında tibbi personalın əhəmiyyətli dərəcədə vəzifə və məsuliyyətləri var. Bunlar:

• Tibbi xidməti həyata keçirən personalın intihar faktı və qarşısının alınması yolları haqqında məlumatlandırılması;

• Böhran halında olan yaşlıya uyğun yanaşma yollarının öyrənilməsi;

• İntihar cəhdində olan fərdlərə və ailələrinə bu sahədə təhsil almış ixtisaslaşmış insanlar tərəfindən təcili tibbi müalicənin tətbiq olunması;

• Lazımlı psixo-sosial dəstəyin təmin edilməsi;

• Qeydiyyat sistemi yaratmaq, intiharla bağlı məlumat bankının yaradılması;

• İxtisaslararası əməkdaşlıq çərçivəsində digər qrup üzvlərinə lazımi məlumatların verilməsi;

• Psixi pozuntuların müəyyənləşdirilməsi və müalicələri üçün xəstələrə, xəstə yaxınlarına və sağlamlıq işçilərinə lazımlı informasiyaların verilməsi;

• İntihar cəhdindən sonra həyatda qalan şəxslərin ən qısa zamanda müalicə və reabilitasiya üçün mütəxəssislərə istiqamətləndirilməsi;

• İntihar etmək fikrində olan yaşlıların müəyyənləşdirilərək mütəxəssislərə istiqamətləndirilməsi.

Bundan başqa kəskin intihar təhlükəsini aradan qaldırmaq üçün intiharların qarşısını almaq üçün reabilitasiya mərkəzlərinin qurulması, xüsusilə kəskin depressiya kimi yüksək intihar riski daşıyan və intihar cəhdi edənlər üçün davamlı olaraq psixiatrik və psixoloji məsləhətlərin verilməsi və bu mövzuda cəmiyyətin maarifləndirilməsi lazımdır. Təbii ki, burada KİV-in rolu qaçılmazdır. Belə ki, media intihar xəbərlərini verərkən son dərəcə ehtiyatlı olmalıdır. Çünki bəzi vaxtlar intihar etmək fikrində olan insana adi bir intihar xəbəri belə təhrikedici stimul ola bilər. Nəticə olaraq qeyd etmək lazımdır ki, intiharın qarşısını almaq və dünyada intihar hallarının azaldılması üçün fərdi səylərlə paralel ictimai və hüquqi işlər də aparılmalıdır (15, s.2). Xüsusilə tibb bacıları yaşlılara göstərdikləri tibbi xidmətlə yanaşı həmin yaşa xas fiziki, psixoloji, sosial, hüquqi, etik və iqtisadi problemlər ilə əlaqədar məlumatlara sahib olmalıdır. Tibb bacıları yaşlı qrupunda görülən intiharların kəskin və xroniki səbəblərinin müalicəsində və qarşısının alınması işlərində daha aktiv rol almalıdırlar.

Azərbaycan Respublikasında son 10 ildə vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, sosial müdafiə sisteminin, o cümlədən ahılların sosial müdafiəsinin təkmilləşdirilməsi, bu sahədə mövcud olan qanunvericiliyin beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində müəyyən işlər görülmüşdür. Həyata keçirilən tədbirlərin əhəmiyyətini, ahılların hüquqlarının qorunması və sosial müdafiəsinin aktuallığını dünya ölkələrinin bir çoxunda olduğu kimi, ölkəmizdə də müşahidə olunan əhalinin qocalma prosesi şərtləndirir. Əhalinin yaş strukturunda uşaqların xüsusi çəkisinin aşağı düşməsi və ahıl vətəndaşların sayının əmək qabiliyyətli yaşda olanlara nisbətən daha intensiv artması əmək bazarının formalaşmasında, həmçinin, sosial təminat sisteminin səmərəli işləməsində bir sıra çətinliklərə gətirib çıxarır. Keçid dövrünün sosial-iqtisadi problemləri ilə bağlı kənd yerlərindən şəhərlərə və ölkədən kənara miqrasiya da respublikada əhalinin qocalma prosesinə böyük təsir göstərmişdir. Təsadüfi deyildir ki, kəndlərdə ahılların və xüsusilə də ahıl qadınların xüsusi çəkisi artmışdır. Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğalı nəticəsində bir milyonadək insan qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olmuşdur. Bu kontingent arasında ən çətin vəziyyətdə olan məhz ahıl şəxslərdir (16, s.135). Bunları nəzərə alaraq və eyni zamanda, BMT-nin Baş Assambleyasının əhalinin qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planından (Madrid, 12 aprel 2002-ci il) irəli gələn vəzifələrə əsaslanaraq, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" (2006-cı il 17 aprel tarixli sərəncamı ilə təsdiq edilmişdir) hazırlanmışdır. Qeyd edək ki, bu dövlət proqramı özündə demək olar ki, ahıllara aid bütün məsələləri cəmləşdirir. Onu da bildirək ki, dövlət proqramının əsas məqsədi ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə nail olmaqdır. Çünki, sosial cəhətdən müdafiə olunmamış ahılın digər təminatları barəsində danışmaq yersiz olardı. Odur ki,

proqramda sosial müdafiənin gücləndirilməsi üçün əsas vəzifələr kimi aşağıdakılar müəyyən olunmuşdur:

- ahıl vətəndaşların sosial təminatı sahəsində hüquqlarının artırılması və onların həyata keçirilməsi;
- ahıl vətəndaşların cəmiyyətin sosial-iqtisadi və siyasi həyatında iştirakının təmin edilməsi;
- ahıl vətəndaşların sosial-mədəni tələblərinin ödənilməsi sahəsində tədbirlərin həyata keçirilməsi;
- ahıl vətəndaşların sağlamlığının qorunması;
- qocalma probleminin həll olunması istiqamətində dövlət, vətəndaş cəmiyyəti və özəl sektorun sıx əməkdaşlığının təmin edilməsi;
- ahıl vətəndaşların sosial müdafiəsinin təminatının elmi əsaslarının möhkəmləndirilməsi.

Sonda bunu da qeyd etmək lazımdır ki, yaşlı rifahını təmin etmək dövlət siyasətinin tərkib hissəsidir. Bu nöqteyi-nəzərdən yaşlılar arasında intiharın öyrənilməsi və qabaqlayıcı tədbirlərin görülməsi Azərbaycan cəmiyyətində bu kimi mənfi halların vaxtında qarşısının alınmasına və yaşlıların rifahının artmasına səbəb ola bilər.

Açar sözlər: böhran faktorları, yaşlılıq, intihar, psixo-sosial durum, risk faktorları, fiziki məhdudiyyətlər.

İstifadə olunmuş ədəbiyyat

1. Center for Disease Control. (2007). Number of Deaths to Suicide per 100,000 Population, National Center for Vital Statistics.

2. Durkheim E. (1897) [1951]. Suicide: a study in sociology. The Free Press.

3. Centre for Suicide Prevention. (1999, July). The Challenge of Suicide Clusters. Centre for Suicide Prevention. Alert #36. Retrieved from: http://www.suicideinfo.ca/csp/assets/alert36.pdf

4. Odağ C. İntihar. Psikiyatri Derneği Yayınları. İzmir, 1995, s.1-150.

5. Köknel Ö. Genel ve klinik psikiyatri. İstanbul: Nobel Tıp Kitapevi, 1989, s.1-10.

6. Elderly Suicide.
URL:http://www.who.int/mental_health/prevention/suicide/suicideprevent/en/index.html Ocak 25, 2009.

7. McClure GMG. Recent trends in suicide amongs the young. British Journal of Psychiatry 1984, 144:134-138.

8. Canetto S.S. Gender and suicide in the elderly. Suicide and Life-Threatening Behavior 1992, 22: 80–97.

9. David W, Crumker M.D. Suicidality and antidepressant in the elderly. Baylor University Medical Center 2008, 21(4); 373-377.

10. Pearson J.L., Conwell Y., Lindesay J. ve ark. Elderly suicide; A multi-national view. Aging and Mental Health 1997, 1:107–111.

11. Misono S., Weiss S.N., Fann R.J., Redman M., Yueh B. Incidence of suicide in persons with cancer. Journal of Clinical Oncology 2008, 26: 4731-4738.

12. Breslau N. Migraine, suicidal ideation, and suicide attempts. Neurology 1992, 42, 3925.

13. Jason T, Olin D., Ira R., Katz M.D., Barnett S., Meyers M.D. ve ark. Provisional diagnostic criteria for depression of Alzheimer Disease. American Journal Geriatric Psychiatry 2002, 10: 129–14.

14. Ekici G., Haluk A., Savaş A.H., Çıtak S. Tamamlanmış intiharlarda iki önemli risk etmeni: fiziksel hastalığın varlığı ve yetersiz dozda psikiyatrik tedavi. Klinik Psikofarmakoloji Bülteni 2001, 11(3).

15. İntiharları önlemede izlenecek çeşitli stratejiler. URL:http://www.sosyalhizmetuzmani.org/intiharonleme.htm. Kasım 28, 2008.

16. Sosial işin əsasları. Müntəxəbat. I hissə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 359 s.

Джавид ШАХМАЛИЕВ

ПРИЧИНЫ СУИЦИДА СРЕДИ ПОЖИЛЫХ ЛЮДЕЙ И ПРЕВЕНТИВНЫЕ МЕРЫ

Резюме

Автор статьи рассматривает проблему суицида среди пожилых людей. В современных европейских и американских психологических и социологических школах этой проблеме уделяется большое внимание: анализируются их причины, рекомендуются превентивные меры для их пресечения. Среди причин суицида автор называет стресс, низкий жизненный уровень, состояние аффекта, одиночество, предрасположенность к алкоголю и наркотикам, а также некоторые неизлечимые болезни. Далее приводятся сведения о государственных программах по улучшению социальной защиты пожилых людей.

Ключевые слова: факторы кризиса, пожилой возраст, самоубийство, психо-социальное состояние, факторы риска, физические ограничения.

Javid SHAHMALIYEV

THE CAUSES OF SUICIDE AMONG THE ELDERLY PEOPLE AND THE PREVENTIVE MEASURES

Summary

In the article the author addresses to the problem of an increase in suicide among the elderly people. In the modern Euroasian and American psychological and sociological schools they pay a great attention to this problem, consider their reasons, suggest the preventive measures for their suppressing.

Among the causes of suicide the author notes the stress, living standard, a state of affect, lonelyness, predisposition to alcohol and drugs and some incurable discases. Further the author states on State programs on improving the social prevention of the elderly people.

Keywords: crysis factors, the elderly suicide, psycho-social state, risk factors, physical restrictions.

PSİXOLOGİYA BÖLMƏSİ

UOT 316.6

Lamiyə QURBANOVA
ps.ü.f.d., AMİ-nin baş müəllimi

DİQQƏTƏ AİD KOQNİTİV MODELLƏR (DOYÇLƏR, NORMAN VƏ KANEMAN MODELLƏRİ)*

1950-ci illərin sonlarından etibarən koqnitiv psixologiyanın tədqiqat sferasına daxil olan diqqət prosesinə dair çoxsaylı nəzəriyyələr irəli sürülmüşdür. İngilis psixoloqu Donald Erik Brodbentin (ing. Donald Eric Broadbent; 1926-1966) 1958-ci ildə nəşr olunan "Qavrayış və kommunikasiya" adlı kitabında diqqət – məlumat axını içərisindən seleksiyanı (lat. *selectio – seçim etmək* mənasını verir) həyata keçirən proses kimi qəbul olunmuş və onun iş prinsipi elektromexaniki filtirin iş prinsipi ilə müqayisə edilmişdir. Çox qısa müddətdə bu termin psixologiyada özünə müəyyən status qazanmış və ilkin, eləcə də sonrakı seleksiya adı altında qruplaşdırılan diqqətə aid çoxsaylı koqnitiv modellər tərtib olunmuşdu. Lakin bu günkü günümüzə gəlib çıxan və elmdə özünə daha dayanıqlı status qazanan modellər – Diana (ing.Diana Deutsch; 1938-ci ildə İngiltərədə anadan olmuşdur) və Entoni Doyç (ing. J. Anthony Deutsch; 1920-ci ildə Amerikanın Pensilvani ştatında anadan olmuşdur), Donald Norman (ing. Donald Arthur "Don" Norman; Amerika psixoloqu, 1935-ci ildə anadan olmuşdur), Daniel Kaneman (ing. Daniel Kahneman; İzrail-Amerika psixoloqu, 1934-cü ildə anadan olmuşdur) modelləridir.

●Diana və Entoni Doyç (və ya Doyçlər) modeli

60-cı illərin əvvəllərində Diana və Entoni Doyçi uzunmüddətli araşdırmaların nəticəsi olaraq belə müəyyən etdilər ki, məlumat seçimləri semantik əlamətlər əsasında həyata keçirilir. Deməli, ətrafdan daxil olan bütün məlumatlar semantik araşdırmaya və emala məruz qalır. Sadəcə daha mühüm əhəmiyyət kəsb edənləri, daha aktivləri və filtirasiyadan keçənləri seleksiya olunur. Doyçlər onu da müəyyən etdilər ki, məlumat seçiminin uğuru orqanizmin ümümu aktivlik səviyyəsi ilə düz mütənasibdir. Seleksiya semantik tanıma prosesindən sonra həyata keçirilir. Tanıma prosesində isə keçmiş təcrübə də iştirak edir.

Hər gün bizə çoxlu sayda məlumatlar təsir edir və bu məlumatların hamısı bizdən özünə qarşı müəyyən diqqət tələb edir. Bu prosesi şərti olaraq aşağıdakı qrafikdə (şəkil 1) təsvir edək: *Y* oxu üzərində *AM* (axıcı məlumatları) işarə olunur, *X* oxu isə *MƏ*-ni (məlumatların əhəmiyyətlilik göstəricisi) ifadə edir. Doyçlər təqdim etdikləri modeldə axıcı məlumatları şərti olaraq *a, b, c, d* ilə işarə edirlər. Bu məlumatlar içərisindən ən vacib, əhmiyyətli hesab olunanı necə seçilir? Elə bunu təyin etmək üçün də *MƏ* göstəricisindən istifadə olunub.



Şəkil 1.

* Məqalə ps.ü.f.d., dosent Ofeliya Vəlimədova tərəfindən çapa məsləhət görülüb.

Deməli, *X* oxu üzərində qeyd olunan məlumatların əhəmiyyətlilik göstəricisinin təyin olunması üçün bu məlumatları bir-birilə müqayisə etmək lazımdır. Şəkildəki şərti işarələrindən bəlli olur ki, *a>b>c>d.* Yəni, *a* özünə qarşı daha güclü diqqət yaradır və sanki "məni seç" deyir. Burada diqqətin seçmə funksiyası aktiv rol oynayır. Psixologiya dərsliklərindən məlumdur ki, diqqət obyektləri müxtəlif ola bilər, diqqət qıcıq yaradacaq əsas təsirləri seçmək funksiyasını yerinə yetirir. Bu proses diqqətin seçmə funksiyasını xarakterizə edir. O da məlumdur ki, diqqətin seçmə funksiyası ilə yanaşı, diqqətin saxlanması, tənzim etmə və nəzarət etmə funksiyaları da mövcuddur. Diqqətin funksiyalarının uğurlu icrası orqanizmin ümumi aktivlik səviyyəsi ilə analoji əlaqədədir. Deməli, xarici siqnalların qəbul olunması prosesində orqanizmin ümumi aktivliyi mühüm rol oynayır. Aktivliyin isə 3 səviyyəsi mövcuddur: *normal aktivlik, zəif aktivlik* və *yuxululuq*. Bu səviyyələrdə siqnalların qəbul olunması prosesi şəkil 2-də təsvir olunmuşdur:



Şəkil 2.

Şəkildən göründüyü kimi, *a, b, c* və *d* siqnalları (və ya məlumatları) orqanizmin normal aktivlik şəraitində tam qəbul olunur, yəni diqqəti cəlb edir. Lakin orqanizmin zəif aktivlik səviyyəsində isə yalnız *a* və *b* siqnalları qəbul olunur. Çünki onlar I və II sərhəd xətlərini keçir. Şəkildən də görünür ki, siqnalın qıcıq kimi diqqət çəkəcək aktivlik dərəcəsi aşağıdırsa, o, məlumat kimi qəbul olunmur, dərk olunmur, mənimsənilmir və ona qarşı da cavab reaksiyası əmələ gəlmir. Yuxululuq periodunda isə heç bir siqnalı orqanizm qəbul edə bilmir. İnkar olunmaz faktdır ki, bəzən olduqca əhəmiyyətli siqnallar insana yuxu rejimində də təsir edir. Məsələn, analar yatarkən öz çağalarının ən zəif ağlama səsinə belə dərhal reaksiya verirlər, oyanırlar. Bu proses isə onunla əlaqədardır ki, onlar özlərini bu prosesə ustanovka edirlər, yəni beyin çağa səsinə qarşı artıq zəngli saat kimi oyanma əmri alır. Deməli, olduqca əhəmiyyətli siqnal yuxu baryerini aşıb, diqqətin obyekti ola bilər. Hətta bu siqnallar sayəsində insan yuxu rejimindən ayılır.

●Donald Norman modeli

Donald Norman təqdim etdiyi koqnitiv model də sonrakı seleksiya modelləri qrupuna daxildir. Norman diqqətə aid tərtib olunan digər koqnitiv modelləri də qəbul edərək, onlar üzərində müəyyən təkmilləşdirmə aparmışdır. O, bildirmişdir ki, orqanizmin aktivlik səviyyəsində diqqəti cəlb edən bir neçə siqnallar içərisində də seçim aparılır. Yalnız ən vacib olanı tələb olunan idraki emala məruz qalır. Diqqəti cəlb edən bütün siqnalların emalını həyata keçirmək orqanizmdən böyük enerji tələb edir. Orqanizm öz enerjisini qorumaq nöqteyindən çıxış edərək daha əhəmiyyətlisini seçim edir. Bu prosesdə mühüm rolu keçmişdə qazanılmış təcrübə oynayır. Keçmiş təcrübədən istifadə etmək üçün isə, təbii ki, yaddaş sisteminə müraciət etmək tələb olunur. Fiziki stimulların təsiri də Norman modelində nəzərə alınır və diqqət duyğy ilə qarşılıqlı əlaqədə götürülür, yəni qıcıq əvvəlcə hiss olunur, daha

sonra həmin qıcığa (siqnala) qarşı diqqət əmələ gəlir. Norman modeli şəkil 3-də təqdim olunmuşdur.



Şəkil 3.

Şəkil 3-də 5 blok və bu bloklarda gedən proseslərin təsvirini görürük. Belə məlum olur ki, *I blokda* sensor siqnalların emalı həyata keçirilir; *II blokda* sensor çıxışlardan daxil olan məlumatlar mənimsənilir, nəqşlənir, hifz edilir; *III blokdan* daxil olan siqnallar əsasında isə əldə olunan məlumatların keçmiş təcrübə ilə uyğunluq əlaqəsi aşkar edilir. Bu prosesdə hansı siqnalın daha aktiv olmasını seçmək üçün çıxışlardakı kəsişmələrə diqqət yetirmək tələb olunur. *Ştrixli dairə* kəsişmələrin ortasında yerləşdiyi üçün daha aktiv hesab olunur. *IV blokda* seleksiya prosesi həyata keçirilir. Seleksiya blokundan (IV blok) çıxan məlumatlar filtirasiyaya məruz qalır və *diqqət* adlanan bloka (V bloka) daxil olur. Norman diqqəti iki yerə bölür: perseptiv və intellektual. İntellektual diqqət perseptiv diqqətə nisbətən daha mürəkkəb iş prinsipinə malikdir və daha böyük enerji tələb edir.

●Kaneman modeli

Kaneman modeli vasitəsilə diqqətin yaranması üçün tələb olunan və sərf olunan enerji haqqında tam təsəvvür formalaşdıra bilərik. İstənilən bir işi görmək üçün bizdən əqli enerjinin sərf olunması tələb olunur. Əgər eyni anda bir neçə iş yerinə yetirilməlidirsə, onda bu prosesə sərf olunan əqli enerji sayəsində orqanizmin hansı həddə istismara məruz qalacağını isbat etməyə ehtiyac yoxdur, çünki bu prosesin nə qədər çətin olduğu təbii müşahidələrdən bəllidir. Ona görə də orqanizm özünü belə məqamlardan sığortalamağa üstünlük verir və beyində xüsusi proqram işə düşür, belə ki, daha vacib olan məqamlar önə keçir. Məsələn, fərz edək ki, avtobus sürücüsü söhbət edə-edə maşın sürür, birdən təhlükəli manevr etmək tələb olunur. O, dərhal söhbəti kəsərək bu təhlükəni aşmağa yardım edəcək diqqətin formalaşması üçün tələb olunan enerji sərf edir. Deməli, sürücü dəyərləndirir ki, enerjini başqa yerə deyil, məhz təhlükəni aşmaq üçün yönəltmək lazımdır (enerji itkisinin qarşısını almaq üçün). Sual yaranır ki, "bəs bu enerjinin paylanması prosesi necə həyata keçirilir?". Kaneman modelinin əsas mahiyyəti ondan ibarətdir ki, diqqətin yaranması üçün tələb olunan psixi enerji sonsuz deyil, məhdud çərçivədədir. Bu proses məhdud psixoloji resurslara əsaslanır. Kaneman modeli şəkil 4-də təqdim olunub.



Şəkil 4.

Şəkil 4-dən bəlli olur ki, mümkün olan fəallıqları təmin etmək üçün paylama siyasətini həyata keçirmək tələb olunur. Bu paylama siyasətinin düzgün müəyyən edilməsinə yardım edən təsirlər və maneə olan təsirlər (mövqedən kənar təsirlər, daimi təsirlər) mövcuddur. *Mövqedən kənar təsirlərə* qeyri-ixtiyari diqqətin əmələ gəlməsində iştirak edən obyektlərin təsir xüsusiyyələri (məsələn, qüvvəsi, gözlənilmədən təsiri, yeniliyi, qeyri adiliyi, kontrastlığı, hərəkətdə olması və s.) daxildir. *Axarlı niyyətə (məqsədə)* həyati əhəmiyyətli təlimat göstəriciləri daxildir. *Vacib olan enerjinin dəyərləndirilməsini* təyin etmək üçün Kaneman daha sadə bir qrafik təklif edib (şəkil 5). *X* oxu üzərində TE (tələb olunan güc), *Y* oxu üzərində isə SE (sərf olunan güc) yazılır. Yəni, tələb olunan enerji (və ya güc) ilə sərf olunan enerji arasındakı asılılıq qurulur. Qrafikdən görünür ki, əgər resurs məhdud olmasaydı ideal formada olan asılılıq (1) əldə olunardı. Amma məlumdur ki, resurs tükənəndir. Ona görə də Kaneman bildirib ki, müəyyən müddətdən sonra tələb olunan güclə sərf olunan güc arasında düzxətli asılılıq pozulacaq və sərf olunan psixoloji güc, enerji tükənməyə başlayacaq (asılılıq 2). Kaneman bir məqamı da nəzərə almışdır ki, insan heç bir iş görməsə də, ondan hər hansı bir miqdarda onsuz da psixoloji enerji ayrılır (çünki, istirahət zamanında da insanın gözü gündəlik nə isə görür, qulağı nə isə eşidir, beyni hansısa informasiyanı emal edir və s.). Bu proses 3 asılığı ilə ifadə olunmuşdur.



Şəkil 5.

Açar sözlər: diqqətin koqnitiv modeli, seleksiya, filtirasiya, Doyçlər modeli, Norman modeli, Kaneman modeli.

İstifadə olunmuş ədəbiyyat

1. Солсо Р. Когнитивная психология. СПб.: Питер, 2006.
2. Психологические теории внимания. http://www.effecton.ru/261.html
3. Когнитивные модели внимания. http://www.effecton.ru/262.html
4. Исследования внимания в когнитивной психологии. http://bibliotekar.ru/psihologia-2/86.htm

Ламия КУРБАНОВА

КОГНИТИВНЫЕ МОДЕЛИ ВНИМАНИЯ (МОДЕЛИ ДОЙЧИ, НОРМАНА И КАНЕМАНА)

Резюме

Внимание – это концентрация мысленных усилий на сенсорных или мысленных событиях. Многие теории внимания основаны на положениях о том, что способность системы обработки информации справляться с потоком входной информации определяется ограничениями самой системы. Исследование проблемы внимания в рамках когнитивной психологии обусловило накопление многих фактов и создание значительного числа моделей внимания, которые можно условно разделить на модели ранней и поздней селекции. Исследование показало, что возможности обработки результатов ограничены, однако информация от различных раздражителей просачивается в наше сознание. По моделям ранней селекции, «фильтр» который работает по принципу «все или ничего» отбирает информацию на основе сенсорных признаков. По моделям поздней селекции, всю поступающую информацию параллельно разрабатывают и отобранное хранится в памяти, а остальное быстро забывается. На нынешнем этапе приверженцы когнитивной психологии описывают его как отдельную инстанцию и рассматривают либо как блок селекции информации, либо как специфическую предвосхищающую активность. В рамках когнитивной психологии существуют следующие модели внимания: 1) внимание как ресурс; 2) внимание как фильтр; 3) внимание как действие. Самыми популярными когнитивными моделями считаются модели Дойчи, Нормана и Канемана, которые и рассматриваются в данной статье.

Ключевые слова: когнитивная модель внимания, селекция, фильтрация, модель Дойчи, модель Нормана, модель Канемана.

Lamiya GURBANOVA

COGNITIVE MODELS OF ATTENTION (MODELS DEUTSCH, NORMAN, KAHNEMAN)

Summary

Attention is the concentration of mental efforts on sensory or mental events. Most theories of attention are based on the provisions that system's ability to cope with the data processing flow of the input information is determined by limitations of the system itself. Studies of attention problems in the framework of cognitive psychology, led to the accumulation of many facts and the creation of a significant number the models of attention process. Which can be divided into models of early and late selection. Investigation showed that capability of the processing care limited, however nevertheless information from various irritants seeps into our consciousness. Early selection model suggest that "filter", which works on the principle of "all or nothing" selects information based on sensory attributes. By models of later selection, all the information that goes parallel is processed and then the selected is memory, and the rest is soon forgotten. At this new stage adherents of cognitive psychology the describe it as a separate instance and view or as a block of information selection, or as a specific activity anticipating. Within the framework of cognitive psychology, the following models of attention exist: 1) attention as a resource, 2) attention as a filter, 3) attention as the action. The most popular models are considered cognitive models Deutsch, Norman and Kahneman, which are considered in the article.

Keywords: cognitive model of attention, selection, filtration, model Deutsch, model Norman, model Kahneman.

УДК 316

Кюбра ФАТУЛЛАЕВА
магистрант, филиал МГУ
им. М.В.Ломоносова в г. Баку

ВЗАИМОСВЯЗЬ ЭМОЦИОНАЛЬНОГО ИНТЕЛЛЕКТА И КОПИНГ-СТРАТЕГИЙ У ЮНОШЕЙ И ДЕВУШЕК*

Исследование ресурсов личности в психологии совладающего поведения представляет перспективную область. Актуальность и научная новизна данной работы заключается в том, что, несмотря на многочисленные исследования в зарубежной и российской психологии, на сегодняшний день остаются неизученными некоторые аспекты роли ресурсов личности в совладании с трудными жизненными ситуациями. Под копинг-ресурсами понимают определенные психологические способности или возможности, обеспечивающие успешное преодоление стрессогенных ситуаций. К наиболее изученным копинг-ресурсам личности относят Я-концепцию, локус контроля, эмпатию, самооценку, аффиляцию, ценностно-мотивационную структуру личности. Отмечая значимость эмоциональных аспектов в поведении личности, Бар-Он, Сэловей и Майерс в своих работах писали о роли эмоционального интеллекта в качестве важного фактора совладающего поведения. В настоящее время эмпирических исследований, посвященных данной проблеме мало, так как эмоциональный интеллект является относительно новым и малоизученным феноменом. Тем не менее, в ряде работ показано, что эмоциональный интеллект – это предиктор удовлетворенности жизнью, психологического благополучия. По мнению авторов, лица с высоким эмоциональным интеллектом успешно справляются с состоянием эмоциональной нестабильности (6, с.14). А низкий эмоциональный интеллект у человека является предиктором социальной дезадаптации и межличностных конфликтов (8, с.396-420). Существуют разные модели эмоционального интеллекта, разработанные в работах таких западных исследователей (R.Bar-On, D.Goleman, R.Cooper и J.Mayer, D.Caruso, P.Salovey). В своем исследовании мы опираемся на концепцию эмоционального интеллекта, разработанную и предложенную Д.В.Люсиным. Эмоциональный интеллект он определяет как способность человека к пониманию своих и чужих эмоций и управлению ими к пониманию эмоций. Это означает, что человек может распознать наличие эмоций у себя или у другого человека, может идентифицировать и назвать ее, понимает причины, вызвавшие эту эмоцию, и следствия, к которым она приведет. Способность к управлению эмоциями предполагает контроль интенсивности эмоций и их внешних проявлений, а также способность произвольно вызвать у себя ту или иную эмоцию. Модель Д.В.Люсина основана на выделении двух сторон эмоционального интеллекта: межличностной и внутриличностной. Межличностный эмоциональный интеллект проявляется в способности к пониманию и управлению эмоциями окружающих людей, внутриличностный – к пониманию и управлению своими собственными эмоциями (4).

Таким образом, наличие регулятивного компонента в структуре эмоционального интеллекта позволяет рассматривать его как копинг-ресурс, который проявляется в выборе наиболее эффективных стратегий совладания с трудными жизненными ситуациями. Так, результаты исследования Доуни с соавторами показали

* Məqalə fəlsəfə ü.e.d. Rəfiqə Əzimova tərəfindən çapa məsləhət görülüb.

положительную взаимосвязь эмоционального интеллекта с набором продуктивных проблемно-ориентированных копинг-стратегий (планирование решения проблемы, положительная переоценка ситуации, социальная связь с другими) (7, с.20-29). В ряде других научных работ на уровне тенденции была выявлена отрицательная корреляционная взаимосвязь эмоционального интеллекта и копинга, ориентированного на избегание (9, с.181-193). Однако, существуют исследования, где такой закономерности не было установлено (10, с.76-81).

Цель нашего исследования - определение взаимосвязи эмоционального интеллекта и копинг-стратегий у юношей и девушек.

Гипотезы исследования

1. Существуют значимые различия во взаимосвязи эмоционального интеллекта и копинг-стратегий при мужской и женской выборке.

2. Высокий эмоциональный интеллект связан с выбором адаптивных стратегий (проблемно-ориентрованных), низкий эмоциональный интеллект связан с выбором неадаптивных копинг-стратегий (эмоционально-ориентированных) поведения.

Выборка: в исследовании приняло участие 92 испытуемых – студентов Бакинского филиала Московского государственного университета имени М.В.Ломоносова и Бакинского государственного университета (46 женщин и 46 мужчин в возрасте от 17 до 25 лет).

Методы исследования

Для проверки выдвинутых гипотез были использованы следующие методики диагностики показателей регуляции поведения испытуемых: опросник способов совладания Р.Лазаруса и С.Фолкмана (1988), адаптированный Крюковой (2005), опросник эмоционального интеллекта «Эм.Ин.» Д.В. Люсина (2006).

2. Опросник ЭмИн Д.В.Люсина

Опросник ЭмИн, разработанный Д.В. Люсиным, состоит из 46 утверждений. В опроснике выделяются такие шкалы, как межличностный эмоциональный интеллект, внутриличностный эмоциональный интеллект, а также 5 субшкал: понимание чужих эмоций, управление чужими эмоциями, понимание своих эмоций, управление своими эмоциями, контроль экспрессии.

3. Опросник способов совладания – ОСС (Ways of Coping Questionnaire – WCQ).

Методика была разработана Р.Лазарусом и С.Фолкманом в 1988 году, адаптирована Т.Л.Крюковой, Е.В.Куфтяк, М.С.Замышляевой в 2004 году. Опросник состоит из 50 утверждений, группируемых в 8 шкал, и включает следующие стратегии: конфронтация, дистанцирование, самоконтроль, поиск социальной поддержки, принятие ответственности, бегство-избегание, положительная переоценка, планирование решения проблемы.

Статистическая обработка результатов исследования

Для обработки результатов исследования применялся корреляционный анализ (коэффициент корреляции Пирсона) и использовалась компьютерная статистическая программа «СПСС 17». Расчет производился с достоверностью $п \leq 0,05$.

Результаты исследования

Корреляционный анализ в мужской выборке выявил наличие статистической отрицательно умеренной связи между показателями эмоционального интеллекта «контроль экспрессии» (Р=0,358), «способность к управлению своими и чужими

эмоциями» (P=0,382), «внутриличностый эмоциональный интеллект» (P=0,392) и показателем копинг-стратегии бегство-избегание. Также была обнаружена положительная взаимосвязь между проблемно-ориентированным копингом «планирование решения проблемы» и общим уровнем эмоционального интеллекта (P=0,58). Результаты статистического анализа данных в женской выборке, так же как и в мужской, выявили положительную взаимосвязь между копингом «планирование решения проблемы» и показателями эмоционального интеллекта: «управление своими эмоциями» (P=0,34), «управление своими и чужими эмоциями» (P=0,34), «внутриличностный эмциональный интеллект» (P =0,36).

Обсуждение результатов исследования

1. Результаты проведенного статистического анализа частично подтвердили первую гипотезу о существовании гендерных различий во взаимосвязях копинг-стратегий и эмоционального интеллекта. Выявлено, что чем ниже у юношей способность к управлению своими и чужими эмоциями, способность контролировать внешние проявления своих эмоций, внутриличностный эмоциональный интеллект, тем более они склонны преодолевать трудные ситуации за счет реагирования по типу уклонения: отвлечения, отрицания проблемы. И юноши, и девушки, которые способны устанавливать и поддерживать социальные контакты и лучше разбираться в своих и чужих эмоциях, склонны преодолевать проблемную ситуацию за счет целенаправленного анализа ситуации и планирования собственных действий с учетом объективных условий.

2. Установлено, что эмоциональный интеллект является личностным копинг-ресурсом. Чем выше эмоциональный интеллект, тем выше склонность к предпочтению адаптивных копинг-стратегий, таких как «планирование решения проблемы». Юноши с низким эмоциональным интеллектом склонны выбирать неэффективную стратегию «избегание проблем».

В заключение отметим, что полученные нами результаты не позволили нам сделать определенный вывод о наличии гендерных различий во взаимосвязи эмоционального интеллекта и копинг-стратегий, данная гипотеза подтвердилась лишь частично. В целом, на основе результатов проведенного исследования, мы можем сделать вывод о конструктивной роли эмоционального интеллекта в выборе стратегий поведения в трудной жизненной ситуации.

Ключевые слова: копинг-стратегии, копинг-ресурс, эмоциональный интеллект.

Список использованной литературы

1. Андреева И.Н. Об истории развития понятия «эмоциональный интеллект» //Вопросы психологии, 2008, №5, с.83-95.

2. Люсин Д.В. Новая методика для измерения эмоционального интеллекта: опросник ЭмИн //Психологическая диагностика, 2006, № 4, с. 3-22.

3. Нартова-Бочавер С.К. «Coping behavior» в системе понятий психологии личности //Психологический журнал, 1997, № 5, с. 20-30.

4. Панкова Т.А. Роль эмоционального интеллекта в социально-психологической адаптации молодых специалистов [Электронный ресурс] //Психологические исследования: электрон. науч. журн., 2011, №4(18). URL: http://psystudy.ru (дата обращения: 25.05.2015).

5. Austin E.J., Saklofske D.H. & Mastoras S.M. Emotional intelligence, coping, and exam-related stress in Canadian undergraduate students. //Australian Journal of Psychology, 2010, p.42-50.

6. Ciarrochi J.V., Forgas J.P. & Mayer J.D. (Eds.) Emotional intelligence in everyday life. //Philadelphia. Psychology Press, 2001.

7. Downey L., Johnston P., Hansen K., Birney J. & Stough C. Investigating the mediating effects of emotional intelligence and coping on problem behaviours in adolescents. //Australian Journal of Psychology, 2010.

8. Mayer J.D., Salovey P., & Caruso D.R. Models of emotional intelligence. In R.J.Sternberg(Ed.). //Handbook of intelligence New York, NY: Cambridge University Press, 2000.

9. Mikolajczak M., Petrides K.V., Hurry J. Adolescents choosing self-harm as an emotion regulation strategy: the protective role of trait emotional intelligence. //British Journal of Clinical Psychology, 2009.

10. Peters C., Kranzler J.H., & Rossen E. Validity of the Mayer-Salovey-Caruso Emotional Intelligence Test: Youth Version - Research Edition. //Canadian Journal of School Psychology, 2009.

Kübrə FƏTULLAYEVA

GƏNC OĞLAN VƏ QIZLARDA EMOSİONAL İNTELLEKTİN VƏ KOPİNQ STRATEGİYALARIN ƏLAQƏSİ

Xülasə

Məqalə gənc oğlan ve qızlarda emosional intellektin ve kopinq strategiyaların əlaqəsini öyrənməyə həsr olunub. Məqalədə emosional intellektə kopinq-resurs kimi baxılır və o həyatın çətin vəziyyətlərinin uğurla öhtəsindən gəlmək imkanı verir. Gənc oğlan və qızlarda emosional intellektin və kopinq strategiyaların əlaqəsinin empirik araşdırma nəticələri təqdim olunub.

Açar sözlər: kopinq-strateqiyalar, kopinq-resurs, emosional intellekt.

Kubra FATULLAYEVA

THE RELATIONSHIP BETWEEN EMOTIONAL INTELLIGENCE AND COPYING-STRATEGIES OF THE YOUTH AND GIRLS

Summary

The article is dedicated to the study of the relationship between emotional intelligence and copying-strategies of the youth men and girls. In the article emotional intelligence is considered as copying-resource, which allows to efficiently solve difficult life situations. The results of empirical research of relationship between emotional intelligence and copying-strategy of the youth men and girls is introduced.

Keywords: coping-strategies, coping-resource, emotional intelligence.

SİYASİ ELMLƏR BÖLMƏSİ

UOT 327.5

Etibar ƏSƏDOV
b.e.i, siyasi e.ü.f.d., AMEA FHİ

DÖVLƏTİN HƏRBİ TƏHLÜKƏSİZLİK PROBLEMİ VƏ ONUN TƏMİN OLUNMASI SİSTEMİ*

Hərbi təhlükəsizlik milli təhlükəsizliyin vacib istiqamətini təşkil edir. Bu baxımdan, hərbi təhlükəsizlik probleminin mahiyyətini açmazdan və onun təmin olunması sistemi ətrafında təhlillər aparmazdan öncə milli təhlükəsizlik probleminin təbiətini izah etmək vacibdir. Beləliklə, milli təhlükəsizlik anlayışı siyasi elmin ən əsas kateqoriyalarından biridir. Belə ki, milli təhlükəsizliyin siyasi, iqtisadi, hərbi, informasiya, hüquqi, psixoloji, mənəvi, fəlsəfi və digər problemləri mövcuddur. Təhlükə və təhdidlər, onlarla mübarizə təhlükəsizliyin mahiyyətini təşkil edir. Bu mənada təhlükəsizlik həmişə təhlükə və təhdidlərdən müdafiə olunmaq kimi başa düşülmüşdür. Hazırda milli təhlükəsizlik termini bir çox ölkələrdə işlədilir. Siyasi leksikonda isə milli təhlükəsizlik anlayışı ilk dəfə ABŞ prezidenti T.Ruzveltin 1904-cü ildə Konqresə göndərdiyi məktubunda işlədilmişdir. Məktubda Panama kanalının çəkilməsinin əhəmiyyəti ABŞ-ın milli təhlükəsizlik maraqları ilə əsaslandırılırdı (8, s.44). Sonrakı dövrlərdə ABŞ-da milli təhlükəsizliyin təmin edilməsi üçün qanunlar qəbul edilməyə, hakimiyyət strukturları nəzdində təhlükəsizlik orqanları yaradılmağa başladı. 1947-ci ildə isə ABŞ-da milli təhlükəsizlik haqqında qanun qəbul olundu.

Ümumiyyətlə, təhlükəsizliyin iki əsas səviyyəsi vardır: 1) beynəlxalq təhlükəsizlik (qlobal və regional təhlükəsizlik) 2) milli təhlükəsizlik (şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyi) (13, s.21).

Milli təhlükəsizlik anlayışı sözün məhdud və geniş mənalarında işlənir. Məhdud mənada milli təhlükəsizlik siyasi təşkilat, dövlətin struktur elementi kimi çıxış edir. Geniş mənada isə milli təhlükəsizlik daxili və xarici siyasəti özündə birləşdirən milli strategiya kimi başa düşülür. Milli təhlükəsizlik vasitəsilə əhalinin həyat və fəaliyyəti təmin olunur, cəmiyyət və şəxsiyyət münasibətlərinin obyektiv, optimal əlaqələri yaranır. Məhz buna görə də milli təhlükəsizliyin təmin edilməsinin ən başlıca məqsədi dövlətin konstitusiyasına və məlum beynəlxalq normalara uyğun olaraq vətəndaşların hüquq və azadlıqlarının qorunmasından ibarətdir (16, s.18).

Milli təhlükəsizlik xalqın mədəni-tarixi dəyərlərini qoruyub saxlamaqla gələcəyin strateji inkişaf yolunun düzgün müəyyən edilməsidir. Milli təhlükəsizliyin daxili və xarici tərəfləri vardır. Daxili təhlükəsizlik daxili siyasi sabitlik, sürətli iqtisadi inkişaf və ümummilli razılıqla təmin edilir. Xarici təhlükəsizlik isə dövlətin həyati vacib mənafelərinin təhlükə, qorxu və risklərdən mühafizəsi, xüsusi xidmət orqanlarının fəaliyyəti, hərbi müdafiə, siyasi diplomatik fəaliyyət, sülh uğrunda mübarizə vasitəsilə təmin olunur. ABŞ politoloqu H.Kissencerə görə milli təhlükəsizlik millətin həyati vacib tələbatlarının ödənilməsindən ibarətdir (18, s.37). Z.Bjezinski isə milli təhlükəsizlikdən bəhs edərkən dövlətin hərbi gücünü, onun iqtisadi, siyasi, sosial və mənəvi inkişafını başlıca amil hesab edir (5, s.61).

Ümumiyyətlə, politoloqların böyük əksəriyyəti milli təhlükəsizliyi güc vasitəsində, yəni digər dövlətlərdən qüdrətli olmaqda və ya bütövlükdə beynəlxalq münasibətlər sisteminin inkişafı üçün optimal şəraitin yaradılmasının təmin olunmasında görürlər. B.Broudi,

* Məqalə fəlsəfə ü.e.d., professor Əlikram Tağıyev tərəfindən çapa məsləhət görülüb.

H.Kissencer, Z.Bjezinski, Q.Morqentau, C.Şlessincer və başqaları milli təhlükəsizlik probleminə dair əsərlərin ən görkəmli müəlliflləridirlər.

Beynəlxalq hüquqa əsasən milli təhlükəsizlik sistemində ərazi, suverenlik və dövlətin təhlükəsizliyi əsas götürülür (3, s.154). Politologiyada milli təhlükəsizlik anlayışı daha geniş məzmuna malikdir. Milli təhlükəsizlik bütövlükdə şəxsiyyətin, cəmiyyətin, xalqın həyat mənafeyinin, yaşayış tərzinin, milli maraqlarının, ölkənin suverenliyinin, ərazi bütövlüyünün, dövlət müstəqilliyinin, dövlətin sərhədlərinin toxunulmazlığının, konstitusiya quruluşunun və idarəçilik sisteminin, dövlət institutlarının, təbii resursların təminatlı müdafiəsidir.

Qeyd edək ki, dövlət və cəmiyyətin təhlükəsizliyinin təmin edilməsinin siyasi konsepsiyaları çox geniş müzakirə və tədqiqatların mövzusudur. İnsan və cəmiyyəti təhdid edən problemlərin dairəsi hazırda olduqca genişlənməkdə və yenilənməkdədir. Belə bir vəziyyətdə təhlükəsizlik məsələsini həll etmək xüsusi biliklər sistemi olmadan mümkün deyil. Bir çox politoloqların fikrinə görə hazırda təhlükəsizlik məsələlərinin həllinə kompleks yanaşmaq tələb olunur və bu sırada miqrasiya təhlükəsizliyi, onun məzmunu və mahiyyəti, təmin olunmasının yolları, strukturu və funksiyaları ən önəmli məsələlərdəndir. Həm də bu məsələ istər kiçik, istərsə də böyük adlanan dövlətlər qarşısında durur. 2009-cu ildə ABŞ prezidenti Barak Obama Milli Təhlükəsizlik Şurasının kadrlarının sayını, beynəlxalq və daxili məsələlərin həlli strategiyasının müəyyən edilməsi səlahiyyətlərini artırmağı strateji məsələ kimi irəli sürmüşdür. Milli təhlükəsizlik məsələləri üzrə müşavir Ceyms Cons ABŞ-da hazırkı qurumun səmərəli olmadığını bildirərək qeyd edib ki, XXI əsrin kibernetik təhlükəsizliyi, miqrant axınları, ətraf mühit, dövlət quruculuğu və infrastruktur kimi məsələlərin həlli üçün şuranın xarici siyasəti genişləndirilməlidir. Təbii ki, qeyd etdiyimiz məqamlar bu və digər forma və səviyyədə həmçinin, dövlətin hərbi təhlükəsizliyi ilə də əlaqələnir. Belə ki, milli təhlükəsizlik sisteminin bütün elementləri mütləq şəkildə biri-birilərini tamamlayırlar (6).

Hərbi təhlükəsizlik komponentini özündə ifadə edən ümumi milli təhlükəsizlik probleminin təbiətini izah edərkən, həmçinin Azərbaycan Respublikasının milli təhlükəsizlik məsələsi ilə bağlı bəzi məqamlara diqqət yetirmək məqsədəuyğundur. Akademik R.Mehdiyev çıxışlarının birində ölkəmizin milli təhlükəsizlik problemini lokanik, lakin olduqca məzmunlu şəkildə təhlil etmişdir. Belə ki, akademik R.Mehdiyev qeyd etmişdir: "Transmilli mütəşəkkil cinayətkarlığın təzahür formaları Azərbaycandan da yan keçməyib. Belə ki, ölkənin münbit coğrafi mövqeyi, Avropa ilə Asiya arasında ticarət-nəqliyyat və kommunikasiya yollarının kəsişməsində yerləşməsi, stabil inkişaf edən müasir iqtisadiyyatı, reallaşdırdığı irimiqyaslı enerji, nəqliyyat və digər layihələr təkcə əlverişli iqtisadi mühit formalaşdırmır, həm də qanunsuz fəaliyyətini genişləndirmək, gəlirlərini artırmaq üçün istənilən imkandan istifadə edən, daim yeni marşrut və bazarlar axtaran müxtəlif növ kriminal strukturları cəlb edir. Buna görə də Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasında və Hərbi Doktrinasında Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğalı ilə yanaşı, beynəlxalq terrorçuluq, narkotik maddələr və silah-sursatın qanunsuz dövriyyəsi, qeyri-leqal miqrasiya və insan ticarətinin ölkənin milli təhlükəsizliyinə qarşı təhdid qismində qeyd olunması tam qanunauyğundur. Çünki, dövlətin milli təhlükəsizlik konsepsiyasının reallaşdırılması dünyadakı yeni situasiyanı nəzərə almadan mümkün deyil. Ermənistan Silahlı Qüvvələrinin işğal etdiyi Dağlıq Qarabağ ərazisində, o cümlədən Azərbaycan-İran sərhədinin faktiki olaraq Ermənistan tərəfindən nəzarət edilən 132 kilometrlik hissəsi aktiv şəkildə narkotik maddələrin istehsalı, tranziti və ticarəti, silah və insan alveri, qeyri-leqal miqrasiya, terrorçular üçün sığınacaq, çirkli pulların yuyulması və transmilli cinayətkarlığın digər təhlükəli növləri üçün istifadə olunur. Bu zona milli və beynəlxalq hüququn təsir dairəsindən kənarda olduğuna görə qeyd olunan təhlükələrə qarşı vaxtında və adekvat reaksiya vermək mümkünsüzdür. Buna görə də biz Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlərə milli və regional

təhlükəsizliyin təminatı işinin bir hissəsi kimi baxırıq" (2). Akademik Ramiz Mehdiyev Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının mühüm məqamlarını təhlil edərkən, onun hərbi komponentlərini də qabardır. Belə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həm Azərbaycanın, həm də regionun hərbi təhlükəsizliyinə ən ciddi təhdid yaradan hərbi münaqişədir. Əlavə olaraq qeyd edək ki, müstəqilliyinin ilk illərində, xüsusilə də ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan hərbi təhlükəsizlik məsələləri ilə bağlı bir sıra ciddi addımlar atmışdır. Belə ki, Azərbaycan müstəqillik qazandıqdan qısa bir müddət sonra Rusiya hərbi bazalarını öz ərazisindən çıxarmış və heç bir ölkənin hərbi bazaları burada yerləşdirilməmişdir. Hərçənd ki, NATO və Türkiyə hərbi bazalarının Azərbaycanda yerləşdirilməsi ilə bağlı fikirlər səslənsə də, rəsmi səviyyədə heç vaxt öz təsdiqini tapmamışdır. Cənubi Qafqaz regionunu öz maraq dairəsində görən Rusiya heç bir halda bu regionda hər hansısa bir ölkənin və ya alyansın hərbi mövcudiyyəti ilə barışmayacağını bildirmişdir. Belə olduqda nə NATO-nun, nə də ayrılıqda Türkiyənin Rusiya ilə bu mövzuda kəsişmək istəməməsi başa düşüləndir. Amma Avropanın enerji təhlükəsizliyinin tərkib hissəsi olan Azərbaycan regional əhəmiyyətli enerji və nəqliyyat infrastrukturunun mühafizə edilməsi üçün NATO-nun imkanlarından istifadə edə bilər. Qeyd edək ki, bu Azərbaycanın həm ümumi təhlükəsizliyi, həm də konkret olaraq hərbi təhlükəsizliyi üçün vacib məqamdır. Çünki, Ermənistan tərəfi dəfələrlə qeyd etmişdir ki, müharibə başlayacağı təqdirdə, ilk növbədə, enerji infrastrukturunu hədəf alacaqdır. Əgər Azərbaycanın enerji, nəqliyyat infrastrukturu NATO mühafizəsinə daxil olsa, müharibə başladığı təqdirdə nə Ermənistan, nə də ki müharibəyə qatılacağı halda Rusiya bu obyektləri hədəf almağa cəsarət edəcəkdir. Bundan başqa, hərbi doktrinada silahlı qüvvələrin vəzifələri, beynəlxalq hərbi əməkdaşlıq, səfərbərlik, hərbi texniki təchizat, hərbi quruculuğun inkişafı, perspektivləri kimi məsələlər yer almışdır. Nəticədə onu demək olar ki, Milli Məclisin 8 iyun 2010-cu il tarixində təsdiq etdiyi Azərbaycan Respublikasının hərbi doktrinası ölkənin bu məzmunda hazırlanmış ilk hərbi sənədidir (1). Bu doktrinanın yekun müddəalarında da qeyd edildiyi kimi, təhlükəsizlik mühitinin daim dəyişən dinamikası nəzərə alınaraq yenidən baxılma, dəqiqləşdirmə və əlavələr üçün açıq sənəddir. Yəni zamanın tələblərindən asılı olaraq doktrina dəyişdirilə bilər. Bununla belə, mövcud doktrina milli təhlükəsizliyin təmin edilməsi üçün hazırlanmış ən funksional sənədlərdən biridir.

Müharibə şəraitində yaşayan, torpaqlarının 20%-i işğal altında olan Azərbaycan respublikası üçün hərbi doktrinanın qəbul edilməsi çox vacib idi. Artıq iyirmi ildən də artıq bir müddətdir ki, Azərbaycanın ərazi bütövlüyü Ermənistan tərəfindən pozulmuşdur. Münaqişənin həll edilməsi istiqamətində beynəlxalq təşkilatların iştirakı ilə danışıqlar hələ də davam etdirilir. BMT Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarının işğalı ilə əlaqədar olaraq müxtəlif dövrlərdə qətnamə qəbul etmişdir. Bu qətnamələrin hamısı BMT nizamnaməsinin VI bəndinə əsaslandığı üçün tövsiyə xarakteri daşıyır. Bundan başqa, qeyd etmək lazımdır ki, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar aparılan danışıqlar 1992-ci ildən başlayaraq ATƏT tərəfindən həyata keçirilir. Bu illər ərzində münaqişənin həlli istiqamətində bir çox təkliflər olsa da, məsələnin real həlli ilə əlaqədar heç bir məsafə qət edilməmişdir.

Azərbaycan Respublikasının hərbi təhlükəsizliyinin təmin olunmasının əsas normativ-hüquqi əsası rolunda çıxış edən hərbi doktrinada Azərbaycanın təhlükəsizlik mühiti qlobal və regional olmaqla iki müstəvidə qiymətləndirilir (1). Beynəlxalq terrorçuluq, mütəşəkkil cinayətkarlıq, tükənməkdə olan enerji resursları uğrunda dövlətlər arasında gərginliyin artması, istər ayrı-ayrı dövlətlərin, istərsə də qeyri-dövlət subyektlərinin kütləvi qırğın silahlarının əldə edilməsi səyləri kimi amillər Azərbaycan üçün qlobal səviyyədə təhlükəsizlik mühiti formalaşdırır. Geosiyasi vəziyyətin qeyri-sabitliyi, həll olunmamış münaqişələrin mövcudluğu, region dövlətlərindən keçən enerji və nəqliyyat infrastrukturunun təhlükə altına

alınması kimi amillər isə regional səviyyədə Azərbaycan üçün təhlükə yaradan faktorlardandır. Doktrinada əks olunan maddələr ümumi xarakter daşısa da, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi, bu ərazilərdə etnik təmizləmə siyasətinin aparılması, iqtisadi və sosial infrastrukturun dağıdılması kimi faktlar ən əsas təhlükə mənbələri kimi göstərilir və bu vəziyyətin dəyişdirilməsinin Azərbaycanın təhlükəsizliyinin təminatı istiqamətində ən vacib məsələ olduğu xüsusi olaraq vurğulanır. Doktrinada təhlükə mənbəyi olaraq Ermənistandan başqa heç bir dövlətin adı çəkilmir. Bu, ondan irəli gəlir ki, hazırda Azərbaycanın milli təhlükəsizliyinə hərbi təhdid Ermənistan tərəfdən gəlməkdədir.

Milli təhlükəsizlik haqqında apardığımız qısa təhlildən aydın olduğu kimi, milli təhlükəsizliyin istiqamətləri arasında hərbi təhlükəsizlik mərkəzi yer tutur. Ölkənin hərbi təhlükəsizlik məsələsini həll etmədən dövlət suverenliyinin möhkəmləndirilməsi üzrə həyata keçirilən bütün səylər əbəs olacaqdır. Söhbət ölkənin hərbi təhlükəsizliyinin təmin olunmasından gedir. Müasir dövrdə hər bir dövlət öz hərbi təhlükəsizliyini təmin etmək, müstəqilliyini xarici hərbi müdaxilədən qorumaq üçün müdafiə sistemi yaradır. Müdafiə sisteminin yaradılmasında isə ordu quruculuğu başlıca yer tutur. Belə ki, ordu quruculuğu dövlət quruculuğunun əsas tərkib hissələrindən biridir (20).

Hərbi təhlükəsizliyin mahiyyətinə dair yanaşmaları nəzərdən keçirməklə, onun mahiyyəti və əhəmiyyəti haqqında daha aydın təsəvvürlərə malik olmaq mümkündür. Beləliklə, hərbi təhlükəsizliyə dair yanaşmaları aşağıdakı formada nəzərdən keçirmək mümkündür: (9, s.23)

- hərbi təhlükəsizlik dövlət suverenliyinin, ərazi bütövlüyünün, milli maraqların qorunması təminatı sistemi kimi başa düşülür;
- hərbi təhlükəsizlik cəmiyyətin inkişafının və ondakı münasibətlərin elə formasıdır ki, hərbi zorakılıq vasitəsilə ona zərər yetirilməsinin qarşısını alır. Yəni, hərbi zorakılığın istisna olunduğu vəziyyətdir;
- hərbi təhlükəsizlik dövlətlərarası və dövlətdaxili vəziyyət və ölkənin müdafiə qabiliyyəti kimi nəzərdən keçirilir. Bu elə bir vəziyyətdir ki, milli maraqlara qarşı yönəlmiş aqressiya halı müəyyənləşdirilir və onun qarşısının alınması istiqamətində addımlar atılır. Belə hallarda təhlükənin qarşısının alınmasında hərbi gücdən istifadə olunur;
- hərbi təhlükəsizlik daxili və beynəlxalq həyat şəraitinin vəziyyətidir. Bu vəziyyət şəxsiyyətə, cəmiyyətə, dövlətə və beynəlxalq birliyə münasibətdə silahlı zorakılığın tətbiq olunmasını istisna edir və onun qarşısının alınmasını nəzərdə tutur. Yəni, bu vəziyyət hərbi təhlükələrin mövcudluğunu istisna edir.

Ümumiyyətlə, təcrübədə hərbi təhlükəsizlik geniş və dar mənada nəzərdən keçirilir. Geniş mənada, hərbi təhlükəsizlik dövlətlərarası və dövlətdaxili hərbi-siyasi münasibətlərin elə bir vəziyyətidir ki, bu zaman ölkənin müdafiə imkanları milli təhlükəsizliyə qarşı yönəlmiş təhdidlərin qarşısını almaq iqtidarında olur (10, s.197).

Dar mənada isə, hərbi təhlükəsizlik hakimiyyət orqanlarının elə bir vəziyyətidir ki, bu vəziyyət çərçivəsində dövlət strukturları konstitusion quruluşun etibarlı qorunmasını təmin edir. Bundan başqa, cəmiyyətin iqtisadi, sosial, siyasi stabilliyinin təmin olunması istiqamətində zəruri addımların atılması imkanları mövcud olur. Bütün hallarda hərbi təhlükəsizlik dövlətin, millətin bütün mənalarda stabil, təhlükəsiz şəkildə mövcud olmasının təmini kimi başa düşülür.

Ümumi şəkildə bir daha qeyd edə bilərik ki, cəmiyyətin və ya dövlətin hərbi təhlükəsizliyi hərbi təhlükələrin və hərbi təhdidlərin olmaması ilə səciyyələnir. Başqa sözlə ifadə etmiş olsaq, hərbi təhlükəsizlik sosial, sosiomədəni və mənəvi sferaların hər hansı bir hərbi təhdiddən azad olması anlamına gəlir. Hərbi təhlükə dedikdə isə, dağıdıcı xüsusiyyətlərə malik olan obyektlərin ifadə etdiyi təhdidlər başa düşülür. Hərbi təhlükə birbaşa, konkret və

ünvanlanmış təhlükə forması kimi səviyyələndirilə bilər. Aşağıdakı əlamətlərin müşahidə olunduğu halda hərbi təhlükənin mövcudluğu haqqında danışmaq mümkündür: (14, s.91)

- dövlətlərin biri-birilərinə münasibətdə həllində hərbi gücün tətbiq olunması tələb olunan iddiaları olduqda və ya belə iddialar meydana gəldikdə;

- mümkün rəqibin hərbi əməliyyatların aparılması üçün istifadə ediləcək silahlı qüvvələrə malik olması. Bu zaman silahlı qüvvələrin tətbiq olunmasına imkan verəcək infrastrukturun olması da qeyd etdiyimiz əlamətlər kimi nəzərdən keçirilir;

- rəqibin öz məqsədlərinə çatması üçün hərbi gücdən istifadənin rasional olması ilə bağlı əminliyə malik olması, hərbi gücün tətbiqi üçün siyasi motivlərin mövcud olması və s.

Hər şeydən öncə qeyd edək ki, hərbi təhlükəsizliyin mahiyyəti ölkənin müdafiə sisteminin hazırlıq səviyyəsinin nəzərdən keçirməkdən və milli maraqların təmin olunmasının digər vasitələri işlək olmadıqda, dövlətin öz hərbi gücü bu istiqamətdə addımlar atmaqdan ibarətdir. Hərbi təhlükəsizliyin təmin olunması sistemi özünə kompleks elementlər daxil edir. Təbii ki, hərbi təhlükəsizlik digər təhlükəsizlik istiqamətlərindən özünün səciyyəvi xüsusiyyətlərinə görə fərqlənir. Hərbi təhlükəsizliyin digər təhlükəsizlik istiqamətlərindən prinsipial fərqi ondan ibarətdir ki, o, dövlətin müharibənin baş verməsinin, müharibəyə cəlb olunmasının qarşısını almaq bacarıqlarını xarakterizə edir. Müharibənin baş verdiyi təqdirdə isə itkilərin və onun dağıdıcı nəticələrinin minimuma endirilməsi imkanlarının və yollarının müəyyənləşdirilməsi də hərbi təhlükəsizliyin əhatə dairəsinə aiddir (15, s.36).

Dövlətin hərbi təhlükəsizliyinin təmin etmək qabiliyyəti dedikdə, hər şeydən öncə, onun arsenalında olan hərbi vasitələrin köməyi ilə milli maraqlarını müdafiə etmək imkanları başa düşülür (17, s.81). Deməli hərbi təhlükəsizliyin təmin olunmasının başlıca şərti milli maraqları təmin və müdafiə etməyə imkan verəcək hərbi gücə malik olmaqdan ibarətdir. Hər bir dövlət hərbi təhlükəsizliyini etibarlı təmin etmək üçün özünün hərbi potensialını nəzərdən keçirməli və hərbi imkanlarını o səviyyəyə çatdırmalıdır ki, ərazi bütövlüyünə, konstitusion quruluşuna, əhalinin təhlükəsizliyinə qarşı hər hansı bir təhdid yarandıqda ona qarşı çevik cavab reaksiyası nümayiş etdirə bilsin və təhlükənin qarşısını alsın. Hərbi təhlükəsizliyi digər təhlükəsizlik istiqamətlərindən fərqləndirən başlıca məqam da məhz budur. Hərbi təhlükəsizliyin təmin olunması sistemi həm də təkcə təhlükə yarandığı təqdirdə deyil, qəfil təhlükələrin və potensial təhlükələrin qarşısının alınmasını nəzərdə tutur. Dövlət öz sərhədlərini daim nəzarətdə saxlamaqla, mümkün təhlükələrin qarşısının alınması üçün preventiv tədbirlər həyata keçirir (11, s.47). Qeyd edək ki, hərbi təhlükəsizliyin təmin olunması təkcə hərbi gücdən istifadəni deyil, bu istiqamətdə həm siyasi, iqtisadi və ideoloji resursların səfərbər olunmasını nəzərdə tutur. Hərbi təhlükəsizliyin təmin olunması sistemi bütün komponentləri ilə birgə səmərəli ola bilər.

Bundan başqa, dövlət sərhədlərinin yaxınlığında gedən hərbi-siyasi proseslərin nəzarətdə saxlanılması, dövlətin milli maraqlarına zidd olan hər hansı bir olayın baş verdiyi təqdirdə ona fəal müdaxilə imkanlarının olması hərbi təhlükəsizliyin mühüm trendlərini təşkil edir. Hərbi təhlükəsizliyin tələb olan səviyyəsi bütün struktur komponentlərinin mövcudluğu şəraitində əldə edilir. Buraya həm sırf hərbi, həm də siyasi-diplomatik, iqtisadi, ideoloji və digər xarakterli komponentlər daxildir (19, s.44).

Beləliklə, hərbi təhlükəsizliyin təmin olunması sistemi dövlətin ərazi bütövlüyünü, konstitusion quruluşunu, əhalinin həyatını qorumağa imkan verən komponentlərin məcmusundan ibarətdir ki, burada da mərkəzi element rolunda hərbi güc çıxış edir.

Açar sözlər: təhlükəsizlik, hərbi təhlükəsizlik, dövlət, hərbi güc, silahlı qüvvələr.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Hərbi doktrinası //Azərbaycan, 2010, 17 iyun, s.3, 4.
2. Akademik R. Mehdiyevin çıxışı //AzərTAc İnformasiya Agentliyi, (06.10.2010).
3. Balayev İ. Beynəlxalq hüquq. Ümumi hissə. B., 2000, s.154.
4. Piriyev A. Siyasi strategiya və Azərbaycanın milli təhlükəsizlik problemləri. B., 2002, 530 s.
5. Bjezinski Zb. Büyük satranç tahtası (Çeviren: Yelda Türedi). "İNKİLAP" 2005, s.293.
6. " Washinqton Post" qəzeti, 8 fevral 2009-cu il.
7. Анненков В.И. (отв. ред.). Военная сила в международных отношениях. М.: КНОРУС, 2011, 496 с.
8. Возжеников А. Национальная безопасность: теория, политика, стратегия. М., 2000.
9. Военно-исторический журнал, № 08, 2008. М.: Редакционно-издательский центр Министерства обороны РФ, 84 с.
10. Бельков О.А. Военные императивы национальной безопасности. Безопасность Евразии, № 4, 2003.
11. Зателепин О.К. Квалификация преступлений против военной безопасности государства. М.: За права военнослужащих, вып.106. 2009, 288 с.
12. Журкин В.В. (ред.) Безопасность Европы. М.: Издательство «Весь Мир», 2011, 752 с.
13. Кулагин В.М. Международная безопасность. М.: Аспект Пресс, 2007, 318 с.
14. Макаренко И. Военная безопасность государства: сущность, структура и пути обеспечения в постконфронтационную эпоху. М.: РАГС, 1998, 286 с.
15. Макаренко Д.И., Хрусталев Е.Ю. Концептуальное моделирование военной безопасности государства. М.: Наука, 2008, 303 с.
16. Прохожев А. Национальная безопасность: основы теории, сущность, проблемы. М.: 2007, 231с.
17. Рогозин Д. Война и мир в терминах и определениях. Военно-политический словарь. М.: ИД «ПоРог», 2004, 334 с.
18. Сацута А.А. Национальная безопасность как социальное явление: современная парадигма. Армия и общество, № 3, 2007.
19. Стрекозов В.Г., Кудашкин А.В. (ред.) Военное право. М.: За права военнослужащих. 2004, 640 с.
20. http://nicbar.ru/nazbez_lekzia5.htm

Этибар АСАДОВ

ПРОБЛЕМА ВОЕННОЙ БЕЗОПАСНОСТИ ГОСУДАРСТВА И СИСТЕМА ЕЕ ОБЕСПЕЧЕНИЯ

Резюме

В статье рассматривается природа национальной безопасности государства, приводятся принципы ее обеспечения и характерные черты.

Автор отмечает, что одним из важных направлений национальной безопасности является военная безопасность. Особое внимание уделяется объяснению природы

военной угрозы, которая имеет определенные признаки. Рассматривается система обеспечения военной безопасности.

Далее анализируется проблема национальной безопасности и некоторые аспекты военной безопасности Азербайджанской Республики. В частности, в Азербайджане была принята Военная доктрина, которая составляет основную нормативно-правовую базу военной безопасности страны.

Ключевые слова: национальная безопасность, военная безопасность, военная доктрина, государство, военная угроза, Вооруженные силы.

Etibar ASADOV

PROBLEM OF MILITARY SAFETY OF THE STATE AND SYSTEM OF ITS PROVIDING

Summary

In the article the nature of national security, the principles of its providing and characteristic features are considered. The author notes that one of the important directions of national security is military safety. A particular attention is paid to an explanation the nature of military the at, that has a certain sign. The author considers the system of ensuring military safety.

Further the question of national security and some aspects of military safety of the Azerbaijan Republic are analyzed. It is noted that in Azerbaijan the Military Doctrine was adopted that makes up the main standard and legal base of military safety of the country.

Keywords: national safety, military safety, military doctrine, state, military force, armed forces.

UOT 327

Zaur ƏLİYEV
b.e.i., siyasi e.ü.f.d., AMEA FHİ

ERMƏNİLƏRİN 24 APREL İDDİASINA QARŞI MALTA MƏHKƏMƏSİ QƏRARININ SİYASİ VƏ HÜQUQİ ƏHƏMİYYƏTİ*

«Qərb aləmində erməni məsələsini şişirtməyin başqa bir üzü vardır – o da hakimiyyət üçün yeni bir fürsətdir, ermənilərə üz vermiş ağır çətinliklərin, faciələrə gətirib çıxara biləcəyinin günahı, onları anlamadıqları işə təhrik edənlərin üzərinə düşür».

İngilis yazıçısı və publisisti S.F.Dikson-Conson tərəfindən 1916-cı ildə yazılmış "Ermənilər" kitabından

Giriş. Yəhudi mənşəli polşalı hüquqşünas Rafael Lemkin soyqırım termini təklif edənə qədər dünya siyasətçiləri və hüquqşünasları bu cür cinayətlərə konkret bir ad verməmişdi. İlk dəfə 1944-cü ildə Rafael Lemkin Avropa yəhudilərinin faşistlər tərəfindən kütləvi surətdə məhv edilməsi siyasətini ifadə etmək üçün "soyqırım" terminini işlətdi. Yunan dilində genos – "nəsil, kök, soy" sözü ilə latın dilində caedo – "öldürürəm" sözlərinin birləşməsindən "genosid" termini belə yarandı. İndiyə qədər dünyanın bir çox ölkələri "genosid" terminini tərcümə etmədən orijinalda işlədirlər. Azərbaycanın siyasi və hüquqi leksikonuna isə 1990-cı illərdə "soyqırım" kimi daxil olan bu termin insanlıq və insanlar əleyhinə olan bəşəri bir cinayəti ifadə edir. Hansı dildə işlənməsindən asılı olmayaraq, cinayətin təfsiri bu əmələ məruz qalmış millətin, etnosun, irqi və ya dini qrupun soyunun, kökünün kəsilməsini əks etdirir.

Tarixi faktlar və sənədlər sübut edir ki, erməni millətçiləri xəyali "böyük Ermənistan"ı yaratmaq üçün ayrı-ayrı zamanlarda tarixi faktları saxtalaşdıraraq, özlərini guya soyqırıma məruz qalan tərəf kimi göstərmişlər. Lakin faktlar göstərir ki, ermənilər bütün zamanlarda azərbaycanlılara və türklərə qarşı kütləvi qırğınlar, sui-qəsdlər və terrorlar törətmiş, dinc əhalini ucdantutma məhv etmişlər.

Tarixi keçmişi unutmaq və tarixi hadisələri danmaq olmaz. Bu gün tarixi həqiqətlərin üzə çıxarılmasına, gizli arxiv sənədlərinin araşdırılmasına, görkəmli tarixçilərin və antik alimlərin fundamental əsərlərində göstərilən faktların dünya ictimaiyyətinə çatdırılmasına çox böyük ehtiyac vardır. Dünyaya özünü "məzlum xalq" kimi tanıtmağa çalışan ermənilər hər yerdə geniş təbliğat apararaq, uydurma "erməni soyqırımı"nın tanınmasına ciddi cəhd etmişlər və bu gün də bu yolda yorulmadan çalışırlar.

Türkiyənin Xarici İşlər Naziri olmuş Qabriel Norandukyan Lozanna konfransına Türkiyənin göndərdiyi heyətin rəhbəri İsmət paşa ilə arasında aşağıdakı dialoq olmuşdur:

- Biz bir erməni yurdu istəyirik.
- Necə bir erməni yurdu?
- Türkiyənin bir yerini ayıracaqsınız.
- Türkiyənin harasında istəyirsiniz? Şərqindəmi, cənubundamı, yoxsa qərbindəmi?
- Harada olursa olsun, erməni yurdu olaraq bizə bir yer verin, biz də orada toplanaq, orada yaşayaq... (1, s. 157-177).

Bəs uydurma "erməni soyqırımı" məsələsi haradan yaranıb?

---

* Məqalə siyasi e.ü.f.d. Sənan Həsənov tərəfindən çapa məsləhət görülüb.

Tarixən məlumdur ki, "erməni məsələsi" Şərq məsələsinin tərkib hissəsi kimi meydana gəlmiş və böyük dövlətlər özlərinin işğalçı məqsədlərini həyata keçirmək üçün ondan bir vasitə kimi istifadə etmişlər. Şərq məsələsinin mahiyyəti isə Osmanlı İmperiyasının torpaqlarının bölüşdürülməsindən, Türkiyənin bir dövlət kimi məhv edilməsindən, Türkiyənin torpaqları hesabına erməni bufer dövlətinin yaradılmasından ibarət idi. Habelə həmin məsələ Şərqə yiyələnmək uğrunda Çar Rusiyası və Qərb dövlətləri arasında beynəlxalq münaqişələrin ifadəsi, Şərq xalqlarına qarşı işğalçılıq planlarının təzahürü idi. Şərq siyasətinin həyata keçirilməsi üçün ermənilərdən istifadə edildi və Türkiyə ərazisində yaşayan ermənilər başlıca hədəf seçildi. Birinci Dünya Müharibəsi zamanı Antanta dövlətləri müharibədə Almaniyanın tərəfində çıxış edən Türkiyəyə təzyiq göstərməyə başladılar. Bu təzyiq getdikcə gücləndi, hətta 1914-cü il oktyabrın 29–da Rusiya Türkiyəyə müharibə elan etdi. Belə bir vaxtda Türkiyə ərazisində yaşayan ermənilər böyük bir ordu yaradıb Rusiyanın köməyi ilə silahlandılar və hər yerdə türkləri qırmağa başladılar.

Türkiyənin tanınmış tədqiqatçı alimi, professor İsmail Ürçelik "Ermeni iddiaları ve gerçekler" adlı kitabında göstərir ki, Birinci Dünya Müharibəsi ərəfəsində və müharibə illərində ermənilər öz istəklərini gerçəkləşdirmək üçün Rusiyadan dəstək alırdılar. Rusiya vəd etdi ki, yeni bir Ermənistan yaratmağa kömək edəcək. Bundan sonra Türkiyə ərazisində yeni-yeni erməni hərbi alaylarının təşkili prosesi sürətlənirdi. Bu alaylara erməni liderləri başçılıq edirdilər. Hətta bu erməni hərbi birləşmələrinin fəaliyyətini əlaqələndirmək üçün Tiflisdə Erməni Uluslararası Bürosu yaradıldı. Bir çox xarici ölkələrdən gələn ermənilər hesabına könüllü hərbi birləşmələrin sayı getdikcə çoxalırdı. Qısa bir zamanda Rusiyadan, İrandan, Amerikadan, İngiltərədən, Fransadan, Bolqarıstandan, Rumıniyadan və hətta Buxaradan gələn ermənilər könüllü erməni alaylarına daxil olurdular. Onlara xüsusi təlimat keçirdilər. Təqribən 180 minə qədər erməni belə təlim keçmişdi. Təlim keçən erməni casuslarına təxribat işləri ilə məşğul olmaq, adam öldürmək, türk ordusuna arxadan zərbə vurmaq tapşırığı verilmişdi. Bu ordunun qarşısında iki əsas tapşırıq aşağıdakı idi ki, ermənilərin hökümət tərəfindən köçürülməsini labüd etdi:

Sənəd № 1

"İlk öncə rus dövləti ordusunun qarşı tərəfdən Ərzuruma doğru hərəkəti ilə hücuma keçəcək orduya qarşı türklərin mücadiləyə məcbur olacaqları təbii olduğuna görə bu fürsətdən istifadə etmək üçün geridə hazırlıq görmüş qəhrəman erməni çətələri (partizan dəstələri) Türk ordusunu arxa tərəfdən vurmaqla iki tərəf arasında qalan düşmənin hamısının beş yaşından böyük olanları ilə birlikdə yox və qətl edilmələri qərara alınmışdır".

Sənəd № 2

"Öncəki qərarda hər nə qədər 5 yaşından böyük olanların kəsilməsinə qərar verilmişsə də, bu beş yaşındakı uşaqların nüfuz etibarilə əhəmiyyəti 9 qabaqcadan görmək və irəlidə mənsub olduqları milləti yada salaraq gələcəkdə erməni milləti üçün bir təhlükə təşkil edəcəklərinə görə iki yaşından böyük olanların kəsilmələrinə birlikdə qərar verilmişdir" (2, s. 23-25).

Təbii ki, erməni silahlı dəstələrinin türklərə vurduğu ağır zərbələr və günahsız türk əhalisinin kütləvi məhv edilməsi, habelə ermənilərin yaşadıqları bu dövlətə xəyanəti Türkiyə dövlətini ciddi qərarlar qəbul etməyə məcbur etdi.

Bir şey də maraqlıdır ki, ermənilərin respublika elan edəcəyindən 2 gün qabaq - 1915-ci il aprel ayının 22-də Eçmiədzin katolikosu ABŞ prezidenti Vilsona belə bir teleqram vurmuşdu: "Ermənilər türk fanatizminin özbaşınalığından xilas edin".

Osmanlı dövləti bu vəziyyət qarşısında ilk tədbir olaraq ordudakı erməni əsilli əsgərləri döyüşən hissələrdən çıxarıb, arxa xidmətlərə verdi. Daxili işlər naziri Tələt bəyin imzasıyla 24 aprel 1915-ci ildə bir fərman verildi və dərhal erməni silahlıları haqqında əməliyyat

başladıldı. Buna görə erməni komitələrinin başçıları həbs olunacaq və hərbi məhkəmələrə sövq ediləcəkdi. Bu dəyişikliklər nəticəsində İstanbulda yaşayan 77735 ermənidən 2435-i həbs olundu, dəstə başçıları hərbi məhkəmələrə çıxarıldı.

24 aprel 1915-ci ildə erməni hərəkatına rəhbərlik edən 600 nəfər erməni yazıçı, şair, jurnalist, siyasətçi, həkim, vəkil, hüquqşünas, müəllim, alim və ruhaninin həbs edilməsi erməni millətçi ekstremistlərini bərk narahat edirdi. Çünki bu şəxslərin uzun müddət həbsdə saxlanılması "erməni məsələsi"nin öz istiqamətini itirməsi və bununla da erməni hərəkatının əsas liderlərinin zərərsizləşdirilməsi ilə nəticələnə bilərdi. Odur ki, həmin tarixdən etibarən ermənilər aprelin 24-nü soyqırımı günü kimi qeyd edirlər.

Fransa və Böyük Britaniya Osmanlı İmperiyasında "Müharibə əsirləri ilə pis rəftar və ermənilərə qarşı qırğınlara görə" təhqiqatlar aparıb, 147 məmur və yüksək rütbəli zabit 1919-1921-ci illərdə Malta adasına sürgün edilib və Böyük Britaniyanın qanunları əsasında onların üzərində mühakimə qurulub. Mühakiməni əsasən İngiltərənin baş prokurorluğu aparıb və Maltadakı Türk məhbuslara aşağıdakı ittihamlar irəli sürlmüşdür:

1. Sülh şərtlərinə tabe olmamaq (Mudros anlaşması bəndlərinə).
2. Bu şərtlərin yerinə yetirilməsinə mane olmaq.
3. İngilis komandirlərinə və zabitlərinə nalayiq hərəkət etmək.
4. Əsirlərə pis münasibət göstərmək.
5. Türkiyədə və Transqafqazda ermənilərə və digər əsillərə zülm etmək.
6. Talançılıqda iştirak etmək, mülkiyyətə ziyan vurmaq və s.
7. Müharibə qanun və qaydalarını başqa hər hansı bir formada pozmaq (3).

Malta sürgünündə olanları günahlandırmaq üçün istifadə olunan əsas mənbə, erməni Patriarxlığının hesabatlarıdır. Patriarxlıq "100 Cinayətkar Türk" adlı bir hesabat vermişdir. Ondan sonra başqa hesabatlar da qələmə almışdır. Ingilislər əvvəl bu hesabatları əsas götürmüşlər. "Türkiyədə ən çox nifrət edilən ingilis" - deyə səciyyələndirilən ingilis tərcüməçisi Ryan ilə İngiltərənin İzmir Baş Konsulu Ser H.Lamb da Patriarxlığının hesabatlarını təsdiq edirlər. Beləliklə, bir ittihamnamə yaradılmışdır. İttihamnamələr, başqa qaynaqlarla da əlavə etmək tələb olunmuşdur. İttihatçı düşməni "Səhər" qəzeti ilə "Renesans" adlı qəzetin hökumət əleyhinə yazıları da bir dəlil olaraq alınmışdır. Bəzi Erməni şahidlərinin ifadələri də ittihamnamələrdə istifadə edilmişdir. Arada bir türk müxbirlər də görünür. Fransa və ermənilərə gizlində xidmət edən dövlət qurumlarında olan donosçular da bir dəlil kimi qəbul olunmuşdur. İngilis zabitlərinin iddiaları da cinayət dəlilləri kimi istifadə edilmişdir.

Konkret 56 nəfərə qarşı isə "Osmanlı Xristianlarına qarşı qırğın törətmək" ittihamı ilə cinayət işi açılır. Daha açığı, bu adamların guya ermənileri öldürmüş və öldürmüş olduğu ittihamı irəli sürülür. Amma bu iddianı təsdiqləyəcək bir cinayət əməli, bir hadisə göstərilməmişdir. Bütün yazılanlar havada qalan, təbliğat xarakteri daşıyan sözlər olduğu üçün məhkəmə tərəfindən ciddi qəbul edilməmişdir.

Qeyd edək ki, 1920-ci ilin avqustunda bağlanmış «Sevr» müqaviləsi özündə uydurma "erməni soyqırımı" ilə bağlı bir neçə maddə ehtiva edirdi. Hətta müqavilənin 230-cu maddəsi Osmanlı hökumətindən bir sıra yüksək rütbəli generalın, siyasətçi və ziyalıların müttəfiq dövlətlərin yaratdıqları Malta Tribunalına təhvil verilməsini tələb edirdi («Sevr» müqaviləsinə 88, 89 və 230-cu maddələrlə ABŞ prezidenti Vudro Vilsonun sərhədlərini müəyyən etdiyi, dənizə çıxışı olan erməni dövləti daxil edilmişdi).

Maltada tutulan məhbuslardan əsas sorğular aşağıdakı şəxslər üzərində aparılırdı:

1. Atif Bəy
2. Müəmmər Bəy
3. Zəkəriyyə Bəy
4. Rza Bəy (Bursa mebusu)

5. Rza Bəy
6. Midhəd Şükrü Bəy
7. Sudi Bəy
8. Şükrü Bəy
9.Tahsin Bəy
10. Tofiq Hadi Müəllim
11. Sabri Bəy
12. Əli İhsan Paşa
13. Memduh Bəy
14. Asım Bəy
15. Xəlil Sezai Bəy
16. Ziya Gökalp
17. Hacı Adil Bəy
18. Xəlil Menteşe
19. Əhməd Ağaoğlu
20. Əhməd Nəsimi Bəy
21. Sabit Bəy
22. İzmitli Rifat Əfəndi
23. Fevzi Bəy
24. Mayor Nevzat Bəy
25. Əhməd Bəy
26. Macit Bəy
27. Mayor Həzm Bəy
28. Midhəd Akif Bəy
29. Fərid Bəy
30. İbrahim Bəy
31. Şükrü Qaya Bəy
32. Hüseyn Cahit Bəy
33. Salah Cimcoz Bəy (4).

Ermənilər və onlara havadlıq edən Fransa, İngiltərə Xarici İşlər Nazirliyindən və Kral Prokurorluğundan Maltadakı məhbus Türklər əleyhinə "hüquqi deyil, siyasi bir qərar verilməsini" istəyirdi. Məqsəd bu qərara saxtakarlıq edilməsi, məhbusların azad olunmaması və ermənilərin "soyqırıma" məruz qalmasını təsdiq etmək idi. Lakin Xarici işlər naziri lord Kerzon və Baş Prokurorluq hüquq çərçivəsi daxilində işlərin aparılacağını bildirdi və heç bir təyziqlə istintaqın qərarının dəyişməsinə razı olmadı (5, s. 3).

Haşiyə: *Britaniyanın Xarici İşlər naziri olan Lord Kerzon sonra çıxışlarının birində deyəcəkdi: "Ermənistan Fransaya verilməlidir, çünki Fransadan başqa heç kim və heç bir formada bu qeyri-adi, iyrənc və çirkin insanlarla iş görmək istəməz. Siz ermənilər 8 yaşında bakirə qız kimi təsəvvür edirsiniz? Siz tamamilə səhv mövqedəsiniz. Ermənilər öz qəddar davranışları ilə nə qədər qaniçən xalq olduqlarını göstərdilər. Dünyanın bu bölgəsində ermənilər, hətta son həftələrdə də bəzi kəslərin sandığı kimi, günahsız quzular kimi davranmamışlardır. Hal-hazırda əlimdə onlar tərəfindən son dərəcə vəhşi və qana susamış tərzdə işlənmiş vəhşiliklərlə bağlı bir çox sənəd var. Unudaq bunu. Şimali Ermənistandakı ermənilərin nə soyqırım, hətta nə də hücum təhlükəsində olduqlarına inanmıram".*

Malta məhkəməsində iştirak edən İngiltərənin İstanbuldakı Baş komissarı ser Rumbold Lord Kerzona göndərdiyi teleqramda yazır: "O, hər bir saxlanılan şəxs barəsində məlumatları xüsusi zərfdə göndərib. Bununla yanaşı, o qeyd edib ki, müttəfiq və neytral dövlətlərlə yanaşı bir çox ölkələrə istintaqa kömək məqsədi ilə müraciət edilib. Hadisələrin baş verdiyi günlərdə

orda olan Amerikalı agentlər və hərbiçilərin də qeydləri üçün Vaşinqtona məktub göndərilib, lakin onlar bir çox sənədləri özlərində saxlayırlar. Ən təəccüblüsü isə erməni kilsəsinin bizim müraciətlərimizə laqeyid qalması, onlarda olan materialların verilməyəcəyini deyib və "prokurorluq özü axtarıb tapsın" cavabın veribdir" (6).

Qeyd edək ki, 31 mart 1921-ci ildə Lord Kerzon Britaniyanın Vaşinqtondakı səfirinə aşağıdakı məzmunda teleqram göndərib:

"Ermənilərin kütləvi qətlində iştirakda ittiham olunan türklər bizim əlimizdədir. Təqsirin sübut edilməsində böyük çətinliklər var. Əgər Birləşmiş Ştatlar hökumətinin əlində məhkəmə istintaqı üçün əhəmiyyətli olan hər hansı sübutlar varsa, xahiş edirəm bizə təcili göndərin» (7).

Vaşinqtondakı Böyük Britaniya səfiri 1921-ci il iyulun 12-sı Amerikada apardığı araşadırmalardan sonra əldə etdiyi məlumatlarla bağlı Lord Kerzona yazmışdır: "Əlahəzrət, Sizin Maltada mühakimə edilən məhbus Türklərlə əlaqədar olaraq, iş yoldaşlarımdan biri dünən, 12 iyul günü, Amerikan Xarici İşlər Nazirliyinə gedib. Ermənistanda edilən zülmlərlə bağlı Amerika konsullarının hesabatlarının nəzərdən keçirməsinə icazə verilib. Bu hesabatlar Əlahəzrət Hökumətinin məqsədinə ən çox yararlı olması üçün incələnmişdir. Təəssüflə çatdırım ki, bu sənədlərin içində mühakimə olunmaq üçün Maltada həbsdə olan Türklər əleyhinə dəlil kimi istifadə oluna biləcək heç bir şey yoxdur. Nəzərdən keçirilən hesabatlarda, sözügedən Türk əməkdaşlarından yalnız iki nəfərin Sabit Bəy ilə Süleyman Faiq Paşanın adları var, bunlar haqqında yazılanlar da hesabatları qələmə alanların şəxsi düşüncələrini aşmır və cinayət dəlili ola biləcək heç bir konkret fakt göstərilmir.

Onu da əlavə etməklə iftixar edirəm ki, Amerikanın Dövlət rəsmiləri çıxış zamanı, verəcəkləri məlumatların heç birinin bir hüquq məhkəməsi qarşısında istifadə edilməməsi arzusunda olmuşlar. Bu baxımdan və Amerika rəsmilərinin əlindəki sənədlərdə heç bir şəkildə Türklər əleyhinə dəlil tapa bilmədik və qorxuram ki, bu barədə yenidən Amerika Hökumətinə müraciət edilməsindən hər hansı bir şey əldə etmək ümidi yoxdur" (8).

Malta Valisi Mareşal Plumer Londona 12 fevral 1921-ci ildə yazır: "Nazirlərə, deputatlara və başqa şəxslərə ünvanladıqları ərizələrinin cavabsız qaldığından və özlərini müdafiə imkanlarının özlərinə tanınmamasından şikayətlənirlər. Əllərindəki dəlillərin xülasəsini, ya da heç olmasa nə ilə ittiham etdiklərinin özlərinə bildirilməsini istəyirlər ki, bunlara bəlkə də qarşılıq verəcəklər. Sülh sazişləri ratifikasiya olunmadan əvvəl buraxılan və yurdlarına geri göndərilmiş olan alman, avstriyalı və bulqar müharibə cinayətkarlarının vəziyyətləri öz vəziyyətlərini ziddiyyətli tapırlar. Bu siyasəti dini bir zülm olaraq görürlər və bunun təkcə Yaxın Şərqdə deyil, bütün İslam dünyasında da əks-sədaları olacağını irəli sürürlər.

Bu halda bunları təklif edirəm:

- Bəzi məhbusların sərbəst buraxılması yolundakı Ali Komissarlığın 9 Dekabr 1920-ci il tövsiyələrinin dərhal həyata keçirilməsi.
- "A" sinifində deportasiyaların hansı cinayətlə mühakimə olunacaqlarını və dəlillərin xülasənin, uyğundursa, özlərinə bildirilməsi.
- Bu əsirlərin nə vaxt mühakimə olunacaqlarını bildirilməsi".

32 ay davam edən məhkəmədə həmin şəxslərə bəraət verilib və erməni əhalisinə qarşı cinayət törədilməməsi qənaətinə gəlinib. 29 iyul 1921-ci ildə belə qərar verilib:

"Bu günə qədər, məhbuslar əleyhinə keçirilmiş ittihamların doğruluğuna şahidlik edən ciddi bir şəxs tapılmamışdır. Müttəhimlərin əleyhinə ittihamların Ədliyyə Məhkəməsi tərəfindən yetərli hüquqi fakt kimi qəbul edilməsi imkansız görünür. İngilis Kral Baş prokurorluğu "kütləvi öldürmə" iddiası ilə bağlı hüquq məhkəməsində yeni dava açmağa kifayət qədər sübut olmadığına, əldə olan sənəd və məlumatların ittihamlar üçün hüquq

məhkəməsində sübut dəyəri olmadığı, ona görə də kimsənin bir hüquq məhkəməsi qarşısında cəzalandırılmasının mümkün olmayacağını qərara alır".

Maltaya sürgün edilib ittiham edilənlər, nəhayət, Atatürk sayəsində xilas olmuşlar. Sürgün illəri onlar üçün bir xatirə olaraq qalır. Bir-iki il ailələrindən ayrı, dövlət işlərindən uzaq, şəxsi azadlıqdan məhrum olaraq keçirmişlər, çətinlik çəkmişlər. Onlar sonra İngiltərə hökumətinə qarşı təzminat davası açsalar da, nəticə əldə etməmişlər.

Nəticə. Son olaraq bildirək ki, ermənilər bir zaman ayaqda saxlayan kilsə idisə, 1915-ci ildən sonra onlar bu "soyqırımı" uydurdular və özlərinə ikinci ayaq yaratdılar. Əgər "soyqırım" ideologiyası aradan götürülərsə, o zaman Ermənistan dövləti də olmaya bilər.

"Soyqırımı" bütün ermənilər birləşdirən bir ideologiya halına gəlib. Ölkə daxilində didişən qüvvələr, düşmənçilik edənlər bu məsələdə birləşirlər. "Soyqırım" onların alver predmetinə çevrilib. "Soyqırım əfsanəsi" ermənilərin erməni olmalarının əsas dəlili sayılmaqla, ermənilər bir arada saxlamaq üçün yeganə vasitədir.

Onlar gözəl başa düşürlər ki, Ermənistanda yaşayan bir ovuc erməni ümumi işin davamçısı ola bilməz. Bu səbəbdən də diasporda ermənilər ortaq əzablar və ortaq uğurlar xülyası ilə birləşdirməyə çalışaraq, "soyqırım əfsanəsindən" məharətlə istifadə edirlər.

Açar sözlər: soyqrım, prokurorluq, Malta Tribunalı, Böyük Britaniya, Fransa.

İstifadə olunmuş ədəbiyyat

1. Karakoç Ercan. "Osmanlı Hariciyesinde Bir Ermeni Nazır: Gabriyel Noradunkyan Efendi", Uluslararası İlişkiler, Cilt 7, Sayı 25 (Bahar 2010).
2. ALBÜM-1916 - Ermeni Amal ve Harekat-ı İhtilaliyesi Tesavir ve Vesaik Albüm №1. Osmanlıca-Fransızca-Almanca-İngilizce izahatlı, Yayınevi: Matbaa-i Amire-Ahmed İhsan ve Şürekası, Sayfa sayısı: 64, Basım Tarihi 1916.
3. British Archives: PRO-F.0. 371/4172 Private and confidential: February 28, 1919.
4. British Archives: PRO-F.0. 371/ 4173/47913
5. PRO-F.0. 371/ 6502/ E. 5845: Procurator General Department to Foreign Office. May 20, 1921.
6. PRO-F.0. 371/ 6500/ E. 3552 Rumbold to Curzon, № 268, March 12, 1921 və PRO-F.0. 371/ 6499/ E. 3197 Rumbold to Curzon, Telegram № 178, March 13, 1921.
7. BritishArchives. PRO-F. 0. 371/6500/ E.3552, Curzon to Geddes Telegram №176, March 31, 1921.
8. RO-FO 371/6504/E.8515: Craigie, British Charge d' Afaires at Washington, to lord Curzon, № 722 of July 13, 1921.

Заур АЛИЕВ

ИСК АРМЯН В СВЯЗИ С 24 АПРЕЛЯ: ПОЛИТИЧЕСКОЕ И ПРАВОВОЕ ЗНАЧЕНИЕ РЕШЕНИЯ МАЛЬТИЙСКОГО ТРИБУНАЛА

Резюме

В статье отмечается, что согласно «восточному вопросу», выдвинутому великими державами в начале прошлого века Турецкое государство должно было распасться. Для осуществления этого замысла было решено использовать армян, проживающих на его территории. Во время русско-турецкой войны местные армяне создали 180-тысячные

военизированные отряды, которые наносили тяжелые удары в спину туркам. Чтобы приостановить действия армян, 24 апреля 1915 года эти отряды были разоружены турками, а их лидеры арестованы. После поражения Турции в первой мировой войне под давлением Франции и Великобритании было арестовано и выслано на Мальту 147 турецких государственных чиновников высокого ранга, которых обвинили в геноциде армян 24 апреля. Список обвиняемых был передан Франции и Великобритании армянским Патриаршеством в Турции. Продолжавшийся 32 месяца Мальтийский трибунал признал «армянский геноцид» фальсификацией и оправдал турецких чиновников, содержавшихся под стражей более двух лет, не признав их виновность. Однако никто не попросил у них извинения и им не была выплачена компенсация.

Ключевые слова: геноцид, прокуратура, Мальтийский трибунал, Великобритания, Франция.

Zaur ALIYEV

THE POLITICAL AND LEGAL SIGNIFICANCE OF THE DECISION OF MALTA TRIBUNAL AGAINST THE ACTION OF THE ARMENIANS IN CONNECTION WITH APRIL 24

Summary

In the article it is noted that at the beginning of the last century, in conformity with the «Eastern question» the Turkish State was to be splitted. To realize this intention there was adopted decision to take advantage of the Armenians living on this territory. During Russia-Turkey war the local Armenians created the 180-thousandth milititary detachments which delivered the heavy blows in the back of the Turks. In order to halt these actions of the Armenians on April 24, 1915 these detachments were disarmed and their leaders were arrested. After defeat of Turkey in World War I under pressure of France and Great Britain there were arrested and exiled to Malta 147 officials of highest rank, been convinced of the Armenian Genocide on April 24. The list of these accused was submitted to France and Great Britain by the Armenian Partriarchate in Turkey. Malta Tribunal, being continued for 32 months, acknowledged «the Armenian Genocide» a falsification and discharged the Turkish officials been under arrest for more than two years without being pleaded guilty. However, nobody apologized to them and they were not indemnified compensation.

Keywords: genocide, prosecutor‘s, Malta Tribunal, Great Britain, France.

UOT 316.16

Sənan FƏRƏCOV
doktorant, AMEA FHİ

MÜASİR CƏMİYYƏTDƏ MULTİKULTURALİZM FENOMENİ: NƏZƏRİ YANAŞMALAR*

Müasir cəmiyyət qloballaşma şəraitində inkişaf edən və vahid dünya məkanında mövcud olan müxtəlif mədəniyyətlər məcmusundan ibarətdir. Bəşəriyyət tədricən insan tarixinin və taleyinin ümumiliyini anlamağa başlayır, sosial reallıqların anlaşılmasına dair bir çox yanaşmalar da baş verən ictimai dəyişikliklərə uyğun olaraq transformasiyaya məruz qalır. Müvafiq olaraq müxtəlif mədəniyyətlərin qarşılıqlı təsiri, həmçinin onların mürəkkəb qarşılıqlı münasibətlər sistemi biri-biri ilə bağlı və qarşılıqlı asılı müasir dünyada vacib rol oynayır. Məhz müxtəlif mədəniyyətlərin müasir dünyaya xas olan qarşılıqlı təsiri, həmçinin onların mürəkkəb qarşılıqlı münasibətlər sistemi multikulturalizm probleminin aktuallaşmasına gətirib çıxarır.

Qeyd edilməlidir ki, "multikulturalizm" termini ilə gündəmə gələn fenomen hələ qədim dövrlərdən mövcud olmuşdur. Lakin bu terminin özü tarixi baxımdan bu yaxınlarda meydana gəlmişdir. Hesab edilir ki, "multikulturalizm" termini 1960-cı illərin ikinci yarısında və 1970-ci illərin əvvəllərində Kanada, ABŞ, Avstraliyanın və bir sıra Avropa ölkələrinin siyasi leksikonunda meydana çıxmışdır. Bu yanaşmalara görə, bu termin 1990-cı illərdən əvvəl elmi dövriyyədə öz təsdiqini tapıb. Belə ki, amerikalı sosioloq və Amerika neokonservatizm məktəbinin əsas banilərindən biri olan Natan Qleyzerin öz tədqiqatlarında göstərdiyi məlumatlara əsasən, ABŞ-da əsas qəzetlərdə multikulturalizmə 1988-ci ilə qədər istinadlar olmamışdır, 1989-cu ildə cəmi 33, 1990-cı ildə 100, 1991-ci ildə 600, 1992-ci ildə 900, 1993-cü ildə 1200 və 1994-cü ildə 1500 müraciət olmuşdur. Bu məlumatlara əsasən, multikulturalizmə dair istinadların sonradan azalması müşahidə edilir və 1995-ci ildə isə multikulturalizmə 1200 istinad edilmişdir (16, s.7).

Natan Qleyzer multikulturalizmə istinadların azalmasını onun artıq günün aktual mövzusu olmaması və an azı Amerika təhsil sistemində gündəlik reallığa çevrilməsi ilə izah edir. Qeyd edilməlidir ki, bu rəqəmlər Qleyzer tərəfindən ən böyük xəbərlər və işgüzar məlumatlar bazası olan, həmçinin, eyni zamanda çoxsaylı informasiya mənbələrinə əsasən xarici KİV-lərin tez və effektiv monitorinqinə imkan verən *NEXIS*-dən gətirilmişdir. Qleyzer həmçinin qeyd edirdi ki, "multikulturalizm" ifadəsi ingilis dilinin Oksford lüğətində yox idi və yalnız 1989-cu ildə onun yenilənmiş nəşrinə daxil edilmişdi (16, s.7).

Qeyd etmək lazımdır ki, multikulturalizm XX əsrin doxsanıncı illərində geniş siyasi və ictimai məşhurluq qazandı. XXI yüzilliyin əvvəllərində multikulturalizmin nəzəri əsaslarına və praktiki tətbiqinə dair müzakirələr sürətlə yayılmağa başladı. Bu dövrdə eyni zamanda multikulturalizmə qarşı meyillər artan sürətlə genişlənməyə başladı. Bu dövrdə "multikulturalizm" anlayışının özü də müxtəlif məna və kontekstlərdə istifadə edilməyə başladı. Hazırda bəzən "multikulturalizm" ifadəsinin mədəni müxtəliflik əlamətləri olan bütün mümkün olan obyektlərə tətbiq edilməsini müşahidə etmək olur. Belə ki. bu əlamətlər praktiki olaraq keçmiş və müasir zamanda mövcud olan bütün insani və ictimai reallıqlarda asanlıqla tapmaq mümkündür.

* Məqalə siyasi e.ü.e.d. Ramiz Sevdimalıyev tərəfindən çapa məsləhət görülüb.

Müasir zamanda "multikulturalizm" anlayışı, Q.Törnbornə görə, konkret olaraq siyasi və empirik, həmçinin fəlsəfi kontekstlərdə istifadə edilir. "Multikulturalizm" anlayışının siyasi kontekstə istifadə edilməsi siyasətə və siyasi institutlara aiddir, onun empirik konteksti isə müxtəlif cəmiyyətləri təsvir edir. Bununla belə bu terminologiya multikulturalizmin həm tərəfdarları, həm də əlehdarları tərəfindən istifadə edilir (11).

Həmçinin qeyd etmək lazımdır ki, üç onillik ərzində multikulturalizm problemi elmi müzakirələr predmeti olmuşdur və bütün bu müddət ərzində multikulturalizmin tarixi və sosial təbiətinin qiymətləndirilməsinə, o cümlədən multikultural cəmiyyətlərin inkişafının proqnozlaşdırılmasına geniş müxtəlif yaxınlaşmalar özünü biruzə vermişdir. Bu tədqiqatda elmi ədəbiyyatda öz təsdiqini tapmış konseptual yaxınlaşmalar təhlil edilir.

İndiyədək multikulturalizm fenomeni haqqında müxtəlif təsəvvürlər formalaşmışdır və həmin vəziyyət, öz növbəsində, bu anlayışın çoxsaylı tərifl ərinin meydana gəlməsinə səbəb olmuşdur. Ona görə də hazırda multikulturalizmin qiymətləndirilməsi spektri çox genişdir və o, konservativ hücumlardan güclü liberal yaxınlaşma və nəzəriyyələrədək dəyişir. Görünür, amerikalı publisist Riçard Bernstayn məhz buna görə multikulturalizmi "sübhəsiz qeyri-müəyyən anlayışdır" adlandırır (14, s.4).

Digər tərəfdən, bir sıra tədqiqatçılar, "multikulturalizm" anlayışını müxtəlif mənalarda işlədir və ona müvafiq olaraq xüsusi yük verirlər. H.Qlazer multikulturalizmi "gedişatında, necə deyərlər, vahid Amerika mədəniyyətinə əks olan çoxlu mədəniyyətləri aşkar edən müxtəlif inkişaf proseslərinin kompleksi" kimi müəyyən edir (15, s.103). Liberallar məktəbinin nümayəndəsi tarixçi Artur Şlezinqer, öz növbəsində, "multikulturalizm" anlayışını ideologiya kimi izah edir. Şlezinqer hesab edir ki, bu ideologiyanın mahiyyəti ictimai ideal olan "assimilyasiyanı fraqmentasiya ilə, inteqrasiyanı isə separatizmlə" əvəz etməkdən ibarətdir (20, s.16-17).

Üçüncü tərəfdən, Amerika konservatorları multikulturalizmi Avropa və Amerika mədəniyyətlərinə hüçum kimi qiymətləndirirlər və onu xrisitian mənəviyyatı, hüquq, ailə və s. kimi əsas dəyərlərə təhdid hesab edirlər. A.Şmidt belə hesab edir ki, multikulturalizm həll etmək əvəzinə daha çox problem yaradacaq, tez və ya gec istənilən multikulturalist arzu Balkan dəhşəti ilə qurtaracaq" (21).

Digər tədqiqatçılar multikulturalizmi solçu siyasi ideologiyaya aid edirlər. Onlar hesab edirlər ki, multikulturalizm tərəfdarları Amerikanı sevmirlər və "tarixin multikulturalist revizionistləri"dirlər. Maykl Lində görə, multikulturalizm solçu qüvvələrin ideologiyası olaraq Amerikanın "millətlərin milləti, ümumi hökuməti olan millətlərin və mədəniyyətlərin federasiyası" olması postulatından çıxış edir (19). Digər tərəfdən, rus əsilli Amerika tədqiqatçısı B.Papamonov hesab edir ki, multikulturalizm (universal) norma kimi mədəniyyətin olmamasıdır (10, s.6).

Tədqiqatçıların digər bir qrupu isə multikulturalizmə klassik yanaşmanın tərəfdarlarıdırları və bu yanaşmaya uyğun olaraq onu "assimilyasiyasız inteqrasiya" kimi xarakterizə edirlər. Ç.Teylora fikrincə, multikulturalizm özünü təsdiq etmə formasıdır, individlərin tək tanınma uğrunda mübarizəsi deyil, həm də orijinallığının, özünəməxsusluğunun və bərabər əhəmiyyətliliyinin tanınması tələbatıdır. Bu yaxınlaşmanın mahiyyəti toleranlıq və pluralizmin universal prinsiplərinin öz təsdiqini tapmasından ibarətdir (22, s.42).

U.Kimlika hesab edir ki, multikulturalizm individual və kollektiv fərqlərin ictimai və özəl ifadə olunması imkanı"nı saxlanılmaqla milli inteqrasiyanı təmin edəcək "ümumi sosial dilin" axtarışına əsaslanan "millət quruculuğu"na (*Nation-building*) cavabdır (5), (18).

Ç.Kukatasın əsərlərində multikulturalizm geniş şəkildə müasir dünyada ümumbəşəri adətlərin eyniliyi (identikliyi) ilə bağlı olan universal hadisə kimi təqdim edilir. O, iddia edir ki, cəmiyyət mədəni rəngarəngliyə müxtəlif cür reaksiya verə bilər və həmişə bu reaksiya

multikulturalizm ideyalarının tanınmsaı olmayacaq. Ç.Kukatas mədəniyyətlərin toqquşması paradiqmasına cəmiyyətin belə reaksiyasının beş variantını məyyən edir: izolyasionizm, assimilyatorluq, yumşaq multikulturalizm, sərt multikulturalizm və aparteid (17).

Ç.Kukatasa görə izolyasionizm cəmiyyəti başqalarını, əsasən də yerli əhalidən mədəniyyətinə görə fərqlənənləri ölkəyə gəlmək və orada yaşamaq hüququndan məhrum etməklə mədəni müxtəlifliyin meydana gəlməsinin qarşısını almaq cəhdlərindən ibarət reaksiyasıdır. Belə siyasət XX əsrin əvvəllərində Avstraliyada həyata keçirilirdi. Bu ölkənin parlamenti 1901-ci ildə immiqrasiya haqqında qanun qəbul etdi və bu qanuna əsasən "Avstraliya ağlar üçün" siyasəti həyata keçirməyə başladı. Avstraliya hakimiyyətinin bu siyasətinin ilkin məqsədi ölkəyə gələn miqrantların yerli əhaliyə, əsasən də ingilis-kelt əhaliyə assimilyasiyasını təmin etməkdən ibarət idi. Daimi yaşamaq üçün ölkəyə gələnlər arasında britaniyalılara üstünlük verilirdi, ikinci yerdə isə Şimali avropalılar dururdu, Cənubi avropalıların ölkəyə gəlməsi daha az arzuolunan hesab edilirdi, asiyalılar və qeyri-ağ irqin nümayəndələri tamamilə arzuolunmaz miqrantlar sayılırdılar. Arzuolunan miqrantlar kateqoriyasına aid olan miqrantlara Avstraliyaya köçüb-gəlmək üçün maliyyə yardımları göstərilirdi. Yalnız 1960-cı illərdən bu məhdudiyyətlər aradan qaldırılmağa başlanıldı və rəsmi olaraq 1973-cü ildə bu siyasətə son qoyuldu (17).

Qeyd edilməlidir ki, cəmiyyət və onun rəhbərləri müxtəlif səbəblərə görə izolyasionizm siyasəti həyata keçirə bilər. Bir sıra hallarda bu cəmiyyətin bəzi təbəqələrinin özlərinin ənənəvi üstünlükləri və imtiyazlı mövqelərini qoruyub saxlamaqdan ibarət olmuşdur. Bununla belə, izolyasionizm siyasətinin əsas səbəb cəmiyyətin mədəni tərkibinin dəyişməsi qarşısında qorxudan ibarətdir.

Assimilyatorluq izolyasionizmin alternativlərindən biri olaraq ölkəyə miqrasiyaya imkan verir, lakin digərlərinin qəbul edən cəmiyyətin mədəniyyətinə təsirini məhdudlaşdırmaq məqsədilə assimilyasiya siyasəti həyata keçirməyi nəzərdə tutur. Bu yaxınlaşma immiqrantlara mədəni təsirlə bağlıdır, lakin o, yerli xalqlara da tətbiq oluna bilər. Belə ki, «Avstraliya ağlar üçün» siyasəti həyata keçirilən dövrdə aborigenlərin assimilyasiya edilməsi, onlara Avropa mədəniyyətini, əsasən də ingilis-kelt cəmiyyətinin mədəniyyətini aşılamaq zəruri hesab edilirdi. Nəticədə XX əsrin müəyyən dövrü ərzində Avstraliyanın sosial siyasəti ölkəyə yeni gəlmişləri və yerli əhalini konkret mədəni standartlara uyğunlaşdırmanı təmin etməklə eyni zamanda iki istiqamətdə assimilyatorluq məqsədi daşıyırdı (17).

Ç.Kukatas yumşaq multikulturalizmin mahiyyətini aşağıdakı kimi izah edir və yazır ki, asssimilyasiyanı güc tətbiq etməklə qəbul etdirmək çətin olsa da onun qarşısını almaq da asan deyil. Kifayət qədər azadlığa malik olan istənilən cəmiyyətdə insanlar ünsiyyətdə olacaqlar və biri-birini təqlid edəcəklər. Eyni davranış formalarını aradan qaldırmaq çətin olduğu kimi bəzi insanların öz xüsusi həyat yolu ilə getmək cəhdələrinin qarşısını almaq çətindir. Məqsədəuyğunluğu və sağlam düşüncə baxımından istənilən cəmiyyətdə ölkəyə yeni gələnlər və azlıqlar bir qayda olaraq üstünlük təşkil edən normalara riayət edəcəklər, belə ki, bu onların həyatını yüngülləşdirir. Əhalinin çoxluğunun danışdığı dili öyrənmək digərlərinin - azlıqların dillərini öyrənməkdən daha asan və məqsədəuyğundur. Hər hansı ortaq bir şeyə malik olduğunuz insanla dostluq əlaqəsi qurmaq daha asandır. Nəhayət, sizin həyat tərzinizi bölüşən bir qrup insanın kompaniyası ilə qapanmaqdansa, geniş ünsiyyət dairəsinə və dostluq əlaqələrinə malik olmaq daha yaxşıdır (17).

Sərt multikulturalizmin mahiyyətidə Ç.Kukatas tərəfindən müəyyən edilib. Yumşaq multikultural siyasətin xüsusiyyətlərindən biri ondan ibarətdir ki, bu siyasət çərçivəsində bəzi hallarda assimilyasiya mümkündür və bu əsasən insanların istəyi ilə deyil, onların başqa seçimlərinin olmaması səbəbindən baş verir. Nəticədə mədəni azlıqların nümayəndələri ya həddən artıq müxtəlif çətinliklər səbəbindən cəmiyyətdə özlərinin xüsusi identikliyini

qoruyub saxlaya bilmirlər, ya da özlərinin mədəni inancları və adət-ənənələri səbəbindən cəmiyyətin həyatında tam iştirak edə bilmirlər. Sərt multikultural yaxınlaşma isə ondan ibarətdir ki, cəmiyyət belə insanların nəinki ictimai həyatda iştirakının tam təmin edilməsi, hətta onların öz xüsusi identikliyini qorunub-saxlanılmaq üçün maksimal imkanlarla təmin edilməsi istiqamətində aktiv fəaliyyət göstərməlidir. Bu yanaşmaya əsasən, müxtəlifliyə və rəngarəngliyə tolerant münasibət bəslənilməsi kifayət deyil, onları zəruri olduqda həm maliyyə vəsaitləri, həm də mədəni azlıqlara xüsusi hüquqların verilməsi vasitəsilə dəstəkləmək, təqlid etmək və möhkəmləndirmək lazımdır (17).

Ç.Kukatas hesab edir ki, yumşaq və sərt multikulturalizm arasında fərq onların dərəcəsindən ibarətdir. Onların hər ikisinin kökləri liberal siyasi nəzəriyyə ilə bağlıdır və sərt multikulturalizm müasir liberalizmin ideyalarını, yumşaq multikulturalizm isə klassik liberalizm ideyalarını əks etdirir (17).

Ç.Kukatas apardığı təhlilin tam olması üçün cəmiyyətin mədəni rəngarəngliyinə reaksiyasının daha bir variantı olan apartedi də nəzərdən keçirir. Aparteid mədəni azlıqların ölkədə yaşamalarını qadağan etmir (bir qayda olaraq bu mümkün deyil), lakin onların assimilyasiyasını tam qadağan edir. Aparteid rejimə misal kimi, cəmiyyətin həyatında hərtərəfli iştirak hüququndan məhrum edilənlərin əhalinin çoxluğunu təşkil etməsinə baxmayaraq, Cənubi Afrikada ağ azlıqların hakimiyyəti dövrünü göstərmək olar (17).

Ç.Kukatas cəmiyyətin mədəni rəngarəngliyə göstərilən reaksiyalar arasından yumşaq multikulturalizmi seçir. O, hesab edir ki, məhz yumşaq multikulturalizm cəmiyyətin ümumi mədəni məkanının dəstəkləməsinə yönəlmişdir və öz lokal özünəməxsusluğunu saxlamağa çalışan müxtəlif mədəniyyətlərə bərabər münasibət bəsləyir (6).

Digər tərəfdən, M.Vevyerka hesab edir ki, multikulturalizm özündə mədəni tanınmaq tələbi ilə birlikdə sosial qeyri-bərabərliklə mübarizəni birləşdirir. O, qeyd edir ki, multikulturalizm dar mənada ictimai siyasət olaraq, mədəni fərqliliyin təmin edilməsi və onların ictimai sferada tanınması üzrə institutların, hüquqi və dövlət fəaliyyətinin əhəmiyyətli hissəsidir (2, s.24).

Qeyd etmək lazımdır ki, hazırda multikulturalizm kontekstində müxtəlif mədəniyyət-lərin yanaşı mövcudluğu probleminin həlli ilə bağlı iki istiqamətdə müzakirələr aparılır. Birinci istiqamət vahid keçmişin, mədəniyyətlərin ümumi əsaslarının axtarışından, ikinci istiqamət isə başqasının avtonomluğunun və suverenliyinin tanınmasından ibarətdir. Y.Haber-mas başqasının avtonomluğunun və suverenliyinin tanınması istiqamətinin tərəfdarı kimi çıxış edir və öz əsərlərində başqası ilə yanaşı mövcudluq problemini araşdırır. O, hesab edir ki, müasir multikultural cəmiyyətdə kommunikasiya birləşdirici funksiyanı yerinə yetirməlidir. Y.Habermasın "insan ləyaqəti" idealı dəyişə biləcək sərbəst kommunikasiyanı özünün idealı hesab edir (13, ss.107, 169-171).

S.Jijekə görə, multikulturalizm kosmopolit dünya görüşünün özünü təzahürü və mədəni ekspansiyanın formasıdır. Məsələn, S.Jijek hesab edir ki, multikulturalizmin mahiyyəti tolerantlığın forması kimi təqdim edilən inteqrasiya anlayışı altında son nəticədə hakimlik edən identiklik formasına uyğunlaşmanı nəzərdə tutan assimilyasiya haqqında təsəvvürlərin gizlədilməsi ilə ictimai idealların dəyişdirilməsindən ibarətdir (4, s.22).

Son dövrlərdə SSRİ-nin dağılması və milli siyasətin sovet modelinin iflasa uğraması etnik zəmində münaqişələrin artması ilə müşayiət edilirdi. Yeni müstəqil dövlətlərin meydana gəlməsi və onlar tərəfindən demokratik inkişaf yolunun seçilməsinin bəyan edilməsi etniklərarası münasibətlərin yeni variantlarının axtarışının zəruriliyini şərtləndirdi. Multikulturalizm belə variantlardan biri oldu. Beləliklə, hesab etmək olar ki, postsovet məkanında multikulturalizmin araşdırılması 1990-cı illərdə formalaşmağa başladı. Azərbaycan alimi İ.Məmmədzadə bu məqama diqqət yetirərək yazır: "Müəyyən dərəcədə

multikulturalizm problematikasının bütün aktuallığının dərki bizim üçün onunla izah oluna bilər ki, onun dövlətlərarası münasibətlərdəki kəskinliyi ilə biz hələ XX əsrin 80-ci illərində, keçmiş Sovet İttifaqında millətlərarası münaqişələrin millətlərarası münasibətlərdə hər şeyin qaydada olmadığını və beynəlmillətçiliyin bu "qaydasızlığın" həlli üçün kifayət olmadığı aşkarlananda rastlaşdıq" (8, s.108).

Multikulturalizm üzrə postsovet məkanı mütəxəssisləri arasında A.İ.Kuropyatnikin tədqiqatlarını göstərmək olar. O, multikulturalizmi, hər şeydən əvvəl polietnik, polimədəni milli cəmiyyətlərin mədəni həyatının müxtəlif formalarının dinc mövcudluğu prinsipləri əsasında sosial həmrəylik və sabitlik strategiyasının realizə edilməsini nəzərdə tutan inteqrasiya ideologiyasının xüsusi forması hesab edir (7).

V.S.Malaxov və Q.Dmitriyev multikulturalizmi hakim mədəniyyətin olmadığı çoxmədəniyyətli təsisat kimi baxırlar. Onlar hesab edirlər ki, belə çoxmədəniyyətli təsisat "mədəni fərqliliyə əsaslanan rasizmə, xurafata, ksenofobiyaya, qeyri-obyektivliyə, etnosentrizmə, nifrətə qarşıdurmaq vasitəsi"dir (3, s.34).

V.Fedotova mədəni müxtəlifliyə təbii və qaçılmaz hadisə kimi baxır. O, hesab edir ki, multikulturalizm tək bu müxtəlifliyin təsdiq edilməsi deyil, o, həm də mədəniyyətlərin bu müxtəlifliyinin ayırıcı xətlərinin dəstəklənməsinə yönəlmiş strategiyadır (12, s.450).

A.A.Borisov öz növbəsində multikulturalizmi hər şeydən əvvəl bu və ya digər ölkənin mədəni homogenliyi üzərində mədəni müxtəlifliyin primatını təbliğ edən ideologiya kimi müəyyənləşdirir. O, hesab edir ki, multikulturalizmə, bir tərəfdən, etnik dəyərlər üzərində ümummili dəyərlər formalaşdıran ideologiya və siyasət kimi, digər tərəfdən isə "çoxmədəniyyətliliyin" sinonimi olan və mədəniyyətə ümummili hərəkat kimi baxılmasına qarşı çıxan etnik fraqmentasiya fenomeni kimi baxmaq lazımdır (1, s.9). Burada multikulturalizmə, bir tərəfdən, ideologiya və siyasət kimi baxılması, digər tərəfdən isə cəmiyyətin mədəni çoxtərkibliliyi arasında mövcud olan uyğunsuzluq açıq-aşkar görünür.

E.Pain multikulturalizm elmi dövriyyəyə yalnız 1980-ci illərin sonunda daxil olan və öz cavanlığı səbəbindən hələlik ciddi nəzəri əsasları olmayan yeni konsepsiya adlandırır. O, hesab edir ki, son zamanlar dünyanın bir çox ölkələrində hədsiz dərəcədə geniş istifadə edilməsinə baxmayaraq "multikulturalizm" termininin özü olduqca qeyri-müəyyəndir. E.Pain yazır ki, "...bu konseptin bütün nəzəri qeyri-müəyyənliyinə baxmayaraq onun populyarlığı ölkənin (regionun, bütün dünyanın) mədəni rəngarəngliyini həqiqi dəyər kimi tanıyan və mədəniyyətlərin (ö cümlədən, etnik mədəniyyətlərin) "ən aşağı – ali", "əsas – ikinci dərəcəli" və ya "dövlətyaradıcı – digərləri" prinsipinə görə bölünməsinin prinsipial olaraq qeyri-mümkünlüyü (yolverilməzliyi) kimi əsas postulatda öz əksini tapıb" (9, s.132).

Nəhayət, multikulturalizmə dair müxtəlif nəzəri yanaşmalara dair araşdırmaları yekunlaşdıraraq iki aspekti ayırmaq olar. Birincisi, multikulturalizm bu və ya digər cəmiyyətin polietnikliyinin və çoxmədəniyyətliliyinin dərk edilməsi kimi qəbul edilən sosiomədəni fenomendir. İkincisi, multikulturalizm mədəni plüralizm anlayışının sinonimi kimi qəbul edilir. Bu halda "multikulturalizm" anlayışına vahid mədəniyyətin əksinə olaraq müxtəlif etnomədəni tərkib hissələrinin olması mənası verilir.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, müasir cəmiyyətin multikulturalizmi reallığın mütləq, zəruri və dönməz fenomenidir. Eyni zamanda bir sıra nəzəri yanaşmaların təhlili göstərir ki, "multikulturalizm" anlayışı çoxsaylı nəzəri baxışları və müxtəlif praktiki realizə metodlarını özündə cəmləşdirir. Bununla bərabər multikulturalizm anlayışının bütün mürəkkəbliyinə və müxtəlif tərkibliyinə baxmayaraq onun mahiyyəti cəmiyyət tərəfindən mədəni müxtəlifliliyin tanınmasından və qəbul edilməsindən ibarətdir.

Açar sözlər: multikulturalizm, mədəniyyət, cəmiyyət, sosiomədəni fenomen, tolerantlıq, pluralizm, yumşaq və sərt multikulturalizm, yanaşmalar.

İstifadə olunmuş ədəbiyyat

1. Борисов А.А. Мультикультурализм: Американский опыт и Россия /Мультикультурализм и этнокультурные процессы в меняющемся мире. М.: Изд-во Аспект-пресс, 2003.

2. Вевьерка М. Формирование различий //Социологические исследования, 2005, №8.

3. Дмитриев Г. Д. Многокультурное образование. М.: Прогресс, 1999, 208 с.

4. Жижек С. Интерпассивность, или как наслаждаться посредством Другого. Желание, влечение. Мультикультурализм. СПб.: Алетейя, 2005, 156 с.

5. Кимлика У. Современная политическая философия. Введение /Пер.с англ.: С.Моисеев. М. : ГУ ВШЭ, 2010, 589 с.

6. Кукатас Ч. Теоретические основы мультикультурализма //[http:/dialogsorg.ua/ua/issue_full.php?m_id=10227]

7. Куропятник А. И. Проблема идентичности в мультикультуральных и полиэтнических обществах // [http://sib ident.narod.ru/text/kuropyatnik2.doc].

8. Мамедзаде И. Еще раз о философии. Современные подходы, тенденции, перспективы. Баку: Текнур, 2012, 216 с. (на азерб.яз.).

9. Паин Э.А. Между империей и нацией. Модернистский проект и его традиционалистская альтернатива в национальной политике России. М.: Новое издательство, 2004, 248 с.

10. Парамонов Б.М. Конец стиля. М.: Аграф, 1997, 464 с.

11. Терборн Г. Мультикультурные общества /Социологическое обозрение. Т.1, №1, 2001.

12. Федотова В.Г. Хорошее общество. М.: Прогресс-Традиция, 2005, 544 с.

13. Хабермас Ю. Вовлечение другого. Очерки политической теории. СПб.: Наука, 2001, 419 с.

14. Bernstein R. Dictatorship of Virtue. Multiculturalism and the Battle for America's Future - N.Y., 1994. 367 p.

15. Glazer H. Multiethnic societies: problems of demographic, religious and cultural diversity //Ethnographic review, 1998, № 6, p. 98-104.

16. Glazer N. We are Multiculturalists Now. Harvard Univ. Press, 1997, 179 p.

17. Kukathas Ch. The liberal archipelago. A theory of diversity and freedom. Oxford: Oxford University Press, 2003, 304 p.

18. Kymlicka W. Multicultural citizenship. Oxford: Clarendon Press, 1995. 280 p.

19. Lind M. The Next American Nation and the Forth American Revolution. N.Y., 1995, 436 p.

20. Schlesinger Arthur M. The Disuniting of America. Reflections on a Multicultural Society. 2nd ed. N.Y.-L., 1992, 55 r.

21. Schmidt A.J. The Menace of Multiculturalism: the Trojan Horse in America. Westport, Connecticut; London: Praeger, 1st edition, 1997, 232 p.

22. Taylor Ch., The politics of recognition /In: Multiculturalism: Examining the politics of recognition. Edited and introduced by Amy Gutmann. Princeton, N.J.: Princeton University Press, 1994, pp. 25–73.

Санан ФАРАДЖЕВ

МУЛЬТИКУЛЬТУРАЛИЗМ – ФЕНОМЕН СОВРЕМЕННОГО ОБЩЕСТВА: ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ

Резюме

В статье изучаются некоторые теоретические подходы к проблеме мультикультурализма. Автор утверждает, что понятие “мультикультурализм” вмещает в себя множество точек зрения и методов реализации на практике. Это сложное и неоднородное понятие, суть которого состоит в признании обществом культурного многообразия.

Ключевые слова: мультикультурализм, культура, общество, социокультурный феномен, толерантство, плюрализм, мягкий и жесткий мультикультурализм, подходы.

Sanan FARAJOV

MULTICULTURALISM – IS A FENOMEN IN A MODERN SOCIETY: THEORETICAL APPROACHES

Summary

Some of the theoretical approaches to the problem of multiculturalism are studied in this article. The authoe afferms that "multiculturalism" contains a set of pointi, of view and methods of implementation in practice. It is a difficult and heterogeneous concept of essence which is the recognition by society of cultural diversity.

Keywords: multiculturalism, culture, society, sociocultural phenomenon, tolerance, pluralism, mild and strict multiculturalism, approaches.

HÜQUQ BÖLMƏSİ

UOT 34:342.36

Aqşin QULİYEV
a.e.i., hüquq ü.f.d., AMEA FHİ

MAARİFÇİ MÜTLƏQİYYƏTİN İDEOLOGİYASI*

«Maarifçi mütləqiyyət» XVIII yüzilliyin siyasi-hüquqi fəlsəfəsinin mühüm hadisəsidir. Maarifçilik əsrinin ideologiyası ilə bəyan edilmiş rasionalizm və sosial-siyasi qaydaların modernləşdirilməsi zərurəti çoxsaylı ideya-siyasi nəticələrə malik idi. Yeni fəlsəfənin parlaq nəticələrindən biri *maarifçi* siyasi-hüquqi doktrinanın formalaşması oldu. Digər nəticə isə ənənəvi siyasi və hüquqi konsepsiyaların *ideya reaksiyasından* ibarət idi. Bu konsepsiyalar yeni siyasətşünaslıq şəraitində və ümumiyyətlə, dövlətin və cəmiyyətin qarşılıqlı əlaqəsi haqqında yeni düşüncələrin formalaşdığı prosesdə yeni ideya forması əldə etməyə səy göstərirdi.

Qarşılıqlı təsir prosesində təzahür edən xüsusi məsuliyyət, əsasən, mütləq hakimiyyətə dair siyasi təlimlərdə ifadə olunurdu. Belə siyasi təlimlər o zamankı Avropanın əksər dövlətlərində (mütləq monarxiya idarəçilik formasına malik olan dövlətlərdə) praktiki dövlətçiliyin mühüm tərkib hissəsi idi. Hakimiyyətin cəmiyyətlə və xüsusən də hakim elitalarla qarşılıqlı münasibətlərinə xüsusi diqqət yetirilirdi. Həmin təlimlər əsasən XVII yüzilliyin ortalarında formalaşmışdı. Qanunvericilik hakimiyyətinin rəsmi sənədləri ilə yanaşı, onlar böyük dövlət və kilsə xadimlərinə (A.Rişelye, D.Mazarini, Feofan Prokopoviç) məxsus bir sıra siyasi mətnlərdə də ifadə edilmişdi.

Siyasi təlimlər bir vaxtlar ayrıca təşəkkül tapmış hakimiyyətlərin və dövlətlərin hüquqi fəaliyytinin ilk *rəsmi doktrinaları* kimi meydana gəlmişdir. Onlar ümumi dünyagörüşü əsasında təşəkkül tapsalar da, kanonik xristian siyasi-hüquqi təlimindən azad deyildilər. Yeni dövrün, hətta öz elitar xarakterini qoruyub saxlamış dövlətçiliyi artıq ideya-siyasi münasibətlərin inkişaf etmiş formaları, bunların cəmiyyətlə qarşılıqlı əlaqəsi olmadan mövcud ola bilmirdi.

Həmin dövrdə rəsmi doktrinaların həyatiliyi cəmiyyətdə dövlətin yeri və rolu, hüququn və qanunların vəzifələri haqqında düşüncələrə yeni rasionalist yanaşmaların təsirindən asılı idi. Belə qədim ənənələrin və yeni təlimlərin qarşılıqlı təsirindən doğan amillər nəticəsində XIX yüzillikdə retrospektiv şəkildə ad qazanan, lakin siyasi hadisə kimi birmənalı qarşılanmayan *«maarifçi mütləqiyyəti»* siyasi-hüquqi həyat səhnəsinə gətirdi. Bu prosesdə bəzi siyasi təsadüflər və ideya təsadüfləri və istisna olunmur.

Maarifçi mütləqiyyətin təsiri Avropanın çoxsaylı ölkələrini əhatə etmişdi. O özünün ifadəsini alman dövlətlərində (Bavariya, Prussiya və Avstriyada) və Rusiyada tapmışdı. Maarifçi mütləqiyyət bu və ya digər dərəcədə Şimali Avropa (Danimarka, İsveç) və Cənubi Avropa (Toskana, İspaniya və Portuqaliya) ölkələrində təzahür etmişdi. Onun ayrı-ayrı epizodları Polşa və Fransada da özünü nümayiş etdirmişdir.

Maarifçi mütləqiyyət hadisəsi ona görə xüsusi tarixi əhəmiyyət kəsb edirdi ki, yeni siyasi-hüquqi doktorinalar sosial-hüquqi düşüncələr sferasının üzvi tərkib hissəsinə çevrilirdi. Maaifçi mütləqiyyətin mövcud olduğu Avropa dövlətlərinin əksəriyyətində məhz bilavasitə onun təsiri altında, yaxud onun ideya cəhətdən təşəkkülü ilə paralel surətdə siyasi zati-alilər –

* Məqalə hüquq ü.f.d., dosent Mirafərim Seyidov tərəfindən çapa məsləhət görülüb.

monarxlar (II Fridrix, II Yekaterina, II İosif və III İosif və III Qustav) və ya ilk nazirlər (Y.Struenze, X.Floridablanka, C.J.Pombal) dövlət-hüquqi sistemdə real islahatların bütöv bir sistemini keçirmişlər. Həmin islahatlar müxtəlif dərəcədə başa çatdırılsa da, onların hamısı yeni *dövlət libralizmində* öz silinməz tarixi izlərini qoymuşdur. Belə islahatlar nəticəsində həmin ölkələrdə müasir siyasi-hüquqi institutlar təşəkkül tapmış və XIX yüzilliyin sosial-hüquqi tarixində həkk olunmuşlar. Bu mənada maarifçi mütləqiyyət dünyanın siyasi-hüquqi fəlsəfəsi tarixində *ilk hadisə* olmuşdur.

Maarifçi mütləqiyyətə dair doktrinalar öz *siyasi-fəlsəfi mənbələrinə* malikdir. Maarifçi mütləqiyyətin özü bir doktrina kimi özündə XVII-XVIII yüzilliklərin bir sıra təlimlərinin konseptual müddəalarının siyasi-hüquqi düşüncələrinin yekunlarını ehtiva edir. Bu mənada maarifçi mütləqiyyət eklekt siyasi fəlsəfədən ibarətdir. Onun klassik mətnlərində ən müxtəlif siyasi ədəbiyyatların təsirini aşkar etmək olar. Maarifçi mütləqiyyət doktrinası özündə həmçinin maarifçiliyin erkən mərhələsinin siyasi ədəbiyyatlarının təsir gücünü ehtiva edir. Lakin ən başlıcası ondan ibarətdir ki, maarifçi mütləqiyyətin siyasi-fəlsəfi mənbələri aşağıdakı iki qrup təsirdə ifadə edilmişdir:

1) XVIII yüzilliyin başlanğıcında alman təbii hüquq fəlsəfəsinin siyasətşünaslığı;

2) erkən fransız maarifçiliyinin fəlsəfi-tarixi esseistikası.

Fəlsəfi-metodoloji baxımdan maarifçi mütləqiyyət doktrinasının mənbəyi X.Volf məktəbinin siyasi-hüquqi təlimi olmuşdur.

Alman filosofu və hüquqşünası Xristian Volf (1679-1754) XVIII yüzilliyin birinci yarısında Ümumavropa miqyasında geniş təsir gücünə malik fəlsəfi məktəbin başçısı olmuşdur. O, xalis fəlsəfi və riyaziyyata dair əsərləri ilə yanaşı, təbii hüquq məktəbinin bütün əsas müddəalarını özündə ehtiva edən ensiklopedik ifadəli geniş traktatlar da yazmışdır.

X.Volfun təbii hüquqa dair traktatlarında alman təbii hüquq məktəbinin ideyaları özünün əsaslı nəzəri tədqiqini tapmışdır. Elə həmin traktatlarda son dərəcə aydın şəkildə və siyasi-hüquqi təlimlər üçün əhəmiyyət kəsb edən belə bir mülahizə irəli sürülür ki, hər cür hüququn mənbəyinin əsasını insan təbiəti təşkil edir. Dövlətdə mövcud olan pozitiv hüquq təbii hüququn tərkibindən çıxarılmalıdır və «təbii hüquq qanunvericinin iradəsini istiqamətləndirməlidir» (3, s. 308).

X.Volfun rəmzi ad daşıyan «Filosof-hökmdar və Kral-filosof» əsərində sadələşdirilmiş formada belə bir ideya irəli sürülür ki, hakimiyyət və dövlət siyasəti bölünməzdir. Onun bu ideyası maarifçi mütləqiyyətin gələcək təkmilləşmiş doktrinası üçün dayaq nöqtəsi olmuşdur.

X.Volfun təliminə görə, insanların dövlət-siyasi cəhətdən birləşməsi *ümumi rifaha* nail olmağı nəzərdə tutur. «Ümumi rifah» sosial-siyasi və sosial-hüquqi mənada bir ideya kimi mülki və əxlaqi dəyərlərə heç də zidd deyil. «Ümumi rifah – bu, ən böyük xoşbəxtlikdir, yer üzündə hər bir insan ondan öz vəziyyətinə uyğun surətdə istifadə edə bilər» (3, s. 308).

Alman mütəfəkkirinin ideyasına görə, dövlətin fəlsəfə tərəfindən formalaşdırılmış teleoloji vəzifəsi hakimiyyətin xüsusi daşıyıcısını tələb edir. «Ümumi rifah» ideyası filosofun (filosofların) idarə etməsini nəzərdə tutur. Dövlət öz məqsədlərinə yalnız o vaxt nail olur ki, onu filosoflar idarə edir, yaxud dövlətin hökmdarı filosofdur.

«Fəzilətlərə məcburetmə» zərurəti Volfun dövləti idarəetmə elmində əsas yerlərdən birini tutur. Burada «fəzilətlərə məcburetmə» özündə insanın əxlaqi dəyərlərə istiqamətləndirilməsini nəzərdə tutur. Yalnız fəzilətli insan başqasına, o cümlədən cəmiyyətə fayda verə bilər. Ona görə də insan özünü o istiqamətdə təkmilləşdirməyə borcludur ki, bu ona təbiət («təbii hüquq») tərəfindən verilmişdir. İnsan öz təbiətinə görə, özünü və öz vəziyyətini təkmilləşdirən istiqamətdə hərəkət etməyə borcludur.

Ç.Volfun fikrincə, belə «təkmilləşdirmə» fərdin öz cisminə, ruhuna və vəziyyətinə münasibətdə borcudur. Rifah əldə etmiş hər bir insan başqasına kömək etməyə borcludur.

Dövlətin də təyinatı bu məqsədlərdən ibarətdir. Hökmdarın xüsusi borcu ondan ibarətdir ki, təbəənin etmək istədiyinə şərait yaratsın.

Tarixi-siyasi baxımdan maarifçi mütləqiyyət doktrinasının mənbələrindən birini Volterin *tarixi və fəlsəfi-hüquqi esseistikası* müəyyən etmişdir.

Böyük fransız mütəfəkkiri *Fransua-Mari Volter* (1694-1778) özünün fəlsəfi və ədəbi yaradıcılığında Ümumavropa Maarifçiliyinin nəinki klassiki, həm də bir növ rəmzi olmuşdur. Sözün əsl mənasında o, hüqüqşünas olmamışdır. Lakin onun kilsə hüququnun arxaikliyi və kilsə ədliyyəsi əleyhinə ardıcıl mübarizəsi, təqsirsiz məhkum olunanların müdafiəsinə yönələn ədəbi çıxışları maarifçi cinayət-hüquqi doktrinanın formalaşmasında mühüm tarixi rol oynamış, bir sıra ədəbi əsərləri hüquqi esselərə çevrilmişdir.

Volterin «Fəlsəfi lüğət»ində (1764) ümumiləşdirilmiş məqalələr maarifçiliyin yeni siyasətşünaslıq və siyasi-hüquqi elminin formalaşmasına xüsusi təsir göstərmişdir. Həmin məqalələr nə elmi-fəlsəfi, nə də elmi-hüquqi düşüncələri özündə ehtiva edən əsərlər olmamışdır. Lakin onlarda yeni ideyalar aforizmlər, tarixi nümunələr və hətta lətifələr şəklində elə təsvir edilmişdir ki, onlardan siyasi-hüquqi nəticələr çıxarmamaq qeyri-mümkün olmuşdur.

Tarixi prosesdə qanunvericiliyin xüsusi rolu haqqında ideya Volter üçün başlıca ideyalardan biri olmuşdur.

Volterin izahında qanunlar maarifçiliyin hərəkətvericilərdir (bu sözün ən geniş mənasında). Buna görə də onlar «zaman, məkan, ehtiyaclar» dəyişdikcə, həmişə təkmilləş-dirilməlidir. Onun ideyasına görə, tələbatların dəyişdiyi zaman dəyişikliksiz qalmış qanunlar qırışıq qanunlara çevrilirlər.

Fransız mütəfəkkirinin fikrincə, millətin mədəni (maarif) səviyyəsi qanunvericiliyin vəziyyətində əks olunur. Qanunvericilik isə bütün sahələr üçün vahid, eyni dəyişməz olmalı və ikimənalı mahiyyət daşımamalıdır. Maarifçiliyin hərəkəti qanunların özünün *prinsiplərinin* də dəyişdirilməsini nəzərdə tutur. Məsələn, belə dəyişiklik cinayət hüququnda sanksiyaların yüngülləşdirilməsinin, orta əsr sərtliklərinin ləğv olunmasını, ölüm cəzasının tətbiqinin mümkün qədər məhdudlaşdırılmasını nəzərdə tutur. Mülki mühakimə icraatında qanunların özbaşına təfsir edilməsi yolverilməzdir. Məhz buna görə də qanunlar möhkəm, aydın və dəyişilməz olmalıdır. Ən yaxşı tərzdə müəyyən edilmiş ədliyyə və qanunvericilik ümumi rifahın ən yaxşı dərəcəsinə uyğundur.

Bir çox birgəyaşayış qanunları içərisində bəzi *təməlli qanunlar* fərqləndirilir. Bunlar *xalqların azadlıq vəziyyəti* ilk sıx bağlı olan qanunlardır. Belə qanunlar əleyhinə heç nə qarşı qoyula bilməz, çünki bunlar təbii qanunlardır. *Azadlığın* özü isə ondan ibarətdir ki, insan dövlətdə yalnız qanunlardan asılı olsun.

Volterin ideyasına uyğun olaraq bərabərlik belə azadlıq vəziyyətində təzahür edir. Belə qanunlara, azadlığa və bərabərliyə əməl edilməsi hökmdarın borcu və fəzilətidir. Belə hökmdar mövhumatı və cəlaləti, o cümlədən iki dini fanatizmi aradan qaldırır, vətəndaşların təsərrüfat fəaliyyəti üçün ən əlverişli şəraiti yaradır, şəhəri (ehtimal ki, dövləti – A.Q.) gözəlləşdirir və ədliyyəni nizama salır.

Monarxların belə *tarixi-siyasi obrazı* (ciddi tarixi xarakteristika olmadan) Volter tərəfindən onun tarixi esselərində yaradılmışdı. Hökmdarlar boş sözlərlə və ya ucaldılmış abidələrlə deyil, konkret yaradıcı əməlləri ilə vətənə və xalqın maariflənməsinə xidmət göstərirlər. Belə ki, onlar düzgün ədliyyənin əsasını qoyur, sülhün, maliyyənin, ədliyyənin, kəndlilərin və krallığın iqtisadi cəhətdən çiçəklənməsinin qayğısına qalır.

Volter qanunlarda düzəlişlər edilməsini, onlarda (qanunların mətnində) mövcud olan səhvlərin düzəldilməsini dövlətin ən mühüm işlərindən biri hesab edirdi. Qanunvericilik işində xidmət göstərilməsi öz xalqının maarifləndirilməsi deməkdir. Qanunvericilik və onun

yenidən təşkili monarxların diqqət mərkəzində olmalıdır. Qanunvericilik ağıllı başlanğıclara əsaslanmalıdır. Təbii qanunların rasionalcasına başa düşülməsi ağıllı başlanğıclar əsasında mümkündür.

Volterin ideyasına görə, məhz təbii qanun dövlətin idarə edilməsində *təməlli qanuna* çevrilməlidir. Hər şeydən əvvəl, «ümumi rifah» haqqında düşünən monarxlar buna sözsüz əməl etməlidirlər. Belə prosesdə «Maarifçi» dövlət üçün ancaq monarxiya idarəçilik forması zəruridir. Onun fikrincə, demokratiya yalnız son dərəcə kiçik olan dövlətlər üçün əlverişlidir. Volter bu mənada Ş.L.Monteskyenin sosiologiyasında irəli sürülmüş mülahizə ilə razılaşdığını ifadə etmişdir.

Maarifçi mütləqiyyət doktrinasına müəyyən töhfələr vermiş dövlət xadimlərindən biri Prussiya kralı *II Fridrix* (1712-1886) olub. O, təkcə görkəmli dövlət xadimi deyil, həm də siyasi düşüncələri ilə seçilən yazıçı idi. Onun siyasi esse və traktatlarında ilk dəfə olaraq «maarifçi mütləqiyyət» üçün xarakterik olar hakimiyyətin yeni doktrinasının əsas prinsipləri irəli sürülmüşdür. Yeni hakimiyyət haqqında ideyalar II Fridrixin «Makiavellinin «hökmdarı»nın sınağı» traktatında ifadə edilmişdir. Dövləti idarəetmənin yeni konsepsiyasını isə cəmləşdirilmiş formada tarixi-siyasi esse olan *«İdarəçilik formaları və suverenin vəzifələri haqqında təcrübə»*də verilmişdir. Birinci əsər 1741-ci, ikinci isə 1781-ci ildə qələmə alınmışdır. Əsərlər arasındakı 40 illik fasilədən aydın olur ki, müəllif böyük siyasi-hüquqi təcrübə yolu keçmiş və məhz ikinci əsərində öz düşüncələrini daha dolğun şəkildə ifadə etmişdir.

II Fridrix özünün siyasət və hökmdarın dövləti idarəetmədəki rolu haqqında düşüncələrində Makiavellinin hakimiyyət fəaliyyətinin məzmunu haqqında (*hakimiyyət naminə hakimiyyət və bütün vasitələr onun saxlanması üçün yaxşıdır,* xalqın mənfəəti də bundan ibarət olacaqdır) əsas mülahizələrini rədd etmişdir.

II Fridrixin ideyasına görə, hakimiyyəti öz əlinə hansı yolla olursa-olsun almış hökmdar nə öz hakimiyyətinə, nə də öz şıltaqlıqlarına deyil, cəmiyyətə xidmət etməlidir. *Hökmdar dövlətin qulluqçusu və xalqın rifahıdır.* Məhz ədalət suverenin fəaliyyətinin başlıca predmeti olmalıdır.

II Fridrixin siyasi düşüncələrində xüsusilə nəzərə çarpan cəhətlərdən biri odur ki, dövlət vətəndaş cəmiyyətinin əlamətləri ilə əlaqələndirilir. Burada həmin əlamətlərdən biri qismində *«insanların azadlıq hissi»* ideyası çıxış edir.

Dövləti idarəetmə işlərində belə azlıq hissinin qanunauyğun nəticəsi respublika idarəçilik formasının bərqərar olması olmuşdur. Lakin ictimai «əxlaq» nəticəsində respublikalar çox asanlıqlı tiraniyaya uğrayırlar. Xalqın «azadlıq hissi» üçün isə (onun rifahı naminə) yenə də vahid hakimiyyət optimal idarəetmə olaraq qalır.

Lakin monarxiya idarəçilik formasına malik olan dövlət də *ictimai məzmunla* bağlı olmalıdır. Burada II Fridrix «ictimai məzmun» dedikdə, dövləti idarəetmə fəaliyyətində hökmdarların ölkədə elm və mədəniyyətin, əkinçiliyin, manufakturanın inkişafına xüsusi qayğıı göstərmələrini nəzərdə tuturdu. Elmin və mədəniyyətin zirvədə olması dövlət hakimiyyətinin müdrik hökmdarın əlində olmasının göstəricisidir. Bu isə, öz növbəsində, həm də xoşbəxt idarəetmə deməkdir.

II Fridrixin fikrincə, «maarifçi idarəçilik» daha inkişaf etmiş formadır və belə konsepsiya qanunvericilik işi ilə sıx bağlıdır. *Dövlətin mahiyyətini məhz qanunvericilik ifadə edir.* Mülki cəmiyyətlərin özünün yaranması qanunların meydana gəlməsi ilə əlamətdar olmuşdur. Qanunlar cəmiyyətdə ümumi mənafeləri tərbiyə edir. Qanunların müdafiə edilməsi üçün cəmiyyəti idarə edən şəxslər – magistrantlar və hökmdar fiquru meydana gəlir. Qanunların qorunub saxlanması suverenliyin həqiqi başlanğıcıdır. Lakin elə bu vaxt hökmdarın özü də dövlətin yalnız ilk qulluqçusu olur.

II Fridrixin ideyasına uyğun olaraq hökmdar dövləti təmsil edir. Hökmdar və onun xalqı vahid bədəni yaradırlar. Onları birləşdirən razılıq olmasa, xoşbəxtlik ola bilməz. Hökmdar idarə etdiyi cəmiyyətin başçısı olduğu kimi, o, eyni ilə bədən üçün sanki başdır. Hökmdar bütün birlik üçün hər şeyi görməli, fikirləşməli və hərəkət etməlidir.

Prussiya monarxının düşüncəsinə görə qanunlarda təməlli başlanğıcın olması xüsusilə vacibdir. Cəmiyyət ancaq təməlli başlanğıc vasitəsi ilə tarixən qorunur, çünki insanlar tam kamil deyillər. Bütün vəzifəli şəxslər qanunları müdafiə etməlidir. Qanunların özləri də yeniləşdirilməli və mütəşəkkil olmalıdırlar. Bu, cəmiyyətin tələbatlarının əks olunması və millətin ruhudur.

II Fridrixə görə, qanunlar əgər yaxşıdırsa, hüquqdan heç bir sui-istifadənin olmaması üçün onlar aydın ifadə olunmalıdırlar. Qanunlardan hər kəs öz iradəsi və mülahizəsinə görə istifadə edə bilməz. Yaxşı və aydın ifadə olunmuş qanunların sistemi cəmiyyətdə ən böyük xeyrin özünə aid olmalıdır. Prinsiplər isə ölkənin vəziyyətinə uyğun olmalıdır.

II Fridrixin siyasi essesində «maarifçi mütləqiyyət» doktrinasının inkişafının daha bir istiqaməti öz ifadəsini tapmışdır. Kralın fikrincə, *qanunların (hüququn) ümumi məcəllələşdirilməsi* maarifçi mütləqiyyət doktrinasında *mükəmməl cəmiyyətə və dövlətə doğru* aparan ən optimal yoldur.

Rusiya imperatriçası II Yekaterina (1729-1796) maarifçi mütləqiyyətin görkəmli nəzəriyyəçisi və praktiki II Fridrixin ardınca *«qanuni monarxiya»* ideyası ilə çıxış etmişdir. Maarifçi mütləqiyyət onun da siyasi yaradıcılığında öz klassik ifadəsini tapmışdır.

«Yeni məcəllə layihəsinin tərtib edilməsi haqqında Komissiyaya tapşırıq» imperatriçanın siyasi düşüncələrinin parlaq göstəricilərindən biridir. Fəlsəfi-hüquqi məzmuna malik olan «Tapşırıq» komissiya üçün rəhbər göstəriş qismində hazırlanmışdır. O, Rusiya qanunvericiliyinin tam islahatlaşdırılması üçün xüsusi olaraq nəzərdə tutulur. «Tapşırıq» öz əhəmiyyətinə görə «dövrün qanunvericilik aktlarına bərabər tutulmuşdur (I, s. 72-155).

II Yekaterinanın «Tapşırıq» əsəri özünəməxsus spesifik cəhətləri olan siyasi-hüquqi traktat idi. Onun mətninin böyük hissəsi (əsər cəmi 22 fəsil və 655 maddədən ibarət olub) dövrün məşhur siyasi-hüquqi əsərlərindən əxz edilmiş müddəalar üzərində qurulmuşdu. Məsələn, Monteskyenin «Qanunların ruhu haqqında», Bekkarianın «Cinayətlər və cəzalar haqqında» əsərindən, habelə Didro və D.Alamberin «Ensiklopediya»sından istifadə edilmişdir.

II Yekaterina öz ideyalarını əsaslandırmaq, təbii və müsbət qanunları bir-birindən fərqləndirmək üçün təbii hüquq nəzəriyyətindən geniş istifadə etmişdir (2, s. 380). Lakin təbii hüquq nəzəriyyəsinin başlıca ideyası olan qanunvericiliyin «insan təbiəti ilə» razılaşdırılmasının zəruriliyi imperatriçaya yad olmuşdur. Bu da, öz növbəsində, silki quruluşun ləğvinə, vətəndaşların hüquq bərabərliynin, liberalizm prinsiplərinin elan edilməsinə gətirib çıxarardı. Görünür, məhz buna görə də, II Yekaterina təbii hüquq nəzəriyyəsinin yuxarıda xatırladılan ideyasından qəsdən, billə-bilə yan keçmişdir.

II Yekaterina dövlətçiliyin başlanğıclarının əsaslandırılmasına ictimai müqavilə doktrinasından da imtina etmişdir. Bunun əvəzinə o, bir sıra maddələrdə (I, 352-ci və s. maddələr) ilahi vəzlərə və «ümumi rifah» haqqında düşüncələrə müraciət etmişdir.

I Yekaterina Rusiya monarxiya idarəçiliyinin zəruriliyini sübut edərək, Monteskyenin nüfuzuna arxalanmağa cəhd etmişdir: Hökmdar mütləqiyyətçidən başqa bir şey deyil». Yekaterinanın ideyasına görə, monarxiyanın despotiyaya çevrilməsinin yeganə təminatı yalnız monarxın şəxsi fəziləti ola bilər.

Sosial-siyasi sferada «Tapşırıq» ümumiləşdirilmiş şəkildə öz dövrünün bəzi qabaqcıl tələblərini əks etdirirdi. Xüsusi mülkiyyət prinsipini, şəxsiyyətin hüquqlarının mühafizəsini,

dövlətin vətəndaşlarının şəxsi həyatına qarışmasının aradan qaldırılmasını və azad məhkəmənin zəruriliyini buna nümunə göstərmək olar.

II Yekaterina müəyyən zaman fasiləsində ictimai rəyi özünün humanist düşüncələrinə inandıra bilsə də, idarəçiliyin real praktikası bütün bunların əksini göstərdi.

Açar sözlər: maarifçi mütləqiyyət, təbii hüquq, ümumi rifah.

İstifadə olunmuş ədəbiyyat

1. Екатерина II. О Величии России. М., 2003.
2. История политических и правовых учений /Под общ.ред. О.В.Мартышина. М., 2006.
3. Омельченко О.Ф. История политических и правовых учений. М., 2011.

Агшин ГУЛИЕВ

ИДЕОЛОГИЯ ПРОСВЕЩЕННОГО АБСОЮТИЗМА

Резюме

В статье отмечается, что провозглашенные иделогией века Просвещения рационализм и необходимость модернизации социально-политических порядков имели многочисленные идейно-политические следствия. Прямым результатом новой философии стало формирование целого ряда собственно просветительских политико-правовых доктрин. Другим следствием была идейная реакция традиционных политических и правовых концепций. Новая идейная форма получила название «просвещенного абсолютизма».

Ключевые слова: просвещенный абсолютизм, естественное право, общее благо.

Agshin GULIYEV

IDEOLOGY OF ENLIGHTENMENT ABSOLUTISM

Summary

Proclaimed ideology of the century – Enlightenment of rationalism and necessity the modernization of social-political orders have had numerous ideological-political conseguences. The direct result of a new philosophy caused the formation of a number of proper enlightener political-legal doctrines. The other conseguences were the ideological-legal conceptions. A new ideological form has optained the name of «enlightenment absolutism».

Keywords: enlightenment absolutism, natural law, common good.

UOT 347.965.982

Aydın ƏLİYEV
b.e.i., hüquq ü.f.d., AMEA FHİ

VƏKİLLİYİN ANLAYIŞINA MÜASİR YANAŞMA*

Hazırda Azərbaycan dilində olan vəkil sözü müxtəlif dillərdə işlədilən advokat (*latınca advocates – dəvət olunmuş; ingiliscə – lawyer, barrister, advocate*) sözü ilə eyni mənanı daşıyır. Azərbaycan Ensiklopediyasının Baş Redaksiyası tərəfindən tərtib olunmuş Hüquq Ensiklopedik lüğətində vəkil dedikdə, vəzifəsi vətəndaşlara, müəssisə, idarə və təşkilatlara hüquqi yardım göstərmək; hüquqi məsələlər üzrə məsləhətlər və izahatlar, qanunvericilik üzrə şifahi və yazılı arayışlar vermək; şikayət, ərizə və hüquqi xarakterli digər sənədləri tərtib etmək; mülki işlər və inzibati hüquqpozmalar üzrə məhkəmədə, *iqtisad məhkəməsində* və digər dövlət orqanlarında nümayəndəlik; cinayət işlərində *təqsirləndirilən şəxsin*, zərər çəkmiş şəxsin, mülki iddiaçının yaxud mülki cavabdehin müdafiəçisi kimi çıxış etməkdən ibarət olan şəxs nəzərdə tutulur (3, s.76). Rusiya Federasiyasının hüquq ensiklopedik lüğətində də advokat sözü analoji mənada şərh olunur (19, s.14).

XIX əsrin ortalarından başlayaraq Rusiya İmperiyasının rəsmi sənədlərində və rus danışıq dilində ibtidai istintaq orqanlarında, məhkəmədə və digər dövlət orqanlarında peşəkar səviyyədə müdafiə və nümayəndəlik funksiyalarını həyata keçirən hüquqşünasların peşə adı «advokat», onların daxil olduqları birliklər isə «advokatura» adlandırılırdı.

Sovet dövründə (1917 – 1991-ci illər) advokatura (*azərbaycan dilində vəkillik*) dedikdə müttəfiq respublikaların hər birində mövcud olan vəkillər kollegiyası başa düşülürdü. Bu fiziki və hüquqi şəxslərə peşəkar səviyyədə hüquqi yardım göstərmək üçün birləşmiş hüquqşünasların, yəni vəkillərin yeganə qurumu idi. Lakin həmin qurumun fəaliyyəti faktiki olaraq Qərb dövlətlərində qəbul olunmuş standartlara cavab vermirdi. İfrat dərəcədə siyasiləşmiş cəmiyyətdə başqa cür ola da bilməzdi. Əsas vəzifəsi şəxsiyyətin hüquqlarını müdafiə və maraqlarını təmsil etmək olan institut kimi *vəkilliyin* cəmiyyətdəki yeri və fəaliyyətinin mahiyyəti siyasi motivlərlə inkar edilir yaxud onun üstündən sükutla keçilirdi. SSRİ-də vəkil sosialist ədalət məhkəməsinin bərqərar olmasına və sosialist qanunçuluğunun möhkəmlənməsinə xidmət etməli idi ki, bu da onu müəyyən siyasi funksiyaları icra etməli olan dövlət qulluqçusuna çevirirdi (18). Sovet konsepsiyasına görə vəkil həqiqətin müəyyən edilməsi məqsədinə xidmət edərək hakim və dövlət ittihamçısı ilə əməkdaşlıq etməli, müdafiə etdiyi şəxsin təqsirli olmasına əmin olduğu halda bunu məhkəmədən gizlətməməli, təqsirləndirilən şəxsin məsuliyyətini yüngülləşdirən halları qeyd etməklə yanaşı, cəmiyyətin maraqlarını da nəzərdən qaçırmamalı idi. Bəzi nəzəriyyəçilər də bu mövqedən çıxış edirdi. Məsələn, tanınmış sovet alimlərindən olan M.A.Çelsov vaxtilə yazırdı: «*İşin qanuni və əsaslı hökm çıxarılması üçün zəruri olan bütün hallarının müəyyən edilməsində müdafiəçi məhkəmənin köməkçisidir*» (16, s.59). Əlbəttə, belə şəraitdə çəkişmə prinsipindən danışmağa, obyektiv nəticələrə nail olunacağını gözləməyə belə dəyməzdi. Vəkilin dövlət aparatının bir hissəsi kimi qələmə verilməsi vəkilliyin və vəkillik fəaliyyətinin mahiyyəti ilə açıq-aşkar ziddiyyət təşkil edirdi.

Vətəndaş cəmiyyətinin mövcud olmadığı və planlı iqtisadiyyatın həlledici əhəmiyyət kəsb etdiyi sovet cəmiyyətində vəkil dedikdə, hər şeydən əvvəl, cinayət işləri üzrə mütəxəssis yada düşürdü. Vətəndaşlarda elə fikir formalaşmışdı ki, hüquqi məsələlərdən başı çıxan şəxs

* Məqalə fəlsəfə ü.f.d. Yaşar Əliyev tərəfindən çapa məsləhət görülüb.

kimi cinayət məsuliyyətinə cəlb olunmaq təhlükəsi yarandığı halda vəkilə müraciət etmək lazımdır. Hətta 1953-cü ilin hüquq lüğətində vəkilliyin fəaliyyəti təqsirləndirilən şəxsin SSRİ Konstitusiyasının 111-ci maddəsilə müəyyən olunmuş müdafiə hüququnun həyata keçirilməsinin formalarından biri kimi şərh olunurdu (17). Ölkədə vəkil obrazı, hər şeydən əvvəl, cinayət işləri üzrə mütəxəssis kimi təsəvvür olunurdu.

Həqiqətən də, vəkilliyin mahiyyətinin tam anlaşılmadığı planlı iqtisadiyyat şəraitində öz həllini tələb edən məsələlərin böyük əksəriyyəti hüquqi müstəvidə deyil, inzibatçılıq metodları ilə ayrı-ayrı vəzifəli şəxslərin düşüncə tərzinə və iradəsinə uyğun olaraq «həll edilirdi». Başqa sözlə desək, totalitar cəmiyyət şəraitində problemlərin hüquqi metodlarla həlli zəruri sayılmır, inzibatçılıq metodlarına daha çox üstünlük verilirdi. Odur ki, bir qayda olaraq, vəkilin rolu əsasən cinayət işləri üzrə müdafiəçi, inzibati məsələlərin həllində isə nümayəndəlik funksiyalarının həyata keçirilməsi ilə məhdudlaşırdı. Əlbəttə, belə şəraitin mövcudluğu, hər şeydən əvvəl, totalitar cəmiyyətin daxili ziddiyyətləri və problemləri ilə bağlı idi. Lakin problemin tarixi köklərini, subyektiv və obyektiv səbəblərini, hüquqi problemlərin həllinə çalışan subyektlərin hüquqi düşüncəsini, məsələnin həllinə yanaşma tərzini və digər əlaqəli məsələləri də nəzərdən qaçırmaq olmaz, çünki hüquqi problemlə üzləşmiş hər kəs məsələni öz xeyrinə həll etməyə çalışır: qəsdən cinayət törətmiş şəxs məsuliyyətdən yayınmağa yaxud mümkün qədər yüngül cəza almağa, mülki işin tərəflərindən hər biri istənilən halda prosesi udmağa can atır.

Əlbəttə, insanın öz fəaliyyətində hansısa hüquqi nəticəyə nail olmağa çalışmasını, yəni müəyyən maraq güdməsini bütün hallarda qanunsuz hesab etmək düzgün olmaz. Ancaq arzu edilən nəticəyə nail olmağın bu və ya digər vasitə və üsulları qanunsuz ola bilər. Ümumiyyətlə, vəkillik və bu quruma daxil olan vəkillər hüquqlarının və qanuni maraqlarının müdafiəsi üçün onlara müraciət etmiş hər bir insana hüquqi yardım göstərməlidir. Lakin məsələnin belə qoyuluşu bəzi hallarda mübahisəyə səbəb olur.

Vəkilliyin tarixində mülki mübahisələrdə «*ədalətsiz olduğu qabaqcadan məlum olan*» işlərin icraata qəbul olunmasının mümkünlüyü XIX əsrin sonlarında ciddi mübahisə mövzusu olmuşdur. Tanınmış publisist və vəkil qraf Q.A.Canşiyev «*ədalətsiz olduğu qabaqcadan məlum olan*» işlərin icraata qəbul olunmasının əleyhinə olmuşdur. Əks mövqedə duran vəkil D.Nevyadomski hesab etmişdir ki, vəkil istənilən insanı müdafiə etməyə borcludur (6, s.15).

Vəkillik təkcə dövlətin maraqlarının müdafiəsinə xidmət etmir, o, eyni zamanda, cəmiyyətin və ayrı-ayrı şəxslərin maraqlarını təmsil və müdafiə edir. Qeyd olunduğu kimi, «əgər prokurorluq – dövlətin vəkilidirsə, vəkil vətəndaş cəmiyyətinin müdafiəçisidir» (7, s.10). Odur ki, «vəkil şəxsin xəyali deyil, həqiqi hüquqlarını, istənilən maraqlarını yox, ancaq qanuni maraqlarını müdafiə etməlidir» kimi fikirlərlə razılaşa bilmirik (8, s.12).

Vəkil kömək üçün ona müraciət edənin maraqlarının və nail olmaq istədiyi nəticənin qanuni olub-olmamasını müstəqil olaraq müəyyən etməli və işin icraata qəbul edilib-edilməməsi barədə qərar qəbul etməlidir. Hüquqi yardım üçün müraciət edənin vəkilin köməyi ilə qanunsuz nəticəyə çatmaq istədiyini bildiyi halda heç kim vəkili həmin şəxsin əlində alətə çevrilməyə məcbur edə bilməz. Müvafiq dövlət orqanları və vəzifəli şəxslər də hər hansı bir şəkildə təmsil etdiyi şəxsin hərəkətlərinin qanuni yaxud qanunsuz olmasını yoxlamağı vəkildən tələb edə bilməz. Lakin vəkil tərəfindən həyata keçirilən müdafiənin vasitə və metodları da qanuna əsaslanmalıdır. Odur ki, vəkil şəxsin qanuni maraqlarını müdafiə edərkən hüquqpozmalara yol verməmək şərtilə bütün vasitə və metodlardan istifadə edərək sonuncunun mənafeinə uyğun nəticənin əldə olunmasına çalışmalıdır. Lakin vəkil dövlət orqanlarilə olduğu kimi, hüquqlarını müdafiə etdiyi şəxslərlə münasibətdə də öz müs-

təqilliyini qoruyub saxlamağı bacarmalı, hüquqi mövqeyini və onun həyata keçirilməsi vasitələrini sərbəst seçməlidir.

Fiziki və hüquqi şəxslərə vəkillər tərəfindən müxtəlif növ yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi, onların hüquqlarının və qanuni maraqlarının ayrı-ayrı vətəndaşlar, sahibkarlar, rəqiblər, eləcə də xidməti vəzifələrinin icrası zamanı qanuna zidd hərəkətlərə yol verən ayrı-ayrı vəzifəli şəxslər tərəfindən törədilə bilən hər hansı özbaşınalıq hallarından səmərəli müdafiənin təmin edilməsi üçün xüsusilə böyük əhəmiyyət kəsb edir.

Göstərilən məsələlərin həll edilməsi təkcə şəxsi maraqlara yox, həmçinin dövlətin və cəmiyyətin maraqlarına uyğundur. E.V.Vaskovskinin sözlərilə desək, «*Əgər bu belədirsə, əgər cəmiyyət üçün onun hər bir üzvünün öz hüquqlarını fəallıqla müdafiə etməsi əhəmiyyətlidirsə… o, daha çox maraqlıdır ki, prosesdə haqlı tərəf qalib gəlsin və heç bir kənar məsələlər onun təntənəsinə mane olmasın. Odur ki, haqlı olan tərəf qarşı tərəfin təcrübəli, zəngin yaxud nüfuzlu olması üzündən işi uduzursa, məğlub olmuş tərəflə birlikdə bütün cəmiyyət uduzur. Onun bütün üzvləri qorxuya düşür ki, onlar da belə vəziyyətə düşə bilər və pozulduğu halda onların hüquqlarına təminatsızlıq və müdafiəsizlik təhlükə yaradar*» (9, s.216).

Belə narahatlıq vətəndaşlarda onların hüquqlarının və qanuni maraqlarının cinayət mühakimə icraatı zamanı pozulduğu halda xüsusilə kəskin yaranır. «*Əgər təqsirləndirilən şəxsin hüquqları haqsız yerə pozularsa, əgər o təqsirsiz olaraq əziyyət çəkərsə yaxud o, hədsiz dərəcədə ağır cəzaya məruz qalarsa, onda bütün cəmiyyət üçün onun üzvlərinin şəxsində belə vəziyyətə düşmək və hüquqlarının eyni dərəcədə pozulmasına məruz qalmaq təhlükəsi yaranır…*» (9, s. 215).

Müdafiə funksiyasının həyata keçirilməsi cinayət-mühakimə icraatının düzgün həllinə kömək edən əsas amillərdən biridir. Müdafiəni həyata keçirən vəkil şübhəli və təqsirləndirilən şəxslərin, eləcə də məhkum olunmuşun maraqlarına uyğun hərəkət etməklə yanaşı, eyni zamanda vətəndaş cəmiyyətinin maraqlarına xidmət edir, obyektivliyin təmin olunmasına, təqsirsiz şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasının qarşısının alınmasına çalışır.

Vəkilin bu funksiyası şübhəli və təqsirləndirilən şəxslərin hüquqlarının və qanuni maraqlarının hüquq-mühafizə orqanlarının bəzi əməkdaşlarının qanunsuz hərəkətlərindən qorunması üçün böyük əhəmiyyətə malikdir. Qeyd olunduğu kimi, «*vəkil – sadəcə olaraq hüquqşünas deyil. O, hüquq-mühafizə orqanları kimi güclü bir rəqiblə mübarizə aparan döyüşçüdür. Bu orqanlar hüquqları qorumaq əvəzinə bəzi hallarda onu pozurlar. Bir çox hallarda onların səyləri təqsirləndirilən şəxsdən etiraf almağa istiqamətlənmiş olur. Bunun xatirinə onlar təqsirləndirilən şəxsi həbsdən azad etməyə, cəzanın yüngülləşdirilməsinə çalışmağa, qohumlarla görüşməyə icazə verməyə və s. söz verirlər. Bəzən daha «təsirli» fəndlər: hədə-qorxu, aclıq, həbsxana kameralarında pis rəftar, hətta işgəncə verilməsi tətbiq olunur. Vəkil belə araşdırma metodlarını ifşa etməkdən çəkinmədən müdafiə etdiyi şəxsin təqsirsiz olmasını yaxud az təqsirli olmasını sübut etməyə çalışır. O, hətta müstəntiqi qanunçuluğu pozmaqda, əsassız həbslərdə və axtarışlarda, qərəzli və qeyri-obyektivdə ifşa etməkdən çəkinmir...*» (13, s.55).

Beləliklə, ədalət mühakiməsinin fəaliyyəti üçün dövlət ittihamçısı da, vəkil də eyni dərəcədə zəruri subyektlərdir. Belə ki, cinayət-mühakimə icraatının gedişində ancaq bu iki prosessual rəqibin çəkişməsi, onların əsaslı rəylərinin və dəlillərinin araşdırılması şəraitində sübut edilməli olan hallar barədə əsl həqiqəti ortaya çıxarmaq mümkün ola bilər.

Yüksək inkişaf etmiş Qərbi Avropa dövlətlərində və ABŞ-da vəkillik və vəkil böyük nüfuza malikdir. İ.L.Petruxinin qeyd etdiyi kimi, bu ölkələrdə «*vəkillik – böyük etibar və inam qazanmış yüksək nüfuzlu institutdur. Belə demək kifayətdir ki, İngiltərə Lordlar Palatasının hakimləri – 15 illik stajla vəkillər birliyinin üzvü olmuş barristirlərdir. Vəkillik – hakimliyə*

aparan bir yoldur. Hər bir hakim keçmişdə vəkil olmuşdur. Hətta hüquqşünasların geyimi (mantiya və parik) də, əsasən hakimlərin və vəkillərin də eynidir ki, bu da onların eyni peşəyə mənsubiyyətini, bərabərliyini və qarşılıqlı hörməti vurğulayır» (13, s.56).

Vətəndaş cəmiyyəti dövlətin ifrat müdaxilələrindən azad olduqca, ölkədə hüquqi dövlət quruculuğu şəraitində, azad bazar münasibətləri və azad sahibkarlıq inkişaf etdikcə, qanunvericiliyin rolu artdıqca, eləcə də hüquq münasibətləri genişləndikcə vəkilliyin və vəkillik fəaliyyətinin sosial dəyərləri artmaqda davam edəcəkdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunda tərtib olunmuş Azərbaycan Dilinin İzahlı Lüğətində bir qurum kimi vəkilliyə anlayış verilmir, «vəkillik» termini vəkilin gördüyü iş, vəkil vəzifəsi, yəni fəaliyyət növü kimi şərh olunur (2, s.477). Bu o deməkdir ki, hətta dilçilərimiz belə vəkillik sözünün dilimizdə müxtəlif mənada işlədildiyini nəzərdən qaçırırlar: vəkillik – vəkil peşəsinə mənsub olan şəxslərin təsis etdiyi qurum, qeyri-dövlət təşkilatı (hüquqi şəxs) kimi; vəkillik – fəaliyyət növü kimi və s.

Belə vəziyyətin nəticəsidir ki, istintaq və məhkəmə orqanlarının həddindən artıq yüklənməsi şəraitində artıq vəkilin fəaliyyəti ittiham dəlillərinin möhkəmliyini yoxlayan ixtisaslı rəqibin yardımı kimi yox, hüquq-mühafizə orqanlarının və məhkəmənin işində xoşagəlməz maneə kimi qəbul olunur (14, s.61).

Vəkillərin fəaliyyətinə xoşagəlməz münasibət ibtidai araşdırmanı qanunla tələb olunan səviyyədə apara bilməyən, iş üzrə bütün versiyaları araşdırmaq və təkzibedilməz sübutlar toplamaq əvəzinə istənilən üsulla «etirafedici ifadələr almağa» üstünlük verən qeyri-peşəkar təhqiqatçılar və müstəntiqlər arasında xüsusilə geniş yayılmışdır.

Konkret insanın cəmiyyətdə hüquq və azadlıqlarının müəyyən olunması və təmin edilməsi zərurəti, ittiham və müdafiə tərəflərinin daimi çəkişməsinin obyektivliyə doğru istiqamətləndirilməsini, dövlət və şəxsiyyətin maraqları arasında tarazlığın olmasını tələb edir. Bu problemin həlli ancaq Azərbaycanda vətəndaş cəmiyyətinin tam formalaşdığı, ədalət mühakiməsinin tam bərqərar olduğu şəraitdə mümkün ola bilər.

İki əsrə yaxın bir dövrdə çar Rusiyasının və SSRİ-nin qanunları ilə idarə olunmuş, 1991-ci ildə müstəqillik əldə etdikdən sonra öz qanunvericilik bazasını yaratmağa başlamış Azərbaycan Respublikasında vəkilliyin yaranması və inkişafı ilə bağlı proseslər bir qədər ləng getmişdir.

Vətəndaşların müdafiə və yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası ilə təsbit edilməsinə baxmayaraq vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu 28 dekabr 1999-cu ildə qəbul olunmuş, yeni Vəkillər Kollegiyası isə 2004-cü ilin sonlarında təsis edilmişdir. Tarixi baxımdan qısa bir müddət ərzində, yəni 2001-2011-ci illərdə həmin qanuna ondan çox əlavə və dəyişikliklər edilmişdir. Bir sıra hallarda bu intensiv qanunvericilik fəaliyyəti və qanunun təkmilləşdirilməsi prosesi kimi qələmə verilsə də, əslində bunlar qanunun natamam və qüsurlu olmasının nəticəsidir.

Hazırda Azərbaycan Respublikasında vəziyyət dəyişməkdədir. Vəkillik daha özünü hüquq-mühafizə orqanlarının əlavəsi hesab etmir. Vətəndaş cəmiyyətinin və təsərrüfat fəaliyyətinin inkişafı prosesində vəkillərin işində ağırlıq mərkəzi əsasən cinayət prosesində bir insanın hüquqlarının müdafiəsindən onun iqtisadi və siyasi hüquqlarının müdafiəsinə, eləcə də bazar iqtisadiyyatı şəraitində mülki-hüquq münasibətlərində sahibkarların maraqlarının müdafiəsinə doğru dəyişir. Hər bir vətəndaş istənilən dövlət nümayəndələri ilə təmasda olarkən vəkilin köməyindən istifadə etmək hüququna malik olması hüququn hamılıqla qəbul olunmuş fərdi göstəricisidir ki, bu da hamı üçün məhkəmənin əlçatan olmasına yol açan hüquqi təminatdır.

Ölkəmizdə vəkillik institutunun fəaliyyəti Azərbaycan Respublikası Konstitusiyasının vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüquqlarına təminat verən 61-ci maddəsindən irəli gəlir. Yəni, vəkilliyin hüquqi yardım göstərilməsi və müdafiənin həyata keçirilməsi üzrə fəaliyyəti Konstitusiyaya əsaslanır.

Vətəndaşlara hüquqi yardım göstərilməsinin əlçatan olmasının təmin edilməsi və vəkillik fəaliyyətinə yardım göstərilməsi məqsədilə müvafiq dövlət orqanları vəkilliyin müstəqilliyini təmin edir, Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulan hallarda Azərbaycan Respublikası vətəndaşlarına pulsuz hüquqi yardım göstərən vəkillərin fəaliyyətini maliyyələşdirir.

Azərbaycan Respublikasında hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna başlanılması vəkilliyin və vəkillərin cəmiyyətdə oynadığı rolun əhəmiyyətli dərəcədə dəyişməsinə, yeni hüquq münasibətlərinin meydana çıxmasına və inkişaf etməsinə, eyni zamanda vəkil birliyinin özünün daxilində özünüdərketmə prosesinin sürətlənməsinə şərait yaradır.

Yüksək keyfiyyətli hüquqi yardım göstərilməsi yolu ilə fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni maraqlarının təsirli müdafiəsi vəkilliyin təşkili və fəaliyyətinin aşağıda göstərilən demokratik-hüquqi prinsipləri ilə təmin olunur: qanunun aliliyi, demokratizm, humanizm, ədalət, müstəqillik (*onun işinə dövlət orqanlarının və digər qurumların müdaxiləsinə yol verilməməsi*), konfidensiallıq (*vəkilin köməyindən istifadə edən şəxsin ona etibar etdiyi məlumatların vəkil sirri kimi qorunması*) və s. Göstərilən prinsiplər vəkilliyin mahiyyətini müəyyən edir və onu cəmiyyətin hüquq-müdafiə sisteminin digər elementlərindən, dövlət hüquq-mühafizə orqanlarından, Azərbaycan Respublikasının hüquq-müdafiəsi sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarından və digər qurumlardan fərqləndirir.

Azərbaycan Respublikasında vəkilliyin ümumi xarakteristikası «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanunun birinci maddəsinin 1-ci hissəsində aşağıdakı kimi müəyyən olunur: «*Azərbaycan Respublikasında vəkillik hüquq-müdafiə fəaliyyətini peşəkarcasına həyata keçirməli olan müstəqil hüquqi təsisatdır*».

Bundan bir qədər fərqli olaraq, Rusiya Federasiyasında vəkillik fəaliyyəti və vəkillik haqqında Federal Qanunun 3-cü maddəsinin 1-ci hissəsində vəkilliyə aşağıdakı anlayış verilir: «*Vəkillik vəkillərin peşə birliyidir və vətəndaş cəmiyyətinin institutu kimi dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının sisteminə daxil deyil*» (15).

Vəkilliyin anlayışının müəyyən edilməsinə ayrı-ayrı müəlliflər fərqli mövqedən yanaşırlar. Məsələn, A.Q.Kuçerena vəkilliyi vətəndaş cəmiyyətinin özünüidarəedən müstəqil institutu, peşəkar hüquqşünasların dövlət tərəfindən hüquq normalarına riayət olunmasına nəzarət kimi ona həvalə olunmuş ictimai-hüquqi funksiyanı yerinə yetirərək ədalət məhkəməsinin həyata keçirilməsində iştirak etməli və peşəkar səviyyədə ixtisaslı hüquqi yardım göstərməli olan ictimai korporasiyası kimi müəyyən edir (11, s.105). Q.A.Pavlova hesab edir ki, vəkillik müəyyən prinsiplər (*qanunçuluq, müştəriyə loyallıq göstərilməsi, vəkil etikasına riayət olunması, müstəqillik, özünüidarəetmə, korporativlik, vəkillərin bərabərliyi, peşəkarlıq*) əsasında fəaliyyət göstərən, vətəndaşların ixtisaslı hüquqi yardım hüququna təminat verən ictimai institut kimi başa düşülməlidir (12, s.47). L.Y.Qrudsinanın fikrincə, vəkillik – vətəndaş cəmiyyətinin strukturu, hüquqşünasların könüllülük əsasında, insanlara ixtisaslı hüquqi yardım göstərmək formasında xidmət etmək məqsədilə yaradılmış peşəkar birlikdir (10, s.26-29).

Hesab edirik ki, göstərilən qanun normaları və müəllif fikirləri vəkillik institutunu bu və ya digər cəhətdən səciyyələndirir, bütünlükdə isə onun əsil mahiyyətini tam əks etdirmir.

Göstərilənlərə əsaslanaraq, vəkilliyin mahiyyətini belə müəyyən etmək olar: «*Vəkillik – fiziki və hüquqi şəxslərə onların hüquqlarının və qanuni maraqlarının müdafiəsinin təmin*

olunması üçün hüquqi yardım göstərilməsi məqsədilə yaradılmış, vəkil statusuna malik olan yüksək ixtisaslı hüquqşünasların qanunun aliliyi, demokratizm, humanizm, ədalət, könüllülük, müstəqillik, konfidensiallıq və digər bu kimi zəruri prinsiplərə əsaslanan peşəkar, qeyri-dövlət və qeyri-kommersiya birliyidir».

Açar sözlər: vəkillik, vəkil, vəkillik fəaliyyəti, hüquqi yardım, müdafiə hüququ.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2011.
2. Azərbaycan dilinin izahlı lüğəti. Ə.Orucovun redaktəsi ilə. Dörd cilddə. IV cild. Bakı: «Şərq-Qərb», 2006.
3. Hüquq ensiklopedik lüğəti. M.F.Məlikovanın redaktorluğu ilə. Bakı: Azərbaycan Ensiklopediyasının Baş Redaksiyası, 1991.
4. Vəkillər və vəkillik fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu. Bakı: Hüquq ədəbiyyatı, 2012.
5. Адвокат в уголовном процессе. М.: Новый Юрист, 1997.
6. Адвокатская деятельность: Учебно-практическое пособие /Под общ. ред. канд. юрид. наук В.Н. Буробина. Изд. 2, перераб. и допол. М.: ИКФ «ЭКМОС», 2003.
7. Баренбойм П.В., Резник Г.М. Адвокатура как защитник гражданского общества //Адвокат, 2004, № 8.
8. Бойков А.Д., Капинус Н.И. Адвокатура России: Учебное пособие. М.: Институт международного права и экономики имени А.С.Грибоедова, 2000.
9. Васьковский Е.В. Организация адвокатуры. 1 и 2 тт. С.-Петербург, типография П.П.Сойкина, 1893.
10. Грудцына Л.Ю. Адвокатское право. Учебно-практическое пособие. – «Деловой двор», 2009.
11. Кучерена А.Г.Роль адвокатуры в становлении гражданского общества в России. Дис. ... д-ра юрид. наук. М.: РГБ, 2003.
12. Павлова Г.А. Статус адвокатуры в Российской Федерации на современном этапе ее развития. Дис. ... канд. юрид. наук. М.: РГБ, 2005.
13. Петрухин И.Л. Вам нужен адвокат. М.: Прогресс, 1993.
14. Резник Г.М. Адвокатура в постсоветском обществе //Адвокат, 1998, №11.
15. Федеральный закон об адвокатской деятельности и адвокатуре в Российской Федерации. (Elektron resurs). URL. http://roszakon.narod.ru/downloads/za.htm (müraciət tarixi: 15.07.2015).
16. Чельцов М.А. Задачи советской защиты и процессуальное положение адвоката. Адвокат в советском уголовном процессе. М., 1954.
17. Советский юридический словарь. Под ред. С.Братусь, Н.Казанцев и др. 1953 г. (Elektron resurs). URL. http://www.infocation.org/slovar-s311.htm. (müraciət tarixi: 20.02.2015).
18. Хаски Ю. Российская адвокатура и советское государство. М., 1993.
19. Юридический энциклопедический словарь. М.: «Советская энциклопедия, 1993.

Айдын АЛИЕВ

НОВЫЙ ПОДХОД К ПОНЯТИЮ «АДВОКАТУРА»

Резюме

Статья посвящена проблемам определения понятия адвокатуры. В результате проведенного исследования, автор приходит к выводу, что адвокатура является профессиональным, негосударственным, некоммерческим объединением высококвалифицированных юристов, имеющих статус адвоката, действующих на основании принципов верховенства закона, демократизма, гуманизма, справедливости, добровольности, независимости, конфиденциальности, созданным в целях оказания правовой помощи физическим и юридическим лицам для обеспечения защиты их прав и законных интересов.

Ключевые слова: адвокатура, адвокат, адвокатская деятельность, правовая помощь, право на защиту.

Aydin ALIYEV

THE NEW APPROACH TO THE NOTION «ADVOCACY»

Summary

The article investigates the definition of the legal profession. As a result of the research, the author concludes that the advocacy is a professional, non-governmental, non-profit association of highly qualified lawyers, acting on the basis of the principles of the rule of law, democracy, humanism, justice, voluntarism, independence, privacy, established to provide legal assistance to individuals and legal entities to protect their legitimate rights and interests.

Keywords: advocacy, lawyer, advocacy activities, legal assistance, the right to protection.

UOT 34

Fikrət NƏBİYEV
b.e.i., fəlsəfə ü.f.d., AMEA FHİ

HÜQUQİ HADİSƏLƏRLƏ BAĞLI PSİXOLOJİ PROSESLƏR*

Hüquqi hadisələrlə bağlı psixoloji proseslər əsasında keçmişdə baş verən hüquqi hadisələrin beynimizdə yaranan obrazları hüquqi təsəvvür elementlərini yaradır. Ancaq heç bir inikas qeydə alınmır. Əvvəlcə müəyyən qavranılan informasiyalar müvəqqəti yaddaş mərkəzində qeydə alınır. Əgər bu cür informasiyalar daimi yaddaş mərkəzinə köçürülmürsə, o tezliklə yaddaşdan silinir (1, s. 53).

Hüquqi hadisələrin obrazının müvəqqəti yaddaş mərkəzindən uzunmüddətli yaddaş mərkəzinə köçürülməsi isə belə hadisələrin təkrar olma intensivliyindən, subyektin həmin hadisədən yaranan informasiyaya göstərdiyi maraqdan, qavranılan hadisənin qıcıqlandırıcı qüvvəsindən və davamlılığından asılıdır (2, s.156-172).

Əgər baş vermiş hüquqi hadisələr uzunmüddətli yaddaş mərkəzinə köçürülərsə, burada yaddaş təsəvvüründən fərqli olan təxəyyül təsəvvürləri əmələ gəlir. Təxəyyül təsəvvürlərində əmələ gələn surətlər qavrayış əsasında deyil, mövcud olan təsəvvürlərin birləşməsi yolu ilə baş verir.

Hüquqi hadisələrlə bağlı hafizə nə qədər elmi biliklərlə zəngin olarsa, o qədər də hüquqi ideyalar düzgün məzmunlu olar. Hüquq yaradıcılığı ilə bağlı fikirlərin mübadiləsi zamanı həmişə hafizənin materiallarından istifadə edilir.

Yaddaşında yaxşı təşkil olunmuş biliklər sisteminə arxalanan insan müdrik hesab edilir. Sistemə salınmış və bir-biri ilə əlaqədə olan biliklər yaradıcıdır. Bu cür biliklər yaddaşda uzun müddət qalır, dərk olunur və bu nəzəri hüquqi təfəkkürün məhsuludur.

Hüquqi ideyalar, hüquq normaları bilavasitə yazının köməyi ilə qanun şəklinə salınır və həmin informasiyalar insanların anlayacağı qaydada kodlaşdırılır. Bu cür informasiyaların verilməsində əsas məqsəd insanların davranışını arzu edilən parametrlərlə tənzimləməkdən ibarət olur.

Ümumiyyətlə, bir psixi sistemdən müəyyən hüquqi informasiyanın digərinə ötürülməsi aşağıdakı qaydada müəyyən edilmişdir: psixi yaddaşda yəni təxəyyüldə informasiyalar mövcud olmalıdır; belə informasiyalar yazılı simvollar vasitəsilə yəni, qeyri-psixi formada olmalıdır; qeyri psixi formada kodlaşmış hüquqi informasiya yenidən insanlar tərəfindən qəbul edilməli və yaddaşa köçürülməlidir (3, s. 28).

İctimai hüquqi şüura əsaslanan hüquqi ideyaları, hüquq normalarını, yəni psixi olanı qeyri-psixi olana çevirməklə, simvollar və yazılı rəmzlərlə modelləşdirməklə onları fərdi hüquqi şüura çevirmək mümkündür. Qanunlarla bağlı mətnlərin hazırlanması praktiki olaraq, psixi olanın yazılı rəmzlərlə şüurdan kənarda maddiləşməsidir. Sonra isə maddiləşən informasiya fərdi hüquqi şüura istiqamətləndirilir. Yəni mütləq qəbul edilən hüquqi akt cəmiyyət üzvlərinə çatdırılmalıdır. Əks halda hüquq yaradıcılığı başa çatdırılmamış hesab edilir. Məlumdur ki, psixi olaraq ancaq başqa şəxslər üçün tanış olan simvollardan istifadə edildikdə qarşılıqlı münasibət yaranır. Əgər subyektlər bir-birini başa düşmürsə, informasiya mübadiləsi yaranmır. Ona görə ki, bu cür halda tərəflərin fikirlərinin, yəni informasiyalarının simvolik olaraq uyğunlaşması baş vermir.

---

* Məqalə hüquq ü.e.d., professor Habil Qurbanov tərəfindən çapa məsləhət görülüb.

Belə ki, qarşılıqlı psixoloji əlaqəyə girmək üçün psixi informasiyaların müxtəlif insanlar tərəfindən eyni qaydada simvollaşdırılması lazımdır ki, insanlar bir-birini başa düşə bilsinlər. Bütün bunlara əsaslanaraq hüquq yaradıcılığı üçün əhəmiyyətli hesab edilən aşağıdakı cəhətləri qeyd edə bilərik: Hüquq yaradıcılığını müəyyən edən ictimai hüquqi psixi yaddaş, tarixi hüquqi praktika ilə bağlı olub cəmiyyətdə baş verən hüquqi hadisələr əsasında formalaşır. Hüquqi şüurun hüquqi hadisələrə münasibəti sosial ictimai rolla, maraq sahəsi ilə və sosial yönəlişlə əlaqədə baş verir; əvvəlki nəsillərə məxsus olmuş hüquq yaradıcılığı ilə bağlı informasiyaları nəzərə almaqla ictimai mühitdə yaddaşa köçürülən informasiyalar əsasında ictimai münasibətlərin mühafizəsinə ehtiyac hiss edilir, yəni, hüquq norması modelləşdirilir. Hüquq yaradıcılığı ictimai hüquqi şüurun fərdi hüquqi şüura təsiri nəticəsində baş verir. Hüquq yaradıcılığı insanların müəyyən ölçüdə davranışını tənzimləmək üçün hüquqi şüurun proqramlaşdırdığı fəaliyyətdir. İctimai hüquqi şüurda ideya əsasında qəbul ediləcək qanun yazının köməyi ilə simvollaşdırılaraq informasiya şəklində cəmiyyət üzvlərinə çatdırılır. Belə simvollar, yəni informasiya daşıyıcıları insanların başa düşdüyü formada ifadə olunmalıdır. Yəni qanunların cəmiyyət üzvləri üçün anlaşılar dildə olması məcburidir. Cəmiyyətdə ictimai hüquqi şüurun fərdi hüquqi şüura təsiri ancaq yazı simvolları ilə həyata keçirilə bildiyindən, bu hüquq yaradıcılığının əsas mərhələsi kimi qəbul edilməlidir; sonra hüquq yaradıcılığı vasitəsi ilə fərdlərə qəbul etdirilməli olan hüquqi informasiyalar rəsmi formada təsbit edilmiş olsa da fərddə həmin informasiyaları daxilən qəbul etməyə bir istək, bir yönəlişlik yoxdursa, bu yaddaş mərkəzinə qəbul edilsə də, şəxsin gələcək davranışının determinantı ola bilmir.

Hüquqi şüurun mahiyyətini öyrənmək üçün hüquqi şüuru təcrübə ilə, hüquqi fəaliyyətlə vəhdətdə öyrənmək olar, İ.E.Farberin fikrincə hüquqi praktikanın heç bir sahəsi hüquqi şüurdan kənarda mövcud deyildir (4, s.3). Doğrudan da mövcud qanunların dəyişdirilməsi, yəni qanunların yaradılması müəyyən ictimai münasibətlərinin tənzimlənməsi, qanun normalarının realizə edilməsi, ədalət mühakimə işinin təkmilləşdirilməsi kimi vəzifələrin həlli ancaq hüquqi iradə aktının təsiri altında baş verir. Hüququn funksional fəaliyyəti hüquqi struktura daxil olan elementlərlə və bütövlükdə hüquqi təsisatlarla birlikdə inkişaf edir.

Hazırda hüquqi şüurla siyasi, mənəvi şüur arasındakı qarşılıqlı əlaqə intensiv olaraq tədqiq edilir. Macar mütəfəkkiri İmre Sabo qeyd edir ki, pozitiv hüququ hüquqi şüurdan kənarda tədqiq etmək olmaz (5, s.342). Hüquqi şüurdan kənar hüquq yaradıcılığı və hüququn realizəsi mümkün deyildir. Yəni, hüquq və ictimai hüquqi münasibətlər insanların elmi fəaliyyətindən və iradəsindən asılı olaraq baş verir.

Hüquqi şüur başqa ictimai şüur formaları ilə əlaqədədir. Əks halda hüquqi şüurun formalaşması və funksional fəaliyyəti mümkün deyildir. Hüquqi şüurun funksional təsiri nəticəsində o ictimai şüurun formaları ilə o cümlədən siyasi, əxlaqi və s. ilə nisbi müstəqil sistem kimi həm öz daxili struktur elementləri ilə və həm də mürəkkəb sistemin müxtəlif sahələri ilə qarşılıqlı əlaqədədir.

Qeyd edilənlərə, əsasən, hüquqi şüurun fərqləndirici xüsusiyyətləri araşdırıla bilər. Sistemli struktur əsasında təhlil metodu ilə obyektin xassələrini onun hissələrinin xassələrinə əsasən tədqiq etmək olar. Yəni, ancaq ümumidən konkretə getmək və bunun əsasında nəticə çıxarmaq kifayət deyildir. Eyni zamanda həm də konkretlərdəki əsas cəhətləri araşdırmaqla konkretdən ümumiyə, induksiyadan deduksiyaya doğru yüksəlmək lazım gəlir.

Hüquqi şüurun funksiyalarının daxili və xarici təsir istiqamətlərini aydınlaşdırsaq görərik ki, hüquqi şüur müstəqil sistem kimi ictimai şüurla, xüsusən onun siyasi və əxlaqi şüur formaları ilə qarşılıqlı əlaqədədir. Hüquqi şüurun hüquqi ideologiya və hüquqi psixologiya, elmi praktika, ictimai və fərdi, adi və nəzəri şüur növləri, hüquqi hisslər, emosiyalar və hüquqi iradə kimi daxili ünsürləri arasında da əlaqə və təsir vardır. Hüquqi şüur

ictimai varlığı qavrayır, onunla seçici münasibətdə olur, ictimai proseslərin neqativ xüsusiyyətlərini müəyyən edir, ictimai münasibətlərin mühafizəsi üçün hüquqi şüurda müəyyən hüquqi normalar müəyyənləşdirir. Hüquqi şüur təxəyyüldə yaradılan normaların qanun şəklində şərh edilməsi üçün subyekti hüquq yaradıcılığı fəaliyyətinə istiqamətləndirir, hüquqi şüurda hüquqi xüsusiyyətləri şərtləndirən iqtisadi, ictimai, siyasi, ideoloji, təşkilati idarəçilik proseslərinin sabit və ya keçici olmasından asılı olaraq yaradılacaq hüquqi aktın yaradacağı nəticələri əvvəlcədən proqnozlaşdırır. Hüquqi şüur hadisələrin- məsələn, törədilən cinayətlərin, qanunların tədbiqindən yaranan ideyalar əsasında qanunvericiliyin təkmilləşdirilməsini təmin edir, sanksiyalaşdırılan normativ aktlar vasitəsilə fərdi şüura təsir göstərməklə onu arzu olunan davranış istiqamətinə yönəldir.

Beləliklə, hüquqi şüur əsasən sosial məqsəd və vəzifələri həyata keçirir. Hüquqi şüurun sosial məzmunu, fəaliyyət istiqaməti və xüsusi təsir üsulu cəmiyyətin yeri, rolu və dəyərini müəyyən edən fəaliyyətdir. Hüquqi şüur ictimai əlaqə və proseslərin qeyri-qanuni xüsusiyyətlərini hüquqi vasitələrlə neytrallaşdırır, dəyərləndirir, cəmiyyətin mühafizəsi üçün nəzərdə tutulan hüquqi normalarının qəbul edilməsinə, eyni zamanda baş verən hüquqi faktların dərk edilməsi və qanunun tətbiqinə yönələn hüquqi psixi fəaliyyət istiqamətlərini müəyyən edir.

Hüquqi şüur vasitəsi ilə baş verən təhlükəli əməllərin mahiyyəti aydınlaşdırılır, əmələn faktlara əsaslanan halları təhqiq edilir, qavrayış və təxəyyül vasitəsi ilə baş verən hadisənin obrazı yaddaşa köçürülür, əməllə bağlı nəzərdə tutulan qanunun norması müəyyən edilir, baş vermiş əmələn əlamətləri ilə cinayət tərkibini müəyyən edən əlamətlərin insan təfəkküründə müqayisəsi həyata keçirilir, nəticədə baş verən əmələn cinayət olması və ya olmaması barədə qərar qəbul edilir və bu da hüquqi aktda öz əksini tapır (6, s.8). Hüquqi şüurdan istifadə etməklə qanunların tətbiqi praktikası öyrənilir və bu istiqamətdə təkmilləşdirilmə işi həyata keçirilir. Hüquqi şüur sosial həyatı, ictimai təhlükəli əməllərlə bağlı əlaqələri təhlil etməklə, qanunların tətbiqi ilə bağlı məlumatları öyrənməklə, ayrı-ayrı hadisələri törədən səbəbləri proqnozlaşdırır və bunun da sayəsində cinayətkarlara qarşı mübarizə üçün planlaşdırma işi həyata keçirilir.

Yuxarıda qeyd edilənlərə əsasən hüquqi şüurun hüquqi hadisələrlə bağlı fəaliyyətə psixi yönəlişin müxtəlif istiqamətləri kimi baxmaq eyni zamanda hüquqi normalarda öz əksini tapan tələblərin insanlara göstərdiyi çəkindirici və ya davranışa vadaredici təsiri qeyd edilməlidir. Ancaq burada insanlara göstərilən təsirin mənbəyi hüquq normaları ilə (onun tətbiqi ilə bağlı olsa da) bilavasitə deyil, hüquqi şüur vasitəsilədir. Hüquq normaları, habelə baş verən hadisələrə görə tətbiq edilən qaydalar (normativ hüquqi aktlar) əvvəlcə cəmiyyət üzvlərinin hüquqi şüurunda qavranılaraq dərk edilir və qiymətləndirilir və bu əsasda da onun davranışına tənzimedici təsir həyata keçirilir.

Hüququn təsir istiqaməti statik vəziyyət almış hüquq normaları ilə bağlı olduğu halda, hüquqi şüur dinamik xarakterlidir. Göründüyü kimi hüququn təsir istiqaməti ilə hüquqi şüur arasında fərq vardır. Hüquq normalarının qanunla qorunan tələbləri ilə mövcud olan hüquqi şüur arasında eyni istiqamətli münasibət yarandıqda hüquqi şüur daha fəal olur, onun çəkindirici və tənzimləyici gücü daha da artır. Hüquq normalarının çəkindirici və tənzimləyici təsiri hakim sinfin hüquqi şüurunun qanunla təsbit olunmuş iradəsinin nəticəsi olduğundan onun mövqeyi ilə ayrı-ayrı şəxslərin hüquqi şüuru həmrəy olmaya da bilər. Mövcud olan qanunla insanlar arasında həmrəylik nə qədər az olarsa o qədər onun sosial bazası zəifləyər və nəticədə qanunun qoruyucu və tənzimləyicilik qabiliyyəti azalmış olar.

Hüquqi şüur və onun təsir istiqaməti dinamikdir. O, dəyişən həyatın tələblərinə uyğun olaraq həyata keçirdiyi hüquqi vasitələrlə fərdi şüura təsir edir və davranışı arzu olunan istiqamətə yönəldir.

Hüquqi şüur əsasında hüququn normaları deyil, eyni zamanda onun prinsipləri də dəyişdirilə bilər. Məsələn, 90-cı illərdə respublikamızın ictimai, iqtisadi və siyasi həyatında baş verən əsaslı dəyişikliklər siyasi və hüquqi təfəkkürdə də köklü dəyişikliklər yaratdı. Partiyalılıq və sinfilik prinsipləri əsasında qurulan və təbliğ edilən hüquq yeni dövrdə həyatın yaratdığı yeni tələblərə cavab vermədi.

Nəticədə hüququn bir sıra normaları yeniləşdirilmədiyindən, hüququn qoruyucu, tənzimləyici və tərbiyəedici funksiyaları zəiflədi.

Yeni dövrdə hüquqi şüurun ideyalarının təsiri nəticəsində yaradıcılıq işi həyata keçirildi, hüququn bir çox normalarında dəyişikliklər və əlavələr edildi.

Hüquqi şüur hüququn ideya mənbəyi kimi hüquqdan əvvəl gəlir və hüquq yaradıcılığında körpü rolunu oynayır. Hüququn hüquqi şüur əsasında yaranması, hüquqi şüurun ifadə forması olması fəlsəfi və hüquqi ədəbiyyatlarda verilmişdir (7, s. 70-135).

Hüquqi şüur hüquq yaradıcılığı yolu ilə, yaratdığı normalar vasitəsilə insanların davranışını lazım olan səmtə istiqamətləndirməsi ilə fərdi hüquqi şüura təsir edir. O cümlədən peşəkar hüquqi şüur vasitəsilə ictimai təhlükəli əməllərin qarşısını almaq üçün yaranan hüquq münasibətlərini tənzimləmək üçün həmin əməllərlə bağlı qanunu tətbiq etməklə həm ictimai təhlükəli şəxsi, həm də digər şəxsləri baş verə biləcək yeni ictimai təhlükəli əməldən çəkindirmək üçün onların hüquqi şüuruna təsir edir.

Fəal yaradıcı və tənzimedici rol oynayan hüquqi şüur və iradə vasitəsilə ictimai münasibətlər qaydaya düşür. Y.A.Lukaşeva qeyd edir ki, hüquqi şüur hüquq normaları ilə insanların fəaliyyəti arasında əlaqələndirici həlqə rolunu oynayır (8, s.248).

Hüququn tənzimedici təsirinə məruz qalan şəxs öz davranışını hüquq normalarının qaydaları ilə müqayisə edir və öz davranışını hüquq normasının tələblərinə qarşı qoyaraq ictimai təhlükəli şəxsə çevrilir.

Hüquqi şüur hüquqi tənzim mexanizminin hər mərhələsində hüquq norması, hüquqi münasibət, hüquq və vəzifələrin realizə aktı kimi öz funksional fəaliyyətini müəyyən edir. Hüquqi şüur şüurun başqa sahələri ilə, o cümlədən siyasi və əxlaqi şüurla birlikdə hüquqi tənzimetmə vasitəsi kimi ictimai həyatın sosial münasibətlərini əlaqələndirir.

Hüquqi tənzim prosesinin gedişində hüquqi şüur öz funksiyasını həyata keçirərkən öz başlanğıcını hüquq yaradıcılığı mərhələsindən götürür. Beləliklə, hüquq yaradıcılığında hüquqi tənzimləmə elementləri vardır. Hüquq yaradıcılığı zamanı ictimai münasibətləri mühafizə və tənzim edən tələblər hüquqi şüur vasitəsi ilə həyata keçirilir. Hüququn mühafizəsində, insan davranışının tənzim edilməsində hüquqi şüurun mühafizəedicilik qabiliyyətinə əhəmiyyət verilməlidir.

Cəmiyyətdə insanların könüllü sürətdə qadağalara riayət etməsi onların daxili inamına əsaslanır. Daxili inam isə mənəvi, siyasi və eyni zamanda hüquqi şüurla bağlıdır. Yüksək hüquqi şüura malik olan şəxsdə hüquqa inam, qanunun aliliyinə hörmət də çox olur.

İctimai təhlükəli əməllə bağlı qadağanedici normaların və onun cəza sanksiyalarının mövcudluğu ictimai təhlükəli əməl törətməyə meylli olan şəxslərə təsir etməklə onları qanuna zidd hərəkətlər törətməkdən çəkindirir. Professor N.D.Durmanova görə, hüquq normasının rolunu ancaq hadisə törəndikdən sonra normanın tətbiqi ilə bağlamaq düzgün deyildir.

Müəllifə görə hüquq norması ictimai təhlükəli əmələin törədilməsindən və sanksiyanın tətbiq edildiyi andan deyil, belə normanı nəzərdə tutan qanun dərc ediləndən və o qüvvəyə mindiyi andan real təsirini göstərir (9, s.101).

Belə hüquqi şüur yeni qanunun ümumiyyətlə xəbərdaredici təsirinin həlledici determinantı olur. Beləliklə, hüququn mühafizəedici və tənzimləyici funksiyaları istiqamətlərinin müxtəlifliyinə baxmayaraq bir-biri ilə əlaqəlidir. Hüququn mühafizəedici funksiyası bütünlüklə ictimai münasibətlərin mühafizəsinə yönəlir. (Bu hüququn xarici

funksiyasına aiddir). Hüququn tənzimləyici funksiyası hüquqi faktla, yəni əməllərin törədilməsi ilə məhdud sahədə yaranan ictimai münasibətləri tənzim etməklə əslində öz qoruyucu funksiyasına qovuşur. (Bu isə hüququn daxili funksiyasına aiddir). Bu funksiyalar birlikdə hüququn sosial təsir mexanizmini yaradır (10, s.144).

Qanunvericiliyin təkmilləşdirilməsi ancaq hüquqi şüurun iştirakı ilə mümkündür. Hüquq yaradıcılığı bir tərəfdən hüquqi ictimai şüura, onun hüquq yaradıcı funksiyasına əsaslanır, digər tərəfdən isə hüquqi şüurun vəziyyətindən asılıdır.

Hüquq yaradıcılığını şərtləndirən amillərin hamısı hüquqi şüur filtirindən keçərək hüququn determinantı rolunu oynayır (11, s.36). Hüquqi yaradıcılığa iqtisadi, ideoloji, siyasi, sosial, psixoloji, mənəvi və təşkilati-idarəçilik kimi sosial amillər təsir göstərir. Onlar hüquq normasından əvvəl mövcud olur və hüquq yaradıcılığının obyektiv əsasını təşkil edir. Sosial hüquqi amillərə hüquqi ənənələr, hüquqi psixi vəziyyət, eyni zamanda cəmiyyətin təhlükəsizliyi aiddir.

Hüquqi yaradıcılığa hüququn mövcud sistemi, hüquqi prinsiplər aid edilir. Hüquq yaradıcılığında determinant kimi çıxış edən hüquqi amillər də obyektiv və eyni zamanda subyektiv xarakterə malikdir. Hüquqi amillər mənşəyinə görə ictimai münasibətləri tənzimləmə vasitəsi olduğundan obyektiv xarakterlidir. Eyni zamanda həmin hüquqi amillər xalqın iradəsi və şüuru ilə bağlı olduğu üçün subyektiv təbiətlidir.

Problemlərdən biri də hüquq yaradıcılığının dövlətin, xalqın və ya sinfin mənafeyindən irəli gəlməsidir. Məsələn, materialistlərə görə hüquq hakim sinfin qanun dərəcəsinə yüksəldilmiş iradəsidir, bu iradənin məzmunu isə mənsub olduğu sinfin həyat şəraiti ilə müəyyən edilir (12, s.443).

Sovetlər dövründə hüququn sinfi iradəvi məzmunu həmişə əsas kimi qəbul edilirdi. İdeyaya görə antoqonist siniflərin olmadığı cəmiyyətdə hüquq cəmiyyətin fəhlə və digər zəhmətkeş sinfin iradəsini ifadə edir. Hüququn sinfi xarakteri onun obyektiv əlaməti kimi qeyd edilirdi. Hüquqda həmişə hakim sinfin mənafeyi, dövlətin mənafeyi, xalqın mənafeyi kimi anlayışlar mənaca eyni hüquqlu anlayışlar idi. Hazırda dövlət hakimiyyətin bölgüsü prinsipinə əsaslanır. Demokratik əsaslara malik olan dövlətlərdə qanunverici orqanın vəzifəsi qanunyaradıcılıq fəaliyyətindən və onu təkmilləşdirib inkişaf etdirməkdən ibarətdir.

Hüquqi dövlət qanunun aliliyinin təmin edilməsi deməkdir. Totalitar siyasi rejim şəraitində fəaliyyət göstərən Sovetlər dövründə qanunlar Kommunist partiyasının iradəsinə tabe edilmişdi. Totalitar sözü fransızcadan mənası dövlət hakimiyyətinin hər hansı qrup və ya siyasi partiyanın əlində cəmləşməsini ifadə edən siyasi quruluşdur.

Belə dövlətdə siyasi hakimiyyət demokratiyanı, siyasi müxalifəti məhv etməklə, cəmiyyəti tamamilə öz marağına tabe edən zorakılıqlardan ibarətdir. Burada dövlət terror, əhalinin mənəvi cəhətdən kölə halına salınması yolu ilə qorunur, cəmiyyətin bütün sahələrinə dövlət hakimiyyət orqanları bilavasitə özü nəzarət edir, konstitusion hüquq və azadlıqlar ləğv edilir (13, s.512-513). Məlumdur ki, əgər dövlətin iradəsi müəyyən sinfin və ya siyasi partiyanın iradəsidirsə, burada əsasən qəbul edilən qərarlar totalitar mahiyyətə əsaslanacaqdır. Bu halda müəyyən qrupun və ya sinfin iradəsini əks etdirən hakimiyyət mütləqləşdirilir. Xalqın hüquq və azadlıqları müdafiə edilmir.

Ancaq qanunla dövlətin iradəsi insanların təbii hüquqlarını qorumaq işinə xidmət etməlidir. Yəni, təbii hüquqların pozitiv hüquqlar əsasında aliliyi təmin edilməlidir. Bunun üçün qanunun totalitar xarakterli məzmunundan imtina edilməlidir. İnsanların təbii hüquqları onların doğulduğu gündən mövcud olsa da belə hüquqlar mütləq pozitiv qanunlarla əsaslandırılmalıdır (14, s.17).

Hüquqi normativ aktlarla müdafiə olunan ictimai münasibətlər dəyərləndirilərkən qorunan dəyərlər içərisində onun yeri düzgün müəyyən edilməlidir. Bu cür norma dəqiq,

aydın, iki və ya çoxmənalı olmamalıdır. Qərar vaxtında qəbul edilməlidir. Yəni, konkret tarixi şəraiti və obyektin vəziyyətini nəzərə almaqla hüquq yaradıcılığı həyata keçirilməlidir. Tamamlanmamış etibarlı olmayan informasiyaya əsaslanmış qanun özünü doğrulda bilməz. Belə qanunlar əsasında yaradılmış normalar tətbiq edilə bilməz. Ümumiyyətlə, hüquqi mühafizəsi zəruri olan ictimai münasibətlərin keçmişi və indiki vəziyyəti öyrənilməli və gələcək inkişaf istiqamətləri müəyyən edilməlidir (15, s.49).

Açar sözlər: hüquq yaradıcılığı, pozitiv hüquq, konstitusion hüquq və azadlıqlar, ictimai münasibətlər, hüquqi hadisələrlə bağlı psixi proseslər.

İstifadə olunmuş ədəbiyyat

1. Атиксон Р. Человеческая память и процесс обучения. Перевод с английского М.: Прогресс, 1980.
2. Линдей П., Норманн Д. Переработка информации у человека. Перевод с английского. М.: Мир, 1973.
3. Сорокин Питирим. Человек. Цивилизация. Общество. М.: Политическая литература, 1982.
4. Фарбер И.Е. Правосознание как форма общественного сознания. М., 1963.
5. Сабо И. Основы теории права. М., 1974.
6. Кудрявцев В.Н. Общая теория квалификации преступлении. М.: Юридическая литература, 1972.
7. Назаренко Е.В. Социалистическое правосознание и советское правотворчество. Киев, 1968.
8. Лукашева Е.А. Социалистическое правосознание и законность. М., 1971.
9. Дурманов Н.Д. Советский уголовный закон. М., 1967.
10. Коган В.М. Социальный механизм уголовно-правового воздействия. М., 1989.
11. Кузнецова Н.Ф. Социальная обусловленность уголовного закона. «Правовые исследования». Тбилиси, 1977.
12. Маркс К., Энгельс Ф. Сочинения. Т.4. М., 1976.
13. Словарь иностранных слов. М., 1989.
14. Макаров О.В. Соотношение права и государства. Журн. «Государство и право», 1995, №5.
15. Научные основы советского правотворчества. М.: Наука, 1981.

Фикрет НАБИЕВ

ПСИХИЧЕСКИЕ ПРОЦЕССЫ, СВЯЗАННЫЕ С ЮРИДИЧЕСКИМИ СОБЫТИЯМИ

Резюме

В статье отмечается, что теоретическое правовое сознание, как и вообще юридическая наука, являясь системой идей, выражает правовые интересы народа. Автор оценивает его как истинное сознание общества, отмечая, что каждый член общества может быть создателем таких идей. Таким образом, во всех случаях существует различие между правовым сознанием отдельной личности и общества. Юридическая психология, правовые знания социальных групп, классов, наций и народа

еще не систематизированы и осуществить это невозможно. Правовое сознание суть отражение правового события, происходящего в повседневной жизни людей и формирующего основу практики. Юридическая психология состоит из фрагментов, связанных с правовыми событиями и эмоциями. В ней существуют религиозные соображения и искаженные элементы реальности.

Ключевые слова: правотворчество, позитивное право, конституционное право и свободы, общественные отношения, психические процессы, связанные с юридическими событиями.

Fikret NABIYEV

PSYCHOLOGICAL PROCESSES RELATED TO THE JURIDICAL EVENTS

Summary

The article notes that the theoretical legal consciousness and jurisprudence of ideas systems in general express the legal interests of the people. It is appraised as a true consciousness of society, every member of which can be one of the creators of like ideas. Thus, in all cases, there is a difference between the legal consciousness of individuals and public legal consciousness. Juristic psychology, legal knowledge of the social groups, classes, nations and people have not been systematized yet and it is impossible to realize it. The legal consciousness is a reflection of legal development taking place in the daily life of the people that form the basis of practice. Juristic psychology consists of the sufferings associated with the legal events and emotional senses. In it the religious considerations and distorted elements of reality exist.

Keywords: law creation, positive law, constitutional right and freedoms, public relations, psychological processes related to juridical events lawful.

UOT 342

Daşqın QƏNBƏROV
hüquq ü.f.d., BDU

İNSAN HÜQUQ VƏ AZADLIQLARININ QORUNMASININ NORMATİV-HÜQUQİ ƏSASLARI*

İnsan hüquqlarının hər bir cəmiyyət üzvünün həyatı ilə, bu və ya digər fəaliyyət sahəsində onların özlərini təsdiq və ya reallaşdırmaq imkanları ilə qırılmaz şəkildə bağlı olduğunu əsaslandırmaq üçün əlavə arqumentlərə ehtiyac yoxdur. İnsan hüquqlarının tanınması və qorunması məsələsinin artıq çoxdan milli səviyyənin hüdudlarını aşması ondan xəbər verir ki, bu məsələ qlobal xarakter almışdır. Təsadüfi deyildir ki, milli qanunvericilikdə insan hüquqlarının tanınması və qorunması ilə bağlı olan məqamlar məhz müvafiq beynəlxalq normativ hüquqi aktların təsiri altında formalaşırlar və inkişaf edirlər.

Müasir cəmiyyətlərdə dövlətin yönünü və dünya ictimaiyyətinin inkişaf trendlərini insan hüquq və azadlıqlarının müəyyənləşdirdiyi artıq hamı tərəfindən qəbul olunur. Bu səbəbdən insan hüquq və azadlıqları problemi daha ciddi maraq mərkəzinə keçmişdir. İnsan hüquq və azadlıqlarının qorunması məsələsi ətrafında elmi-tədqiqat işlərinin çevrəsinin dayanmadan genişlənməsi qeyd etdiyimizi sübut edir. İnsan hüquq və azadlıqlarının tanınması, gözlənilməsi və qorunması ilə bağlı məqamlar müxtəlif qanunlarda və qanunqüvvəli sənədlərdə əksini tapmaqdadırlar. Problem ətrafında həyata keçirilən çoxsaylı, genişmiqyaslı elmi-tədqiqat işləri insan hüquqlarının qorunması ilə bağlı aşağıdakı prinsipial məqamların müəyyənləşdirilməsini şərtləndirmişdir:

- insan hüquq və azadlıqlarının ən ali dövlət səviyyəsində normativ-hüquqi təsbitinin zəruriliyi. Burada milli konstitusiyalar, ya da deklorasiyalar nəzərdə tutulur ki, onlar da insan hüquq və azadlıqlarının qorunması sahəsində ölkə qanunvericiliyinin inkişafı üçün konseptual əsas rolunda çıxış edirlər;
- insan hüquq və azadlıqlarının qorunması məsələsinin dünya düzəninin inkişafının proqram sənədlərində əksini tapması;
- insan hüquq və azadlıqlarının qorunmasının ümumi insan hüquqları deklorasiyaları, beynəlxalq paktlar əsasında təmin olunması (10, s.35).

Nəzərdən keçirdiyimiz bu məqamlardan aydın görünür ki, müasir mərhələdə insan hüquq və azadlıqlarının qorunması sahəsində ciddi tələblər mövcuddur və bu istiqamətdə normativ-hüquqi bazanın arealı kifayət qədər genişdir. Bu da, öz növbəsində insan hüquq və azadlıqlarının qorunmasının mexanizmlərinin daha da təkminləşdirilməsini təmin edir. Hesab etmək olar ki, insan hüquq və azadlıqlarının qorunmasının başlıca mexanizmi rolunda elə ayrı-ayrı dövlətlərin konstitusiyaları çıxış edirlər. Belə ki, hüquqların qorunmasının ən vacib prinsipləri məhz konstitusiyada əksini tapır. Şübhəsiz, insan hüquqlarının qorunmasının başlıca prinsipi və ya xüsusiyyəti onların insandan ayrılmaz olması ilə bağlıdır. Müasir hüquqi dövlətlərdə hüquqların ayrılmazlığı onların əsas xüsusiyyəti kimi nəzərdən keçirilir. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, konstitusiyada əksini tapmış insanın və vətəndaşın hər hansı bir hüququ dövlət tərəfindən alına bilməz və ya əsas məhdudiyyətlərin çərçivəsindən xaric məhdudlaşdırıla bilməz. Vətəndaş da öz növbəsində heç kəsin qarşısında öz hüquqlarından istifadə etməməklə bağlı öhtəliklər götürə bilməz. Əksər elmi ədəbiyyatlarda əsaslandırılır ki, hüquqların meydana gəlməsi üçün insanın doğulması faktı

* Məqalə hüquq ü.f.d. Samirə Eyvazova tərəfindən çapa məsləhət görülüb.

yetərlidir. Bildiyimiz kimi, ayrılmaz hüquqlar, sonrakı mərhələlərdə beynəlxalq aktların məzmununu təşkil edən insan hüquqları konsepsiyalarının əsasında dayanmışdır. Ümumdünya insan hüquqları bəyannaməsi, İnsan hüquq və əsas azadlıqlarının qorunması haqqında Avropa konvensiyası və insan hüquqları haqqında digər mühüm beynəlxalq paktlar (beynəlxalq müqavilələr) insan hüquqlarının və əsas azadlıqlarının qorunması vacib istinad nöqtələrini təşkil edir. İnsan hüquq və azadlıqlarının qorunması mexanizmləri rolunda da məhz bu mühüm sənədlər çıxış edirlər.

İnsan hüquqlarının qorunması probleminin normativ-hüquqi əsasları

Qeyd edək ki, bu beynəlxalq sənədlərdə insan hüquqlarının tanınması və qorunması mərkəzi problem kimi müəyyənləşdirilmişdir. İnsan hüquqlarının tanınması, gözlənilməsi və qorunması haqqında 1948-ci ildə qəbul olunmuş ilk mükəmməl beynəlxalq sənəd olan Ümumdünya insan hüquqları bəyannaməsində əsas insan hüquq və azadlıqları ilə bağlı kifayət qədər məqamlar yer almışdır. Sonradan qəbul olunmuş beynəlxalq hüquqi aktlarda bu məqamlar özlərinin rəsmi hüquqi qüvvə kəsb etmişdir (7, s.14).

İnsan hüquqları probleminin ayrı-ayrı dövlətlərin çərçivəsindən xeyli kənara çıxdığı müasir dünyamızda universal beynəlxalq-hüquqi standartların yaradılması zərurəti meydana çıxmışdır. Bu standartların yaradılması sayəsində insan hüquq və azadlıqları məsələsi yalnız dövlətlərin daxili işi statusunu itirərək beynəlxalq ictimaiyyətin başlıca probleminə çevrilmişdir. Bu da müvafiq olaraq insan hüquq və əsas azadlıqlarının qorunması mexanizmlərinin də beynəlxalq xarakter kəsb etməsini şərtləndirmişdir. Əsas insan hüquqlarının bir sıra mühüm beynəlxalq-hüquqi aktlarda əks olunması şəxsiyyətin hüquq və maraqlarının ümumbəşəri standartlarını müəyyənləşdirmişdir (11, s.23).

Qeyd edək ki, insan hüquqlarının beynəlxalq standartları dedikdə, müasir beynəlxalq hüququn müəyyən normaları başa düşülür. Bu normalar dövlətin elə ümumdemokratik tələblərini və öhdəliklərini nəzərdə tutur ki, dövlətlər özünün ictimai quruluğunu, milli inkişafını və s. nəzərə almaqla onları öz sistemində həyata keçirir və konkretləşdirir. Beynəlxalq qlobal və regional universal və xüsusi bəyannamələr, paktlar özlərində insanların hüquqi müdafiəsi sahəsində iki qrup standartları ifadə edirlər. Bunları aşağıdakı kimi təqdim etmək mümkündür:

- insan hüquq və azadlıqları;
- hüquqların məhdudlaşdırılması (9).

Beynəlxalq-hüquqi standartların ən böyük qrupunu insan hüquqları və azadlıqları təşkil edirlər. Bu hüquqlar ənənəvi olaraq şəxsi hüquqlara, siyasi, sosial-iqtisadi və mədəni hüquqlara bölünürlər. Bundan başqa, məhdudlaşdırıla bilinən hüquqlar və məhdudlaşdırmaya məruz qalmayan hüquqlar fərqləndirilir. Qeyd etdiyimiz bu qruplar ali mənəvi-hüquqi qüvvəyə malik olan beynəlxalq sənədlərdə müəyyənləşdirilir. Belə sənədlər sırasına, əsasən, aşağıdakılar aid edilir:

- Ümumdünya insan hüquqları bəyannaməsi;
- iqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt;
- mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt.

Bildiyimiz kimi, hər bir dövlətdə insan hüquqları ilk növbədə dövlətin konstitusiyasında və ya ona həsr olunmuş xüsusi bəyannamələrdə əks olunurlar. Mövcud qanunvericilikdə və müvafiq sənədlərdə konstitusiyada təsbit olunmuş insan hüquq və azadlıqlarının həyata keçirilməsi və qorunması mexanizmləri nəzərdə tutulur (8, s.53). Qeyd etdiyimiz bu məqam ondan xəbər verir ki, müxtəlif qanunvericilik aktlarında insan hüquq və azadlıqları göstərilməklə yanaşı, onların reallaşdırılması və qorunması məsələsi ilə bağlı da prinsipial məqamlar yer alır. Müasir hüquqi dövlətləri səciyyələndirən başlıca məqam da elə bundan

ibarətdir. Ümumiyyətlə, dünya səviyyəsində insan hüquq və əsas azadlıqlarının həyata keçirilməsi və qorunması mexanizmlərinin öyrənilməsi istiqamətində tədqiqat işlərinin nəzərə çarpacaq dərəcədə genişləndiyini müşahidə etmək mümkündür. Həqiqətən də, tədqiqatlarımız zamanı müəyyənləşdirdik ki, çoxsaylı elmi işlər insan hüquqlarının səmərəli qorunması mexanizmlərinə həsr olunmuşdur. İnsan hüquqlarının həyata keçirilməsi və qorunması mexanizmlərinin ayrı-ayrı aspektləri hüquqşünaslar tərəfindən dərindən tədqiq olunmuşdur və bu istiqamətdə elmi işlərin aparılmasında yüksək dinamizm müşahidə olunmaqdadır.

Bu istiqamətdə aydın müşahidə olunan tendensiyalardan biri də ondan ibarətdir ki, hüquqların qorunması mexanizmləri getdikcə daha çox universal xarakter alırlar. Yəni artıq qlobal səviyyədə insan hüquq və azadlıqlarının qorunmasının universal mexanizmləri inkişaf etdirilir və dünyada genişləndirilir.

Hazırki mərhələdə insan hüquq və əsas azadlıqlarının qorunması ilə bağlı kifayət qədər beynəlxalq bəyannamələr və paktlar mövcuddur. Bu sənədlərdə insan hüquq və azadlıqlarının qorunmasının mexanizmləri əks olunmuşdur. Dövlətlər insan hüquq və azadlıqlarının qorunması haqqında sazişlərə qoşulmaqla bu mexanizmləri öz vətəndaşlarının hüquq və azadlıqlarının qorunması istiqamətində tətbiq edirlər (4, s.103). Bəzən, eyni məsələni tənzimləyən bir neçə sənədin mövcudluğu da müşahidə olunur. Əksər hallarda dövlətlər bu sazişlərin hamısına qoşulur. Hesab edirik ki, insan hüquq və azadlıqlarının daha optimal qorunmasına imkan verən sazişə üstünlük verilməsi məqsədəuyğundur.

Ümumiyyətlə, qeyd edək ki, Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının qorunması məsələsi ciddi diqqət mərkəzindədir və bu istiqamətdə prinsipial addımlar atılır. İnsan hüquq və azadlıqlarının qorunması probleminə həssaslıqla yanaşılma aşağıdakı istiqamətdə addımların atılmasını şərtləndirmişdir:

- insan hüquq və azadlıqlarının qorunması sahəsində beynəlxalq müqavilələrə qoşulmaq;
- insan hüquq və azadlıqlarının səmərəli qorunması mexanizmlərinin təmin olunması üçün normativ-hüquqi aktların qəbul olunması;
- beynəlxalq hüquq normaları əsasında dövlətdaxili normativ-hüquqi aktların təkmilləşdirilməsi.

Göründüyü kimi, yuxarıda qeyd etdiyimiz istiqamətdə fəaliyyətin həyata keçirilməsi Azərbaycan Respublikasında insan hüquq və əsas azadlıqlarının etibarlı qorunması baxımından ciddi əhəmiyyət kəsb edir. 1995-ci ilin noyabr ayının 12-də qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqları ilə bağlı təsbit olunmuş məqamlar beynəlxalq insan hüquqları standartlarına diqqətlə yanaşıldığını sübut edir. Bu da, insan hüquq və əsas azadlıqlarının qorunmasının universal mexanizmlərinin Azərbaycanda da tətbiqini şərtləndirir. Azərbaycan Respublikasının Konstitusiyasında hakimiyyət qolları qarşısında qoyulan ən vacib vəzifə məhz insan hüquq və azadlıqlarının qorunması ilə bağlıdır. Azərbaycan Respublikasının Konstitusiyasının 26-cı maddəsinin birinci bəndində qeyd olunur: "Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır" (1). Qeyd etdiyimiz təkcə bu məqam ondan xəbər verir ki, ölkədə insan hüquq və azadlıqlarının qorunması üçün etibarlı normativ-hüquqi baza yaradılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 158 maddəsindən 48-nin insan hüquq və azadlıqlarına aid olması qeyd etdiyimizi təsdiq edir. Ölkəmizdə insan hüquq və azadlıqlarının həyata keçirilməsinə və qorunmasına aid olan konstitusiya müddəalarının optimallaşdırılması istiqamətində addımların atılması mütəmadi xarakter almışdır. Belə ki, 2002-ci il dekabrın 24-də "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu" qəbul edilmişdir. Tədqiqatçıların fikrincə, qəbul

edilmiş bu Konstitusiya Qanunu bir sıra məqamları ilə yanaşı, Avropa İnsan hüquqları Konvensiyasından irəli gələn öhdəliklərin yerinə yetirilməsinə xidmət etməsi baxımından da mühüm əhəmiyyət kəsb edirdi (5, s.3).

Bundan başqa, digər qanunvericilik aktları insan hüquq və azadlıqlarının səmərəli qorunmasının işlək mexanizmləri rolunda çıxış edirlər. Məsələn, 2011-ci ildə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" qəbul olunmuşdur ki, onun da başlıca məqsədi məhz insan hüquq və azadlıqlarının qorunması istiqamətində normativ-hüquqi bazanın təkmilləşdirilməsindən ibarətdir (2). Qeyd edək ki, Azərbaycan Respublikasında 2006-cı ildə də analoji fəaliyyət proqramı təsdiq olunmuşdur. 2011-ci ildə təsdiq olunmuş fəaliyyət proqramının səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, bu proqramda insan hüquq və azadlıqlarının qorunması ilə bağlı dövlət orqanlarının qarşısında yeni vəzifələr qoyulmuşdur. Azərbaycan Respublikasının Konstitusiyasının insan hüquq və azadlıqları ilə bağlı müvafiq maddələrini nəzərdən keçirib təhlil etməklə, belə nəticəyə gəlmək mümkündür ki, ölkə Konstitusiyasında əks olunmuş hüquq və azadlıqlarla yanaşı, həm də onlardan doğan və qanunla əldə olunan başqa hüquqların qorunması da prinsipial məsələ kimi qoyulur (3, s.4).

Yuxarıda nəzərdən keçirdiyimiz bəzi məqamlardan da aydın göründüyü kimi, hər bir dövlət əsas insan hüquq və azadlıqlarının qorunması ilə bağlı məqamları daxili qanunvericiliyində təsbit edir və bu hüquqların qorunmasını fəaliyyətinin mərkəzi istiqaməti kimi müəyyənləşdirir. Həmçinin, qeyd edək ki, insan hüquq və azadlıqlarının qorunması məsələsi dövlətlərin "daxili işi" statusundan artıq çoxdan uzaqlaşmışdır. Yəni insan hüquq və azadlıqlarının qorunması beynəlxalq problem kimi səciyyələndirilir. Qeyd edək ki, insan hüquq və azadlıqlarının qorunması sahəsində beynəlxalq-hüquqi tənzimləmənin mövcudluğu vacib əhəmiyyət kəsb edir. Bu əhəmiyyət aşağıdakı istiqamətlər üzrə nəzərdən keçirilə bilər: (6, s.157)

- insan hüquqlarının təbii xarakteri, dövlətin daxili qanunvericiliyində kənarda və ondan asılı olmayaraq mövcud olması ideyası möhkəmləndirilir;
- insan hüquq və azadlıqlarının qorunmasının dövlətin daxili işi olmadığı diqqətə çatdırılır;
- əsas insan hüquq və azadlıqları ilə bağlı dövlətlər üçün ümumi standartlar müəyyən edilir;
- dövlətin insan hüquq və azadlıqlarının qorunması ilə bağlı öhdəliklərinə əməl etməsi səviyyəsinə nəzarət həyata keçirilir (6, s.157).

Göründüyü kimi, beynəlxalq normativ sənədlərdə yer alan məqamlar insan hüquq və azadlıqlarının etibarlı qorunması üçün təsirli normativ-hüquqi əsasları ifadə edirlər. Dünya dövlətləri insan hüquq və azadlıqlarının tanınması və qorunması ilə bağlı daxili qanunvericilik aktlarını yaradarkən məhz bu məqamlara istinad edir.

Qeyd edək ki, insan hüquq və azadlıqlarının qorunmasının normativ-hüquqi əsasları elə beynəlxalq müstəvidə inkişaf etdirilir. İnsan hüquqları sahəsində 70-dən artıq beynəlxalq müqavilənin mövcudluğu bu, qeyd etdiyimizi bir daha təsdiqləyir. Bundan başqa, Beynəlxalq Əmək Təşkilatı çərçivəsində də çoxsaylı sənədlər qəbul olunmuşdur ki, bu da insan hüquqlarının qorunmasının normativ-hüquqi əsaslarının sırasını əhəmiyyətli dərəcədə zənginləşdirir (6, s.161). Bu məqamda xatırlatmaq yerinə düşərdi ki, insan hüquqları ilə bağlı beynəlxalq müqavilələr, əsasən, dörd qrupda birləşdirilir. Bu qrupları aşağıdakı kimi təqdim etmək mümkündür:

- ümumi müqavilələr;
- xüsusi müqavilələr;
- ayrı-ayrı qrupların müdafiəsi ilə bağlı müqavilələr;

- ayrıseçkilik məsələlərini tənzimləyən müqavilələr.

Həmçinin, vurğulamaq lazımdır ki, çoxsaylı tövsiyə xarakterli sənədlər də insan hüquq və azadlıqlarının qorunmasının normativ əsası rolunda çıxış edə bilərlər. Tövsiyə xarakterli sənədlər insan hüquq və azadlıqlarının qorunması istiqamətində köməkçi hüqiqi mənbə kimi nəzərdən keçirilir. Dövlət insan hüquq və azadlıqlarının qorunması üçün daxili normativ-hüquqi əsaslar yaradan zaman, həmçinin tövsiyə xarakterli sənədlərə istinad etmələri təcrübəsi mövcuddur. Belə sənədlərin əksər hallarda nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qəbul olunması onların təsir gücünü əhəmiyyətli dərəcədə artırır.

Beləliklə, yuxarıda apardığımız qısa təhlillərdən aydın olur ki, insan hüquq və azadlıqlarının qorunması problemi getdikcə daha böyük aktuallıq kəsb etməkdədir. Bu istiqamətdə müşahidə olunan əsas tendensiya ondan ibarətdir ki, insan hüquq və azadlıqlarının qorunması məsələsi dövlətlərin daxili səlahiyyətləri çevrəsindən uzaqlaşmaqdadır. Hazırda insan hüquq və azadlıqlarının qorunması məsələsi qlobal problem kimi nəzərdən keçirilir. Müvafiq olaraq, insan hüquq və azadlıqlarının qorunması beynəlxalq hüquq kontekstində nəzərdən keçirilir. İnsan hüquq və azadlıqlarının qorunmasının normativ-hüquqi əsasları başlıca olaraq beynəlxalq sənədlər əsasında formalaşır və inkişaf edir.

Açar sözlər: insan hüquqları, dövlət, konstitusiya, normativ aktlar, beynəlxalq sənədlər.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Milli Məclisin nəşri, 1995.

2. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 27 dekabr, 2011-ci il //http://www.president.az/articles/4089

3. Azərbaycan öz milli Konstitusiyası ilə qanunçuluğu ideya və dəyərlər kimi təsbit etmişdir. /Xalq qəzeti. 2009, 12 noyabr, s. 4.

4. Əliyev Ə.İ. İnsan hüquqlarinin beynəlxalq-hüquqi müdafiəsinin sahəvi prinsipləri və Azərbaycan Respublikasinin dövlətdaxili qanunvericiliyi //Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, 2009, № 3, s. 100-110.

5. Əsgərov Z. Mükəmməl Konstitusiyanın banisi: Azərbaycanın özü qədər əbədi. //Azərbaycan, 2012, 2 may.

6. Hüseynov L. Beynəlxalq hüquq. Bakı, "Qanun", 2012.

7. Nəbibəyli Z., Cəlilbəyli İ. Beynəlxalq hüquq, idarəçilik və iqtisadiyyat. Bakı, 2010.

8. Борисенко А. Роль міжнародно-правових норм як джерел правового регулювання економічних прав громадян //Право України. 2006, № 5, с. 53.

9. Международно-правовые стандарты прав человека //http://b-bratstvo.ru/brat/mvd/mvd_files/mvd-13.html (müraciət tarixi: 27.10.15)

10. Самбор Н.А. Механизм реализации прав, свобод и интересов человека и гражданина //Права и свободы человека: проблемы реализации, обеспечения и защиты. (Материалы Международной научно-практической конференции, 5-6 июня 2011 года). Пенза-Прага: Научно-издательский центр «Социосфера», 2011.

11. Хворостов А.Ю. Неотчуждаемость прав человека. //Права и свободы человека: проблемы реализации, обеспечения и защиты. (Материалы Международной научно-практической конференции, 5-6 июня 2011 года). Пенза-Прага: Научно-издательский центр «Социосфера», 2011.

Дашгын ГАНБЕРОВ

НОРМАТИВНО-ПРАВОВЫЕ ОСНОВЫ ЗАЩИТЫ ПРАВ И СВОБОД ЧЕЛОВЕКА

Резюме

Автор статьи прежде всего обосновывает важность признания и обеспечения прав и свобод человека в деле развития любого общества. Раскрывая сущность проблемы защиты прав и свобод человека, он отмечает что на современном этапе она очень актуальна.

Далее анализируются некоторые аспекты нормативно-правовых основ защиты прав и свобод человека. Автор указывает, что национальное законодательство в области защиты прав и свобод человека в основном формируется и развивается на основе международно-правовых пактов. Большое внимание уделяется правовым основам защиты прав и свобод человека в Азербайджанской Республике.

Ключевые слова: права человека, государство, конституция, нормативные акты, международные документы.

Dashgin GANBEROV

STANDARD AND LEGAL BASES OF PROTECTION OF THE HUMAN RIGHTS AND FREEDOMS

Summary

In the article the author first of all, substantiates importance of recognition and ensuring the human rights and freedoms in the cause for development of any society. Revealing the essence of a problem of protection of the human rights and freedoms he notes that at the present stage it is very actual.

Further some aspects of the standard and legal bases of protection of human rights and freedoms are analyzed. The author indicates that the national legislation in the field of protection of human rights and freedoms is formed and develops in the main on the basis of international legal pacts. A great attention is also paid to legal bases of protection of human rights and freedoms in the Azerbaijan Republic.

Keywords: human rights, state, constitution, regulations, international documents.

UOT 340.1

Mirafərim SEYİDOV
a.e.i., hüquq ü.f.d., dosent, AMEA FHİ

AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASINDA DÖVLƏT İDARƏETMƏ ORQANLARININ FORMALAŞMASI*

Azərbaycan Demokratik Respublikası müstəqil Azərbaycan ideyasını müstəqil Azərbaycan iqtisadiyyatı yaratmaqla reallığa çevirmək üçün ciddi addımlar atdı. İstiqlalın görkəmli öndərləri olan M.Ə.Rəsulzadə, F.Xoyski, Ə.Topçubaşov və başqalarının sosial-iqtisadi baxışlarında elə bir demokratik cəmiyyətin qurulması nəzərdə tutulurdu ki, orada vətəndaşlar arasında siyasi bərabərliyin bərqərar edilməsi ilə yanaşı, sosial ədalətsizlik də aradan götürülsün. M.Ə.Rəsulzadənin «fikri, milli və siyasi istiqlalın kökü iqtisadi istiqlaldır» konsepsiyası Azərbaycan Demokratik Respublikasının bütün fəaliyyəti dövründə daim diqqət mərkəzində saxlanılırdı (1, s. 57).

Azərbaycan Demokratik Respublikasının dövlət quruluşunun parlamentli respublika forması hakimiyyətin bölünməsi prinsipində öz əksini tapırdı. Qanunverici hakimiyyət parlamentə, icraedici hakimiyyət isə parlament qarşısında məsul olan hökumətə məxsus idi. M.Ə.Rəsulzadə Azərbaycanın dövlət quruluşu haqqında yazırdı: «Millət məclisi məmləkətin bütün sinif və millətlərini təmsil edib, dövlətin təmamən taleyinə hakim idi. Onsuz heç bir əmr keçməz, heç bir məsrəf yapılmaz, heç bir müharibə başlanmaz, heç bir barışıq imzalanmazdı. Hökumət məclisin etimadını qazananda qalır, itirəndə düşürdü. Ortada hakim olacaq vasitə – vəzifə də yox idi. Parlament hakimi-mütləq idi» (6, s. 28).

Azərbaycan Demokratik Respublikasının ilk hökumət kabinetinin qarşılaşdığı mühüm məsələlərdən biri də Cənubi Qafqazda yaranmış respublikalarla, həmçinin digər qonşu ölkələrlə dostluq əlaqələrinin və mehriban qonşuluq münasibətlərinin qurulması vəzifəsi idi. Qonşu Gürcüstanla qarşılıqlı münasibətlərdə heç bir problem yox idi. Tərəflər aralarında olan problemləri danışıqlar yolu ilə, qarşılıqlı etimad əsasında həll edə bilmişdilər. Şimali Qafqaz xalqları ilə münasibətlərdə də ciddi problem yox idi. Ermənistanla normal münasibətlərin qurulması milli zəmində baş vermiş qırğınlar və müharibə, qarşılıqlı ərazi iddiaları səbəbilə yoluna qoyula bilmirdi. Hökumətin hesabat məruzələrində ayrı-ayrı nazirliklərin fəaliyyətindən danışılarkən məktəb və ədliyyə sistemlərinin qurulması, onların işlək hala gətirilməsi, dövlət idarələrində «türk dilini bilən adamların» müxtəlif dövlət vəzifələrinə təyin edilməsi ciddi irəliləyiş kimi qeyd olunurdu.

Baş nazir F.Xoyski hökumət kabinetinin fəaliyyəti haqqında hesabat məruzəsində hökumətə başçılıq edən bir kabinetin parlamentdə seçilib təyin edilməsinin vacibliyini səbəb göstərərək, əvvəlki heyətdən ibarət hökumət kabinetinin istefa verdiyini elan etdi (2, s. 33-36). Ölkədə formalaşmış partiya sistemi və siyasi qüvvələrin mövcud nisbətinə yaxşı bələd olan F.Xoyski 1918-ci il dekabrın 26-da yeni koalision hökumətin tərkibini parlamentin təsdiqinə təqdim etdi. Daha sonra F.Xoyski parlamentə bəyannamə təqdim etdi. Bəyannamədə Azərbaycanın müstəqilliyinin hərtərəfli şəkildə möhkəmləndirilməsi hökumətin qarşısına əsas vəzifə kimi qoyulurdu. Hökumət qarşısında duran digər mühüm vəzifə Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü qorumağa qadir olan güclü ordunun yaradılması idi. Hökumətin qarşısında maarif sahəsində, xüsusilə ana dilinin dövlət dili kimi geniş işlədilməsi,

* Məqalə hüquq ü.f.d. Aqşin Quliyev tərəfindən çapa məsləhət görülüb.

ölkədə yaşayan bütün xalqların mədəni inkişafı üçün bərabər şəraitin yaradılması, ərzaq probleminin həlli, nəqliyyat infrastrukturunun inkişafı, ədliyyə və məhkəmə sistemlərində islahatların həyata keçirilməsi kimi mühüm və təxirəsalınmaz vəzifələr dururdu. Bəyannamədə fəhlə və aqrar məsələləri barədə deyilirdi: «...Hökumət millət üçün olduğu aşkardır. Millətin əksəriyyəti fəhlə və kəndlilərdən ibarətdir. Hökumət bilir ki, torpaq kəndliyə verilməzsə, fəhlənin həyatı təmin edilməz isə, o hökumət yürüməz. Hökumət bunun üçün bir məsai nəzarəti düzəltməyə qərar verdi ki, ta ki fəhlələr də insan surətində dolana bilsinlər. Onların həyatı təmin olunsun... onlar lazımdır səkkiz saat işləsinlər, ondan artıq onları işləməyə qoymasınlar... Qaldı ki torpaq məsələsinə, hökumət bunu da sizə şadlıqla deyəcək ki, bu barədə parlament fraksiyaları həmrəydirlər. Hökumət buna binaən lazım bilir ki, torpaq əvəzsiz olaraq əkinçiyə verilsin» (2, s. 121-127). İşin mütərəqqi tərəfi bu idi ki, yeni koalision hökumətin təsdiq edilməsi və işə başlamasından dərhal sonra general Tompson bu hökuməti yeganə qanuni hakimiyyət kimi tanıması barədə bəyanat verdi (5).

Milli siyasət sahəsində Azərbaycanda yaşayan milli azlıqların hüquqlarına xüsusi diqqət yetirilirdi. Bu onların etiqad azadlığına sahib olmaları, öz milli və mədəni xüsusiyyətlərini saxlaya bilmələri ilə əlaqələndirilirdi. Yeni hökumət milli toqquşmalara yol verməyəcəyini öhdəsinə götürürdü.

1919-cu ilin dekabrında Azərbaycan Parlamenti açılanadək onun funksiyasını Milli Şura yerinə yetirirdi. Milli Şura bir çox cəhətlərinə görə Azərbaycan Parlamentinin özəyi hesab oluna bilərdi. 1917-ci ilin noyabrında Rusiya Müəssislər Məclisinə seçilmiş müsəlman deputatlar Milli Şuranın üzvü idilər.

Azərbaycan Demokratik Republikasının iqtisadi platformasında mülkiyyət plüralizmi dövlət mülkiyyəti, xüsusi, şəxsi, səhmdar, bələdiyyə mülkiyyəti və digər mülkiyyət formalarının inkişafı üçün bərabər imkanlar yaradılmasını nəzərdə tuturdu. Bolşeviklərdən fərqli olaraq, Demokratik Respublika liderləri fabrik, zavod, torpaq və digər əsas istehsal vasitələri üzərində xüsusi mülkiyyəti rədd etmirdilər. Hesab edirdilər ki, «bu cür mülkiyyəti tamamilə aradan qaldırmaq indiki vəziyyətdə insanların şəxsi təşəbbüs qüvvətini zorakı olaraq aradan götürür». Lakin xüsusi mülkiyyətin mövcudluğu mülkiyyətin tamamilə xırdalanmasına aparmamalı idi, xüsusən də, fabrik və zavodların xırdalanması yolverilməz hesab olunurdu. Respublikanın iqtisadi qanunvericiliyinə görə dövlət mülkiyyətinə «dövlətin sərvət və gəlir qaynağını təşkil edən yeraltı mədənlər», həmçinin «dəmir yolu, işıq, su, teleqraf və sair bu kimi ümumi işlərə xidmət edən quruluşlar» daxil edilirdi.

1919-cu ilin avqustunda "Azərbaycan Cümhuriyyəti əhalisinin torpaq təminatı haqqında" və "Xüsusi sahibkar meşələrinin dövlətin mülkiyyətinə çevrilməsi haqqında" qanun layihələri hazırlanaraq baxılması üçün parlamentin müzakirəsinə verildi (7, s.441).

Təqdim olunmuş qanun layihəsi Azərbaycan Demokratik Respublikasının aqrar proqramının əsasını təşkil edirdi və bu sənəd müsavat partiyasının mövqeyi ilə uyğunlaşırdı. Eyni zamanda əkinçilik nazirliyinin mövqeyini əks etdirən aqrar layihəsi də var idi. Müəyyən fərqlərə baxmayaraq, hər iki layihənin məqsədi torpaqsız və aztorpaqlı kəndliləri torpaqla təmin etmək idi. Məqsəd heç də xüsusi torpaq mülkiyyətini ləğv etmək deyildi. Torpağı xüsusi mülkiyyətə elə istehlak normaları üzrə vermək nəzərdə tutulurdu ki, həm kəndli gəlir əldə edə bilsin, həm də istifadəsiz xüsusi sahibkar torpaqları qalmasın.

Müsavat fraksiyasının qanun layihəsində torpaqların əvəzsiz paylanması, nazirliyin qanun layihəsində isə müəyən haqq müqabilində verilməsi nəzərdə tutulurdu. Müsavatın təqdim etdiyi aqrar qanunu layihəsində sahibkarların mülkiyyətində 75 desyatin, digər qanun layihəsində isə şəpaitindən asılı olaraq, müxtəlif miqdarda torpaq sahəsinin saxlanması müəyyən edilmişdi.

Fəaliyyəti dövründə Azərbaycan hökuməti təsərrüfat məsələlərinin həllinə də ciddi diqqət yetirirdi. Bu baxımdan neft sənayesi əlahiddə mövqe tuturdu. Qısa fəaliyyəti dövründə hökumət

neft sənayesini ağır vəziyyətdən çıxarmış, dağıdılmış Bakı-Batum neft kəməri bərpa edilmiş, Bakı-Culfa dəmir yolu xəttinin tikintisi davam etdirilmiş, Kür çayı üzərindən körpü salınmış, Azərbaycan Dövlət Bankı yaradılmış, dövriyyəyə milli pul nişanları buraxılmış, Xəzər dəniz gəmiçiliyinin inkişafı istiqamətində müvafiq işlər görülmüşdü. Yenicə müstəqil addımlarını atan Azərbaycan dövlətinin əsas vəzifələrindən biri də maliyyə aparatının möhkəmləndirilməsi, xüsusilə dövlət gəlirlərinin artırılması, xərclərin mümkün qədər azaldılması və pul dövriyyəsinin tənzimlənməsi idi (9, s. 374). Azərbaycan Demokratik Respublikasının uğurlu maliyyə siyasətini xüsusilə qeyd etmək lazımdır. 1918-ci ilin əvvəllərində tədavülə yeni kağız pulun – Bakı bonunun buraxılması* milli pul vahidinin möhkəmləndirilməsi, alıcılıq qabiliyyətinin qorunması istiqamətində atılmış mühüm iqtisadi addım idi. Həmin dövrdə respublikada mövcud olan inflyasiyaya qarşı mübarizədə milli pul vahidinin tədavülə buraxılmasının böyük əhəmiyyəti oldu.

Normal pul dövriyyəsinin təmin edilməsi bir çox cəhətdən xarici ticarətin gömrük tənzimlənməsindən xeyli dərəcədə asılı idi. Bu çətinlikləri aradan qaldırmaq üçün strateji məhsul hesab edilən neft, pambıq mahlıcı, yun, ipək və tütünün xarici bazara əlverişli şərtlərlə çıxarılması çox mühüm vəzifə idi. Milli hakimiyyət qısa müddət ərzində ticarət, gömrük və bank-maliyyə sistemində özünün iqtisadi siyasətini formalaşdırmaq üçün bir sıra prinsipial təşkilati və hüquqi məsələlərə aydınlıq gətirməli idi (8, s. 69-76).

1919-cu ilin sentyabrında Azərbaycan Demokratik Respublikasının Dövlət Bankı açıldı. Ölkə sərhədləri daxilində mal-əmtəə mübadiləsinin tənzimlənməsi məqsədilə 1919-cu ilin avqust ayından Azərbaycana xaricdən gətirilən bir sıra zinət əşyalarına müvəqqəti olaraq xüsusi gömrük tarifləri tətbiq olunmağa başladı. Xarici ticarətin tənzimlənməsi və gömrük-tarif qanunvericiliyi ilə bağlı qanun layihələri, əsasən, maliyyə, ticarət, sənaye və ərzaq nazirliklərində, Mərkəzi gömrük idarəsində, sonralar isə Maliyyə nazirliyinin gömrük rüsumları şöbəsində hazırlanır, Nazirlər Şurasında baxıldıqdan sonra Parlamentin müvafiq komissiyalarına göndərilirdi. 1919-cu ilin aprelindən başlayaraq N. Yusifbəylinin yeni hökuməti ticarət və sənaye sahəsində daha liberal xətt yürütməyə başladı. Ərzaq naziri Ağa Əminov kütləvi istehlak mallarının möhtəkirliyinə son qoymaq üçün daxili bazarda azad ticarətin tətbiq edilməsi, xarici ticarət əməliyyatlarında «icazə» qaydasının ləğv edilməsinin tərəfdarı idi. Parlamentin üzvü Ə.Pepinov taxıl, pambıq, yun kimi bəzi ixrac mallarının üzərində dövlət monopoliyasının qoyulmasını tələb edirdi. Bu dövrdə xarici valyuta əldə etmək məqsədilə əmtəələrin azad satışına icazə verilməsi kimi mülahizələr də mövcud idi. Digər qrupdan olan Parlament üzvləri isə azad ticarət prinsipinin tətbiq olunmasını təklif edirdilər. Lakin bu mülahizələr onların tətbiqində ciddi çətinliklər ucbatından həyata keçirilmədi. Çünki qonşu dövlətlərlə əmtəə mübadiləsi sistemi üstünlük təşkil etdiyindən, azad ticarət prinsipinə keçid əlverişli ola bilməzdi. Azad ticarətin yalnız Azərbaycanda tətbiqi respublikadan hər şeyin ixracına səbəb olar, idxal isə minimum həddə yenərdi. M.Ə.Rəsulzadə qanunvericilik bazasının hələ zəif olduğu, kifayət qədər təlimat və qaydaların tətbiq olunmadığı bir şəraitdə xarici ticarətin dövlət inhisarına alınmasının əleyhinə çıxır, ixrac malları hesabına ölkəyə zəruri tələbat mallarının gətirilməsi fikrini müdafiə edirdi. Nəticədə Azərbaycan hökuməti xəzinəyə müəyyən rüsum vermək şərtilə, xammal ixracına icazə vermək qaydasını üstün tutdu.

Beynəlxalq iqtisadi əlaqələrin qurulması Azərbaycan hökumətinin qarşısında duran mühüm vəzifələrdən biri idi. İstiqlal Bəyannaməsində xarici ölkələrlə, yaxın qonşularla iqtisadi əlaqələrin yaradılmasına və genişləndirilməsinə böyük önəm verilirdi. Demokratik Respublikanın iqtisadi platformasında bir tərəfdən xarici ölkələrlə, xüsusilə yaxın qonşularla

* O vaxtadək tədavüldə «Nikolay pulları» və müvəqqəti hökumət dövründə buraxılmış «Kerenski» pul vahidləri istifadə olunurdu.

iqtisadi əməkdaşlığı asanlaşdırmaq, bu sahədə mövcud olan maneələri aradan qaldırmaq, digər tərəfdən isə bu qəbildən olan əməkdaşlığı dünyada qəbul olunmuş normalar əsasında həyata keçirmək nəzərdə tutulurdu. Hökumətin iqtisadi platformasında Demokratik Respublikanın yaradılmasından əvvəl formalaşmış iqtisadi əlaqələrə münasibət birmənalı idi. Bu əlaqələri kəsmək yox, müstəqil dövlətin qura biləcəyi iqtisadi əlaqələr kimi genişləndirmək daha məqsədəmüvafiq sayılırdı.

Hökumət Azərbaycanda fəaliyyət göstərən xarici kapital nümayəndələri ilə münasibətləri yeni əsaslar üzərində inkişaf etdirmək məqsədilə konkret addımlar da atırdı. Məsələn, Azərbaycan hökumətinin 1919-cu ilin oktyabrında qəbul olunmuş qərarında Böyükşor gölünün bir hissəsinin Nobel qardaşlarına icarəyə verilməsi nəzərdə tutulurdu. Ümumiyyətlə, Azərbaycanda xarici kapital və konsessiya məsələlərində həm Parlamentin, həm də xarici kapital nümayəndələrinin fikirləri üst-üstə düşürdü. Fransız kapitalistlərinin nümayəndəsi Manronun fikrincə, xarici kapitalın, o cümlədən fransız kapitalının Azərbaycana gəlməsi gənc müstəqil dövlətin yaranmasını və onun məhsuldar qüvvələrinin inkişafını təmin edirdi. Təsadüfi deyildir ki, hökumət kabinetinin başçısı N.Yusifbəyli Parlamentin 1919-cu il 22 dekabr tarixli iclasında elan etdiyi bəyannamədə güclü iqtisadiyyatın yaradılması zərurəti Azərbaycan Demokratik Respublikasının azad və müstəqil yaşamasının əsas şərti kimi göstərilirdi.

Hökumətin qarşısında duran mühüm vəzifələrdən biri də əhalinin zəruri mallara olan ehtiyacının təmin olunması və xəzinənin gəlirlərinin artırılması üçün müvafiq mənbələrin axtarılıb tapılması idi. Belə mənbələrdən biri də, şübhəsiz ki, gömrük gəlirləri idi. Bu və ya digər məhsulun xaricə satışına icazə verilməsi və ya onun qadağan edilməsi zamanı həmin məhsulun əhali üçün nə dərəcədə gərəkli olması, hökumətə nə qədər gəlir gətirməsi halları diqqətlə nəzərə alınırdı. Parlamentin Azərbaycan Respublikasının sərhədlərindən kənara xammal ixracının şərtləri haqqında qəbul etdiyi qanun da (11 dekabr 1919) Respublikanın xarici iqtisadi fəaliyyəti üçün çox əhəmiyyətli idi.

Azərbaycan Demokratik Respublikası xarici-iqtisadi siyasət sahəsində fəaliyyətini ancaq qanunların işlənib hazırlanması ilə məhdudlaşdırmır, onların həyata keçirilməsi istiqamətində də mühüm addımlar atırdı. Xarici dövlətlərlə əmtəə mübadiləsini qaydaya salmaq üçün ağır maliyyə şəraitində 20 milyon manatlıq fond yaradılmışdı və hökumətin 1919-cu il 12 fevral tarixli qərarı ilə bu fonddan 10 milyon manat həcmində kredit buraxılması qərara alınmışdı. Bundan başqa, Ticarət və Sənaye nazirliyi nəzdində «Xarici dövlətlər və bir-birinə yaxın sahələrlə əmtəə mübadiləsi komitəsi» fəaliyyət göstərirdi. Əmtəə mübadiləsi komitəsinin mühüm vəzifələrindən biri respublikanın iqtisadi və maliyyə vəziyyətinin əsasını təşkil edən neft ixracını və satışını təşkil etmək idi.

Azərbaycan Demokratik Respublikasının iqtisadi proqramında xarici iqtisadi-ticarət strategiyası mühüm yer tuturdu. Bu baxımdan Paris sülh konfransının Ali Şurasına Azərbaycan nümayəndə heyəti tərəfindən təqdim olunan memorandum böyük əhəmiyyət kəsb edirdi. Sənəddə iqtisadi əlaqələrin pozulması nəticəsində Azərbaycanda yaranmış iqtisadi-maliyyə böhranı faktlarla xarakterizə olunur, onun aradan qaldırılması üçün müəyyən məbləğ borc alınması, borcların isə respublikanın real malik olduğu neft, pambıq, yun, ipək hesabına ödənilməsi öhdəyə götürülürdü. Azərbaycan Demokratik Respublikası dövründə də neft sənayesi iqtisadiyyatın qabaqcıl sahəsi sayılırdı. Odur ki, parlament və hökumət neft hasilatı və emalının vəziyyətini vaxtaşırı təhlil edir, dünyanın neft bazarı konyukturasını öyrənirdi. Təbii sərvət iqtisadi inkişaf üçün maddi baza olsa da, iqtisadi qüdrət və gücün təbii sərvətdən asılılığının həmişəlik olmadığı və gələcəkdə dəyişəcəyi Azərbaycan Demokratik Respublikasının istinad etdiyi əsas iqtisadi müddəalardan biri idi.

Azərbaycan Demokratik Respublikasının fəaliyyətinin ilk dövrlərində iqtisadi çətinliklər həddsiz idi. Əvvəlki iqtisadi baza dağıdılmış, istehsal görünməmiş dərəcədə aşağı düşmüş, istehsal

vasitələri məhv edilmişdi. Torpaqların az bir qismi əkilirdi. Ölkənin sərvətləri kütləvi şəkildə xaricə daşınırdı. Belə bir şəraitdə iqtisadiyyatı bərpa etməyin böyük çətinlikləri var idi. Hökumətin ilk addımlarından biri sərvətlərin xaricə daşınmasının qarşısının alınması oldu. Ərzaq nazirliyinin 1918-ci il 24 iyun tarixli qərarında göstərilirdi ki, əhalini və ordunu zəruri məhsullarla təmin etmək üçün respublikadan kənara mal çıxarılması qadağan edilir. Bu qərara uyğun olaraq iyunun 27-də hökumət fərmanı elan edildi. Fərmana görə, taxıl və taxıl məhsullarının, pambıq, yun, dəri, ipək və onlardan hazırlanan məhsulların, metal və metal məmulatlarının, heyvanların və ət məhsullarının Azərbaycandan kənara çıxarılması qadağan edildi. Bakı azad edildikdən sonra dövlətin sərhəd keçid məntəqələrində, dəmiryol, dəniz və çay nəqliyyatında gömrük xidməti yaradılmağa başladı.

Azərbaycan hökuməti Bakıya köçdükdən sonra ilk növbədə neft sənayesinin dirçəldilməsinə diqqət yetirməyə başladı. Oktyabrın 1-də elan edilmiş hökumət fərmanı ilə neft sənayesinin və ticarət donanmasının «milliləşdirilməsi»nə aid Bakı Sovetinin qəbul etdiyi bütün qərarlar qeyri-qanuni hesab edildi. Mədənlər, zavodlar, gəmilər və neft sənayesi ilə bağlı milliləşdirilmiş bütün mülkiyyət əvvəlki sahiblərinə qaytarıldı. Hüquqları bərpa edilmiş sənayeçilər bu fərmana uyğun olaraq neft və neft məhsullarının ehtiyatı, habelə dağıdılmış müəssisələrin ehtiyacı barədə Ticarət və Sənaye nazirliyinə məlumat verməli idilər. Hökumət mədən sənayesinin əvvəlki sahiblərinə qaytarılması və bütün müəssisələr üzərində dövlət nəzarətinin həyata keçirilməsi üçün xüsusi komissiya yaratdı. Daxili bazarda və xarici ticarətdə neftin qiymətinin müəyyənləşdirilməsini dövlət öz əlində saxlayırdı. Artıq 1919-cu ilin yayından başlayaraq Azərbaycan hökuməti neft satışı ilə əlaqədar xarici şirkətlərlə iqtisadi sazişlər, ticarət kontraktları bağlamağa başladı. Bakı neftinin Avropa ölkələrinə çıxarılması üçün Azərbaycana Batumi limanından istifadə etmək hüququ verildi. Azərbaycan neftinin əsas istehlakçısı olan Rusiya ilə ticarətin dayanmasının böyük çətinliklər törətdiyini və belə davam edərsə, bunun daha da artacağını gizlətməyən N.Yusifbəyli bildirmişdi ki, bir-birinin daxili işlərinə qarışmamaq şərtilə Azərbaycan Demokratik Respublikası Rusiya ilə sülh və qarşılıqlı faydalanmaya əsaslanan dostluq münasibətləri qurmağa hazırdır.

Baş nazirin bu cür danışmağa əsası var idi. Çünki yığılıb qalmış təxminən 150 milyon pud neft və neft məhsullarını ixrac etməyin imkansızlığı respublikada neft hasilatının getdikcə azalmasına, bu isə, öz növbəsində, mədənlərdə işlərin ixtisarı və fəhlələrin işdən çıxarılmasına, dəhşətli bahalığa, kağız pulların sürətlə qiymətdən düşməsinə səbəb olurdu. İqtisadi vəziyyətin ağırlaşması Bakıda tətil hərəkatının güclənməsi ilə müşayiət olunurdu. Bundan da düşmən ünsürlər, xüsusilə bolşeviklər məharətlə istifadə edirdilər (3, s. 365).

Baş nazir N.Yusifbəyli yeni təşkil olunan hökumət kabinetinin bəyannaməsinin parlamentdə təqdimatını yekunlaşdırarkən demişdir: «...Hər şeydən əvvəl istiqbalımız qüvvətə və millətin əzminə möhtacdır. Birincisi, hərbiyyə nazirimizin müqtədir və təcrübəli əllərində olub, ikincisi isə, sizin əlinizdədir... Təşkil etdiyimiz hökumət aramızda bulunan bütün firqələri ehtiva etmir. Onun bütün, təbii, müxalifətdə qalanları dəxi sizin aranızda olacaqlar. Mən ancaq bir şeyə əminəm, o da istiqlaliyyət məsələsində olan birliyimizdir. və bunun üçün də var qüvvəmlə və böyük inamımla çalışacağımı vəd edirəm» (2, s. 443-450). Yeni hökumətin tərkibini xarakterizə edən M.Ə.Rəsulzadə qeyd edirdi: «Bu gün başdan-ayağa demokratik bir proqram ilə hüzurunuza çıxan hökumətin heyətinə əgər nəzər-diqqət etsəniz, bu heyət gənc bir heyətdir. Məlumdur ki, biz siyasətdə yeni təcrübəyə başlamış bir millətiz. Bizə şöhrətli bütlərdən ziyadə, əzmkar və namuskar xadimlər lazımdır. Yeni hökumətin... heyəti gənc olsa da, bizə ümid verir ki, demokratik proqramla hüzurunuza çıxan hökumət bəyannaməsindəki fəsillərin qövlən felə çıxarılması işində... əzm və səbat göstərəcəkdir...» (2, s. 453).

Lakin bütün bunlara baxmayaraq, Azərbaycanın sənaye potensialından lazımi səviyyədə istifadə etmək mümkün olmadı. Bu, dövrün ağırlığından irəli gələn bir sıra obyektiv səbəblərlə

yanaşı, subyektiv amillərlə də bağlı idi. Ən başlıcası, Azərbaycan hökumətinin iqtisadiyyatın mühüm sahəsi olan sənayenin və xüsusilə neft sənayesinin inkişaf etdirilməsi ilə bağlı aydın proqramı yox idi. Neft ticarətinin düzgün təşkil edilməməsi külli miqdarda neft məhsullarının aylarla anbarlarda yığılıb qalmasına səbəb olurdu ki, bu da öz növbəsində neft hasilatına mənfi təsir göstərirdi. Neft ticarəti ilə bağlı bəzi hallarda müşahidə edilən rüşvətxorluq və proteksiya halları iqtisadiyyata pis təsir göstərməklə yanaşı, hakimiyyətin nüfuzunu da aşağı salırdı, ona münasibətdə inamsızlıq meyillərini gücləndirirdi.

Ümumiyyətlə, milli dövlətin sosial-iqtisadi sahədə apardığı siyasətdə qətiyyətsizlik, qeyri-çeviklik, ictimai gerçəkliklə səsləşməmək kimi cəhətlər özünü göstərirdi. Gənc dövlətin aparıcı xadimləri müstəqil dövlətin yaranmasında xalq kütlələrinin ona arxa olması kimi vacib amili nəzərə almamışdılar. Bunun üçün məhz radikal xarakterli iqtisadi islahatlara ehtiyac duyulurdu. Bu sahədə tədbirlərin yubadılması xalq kütlələrində biganəlik, inamsızlıq yaradır, milli hökumətin və ümumiyyətlə, milli dövlətin nüfuzuna xələl gətirirdi. Bundan da onların siyasi rəqibləri, ilk növbədə, bolşeviklər məharətlə istifadə edirdilər.

Bununla belə, Abşeron yarımadasında çıxarılan 550-600 milyon pud neft o dövrün qiymətləri ilə respublikanın xərcini ödəmək səviyyəsində idi. Azərbaycanın mis mədənləri, yeni aşkar edilmiş filiz yataqları, ipək emalı, pambıqçılığı, pambıqtəmizləmə sənayesi, balıq vətəgələri, əlverişli geosiyasi vəziyyəti onun güclü iqtisadi potensiala malik olmasından xəbər verirdi. 1919-cu ildə məhz belə güclü iqtisadi potensial hesabına, böyük dağıntılara və təsərrüfat çətinliklərinə baxmayaraq, Azərbaycanın dövlət büdcəsinin mədaxil və məxaric hissələri arasında tarazlıq yaratmaq mümkün olmuşdu.

Azərbaycan dövləti öz gənclik dövrünü keçirirdi. Dövlət quruculuğu sahəsində müsbət nəticələrlə yanaşı, çoxlu nöqsanlar da mövcud idi. Siyasi çəkişmələr, bəzi partiyaların, siyasi qüvvələrin əksər hallarda barışmazlıq mövqeyindən çıxış etməsi, vahid platformanın yaradılmaması dövlətin formalaşmasına maneçilik törədirdi. Konkret fəaliyyətdə səriştəsizlik, qeyri-peşəkarlıq, müstəqillik ideyasına bağlı olan peşəkarların azlığı, məmurlar arasında geniş vüsət almış rüşvətxorluq, ona qarşı mübarizənin zəifliyi, dövlət quruculuğu işində ciddi çətinliklər yaradırdı.

Respublikada iqtisadi və siyasi vəziyyətin mürəkkəbliyi hökumətə etimad məsələsini irəli çıxarırdı. Koalision hökumətə etimad məsələsi hakimiyyətdə təmsil olunan partiyalar arasında birliyin olmamasını aşkar şəkildə nümayiş etdirdi. Bunu nəzərə alan Nazirlər Şurasının sədri N.Yusifbəyli 1919-cu il sentyabrın 13-də parlament sədrinə yazılı müraciət etdi və göstərdi ki, koalisiyaya girdiyi partiyalarla hökumətə etimadsızlıq bildirən sosialistlər arasında dərin ixtilaflar meydana çıxdığı üçün bundan sonra özünün baş nazir vəzifəsində qalmasını mümkünsüz hesab edir» (4). Müxtəlif siyasi partiyalar arasında ziddiyyətlər və mövqe ayrılığı yeni koalision hökumət yaratmaq imkanlarını məhdudlaşdırırdı. Buna görə də hökumət böhranı kifayət qədər uzun müddət – dekabrın sonunadək davam etdi. Heç bir partiya məsuliyyəti öz üzərinə götürüb koalision hökumət yaratmağa cürət etmirdi. Lakin eyni zamanda parlament və bütün nazirliklər fəaliyyət göstərməkdə davam edirdi.

Bununla belə, Azərbaycan Demokratik Respublikası ictimai-siyasi həyatın digər sahələrində olduğu kimi, müstəqil milli iqtisadiyyat quruculuğu və sosial sahədə də mühüm tədbirlər həyata keçirirdi. «Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamında göstərildiyi kimi, «gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlər xalqımızın tarixində dərin iz buraxmışdır». (1, s. 57).

Açar sözlər: Azərbaycan Demokratik Respublikası, parlament, baş nazir, hökumət, iqtisadi.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Xalq Cümhüriyyəti Ensiklopediyası. Bakı, 2004.
2. Azərbaycan Xalq Cümhuriyyəti. 1918-1920. Parlament. I cild, Bakı, 2004.
3. Azərbaycan tarixi. V cild, Bakı, 2001.
4. «Azərbaycan» qəzeti. 14 sentyabr 1919.
5. «Azərbaycan» qəzeti. 29 dekabr 1918-ci il.
6. İsmayılov E., Həsənov C., Qəffərov T. Azərbaycan tarixi. Dərslik. Bakı, 1995.
7. İsmayılov X.S. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, 2006.
8. Quliyev R. Azərbaycan Xalq Cümhuriyyətinin gömrük qanunvericiliyi sahəsində təcrübəsindən. Tarix institutunun elmi əsərləri. Bakı, 2008, cild 25.
9. Quliyev R. Azərbaycan Xalq Cumhuriyyəti və milli gömrük qanunvericiliyinin yaradılması //Dirçəliş. XXI əsr. Azərbaycan dövlət quruculuğu və Beynəlxalq münasibətlər İnstitutu. № 160-161, 2011-ci il.

Мираферим СЕИДОВ

ОРГАНЫ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

Резюме

Статья автора посвящена вопросам формирования органов управления Азербайджанской Демократической Республики в сложной политической и экономической ситуации. Особое внимание автор обращает на создание за короткое время дееспособного кабинета министров, рассматривает обширные сферы ее деятельности, анализирует влияние политической борьбы на становление экономических устоев государства.

Ключевые слова: Азербайджанская Демократическая Республика, парламент, премьер министр, правительство, экономический.

Miraferim SEIDOV

THE BODICS OF STATE GOVERNMENT OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

Summary

The article of the author is dedicated to the issues of the formation of the bodies of government of the young republic in the complicated political and economic situation. The author pays attention to creation of the cabinet of ministers capable of functioning for a short time, covers the wide spheres of their activities, analyzes an impact of the political struggle on the formation of the economic foundations of a State.

Keywords: the Azerbaijan Democratic Republic, parlament, prime minister, government, economic.

UOT 341

Xaliq ƏHMƏDZADƏ
a.e.i., hüquq ü.f.d., AMEA FHİ

MÜASİR DÖVRDƏ TERRORİZMƏ QARŞI ÇOXTƏRƏFLİ MÜBARİZƏNİN HÜQUQİ ASPEKTLƏRİ*

XX əsrin sonundan etibarən beynəlxalq münasibətlər kəskin böhran məngənəsində sıxılmaqdadır. Dövlətlərarası əlaqələrdə uzun müddət mürgüləyən müxtəlif biçimli problemlər tədricən siyasi böhran mərhələsinə daxil olmuş və bununla da beynəlxalq sülhü və təhlükəsizlik sistemini təhdid etməyə başlamışdır. Belə ağır və təhlükəli bir vəziyyətdən çıxaraq xilas olmağın ən məqbul və münasib yollarından biri də dövlətlərarası münasibətləri tənzimləyən mövcud qanunlara dönmədən riayət olunmasıdır.

Qeyd edək ki, hal-hazırda yer üzünə bütövlükdə təhlükə yaradan elə ciddi problemlər baş qaldırmışdır ki, onların cücərməsi və fəaliyyəti təkcə bir ölkənin və regionun hüdudları ilə məhdudlaşmayıb, bütün planeti öz məngənəsinə almışdır. Bu problemlərin sırasında beynəlxalq sülh və təhlükəsizlik üçün ən qorxulusu ətraf mühitin qorunmasında təzahür edən problemlər və şiddətli silahlanmanın geniş vüsət almasıdır. Belə bir vəziyyətdə canlı varlığı və ümumiyyətlə, təbiəti mühafizə etmək üçün etibarlı və məqsədyönlü beynəlxalq əməkdaşlıq sisteminin bərqərar olunması, ümumdünya səviyyəsində əhali artımının etibarlı beynəlxalq qanunlarla nizama salınması vacib şərtlərdəndir. Beləliklə, XX əsrin sonu XXI əsrin əvvəllərində bəşər tarixinə «beynəlxalq terrorizm» adlı yeni bir problem daxil oldu ki, özünün əhatə dairəsinə görə geniş zaman və təzahür etdiyi məkan baxımından çox qlobal mahiyyət daşımağa başladı (1). Hələ qədim dövrlərdə cücərərək, zaman keçdikcə təşəkkül tapıb formalaşan bu ümumbəşəri faciəyə qarşı kəskin mübarizə aparmaq üçün dövlətlər arasında ikitərəfli və çoxtərəfli formatda səmərəli əməkdaşlıq gündəmə gəlmişdir.

Tarixi kateqoriya kimi təzahür edən terrorizm, (2) irəlidə qeyd olunduğu kimi, məhdud məkan çərçivəsində XX əsrin əvvəllərinə kimi qapalı halda mövcud olmuşdur. Qeyd etmək lazımdır ki, tarixi mənbələrin verdiyi məlumata görə ilk dəfə terrordan bir mübarizə vasitəsi kimi, Fələstində yaşayan yəhudi mənşəli sikari tayfasının nümayəndələri Roma işğalçılarına qarşı istifadə etmişlər. İslam dini tarixində də terrordan bir alət kimi istifadə olunması faktlarına rast gəlirik. Məsələn, Məhəmməd peyğəmbərdən sonra islam dövlətini – xilafəti idarə edən 4 xəlifədən 3-nü – Ömər, Osman və Həzrəti Əlini məhz terror yolu ilə qətlə yetirmişlər. İran tarixçisi Təqi Davudi haqlı olaraq qeyd edir ki, qədim dövrlərdə terrordan bir vasitə kimi istifadə olunmasına təkan verən əsas amillərdən biri hakimiyyətin bir əldə toplanması olub. Bu üsuldan tarixdə «həşşaşilər» adı altında tanınan ismaililər təşkilatının üzvləri geniş istifadə etmişlər (3). Beləliklə, tarixdə ilk dəfə ismaililər hərəkatı dövründə təşkilatlanan «həşşaşilər» terrordan bir kəsərli vasitə kimi Səlcuqilər dövlətinə, həmçinin bu dövlətə himayədarlıq edən xilafətin başçılarına qarşı istifadə etmişlər.

Lakin XIX əsrin sonlarından etibarən terror əməliyyatları məhdud bir ölkə və ya region çərçivəsindən kənara çıxaraq geniş ərazilərdə yayılmışdır.Qeyd etmək lazımdır ki, beynəlxalq həyatda bu problemin yayılmasına təkan verən əsas amillər sırasında hər şeydən öncə müstəmləkəçilik sisteminin beynəlxalq aləmdə yaranması formalaşması oldu. Başqa xalqları asılı vəziyyətə salmaq, onlara məxsus milli sərvətləri talan etmək kimi zülm üzərində qurulan və zorakılıq qanunlarına əsaslanan bu sistemə qarşı mübarizədə müxtəlif dövrlərdə istifadə

* Məqalə hüquq ü.f.d. Bəxtiyar Əliyev tərəfindən çapa məsləhət görülüb.

olunan vasitələrdən biri də terror olmuşdur. Diqqəti çəkən məqamlardan biri də budur ki, beynəlxalq imperializmin yarandığı ilkin mərhələlərdə müstəmləkəçilərlə əlbir olan və onların əlində alətə çevrilən məmurlar da olub. Belə hallara Asiya, Afrika və Latın Amerikasında daha çox rast gəlmək olur.

Əlavə edək ki, bəşər tarixində insanların kütləvi şəkildə qətlə yetirilməsi Birinci Dünya müharibəsi dövründə baş vermişdir. Dəhşətli qırğınlarla müşayiət olunan bu faciənin baş verməsinə təkan verən amil məhz terror aksiyası (Avstriya-Macarıstan vəliəhdi Frans-Ferdinandın terrorçu tərəfindən qətlə yetirilməsi) olmuşdur. Göründüyü kimi, terrordan müxtəlif məqsədlər üçün, hətta müharibələr törətmək məqsədilə dövlət siyasəti səviyyəsində istifadə olunub. Beləliklə, bu terror əməliyyatı qabarıq bir şəkildə beynəlxalq mahiyyət kəsb edərək, nəticədə bu hadisəyə qarşı çoxtərəfli əməkdaşlıq çərçivəsində mübarizə aparılmasının zəruriliyini gündəmə gətirdi. Bu istiqamətdə ilk addım 1934-cü ildə Millətlər Cəmiyyəti tərəfindən terrorizmin qanundankənar elan olunması ilə atıldı. Bununla da terrorun beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid mənbəyi olması beynəlxalq birlik tərəfindən rəsmən bəyan edildi və ona qarşı kollektiv mübarizənin vacib olması Millətlər Cəmiyyəti kimi universal bir təşkilatın xəttilə təsbit olundu. Millətlər Cəmiyyətinin bu təşəbbüsü 1937-ci ildə terrorizmə qarşı mübarizənin hüquqi bazası olan Konvensiya qəbul olunması ilə nəticələndi. Lakin təəssüflər olsun ki, bu konvensiya İkinci Dünya müharibəsinin başlanması ərəfəsində qəbul olunduğu üçün qüvvəyə minmədi.

İkinci Dünya müharibəsinin başlanması ilə terrorizmə qarşı mübarizə müvəqqəti olaraq gündəmdən çıxdı. Dünyanı yenidən bölüşdürmək uğrunda başlanan bu müharibə bəşəriyyət üçün yeni faciələr, o cümlədən insanların kütləvi şəkildə qətlə yetirilməsi və maddi-mədəni abidələrin məhv olunması ilə nəticələndi. Müharibə qurtarandan sonra beynəlxalq həyatda bərqərar olan yeni sistem heç də terrorun insanların həyatından tamamilə silinməsi demək deyildi. Faciələrlə müşayiət olunan bu fenomen yeni forma və biçim alaraq daha təhlükəli şəkildə təzahür edərək, getdikcə geniş vüsət aldı.

Müstəmləkəçilik istismar və zülm üzərində qurulduğundan, təbii bir proses kimi, müharibə qurtarandan sonra ləğv olundu. Onun yerində daha iyrənc və təhlükəli bir istismarçı sistem – yeni müstəmləkəçilik bərqərar oldu. Yəni siyasi asılılıqla yanaşı, asılı iqtisadiyyat inkişaf etməkdə olan ölkələrin həm daxili siyasətinə və həm də beynəlxalq əlaqələrinə təsir göstərən amilə çevrildi. Bu dövrün xarakterik xüsusiyyətlərindən biri də o oldu ki, insan və onun hüquqlarına laqeydlik bütün dünya səviyyəsində hökm sürməkdə idi. BMT Nizamnaməsinin məlum müddəalarına və bütün dövlətlər tərəfindən qəbul olunmuş beynəxalq hüququn norma və prinsiplərinə zidd olan bu siyasət heç də əbədi ola bilməzdi və məhz buna görə də inkişaf etməkdə olan ölkələrdə milli-azadlıq hərəkatı müxtəlif forma və biçimdə təzahür etdi. Bu hərəkatda asılı vəziyyətə düşmüş xalqlar və onun qabaqcıl dəstələri müxtəlif metod və üsullardan istifadə edirdi. Onlardan biri də terror silahı idi. Buna görə də terrorizmə qarşı hər hansı bir əməliyyat apararkən birinci növbədə bu terrorun baş verməsinə təkan verən amillər və səbəblər dəqiqliyi ilə müəyyən olunmalıdır. Bu dövrdə beynəlxalq münasibətlərdə hökm sürməkdə olan soyuq müharibə, bu müharibəni təşkil edən fövqəldövlətlər arasında kəskin mübarizə getdiyindən artıq beynəlmiləlmiş terrorizmə qarşı vahid cəbhənin təşəkkül və formalaşmasına imkan verirdi. Belə bir vəziyyətin yaranmasına səbəb olan əsas amillərdən biri də fövqəldövlətlərin özlərinin qapalı bir şəkildə terrordan bir siyasi mübarizə vasitəsi kimi bir-birinə qarşı istifadə etmələri idi. Bu proses keçən əsrin 60-cı illərinin əvvəllərinə kimi səngimək bilmədən davam etdi. 60-cı illərin əvvəllərində bir-birinə zidd mövqedən çıxış edən iki cəbhə arasında nisbi isnişmə prosesinin ayrı-ayrı elementləri təzahür etdi. Soyuq müharibənin qütblərinə başçılıq edən Sovet İttifaqı ilə ABŞ-ın hərbi-sənaye kompleksləri arasında bərabərlik səviyyəsinin yaranması bu iki fövqəldövlət arasında

dünya siyasətində təzahür edən qarşıdurmaların güc tətbiq etmədən danışıqlar yolu ilə tənzimlənməsi iki dövlətin münasibətlərinin isinişməsinə səbəb olan əsas amil oldu. Belə bir şəraitin yaranması hər iki tərəfdən bir-birinə qarşı hədə və "əzələ nümayiş etdirmək" üsullarının əvəzində mövcud problemlərin danışıqlar yolu ilə nizama salınmasına və həll edilməsinə üstünlük verilməsinə gətirib çıxardı. İki fövqəldövlət arasında təzahür edən bu təmayül bütövlükdə beynəlxalq siyasətdən də yan keçmədi. Beynəlxalq münasibətlərdə özünü göstərən bu nisbi isnişmə getdikcə vüsət almaqda olan terrorizmə qarşı, qlobal problemə çevrilən terrorizmə qarşı vahid cəbhə çərçivəsində mübarizənin BMT müstəvisinə keçirilməsi üçün əlverişli imkan yaratdı. Beləliklə, iki fövqəldövlət BMT tribunasından bir-birini ittiham etmək vasitəsi kimi istifadə etməklə yanaşı, yeri düşəndə bu universal təşkilatın yaratdığı imkanlardan terrorizmi cilovlamaq üçün istifadə etməyə cəhd göstərirdlər. Belə münasib beynəlxalq mühitin yaranması nəticəsində 1963-cü ildən 2004-cü ilə kimi BMT və onun nəzdində fəaliyyət göstərən xüsusi təsisatlar xətti ilə terrorizmə qarşı mübarizəni hüquqi müstəviyə keçirmək məqsədilə 13 konvensiya və onlara əlavə olunan 13 protokol imzalandı.Beləliklə, beynəlxalq sülhü və təhlükəsizlik sistemini təhdid edən terrorizmə qarşı çoxtərəfli çərçivədə mübarizəni həyata keçirmək üçün etibarlı hüquqi zəmin yarandı. Bu sənədlər imzalanandan sonra beynəlxalq birlik qarşısında duran ən əsas vəzifələrdən biri də bu sənədlərdə təsbit olunmuş öhdəliklərin vicdanla yerinə yetirilməsi oldu.

Problemin olduqca ciddi və həllinin vacib olmasını nəzərə alaraq, 1994-cü ildə BMT-nin Baş Assambleyasında bu məsələ geniş müzakirə obyektinə çevrildi və nəticədə A/RES/49/60 saylı Bəyannamə qəbul olundu. Bu sənəddə terrorizmə qarşı mübarizədə beynəlxalq birliyin vahid cəbhədən çıxış etməsinin zəruri olması tövsiyə olundu. 1996-cı ildə isə bu Bəyannaməyə əlavə kimi A/RES/51/210 saylı qətnamə qəbul olundu. Qətnamədə BMT nəzdində terrorizmə qarşı daimi fəaliyyət göstərən xüsusi komitənin yaradılması qərara alındı.

Qəbul olunmuş konvensiyalar və onlara əlavə kimi imzalanan protokollar terrorizmə qarşı çoxtərəfli mübarizənin əsas bazasını təşkil etdiyi üçün onların qısa şərhinin verilməsini lazım bilirik:

1. İlk sənəd 1963-cü ildə qəbul olunan "Tokio Konvensiyası" adlanır. Bu sənəddə öz ifadəsini tapmış öhdəlik və vəzifələrdə hava nəqliyyatında terrorun qarşısını almaq vəzifələri çərçivəsində çıxış edərək dövlətlər üzərinə qoyulan öhdəliklər öz əksini tapdı. Bu sənəddə konvensiyanı qəbul edən bütün dövlətlərdən tələb olunur ki, sərnişin təyyarələrinin təhlükəsiz uçuşlarının təmin olunmasında beynəlxalq səviyyədə səmərəli əməkdaşlıq etsinlər.

2. 1970-ci ildə qəbul edilmiş Haaqa konvensiyasında qeyd edilir ki, uçuş əsnasında hər hansı bir hava gəmisinin ələ keçirilməsi prosesində zorakılığa yol verildiyi üçün bu əməl cinayət tərkiblidir. Buna görə də konvensiyanı qəbul edən dövlətlər sərnişin təyyarələrinin təhlükəsiz uçuşunu təmin etmək üçün əməkdaşlıq etməlidirlər.

3. 1973-cü ildə Monrealda qəbul olunmuş konvensiyada uçuş zamanı təyyarənin salonunda partlayıcı maddələrdən və o cümlədən bombalardan istifadə olunmasına qarşı mübarizənin bütün forma, metod və digər aspektləri öz ifadəsini tapır.

4. 1973-cü ildə qəbul olunmuş növbəti konvensiyada isə toxunulmazlıq hüququ olan insanlara, o cümlədən diplomatlara və onların ailə üzvlərinə qarşı cinayət törədən terrorçuların cəzalandırılması şərh edilib. Qeyd edək ki, uzun illər boyu erməni terrorçuları tərəfindən 35 türk diplomatına və dövlət xadimlərinə qarşı terror əməliyyatı həyata keçirilib.

5. Dünyada ən geniş yayılmış terror əməliyyatlarından biri də dinc insanların girov götürülməsidir. Bu cinayət tərkibli əməliyyatlarda ən çox zərər çəkənlər dinc əhalidir və faktlar göstərir ki, belə hallarda terror əməliyyatı çoxsaylı insanların qətlə yetirilməsi ilə nəticələnir. Qəbul olunmuş yeni konvensiyada bu cür əməllərə qarşı beynəlxalq əməkdaşlığın zəruri olması qeyd olunur.

6. 1980-ci ildə nüvə materialları adı altında xüsusi konvensiya qəbul olunur. Bu sənəddə təhlükəli nüvə materiallarını qeyri-qanuni yollarla mənimsəyən və ələ keçirən şəxslərə qarşı beynəlxalq səviyyədə cəza tədbirləri öz ifadəsini tapıb. Konvensiyada nüvə materiallarının müsadirə edilməsi və belə işlərlə məşğul olan şəxslərin ciddi cəzalandırılması qeyd olunub. Konvensiyada iştirak edən dövlətlərdən tələb olunur ki, bu istiqamətdə səmərəli əməkdaşlıq etməklə bədbəxt hadisələrin baş verməsinin qarşısının alınmasında yaxından iştirak etsinlər.

7. Beynəlxalq hava limanlarında qeyri-qanuni aksiya və əməllərə qarşı mübarizə haqqında yeni konvensiya qəbul olunub.Terrorçuların istifadə etdikləri üsullardan biri də beynəlxalq hava limanlarında zorakılıq əməllərinə əl atmaqla vahimə törətmək və hava uçuşlarının normal həyata keçirilməsinə əngəl törədilməsidir. Konvensiyada terrorçuların bu əməllərinə qarşı birgə fəaliyyət normaları və vasitələri öz ifadəsini tapıb.

8. Son dövrlərdə terrorçular tərəfindən dənizdə və digər su yollarında gəmilərə qarşı terror əməliyyatlarından istifadə olunur. Problemin ciddi olmasını nəzərə alaraq bu hadisənin baş verməsinin qarşısını almaq məqsədilə iki mühüm sənəd: 1988-ci ildə "Gəmiçilikdə terrorizmə qarşı" konvensiya və ona əlavə kimi, 2005-ci ildə isə xüsusi protokol qəbul olunub. Hər iki sənəddə qəbul edildiyi kimi, bu sahədə terrorçuluq əməliyyatları cinayət tərkibli olduğundan onlara qarşı mübarizə əməkdaşlıq xəttilə aparılmalıdır.

9. Terrorçuların hədəfində olan sahələrdən biri də kontinental şelfdə olan stasionar platformalardır. 1998-ci ildə qəbul olunmuş konvensiyada bu istiqamətdə baş verə bilən terror əməliyyatlarının baş verə biləcəyi ifadə olunub və bu əməliyyatların qarşısının alınması yolları şərh edilir. Həmin sənədə 2005-ci ildə bir protokol da əlavə olundu. Problemin ciddi olması hər iki sənəddə geniş şərh olunub və sənədlərə imza atan dövlətlərə tövsiyə olunur ki, öhdələrinə düşən vəzifələri vicdanla yerinə yetirsinlər.

10. Terrorçuların geniş istifadə etdikləri metodlardan biri də müxtəlif təyinatlı partlayıcı maddələrdən istifadədir. Bu maddələrdən terror əməliyyatlarında geniş istifadə olunur. Qəbul olunmuş konvensiyada qeyd olunur ki, həmin maddələrin kimyəvi üsullarla aşkar olunmasının yollarından biri də bu maddələrin işarələnməsidir. Plastik partlayıcı yalnız kimyəvi işarələnmə olduğu təqdirdə asanlıqla aşkar oluna bilər. Bu sənəddə partlayıcı maddələrin kimyəvi işarələnməsi sahəsində dövlətlər üzərinə düşən vəzifələr geniş şərh olunur.

11. Terror məqsədilə bombalardan da geniş istifadə olunur.1997-ci ildə bu təxribat və əməliyyatın qarşısını almaq məqsədilə yeni bir konvensiya qəbul olunub. Bu sənəddə ictimai yerlərdə, ələlxüsus çoxsaylı insan toplantısı olan yerlərdən primitiv şəkildə düzəldilən bombalardan geniş istifadə olunması öz əksini tapıb. Buna görə də bu ciddi faciənin qarşısının alınması üsulları və yolları beynəlxalq birlik üzərinə düşən vəzifələrdə təsbit olunub.

12. Terrorun baş verməsinə səbəb olan mühüm amillərdən biri də bu antibəşəri əməllərin həm fiziki şəxslər, həm də ayrı-ayrı dövlətlər tərəfindən maliyyələşdirilməsidir. Qeyd olunmalıdır ki, geniş maliyyə imkanları olmadan hər hansı bir terror əməliyyatının həyata keçirilməsi, əslində, qeyri-mümkündür. Buna görə də konvensiyada terrorizmi maliyyələşdirən mənbələrə qarşı beynəlxalq birliyin mübarizə yolları və üsulları geniş şərh olunub.

13. Müasir dövrdə beynəlxalq birlik qarşısında duran mühüm vəzifələrdən biri də nüvə terrorizminin qarşısının alınmasıdır. Bu, son dərəcə ciddi və bütün dövlətlərin bu sahədə fəal və səmərəli əməkdaşlığını tələb edən bir problemdir. Belə bir əməlin baş verməsinə imkan verməmək məqsədilə 2005-ci ildə xüsusi konvensiya qəbul olunub. Nüvə problemi ilə bağlı olan bir çox məsələləri əhatə edən bu sənəddə, dövlətlər arasında əməkdaşlığın bir çox aspektləri, o cümlədən atom-elektrik stansiyalarının mühafizəsi, nüvə reaktorlarının qurulması məsələləri şərh edilir.

Xülasə formasında təqdim olunan yuxarıdakı şərh belə bir nəticə çıxarmağa tam əsas verir ki, terror qədim tarixə malik olmasına baxmayaraq, yalnız İkinci Dünya müharibəsindən sonra vüsət alaraq beynəlmiləlləşmişdir. Bu fenomen hal-hazırda beynəlxalq sülhü və təhlükəsizliyi təhdid edən bir vasitə olduğuna görə ona qarşı hərtərəfli və təsirli mübarizə aparmaq beynəlxalq birlik qarşısında duran mühüm vəzifələrdən biridir. Bu mübarizənin təşkili və həyata keçirilməsi üçün yuxarıda qeyd olunan antiterror məqsədi daşıyan konvensiya və protokollar etibarlı hüquqi baza olmaqla çox mühüm siyasi və hüquqi əhəmiyyət kəsb edirlər. Əsas vəzifə bu sənədlərdə öz ifadəsini taparaq təsbit olunmuş öhdəçilik və vəzifələrin icrasına bütün dövlətlərin və beynəlxalq təşkilatların vicdanla yanaşmasıdır. Terrorla qəti mübarizə aparmaq beynəlxalq təhlükəsizlik sisteminin tərkib hissəsi olmaqla bütün dünyada sülh və əmin-amanlığın qorunmasına xidmət edir.

Qeyd etmək lazımdır ki, 2001-ci ilin 11 sentyabr tarixində Amerika xalqına qarşı həyata keçirilən terror əməliyyatı sübut etdi ki, dünyada heç bir ölkə terrordan sığortalanmamışdır (4). Terrorizmə qarşı qəti və kəskin mübarizə həm də insan hüquqlarının qorunması deməkdir. Humanizmə və insan ləyaqətinə qarşı antipod kimi təzahür edən terrorizmə qarşı mübarizə tam obyektiv və ardıcıl həyata keçirilməlidir. Bu baxımdan terrorun başvermə səbəbləri müəyyən olunmalıdır. Qeyd edək ki, bu səbəblər geniş spektrlı olmaqla, iqtisadi, hərbi-strateji, siyasi və ideoloji mahiyyət daşıya bilər. İraqda, Əfqanıstanda və "ərəb baharı" adı altında ərəb ölkələrində aparılan hərbi əməliyyatların arxasında, əslində, Qərbin aparıcı dövlətlərinin geoiqtisadi və geosiyasi maraqları gizlənmişdir. Buna görə də terror əməliyyatlarına qarşı mübarizəyə ictimaiyyətin geniş təbəqələrinin cəlb olunduğu təqdirdə terrorla mübarizə aparmaq adı altında beynəlxalq hüququn subyekti olan suveren dövlətlərə qarşı hərbi təcavüzə əl atılması hallarının qarşısı alına bilər.

Beynəlxalq terrorizm transmilli cinayətin tərkib hissəsi kimi çıxış edir. Terror əməliyyatlarının hansı ölkədə və nə zaman baş verməsindən asılı olmayaraq Yer kürəsində sülhün, sabitliyin və təhlükəsizliyin qorunub saxlanması üçün ciddi təhlükə mənbəyi olduğundan ona qarşı beynəlxalq əməkdaşlıq tam ciddiyyətlə həyata keçirilməlidir. Qeyd edək ki, terrorizm 1948-ci il dekabrın 10-da qəbul olunmuş insan hüquqları haqqında Bəyannamənin bütün müddəalarına zidd bir əməldir (5).

Açar sözlər: beynəlxalq terrorizm, çoxtərəfli siyasət, terrorizmə qarşı mübarizənin hüquqi aspektləri.

İstifadə olunmuş ədəbiyyat

1. Евгений Кожушко. Современный терроризм: анализ основных направлений. Минск: «Харвест», 2000.

2. Təqi Davudi, Nehzəte Həsən Səbbah. Zəncan (İran), 1992; Anar Həsənov, Beynəlxalq terrorizm, I hissə, Bakı, 2003, s.9-29.

3. Təqi Davudi. Göstərilən əsəri, s.95-100.

4. Elman Nəsirov. Amerika Birləşmiş Ştatlarının antiterror doktrinası və onun tətbiqi mexanizmləri, Bakı, 2010.

5. Əmir Əliyev. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi, Bakı, 2009.

Халиг АХМЕДЗАДЕ

ПРАВОВЫЕ АСПЕКТЫ МНОГОСТОРОННЕЙ БОРЬБЫ С ТЕРРОРИЗМОМ В СОВРЕМЕННЫЙ ПЕРИОД

Резюме

В статье исследуется генезис проблемы терроризма, которая заметно влияет на международные отношения, а также методы борьбы мирового сообщества с этим явлением. В статье подчеркивается, что одним из важных факторов для совместной борьбы против этого зла, является создание правовой базы сотрудничества государств в этой области. В статье также рассматриваются 13 конвенций и 3 протокола, которые составляют основу вышеупомянутой правовой базы.

Ключевые слова: международный терроризм, многостороняя дипломатия, юридические аспекты борьбы против терроризма.

Khalig AHMADZADE

THE LEGAL ASPECTS OF THE MANY-SIDED STRUGGLE AGAINST TERRORISM IN THE MODERN

Summary

In the article the origin of terrorism problem it’s impact on international relations, world community’s struggle against terrorism are investigated. One of the significant factors highlighted in the article, is the establishing of the legal base for cooperation of states for joint struggle against these evil. Also 13 conventions and 3 protocols, making up the legal base of states cooperation in this field are considered in the article.

Keywords: international terrorism, multilateral diplomacy, juridical aspects of the struggle against terrorism.

UOT 340.1.

Rahib ƏKBƏROV
tarix ü.f.d., dosent, AR Prezidenti yanında DİA

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ MÜLKİYYƏT MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİNƏ DAİR*

Azərbaycan Xalq Cümhuriyyətində mülki hüquq və mülkiyyət münasibətləri sahəsində Çar Rusiyası dövründə mövcud olmuş qanunvericilik normalarından istifadə etməkdə davam etsə də parlament yeni mülki hüquq sisteminə daxil olan institutların hüquqi bazasını möhkəmləndirməkdən ötrü bir sıra qanunlar hazırlamışdır. Bu məqsədlə parlamentin hüquq komissiyasında "Neft sənayesinin milliləşdirilməsinin ləğv edilməsi" haqqında qanun, həmçinin torpaq islahatlarının keçirilməsi ilə əlaqədar olaraq «Aqrar qanun» layihəsi müzakirə olunmuş, ən müxtəlif rəy və təkliflər irəli sürülmüşdür. Qanunverici orqanın işində yeni böyük qanun məcəllələrinin hazırlanması və qəbulu xeyli vaxt apardığından və həmçinin ictimai münasibətlərin inkişafına təsir göstərməsi baxımından onların qəbulu obyektiv olaraq yubanmış, parlament dövlətin və təsərrüfatın bütün sahələrində icrası məcburi olan ən vacib qanun və qərarların qəbul edilməsinə üstünlük vermişdir (1, s.60). Parlamentin fəaliyyəti üçün bu cəhət xarakterik xüsusiyyəti kimi səciyyəvi idi.

Azərbaycan Xalq Cümhuriyyətinin mülkiyyət münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirdiyi tədbirlər bir sıra amillərlə şərtləşmiş, ilk növbədə hökumət fəaliyyətə başladığı gündən iqtisadiyyatın iki mühüm strateji sahəsi olan neft sənayesinin və aqrar münasibətlərin tənzimlənməsi sahəsində ciddi tədbirlər görməyi nəzərdə tutmuşdur (4, s.434). Məhz AXC hakimiyyəti dövründə neft və torpaq mülkiyyət münasibətlərinin tənzimlənməsi xüsusi diqqət mərkəzində olmuşdur. Dövlətin iqtisadi gücünün, onun hərbi qüdrətinin möhkəmləndirilməsində mühüm iqtisadi münasibətlər sisteminə daxil olan hər iki mülkiyyət forması əhəmiyyətli rol oynayırdı. AXC hökumətinin mülkiyyət münasibətlərinin tənzimlənməsi sahəsində qəbul etdiyi mühüm qərarlardan biri neft sənayesi və ona aid əmlakların idarə edilməsi ilə bağlı idi. Digər mühüm sahələrdən olan torpaq mülkiyyəti formaları və onun tənzimlənməsi, ümumilikdə aqrar münasibətlər sahəsində islahatlar, Müəssislər Məclisinin çağırılmasından sonra isə, AXC hökumətinin həyata keçirməyi nəzərdə tutan əsas vəzifələrinə daxil idi. Lakin prespektiv üçün nəzərdə tutulan torpaq mülkiyyəti münasibətləri məsələlərinin qanunvericilik bazası Müəssislər Məclisinin qəbul edəcəyi qərarları əsasında tənzimləmək nəzərdə tutulurdu. Eyni zamanda, 1918-ci il iyunun 22-də Azərbaycan hökuməti Zaqafqaziya Seyminin torpaq islahatları haqqında qəbul etdiyi qanunun icra olunmasını dayandırmışdır. Qərara müvafiq olaraq, Müəssislər Məclisi çağırılana qədər torpaq islahatlarının keçirilməsi müvəqqəti təxirə salınırdı. Qərar verilənə qədər tutulmuş torpaqlar müvafiq strukturlara qaytarılırdı. Əkinçilik naziri X.Sultanova Müəssislər Məclisinin müzakirəsinə çıxarılacaq aqrar məsələlərlə bağlı materialları toplamaq, torpaq komitələrinin yenidən qurulması və ya ləğv edilməsi təkliflərini hazırlamaq tapşırılmışdır.

1918-ci il oktyabr ayının 1-də "Neft sənayesinin milliləşdirilməsinin ləğv edilməsi" barədə AXC hökuməti qərar etmişdi (2, 238). 5 bənddən ibarət olan qərar sənayenin bu növü üzrə hüquqi münasibətləri tənzimləyirdi. Qərara əsasən Bakı Xalq Komissarları Sovetinin ümumxalq mülkiyyəti elan etdiyi neft müəssisələri həqiqi mülkiyyətçilərin sahibliyinə qaytarılırdı. İlk növbədə neft sənayesi və onun təsərrüfat subyektlərinin, o cümlədən Bakı

* Məqalə hüquq ü.f.d. Bəxtiyar Əliyev tərəfindən çapa məsləhət görülüb.

quberniyasının ticarət gəmiçiliyi, həmçinin onun idarəçiliyinə aid edilən bütün müəssisələrin milliləşdirilməsinə dair Bakı Xalq Komissarlar Sovetinin verdiyi müvafiq bütün dekret və sərəncamlar ləğv edilmiş hesab edilirdi. Neft mədənləri, zavodlar, gəmilər və istisnasız olaraq bu müəssisələrin bütün əmlakları, həmçinin müəssisələr və onların idarə olunması, müəssisələrdə emal olunan neft və neft məhsullarının ehtiyatları təyin edildikdən sonra onlar sahiblərinə və ya sahib olmaq səlahiyyəti olan nümayəndələrə verilirdi. Ləğvetmə qərarı hər bir müəssisənin sahibkarının və ya idarə müdirinin məsuliyyətini müəyyən edərək Ticarət və sənaye nazirliyinə, onlarda olan neft və neft məhsulları ehtiyatlarının yerləşdiyi ərazi və onların həcmi barədə məlumat vermələrini tələb edirdi. Neft məhsullarının həcmi barədə səhih məlumat təqdim etməkdən yayınanların hərəkətləri, dövlətin sərəncamlarına tabe olmamaq kimi təfsir edilərək hərbi dövrün sərt qanunları əsasında cəzalandırmağı nəzərdə tuturdu. Məhz, 1918-ci il iyun ayının 23-də AXC-nin müvəqqəti hökuməti, ölkə ərazisində hərbi vəziyyətin tətbiqi ilə əlaqədar olaraq, ümumi məhkəmələrin icraatında olan bəzi cinayət əməlləri onlardan alınaraq təqsirkarları hərbi dövrün qanunları ilə mühakimə etmək barədə qərar qəbul etmişdi.

"Neft sənayesinin milliləşdirilməsinin ləğv edilməsi" barədə AXC hökumətinin qərarında Ticarət və sənaye nazirliyinin müvafiq icazəsi olmadan bütün neft və neft məhsulları ehtiyatlarının çəkilməsi və ya nəqliyyat vasitələri ilə daşınması qadağan edilirdi. Hökumətin xüsusi qərarı verilənə qədər bütün neft və neft məhsulları sahibkar mülkiyyətçi və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən bu məhsulların saxlanıldığı müvafiq müəssisələrə təhvil verilirdi. Ticarət və sənaye nazirliyinə bu qərarın faktiki həyata keçirilməsi üçün dərhal tədbirlər görülməsi tapşırılırdı.

Azərbaycan Milli Şurası və müvəqqəti hökumət torpaq münasibətlərinə xüsusi diqqət verirdi. Azərbaycan Xalq Cümhuriyyəti torpaq mülkiyyət münasibətlərinin tənzimlənməsini bilavasitə aqrar islahatların keçirilməsi ilə yekunlaşdırmağı nəzərdə tuturdu. 1919-cu il fevralın 24-də hökumət Əkinçilik Nazirliyinin tərkibində aqrar islahatlar və su təsərrüfatı üzrə şöbələrin yaradılması barədə qərar qəbul etmişdir (6). Eyni zamanda aqrar islahat şöbəsi müdiri və su təsərrüfatı müfəttişi müavini vəzifələri də təsis edilirdi.

1919-cu il iyunun 6-da hökumət aqrar islahatları sürətləndirmək məqsədilə Əkinçilik Nazirliyinə hərtərəfli yardım göstərilməsi barədə qərar qəbul etmişdi (2, s. 324). Əkinçilik Nazirliyinə iyunun sonlarına qədər aqrar islahatlar layihəsini Nazirlər Kabinetinin müzakirəsinə çıxarmaq həvalə edilmişdi. Torpaq mülkiyyəti münasibətləri dövlət həyatında mühüm əhəmiyyət kəsb etdiyindən, bu islahatlara xüsusi diqqət verilirdi. Məlum səbəblərdən bu proses eyni zamanda kənd əhalisinin milli hökumətə inamını şərtləndirən amillərdən idi. Sosialist yönümlü siyasi partiyalar, bu məsələlərdə həmişə milli hökumətə qarşı əks təbliğatlarını qurmağa çalışmışdılar. Azərbaycan Xalq Cümhuriyyəti parlamentin ən böyük fraksiyalarından olan «Müsavat» partiyası aqrar islahatlar «Əsasnamə» sini işələyib hazırlamış və onu qanunverici orqanın müvafiq komissiyasına 29 maddədən ibarət qanun layihəsi kimi təqdim etmişdi (3, s.465). İslahat proqramı parlamentin digər komissiyalarında da müzakirə edilmişdir.

Torpaq islahatı layihəsinə görə, hüquqi və fiziki şəxslər üçün müəyyən edilmiş normadan artıq olan torpaq sahələri onlardan alınaraq dövlət xəzinə fonduna daxil edilirdi (5, s.348). Torpaqsız və aztorpaqlı oturaq əhaliyə, həmçinin onlara bərabər tutulan fərdi və hüquqi şəxslərə, dövlət xəzinə fondu hesabından müəyyən edilmiş normaya uyğun torpaq ayrılırdı. "Əsasnamə"nin layihəsində respublikanın köçəri maldar əhalisinə veriləcək torpaq paylarının tənzimlənməsi qaydaları da müəyyən edilirdi.

Dövlət tərəfindən normadan artıq torpaq mülkü olan fərdi və hüquqi şəxslərdən kəsilib götürülmüş fonddan torpaqsız və ya aztorpaqlı əhaliyə verilmiş ərazilərin yeraltı sərvətləri (yerin təkindəki) yalnız dövlətə məxsus hesab edilirdi.

Azərbaycan Xalq Cümhuriyyəti ərazisində su ehtiyatlarından istifadə, suvarma sistemləri və qurğular və s. yeni qanunvericilik qəbul edilənə qədər əvvəlki mövcud qaydada saxlanılırdı. «Əsasnamə»yə görə respublika əhalisi üçün ayrılan torpaq fonduna həm kənd, həm də şəhər ətrafı yaşayış yerlərinin sahələri daxil edilirdi. Şəhər ətrafında yerləşən, lakin şəhər mülkiyyətinə daxil edilməyən torpaqlardan istifadəyə icazə verilirdi.

Qanunun 4-cü maddəsində nəzərdə tutulan torpaq islahatına görə, bu vaxta qədər xüsusi və hüquqi şəxslərə məxsus olmuş normadan artıq torpaqlar, həmçinin digər fondlardan kəsilib götürülən və qanunvericiliklə müəyyən edilmiş bəzi kateqoriya torpaqlar yenidən bölüşdürülməyərək həmişəlik dövlət xəzinəsinə daxil edilirdi.

Əhaliyə verilməyərək dövlət xəzinəsinə daxil edilmiş meşələrdən otlaq, tikinti materialı və s. işlər üçün əhalinin istifadəsini təmin etmək məqsədilə xüsusi "Qaydalar" hazırlamaq da nəzərdə tutulurdu.

Xüsusi sahibkara məxsus həyətyanı sahələrin və bağların aşağıda göstərilən normalardan çox olmayanları dövlət tərəfindən özgəninkiləşdirilirdi kənd yerləri üçün 25 desyatindən 75 desyatinə qədər olan bağlar və həyətyanı sahələr, şəhər ərazilərində isə 5 desyatindən 7,5 desyatinə qədər olanlar.

Sahibkarlar üçün saxlanılmış torpaqların ölçüləri qəza komissiyaları tərəfindən müəyyən edilir və təsdiq edilmək üçün Əkinçilik Nazirliyi nəzdindəki Şuraya göndərilirdi. Qanun layihəsinə görə, birlikdə istifadə edilən torpaq və digər fondlardan tutulan ərazilər yenidən bölüşdürülərək hər bir şəxsə normada nəzərdə tutulan qədər ayrı-ayrılıqda mülkiyyət verilirdi. Eyni zamanda göstərilirdi ki, kimliyindən asılı olmayaraq heç kəs 75 desyatindən artıq torpağa sahib ola bilməzdi. Torpaq üçün 75 desyatin maksimum həddi müəyyən edilirdi.

Aqrar islahatın keçirilməsi Əkinçilik və Əmlak Nazirliyinə, eləcə də onların yerlərdə təşkil etdikləri qəza və rayon komissiyalarına həvalə edilirdi. Qəza komissiyaları qəza idarə orqanları tərəfindən hər kənd cəmiyyətindən iki nəfər olmaq şərtilə çağırılan qəza yığıncağında seçilmiş 10 nəfərdən ibarət tərkibdə olurdu. Rayon komissiyaları isə Əkinçilik Nazirliyi tərəfindən müəyyən edilmiş ərazilər üzrə bölüşdürülərək hər birindən bir nəfər olmaq şərtilə kəndlərdən seçilirdi.

Bu komissiyanın tərkibinə rayon üzrə keçirilmiş yığıncaqda seçilən 6 nəfər nümayəndə də daxil edilirdi. Aqrar komissiyaların tərkibi hər bir rayon üzrə ayrıca əhaliyə elan edilərək ictimaiyyətin nəzərinə çatdırılırdı. Qanun layihəsinin 4-cü maddəsində nəzərdə tutulan bəndlər üzrə bölgüdə xüsusi sahibkarların və hüquqi şəxslərin dövlət torpaq fonduna daxil edilmiş torpaqları əhalinin mülkiyyətinə verilənə qədər Əkinçilik Nazirliyinin sərəncamında və sərbəst xəzinə torpaqlarına bərabər statusa malik olurdu. Əkinçilik Nazirliyi müəyyən etdiyi xüsusi təlimat əsasında bu torpaqlardan istifadə edirdi.

Əhalinin bütün kateqoriyalarının zəruri torpaq ehtiyaclarından ötrü, ilk növbədə kənddə mövcud əkinçiliyin inkişaf etməsi səviyyəsi nəzərə alınmalı idi. Buna müvafiq olaraq bütün əhali və ya birgə yaşayan ailələr və ya ayrı-ayrı torpaq sahiblərinin ehtiyacları ödənilməli idi. Şəhər tipli məskənlərin torpaqla təmin edilməsi hər bir həyət üzrə müəyyən edilirdi. Torpaq, ehtiyacı olanların normal tələbatlarını ödəməyə kifayət edən həcmdə ayrılırdı. Tələbat norması hər bir kənd üzrə torpaq komissiyaları tərəfindən qanunun 13-cü maddəsi əsasında müəyyən edilirdi.

Qəza müşavirələrində yerli ədalət məhkəməsi hakimi sədrlik edirdi. Rayon müşavirələrinə isə Daxili İşlər Nazirliyinin razılığı ilə əkinçilik naziri tərəfindən bir nəfər xüsusi şəxs təyin edilirdi. Qəza və rayon aqrar komissiyalarının sədrləri əmək naziri tərəfindən torpaq işi-

ni yaxşı bilən şəxslərdən müəyyən edilirdi. Komissiyaların tərkibinə sədrdən başqa əkinçilik naziri tərəfindən təyin edilən katib və bir neçə torpaq ölçən nümayəndə daxil idi.

Şəhər tipli məskənlərinə yaxın ərazilərdə xüsusi sahibkar və hüquqi şəxslərin torpaqla bağlı işləri araşdırılarkən komissiyanın tərkibinə tam üzvlük hüququnda şəhər upravasının (idarəsinin başçısı) təyin etdiyi şəhər özünüidarə orqanlarının nümayəndələri daxil olurdu. Sahibkar torpaqları xəzinə nəfinə özgəniləşdirilərkən komissiyanın tərkibində tam üzvlük hüququnda nəzarət naziri tərəfindən təyin edilən dövlət nəzarəti nümayəndəsi iştirak edirdi. Parlamentin aqrar komissiyasının qərarı ilə, yuxarıda da qeyd etdiyimiz kimi, Zaqafqaziya komissarlığının 16 dekabr 1917-ci il əsasnaməsində nəzərdə tutulan xəzinə, xənadan kilsə, monastır, həmçinin hüquqi şəxslər və sahibkarlara məxsus torpaqların torpaq komitələrinə verilməsi və Zaqafqaziya Seyminin 7 mart 1918-ci il torpaq normalarının müəyyən edilməsi haqqında islahat proqramının icra edilməsi Azərbaycan Respublikası ərazisində dayandırılırdı.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti mülkiyyət münasibətlərinin tənzimlənməsi sahəsində bir sıra mühüm tədbirlər görmüş, ilk növbədə, yeni yaranmış dövlət siyasi, hərbi və s. çətinlikləri aradan qaldırmaqla yanaşı, mülkiyyət hüquq sahəsi üzrə cari və perspektiv tədbirlərin mühüm istiqamətlərini müəyyən etmişdi. Mülkiyyət münasibətləri sahəsində təxirəsalınmaz işlərin həyata keçirilməsi, çevik qanunların qəbul edilməsi hakimiyyətin müvafiq orqanlarının üzərinə düşürdü. Bəhs olunun dövrdə, təbii ki, hüquq sahələrinin tənzimlənməsini təmin edəcək hüquq sistemi tam formalaşmamışdı. Mülki hüquq sisteminin daxili strukturuna aid edilən mülkiyyət hüquq münasibətlərinin tənzimlənməsi qanunvericilikdə təsbit edilən normalarla müəyyən edilmişdir.

Açar sözlər: mülki hüquq, mülkiyyət hüququ, neft sənayesi, qanun layihəsi, parlament müzakirələri, aqrar islahatlar, aqrar komissiya, aqrar qanun.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Bakı: Lider, I cild, 2004, 440 s.
2. Азербайджанская Демократическая Республика (1918-1920-гг). Законодательные акты. Баку: Издательство «Азербайджан», 1998, 560 с.
3. Азербайджанская Республика. Документы и материалы 1918-1920 гг. Баку: «Элм», 1998, 616 с.
4. X.C.İsmayılov. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: Nurlan, 2006, 720 s.
5. R.A.Əkbərov. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı: Qanun, 2009, 604 s.
6. «Azərbaycan» qəzeti, 8 mart 1919-cu il, № 51.

Рахиб АКПЕРОВ

О РЕГУЛИРОВАНИИ ИМУЩЕСТВЕННЫХ ОТНОШЕНИЙ В АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКЕ

Резюме

В статье рассматривается регулирование имущественных правоотношений в период Азербайджанской Демократической Республики. В этот период был принят ряд законов в сфере имущественного права. С этой целью правовая комиссия Парламента обсудила и разработала ряд рецензий и предложений для принятии законов «О ликвидации национализации в сфере нефтяной промышленности» и «Аграрный закон».

Автор отмечает значимую роль реформ, осуществляемых в сфере нефтяной промышленности и земельной собственности, а также в деле укрепления нового государства.

Ключевые слова: гражданское право, имущественное право, нефтяная промышленность, законопроект, парламентские дебаты, аграрные реформы, аграрная комиссия, аграрный закон.

Rahib AKBAROV

«ABOUT THE SETTLEMENT OF PROPERTY RELATIONS IN THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC»

Summary

In the article the regulation of legal property rights in the period of the Azerbaijan Democratic Republic is considered. In this period there was adopted a number of laws in sphere of the property rights. For this purpose the legal commission of Parliament discussed and developed various reviews and offers for adoption of laws "About elimination of nationalization in the sphere of oil industry" and "The agrarian law" on land reform. The author notes important role of the reform, carried out in the sphere of oil industry and land property, as well consolidation of a new state.

Keywords: civil law, property right, oil industry, bill, parliamentary debates, agrarian reforms, agrarian commission, agrarian law.

УДК 343.1

Ромелла ГЮЛЬАЛИЕВА
в.н.с., д.ф. по праву, доцент,
ИФП НАНА

УГОЛОВНО-ПРАВОВЫЕ МЕРЫ, ПРИМЕНЯЕМЫЕ К ЮРИДИЧЕСКИМ ЛИЦАМ И ИХ СООТНОШЕНИЕ С НАКАЗАНИЕМ*

Законом от 17 марта 2012 года в Уголовном кодексе Азербайджанской Республики название раздела 6 переименовано в «Иные меры уголовно-правового характера», и он дополнен главой 15-2 «Уголовно-правовые меры, применяемые в отношении юридических лиц». В главе содержится шесть статей, определяющих основания и условия применения уголовно-правовых мер к юридическим лицам (ст.99-4); виды уголовно-правовых мер, применяемых к юридическим лицам (ст.99-5); порядок применения различных видов уголовно-правовых мер к юридическим лицам: штраф (ст.99-6); лишение юридического лица права заниматься определенной деятельностью (ст.99-7); упразднение юридического лица (ст.99-8); а также условия освобождения юридического лица от применения уголовно-правовых мер (ст.99-9). Возможность и целесообразность уголовной ответственности юридических лиц демонстрируется законодательным опытом многих государств. Как справедливо указывается в юридической литературе, «движение общества по пути технократизации, развитие информационных технологий предопределяют высокую степень зависимости соблюдения интересов, охраняемых уголовным законом, от деятельности не только отдельных индивидуумов, но и организаций, как нелегальных, так и зарегистрированных в установленном порядке» (1, с.263).

Обращает на себя внимание, что законодатель не использовал термин «наказание» применительно к юридическим лицам, а назвал их «уголовно-правовыми мерами». Из этого можно заключить, что указанные меры наказаниями не являются. Для сравнения укажем, что в ст.63 УК Республики Молдова устанавливается, что к юридическим лицам могут быть применены соответствующие виды наказания (4).

Изучение юридической литературы, посвященной исследованию данной проблемы, приводит к выводу, что понятие уголовного наказания используется в различных значениях. Наказание рассматривается как: 1) правовое последствие совершения преступления; 2) форма реализации уголовной ответственности; 3) средство уголовно-правового воздействия на виновного в совершении преступления; 4) средство уголовно-правовой борьбы с преступлениями; 5) кара виновному за содеянное в виде причинения страдания или ущерба; 6) порицание деяния и лица, его совершившего, от имени государства; 7) мера уголовно-правового характера; 8) мера государственного принуждения и т.д. Как справедливо отмечает И.М.Рагимов, даже в отношении самого слова «наказание» никогда не существовало однозначного мнения (3, с.137).

В действующем уголовном законодательстве для обозначения рассматриваемых понятий используются термины «наказание», «меры уголовно-правового характера», «уголовно-правовые меры». При этом можно заключить, что понятие «меры уголовно-правового характера» является общим и охватывает как наказание, применяемое к физическим лицам, так и уголовно-правовые меры, применяемые к юридическим

* Məqalə hüquq ü.e.d., professor İsaxan Vəliyev tərəfindən çapa məsləhət görülüb.

лицам. Наказание как мера уголовно-правового характера состоит в возложении на виновного определенных лишений или ограничений. Иными словами, это есть предусмотренные уголовным законодательством ограничения соответствующих прав и свобод осужденного, что означает принудительное причинение ему страданий, ущемлений, стеснений морального, физического и имущественного характера. Указанное положение не противоречит требованиям ст.29 Всеобщей декларации прав человека, согласно которым в демократическом обществе в целях обеспечения должного признания и уважения прав и свобод других и удовлетворения справедливых требований морали, общественного порядка и общего благосостояния, каждый член общества может подвергаться ограничениям, установленным законом (5).

Как известно, повиновение граждан правовым предписаниям и нормам обеспечивается государственной властью. Как верно указывал Н.С.Таганцев, чтобы быть преступным, деяние должно быть воспрещено законом под страхом наказания. Причем страх этот не есть что-либо отвлеченное, не есть фантом, только пугающий того, кто посягает на нормы права, а есть реально ощущаемое последствие такого посягательства, действительное наказание как проявление того особого юридического отношения, которое возникает между карательной властью и ослушником велений авторитетной воли законодателя (6, с.102). Только государственное принуждение, представляющее собой возложение обязанности выполнять, восстанавливать нарушенный порядок, а также в наказании непослушного превращает запреты и требования права в уголовные предписания, осуществляемые в порядке правосудия особыми карательными мерами. Иными словами, уголовно-правовое принуждение есть содержательная мера уголовной ответственности, закрепляемая законом в конкретном виде наказания. Как представляется, наказание следует рассматривать как совокупность правоущемлений лица, признанного виновным в совершении преступления, обеспечиваемую государственным принуждением.

В трактате «О преступлениях и наказаниях» итальянский просветитель и гуманист Ч.Беккариа указывал, что «только законы могут устанавливать наказания для других членов общества. Несправедливо наказание, выходящее за пределы закона, так как оно явилось бы другим наказанием, не установленным законом. Впечатление производит не столько строгость наказания, сколько его неизбежность» (7, с.373).

Законодательное определение наказания позволяет выделить следующие его признаки:

1) наказание есть мера уголовно-правового характера, состоящая в лишении или ограничении прав и свобод осужденного. В отличие от иных мер, в частности, гражданско-правовых, мер административного, дисциплинарного воздействия, уголовное наказание применяется только к лицам, совершившим преступление. С помощью наказания государство принуждает преступника к законопослушному поведению;

2) исчерпывающий перечень наказаний содержится в законе. Статья 42 УК АР предусматривает систему уголовных наказаний, содержащих различные по уровню правоограничения, причем штраф связан с наименьшим объемом кары, а пожизненное лишение свободы – с наибольшим;

3) наказание назначается только судом. В соответствии с ч.1 ст. 125 Конституции Азербайджана «Судебную власть в Азербайджанской Республике осуществляют посредством правосудия только суды». Это означает, что только суд может дать уголовно-правовую оценку как совершенному преступлению, так и личности, совершившей его. Единственной процессуальной формой применения наказания является обвинительный приговор суда. Назначение наказания только судом опре-

делено и в статье 8.1 действующего УПК: «Правосудие по уголовным делам осуществляется только судом»;

4) судебный приговор выносится и наказание назначается от имени государства (ст.296 УПК АР), то есть носит публичный характер. Наказывая виновного, государство тем самым порицает его противоправное поведение. Таким образом, при назначении наказания проявляется отрицательная официальная, моральная и правовая оценка как совершенного общественно опасного деяния, так и лица, его совершившего. При этом чем выше степень общественной опасности преступления и лица, его совершившего, тем больше объем исправительно-воспитательных элементов в уголовном наказании;

5) наказание может быть назначено только лицу, виновному в совершении преступления, то есть носит личный характер. В соответствии со ст.63 Конституции Азербайджана невиновное причинение вреда исключает уголовную ответственность и наказание. Согласно ст. 14 УК АР виновность является одним из признаков преступления, а принцип ответственности за вину согласно статье 7 УК Азербайджана стал одним из его принципов. Уголовное наказание всегда имеет строго индивидуальный характер, то есть применяется конкретно к лицу, совершившему преступление, и не распространяется на других лиц, не причастных к совершению преступления;

6) карательная сущность наказания состоит в предусмотренных УК лишениях и ограничениях прав и свобод, зависящих от вида наказания, например: права выбора места жительства, передвижения, выбора рода деятельности; лишение воинского звания, лишение свободы и т.д. В.Д.Филимонов, комментируя ч.1 статьи 43 УК РФ, пишет: «Отказ нового уголовного кодекса от определения наказания как кары за совершенное преступление имеет свои основания. Основная причина этого отказа состоит в том, что слова «наказание» и «кара» – синонимы. Поэтому определение наказания как кары ничего для выяснения содержания этого явления не дает. Определение наказания как меры государственного принуждения, напротив, указывает на наиболее существенные его признаки» (8, с.95);

7) наказание обязательно влечет судимость как последствие общеправового и уголовно-правового характера. Несмотря на то, что действующий УК не содержит конкретно такого указания, однако по содержанию норм, помещенных в главе 12 УК АР «Освобождение от наказания», можно говорить о наличии этого признака.

Таким образом, уголовное наказание имеет строго определенное понятие и специфические признаки, позволяющие отделять его от других мер уголовно-правового характера. Уголовно-правовым мерам, применяемым к юридическим лицам, некоторые из указанных признаков не присущи.

Каждая мера государственного принуждения имеет свое назначение, свои специфические цели. Под целями наказания должны пониматься те конечные социальные результаты, к достижению которых стремится государство, устанавливая соответствующие виды наказания, суд при назначении его виновному и органы, осуществляющие процесс его реализации. Статья 39 УК Азербайджана, определяя цели наказания, указывает: «Наказание применяется в целях восстановления социальной справедливости, а также исправления осужденного и предупреждения совершения новых преступлений, как осужденным, так и другими лицами». Следовательно, целями наказания являются: а) восстановление социальной справедливости; б) исправление осужденного; в) предупреждение совершения новых преступлений со стороны осужденного (цель специального, частного предупреждения); г) предупреждение преступлений со стороны других лиц (цель общего предупреждения).

Применительно к обществу в целом восстановление социальной справедливости обеспечивается тем, что суд, публично назначая справедливое наказание, убеждает членов общества в том, что государство, наказывая лицо, нарушившее уголовный закон, тем самым обеспечивает мир и безопасность человечества, охраняет права и свободы человека и гражданина, собственность, общественный порядок и общественную безопасность, конституционный строй, интересы личности и другие наиболее важные блага.

Другой важной целью наказания является исправление осужденного. Государство, применяя закон к лицу, совершившему преступление, должно стремиться вернуть это лицо в общество после отбытия наказания в таком качестве, чтобы оно больше не совершало новых преступлений. Исправление – это устранение из психики осужденного порочных наклонностей, которые привели его к совершению преступления.

При привлечении к уголовной ответственности юридических лиц невозможно добиться их «исправления»; как уже было отмечено, данная цель направлена на личность, то есть физическое лицо. Самостоятельной целью наказания является цель специального (частного) предупреждения, которая обращена непосредственно к лицу, совершившему преступление. Цель специального предупреждения достигается, во-первых, тем, что осужденный лишается физической возможности совершить новое преступление. Во-вторых, цель специального предупреждения достигается посредством устрашения наказанием. Устрашение наказанием зависит от неотвратимости наказания. Человека может удерживать от совершения преступления сознание того, что ему не избежать нового наказания за вновь совершенное им преступление. Так и юридическое лицо (орган или лицо, осуществляющее функции управления), «зная», что его могут привлечь к уголовной ответственности, воздержится от совершения преступления. Как считают некоторые авторы, «уголовно-правовые санкции, адресованные корпорации, призваны сделать экономически невыгодным занятие экологически вредной производственной или иной деятельностью для всех работников соответствующего предприятия, а не только для его хозяина и управленческого персонала» (9, с.66). В-третьих, цель специального предупреждения достигается путем исправительного воздействия на психику осужденного в процессе отбывания наказания, которое в конечном итоге сдерживает осужденного от совершения нового преступления.

Цель общего предупреждения заключается в том, чтобы посредством наказания предупредить совершение преступлений не только со стороны осужденного, но и со стороны других лиц, главным образом тех, в сознании которых нет должной устойчивости к соблюдению требований законов. Б.С.Никифоров отмечает, «что в целом уголовную ответственность юридических лиц следует расценивать как институт, прогрессивный по своему значению. Имеет смысл и сам факт признания деятельности организации преступной, в результате чего она подвергается моральному осуждению, теряет доверие кредиторов, лишается клиентов, может столкнуться с бойкотом ее товаров, потерять возможность получения правительственных заказов и т.п. Угроза уголовной ответственности юридических лиц может привести к разоблачению преступной деятельности ее высокопоставленных служащих, создает правовые предпосылки для официального преследования деятельности того или иного юридического лица, подозреваемого в преступлениях» (9, с.24-26).

Из перечисленных целей наказания, в отношении юридического лица как субъекта преступления, на наш взгляд, будут приемлемы лишь три из них: 1) восстановление социальной справедливости; 2) предупреждение совершения новых

преступлений со стороны осужденного (цель специального, частного предупреждения); 3) предупреждение преступлений со стороны других лиц (цель общего предупреждения).

На основании вышеизложенного нам представляется необходимым дополнить УК Азербайджана статьей 99-10 следующего содержания: «Уголовно-правовые меры применяются к юридическому лицу по приговору суда в случае признания его виновным в совершении преступления и заключаются в предусмотренных настоящим Кодексом лишениях или ограничениях.

Уголовно-правовые меры применяются в целях восстановления социальной справедливости, а также предупреждения совершения новых преступлений как осужденным, так и другими юридическими лицами. Наказание не имеет своей целью нанесение вреда деловой репутации юридического лица».

Основной функцией института наказания как одного из важнейших институтов уголовного права является предупреждение совершения преступления посредством угрозы наказания. Поэтому признание юридического лица субъектом преступления вызывает необходимость в разработке специальной системы наказаний, а именно в определении конкретных уголовно-правовых санкций, которые могут быть применимы к ним. В соответствии со статьей 99-5 УК АР к юридическим лицам могут применяться следующие уголовно-правовые меры: штраф, специальная конфискация, лишение права юридического лица заниматься определенной деятельностью; упразднение юридического лица (2, с.11).

В правовой литературе по вопросу о перечне возможных мер наказания, применяемых к юридическим лицам, высказано предложение предусмотреть в качестве таковых: штраф, размер которого должен зависеть от тяжести совершенного преступления, характера и размера причиненного вреда, имущественного положения юридического лица; запрещение заниматься определенной деятельностью, которое может включать в себя запрет на совершение сделок определенных категорий, эмиссию акций или других ценных бумаг, запрет на получение от государства денежных субсидий, дотаций или каких-либо льгот; ликвидацию юридического лица, состоящую в полном принудительном прекращении его деятельности, имеющей соответствующие гражданско-правовые последствия; конфискацию имущества, то есть принудительное безвозмездное изъятие в собственность государства всего (или части) имущества юридического лица, которое может применяться как дополнительное наказание к ликвидации юридического лица (9, с.53).

Безусловно, особенности юридических лиц как субъектов преступлений делают невозможным применение к ним некоторых традиционных видов уголовных наказаний, возможных для физических лиц, таких, как лишение свободы, исправительные работы и другие. В то же время вполне возможно использование большинства других мер уголовно-правового воздействия. К организации могут быть применены все классические имущественные санкции; наказание можно связать с деятельностью юридического лица (запрещение ее осуществлять или ограничение разрешенных видов деятельности); к тому же наказание может касаться репутации юридического лица (опубликование или афиширование судебного решения).

Представляет интерес решение данного вопроса в законодательстве зарубежных государств. Так, в частности, в соответствии с Уголовным кодексом Франции в отношении юридического лица может быть применено одно из следующих наказаний: штраф; ликвидация юридического лица; запрещение (окончательное или сроком не более пяти лет) осуществления прямо или косвенно одного или нескольких видов

профессиональной или общественной деятельности; помещение на срок не более пяти лет под судебный надзор; запрещение (окончательное или сроком не более пяти лет) совершения сделок с государственными организациями; закрытие (окончательное или сроком не более пяти лет) всех либо одного или нескольких заведений предприятия, использовавшихся для совершения инкриминируемых действий; запрещение (окончательное или сроком не более пяти лет) привлечения сбережений населения и др. (10). Статья 63 УК Республики Молдова устанавливает, что к юридическим лицам могут быть применены следующие виды наказания: штраф, лишение права заниматься определенной деятельностью, ликвидация. При этом штраф применяется как основное, а лишение права заниматься определенной деятельностью и ликвидация – как дополнительные виды наказаний (4).

Мы полагаем, что в контексте рассматриваемого вопроса заслуживает внимания Рекомендация Комитета министров стран - членов Совета Европы по ответственности предприятий-организаций за правонарушения, совершенные в ходе ведения ими хозяйственной деятельности, принятая 20 декабря 1988 года (11). Комитет рекомендовал предусмотреть следующие санкции в отношении предприятий и организаций, совершивших правонарушение, и применять их отдельно или в сочетании с другими в качестве основных или вспомогательных предписаний и, возможно, с отсрочкой применения этих санкций и мер: предупреждение, выговор, обязательство, занесенное в судебный протокол; принятие решения, в котором объявляется об ответственности, без наложения санкций; штраф или иная финансовая санкция; конфискация собственности, которая использовалась при совершении преступления или приобретено в результате незаконной деятельности; введение запретов на определенные виды деятельности предприятия; лишение финансовых привилегий и субсидий; запрет на рекламу товаров или услуг; отзыв лицензии; снятие управляющих с занимаемых должностей; назначение судебными органами временного управления; закрытие предприятия; ликвидация компании; взыскание компенсации и (или) реституции в пользу потерпевших; восстановление прежнего состояния; опубликование решения о наложении санкций или иных мер.

С учетом изложенного, представляется возможным дополнить перечень уголовно-правовых мер, предусмотренных в ст.99-5 УК АР, мерами в виде возложения обязанности загладить причиненный вред, а также взыскания компенсации в пользу потерпевших. Полагаем, что данные меры, применяемые не только в качестве основных, но и дополнительно с иными, будут осуществлять не только частное, но и общепревентивное воздействие, а также способствовать цели восстановления социальной справедливости.

Ключевые слова: наказание, меры уголовно-правового характера, уголовно-правовые меры, физическое лицо, юридическое лицо.

Список использованной литературы

1. Мальцев В.В., Пикуров Н.И., Сенцов А.С., Щепельков В.Ф. Рецензия на монографию: Михеев Р.И., Корчагин А.Г., Шевченко А.С. Уголовная ответственность юридических лиц: за и против. Правоведение, № 2, 2000.

2. Уголовный кодекс Азербайджанской Республики. Баку: Юридическая литература, 2013.

3. Рагимов И.М. Философия преступления и наказания. СПб.: Издательский дом Р.Асланова «Юридический центр», 2013.

4. Уголовный кодекс Республики Молдова http://base.spinform.ru/show_doc.fwx?rgn=3835

5. Всеобщая декларация прав человека http://www.un.org/ru/documents/decl_conv/declarations/declhr.shtml

6. Таганцев Н.С. Русское уголовное право. Лекции. Общая часть. В 2-х тт., Т.2. М., 1994.

7. Беккариа Ч. О преступлениях и наказаниях. М., 1995.

8. Филимонов В.Д. Краткий комментарий к Уголовному кодексу РФ. М.: Юридическая литература. 1996.

9. Никифоров А. Юридическое лицо как субъект преступления. Уголовное право, 2000, № 2.

10. Уголовный кодекс Франции. СПб.: Изд-во «Юридический центр Пресс», 2002.

11. Рекомендация Комитета министров стран - членов Совета Европы от 20 декабря 1988 года //http://do.gendocs.ru/docs/index-75698.htm/?page=4

Romella GÜLƏLİYEVA

HÜQUQİ ŞƏXSLƏRƏ TƏTBİQ EDİLƏN CİNAYƏT-HÜQUQİ TƏDBİRLƏRİN ANLAYIŞI VƏ ONLARIN CƏZA İLƏ QARŞILIQLI ƏLAQƏSİ

Xülasə

Məqalədə hüquqi şəxslərə tətbiq olunan cinayət-hüquqi tədbirlərin anlayışı və onların fiziki şəxslərə tətbiq edilən cəzalarla qarşılıqlı əlaqəsi nəzərdən keçirilir. Müəllifin mövqeyinə görə, fiziki şəxslər üçün nəzərdə tutulmuş cəzalar bir sıra əlamətlərinə görə hüquqi şəxslərə tətbiq olunan cinayət-hüquqi tədbirlərdən fərqlənir. Bundan başqa, hüquqi şəxslərin spesifik xüsusiyyətlərinə görə fiziki şəxslər üçün Cinayət Məcəlləsində nəzərdə tutulmuş ayrı-ayrı cəzalar onlara tətbiq edilə bilməz.

Məqalədə hüquqi şəxslərə tətbiq olunan cinayət-hüquqi tədbirlərin sistemi tədqiq edilir və bu sistemin təkmilləşdirilməsi istiqamətində təkliflər irəli sürülür.

Açar sözlər: cəza; cinayət-hüquqi xarakterli tədbirlər; cinayət-hüquqi tədbirlər; fiziki şəxs; hüquqi şəxs.

Romella GULALIYEVA

THE CRIMINAL AND LEGAL MEASURES APPLIED TO JURIDICAL PERSONS AND THEIR CORRELATION WITH PUNISHMENT

Summary

In the article questions of concept of the measures of criminal-law character and criminal-law measures applied to legal entities and their ratio with the punishment applied to physical persons are considered. According to the author, punishment for physical persons differs from criminal-law measures by a number of the signs applied to juridical persons. Owing to the specific features of juridical persons the separate kinds of punishment applied to physical persons, provided in Criminal Code to them, are inapplicable.

In the article the list of the criminal-law measures applied to legal entities is considered and offers on its improvement are put forward.

Keywords: punishment, measures of criminal-law character, criminal-law measures, physical person, juridical person.

UOT 343.132.1

Yaşar ƏLİYEV
a.e.i., fəlsəfə ü.f.d., AMEA, FHİ

QƏSDƏN ADAM ÖLDÜRMƏ İŞLƏRİ ÜZRƏ HADİSƏ YERİNƏ BAXIŞIN APARILMA TAKTİKASI*

Kriminalistik ədəbiyyatda hadisə yerinin baxışının mahiyyətinin və məqsədinin müxtəlif tərifləri var.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 236-cı maddəsinə görə hadisə yerinə baxış cinayətin izlərinin, sübut mənbəyi ola biləcək digər maddi obyektlərin aşkar edilməsi, cinayətin törədilmə hallarının və iş üçün əhəmiyyətli olan digər halların müəyyən edilməsi məqsədi ilə müstəntiqin hadisə yerinə, binalara, sənədlərə, əşyalara, insan meyitinə və heyvan cəsədinə baxışın aparılmasıdır.

Müxtəlif cinayətlərin ibtidai istintaqı zamanı hadisə yerinə baxış müxtəlif yollarla aparılır və hər bir halda bu baxışın özünəməxsus spesifik xüsusiyyətləri vardır.

Qəsdən adam öldürmə cinayətləri üzrə ibtidai istintaq zamanı hadisə yerinə, maddi sübut ola biləcək predmetlərə, sənədlərə, meyitə baxışın da özünəməxsus spesifik xüsusiyyətləri vardır.

Hadisə yeri, müəyyən ərazinin konkret sahəsi, bina, cinayətin törədildiyi, meyitin müəyyən edildiyi yer hesab olunur. Lakin baxış zamanı ancaq bunların müayinəsi ilə kifayətlənmək düzgün olmaz. Çünki cinayətin izləri bu yerə yaxın olan yerlərdə də aşkar edilə bilər. Belə hallarda müstəntiq müayinəni daha ətraflı aparmalıdır.

Məsələn, əgər meyit binada yaxud hər hansı başqa tikilidə müəyyən edilibsə cinayətin izləri, maddi sübutlar dəhlizdə, yardımçı binalarda, qonşu otaqlarda, həyətdə, binanın ətrafında da ola bilər. Çünki cinayəti törədən şəxs istifadə etdiyi cinayət predmetlərini – iti, küt aləti, müxtəlif əşyaları bu yerlərdən götürərkən izlər buraxa biləcəyi ehtimalı mütləq yoxlanılmalıdır.

Hadisənin baş verdiyi yerdən aralıda olan obyektdə hadisə ilə bağlı sübut növü ola biləcək əşya, iz və sairə müəyyən edildikdə həmin yer əsas hadisə yeri kimi deyil, müstəqil istintaq hərəkəti kimi sənədləşdirilməlidir.

Hadisə yerinə baxışın əsas məqsədi cinayətin baş verməsinin ümumi mənzərəsini əks etdirmək olmalıdır. Burada təkcə müayinə zamanı müəyyən edilən faktların şərhi deyil, əvvəlcədən baş vermiş hadisələrin də modelinin qurulmasıdır.

Elə bir cinayət hadisəsi ola bilməz ki, cinayət prosessual qanunvericiliyinin tələblərinə tam uyğun aparılan baxış zamanı iş üçün qiymətli sübutlar müəyyən edilməsin. Ona görə də hadisə yerinin müayinəsi və baxışın keyfiyyətli aparılması cinayət işinin gələcək ibtidai istintaqının uğurlu olmasının, cinayətin açılmasının, cinayətkarların ifşa edilməsinin əsasıdır.

Cinayət hadisəsinin aşkar olunmasından sonra hadisə yerinin təxirə salınmadan baxışı istisna olmaqla CPM-nin 236.1-ci maddəsinə əsasən baxış gündüz vaxtı aparılır.

Cinayət işi başlandıqdan sonra və həmin iş üzrə təqsirləndirilən və ya şübhəli şəxs olduğu halda baxış aparıldıqda CPM 236.3-cü maddəsinə əsasən təqsirləndirilən və ya şübhəli şəxsin müdafiəçisi baxışın aparılmasında iştirak edə bilər. Belə halda müstəntiq baxışın aparılmasında müdafiəçinin iştirakını əvvəlcədən təmin etməlidir.

Hadisə yerinə baxış keçirilən zaman azı iki hal şahidinin iştirakı təmin edilməlidir.

---

* Məqalə hüquq ü.f.d. Aydın Əliyev tərəfindən çapa məsləhət görülüb.

CPM-nin 236.4-cü maddəsinin tələbinə əsasən müstəntiq vətəndaşların hüquqlarını pozmamaq şərtilə görünən obyektlərin baxışını aparır. Zəruri hallarda müstəntiq baxışın aparıldığı yeri və orada olan ayrı-ayrı əşyaları ölçür. Onların plan, sxem və cizgilərini şəxsən özü və ya baxışın aparılmasına cəlb olunmuş müvafiq mütəxəssislə birlikdə tərtib edir, imkan olduqda isə onların foto və video çəkilişlərini aparır.

CPM-nin 236.5-ci maddəsinin tələblərinə əsasən müstəntiq baxış zamanı özü və ya mütəxəssisin köməyi ilə hadisə yerində aşkar olunmuş izləri, əşyaları, sənədləri, habelə gələcəkdə iş üzrə sübut əhəmiyyəti kəsb edə biləcək digər əşyaları götürür. Baxış qurtardıqdan sonra müstəntiq CPM-nin 236.1-236.6-cı maddələrinə əsasən aşağıdakıları mütləq göstərməklə protokol tərtib edir:

– baxışın aparıldığı vaxt, tarix və yer;

– müstəntiqin soyadı, adı, atasının adı və vəzifəsi;

– baxışda iştirak edən şəxslərin soyadı, adı, atasının adı, onların doğulduğu il, ay, gün və yer, vətəndaşlığı, təhsili, iş yeri, məşğuliyyət növü və ya vəzifəsi, faktiki yaşadıqları və qeydiyyatda olduqları yer;

– hal şahidlərindən hər birinin, şübhəli, təqsirləndirilən və zərərçəkmiş şəxslə qarşılıqlı münasibətləri barədə məlumatlar;

– hal şahidlərindən hər birinə onun hüquqlarının, vəzifələrinin və məsuliyyətinin izah edilməsi haqqında qeyd;

– baxışın xüsusiyyətləri, əsasən baxış zamanı foto, video, kino çəkilişindən və ya digər yazan texniki vasitələrdən istifadə edilməsi haqqında qeyd;

– müşahidə edilmə ardıcıllığı ilə baxış zamanı bütün aşkar olunanlar.

Protokolun hər vərəqi CPM 236.7-ci maddəsinin tələbinə əsasən ona öz qeydlərinin daxil edilməsini tələb etmək hüququna malik olan istintaq hərəkətinin bütün iştirakçıları və müstəntiq tərəfindən imzalanmalıdır.

Foto və video çəkilişindən və ya digər yazan texniki vasitələrdən istifadə edildikdə müvafiq fotoşəkillər, çəkiliş lentləri yaxud başqa məlumat daşıyıcıları (kompüter yazıları və s.) protokola əlavə edilir. Protokola əlavə edilən bütün sübut hesab edilən şeylər qüvvədə olan qaydalara uyğun olaraq qablaşdırılmalı, möhürlənməli (surquçlanmalı) və sonra götürülməlidir.

Yaşayış yerinə, xidməti və ya istehsalat binalarına və orada görünən obyektlərə baxış zamanı CPM-nin 243-cü maddəsində göstərilən əsaslar olduqda, yəni təxirə salına bilinməyən hallarda axtarış və ya götürmə zəruriyyəti yarandıqda, müstəntiq məhkəmənin qərarı olmadan yalnız aşağıdakıları güman etməyə əsas verən dəqiq məlumat olduqda axtarış və götürmə apara bilər:

– şəxsiyyət və ya dövlət hakimiyyəti əleyhinə cinayətin törədilməsinə və ya həmin cinayətin törədilməsinə hazırlığın aparılmasına dəlalət edən əşya və sənədlərin yaşayış yerində gizlədilməsini;

– şəxsiyyət və ya dövlər hakimiyyəti əleyhinə cinayəti hazırlayan, törədən, həbsdən və ya azadlıqdan məhrum etmə yerlərindən qaçmış şəxsin yaşayış yerində gizləndiyini;

– yaşayış yerində insan meyitinin (meyit hissələrinin) olmasını;

– yaşayış yerində insanın həyat və ya səhhəti üçün real təhlükə olduğunu.

Sözsüz ki, məhkəmənin qərarı olmadan bu hərəkətlərin aparılması zərurətini və təxirə salına bilməməsini müstəntiq özünün qərarı ilə kifayət qədər əsaslandırmalıdır.

Bu istintaq hərəkətləri eyni zamanda CPM-nin 177.2-177.6-cı maddələrində nəzərdə tutulan tələblər əsasında aparılmalıdır.

Qəsdən adam öldürmə cinayətlərinin istintaq metodikasını və taktikasını yaxşı bilmək hadisə yerinin baxışı kimi böyük əhəmiyyətə malik olan bu istintaq hərəkətinin əvvəlcədən dolğun, prosessual normalara uyğun aparılması üçün əsas şərtdir.

Təcrübə göstərir ki, bu növ cinayətlərin açılmamasının əsas səbəblərindən biri də hadisə yerinin baxışının keyfiyyətsiz aparılmasıdır.

İş üzrə gələcək istintaqın hansı istiqamətdə aparılması üçün bütün əsas fərziyyələrin açarı məhz hadisə yerinin baxışının düzgün keçirilməsidir. Onun keyfiyyətsiz, başdansovdu, qanunun tələblərinə əməl edilmədən aparılması sonradan yenidən bərpa edilməsi və buraxılan səhvlərin aradan qaldırılmasını çətinləşdirir, demək olar ki, mümkünsüz edir.

Hadisə yerinin baxışı aşağıdakı hallarda yenidən, təkrar olaraq aparıla bilər:

– əvvəlki baxışın əlverişsiz şəraitdə, süni işıqlandırma zamanı və ya zəif işıqda aparılması nəticəsində kiçik detalların müəyyən edilməsi mümkün olmadıqda;

– yeni əlavə məlumatların və mülahizələrin baxış yolu ilə yoxlanılması zərurəti yarandıqda;

– əvvəl aparılmış baxış zamanı edilməyən digər istintaq hərəkətlərinin aparılması zərurəti varsa və bunların istintaq eksperimenti, şübhəli şəxsin, zərərçəkmişin, şahidin ifadələrinin yerində yoxlanılması üçün əhəmiyyəti varsa;

– cinayət işinin materialları müstəntiqin apardığı baxışın məzmununa uyğun gəlmirsə.

Ümumiyyətlə, baxışın əsas vəzifəsi, qeyd etdiyimiz kimi, hadisə yerinin öyrənilməsi və şəraitinin müəyyən edilməsi, izlərin və başqa sübutların müəyyən edilərək götürülməsi, iş üzrə əhəmiyyətli olan vəziyyətin, iştirak edən şəxslərin qarşılıqlı münasibətlərinin müəyyənləşdirilməsi, istintaq mülahizələrinin və fərziyyələrinin irəli sürülməsi və yoxlanılması, başqa sübutlar haqqında və əməliyyat axtarış tədbirlərinin aparılması üçün məlumatların əldə edilməsidir.

Hadisə yerinin baxışının cinayəti törədən şəxslərin, zərərçəkənlərin və digər şəxslərin şəxsiyyətlərinin də müəyyən edilməsində böyük rolu vardır.

Bir çox hallarda qəsdən adam öldürmə cinayətlərinin istintaqı ilə bağlı keçirilən hadisə yerinə baxış zamanı cinayəti törətmiş şəxslərin hadisə zamanı olduqları fiziki, psixi və emosional vəziyyəti, onların spirtli içki və ya narkotik vasitələrin təsiri altında olub-olmaması, hansı cinayət vasitələrindən istifadə etmələri işin həqiqi hallarını və mahiyyətini tam müəyyən etməyə, əsaslı fərziyyələr və mülahizələr irəli sürməyə imkan verir və nəticədə, tutarlı maddi sübutlar, izlər və sair əşyalar aşkar edilir ki, bu da istintaqın gedişinə əhəmiyyətli istiqamət verir.

Hadisə yerində olan zədələnmiş əşyalar, içində sənədlər olan predmetlər, sındırılmış seyflərin özü də cinayətin kimlər tərəfindən, nə məqsədlə törədilməsi barədə cəsarətli və əsaslı fərziyyələr irəli sürməyə və istintaqın sonrakı gedişini düzgün planlaşdırmağa şərait yaradır.

Hadisə yerinə baxış zamanı həddindən artıq diqqətli olmaq lazımdır, ancaq belə olduqda cinayətin açılması və onu törədən şəxslərin ifşa edilməsi üçün sübutlar əldə etmək mümkündür.

Məsələn, gilizin tapıldığı yer atəşin açıldığı yeri və istiqaməti (dəqiq və ya təxmini), qan izi hadisənin baş verdiyi yeri, ayaq izləri cinayətkarın və zərərçəkmişin hərəkət istiqamətini, yerdəki izlər, ətrafdakı əşyaların vəziyyəti və meyitin olduğu vəziyyət əlbəyaxa mübarizənin baş verib-verməməsini və sairə məsələlərin müəyyən edilməsinə kömək edir.

Qəsdən adam öldürmə cinayətlərinin ümumiləşdirilməsi və təhlil edilməsi göstərir ki, hadisə yerinə baxış zamanı aşağıdakı taktiki qaydaların tətbiqi zəruridir:

– baxışın təxirəsalınmazlığı;

– baxışın planlı və məqsədyönlü olması;

– baxış zamanı elmi-texniki vasitələrdən və mütəxəssisin köməyindən istifadə edilməsi;

– maddi sübutların götürülməsi, qablaşdırılması və saxlanılması zamanı kriminalistik qaydaların gözlənilməsi;

– baxışa vahid rəhbərliyin olması və s.

Göstərilənlərin vaxtında və düzgün yerinə yetirilməsi istintaqın sonrakı gedişinə həlledici təsir göstərir.

Açar sözlər: qəsdən adam öldürmə, hadisə yerinə baxış, maddi sübutlar, götürmə, saxlama.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı: "Hüquq ədəbiyyatı", 2012.

2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. II cild. Ümumi hissə. Bakı: "Digesta", 2003.

3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: "Hüquq ədəbiyyatı", 2011.

Яшар АЛИЕВ

ТАКТИКА ВЕДЕНИЯ ОСМОТРА МЕСТА ПРОИСШЕСТВИЯ ПРИ РАССЛЕДОВАНИИ ДЕЛ ПРЕДУМЫШЛЕННОГО УБИЙСТВА

Резюме

Исходя из проведенного исследования, автор приходит к выводу, что соблюдение неотложности осмотра места происшествия, его плановость и целенаправленность, использование научно-технических средств, обеспечение участия соответствующего специалиста, соблюдение правил криминалистики при изъятии, упаковке и хранении вещественных доказательств имеют решающее значение при дальнейшем расследовании умышленных убийств.

Ключевые слова: умышленное убийство, осмотр места происшествия, вещественные доказательства, изъятие, хранение.

Yashar ALIYEV

TACTICS OF CARRYING OUT EXAMINATION OF INCIDENT PLACE OF PREMEDIATED MURDER

Summary

Procuding from carried out examination of a place of incident premediated murders. In the study author concludes that compliance with the urgency of the inspection of a crime scene, its planned arrangement and purposefulness, use of scientific and technical means to ensure participation of the appropriate specialist, compliance with the rules of criminalistics at forensic seizure, packaging and storage of material evidence are crucial in further investigation of homicides.

Keywords: premediated murders, inspection of the incident place, material evidence, withdrawal, storage.

UOT 342

Səidə HƏSƏNZADƏ
a.e.i., hüquq ü.f.d., dosent, AMEA FHİ

QADININ ANALIQ HÜQUQU VƏ ONUN MÜHAFİZƏSİ*

Müstəqillik illərində ailənin və qadının hüquqlarının və azadlıqlarının təsbiti, onun müdafiəsi və mühafizəsi sahəsində sistemli tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci və 34-cü maddələrində, habelə Ailə Məcəlləsində göstərilir ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Azərbaycan Respublikasının nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız müvafiq icra hakimiyyəti orqanında bağlanmış nikah tanınır (4, s.4-5). «Analıq», «atalıq», «uşaqlıq» ifadələri, eyni zamanda Azərbaycan Respublikası Ailə Məcəlləsinin 29, 44, 45, 46, 47, 57 və bir sıra başqa maddələrində, habelə ailə, qadın və uşaqla bağlı çoxsaylı digər normativ-hüquqi aktlarda da «analıq» terminindən istifadə edilmişdir. Buna baxmayaraq, «analıq» məfhumunun, termininin nəyi ifadə etməsinə, «analığ»ın məzmun göstəricisinin nədən ibarət olmasına, onun statusuna, hüquqlarına və vəzifələrinə konkret aydınlıq gətirməmişdir (33, s.63-71). Bu mənada analıq hüququna və onun müdafiəsinə müəyyən yer ayrılması vacibdir. «Azərbaycan dilinin izahlı lüğəti»ndə «ana», «analıq» və digər göstərilən terminlərə müəyyən izahlar verilmişdir. Orada qeyd edilmişdir ki, «ana» dedikdə, «övladı olan qadın», «analıq» dedikdə isə, ananın öz uşaqları ilə olan əlaqələri və münasibətləri, ana vəzifəsi, analıq hissi, analıq borcu, analıq etmək kimi məna və məzmun elementləri başa düşülür (2, s.114). «Analıq» qadının, ananın uşaq doğması, saxlaması və tərbiyə etməsi kimi funksiyaları ilə əlaqədar olan hüquqları, vəzifələri və öhdəlikləri ehtiva edir (14, s.57). Əgər etimoloji baxımdan məsələyə yanaşsaq, onda «ana» – uşağın bioloji valideyni və ya bu rolu sosial baxımdan daşıyan qadın, doğduğu uşağın süd anası, genetik anası, yumurtalığındakı hüceyrələrdən uşaq əmələ gələn və onu doğan ana başa düşülür. «Analıq» isə «ana» sözü ilə sözdüzəldici «-lıq» səkilçisinin birləşməsi nəticəsində yaranmış bir istilah olmaqla, qadının dünyaya uşaq gətirməsi, uşaq doğması prosesi ilə yaranan, sosial və bioloji statusunu, analıq keyfiyyətini, analıq vəziyyətini səciyyələndirir (27, s.116-123). Təsadüfi deyil ki, «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının 26 iyun 1997-ci il tarixli Qanununda göstərilir ki, yetkinlik yaşına çatmış hər bir qadının analıq barədə məsələni təkbaşına həll etmək hüququ vardır (1). Ana olmaq və buna müvafiq olaraq analıq hüququ, qadının uşaq doğması faktı ilə çox bağlıdır. Bu, mahiyyət etibarilə hüquqi anlayış olsa da, lakin onun bioloji, sosioloji və digər aspektləri də vardır. Qadının ana olması və onun uşaq doğması faktı reproduktiv fəaliyyətlə və reproduktiv sağlamlıqla üzvi surətdə əlaqəli olmaqla yanaşı, bu fakt həm qadının statusunun əhəmiyyətli dərəcədə dəyişməsi, həm də analıq hüququ əldə etməsi ilə nəticələnir. Analıq hüququnun məzmunu, tərkib elementləri qadının sosial, əmək, inzibati, cinayət, prosessual, sağlamlıq, təhsil və digər hüquq sahələrində ictimai münasibətləri tənzim edən normativ-hüquqi aktlarda – məcəllələrdə, qanunlarda ifadə olunur, onun müdafiəsinin və mühafizəsinin təşkilati-hüquqi mexanizmləri, üsul və vasitələri müfəssəl şəkildə əks etdirilir (33, s.58-66). Analıq hüququnun müdafiəsi və mühafizəsi üçün ölkəmizdə mühüm və sistemli tədbirlər həyata keçirilməkdədir. Bir subyekt və fərd olaraq ana olmaq və analıq hüququ qazanmaq, hər şeydən öncə, onun qadın cinsinə mənsub olması kimi

* Məqalə hüquq ü.e.d., professor Habil Qurbanov tərəfindən çapa məsləhət görülüb.

bioloji xüsusiyyəti ilə bağlıdır. Ana olmaq və buna müvafiq olaraq analıq hüququ əldə etmək normalda yalnız qadın cinsinə mənsub olan konkret fərdə aid olur. Ana, istisnasız olaraq yalnız qadın cinsinə mənsub olan şəxs, fərd ola bilər və bununla da qadın analıq hüququna sahib olmaq imkanı əldə etmiş olur. Qızın, qadının və onlara bilavasitə aid olan, analıq institutunun mahiyyətini açmaq üçün, bir bioloji varlıq olaraq qadını səciyyələndirən başlıca, əsas xüsusiyyətlərə müəyyən aydınlıq gətirilməsi vacibdir. Belə ki, cinsi fərqlərin səciyyəvi xüsusiyyətlərinin öyrənilməsi qadın və kişi fərqliliyinin, feminist antropologiyanın və etnoqrafiyanın əldə etdiyi elmi uğurların nəzərə alınmasına zərurət yaradır. Bioloji fərqlərdən asılı olmayaraq, insanların sosial rollarında, fəaliyyət formalarında, emosional xüsusiyyətlərində, davranışlarında, hərəkətlərində, səslərində, vərdişlərində, yazışmalarında, həyata münasibətlərində, bioloji, psixi alqoritmlərində olan vəziyyəti, bir fərd olaraq, qadının və ananın başlıca xüsusiyyətlərini səciyyələndirir. Cinsi əlamət üzrə kateqoriyalaşdırmanı qəbul etmək, fərdi seçimdən asılı olmadan daha çox bioloji cəhətlərlə şərtlənir və sosial cəhətdən məcburi hesab olunur. Qadın və ana kimi insanı bioloji cəhətdən səciyyələndirən keyfiyyət xüsusiyyətləri, bir qayda olaraq ana və analıq hüququnun əsasında dayanır (3, s.58-66). Yaradıcı varlıq olaraq ailənin və insan nəslinin inkişafında qadının əvəzsiz rolu cəmiyyətin, dövlətin və ailənin həyatında onun bacarıqlarının və imkanlarının son dərəcə geniş olduğunu önə çəkmiş və bütün bu istiqamətlərdə fasiləsiz mübadilə prosesləri, təkrar insan istehsalı davam etmişdir (9, s.78-90). İnsan cinsinin, qadının, kişinin, ananın bioloji, fizioloji və digər istiqamətlərdə tədqiqi onların hər birinin ümumi və fərdi səciyyəvi xüsusiyyətlərini müəyyən etməyə imkan verir. İnsanın dünyaya qadın və ya kişi cinsi olaraq gəlməsinin mahiyyəti alimləri həmişə dərindən düşündürmüş və ibrətamiz nəticələr çıxarılmışdır. Genetik, bioloji, tibbi və hüquqi tədqiqatlar nəticəsində aydın olmuşdur ki, hər şeydən əvvəl insanın qadın və ya kişi cinsi kimi yaranmasının və formalaşmasının əsas səbəbi ana bətnində olan yumurta hüceyrəsinin X və ya Y xromosomunun hər hansı birindən mayalanmasından və baş verən fizioloji proseslərin yekun nəticəsindən asılıdır. Orqanizmdə olan, heç bir digər hüceyrəyə oxşamayan yumurta hüceyrəsi öz formasına və fiziologiyasına görə ana bətnindəki inkişaf prosesində ardıcıl, sistemli, həm də qanunauyğun dəyişikliklərə məruz qalır. Nəticədə gələcək insanın toxumaları, xüsusi funksiyalı fərqli orqanları formalaşmağa başlayır. Əslində isə yumurta hüceyrəsinin inkişaf proqramının mənbəyi ana bətnindəki vakumdan, necə deyərlər, "kosmik fəzadan" bəhrələnərək, insanın qolokrafik modeli əsasında gələcək konkret insanın spesifik obrazı formalaşmağa başlayır. İnsan embrionunun bölünən hüceyrələri yalnız qoloqrafik nüsxənin həcmini doldurur və yumurta DNT spiralını öz informasiya mənbələri ilə, toxumaları gələcək insana xas olan spesifik, fizioloji xüsusiyyətlər, daxili və zahiri əlamətlər kimi səciyyəvi bir formada yetişdirir. Gələcək insanın şüurunu isə hərəkətə gətirən, fəzanın rezonans axınları nəticəsində öz informasiya göstəricilərini, valideynlərinin normasına uyğun gəldiyi nöqtəyə, səviyyəyə qədər gətirib çatdıran irsi inkişaf prosesləri baş verir. Embrionun informasiya, energetika mənbəyi ilk olaraq cinsi mənsubiyyətdən məhrum olsa da, onda gələcək şüur məhz ana bətnində yaranır, inkişaf edir və baş verən digər fizioloji proseslər əsasında müvafiq olaraq qadın və ya kişi cinsi tipində formalaşmış insan obrazı modeli yaranmağa başlayır (25, s.3-8).

Tədqiqatlar göstərir ki, qadın və kişi «insan» adlanan varlığın iki tərəfini, iki fərdi cinsi özündə ehtiva etsə də, zahiri və daxili baxımdan müəyyən oxşarlıq elementləri faktiki olaraq mövcud olsa da, mahiyyət etibarilə onlar heç də eyni deyillər. İnsan olaraq qadın və kişi daxili və xarici bədən quruluşlarına, bioloji və fizioloji xüsusiyyətlərinə, cinsi fəaliyyətlərinə, vərdişlərinə, temperamentlərinə, duyğularına, sinir sistemlərinə, əqli və zehni qabiliyyətlərinə, yaddaşlarına, sosial və psixoloji davranışlarına, hadisələrə və proseslərə yanaşmalarına, cəmiyyətdəki və məişətdəki fərqli rollarına və digər çoxsaylı xüsusiyyətlərinə görə bir-

birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Nəsil artırmaq üçün kişi cinsinə mənsub olan orqanlardan fərqli olaraq, ana təbiət qadının nəsil artırmaq üçün vacib olan orqanlarını möhkəm sümük müdafiə sistemi ilə etibarlı şəkildə hər hansı xarici təsirlərdən və zədələrdən qoruyan bir sahədə, qarın boşluğunda yerləşdirmişdir. Bu, anaya olan ilahi məhəbbətin əsl təcəssümü kimi də qiymətləndirilə bilər. Dünyaya uşaq gətirmək üçün vacib olan əlaqə zamanı kişi toxumlarının sayı bir milyonu keçdiyi halda, qadın orqanizmi bütün həyatı boyu cəmi dörd yüz ədəd yumurta hüceyrəsi hasil edir. Qadın yumurta hüseyrəsi olduqca mürəkkəb quruluşa malik olmaqla, nəsillərarası irsiyyət xüsusiyyətlərinin ötürülməsində əsas daşıyıcı funksiyanı yerinə yetirir. Qadın yumurtasının yaranması və inkişafı kifayət qədər mürəkkəb olmaqla, insan orqanizminin yalnız normal temperaturu şəraitində – 36,6 dərəcədə yetişir. İnsan genomundakı 23 cüt xromosomdan 22-nin insanın cinsiyyətinə heç bir dəxli yoxdur. Yalnız 23-cü xromosomun – qadındakı «XX», kişidəki «XY» xromosomlarının cinsiyyətlə bilavasitə əlaqəsi vardır. Kişi Y – xromosomu, qadın X-xromosomuna nisbətən faktiki olaraq olduqca az informasiya daşıyıcısı hesab olunur. Kişi toxumu yalnız eyni şansla «Y» və «X» daşıyıcısı olmaq imkanına malikdir. Əgər mayalanma zamanı yumurta hüseyrəsinə Y xromosomu keçərsə, dölün cinsinin oğlan, X xromosomu keçərsə isə qız olacağı müddəası elmi cəhətdən artıq tam təsdiq edilmişdir. Oğlanlarda Y xromosomunun genealogiyasını genetik analizlə yoxlamaq mümkün olduğu halda, qızlarda X xromosomlarının hansının atadan, hansının anadan alındığını yoxlamaq və ya müəyyən etmək çətindir (22, s.111-113). Qadın və kişi cinsi bioloji, fizioloji, psixoloji, genetik, sosial və bir çox digər xüsusiyyətlərinə görə fərqli mahiyyət daşıyırlar, hətta onlar vahid «insan» adı altında təmsil olunsalar da və ya ilk baxışda oxşar görünsələr də təhlillər göstərir ki, hər iki cins bir-birindən birmənalı şəkildə kəskin surətdə fərqlənirlər. Bu gün müasir elmin inkişafı tam təsdiq edir ki, mayalanmış insan rüşeyminin ilkin mərhələsində faktiki olaraq cins olmur. Əslində o, cinssiz olaraq, ümumi bir insan rüşeymi kimi özünü göstərir və bu rüşeym beş həftədən sonra öz cinsi əlamətlərini, özününün ilkin elementlərini formalaşdırmağa başlayır. Doqquz həftəlik dölün cəmi 2 qram çəkisi, 3 sm uzunluğu olmasına baxmayaraq, mikroskop altında gələcək kişinin və ya qadının ilkin əlamətlərini artıq müşahidə etmək mümkündür. Müvafiq olaraq hamiləliyin dördüncü ayından sonra dölün cinsiyyətinin – qız və ya oğlan olacagını həkimlər müəyyən edə bilirlər. Hətta bu gün elmi fəaliyyət nəticəsində sübuta yetirilmişdir ki, ana bətnində olan rüşeymin inkişafının ilkin mərhələsində dölün gələcəkdə qız və ya oğlan olacağına stimul vermək, istiqamətləndirmək, təsir göstərmək, tənzimləmək, necə deyərlər, idarə etmək artıq reallığa çevrilmişdir. Kişinin və qadının əqli qabiliyyətlərində, başında və beynində belə, aşkar fərqli cəhətlər vardır. Qadınların intuisiya imkanları geniş olur və onlar kifayət qədər emosionallıqları ilə seçilirlər. Qadınlar həyat münasibətlərində və əlaqələrində özləri üçün mənəvi qida almaq imkanına üstünlük verdikləri halda, kişilər maddi tərəfə daha çox diqqət yetirirlər. Onlar öz istedadlarını poeziyada və təsviri incəsənətdə reallaşdırdıqları halda, bəstəkarlıq istedadı zəif inkişaf edir, özlərinə məlum olan həqiqətləri üzə vurmağa, ailələrinin və ya münasibətlərinin korlanacağı, dağılacağı qorxusu ilə gizlətməyə meyilli olur, məkrlilik, hiyləgərlik bacarığı ilə fərqlənirlər. Kişiləri pis xəbərlər, peşə uğursuzluqları, maddi çətinliklər, qadınları isə tənhalıq, ailə narazılıqları, uşaqlarla bağlı problemlər daha çox narahat edir. Qadınları sevgidə məhəbbət, nəzakət, diqqət və hörmət maraqlandırırsa, kişiləri öz vaxtlarını zövqlə keçirmək, şəhvət hissi və şöhrətpərəstlik xüsusiyyətləri daha çox cəlb edir (5, s.74). Qadının və kişinin genetik, bioloji, fizioloji xüsusiyyətləri, davranış və düşüncə tərzləri, intellektuallıq əmsalları, əqli kamillik səviyyəsi, sosial təyinatı əhəmiyyətli dərəcədə fərqlidir. Qadının məntiqi kişi məntiqindən kəskin surətdə seçilir. Öz fəaliyyətində qadın həmişə nə istədiyini bilir. Ananın düşüncəsinə görə, əgər məqsədə çatmaq qarşıya qoyulmuşdursa, o zaman məqsədə çatmaq yolları ikinci dərəcəli əhəmiyyət kəsb edir. Bu gün

qadınların cəmiyyətdə rolu, hüquqları və vəzifələri ilə məşğul olan fəlsəfi təlimlər, o cümlədən feminizm, hərəkat kimi müəyyən uğurlara nail olsa da, müxtəlif mənfi təzahürlərin də meydana çıxmasına səbəb olmuşdur. Qadının cəmiyyətdəki rolu haqqında danışarkən xüsusilə qeyd edilməlidir ki, bu gün bəşəriyyət insan cinsinin mövcudluğunda, artmasında, təşəkkülündə, təkamülündə və təkrar istehsalında qadına – anaya minnətdar olmalıdır. Qadın anadır, bacıdır, həyat yoldaşıdır, cəmiyyətin üzvüdür, maddi nemətlərin istehsalçısıdır, odun və ocağın keşikçisidir. Kişi cinsindən fərqli olaraq, qadın – ana, dünyaya insan – övlad gətirmək qabiliyyəti ilə seçilən müstəsna fenomen, yaradıcı bir varlıqdır. Onun alternativi yoxdur. O, əvəzedilməzdir. Normal vəziyyətlərdə analığın və ya analıq xüsusiyyətlərinin, geniş mənada bu fəaliyyətin kişidə və ya kişi cinsli şəxslərdə olması tamamilə mümkünsüzdür. Ailənin qorunub saxlanılması, dünyaya uşaq gətirilməsi, ona süd verilməsi, böyüdülməsi, inkişaf etdirilməsi, tərbiyə olunması, insan cinsinin bioloji fərqliliyinin qorunub saxlanılması məhz ananın, qadının adı ilə bağlıdır. Bu isə analıq statusunun səciyyəvi xüsusiyyətlərini ehtiva edir. Bu xüsusiyyətlərin və keyfiyyətlərin məcmusu "analıq" məfhumunun bioloji, sosial, psixi, tibbi məzmunu kimi səciyyələndirilə bilər. Bu isə analıq hüququnun məzmununun müəyyən edilməsində əsas rol oynayır. *Beləliklə, qadın cinsinə mənsub olan fərdin öz istəyi əsasında, könüllü olaraq kişi ilə ünsiyyətə girməsi, ər-arvad münasibətlərində olması, bətnində uşaq yetişdirməsi, doğması, ona süd verib bioloji inkişafını təmin etməsi, ana kimi bəsləməsi, nəvaziş və qayğı göstərməsi, tərbiyə edib insan kimi yetişdirməsi və s. bu kimi kompleks maddi, mənəvi, bioloji və əxlaqi xüsusiyyətlərin, hüquqların, vəzifələrin və öhdəliklərin məcmusuna* ***analıq hüququ*** *deyilir.* Əslində, bu kompleks proseslər, bir sistem kimi, analıq hüququnun səciyyəvi elementlərini əks etdirir. Analıq hüququ son dərəcə vacib və bəşəri mahiyyət daşıdığından hesab edirəm ki, Konstitusiyada belə bir normanın – ***«analıq hüququ»nun*** təsbit olunması, onun mükəmməlliyini təmin etmiş və bununla da bir sıra problemlərin uğurlu həllinə kömək etmiş olardı. Buna görə də Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinin III bəndinin aşağıdakı məzmunda verilməsi təklif olunur:

«**III.** Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq hüququ qanunla tanınır və mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir».

Təbiətdə, ailədə və cəmiyyətdə qadın kimi sosial rolu, anatomik, genetik, fizioloji, morfoloji, emosional, psixi, fiziki xüsusiyyətləri, cinsiyyət vəzilərinin dişi histoloji quruluşu, qadın cinsinə mənsub olan hormonlar ifrazetmə qabiliyyəti, cinsi və hormonal xromosomları, özünəməxsus qadın cinsi orqanları olan, dünyaya uşaq gətirmək, ona süd vermək, analığın digər başqa keyfiyyətlərini özündə əks etdirən və ana kimi səciyyələndirilə bilən kompleks xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən bioloji insan cinsi isə **qadın** hesab olunur (5, s.74). Qadın dedikdə, çox vaxt ana və bir institut olaraq analıq institutu başa düşülür. Buna görə də fərdi mahiyyət daşıyan qadın cinsi və qadına mənsub olub hüquqların və azadlıqların beynəlxalq standartlarının müəyyən edilməsi və dövlətdaxili hüquq sistemində təsbit olunması müstəsna əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, beynəlxalq hüququn ən mühüm prinsiplərindən birini, dövlətlərin və beynəlxalq hüququn digər subyektlərinin insan hüquqlarına və azadlıqlarına hörmət etməsi prinsipi təşkil edir. Qadınların həyat tərzində qızlıq və ya dulluq mərhələsinin fərqləndirilməsinə də zərurət vardır. Qızlıq dövrü, adətən, 10-12 yaşdan başlayaraq qadın cinsinə mənsub olan fərdin ərə getdiyi dövrə qədər olan müddəti əhatə edir. Bakirəlik mərhələsi kimi qiymətləndirilən bu dövr daha çox tanınmış və kübar ailələr üçün səciyyəvi olsa da, orta əsrlərdə bakirəlik tələbləri əsasən, şəhərli qadınlara tətbiq edilirdi. Dulluq isə sosial və hüquqi baxımdan ərə getmiş qadının həyat yoldaşının ölməsindən və ya nikah münasibətlərinin pozulmasından sonrakı mərhələdə qadının vəziyyətini səciyyələndirir. Hüquqi baxımdan qadının statusuna, hüquqlarına və vəzifələrinə

müəyyən dərəcədə də olsa təsir göstərən qızlıq, bakirəlik və dulluq vəziyyəti status etibarilə qanunvericilikdə tənzim edilməsə də, lakin uzun illərin adətləri, ənənələri, etik və əxlaqi dəyərləri bu məsələyə aydınlıq gətirməyə, onları fərqləndirməyə imkan verir (7, s.139). Ailədə, cəmiyyətdə, dövlət həyatında qadının müstəsna rolu, dünyaya uşaq gətirmək kimi müstəsna yaradıcılıq fəaliyyəti, insan nəslinin inkişafında, maddi nemətlər istehsalında onun rolu qadın hüquqlarının aparıcı mahiyyətinin əsasını təsdiq edir. Bu baxımdan qadın hüquqları bütün mənalarda genişləndirilməli, cəmiyyətdə qadın həm də ana olmaq etibarilə rolu və hüquqi imkanları geniş olmalıdır (10, s.105-114).

Müstəqillik illərində Azərbaycan Respublikasının qanunvericiliyində qadınlar üçün geniş hüquqlar və azadlıqlar nəzərdə tutulmuşdur. Bu özünü, hər şeydən əvvəl, bir institut kimi ailənin statusunun Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilməsində ifadə etmişdir. Belə ki, ölkəmizin Konstitusiyasının 17-ci maddəsində göstərilmişdir ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qəti qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir (4, s.10-11).

Göründüyü kimi, Azərbaycan Respublikasında Konstitusiyası ailənin statusu, o cümlədən onun dövlətin xüsusi himayəsində olması, valideyn və uşaq münasibətlərinin hüquqi tənzimlənməsi, ailə, uşaq və valideyn hüquqları və onların qorunması üzərində dövlət nəzarətinin mövcudluğu, uşaqların həyatı, sağlamlığı, əməyi və s. məsələlər müfəssəl şəkildə təsbit edilmişdir. Bundan fərqli olaraq Konstitusiyanın 34-cü maddəsi insan və vətəndaş hüquqları kontekstində nikah hüququnun Konstitusiya təsbitinin əsas meyarlarını müəyyən etmiş, nikah hüququnu, ər-arvad münasibətlərinin başlıca məzmununu əks etdirmiş, nikahı insanın təbii hüququ kimi səciyyələndirmişdir. Konstitusiyanın 34-cü maddəsində göstərilir ki, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə və ya ərə verilə bilməz. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir. Ərin və arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar (4, s.10-11). Konstitusiyanın 17 və 34-cü maddələrinin hüquqi əsası ölkəmizin qoşulduğu və üstünlüyünü tanıdığı beynəlxalq hüquq normalarının məzmunundan və tələblərindən irəli gəlir. Azərbaycan Respublikasının ailə qanunvericiliyində əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına uyğun olaraq ailə münasibətlərinin yaranması və möhkəmlənməsi, onlara xitam verilməsi prinsiplərinin, ailə münasibətlərinin iştirakçılarının hüquq və vəzifələrinin, dövlət orqanlarının bu sahədəki vəzifələrinin, vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması qaydalarının müəyyən edilməsində Azərbaycan Respublikasının Ailə Məcəlləsinin mühüm yeri və rolu vardır (3, s.4). Bu münasibətlər sahəsində qadının – ananın yeri və rolu mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq Əmək Təşkilatının 28 iyun 1952-ci il tarixli «Analığın mühafizəsi haqqında» 103 nömrəli Konvensiyasının 2-ci maddəsində göstərilir ki, bu Konvensiyanın «qadın» termini yaşından, milliyyətindən, irqindən və ya dinindən asılı olmayaraq, nikahda olan və ya olmayan, qadın cinsindən olan… şəxsi ifadə edir (6). Buna görə də yuxarıda qeyd edilən araşdırmaların və tədqiqatların nəticəsi olaraq belə yekun nəticəyə gəlmişik ki, qadın dedikdə, yaşından, milliyyətindən, irqindən, dinindən, nikaha daxil olub-olmamasından asılı olmayaraq, ailədə və cəmiyyətdə qadın kimi sosial rolu, anatomik, genetik, fizioloji,

morfoloji, emosional, psixi, fiziki xüsusiyyətləri, cinsiyyət vəzilərinin dişi histoloji quruluşu, qadın cinsinə mənsub olan hormonlar ifrazetmə qabiliyyəti, cinsi və hormonal xromosomları, dünyaya uşaq gətirmək, analığın başqa keyfiyyətlərini özündə əks etdirən və ana kimi səciyyələndirilə bilən kompleks xüsusiyyətlərin məcmusunu özündə ehtiva edən biososial insan cinsi başa düşülür (8). Valideynlər sırasında ailə birliyinin mühüm tərəflərindən biri – qadın, ana, arvad terminindən istifadə etməklə ifadə olunur. Ailə hüququnda valideynlər dedikdə, doğulan uşağın atası və anası, başqa sözlə, ər və arvad, yaxud kişi və qadın başa düşülür (3, s.4-34). Azərbaycan Respublikasında hər bir qadının analıq hüququ vardır. Beynəlxalq və milli hüquq normaları əsasında ümumiləşdirmə aparılarkən qadının və ananın hüquqlarının başlıca məzmununun aşağıdakılardan ibarət olduğu müəyyən edilmişdir. Belə ki, hər bir qadının və ananın əsas hüquqlarına ailə münasibətlərində qarşılıqlı məhəbbət və hörmət hislərinə əsaslanaraq könüllü qaydada nikah münasibətinə girmək, ailə qurmaq, uşaq doğmaq, ona tərbiyə və təhsil vermək, sağlam və vətənə sədaqət ruhunda böyütmək, ailədaxili məsələləri qarşılıqlı razılıq əsasında həll etmək, uşaqların ailə tərbiyəsinin üstünlüyünü tanımaq, onların rifahına, inkişafına qayğı göstərmək, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquqlarını təmin etmək, ailə üzvlərinin və uşaqlarının hüquqlarını və qanuni mənafelərini qorumaq, ailə münasibətlərində zərərli adətləri aradan qaldırmaq, uşaqlarda ailə və cəmiyyət qarşısında məsuliyyət hissini tərbiyə etmək, şəxsi və qeyri-şəxsi əmlak hüquqlarını qorumaq, tibbi-genetik, tibbi-psixoloji və ailə planlaşdırması qaydalarına əməl etmək, ərindən aliment almaq, qadın və kişi bərabərliyinə hörmət etmək, özünə məşğuliyyət, sənət və yaşayış yeri seçmək, ailənin möhkəmləndirilməsinə və uşaqların tərbiyəsinə kömək etmək, soyadı seçmək, birgə və şəxsi mülkiyyət hüququnu qorumaq, öz əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququndan istifadə etmək, nikah müqaviləsi bağlamaq və onun şərtlərinə əməl etmək, uşaqların hüquq və azadlıqlarının qorunmasını təmin etmək, atalığın, analığın və uşaqlığın müəyyən edilməsində maraqlı olmaq və iştirak etmək, iddia qaldırmaq, uşağına doğum haqqında şəhadətnamə almaq, atalığa və analığa dair məhkəmədə mübahisə açmaq, iddia qaldırmaq, uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququna əməl etmək, başqa qohumlarla ünsiyyət yaratmasını təmin etmək, uşağın fikrini dinləmək, uşağın ata adını və soyadını daşımaq hüququna hörmət etmək, uşağın əmlak hüquqlarını qorumaq və təmin etmək, onun fiziki və psixiki sağlamlığına zərər yetirməmək, valideynlik hüququnun müdafiəsini təmin etmək, aliment öhdəliklərinə əməl etmək, övladlığa uşaq götürmək və ya götürməmək, uşaqları onların həyatına, sağlamlığına, mənafeyinə təhlükə törədə bilən fəaliyyətə cəlb etməmək, 15 yaşına çatmayan uşaqlarının işləməsinə imkan verməmək, hər kəsin hüquqlarına hörmət etmək, ana olaraq uşaq doğmaq, nikah, müavinət, tibbi və sosial yardım almaq, istirahət, sığorta hüquqlarından istifadə etmək, yaşamaq, azadlıq, mülkiyyət, əqli mülkiyyət, şəxsi toxunulmazlıq, təhlükəsiz yaşamaq, mənzil toxunulmazlığı, təhsil, əmək, istirahət, mədəniyyət, məzuniyyət, tətil və əməkhaqqı almaq hüququ, fəaliyyət, peşə, məşğuliyyət, iş yeri seçmək, sağlam şəraitdə yaşamaq və işləmək, yardıma möhtac olan ailə üzvlərinə kömək etmək, xəstəliyə, əlilliyə, ailə başçısını itirməyə, işsizliyə görə sosial təminat almaq, əmlakına vurulmuş ziyanın əvəzini almaq, mədəni sərvətlərdən istifadə etmək, tarix və mənəvi irsə hörmət etmək, milli mənsubiyyətini qorumaq, ana dilindən istifadə etmək, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq, şərəf və ləyaqətini qorumaq, işgəncə və əzablara məruz qalmamaq, fikir və söz azadlığından istifadə etmək, vicdan azadlığı hüququndan istifadə edərək dinə inanmaq, yaxud inanmamaq, sərbəst toplaşmaq, yaradıcılıq və məlumat azadlığından istifadə etmək, ölkənin vətəndaşı olmaq, cəmiyyətin və dövlətin siyasi həyatında, dövlət idarəçiliyində iştirak etmək, seçmək və seçilmək, müraciət etmək, birləşmək, azad sahibkarlıqla məşğul olmaq, hüquqi yardım almaq, qohumlar əleyhinə ifadə verməmək, siyasi sığınacaq almaq, hüquq və

azadlıqlarının məhkəmə müdafiəsi hüququndan istifadə etmək və s. bu kimi çoxsaylı hüquqları və azadlıqları vardır. Anaya hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli övlad əmək qabiliyyəti olmayan anasını saxlamağa borcludur (8).

Ölkəmizdə hazırda ailə strategiyasının mühüm istiqamətləri sırasında analıq hüququnun genişləndirilməsi və mühafizəsinin etibarlı şəkildə təmin olunması istiqamətində sistemli tədbirlər həyata keçirilməkdədir.

Açar sözlər: qanun, qadın, hüquq, Məcəllə, analıq hüququ, nikah, sağlamlıq, müdafiə.

İstifadə olunmuş ədəbiyyat

1. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu. Maddə 30. http://sehiyye.gov.az/ehalinin_saqlamliqi_qorunmasi_haqqinda_qanun.html
2. Azərbaycan dilinin izahlı lüğəti. B., 2006, I cild.
3. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı: «Hüquq ədəbiyyatı», 2014.
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2014.
5. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya, Bakı, 2000.
6. Beynəlxalq sənədlər toplusu. Bakı: "Qanun", 2008, s. 137, 143 //Beynəlxalq Əmək Təşkilatının 103 nömrəli Konvensiyası.
7. Gender terminlərinin izahlı lüğəti, Bakı, 2005.
8. Həsənzadə S.B. «Azərbaycan Respublikasında qadın hüquqları və azadlıqları haqqında» Qanun layihəsi. Bakı, 2014.
9. Həsənzadə S.B. «Heydər Əliyevin Azərbaycan qanunveciliyində qadın hüquqlarının təsbit olunması sahəsində rolu», Ulu Öndər Heydər Əliyevin 90 illiyinə həsr olunmuş Konfransın materialları, Bakı, may 2013.
10. Həsənzadə S.B. Azərbaycanda qadın hüquqlanın bəzi səciyyəvi xüsusiyyətləri haqqinda: hüquq elminin müasir problemləri. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları mövzusunda IV Respublika elmi-nəzəri konfransın materialları, 6-7 may 2014-cü il, Bakı.
11. Həsənzadə S.B. İnsan hüquqları kontekstində qadının mahiyyəti və səciyyəvi xüsusiyyətləri, DİN Polis Akademiyasında BMT-nin Ümumdünya insan hüquqları Bəyannaməsinin 65 illiyinə həsr olunmuş "Müasir dövrdə insan hüquqlarının təminatının aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, 2014.
12. Həsənzadə S.B. Qadın hüquqları - insan hüquqlarının və azadlıqlarının tərkib hissəsi kimi, "Hüquq elminin müasir problemləri" mövzusunda III Respublika konfransının materialları, Bakı, mart, 14-15 may 2013.
13. Həsənzadə S.B. Qadın və uşaq hüquqlarının qorunması aktual problem kimi, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun «Elmi Əsərlər» jurnalı (hüquq seriyası), № 1 (18). Bakı, 2012.
14. Quliyev A.İ. Hüquq terminləri lüğəti. Bakı, 2007.
15. Rüstəmov R. Din, genetika və ictimai irsiyyət baxımından qadin-kişi münasibətləri, Dövlət və din: ictimai fikir toplusu, Bakı, 2011, №4.
16. Айала Ф., Кайнер Дж. Современная генетика. В 3-х т. М.:Мир,1987-1988, т.1-3.
17. Богданов В. Преступность в крови //«Российская газета», 2008, 30 октября.
18. Герцензон А.А. Против биологических теорий причин преступности //Вопросы предупреждения преступности, М., 1966, №4.

19. Голоднюк М.Н. Некоторые вопросы женской преступности //Вестник МГУ, 1978, №1.

20. Дубинин Н.П. Наследование биологическое и социональное //Журнал «Коммунист», 1980, №11.

21. Дубинин Н.П., Карпец И.И., Кудрявцев В.Н. Генетика. Поведение. Ответственность., М., 1982.

22. Кайданов Л.З. Генетика популяций. М.: Изд-во «Высшая школа», 1996.

23. Кузнецова Н.Ф., Лейкина Н.И. Криминалический аспект соотношения социального и биологического //Советское государство и право, 1977, №9.

24. Льюин Б. Гены: Пер. с англ. М.: Мир, с.33-34, М., 2002.

25. Малахов Г. Женские тайны, мужские проблемы, М., 2002.

26. Нечаева А.М. Семья как самостоятельный объект правовой охраны. Журнал «Государство и право», № 12, 1996.

27. Панкратова Н.В. Социальный и биологический аспекты родительства. Журнал «Социологические исследования», 2006, № 10.

28. Салагай О.О. Дефиниция биологического пола человека в международном и национальном праве. Журнал «Государство и право», № 6, 2011.

29. Сеченов И.М. Рефлексы головного мозга. М., 1961, с.89.

30. Сингер М., Берг П. Гены и геномы. В 2-х т. М.: Мир, 1998, т. 1, 2.

31. Скутнева С.В. Раннее материнство. Журнал «Социологические исследования». 2009, № 7.

32. Снежко О.А. Конституционно-правовая защита семьи. Журн. «Государство и право», № 2, 2008.

33. Снежко О.А. Проблемы государственной защиты материнства в Российской Федерации. Журнал «Государство и право», № 10, 2010.

Саида ГАСАНЗАДЕ

ПРАВО ЖЕНЩИН НА МАТЕРИНСТВО И ЕГО ЗАЩИТА

Резюме

В годы независимости в законодательстве Азербайджанской Республики для женщин как граждан этой страны был предусмотрен широкий круг прав и свобод. В семейном праве, где говорится о родителях, речь идет об отце и матери родившегося ребенка, другими словами, имеются в виду мужчина и женщина.

В статье 34 Конституции Азербайджанской Республики признается право каждого человека по достижении установленного законом возраста, создавать семью, вступать в брак. Это право касается как мужчин, так и женщин. В части ЫЫЫ этой статьи указывается, что «материнство, отцовство и детство находятся под охраной закона». Тем не менее, ни Конституция, ни Семейный Кодекс и ни Гражданский Кодекс до сих пор не внесли ясность в обозначение понятия «материнство», указанного в Конституции: из чего состоит содержание «материнства», его статус, права и обязанности.

В данной статье в контексте понятия «материнство» впервые внесена ясность в содержание и дефиницию права на материнство женщин, являющихся гражданами Азербайджанской Республики.

Ключевые слова: закон, женщина, право, статья, право на материнство, брак, здоровье, защита.

Saida HASANZADE

THE RIGHT OF WOMEN TO MATERNITY AND ITS PROTECTION

Summary

In years of independence in the legislation of the Republic of Azerbaijan there was specified a wide circle of rights and freedoms for women as the citizins of this country. In family right when stating on the parents, the point is father and mother of the born child, in other words, man and woman. In Article 34 of the Constitution a right of everybody on reaching an age determined by the law to found a family, to marry is recognozed. In Section III of this article it is pointed that "maternity, paternity and chilhood are under protection of the law". Nevertheless neither Constitution, no Family Code and Civil Code have not yet made clear the meaning of notion of term "maternity" indicated in the Constituion, what content of "maternity" consists of its status, right and duties. In the article, for the first time in the context of "maternity" there have been made clear the content and definition of right to maternity of woman as the citizens of the Republic of Azerbaijan.

Keywords: law, woman, right, Article, right to maternity, marriage, health, defence.

UOT 343.375

Şəlalə HƏSƏNOVA
b.e.i., hüquq ü.f.d., dosent, AMEA FHİ

HÜQUQİ DÖVLƏT QURUCULUĞU ŞƏRAİTİNDƏ CİNAYƏT YOLU İLƏ ƏLDƏ OLUNMUŞ PUL VƏSAİTLƏRİ VƏ DİGƏR ƏMLAKIN LEQALLAŞDIRILMASI İLƏ MÜBARİZƏ MƏSƏLƏLƏRİ*

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması (*çirkli pulların yuyulması*), onların gizli iqtisadiyyatın maliyyələşdirilməsində istifadə olunması müasir dövrdə transmilli cinayətkarlığın əsas əlamətlərindən hesab olunur.

1984-cü ildə ABŞ-ın Prezident komissiyası «çirkli pulların yuyulması» anlayışını «*gəlirlərin mövcudluğunun, qanunsuz mənşəyinin, yaxud qanunsuz istifadəsinin gizlədilməsi, sonradan onların qanuni mənşəli olması görüntüsünün yaradılması məqsədilə maskalanması*» prosesi kimi müəyyən etmişdir (9 , s . 7) .

BMT-nin «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» 19 dekabr 1988-ci il tarixli Vyana konvensiyasında narkotik vasitələrin qanunsuz dövriyyəsindən əldə olunmuş gəlirlərin və onlara uyğun gələn mülkiyyətin və s. müsadirəsi məsələsi ilk dəfə olaraq beynəlxalq səviyyədə müzakirə olunmuş və müvafiq mübarizə tədbirləri planı işlənilmişdir (3 , s . 1 8 4 - 1 8 8) .

1989-cu ildə «Böyük yeddilik» ölkələrinin qərarı ilə xüsusi maliyyə hərəkəti qrupu – pulların yuyulması ilə mübarizənin maliyyə tədbirlərinin işlənilməsi qrupu (*Financial Action Task Force on Money Laundering – FATF*) yaradıldı. 34 ölkə, və iki beynəlxalq təşkilat qrupun üzvləri, iyirmi təşkilat və daha iki ölkə isə müşahidəçiləridir (4) .

Xüsusi maliyyə hərəkəti qrupu BMT-nin 1990-cı ildə Havanada keçirilən Konqresində pul vəsaitlərinin yuyulması prosesinin anlayışı kimi aşağıdakıları əsas götürməyi təklif etdi:

– cinayət nəticəsində əldə edildiyi məlum olan mülkiyyətin konversiyası (dəyişməsi, yeni şəklə salınması), yaxud başqasına verilməsi;

– cinayət nəticəsində əldə edildiyi məlum olan mülkiyyətin əsil xarakterinin, mənbəyinin, olduğu yerin, yerdəyişməsinin, mülkiyyət barəsində olan hüquqların, yaxud mülkiyyət hüququnun gizlədilməsi, yaxud maskalanması;

– cinayət nəticəsində əldə edildiyi məlum olan mülkiyyətin əldə olunması, ona sahiblik edilməsi, yaxud ondan istifadə olunması (8, s. 168).

2000-ci ilin dekabr ayında BMT-nin Palermoda keçirilmiş konfransında transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiya qəbul olundu. Konvensiyaya əsasən təqib olunması nəzərdə tutulan ən təhlükəli cinayətlərdən biri də qanunsuz yollarla əldə olunmuş pul vəsaitlərinin yuyulmasıdır (6).

8 noyabr 1990-cı ildə Strasburqda Avropa Şurasına üzv ölkələr tərəfindən cinayətkar fəaliyyət nəticəsində əldə olunmuş gəlirlərin yuyulması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında Konvensiya qəbul olunmuşdur (7).

Göründüyü kimi, Qanunsuz yollarla əldə olunmuş gəlirlərin təmizə çıxarılmasına (leqallaşdırılmasına) qarşı mübarizənin güclənməsi ötən əsrin 80-90-cı illərinə təsadüf edir.

Aydındır ki, müstəqillik əldə etdikdən sonra öz milli qanunvericilik bazasını yaradan Azərbaycan Respublikası bu prosesdən kənarda qala bilməzdi. 7 aprel 2006-ci il tarixli 92-

* Məqalə hüquq ü.e.d., professor İsaxan Vəliyev tərəfindən çapa məsləhət görülüb.

IIIQD nömrəli Azərbaycan Respublikası qanunu ilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma» adlı 193-1-ci maddənin əlavə edilməsi də məhz bununla bağlıdır. Sonradan Azərbaycan Respublikasının 16 may 2008-ci il tarixli 607-IIIQD saylı, 05 mart 2010-cu il tarixli 973-IIIQD saylı qanunları ilə həmin maddəyə müvafiq düzəlişlər edilmişdir.

Göstərilən maddənin dispozisiyasına əsasən, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma, yəni cinayət yolu ilə əldə edildiyini bilə-bilə həmin pul vəsaitləri və ya digər əmlakın əldə edilməsinin həqiqi mənbəyini gizlətmək və ya cinayət törətmiş şəxsin məsuliyyətdən yayınması üçün ona kömək etmək məqsədilə belə pul vəsaitlərinin və ya digər əmlakın konversiyası və ya köçürülməsi, yaxud həmin məqsədlərlə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərindən və ya digər əmlakdan istifadə etməklə maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirilməsi (CM-in 193-1.1.1-ci maddəsi), eləcədə cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitləri və ya digər əmlakın həqiqi xarakterinin, mənbəyinin, yerinin, onlara sərəncam verilməsinin, onların yerdəyişməsinin, belə pul vəsaitləri və ya digər əmlaka olan hüquqların və ya onların kimə məxsus olmasının ört-basdır edilməsi və ya gizlədilməsi (CM-in 193-1.1.2-ci maddəsi) cinayət məsuliyyətinin yaranmasına səbəb olur.

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması ilə bağlı əməllərin tövsifi zamanı səhvlərə yol verilməməsi üçün Cinayət Məcəlləsinin 193-1-ci maddəsində nəzərdə tutulmuş cinayətin əlamətlərinin dəqiq müəyyən edilməsi zəruridir.

Cinayətin obyekti iqtisadi fəaliyyətin tərkib elementləri olan qanuni əmlak və pul dövriyyəsini təmin edən ictimai münasibətlərdir.

Cinayətin predmeti ancaq cinayət yolu ilə əldə olunmuş pul vasitələri və digər əmlakdır.

Cinayətin obyektiv cəhəti cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, yəni həmin pul vəsaitləri və ya digər əmlakın əldə edilməsinin həqiqi mənbəyini gizlətmək və ya cinayət törətmiş şəxsin məsuliyyətdən yayınması üçün ona kömək etmək məqsədilə belə pul vəsaitlərinin və ya digər əmlakın konversiyası və ya köçürülməsi, yaxud həmin məqsədlərlə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərindən və ya digər əmlakdan istifadə etməklə maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirilməsi, habelə pul vəsaitləri və ya digər əmlakın həqiqi xarakterinin, mənbəyinin, yerinin, onlara sərəncam verilməsinin, onların yerdəyişməsinin, belə pul vəsaitləri və ya digər əmlaka olan hüquqların və ya onların kimə məxsus olmasının ört-basdır edilməsi və ya gizlədilməsi, başqa sözlə desək leqallaşdırılması ilə bağlı hərəkətlərlə səciyyələnir.

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması aşağıda göstərilən əlamətlərlə xarakterizə oluna bilər: 1) hansısa bir xidmətin göstərilməsinə görə əldə olunmuş gəlir kimi qələmə verilən pul vəsaitlərinin banka verilməsi; 2) qanuni (leqal) və qeyri-qanuni (qeyri-leqal) pul vəsaitlərinin bir bank hesabında cəmləşdirilməsi; 3) cinayət yolu ilə əldə olunmuş əmlakın qanun çərçivəsində fəaliyyət göstərən müəssisə vasitəsilə realizə olunması; 4) cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin müəssisənin qanuni fəaliyyətindən əldə olunmuş gəlir kimi sənədləşdirilməsi; 5) bu və ya digər şəxsin yerinə yetirdiyi işlərin və göstərdiyi xidmətlərin qiymətinin artırılması; 6) xarici valyutanın və açıq satışda olan qiymətli metalların, eləcə də məmulatların cinayət yolu ilə əldə olunmuş pul vəsaitləri hesabına satın alınması; 7) daşınmaz və daşınar əmlakın aşağı qiymətlə satınalma kimi sənədləşdirilməsi və sonrakı yüksək qiymətə satışı nəticəsində qanuni gəlir görüntüsünün yaradılması; 8) müflis olmuş müəssisənin əhəmiyyətli dərəcədə aşağı qiymətlə satın alınması və cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərinin həmin müəssisənin gəliri kimi göstərilməsi; 9) satın alınan malların, və digər əmlakın qiymətinin sənədlərdə azaldılması; 10) faktiki olaraq həyata keçirilməyən müxtəlif ticarət əməliyyatlarının sənədləşdirilməsi; 11)

vərəsəlik yolu ilə əldə olunan əmlakın həcminin artırılması, yaxud yalançı vərəsəlik aktlarının tərtib etdirilməsi və s.

Pul vəsaitlərinin leqallaşdırılması çoxpilləli prosesdir. Amerika hüquqşünaslarının gəldiyi nəticəyə görə bu proses üç mərhələdə həyata keçirilir:

1) «çirkli pullar»ın ölkədən çıxarılması və zərurət olduqda onların xarici banklardakı hesablara köçürülməsi: a) fiziki şəkildə çıxarılma: kuryer gizli olaraq pulları ölkədən çıxarır, pulların ölkədən gedən maşında, yaxud yüklərin içində çıxarılması, poçtla göndərilməsi, kolleksiya əşyalarının və daşınmaz əmlakı alınması; b) maliyyə əqdləri vasitəsilə pul fondlarının çıxarılması: ölkə hüdudlarından kənara çıxarmadan pulların gizlədilməsi üsullarından istifadə edilməsi, telefon köçürmələri, çeklər, akkreditivlər, qiymətli kağızlar, xarici banklardakı hesablar, kazino, pul mübadiləsi;

2) pul vasitələrinin leqallaşdırılması: xarici banklardakı hesablar, yalançı şirkətlər, xaricdəki daşınmaz əmlaklar və s.;

3) pul fondlarının repatriasiyası: a) ssuda və borclar. Bu üsulların üstünlüyü ondadır ki, onlar pulların qaytarılmasını təmin edir; faizlərin ödənilməsinə çəkilən xərclər, yaxud sərmayə kapitalı hesabına silmək; bankların və korporasiyaların məlumatlarının açıqlanmaması (yayılmaması) haqqında qanunla bağlı olaraq əməliyyatların qanuniliyini yoxlamaq çətindir; b) akkreditivlər vasitəsilə ödənişlər; v) konsultasiyalara görə ödənişlər; saxta icarə müqavilələri (8, s. 178).

Buradan belə nəticəyə gəlmək olar ki, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılmasına yönəlmiş maliyyə əməliyyatları fiziki və hüquqi şəxslərin qanunsuz yolla əldə edildiyini bilə-bilə pul vəsaitlərinin, qiymətli kağızların, digər əmlakın alınması, ödənilməsi, verilməsi, daşınması, göndərilməsi, köçürülməsi, dəyişdirilməsi, saxlanılması üzrə əqdləri və digər hərəkətləri, eləcə də belə əqdlərin və digər hərəkətlərin təsdiq edilməsi, yaxud qeydiyyatı üzrə olan əməlləridir (8, s. 179).

Zənnimizcə, müəllifin gəldiyi bu nəticə kifayət qədər əsaslı və inandırıcıdır.

Qeyd etmək lazımdır ki, Cinayət Məcəlləsinin 193-1-ci maddəsində nəzərdə tutulmuş cinayət formal tərkiblidir. Təqsirkarın həqiqi maliyyə əməliyyatlarını, yaxud əqdləri həyata keçirdiyi andan cinayət əməli başa çatmış hesab olunur. Həqiqi olmayan maliyyə əməliyyatlarının, yaxud əqdlərin həyata keçirilməsi «leqallaşdırma» əməlinin tərkibini yaratmır. Belə halda ancaq başa çatmamış cinayətdən söhbət gedə bilər.

Cinayət Məcəlləsinin 193-1.2-ci maddəsində cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi, təkrar törədilməsi və şəxsin öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi kimi ağırlaşdırıcı hallar nəzərdə tutulur.

Öz qulluq mövqeyindən istifadə edən şəxs dedikdə, daimi, müvəqqəti olaraq və ya xüsusi səlahiyyət üzrə hakimiyyət nümayəndəsi funksiyalarını həyata keçirən, yaxud dövlət orqanlarında, yerli özünüidarə orqanlarında, dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, habelə digər kommersiya və qeyri-kommersiya təşkilatlarında təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər, beynəlxalq təşkilatların nümayəndələri, habelə «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikası Qanununun məqsədi üçün vəzifəli şəxs hesab edilən digər şəxslər başa düşülür.

Cinayət Məcəlləsinin 193-1.3-cü maddəsi ilə cinayətin xüsusilə tövsifedici əlamətləri müəyyən edilir: a) mütəşəkkil dəstə və ya cinayətkar birlik (*cinayətkar təşkilat*) tərəfindən törədilməsi (CM-nin 193-1.3.1-ci maddəsi); b) 193-1.3.2. külli miqdarda törədilməsi (CM-nin 193-1.3.2-ci maddəsi).

Cinayət Məcəlləsinin 193-1.3.2-ci maddəsində *"külli miqdar"* dedikdə qırx beş min manatdan artıq olan məbləğ başa düşülür.

Cinayətin subyektiv cəhəti birbaşa qəsdlə xarakterizə olunur. Təqsirkar cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlakla maliyyə əməliyyatı, yaxud istənilən digər əqdi həyata keçirdiyini bilir və bunu istəyir. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün istifadə edilməsində birbaşa qəsd xüsusi məqsədə – leqallaşdırmaya nail olmağa yönəlmiş olur.

Cinayət Məcəlləsinin 193-1-ci maddəsində nəzərdə tutulan cinayətin subyekti maliyyə əməliyyatlarında, yaxud əmlakla həyata keçirilən əqdlərdə iştirak edən və bu zaman onun iştirakı ilə keçirilən maliyyə əməliyyatının, yaxud əmlakla bağlı əqdlərin, habelə sahibkarlıq, yaxud digər iqtisadi fəaliyyətin başqa şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş pul vəsaiti və ya digər əmlak hesabına həyata keçirildiyini dərk edən və belə hərəkətləri etmək istəyən şəxs ola bilər.

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması üçün ofşor ərazilərin və şirkətlərin istifadə olunması ən çox istifadə olunan hallardandır.

Ofşor ərazilər dedikdə, xarici kredit kapitallarını cəlb etməyə çalışan və ancaq xarici rezidentlər tərəfindən və xarici valyutada həyata keçirilən maliyyə-kredit əməliyyatları üçün vergi və digər imtiyazlar verən kiçik dövlətlər və ərazilər başa düşülür. Avropada ofşor ərazilərə La-Manş boğazı adaları (*Cersi, Hernsi, Men*), Lüksemburq, İsveçrə, Lixtenşteyn, Hibraltar, İrlandiya, Malta, Kipr və s.; Amerikada isə Panama və Karib dənizi adalarındakı (*Baham, Bermud, Virjini, Kayman, Aruba, Kusara və s.*) ərazilər, Asiyada Honq-Konq, Sinqapur, Küveyt, Bəhreyn, Liviya, Afrikada Liberiya və Anqola aid edilir. Bu ölkələrdən çoxunun inkişaf etmiş iqtisadi sektoru olmadığı üçün onların siyasi dairələri iqtisadi və milli geriliyi aradan qaldırmaq üçün kapital qoyuluşunun məxfiliyinə dəstək verir və onu təmin edirlər (8, s. 188).

BMT-nin 18-20 iyul 1994-cü ildə pulların «yuyulması»nın və cinayət fəaliyyətindən əldə olunmuş gəlirlərdən istifadə olunmasının qarşısının alınması və onlarla mübarizə üzrə İtaliyada keçirilmiş Beynəlxalq konfrans bu işin həyata keçirilməsinin təsirli olmasına kömək edəcək aşağıdakı prioritet sahələri müəyyən etdi: 1) narkotiklərin qanunsuz dövriyyəsindən və digər cinayətkar fəaliyyətdən əldə olunan gəlirlərin kriminallaşdırılması; 2) bank sirrinin azaldılması; 3) «öz müştərini tanı» qaydası – anonim təmsilçi hesablarının ləğv edilməsi, müştərilərin eyniləşdirilməsi və s.; 4) şübhəli əməliyyatların eyniləşdirilməsi və onlar barədə məlumatlandırma; 5) maliyyə əməliyyatları ilə məşğul olan təşkilatların və şəxslərin fəaliyyətinin tənzimlənməsinin təkmilləşdirməsi; 6) cinayətkar fəaliyyətdən alınan gəlirlərin müsadirə olunması; 7) beynəlxalq əməkdaşlığın həqiqi mexanizmlərinin inkişafı (8, s. 190).

Cinayət yolu ilə əldə olunmuş əmlakın dövriyyəsi ilə bağlı olan digər cinayət Cinayət Məcəlləsinin 194-cü maddəsində nəzərdə tutulan əməldir. Bu maddədə qabaqcadan vəd etmədən cinayət yolu ilə əldə edildiyini bilə-bilə xeyli miqdarda pul vəsaitləri və ya digər əmlakı əldə etməyə, onlara sahiblik və ya onlardan istifadə etməyə, yaxud onların əldə edilməsinin həqiqi mənbəyini gizlətmədən onlara sərəncam verməyə görə məsuliyyəti müəyyən edir.

Cinayət Məcəlləsinin 193-1 və 194-cü maddələrində nəzərdə tutulan əməllər arasında bir çox oxşar cəhətlərin olmasına baxmayaraq, müəyyən fərqli cəhətlər də mövcuddur. Həmin fərqli cəhətlər aşağıdakılardan ibarətdir.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, göstərilən cinayətlərin predmeti müxtəlifdir.

Cinayət Məcəlləsinin 193-1-ci maddəsində nəzərdə tutulan cinayətin predmeti cinayət yolu ilə əldə olunmuş pul vəsaitləri, qiymətli kağızlar, müxtəlif daşınar, yaxud daşınmaz əmlak ola bilər. 194-cü maddədə nəzərdə tutulan əməlin predmeti isə ancaq cinayət yolu ilə əldə olunduğu qabaqcadan məlum olan əmlak ola bilər. Cinayət yolu ilə əldə olunmuş radioaktiv materiallar, odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular, narkotik vasitələr, psixotrop maddələr və ya onların prekursorları, pornoqrafik material-

ları və ya əşyalar, güclü təsir edən və ya zəhərli maddələr həmin cinayətin predmeti ola bilməz. Belə ki, onların qanunsuz dövriyyəsinə görə məsuliyyət xüsusi olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 226, 228, 234, 240 və 242-ci maddələrində nəzərdə tutulmuşdur.

Cinayət Məcəlləsinin 193-1-ci maddəsində nəzərdə tutulan leqallaşdırma cinayətinin subyekti əmlakı bilavasitə cinayət yolu ilə əldə etmiş şəxs də ola bilər. Lakin Cinayət Məcəlləsinin 194-cü maddəsində nəzərdə tutulan əməlin subyekti şəxsən törətdiyi cinayət nəticəsində müəyyən əmlakı əldə etmiş şəxsin özü ola bilməz. Məsələn, oğurluq nəticəsində əmlakı əldə etmiş şəxs sonradan həmin əmlakı realizə edirsə onun əməli oğurluq cinayətinin tərkibi ilə tam əhatə olunur. Odur ki, belə əməlin əlavə olaraq Cinayət Məcəlləsinin 194-cü maddəsi ilə tövsif edilməsinə zərurət yoxdur.

Əməlin Cinayət Məcəlləsinin 193-1-ci maddəsi ilə tövsif olunması üçün təqsirkarın məqsədinin cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərini və ya digər əmlakı leqal dövriyyəyə buraxmaqdan, yəni həmin pul vəsaitlərini, yaxud digər əmlakı leqallaşdırmaqdan ibarət olduğunun müəyyən edilməsi zəruridir.

Cinayət Məcəlləsinin 194-cü maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs isə cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırmaq məqsədi güdmür. Təqsirkar bir qayda olaraq cinayət yolu ilə əldə olunmuş pul vəsaitlərini və digər əmlak hesabına varlanmaq, bu yolla özünün maddi maraqlarını təmin etmək məqsədini rəhbər tutur.

Cinayətin obyektiv cəhəti üç alternativ hərəkətdən ibarətdir: qabaqcadan vəd etmədən cinayət yolu ilə əldə edildiyini bilə-bilə xeyli miqdarda pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, onların əldə edilməsinin həqiqi mənbəyini gizlətmədən onlara sərəncam vermə.

Cinayətin tövsifedici əlamətləri aşağıdakılardır:

1) qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədilməsi;

2) vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi;

3) əvvəllər bu cinayətə görə məhkum edilmiş şəxs tərəfindən törədilməsi;

4) külli miqdarda törədilməsi.

Göstərilənlərə əsaslanaraq belə nəticəyə gəlirik ki, cinayət yolu ilə əldə olunmuş pul vəsaitləri və digər əmlakın leqallaşdırılması ilə mübarizə məsələlərinə dair qoşulduğu beynəlxalq konvensiyaların tələblərinə riayət edən Azərbaycan Respublikası özünün cinayət qanunvericiliyinə müvafiq normalar daxil etməklə həmin əməllərlə cinayət-hüquqi mübarizənin aparılması üçün tələb olunan hüquqi bazanı yaratmışdır. Bu da törədildiyi halda həmin cinayətlərlə mübarizənin zəruri tələblər səviyyəsində aparılmasına hüquqi təminat verir.

Açar sözlər: iqtisadə cinayətlər, «çirkli pullar», leqallaşdırma, mütəşəkkil cinayəkarlıq.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2002.

2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2012.

3. Birləşmiş Millətlər Təşkilatının Konvensiyaları. Bakı: «Sipər» Hüquq Mərkəzi», 2004.

4. Vəliyev İ.V. Vergilər və vergitutmanın hüquqi əsasları. Dərslik. Bakı: Hüyquq ədəbiyyatı, 2013.

5. Волженкин Б.В. Отмывание денег: Серия «Современные стандарты в уголовном праве и уголовном процессе». СПб., 1998.

6. Конвенция Организации Объединенных Наций против транснациональной организованной преступности. Принята резолюцией 55/25 Генеральной Ассамблеи от 15 ноября 2000 года. http://www.un.org/ru/documents/decl_conv/conventions/orgcrime.shtml. (Müraciət tarixi: 14.03.2015).

7. Конвенция об отмывании, выявлении, изъятии и конфискации доходов от преступной деятельности. Страсбург, 8 ноября 1990 года. http://conventions.coe.int/Treaty/RUS/ Treaties/ Html/141.htm (Müraciət tarixi: 14.03.2015).

8. Талан М.В. Преступления в сфере экономической деятельности. Дисс. …канд юрид. наук. Казань, 2002.

9. Rqesident‘s Sommission of Organized crime. The sash sonnestion: Organized Crime, Financial Institutions, and Money Laundering. https://www.ncjrs.gov/pdffiles1/Digitization/ 166517NCJRS. pdf. (Müraciət tarixi: 14.03.2015).

Шелале ГАСАНОВА

ВОПРОСЫ БОРЬБЫ С ЛЕГАЛИЗАЦИЕЙ ДЕНЕЖНЫХ СРЕДСТВ И ИМУЩЕСТВА, ДОБЫТЫХ ПРЕСТУПНЫМ ПУТЕМ, В УСЛОВИЯХ СТРОИТЕЛЬСТВА ПРАВОВОГО ГОСУДАРСТВА

Резюме

Рассматривая проблемы легализации денежных средств и имущества, добытых преступным путем, автор статьи отмечает, что Азербайджанская Республика, следуя требованиям международных конвеций по проблемам борьбы с легализацией денежных средств и другого имущества, включила в национальное уголовное законодательство соответствующие нормы и тем самым подготовила юридическую базу для ведения борьбы с указанными видами преступлений.

Ключевые слова: экономические преступления, «грязные деньги», легализация, организованная преступность.

Shalala HASANOVA

THE ISSUES OF FIGHT AGAINST LEGALIZATION OF MONEY RESOURCES AND OTHER PROPERTY GOT BY CRIMINAL WAY IN CONDITIONS OF BILDING A LEGAL STATE

Summary

Considering the problems of legalization of means and property obtained by the criminal way the author of the article notes that following the requirements of international conventions on combating legalization of money resources and other property, The Republic of Azerbaijan included the relevant rules into the national criminal law and there by has prepared the legal framework required for the fight with these types of crimes.

Keywords: economic crimes, "dirty money", legalization, organized crime.

UOT 347.9

Aysel BABAYEVA
doktorant, BDU

MÜLKİYƏTİN FORMALARI: DÖVLƏT, XÜSUSİ, BƏLƏDİYYƏ MÜLKİYYƏTİ*

Azərbaycan Respublikasının Konstitusiyası mülkiyyətin üç formasını - dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti formasını təsbit etmişdir (1, s. 6). Bütün növlərdən olan daşınar və daşınmaz əmlaka mülkiyyət hüququnun subyektləri - hüquqi və fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası ola bilər.

Azərbaycan Respublikası dövlət mülkiyyət hüququnun subyektidir və mülkiyyət hüququ ilə ona mənsub olan əmlak dövlət mülkiyyətidir. Öz məzmununa görə dövlət mülkiyyət hüququ fiziki və hüquqi şəxslərin mülkiyyət hüququndan fərqlənmir. Onların hamısının mülkiyyət hüququnun məzmununu öz əmlaklarına sahib olmaq, onlardan istifadə etmək və onların barəsində sərəncam vermək səlahiyyətləri təşkil edir. Lakin bu mülkiyyət hüquqlarını bir-birindən fərqləndirən cəhətlərdən biri odur ki, dövlətin mülkiyyətində hər cür əmlak, o cümlədən dövriyyədən çıxarılmış və dövriyyəsi məhdudlaşdırılmış əmlak da ola bilər (5, s.348).

Belə ki, "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" 23 dekabr 2003-cü il Qanunu ilə mülki dövriyyədən çıxarılmış əşyalar müəyyən edilmişdir. Buraya döyüş təyinatlı hərbi texnika, qanunvericiliklə dövriyyəsi qadağan edilmiş silahlar və döyüş sursatı, dövlət hakimiyyəti orqanlarının rabitə şəbəkəsi, müdafiə, təhlükəsizlik və asayişi mühafizə ehtiyacları üçün rabitə şəbəkələri, xammal şəklində olan qiymətli metallar, pulların və poçt ödənişi nişanlarının tədavülə buraxılması üçün avadanlıq və s. - cəmi on beş adda olan əşyalar daxildir. Şübhəsiz ki, bu əşyalar fiziki və hüquqi şəxslərin mülkiyyətində ola bilməzlər və onlar yalnız dövlət mülkiyyətində ola bilərlər (5, s. 348-349).

Dövlət mülkiyyəti demək olar ki, bütün ölkələrdə, o cümlədən bazar iqtisadiyyatının inkişaf etdiyi ölkələrdə istehsal fondları strukturunda mühüm çəkiyə malikdir. Əsas həyati təminat yaradan maddi ehtiyatların (ərzaq, yanacaq və s. vəsaitlərin) əsas hissəsi dövlətin əlindədir. İstehsal, sosial-mədəni və s. təyinatlı obyektlərin böyük bir hissəsinin dövlət mülkiyyətində olması, əvvəla, onunla bağlıdır ki, hər cür gözlənilməz hadisələrdən sığortalanmaq üçün dövlət öz təhlükəsizliyini (hərbi, ekoloji, sanitar-epidemioloji, aclıq və s.) təmin etməlidir. Digər tərəfdən isə bu, dövlətin yerinə yetirməli olan sosial funksiyasından (əhalinin minimum yaşayışını təmin etmək, aztəminatlı ailələrin həyat səviyyəsini qaldırmaq tədbirləri, təqaüdçülərin, tələbələrin və əhalinin s. imkansız təbəqələrinin sosial müdafiəsi) irəli gəlir.

Yenidənqurmaya qədər ölkəmizdə əsas istehsal fondlarının 90%-i dövlətin əlində olmuş, müstəqillik əldə edildikdən sonra respublikamızda aparılan özəlləşdirmə nəticəsində dövlət mülkiyyətində olan obyektlərin bir qismi hüquqi və fiziki şəxs olan xüsusi mülkiyyətçilərin əlinə keçmişdir.

1999-cu il 28 dekabr tarixli Qanunla təsdiq edilmiş Mülki Məcəllənin 155.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasına mülkiyyət hüququ ilə mənsub olan əmlak dövlət mülkiyyətidir (2, s.123). Dövlət mülkiyyət hüququ dedikdə, dövlətin mənsub olduğu əmlak üzərində qanunla müəyyən edilmiş çərçivədə sahiblik, istifadə və sərəncam vermək hüququ başa düşülür.

---

* Məqalə hüquq ü.e.d., professor İbrahim Quliyev tərəfindən çapa məsləhət görülüb.

İqtisadi baxımdan dövlət mülkiyyəti ümumxalq mənimsəməsinin forması hesab edilir. Dövlət mülkiyyəti ümumdövriyyə xarakteri daşıyır. Dövlət başqa mülkiyyətçilərin malik olmadığı mülkiyyət obyektlerini əldə edə bilər və əldə edir.

Mülki Məcəllənin 155.2-ci maddəsində (2, s.123) qeyd olunur ki, fiziki, hüquqi şəxslərin və ya bələdiyyələrin mülkiyyətində olmayan torpaq və digər təbii ehtiyatlar dövlət mülkiyyətidir. Bu obyektlərin geniş dairəsi «Azərbaycan Respublikasında mülkiyyət haqqında» 9 noyabr 1991-ci il tarixli Qanunda (23 aprel 2002-ci il tarixli, 311-IIQD nömrəli Qanuna əsasən qüvvədən düşmüşdür) göstərilmişdir. Həmin Qanunda deyilir ki, respublika ərazisi hüdudlarında torpaq, yerin təki, daxili sular və ərazi suları, qitə şelfi, bitkilər və heyvanlar aləmi, hava hövzəsi Azərbaycan Respublikasının müstəsna mülkiyyətidir. Mülki Məcəllənin 155.4-cü maddəsində qeyd olunur ki, dövlət əmlakının özəlləşdirilməsi haqqında Qanunda nəzərdə tutulmuş qaydada dövlət öz mülkiyyətində olan əmlakı fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə verə bilər (2, s.123). Bu, dövlət əmlakının özəlləşdirilməsi üsulu ilə həyata keçirilir. Dövlət əmlakında olan mülkiyyətin özəlləşdirilməsinin təşkilati, iqtisadi və hüquqi əsasları "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" 16 may 2000-ci il tarixli Qanunla müəyyən edilmişdir (5, s.349).

Azərbaycan Respublikası onun ərazisinə bitişik Xəzər dənizi iqtisadi zonasının ehtiyatlarına beynəlxalq hüquqla təsdiq edilmiş hədlərdə sahiblik, onlardan istifadə və onların barəsində sərəncam hüququna malikdir.

Azərbaycan Respublikasının ərazisində olan bütün təsərrüfat sahələrinin müəssisələri, energetika, dövlət mənzil fondu, dövlət idarələrinin əmlakı, mədəni sərvətlər və tarix abidələri, infrastruktur obyektləri, o cümlədən kurort-turist təyinatlı obyektlər, dövlətin vəsaiti hesabına yaradılmış digər əsas fondlar, dövlət bankları, maliyyə və kredit ehtiyatları, qiymətli kağızlar və suveren dövlət kimi qarşısında duran vəzifələri həyata keçirmək üçün lazım olan digər əmlak Azərbaycan Respublikasının dövlət mülkiyyətinə aiddir. Azərbaycan Respublikasının dövlət maliyyə ehtiyatları hesabına yaradılmış və başqa dövlətlərin ərazisində yerləşən müəssisələr və ya onların hissələri də respublikamızın dövlət mülkiyyətidir.

Dövlətin müstəsna mülkiyyətində olan əmlak növləri qanunvericiliklə müəyyən olunur. Məsələn, AR Konstitusiyasının 19-cu maddəsinə əsasən respublikada pul nişanlarının tədavülə buraxılması və tədavüldən çıxarılması hüququna malik olan Mərkəzi Bank dövlətin müstəsna mülkiyyətindədir (1, s. 7).

Eləcə də "Torpaq haqqında" 16 iyul 1996-cı il tarixli Qanuna əsasən dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat, rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zolaqlarının, mühüm meliorasiya və su təsərrüfatı obyektlərinin yerləşdiyi torpaqlar, meşə fondu torpaqları, dövlət ehtiyat fondu torpaqları və s. torpaq sahələri dövlətin müstəsna mülkiyyətindədir və onlar qanunvericiliklə müəyyən edilmiş qaydada istifadəyə və icarəyə verilə bilər (5, s.349).

Əmlaka dövlət mülkiyyətinin əmələ gəlməsi əsasları da digər subyektlərlə müqayisədə daha genişdir. Mülkiyyət hüququnun əmələ gəlməsinin ümumi mülki-hüquqi əsaslarından əlavə dövlətin mülkiyyət hüququ həm də vergilər və rüsumlardan, digər mülkiyyətçilərin əmlakının rekvizisiyası (lat. Requsitio -"tələb sözündəndir, mənası "dövlətin mülkiyyətçidən dəyəri ödənilməklə əmlakı məcburi alması" deməkdir) və müsadirəsindən də əmələ gəlir. Dövlət mülkiyyətinin tərkibinə fiziki, hüquqi şəxslərin və ya bələdiyyələrin mülkiyyətində olmayan torpaq və digər təbii ehtiyatlar, habelə dövlət büdcəsinin vəsaiti daxil edilmişdir. Dövlət büdcəsi vəsaitlərinə sərəncam vermək səlahiyyəti ancaq dövlətə mənsubdur. Dövlət öz mülkiyyətində olan dövlət büdcəsi vəsaitlərinə sərəncam vermə səlahiyyətini dövlət büdcəsi haqqında hər il qəbul etdiyi qanunlarda ifadə edir (5, s.349).

Dövlətin hakimiyyət səlahiyyətinə sahib olması və mülkiyyətində geniş həcmli əmlak kütləsinin olması mülkiyyət hüququnun digər subyektləri ilə müqayisədə ona heç bir üstünlük

vermir. Mülkiyyət hüquq münasibətlərində bütün subyektlər, o cümlədən dövlət eyni, bərabər hüquqlara malikdirlər (5, s.350).

Respublikamızda mülkiyyət hüququnun mühüm formalarından biri - xüsusi mülkiyyət hüququdur. Xüsusi mülkiyyət hüququ anlayışı «Azərbaycan Respublikasında mülkiyyət haqqında» 9 noyabr 1991-ci il tarixlı Qanunda verilmişdir. Həmin qanuna əsasən xüsusi mülkiyyət hüququ-istehsal vasitələrinə, qeyri-istehsal təyinatlı predmetlərə və sərvətlərə, pul vəsaitinə və qiymətli kağızlara, onlardan istifadə olunmasının nəticələrinə sahiblik, onlardan istifadə və onların barəsində sərəncam sahəsində ayrı-ayrı şəxslərin qanunla qorunan hüquqlarının məcmusudur (5, s.347). Respublika qanunvericiliyinə müvafiq olaraq xüsusi mülkiyyət hüququ öz növbəsində vətəndaşların və hüquqi şəxslərin mülkiyyət hüququna bölünür.

Xüsusi mülkiyyət hüququ Azərbaycan hüquq gerçəkliyi üçün yeni məfhumdur. Sovet dövründə daim insanlara belə təlqin edilirdi ki, mülkiyyət milləti parçalayır, sosial partlayış əmələ gətirir. Bu dövrdə cəmiyyətin əsas prinsipi «hər kəsə əməyinə görə» kimi müəyyən olunmuş, əmək hüququ isə vətəndaşların əsas hüquqlarından olan sosial-iqtisadi hüquq kimi qanunla möhkəmlənmişdi. İstehsal vasitələri üzərində mülkiyyətin sosialist forması şəriksiz olaraq hökmran idi. Şəxsi mülkiyyət adlanan vətəndaşların mülkiyyətinin əsas mənbəyi ictimai istehsal vasitələrinə sərf olunan əmək idi. Əməyə görə bölgü prinsipi üzrə vətəndaşlara məcmu ictimai məhsulun çatan hissəsi, əsasən, tələbatın ödənilməsinə yönəlmişdi. Bununla yanaşı, şəxsi mülkiyyətin mənbələrindən biri də ictimai istehlak fondlarından ödənilən pensiya, müavinət və təqaüdlər idi. Vətəndaşların tələbatının ödənilməsinə eyni zamanda pulsuz tibbi xidmətləri, mənzil-kommunal, nəqliyyat xidmətlərini və s. aid etmək olardı. Əslində sovet cəmiyyətində xüsusi mülkiyyət ləğv edilmiş, ictimai mülkiyyətlə əvəz edilmiş, bir sözlə, mülkiyyətsizlik hökm sürmüşdür.

Bir sözlə, sovet hakimiyyəti illərində xüsusi mülkiyyət hüququ ləğv edilmişdi (4, s.452; 5, s.565). Fiziki və hüquqi şəxslərin əmlakının qanunsuz yollarla, beynəlxalq hüququn ziddinə olaraq əsassız, əvəzi ödənilmədən milliləşdirmələr və rekvizisiyalar keçirməklə, əslində müsadirə olunması və sonrakı illərdə sənayenin və kənd təsərrüfatının geniş inkişafı nəticəsində dövlətin mülkiyyətində idarə edilməsi çətinləşən nəhəng həcmli əmlak kütləsi cəmləşmişdi. Digər tərəfdən isə əslində müstəqil təsərrüfatçılıq fəaliyyətindən və əmlakdan təcrid edilmiş fiziki şəxslər qalmışdı. İqtisadiyyatın belə vəziyyətdən çıxmasının ən münasib yolu dövlət mülkiyyətinin özəlləşdirilməsi və xüsusi mülkiyyətin bərpası idi (5, s.349).

Azərbaycan Respublikası hələ sovetlərin tərkibində olarkən SSRİ xalq deputatları qurultayı 24 dekabr 1990-cı il tarixli qərarı ilə 1991-ci ildən başlayaraq bazar iqtisadiyyatına keçidin, müəssisələrin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi, sahibkarlığın geniş tətbiqinin həyata keçirilməsinin əsasını qoydu. Müstəqillik əldə etmiş respublikamız "Azərbaycan Respublikasının dövlət mülkiyyəti haqqında" 9 noyabr 1991-ci il tarixli Qanunla dövlət və bələdiyyə əmlakının dövlətsizləşdirilməsi və özəlləşdirilməsi prinsipini bəyan etdi. Xüsusi mülkiyyətə qoyulmuş və beynəlxalq hüquq anlamına tamamilə zidd olan bütün məhdudiyyətlər ləğv edildi. Qanunda birmənalı şəkildə bəyan edildi ki, vətəndaşın qanuna və müqaviləyə uyğun olaraq əldə etdiyi əmlakın miqdarı və dəyəri məhdudlaşdırılmır. Bununla xüsusi mülkiyyət hüququ bərpa edilmiş oldu (5, s. 347). Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 154.1-ci maddəsində deyilir: "...fiziki və ya hüquqi şəxslərə mənsub ola bilməyən əmlakın ayrı-ayrı növləri istisna edilməklə, fiziki və ya hüquqi şəxslərin mülkiyyətində istənilən əmlak ola bilər" (2, s. 123).

Dövlət əmlakının özəlləşdirilməsi qanunla müəyyən edilmiş qaydada dəyəri ödənilməklə və ya əvəzsiz olaraq fiziki və hüquqi şəxslərin mülkiyyətinə verilməsidir. Ümumiyyətlə, dövlət əmlakı əvəzi ödənilməklə özəlləşdirildiyi halda, dövlət və ictimai mənzil fondu əvəzsiz olaraq

vətəndaşların mülkiyyətinə verilir. Hüquqi baxımdan dövlət əmlakının özəlləşdirilməsi dövlət mülkiyyətinə xitam verilməsinin və xüsusi mülkiyyətin əldə edilməsinin xüsusi əsasıdır (5, s.350).

Hazırda xüsusi mülkiyyət hüququna insanların ən ümdə hüquqlarından biri kimi baxılır (6, s. 97). Azərbaycan Respublikası Konstitusiyası reallığı əks etdirərək nə əmək hüququnu, nə də əməyə görə bölgü prinsipini əsas götürmür. Bu ali sənəddə qeyd edilir ki, heç kəs zorla işlədilə bilməz. Eyni zamanda, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır (1, s.14). Dövlət əqli mülkiyyət hüququnun, yəni müəlliflik hüququ, ixtiraçılıq hüququnun və s. qorunmasına təminat verir.

Xüsusi mülkiyyətin formaları müxtəlifdir: istehsal vasitələrinin mülkiyyətçisinin kimin olmasından asılı olmayaraq ona təklif olunan muzdlu əmək, gəlir əldə olunmasına xidmət etməyən şəxsi iqtisadi fəaliyyət, şəxsi əməyə əsaslanan sahibkarlıq fəaliyyəti, muzdlu əməkdən istifadə etməklə sahibkarlıq fəaliyyəti. Xüsusi mülkiyyətin bir növündən başqa növünə keçmək üçün qanun heç bir məhdudiyyət qoymur, əksinə, daha çox iqtisadi və sosial effekt verən sahəyə əməyin və kapitalın cəlb edilməsi dövlət tərəfindən həvəsləndirilir.

Qeyd olunmalıdır ki, bir şəxsin xüsusi mülkiyyəti bir deyil, bir neçə mənbədən yarana bilər. Hazırda vətəndaşların mülkiyyət hüququnun əsasını onların muzdlu işçi kimi əməyi və müstəqil iqtisadi fəaliyyəti təşkil edir. İqtisadi fəaliyyətdə də öz növbəsində qanuna uyğun olaraq qeydiyyata alınmaqla əmlakdan istifadə, məhsulun satışı, işlər görülməsi və xidmətlər göstərilməsi yolu ilə müntəzəm gəlir əldə etmək məqsədilə müstəqil sahibkarlıq fəaliyyəti ilə məşğulluq qeyd olunmalıdır. Sahibkarlıq fəaliyyəti muzdlu əməyi tətbiqetmə və ya etməmə yolu ilə həyata keçirilir. Vətəndaş təqaüdçü kimi pensiya, muzdlu işçi kimi əmək haqqı, səhmdar kimi divident ala bilər və s. Bazar iqtisadiyyatı dövründə xüsusi mülkiyyətin obyektləri dairəsinin müəyyənləşməsinə münasibət qanunvericilik tərəfindən əhəmiyyətli dərəcədə dəyişmişdir. Əvvəllər qüvvədə olan qanunvericiliyə görə vətəndaşların mülkiyyəti özünün istehlak təyinatı ilə əsasən istehlak məhsullarına şamil edilirdi. O ki qaldı istehsal vasitələrinə, onda vətəndaş yalnız xırda istehsal vasitələrinin sahibi ola bilərdi və bu zaman muzdlu əməkdən istifadə qadağan olunurdu. İndi vəziyyət tamam dəyişmişdir. «Azərbaycan Respublikasında mülkiyyət haqqında» Qanundan başlayaraq digər normativ aktlara qədər xüsusi mülkiyyətin inkişafını ləngidən bütün maneələr aradan qaldırılmışdır. Dövlət mülkiyyətinin özəlləşdirilməsinə dair Proqrama uyğun olaraq 1995-1997-ci illərdə 20 min kiçik dövlət müəssisəsi özəlləşdirilmiş, kiçik və orta sahibkarlığa dövlət köməyinə dair Proqram qəbul edilmişdir.

Mülki qanunvericilik xüsusi mülkiyyət hüququnun obyektləri üçün ümumi və xüsusi rejim müəyyən etmişdir. Əgər qanunda və ya digər normativ aktlarda vətəndaşların xüsusi mülkiyyətində olan obyektlər üçün xüsusi rejim nəzərdə tutulmamışdırsa, belə obyektlər ümumi rejim altına düşmüş olur. Hər şeydən əvvəl, daşınmaz əmlak xüsusi rejimdə olan əmlakdır (torpaq sahələri, yaşayış evləri, çoxillik əkmələr və s.). Göstərilən əmlaka əşya hüquqları, habelə onlar üzərində bağlanan əqdlər dövlət qeydiyyatından keçməlidir.

"Torpaq islahatı haqqında" Qanuna (16 iyul 1996-cı il) görə torpaq sosial ədalət prinsipinə əsasən, bütün postsovet respublikalarından fərqli olaraq kənddə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə pulsuz verilmişdir. Respublikanın vahid torpaq fondu əsasında üç – dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti forması müəyyən olundu. Kənd təsərrüfatı torpaqlarının 22%-i – 1 milyon 911 min hektar xüsusi, 45%-i dövlət, 33%-i bələdiyyə mülkiyyətinə verildi. 1996-cı ilin iyulunda aqrar kredit kassaları yaradıldı. Respublikada 3,5 milyon vətəndaşa torpaq payı ayrıldı. XX əsrin sonlarında kənd təsərrüfatında sahibkarlığa əsaslanan 23 min kəndli (fermer) təsərrüfatı, yüzlərlə istehsal kooperativi, kiçik müəssisə fəaliyyət göstərirdi. Respublikada qaramalın 92,3%-i, davarın 91%-i özəl təsərrüfatlarda idi.

Qanunla müəyyən olunmuş qaydada daşınmaz əmlak əldə edəndən sonra mülkiyyətçi bir sıra mükəlləfiyyətlər yerinə yetirməli olur. Onlardan biri əmlaka görə vergidir. Xüsusi hüquqi rejim daşınmaz hesab olunmayan əmlaka da aid oluna bilər. Nəqliyyat vasitələri, odlu silah əldəetmə və s. obyektlər belə xüsusi rejimdə ola bilər. Xüsusi rejim belə obyektlərin qeydiyyatı və saxlanması, təhlükəsizlik qaydalarının gözlənilməsində və s. ifadə olunur.

Lakin xüsusi mülkiyyət hüququnun anlayış tutumu nə qədər böyük olsa da onun öz sərhədləri vardır. Bu, mülki-hüquqi tənzimetmənin yol verilən və sərbəstlik prinsiplərindən irəli gəlir. Birinci prinsip o deməkdir ki, vətəndaş mülkiyyət hüququnu həyata keçirərkən qanunla qadağan olunmayan hər şeyə yol verilir. Sərbəstlik prinsipi isə vətəndaşın mülkiyyət hüququnu həyata keçirməsi və ya keçirməməsini öz mülahizəsinə görə həll etməsi, hüququn həyata keçirilməsi məqsədini və vasitələrini özünün seçməsi deməkdir. Subyektiv mülkiyyət hüququnun, onun həyata keçirilməsinin məqsəd və vasitələrinin sərhədlərinin genişləndirilməsi heç də hər şeyə yol verilməsi demək deyildir.

Mülkiyyətin formalarından biri də bələdiyyə mülkiyyətidir. Bələdiyyələr – qanunla müəyyən edilmiş ərazi hüdudlarında yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst həll edən qeyri-dövlət, seçkili, yerli özünüidarəetmə orqanıdır (5, s.350).

Mülkiyyət forması kimi bələdiyyə mülkiyyətinin dövlət mülkiyyətindən ayrılması ilk dəfə «Azərbaycan Respublikasında mülkiyyət haqqında» Qanunla müəyyən olunmuşdur. Sonralar Azərbaycan Respublikasının yeni Konstitusiyasının 13-cü maddəsində (1, s.6) mülkiyyət növü kimi bələdiyyə mülkiyyəti təsbit olunmuşdur.

Bələdiyyə mülkiyyətinin formalaşmasında yuxarıda göstərilən qanunvericilik aktlarından başqa «Bələdiyyələrin statusu haqqında» 2 iyul 1999-cu il, «Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında», «Bələdiyyələrin əraziləri və torpaqları haqqında», «Bələdiyyələrin maliyyəsinin əsasları haqqında» 7 dekabr 1999-cu il, «Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında» 27 dekabr 2001-ci il tarixli qanunları və s. qanunlar, o cümlədən Azərbaycan Respublikası Mülki Məcəlləsi mühüm rol oynamışdır.

Bələdiyyələr mülkiyyət hüququnun tam hüquqlu subyekti kimi özlərinə mənsub olan əmlaka malikdirlər. «Bələdiyyələrin statusu haqqında» 2 iyul 1999-cu il tarixli Qanuna əsasən bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti, bələdiyyənin büdcədənkənar fondları, bələdiyyə əmlakı, bələdiyyə torpaqları, müəssisələri və təşkilatları, bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları, dövlət və xüsusi mülkiyyətində olmayan yollar, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri, digər daşınar və daşınmaz əmlak daxildir. Bələdiyyələr öz əmlaklarına qanuna müvafiq olaraq sahib olurlar, ondan istifadə edirlər və onun barəsində sərəncam verirlər. Bələdiyyə mülkiyyəti obyektlərini fiziki və hüquqi şəxslərin istifadəsinə, icarəsinə verə bilər, özgəninkiləşdirə bilər. Bələdiyyə mülkiyyətinin özgəninkiləşdirilməsi qaydalarını və şərtlərini müəyyənləşdirə bilər. Bələdiyyə əmlakının özəlləşdirilməsindən əldə edilən vəsaitlər bütünlüklə bələdiyyənin mülkiyyətində olan yerli büdcəyə daxil olur (5, s.350).

Bələdiyyə mülkiyyətinin yaranması əsasları "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" 7 dekabr 1999-cu il tarixli Qanunla müəyyənləşdirilmişdir. Qanunun 4-cü maddəsinə əsasən dövlət mülkiyyətində olan və bələdiyyələrin fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan mənzil-kommunal, sosial və mədəniyyət obyektləri, əhalinin ümumi istifadəsində olan obyektlər və digər dövlət əmlakı qanunvericilikdə müəyyən edilmiş qaydada bələdiyyələrin mülkiyyətinə verilir. Bələdiyyə əmlakının yaranması mənbələri göstərilən dövlət əmlakından başqa bələdiyyələrin fəaliyyəti nəticəsində əldə olan və yaradılan əmlak, fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların könüllü verdikləri əmlak və bələdiyyələrə vəsiyyət edilən əmlakdan ibarətdir (5, s.350-351).

Bələdiyyələr özlərinə mənsub olan əmlakla mülkiyyət hüququnun digər subyektləri ilə bərabər hüquqluluq prinsipi əsasında istənilən mülkiyyət münasibətlərinə girə bilərlər. Belə ki, «Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında» 2001-ci il tarixli Qanunun 9.6-cı maddəsinə əsasən bələdiyyə torpaqlarının özgəninkiləşdirilməsi, istifadəyə və icarəyə verilməsi müvafiq müqavilə ilə rəsmiləşdirilir. Göründüyü kimi, bu halda bələdiyyə bərabərhüquqlu tərəf kimi digər mülki hüquq subyektləri ilə müqavilə vasitəsi ilə mülki hüquq münasibətlərinə girir (5, s.351).

Mülki Məcəllənin 156.1-ci maddəsinə əsasən bələdiyyələrə mülkiyyət hüququ ilə mənsub olan əmlak onların mülkiyyətidir. 156.2-ci maddəsinə əsasən isə yerli büdcənin vəsaiti bələdiyyənin mülkiyyətidir (2, s.123).

Bələdiyyə əmlakının yaranması mənbələri aşağıdakılardır: qanunvericiliyə uyğun olaraq bələdiyyələrin mülkiyyətinə verilən dövlət əmlakı; bələdiyyələrin fəaliyyəti nəticəsində əldə olunan və yaradılan əmlak; fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların bələdiyyələrə könüllü maddi yardım şəklində verilən əmlak; varisi olmayan əmlakın bələdiyyələrə keçməsi yolu ilə əldə olunan əmlak; bələdiyyələrə vəsiyyət edilən əmlak; qanunvericilikdə nəzərdə tutulan digər hallarda əldə olunan əmlak.

Bələdiyyələr öz əmlakına dair mülkiyyətçi hüququna malikdir, yəni sərbəst olaraq əmlakına sahiblik edir, ondan istifadə edir və ona sərəncam verir (1, s. 44).

Bələdiyyələr haqqında respublika qanunvericiliyinə müvafiq olaraq bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti, bələdiyyənin büdcədənkənar fondları, bələdiyyə əmlakı, habelə bələdiyyə torpaqları, bələdiyyə müəssisələri və təşkilatları, bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları, dövlət və xüsusi mülkiyyətdə olmayan yollar, bələdiyyə, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri, digər daşınar və daşınmaz əmlak daxildir.

Açar sözlər: mülkiyyət forması, dövlət mülkiyyəti, bələdiyyə mülkiyyəti, xüsusi mülkiyyət, mülkiyyət hüququ.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, 2015.
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı: «Hüquq ədəbiyyatı», 2015.
3. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. V cild. Bakı, 1981, s. 452.
4. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə. VIII cild. Bakı, 1984, s.565.
5. Əsgərov İ.Q. Azərbaycan Respublikası Mülki Məcəlləsinin Kommentariyası. 1 iyun 2014-cü ilədək olan əlavə və dəyişikliklərlə. I kıtab. Yenidən işlənmiş 5-ci nəşri. Bakı: Qanun, 2014.
6. Nağıyev F. Konstitusiya hüququ. Bakı: Qanun, 2014.

Айсель БАБАЕВА

ФОРМЫ СОБСТВЕННОСТИ: ГОСУДАРСТВЕННОЕ ИМУЩЕСТВО, ЧАСТНАЯ И МУНИЦИПАЛЬНАЯ СОБСТВЕННОСТЬ

Резюме

В статье анализируются три формы собственности, существующие в Азербайджане - государственная, частная и муниципальная. Поводом для приобретения государственной собственности служит особый вес ее в структуре производственных фондов; частная собственность рассматривается как новая концепция в законодательстве Азербайджана. Отмечаются положительные результаты приватизации предприятий после обретения страны независимости и перехода к рыночной экономике. Далее речь идет о важности

формирования и широкого применения предпринимательства, об отмене всех ограничений, наложенных на частную собственность, о восстановлении права на приобретений частной собственности, а также о ее формах и источниках. Право на частную собственность рассматривается в качестве основного закона, особо подчеркивается ее важность в экономическом развитии страны.

Автор также анализируется границы права частной собственности. Муниципалитеты как неправительственные и избирательные органы местного самоуправления являются новыми органами для Азербайджана, самостоятельно и независимо решающие вопросы местного значения. В статье анализируются рамки муниципальных полномочий.

Ключевые слова: форма собственности, государственная собственность, частная собственность, муниципальная собственность, право собственности.

Aysel BABAYEVA

PROPERTY FORMS: STATE, PRIVATE AND MUNICIPAL PROPERTIES

Summary

The article analyzes three forms of the ownership that exist in the Republic of Azerbaijan: state, private and municipal properties, with their similar and different features. The reasons of having the significant weight by the state-owned property in the structure of the production funds are explained here. The right to private property is seen as a new concept for the reality of the Azerbaijani legislation. After gaining an independence and transition to a market economy the positive results of privatization of the enterprises are noted in the article. Further, the importance of the formation and wide application of an entrepreneurship, cancellation of all restrictions for private property and the significance of the restoration of private property rights are stated as well. Private property forms and their sources are investigated in the article. The right to private property is considered as the main law of the country's economic development. Therefore its importance in the economic development of the country is specially noticed as well. At the same time, the boundaries of the right to private property are also analyzed in the article. As non-governmental, elective and local self-government bodies, the municipals are new for Azerbaijan and they solve the issues of local importance independently and freely. The article deals with these municipals, as well as analysis of the formation of property belonging to the municipals and framework of the municipal authority.

Keywords: pattern of ownership, public domain, peculiar, municipal property, right of ownership.

UOT 342.9

Bayram MƏHƏRRƏMOV
doktorant, AMEA FHİ

KOMMERSİYA TƏŞKİLATLARININ MÜFLİSLƏŞMƏSİ ANLAYIŞI*

İlk növbədə qeyd etmək lazımdır ki, «anlayış» termini təfəkkürün mühüm və başlıca formalarından biri kimi çıxış edir. Anlayış ümumi və özünəməxsus əlamətlərin fiksə edilməsi yolu ilə ümumiləşdirilmiş formada gerçəkliyin hadisə və predmetlərini və onlar arasındakı əlaqələri ifadə edir. Yəni anlayışlar özündə cisim və predmetlərin əlamətlərini, xüsusiyyətlərini əks etdirən məntiqi təfəkkür formasıdır. Bu baxımdan predmetə verilən hər bir anlayış həmin predmetin əlamətlərinin və xassələrinin məcmusunu ifadə etməlidir. Məhz predmetin xassələrinin ümumiləşdirilməsi predmetin özünəməxsus cəhət və əlamətlərinin ona verilən anlayışda konkret olaraq göstərilməsindən ibarətdir.

Hər hansı bir əşyaya və ya predmetə digər obyekt və predmetlərdən kənarda obyektiv varlıq kimi yanaşmaq düzgün olmaz. Anlayışlar arasında münasibət əsas etibarilə özünü bu münsibətlərin formasında, məzmununda və həcmində göstərir. Məntiqi forma-predmet və hallar arasında olan münasibətləri və əlaqəni ifadə edən müəyyən olunmuş üsula deyilir. Məntiqi forma hər bir anlayışla məzmun etibarilə sıx surətdə bağlıdır və o, anlayış vasitəsilə meydana gələrək anlayışın məzmunu ilə müəyyən olunur (12, s. 9).

Hər bir anlayışın məzmunu və həcmi vardır. Anlayışın məzmunu onda əks olunmuş predmet əlamətlərinin məcmusudur. Anlayışın həcmi isə hər birinə anlayışın məzmununu təşkil edən əlamətlərin xas olduğu predmetlər çoxluğudur. Başqa şəkildə desək, anlayışın həcmi anlayışın xarakterik xüsusiyyətlərinin kəmiyyətini ifadə edir. Burada əsas etibarilə anlayışın məzmununun anlayışın tərkibinə daxil olan bütün predmetlərə münasibəti ifadə olunur və onlar arasındakı münasibət əks olunur.

Ayrı-ayrı anlayışlar müxtəlif terminlərin mahiyyətini ifadə edir. "Termin" (terminus) sözü latın sözü olub, "həd, sərhəd" mənalarını ifadə edir. Terminlər elmi anlayışları birmənalı və dəqiq şəkildə ifadə etmək üçün işlədilən söz və söz birləşmələridir.

Termin elmi fikrin dəqiqliyini, aydınlığını və dərk olunanlığını təmin edir. Terminlər xüsusi, özünəməxsus təyinatı ilə məhdudlaşmış, anlayışları və əşyaların adlarını birmənalı və dəqiq ifadə edən sözlərdir (20, s. 110). Termin elm və texnikanın müəyyən sahəsinin anlayışlar sistemində müvafiq anlayışla bağlı olan söz (və ya söz birləşməsi), dil işarəsidir (15, s. 35).

Tərif terminlə ifadə edilmiş anlayışın mahiyyətinin yığcam formada ifadə edilməsidir. Tərifdə anlayışın yalnız əsas məzmunu göstərilir. Daha doğrusu, tərif elə intellektual-nitqi əməliyyatdır ki, onun vasitəsilə anlayışların məzmunu açılır. Tərif verilən anlayışın həcmi tərif verənin həcminə bərabər olmalıdır. Tərif verilən anlayışı onun özü vasitəsilə izah etmək olmaz.

Hüquq normalarının formalaşdırılmasında 3 növ terminlərdən istifadə edilir: ümumi istifadə edilən, xüsusi texniki və xüsusi hüquqi terminlər. Ümumi istifadə edilən və xüsusi texniki terminlərin mənası həmin terminlərin ümumqəbul edilmiş formada və xüsusi elmlərdə istifadə edilən anlayış və mənalarına uyğun olmalıdır. Xüsusi hüquqi terminlər isə hüquqi mənaları ifadə edirlər. Yəni bu cür terminlər istər ümumqəbul olunmuş, istərsə də müvafiq

* Məqalə hüquq ü.f.d. Zaur Məmmədov tərəfindən çapa məsləhət görülüb.

elm sahəsində istifadə edilməsindən asılı olmayaraq, bir qayda olaraq hüquqi statusa malik olurlar (şikayət, iddia, müqavilə, sahiblik və s.).

"Kommersiya hüquqi şəxslərinin müflisləşməsi" ifadəsində "kommersiya" və "müflisləşmə" terminləri həm iqtisadiyyat, həm də hüquq elmlərində istifadə edildiyi üçün ümumi, "hüquqi şəxs" termini isə əsasən mülki-hüquqi statusa malik olduğu üçün xüsusi hüquqi termindir.

Hüquqi şəxs konstruksiyasının genezisinin əmələ gəlməsinin tarixi kökləri qədim zamanlarla bağlıdır. Hələ Roma xüsusi hüququ dövründə əmlak münasibətlərində fiziki şəxslərdən başqa, onların birlikləri və qrupları da subyekt rolunda çıxış edirdilər. Həmin dövrdə Roma hüquqşünasları tərəfindən hüquqi şəxslərin yaradılması ideyası müzakirə olunurdu. Marsian, Alfen, Ulpian və digər tanınmış hüquqşünasların sivilist fikirlərində bu ideya əsaslandırılırdı (6, s. 52).

Azərbaycan Respublikasının qüvvədə olan mülki qanunvericiliyinin müvafiq normalarına uyğun olaraq kommersiya təşkilatları hüquqi şəxslərin mühüm qrupunu təşkil edir.

Qüvvədə olan mülki qanunvericiliyə uyğun olaraq təşkilat müəyyən olunmuş qaydada dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs hesab olunur. O, qanunvericiliklə müəyyən olunmuş əlamətlərə malik olmalıdır. Həmin əlamətlərə uyğun gəlməyən təşkilatlar, o cümlədən kommersiya təşkilatları mülki və təsərrüfat dövriyyəsində iştirak edə bilməz.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 43.1-ci maddəsində hüquqi şəxsə aşağıdakı kimi leqal anlayış verilmişdir: "Hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır" (4).

Müasir dövrdə sərbəst bazar iqtisadiyyatının, azad ticarətin və azad sahibkarlıq fəaliyyətinin inkişaf etdiyi bir şəraitdə hüquqi şəxslərin zəruriliyi və aktuallığı daha da artmışdır.

O.A.Krasavçikovun fikrincə, hüquqi şəxs hüquq institutunun təyinatı, əhəmiyyəti ondan ibarətdir ki, onun normaları hüquq subyektinin təşkilati-struktur, əmlak və funksional vahidliyini təsbit edir, onun hüquq subyektliliyinin sərhədlərini, onun həyata keçirilməsinin forma və qaydasını, hüquqi şəxslərin yaradılması, yenidən təşkili və ləğvi qaydalarını, məcmu halında təşkilatın hüquqi vəziyyətini hüquqi şəxs kimi müəyyənləşdirən digər hüquqi göstərişləri müəyyən edir (23, s. 127).

Kommrersiya hüquqi şəxsləri mahiyyət etibarilə universal hüquq subyektliyinə malikdir. Bu isə sahibkarlıq təşəbbüslərinin inkişafına, pul dövriyyəsinin və müvafiq olaraq vergi formasında büdcəyə daxil olan pul vəsaitlərinin həcminin artmasına şərait yaradır. Avropa hüququ uzun müddət kommersiya hüquqi şəxslərinin xüsusi hüquq subyektliyi yanaşmasını dəstəkləmişdir. Lakin dövriyyə maraqları bu prinsipdən imtinaya səbəb olmuşdur. AŞ-nın təsərrüfat cəmiyyətləri və ortaqlıqları üçün ümumi hüquq subyektliyi elan edən 9 mart 1968-ci il tarixli Direktivinin (31, s. 7) 9-cu maddəsində deyilir: "Şirkətin orqanlarının hərəkətləri, hətta bu hərəkətlər şirkətin fəaliyyət predmetinə aid olmadıqda belə, onun üçün üçüncü şəxslərə münasibətdə öhdəliklər yaradır, şirkət orqanlarının bu hərəkətləri edərkən malik olduqları və ya qanuna görə malik ola biləcəkləri səlahiyyətləri aşma halları istisna olmaqla. Şirkət öz orqanlarının nizamnamə və ya səlahiyyətli orqanın qərarından irəli gələn səlahiyyət məhdudluğuna, bu məhdudiyyət dərc edilsə belə, istinad edə bilməz" (21, s. 74).

Y.A.Babaytseva qeyd edir ki, kommersiya təşkilatı hüquqi şəxsdir, mülki hüquq münasibətlərinin subyektidir və öz maraqları vardır. Kommersiya təşkilatını xüsusi şəxslərin

əmlak artımı sahəsində maraqlarının həyata keçirilməsinin qanunvericiliklə təsbit edilmiş hüquqi formalarından biri kimi xarakterizə edən müəllifin fikrincə, bu hüquqi fenomen digər oxşar mexanizmlərlə (müqavilə, vəsiyyətnamə və s.) yanaşı, subyektiv hüquqların əldə edilməsi və reallaşdırılması vasitəsilə maraqların həyata keçirilməsinin formal-hüquqi mexanizmlərindən biri kimi nəzərdən keçirilməlidir. Kommersiya təşkilatlarının dualist təbiətinin ilk hissəsi bunda təzahür edir. Müəllifə görə, qanunvericiliklə sahibkarlıq fəaliyyətinə aid edilən əqdlər üzrə öz subyektiv hüquqlarını həyata keçirməyə imkan verən fərdi hüquqi statusa malik olan, bu əqdləri peşəkarlıqla həyata keçirmək məqsədi daşıyan, bundan gəlirlər əldə edən və sonra onu özü və digər maraqlı şəxslər (iştirakçılar) arasında bölüşdürən təşkilat kommersiya təşkilatı adlanır (10, s. 11).

A.İ.Qonçarov, S.V.Barulin və M.V.Terentyeva hesab edirlər ki, kommersiya təşkilatı ən azı aşağıdakı iki zəruri şərtə əməl olunduğu təqdirdə uğurlu fəaliyyət göstərə bilər:

- təsərrüfat subyektinin maliyyə kütləsi daimi və dəyişən xərclərin məbləğində cari məsrəfləri, bütün məcburi ödəmələri (cərimələri, peniyaları, əgər varsa dəbbə pulunu), biznesin inkişafı və onun rəqabət qabiliyyətinin qorunub saxlanılması üçün lazım olan investisiya məbləğini qarşılamalıdır;
- maliyyə kütləsi bütün maliyyə öhdəliklərini vaxtında icra etməyə imkan verən müddət ərzində daxil olmalıdır (14, s. 106).

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 59-cu maddəsində göstərilir ki, hüquqi şəxsin ləğvi onun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsi deməkdir. Hüquqi şəxs müflisolma nəticəsində də ləğv edilir. Əgər ləğv edilən hüquqi şəxsin əmlakının dəyəri kreditorların tələblərinin ödənilməsi üçün yetərli deyildirsə, o yalnız müflisolma nəticəsində ləğv edilə bilər (4).

Hüquqi şəxsin ləğvi dedikdə, onun fəaliyyətinə xitam verilməsinin elə bir üsulu başa düşülür ki, bunun nəticəsində onun hüquq və vəzifələri başqa şəxslərə (hüquqi varislərə) keçmir və fəaliyyətinə xitam verilmiş hüquqi şəxsin bazası əsasında hər hansı yeni müstəqil hüquqi şəxs əmələ gəlmir. Hüquqi şəxslərin ləğvi iki qaydada həyata keçirilir: könüllü qaydada; məcburi qaydada. Könüllü qayda odur ki, bu üsul hüquqi şəxsin təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə onun ləğv edilməsini nəzərdə tutur. Məhkəmə qərarı əsasında hüquqi şəxsin ləğv edilməsi məcburi qayda hesab edilir. Hüquqi şəxsin müflis olması onun ləğvinə əsas olan xüsusi hallardan biridir. Bu xüsusi halla bağlı olaraq hüquqi şəxs həm könüllü, həm də məcburi qaydada ləğv edilə bilər. Könüllü qaydada ləğvetmə haqqında qərarı hüquqi şəxs yalnız kreditorlarla birlikdə qəbul edə bilər. Məcburi qaydada ləğvetmə haqqında qərar isə məhkəmə tərəfindən qəbul edilir (1, s. 497).

Ü.Nuriyeva qeyd edir ki, bazar iqtisadiyyatı şəraitində rəqabətə davam gətirə bilməyən müəssisələrin öz fəaliyyətini dayandırması təbiidir. Lakin bu zaman onların dövlət büdcəsi və kreditorlar qarşısında bir sıra öhdəlikləri qalır ki, bunların da hüquqi tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir (7).

Təcrübə göstərir ki, müasir dövrdə iqtisadi və hüquq sistemində baş verən əsaslı dəyişikliklər fonunda bazar iqtisadiyyatı münasibətləri üçün xarakterik olan hüquqi mexanizmlərin, hüquq normalarının və institutlarının elmi-nəzəri təhlilinin əhəmiyyəti və aktuallığı artır. Onların içərisində xüsusi yerlərdən birini, təbii ki, hüquqi şəxslərin, xüsusən də kommersiya hüquqi şəxslərinin müflisləşməsi institutu tutur. Ümumi şəkildə desək, bu institut ödəmə qabiliyyəti olmayan borclunun fəaliyyətinin dayandırılması (xitam edilməsi) ilə bağlı yaranan münasibətləri tənzim edir. Bu baxımdan müflisləşməni Azərbaycan Respublikasının mülki qanunvericiliyi üçün yeni və "cavan" konstruksiya kimi xarakterizə

edən S.S.Allahverdiyev haqlı olaraq göstərir ki, mülki qanunvericilik müflisolmanı (müflisləşməni) hüquqi şəxsin ləğv edilməsinin xüsusi əsaslarından biri kimi nəzərdə tutur.

Ödəmə qabiliyyəti olmayan borclunun fəaliyyətinin xitam edilməsi müsbət tədbirdir. Lakin borclunun müflis hesab edilməsinin mənfi nəticələri də vardır. Çünki bu yalnız borclunun əmlak maraqlarına deyil, həm də çoxsaylı digər şəxslərin – borclunun işçilərinin, tərəfdaşlarının, kreditorlarının maraqlarına toxunur, çox zaman əhəmiyyətli sosial xərclər yaradır. Ona görə də ləğvetmə mexanizmindən başqa müflisləşmə institutu kütləvi müflisləşmə hallarının qarşısını almağa imkan verən xəbərdaredici və bərpaedici mexanizmi də özündə əks etdirməlidir.

Müflisləşmə qanunvericiliyinin tətbiqi ümidsiz vəziyyətdə olan müəssisələrin ləğv edilməsinə imkan verir. Bu isə son nəticədə rəqabətə davamsız sahibkarlıq strukturlarının mövcudluğunun və fəaliyyətinin, böhranın digər subyektlərə yayılmasının, təsərrüfat subyektlərinin zəncirvari müflisləşməsinin və deməli, iqtisadi sistemin böhranının qarşısını alır (18, s. 3).

Müflisləşmənin aşağıdakı növləri vardır:

1) real müflisləşmə;
2) şərti müflisləşmə;
3) qəsdən müflisləşmə;
4) saxta müflisləşmə.

Azərbaycan dilinin izahlı lüğətində "müflis" - iflasa uğramış, iflas etmiş, sınıq çıxmış, "müflisləşmək" - iflasa uğramaq, iflas etmək, var-dövlətini itirmək, var-dövləti əlindən çıxmaq, müflis olmaq, "müflislik" - müflis olma, var-yoxu, pulu, malı əlindən çıxma, iflasa uğrama kimi izah edilir (3, s. 410).

F.A.Brokqauz və İ.A.Yefron müflisləşməyə aşağıdakı kimi anlayış verirlər: "Müflisləşmə ticarətlə məşğul olan şəxsin öz təqsiri nəticəsində ödəmə qabiliyyətinin olmamasını ifadə edən ticarət hüququnun hüquqi terminidir" (29, s. 6).

İ.Q.Kukukinanın fikrincə, müflisləşmə müəssisənin elə bir maliyyə vəziyyətidir ki, bu zaman o, müəyyən edilmiş normativ müddət ərzində borc öhdəliklərini yerinə yetirmək və öz ödəmə qabiliyyətini müstəqil bərpa etmək iqtidarında olmur (17, s. 31).

S.X.Aslanovun qənaətinə görə müflisləşmə və iflas bazar iqtisadiyyatının səciyyəvi əlamətlərini özündə əks etdirən iqtisadi hadisədir, sahibkarlıq hüququnun müəyyən qrup normalarını özündə birləşdirən hüquq institutudur (2, s. 539).

Müflisləşmə müəyyən şəxsin elə əmlak vəziyyətidir ki, bu zaman o, kreditorların qanuni tələblərini təmin etmək iqtidarında olmur (30, s. 1389-1395).

Müflisləşmə məhkəmə tərəfindən müəyyən edilmiş kreditorların tələblərinin tam həcmdə ödəmə qabiliyyətsizliyidir (32, s. 660).

Q.F.Şerşeneviç hesab edirdi ki, müflisləşmə - borcunu ödəyə bilməyən borclunun öz əmlakını azaltması və ya gizlətməsi yolu ilə ehtiyatsızlıqdan və ya qəsdən kreditora zərər vurmasıdır (25, s. 88).

A.A.Çaliyev müflisləşməyə belə anlayış verir: "Müflisləşmə sahibkarlıq fəaliyyətinin (biznesin) elə səmərəsizlik dərəcəsidir ki, bu zaman cəmlənmiş pul vəsaitləri, habelə biznesin mövcud olduğu bütün dövrdə toplanmış likvid aktivlər belə fəaliyyətlə bağlı bütün xarici (kontragentlər, işçilər, vergi orqanları qarşısında) tələbləri təmin etmək üçün yetərli olmur" (24).

Bəzən müflisləşmə müəssisənin daxili gəlir mənbələri hesabına öz borcunu ödəyə və ödəmə qabiliyyətini bərpa edə bilmədiyi böhran vəziyyətinin son həddi, bu vəziyyətin inkişafının nəticəsi və kapitalın yenidən bölüşdürülməsinin bazar aləti kimi xarakterizə olunur (28, s. 114; 9, s. 9).

V.M.Niftullayeva göstərir ki, müflisləşmə borclunun öz öhdəliklərini ödəmə qabiliyyətinin olmaması mənasını daşıyır. Müəssisənin ödəmə qabiliyyətini itirməsi dedikdə, məhsul, iş və xidmətlərin dəyərinin ödənilməsi ilə bağlı kreditorların tələblərinin ödənilməsi imkanlarının olmaması, borclu tərəflərə olan borcların məbləğinin artması ilə əlaqədar qeyri-büdcə fondlarının ödənilməsi və ən nəhayət, balansın qeyri-qənaətbəxş strukturunun formalaşması başa düşülür (5, s. 183).

S.S.Allahverdiyevə görə müflisləşmə dedikdə, borclunun öz kreditorları qarşısında öhdəliklərini, yəni borclarını ödəmə qabiliyyətinin olmaması başa düşülür ki, bu cür qabiliyyətin olmaması əsasən məhkəmə tərəfindən təsdiq olunur. Borclu şəxs maliyyə vəziyyətinin tam pozulması, əmlakının kifayət etməməsi və çatışmaması üzündən öz kreditorlarının tələblərini ödəmək qabiliyyətini itirir. Daha doğrusu, hüquqi şəxsin əmlakının dəyəri kreditorların tələblərinin ödənilməsi üçün yetərli olmur və kifayət etmir. Bu səbəbdən hüquqi şəxs öz borclarını, o cümlədən dövlətə və yerli orqanlara müvafiq vergiləri (və digər məcburi ödənişləri) ödəmək imkanına (qabiliyyətinə) malik olmur (1, s. 503).

V.V.Zalesskinin fikrincə, müflisləşmə zamanı borclunun ödəmə qabiliyyətinin olmaması bütün kreditorlara münasibətdə deyil, yalnız pul öhdəlikləri və məcburi ödəmələr üzrə kreditorlara münasibətdə və bütün borc məbləği deyil, qanuna əsasən hesablanan məbləğ nəzərə alınmaqla müəyyən edilir (16, s. 14).

Hüquq ədəbiyyatında haqlı olaraq göstərilir ki, kifayət qədər ciddi və kəskin xarakter daşıyan müflisləşmə problemi çevik və düşünülmüş hüquqi tənzimetmə tələb edir (27, s. 38).

N.V.Qavrilova qeyd edir ki, müasir dövrdə müsabiqə qanunvericiliyinin qüvvəsi aşağıdakı təşkilati-hüquqi formalı borclulara şamil olunur: dövlət müəssisələri istisna olmaqla istənilən kommersiya hüquqi şəxslərinə; siyasi partiyalar, dini təşkilatlar, idarələr istisna olmaqla istənilən qeyri-kommersiya hüquqi şəxslərinə (13, s. 75).

Müflisləşmə elə hüquqi prosedurdur ki, bu zaman müflis borclunun əmlakı əsasən kreditorların xeyrinə satılır (22, s. 46).

Müəlliflərdən N.İ.Kleynin fikrincə, müəssisənin müflis elan edilməsi öz riski və məsuliyyəti ilə təsərrüfat fəaliyyətini həyata keçirən istehsalçıların rəqabət mübarizəsini təşkil və təmin edən tədbirlər sistemini tamamlayan institut kimi çıxış edir (19, s. 77).

A.V.Budnikova və Y.S.Aqeyeva kimi müəlliflər müflisləşmə institutunun mahiyyəti və hüquqi tənzimi ilə bağlı maraqlı fikirlər irəli sürürlər. Onlar hesab edirlər ki, müflisləşmə qanunla kəşf edilmiş mexanizm deyil, bazar münasibətlərinin ayrılmaz tərkib hissəsidir. Bazar münasibətlərini, onun istənilən digər hissəsi kimi, sərti hüquqi tənzimetmə məngənəsində «sıxmaq» olmaz. Bu baş verərsə, həmin münasibətlər bazar münasibətləri olmayacaqdır. Qanun müflisləşmənin tərəflərinə azad şəkildə razılığa gəlmək hüququ verməlidir. Lakin müflisləşmə prosesində iştirak edən şəxslərin maraqları naminə bu azadlıq yenə də məhkəmə hakimiyyətinin nəzarəti ilə reallaşdırılmalıdır (8, s. 32).

İnkişaf etmiş ölkələrin əksəriyyətinin qanunvericiliyində fiziki şəxslərin müflisləşməsi məsələsi təsbit edilmişdir. Fiziki şəxslərin müflisləşməsi institutunun mahiyyəti ondan ibarətdir ki, çətin maliyyə vəziyyətinə düşən və öz borclarını ödəyə bilməyən şəxs müflis hesab edilməsi üçün müvafiq orqana müraciət edə və bəzi hallarda borclarının bir hissəsi güzəşt edilə bilər. Fiziki şəxslərin müflisləşməsi üzrə xarici təcrübə aşağıdakı anlayışlarla xarakterizə olunur: "İstehlak müflisləşməsi" institutu – çətin maliyyə vəziyyətinə düşən vicdanlı vətəndaş üçün borclunun reabilitasiyasının mümkünlüyü baxımından rifah kimi nəzərdən keçirilir; "fresh start" hüquq doktrinasının tətbiqi – borclunun kreditorla hesablaşma üçün öz əmlakını təqdim etməsi şərtilə vətəndaşın bir proses gedişində borclardan azad edilməsi; bir sıra ölkələrin qanunvericiliyində "reabilitasiya tədbirlərinin" tətbiqi imkanının

nəzərdə tutulması – bu prosedurlar gedişində təsdiq edilmiş plana uyğun olaraq vətəndaşın borclarının ödənilməsi həyata keçirilir (26).

Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi fiziki şəxslərin müflisləşməsini də mümkün hesab edir. Bunu həmin məcəllənin 38-ci maddəsinin adının təhlili təsdiq edir. Belə ki, həmin maddə "Fiziki və hüquqi şəxslərin müflisləşməsinə (iflasına) dair işlərin aidiyyəti" adlanır. "Müflisləşmə və iflas haqqında" qanunda isə fiziki şəxslərin müflisləşməsi məsələsinə ümumiyyətlə toxunulmamışdır və bu məsələ tənzimlənməmişdir. Həmin qanunun preambulasının və 1-ci maddəsində borcluya verilən leqal anlayışın təhlili göstərir ki, adı çəkilən qanun yalnız fiziki şəxslərin (müəssisələrin) müflisləşməsi ilə bağlı məsələləri tənzim edir. Belə ki, qanunun peambulasında deyilir: "Bu Qanun müəssisənin müflisləşməsinin, iflasının və iflas haqqında işlər üzrə icraata başlanması üsullarını, şərtlərini və qaydasını, kreditorların tələblərinin ödənilməsinin təşkilati və hüquqi əsaslarını müəyyənləşdirir." Həmçinin təhlil edilən qanunun 1-ci maddəsində borcluya "kreditor qarşısında öz öhdəliklərini vaxtında yerinə yetirə bilməyən və ya yerinə yetirməkdən imtina edən müəssisə" kimi leqal anlayış verilir. Göründüyü kimi, bu məsələ ilə bağlı qanunvericilikdə ziddiyyət və boşluq vardır. Konkret məsələ (fiziki şəxslərin müflisləşməsi) ilə bağlı prosessual norma olsa da, maddi normalar yoxdur. Ona görə də bu boşluğun aradan qaldırılması üçün inkişaf etmiş xarici ölkələrin qanunvericilik və hüquqtətbiqetmə təcrübəsi nəzərə alınmaqla gələcəkdə "Müflisləşmə və iflas haqqında" qanuna fiziki şəxslərin müflisləşməsi ilə bağlı müddəaların əlavə edilməsi zəruridir. Ilk növbədə isə həmin qanunun 1-ci maddəsində borclunun leqal anlayışı aşağıdakı kimi verilməlidir: «Borclu-kreditor qarşısında öz öhdəliklərini vaxtında yerinə yetirə bilməyən və ya yerinə yetirməkdən imtina edən fiziki və ya hüquqi şəxs».

"Müflisləşmə və iflas haqqında" qanunda qanunun preambulasında, həmçinin göstərilən qanunun 1-ci maddəsində borcluya verilən anlayışda, habelə bir sıra digər maddələrində "müəssisə" terminindən istifadə olunduğundan bu anlayışı, səthi də olsa, nəzərdən keçirməyi məqsədəmüvafiq hesab edirik.

"Müəssisə" termini bir neçə məna ifadə edir: birincisi, zavod, fabrik; ikincisi, başlanılmış iş, üçüncüsü - əmlak kompleksi və s. Müəssisə yalnız hüquqi deyil, həm də iqtisadi kateqoriyadır. İqtisadi mənada müəssisə maddi və insan elementlərinin texnoloji vahidliyini, müxtəlif istehsal faktorlarının – resursların, əməyin və kapitalın vəhdətini özündə əks etdirir. Təsadüfi deyildir ki, Azərbaycan dilinin izahlı lüğətində "müəssisə" sözü "istehsalat və ya ticarət-təsərrüfat vahidi, yaxud bir neçə belə vahidin birləşməsi, sənaye müəssisəsi (zavod, fabrik), ticarət müəssisəsi" kimi izah edilir (3, s. 409).

Hüquq ədəbiyyatında, xüsusən də mülki hüquq elmində müəssisə anlayışına münasibətdə əsasən üç yanaşma formalaşmışdır. Bəzi müəlliflər müəssisəni hüququn obyekti, bəziləri isə hüququn xüsusi növ subyekti kimi xarakterizə edirlər. Üçüncü qrup müəlliflərin fikrincə isə müəssisə bəzi hallarda hüququn subyekti, bəzi hallarda isə hüququn obyekti kimi çıxış edir. Fikrimizcə, üçüncü yanaşma mövcud reallığa daha çox uyğun gəlsə də, birinci yanaşma daha məntiqlidir və gələcək inkişaf perspektivləri baxımından qanunvericilik bu istiqaməti əsas götürməlidir. Çünki dünya təcrübəsi göstərir ki, əksər ölkələrin qanunvericiliyində müəssisə hüququn müstəqil subyekti kimi nəzərdən keçirilmir. O, ayrıca əmlakı, balansı olan və hüquq şəxsin hüquqlarından istifadə edən təsərrüfat qurumu hesab edilmir. Müəssisə sadəcə olaraq hüququn obyekti olan, maddi və qeyri-maddi elementləri özündə əks etdirən əmlak kompleksi kimi nəzərdən keçirilir. Kommersiya təşkilatının tərkibində sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün bir və ya bir neçə müəssisə (əmlak kompleksi) ola bilər.

Azərbaycan Respublikasının mülki və sahibkarlıq fəaliyyəti haqqında qanunvericiliyində «müəssisə» anlayışı ilə bağlı baş verən köklü dəyişikliklər nəzərə

alınmaqla onun ikili başa düşülməsindən imtina edilməlidir. V.V.Vitryanskinin göstərdiyi kimi, mülki qanunvericilikdə müəssisə termini mülki hüquqların xüsusi obyektini - sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün istifadə olunan əmlak kompleksini ifadə etmək üçün işlədilir (11, s. 776). Bu baxımdan, «müəssisə» daha çox hüququn obyekti ilə əlaqələndirilməlidir. Hüququn subyektinin ifadə edilməsi üçün «hüquqi şəxslərin» təşkilati-hüquqi formalarının mövcud anlamından istifadə olunmalıdır. Müflisləşmə hüququn obyektini (bu halda əmlak kompleksini) deyil, onun subyektini xarakterizə edən xüsusiyyətdir. Bütün qeyd olunanlar baxımından hesab edirik ki, müflisləşmə qanunvericiliyində, xüsusən də "Müflisləşmə və iflas haqqında" qanunun preambulasında «müəssisə» termini əvəzinə (həm borclu fiziki, həm də hüquqi şəxsləri ehtiva edən) «borclu şəxs» terminindən istifadə olunması daha məqsədəmüvafiq olardı.

Beləliklə, müflisləşmə qanunvericiliklə müəyyən olunmuş qaydada və normativ müddət ərzində ödəmə qabiliyyətinin bərpa edilməsi üçün maliyyə imkanının olmamasına, mövcud aktivlərin kreditorların borc tələblərini ödəyə bilməməsinə görə təsərrüfat subyektinin fəaliyyətinin xitam olunmasıdır.

Açar sözlər: kommersiya təşkilatı, müflisləşmə, ödəmə qabiliyyəti, anlayış, hüquqi şəxs, termin, borclu.

İstifadə olunmuş ədəbiyyat

1. Allahverdiyev S.S. Azərbaycan Respublikasının Mülki hüququ. I cild. I kitab. Dərslik. Bakı: «Digesta», 2003, 976 s.
2. Aslanov S.X. Sahibkarlıq hüququ. Bakı: "Digesta" nəşriyyatı, 2013, 560 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. Bakı: "Şərq-Qərb", 2006, 672s.
4. Azərbaycan Respublikasının Mülki Məcəlləsi / http://e-qanun.az
5. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: "Zaman" nəşriyyatı, 2002, 615 s.
6. Novitski İ.B. Roma hüququ. Dərslik /Rus dilindən tərcümə. Bakı: Qanun, 1999, 224s.
7. Nuriyeva Ü. Müflisləşmə və iflas hansı halda baş verir? /"Vergilər" qəz., Bakı, 2004, 27 aprel, № 17 (207).
8. Агеева Е.С., Будникова А.В. Зарубежный опыт формирования института банкротства /http://yavnauke.ru/publikacii/yekonomicheskie-modeli-funkcionirovanija/zarubezhnyi-opyt-formirovanija-instituta.html
9. Арбитражное управление предприятием. Практическое пособие /Отв. ред. Г.К.Таль, Г.Б.Юн. М.: Дело, 2000, 383 с.
10. Бабайцева Е.А. Коммерческая организация как юридическая форма осуществления права на занятие предпринимательской деятельностью: Автореф. дисс... канд. юрид. наук. Волгоград, 2004, 23 с.
11. Витрянский В.В. Постатейный комментарий Федерального закона «О несостоятельности (банкротстве)». М.: Статут, 2003, 1037 с.
12. Войшвилло Е.К. Вопросы логики. М.: Академия наук СССР, 1955, 326 с.
13. Гаврилова Н.В. Формирование института банкротства и его роль в экономике переходного периода: Дис. … канд. экон. наук. М., 2000, 189 с.
14. Гончаров А.И., Барулин С.В., Тереньтева М.В. Финансовое оздоровление предприятий. Теория и практика. М.: Ось-89, 2004, 568 с.
15. Климовицкий Я.А. Некоторые методологические вопросы работы над терминологией науки и техники //Современные проблемы терминологии в науке и технике. Сборник статьей. М.: Наука, 1969, с. 32-61.

16. Комментарий к Федеральному закону "О несостоятельности (банкротстве)" /Под ред. Залесского В.В. М.: Издательство г-на Тихомирова М.Ю., 2003, 610 с.

17. Кукукина И.Г., Астраханцева И.А. Учет и анализ банкротств. М.: Финансы и статистика, 2004, 312 с.

18. Махнева Е.А. Развитие гражданских правоотношений в процедурах банкротства: теоретические проблемы. Дис. ... канд. юрид. наук. М., 2003, 174 с.

19. Предпринимательское право. Курс лекций /Под ред. Н.И. Клейн. М.: Юридическая литература, 1993, 480 с.

20. Реформатски А.А. Введение в языковедение. Учебник. М.: Просвещение, 1967, 542 с.

21. Русак Л.Г. Товарищеские союзы как форма организации юридических лиц. Минск: Амалфея, 2000, 256 с.

22. Словарь современной экономической теории Макмиллана /Общ. ред. Д.У.Пирса. Пер. с англ. М.: ИНФРА-М, 1997, 607 с.

23. Советское гражданское право. Учебник. В 2-х томах. Т. 1 / Под ред. О.А.Красавчикова. М.: Высшая школа, 1985, 544 с.

24. Чалиева А.А. Банкротство компании //http://chaliev.narod.ru/ bankrotstvo-/lection2-bankrotstvo-i-nesostoyatelnost.html

25. Шершеневич Г.Ф. Конкурсный процесс. М.: Статут, 2000, 477 с.

26. Шибанова Роенка Е.А., Фарахшин Р. Современный институт несостоятельности физического лица /www.rae.ru/forum201198/418

27. Щенникова Л.В. Банкротство в гражданском праве России: традиции и перспективы //Российская юстиция, 1998, № 10, с. 38-41

28. Экономическая теория: В 2 ч. Учебник / Под общ. ред. М.А. Винокурова, М.П. Деминой. Иркутск: ИГЭА, 1999, 483 с.

29. Энциклопедический словарь. Брокгауз и Ефрон, Репринтное воспроизведение издания. Т.5. М.: Терра, 1990, 480 с.

30. Энциклопедия государства и права / Под. ред. П. Стучка. Том II. М.: Изд-во коммунистической академии, 1926, с. 1389-1395

31. Юридические лица. Сборник законов /Составители О.М.Козырь, С.А.Денисов. М.: Книжный мир, 1998, 912 с.

32. Юридический словарь /Под ред. П.И. Кудрявцева. Том 1. М.: Гос. изд-во юр. лит-ры, 1956, 687 с.

Байрам МАГЕРРАМОВ

ПОНЯТИЕ БАНКРОТСТВА КОММЕРЧЕСКИХ ОРГАНИЗАЦИЙ

Резюме

Обобщая проведенные исследования, автор статьи дает понятие банкротства установленного в законном порядке в связи с отсутствием финансовых средств для восстановления платежеспособности в период нормативного срока, прекращения деятельности хозяйственного субъекта из-за неспособности удовлетворить требования текущих активов к кредиторам.

Ключевые слова: коммерческая организация, банкротство, платежеспособность, юридическое лицо, термин, кредитор.

Bayram MAHARRAMOV

THE CONCEPT OF BANKRUPTCY OF THE COMMERCIAL ORGANIZATIONS

Summary

The article deals with the concept of bankruptcy of the commercial organizations. The author in the with article summarizing the carried out studies gives the concept of bankruptcy, established legally, in connection the lack of funds for restoration of solvency during the normative term termination of the activity of the economic subject because of the inability to meet the demands of current assets to creditors.

Keywords: commercial organization, bankruptcy, solvency, the term, creditor.

УДК 341

Динара АГАЛИЕВА
докторант, ИФП НАНА

ОСОБЕННОСТИ ЮРИДИЧЕСКОЙ ПРИРОДЫ МЕЖДУНАРОДНОГО ТУРИСТСКОГО ПРАВА*

В современный период международный туризм представляет собой одну из наиболее динамично развивающихся областей мировой экономики. Так, следует подчеркнуть, что, начиная с середины 80-х годов XX века и до наших дней, то есть примерно за последние три десятилетия общее число туристов во всем мире увеличилось почти в 4 раза, а доходы от сферы туризма - более чем в 25 раз. Являясь весьма высокодоходной отраслью, туризм, наряду с нефтегазодобывающей промышленностью и автомобилестроением, входит в число трех крупнейших экспортных отраслей. При этом состояние современной мировой туристической индустрии, даже несмотря на возникшие объективные трудности последних лет, связанных с мировым экономическим кризисом, в целом демонстрирует стабильность и сохраняет позиции одного из самых крупных и высокодоходных секторов мировой экономики. Достаточно отметить, что на долю одного лишь туризма приходится примерно 30% мировой торговли услугами, около 7% мировых капиталовложений и 10,5% мирового ВВП. По данным Всемирной туристской организации, в 2013 году количество международных туристических поездок составило более 1,087 млн., а доходы от туризма превысили 1,4 трлн. долл. США (15), при общем обороте мировой туриндустрии более 8 трлн. долл. США.

В соответствии с прогнозами Всемирного совета по туризму и путешествиям (WTTC), ожидается устойчивый рост туризма в период с 2009 по 2020 годы в среднем на 4,4% в год. Международный туризм как важная сфера всей системы международных экономических отношений, начиная примерно с 20-х гг. XX века, становится объектом международно-правового воздействия.

Динамичные процессы стремительно развивающегося международного туризма делают объективно необходимым правовую регламентацию данной области международных отношений. Процесс формирования и последующего развития правовых норм, направленных на регламентацию международного туризма, ставит проблему определения правовой природы, а также места и роли этих норм в системе правового регулирования отношений, возникающих в связи с осуществлением туристской деятельности в целом.

Прежде всего, необходимо подчеркнуть, что одной из основных особенностей туристской деятельности является ее экономический характер. С.В.Дементьева отмечает, что туризм и международные путешествия как одна из форм международных экономических отношений, в современных условиях приобрели огромные масштабы и стали оказывать существенное влияние на политические, экономические и культурные связи между государствами (4, с.10). Азербайджанские ученые А.И.Алиев и Е.З.Асланов подчеркивают, что международный туризм в соответствующей сфере объединяет в себе экономические и гуманитарные факторы, а это дает возможность

* Məqalə hüquq ü.f.d., dosent Rauf Qarayev tərəfindən çapa məsləhət görülüb.

заключить, что международные экономические отношения являются основой как международных туристских отношений, так и их дальнейшего развития (1, с.19).

Это обстоятельство, в свою очередь, предусматривает определенную взаимосвязь и в сфере правового регулирования этих отношений с международным экономическим правом. Азербайджанский ученый Е.А.Алиев как предмет международно-правового регулирования международные туристские отношения относит к одной из разновидностей международных межгосударственных экономических отношений, а международное туристское право так же как международное торговое право, международное инвестиционное право, международное финансово-валютное право, международное транспортное право, международное право интеллектуальной собственности, международное таможенное право и международное налоговое право рассматривает в качестве подотраслей международного экономического права (2, с.54). Е.А.Алиев отмечает, что подотрасли соответствующей отрасли права должны отвечать четырем условиям, а именно они должны иметь: 1) свой отдельный предмет регулирования; 2) свой метод регулирования; 3) специальные правовые принципы; 4) свою общую часть подотрасли (2, с.39-40). Само же международное экономическое право Е.А.Алиев считает отраслью международного права (2, с.24). К сожалению, он не рассматривает каждый из вышеперечисленных условий применительно к международному туристскому праву. Так, не вызывает никаких сомнений наличие у международного туристского права своего предмета регулирования. Вместе с тем трудно определить, если это вообще возможно, в чем же особенность своего метода регулирования у международного туристского права. В отличие от внутреннего права, у международного права есть один метод правового регулирования, который заключается в соглашении между его субъектами, независимо от предмета регулирования. И на это обстоятельство справедливо указывается в юридической литературе. Так, немецкий юрист Вольфганг Граф Витцум отмечает, что глобально признанной наднациональной суверенной власти как и прежде не существует. Следовательно, международный правопорядок имеет координационно-правовую, а не субординационно-правовую структуру, то есть «горизонтальную», а не «вертикальную» структуру (11, с.6). Вообще следует отметить, что методы правового регулирования, используемые в национальной правовой системе той или иной страны и в системе международного права как нормативно-правовой системе, не идентичны, и существенно отличаются друг от друга. Поэтому механическое распространение действия норм той или иной системы права на отношения, являющиеся объектом правового регулирования другой системы права, не могут дать положительный результат (12, с.95). В основном, можно согласиться с положением о том, что международное туристское право имеет свои специальные принципы. Вместе с тем также остается открытым вопрос, имеет ли международное туристское право свою общую часть, и если да, то что конкретно входит в нее, а что в особенную часть. Таким образом, вопрос о том, можно ли причислить международное туристское право к подотраслям международного экономического права остается открытым и требует своего дальнейшего исследования.

С.В.Дементьева говорит о международном туристском праве как о самостоятельном институте международного права. При этом она под понятием института международного туристского права понимает совокупность принципов и норм, регулирующих деятельность государств в области туризма и международных путешествий в целях удовлетворения широкого круга культурных и духовных потребностей человека, отмечая, что предметом института международного туристского права являются отношения партнерства и сотрудничества международных

и национальных организаций в области туризма и международных путешествий, а в качестве субъектов данного института выступают государства и международные организации (4, с.10-11). Вместе с тем остается неясным вопрос о том, что если предположить, что международное туристское право действительно является институтом международного права, то какое место он занимает в системе международного права в целом и составной частью какой отрасли международного права является в частности.

По мнению И.В.Маркиной, если имеется система самостоятельных, достаточно обособленных и значимых межгосударственных или смешанных международных отношений в сфере туризма, требующих своей правовой регламентации, то можно констатировать наличие процесса формирования такой отрасли международного публичного права как международное туристское право (5, с.176). Однако каких-либо существенных доводов, свидетельствующих в пользу такой аргументации она не приводит.

А.И.Алиев и Е.З.Асланов отмечают, что правовое регулирование международных отношений, возникающих в процессе международной туристской деятельности, осуществляется с помощью принципов общего и частного международного права, в том числе соответствующих правовых норм. И далее заключают, что это обстоятельство, свидетельствуя о сложном характере международных туристских отношений, полностью подтверждает идею о формировании комплексной подотрасли международного права. Таким образом, они рассматривают международное туристское право как комплексную подотрасль международного права (1, с.58). Следует отметить, что в юридической литературе встречаются такого рода комплексные образования. Так, применительно к международному праву впервые понятие комплексной отрасли выдвинул С.А.Малинин, который под этой дефиницией понимает объединение норм, относящихся к различным отраслям права (8, с.9). П.Н.Бирюков также указывает: «Некоторые отрасли и институты международного права носят комплексный характер: значительная часть норм этих образований входит в состав двух или нескольких отраслей международного права или институтов. Так, нормы института консульской защиты граждан, задержанных в иностранном государстве за совершение преступления, имея свою «основную прописку» (С.С.Алексеев) в отрасли «право внешних сношений», входят в состав и международного гуманитарного права, и права международного сотрудничества в борьбе с преступностью» (6, с.6). Однако следует отметить, что С.А.Малинин и П.Н.Бирюков говорят о комплексных международно-правовых образованиях, в которых объединены юридические нормы международно-правового характера. А.И.Алиев и Е.З.Асланов же говорят о комплексной подотрасли международного права, исходя из посылки о том, что правовое регулирование международных отношений, возникающих в процессе международной туристской деятельности, осуществляется с помощью принципов общего и частного международного права. Таким образом, можно заключить, что они исходят из концепции о единой природе норм международного публичного и частного права. Один из сторонников данной концепции С.Б.Крылов отмечает, что вопросы международного частного и публичного права относятся к одной отрасли права – международному праву в широком смысле слова (7, с.30). Другой сторонник данной концепции С.А.Малинин также подчеркивает, что в системе международного права (в широком смысле слова) объективно существуют две основные самостоятельные отрасли права: 1) международное публичное право; 2) международное частное право (8, с.7). Похожей точки зрения придерживается и В.И.Маргиев (9, с.75). Как отмечает

Е.Т.Усенко, на той же позиции стояли М.А.Плоткин, В.Э.Грабарь, А.М.Ладыженский, В.И.Менжинский и некоторые другие авторы (13, с.82). Л.Г.Гусейнов отмечает, что иногда понятие международного права используется в широком смысле и сюда включают две автономные нормативные комплексы и научные отрасли международного публичного права и международного частного права (3, с.8). Английский юрист Малькольм Шоу также подчеркивает, что международное право само подразделяется на коллизионное право (или как его иногда называют международное частное право) и международное публичное право (обычно его просто называют международное право). Первое имеет дело со случаями в пределах конкретных правовых систем с наличием иностранного элемента, касаясь вопросов применения иностранного права или роли иностранных судов. Например, если два англичанина заключают договор во Франции относительно продажи товаров, находящихся в Париже, английский суд применит французский закон в отношении действительности этого договора. В отличие от этого, международное публичное право не просто придаток такого правопорядка, но является отдельной системой в целом (14, с.1-2).

Вместе с тем большинство авторов придерживается «цивилистической концепции» относительно юридической природы международного частного права (10, с.97; 11, с.22).

Несмотря на тесную связь международного публичного права с международным частным правом (например, наличие общих источников), правовая природа международно-правовых и международных частно-правовых норм различна. Не вызывает сомнения, что правовые нормы, возникающие, скажем, после принятия международных договоров и других международных актов нормативного содержания, направленных на регламентацию отношений в области международного туризма, носят международно-правовой характер. И соответственно такие нормы по своей юридической природе относятся к международно-правовым нормам. Вместе с тем, в основном субъектами конкретных правоотношений в области международного туризма являются физические и юридические лица различных стран. В этом случае возникающие правоотношения будут относиться к сфере международного частного права и других отраслей внутригосударственного права. Например, при заключении договора, связанного с оказанием туристских услуг между организациями-юридическими лицами различных стран, отношения между ними могут регламентироваться нормами права, относящимися к различным отраслям национального права той или иной страны в зависимости от условий договора. Это могут быть нормы гражданского, коммерческого, таможенного, налогового, транспортного, банковского и т.д. права.

По нашему мнению, понятие «международное туристское право» объединяет несколько групп юридических норм, относящихся к различным системам права (международно-правовые нормы, нормы международного частного права, нормы внутреннего права различных государств), которые функционально взаимосвязаны и служат достижению одной и той же цели на различных уровнях правового регулирования и различными правовыми способами. Следовательно, правовое регулирование международного туризма представляет собой определенную целостную систему взаимодействия международного права, международного частного права, норм национального права различных стран.

Необходимо также подчеркнуть, что система права вообще и система международного права в частности, не являются тождеством системы науки права. Следует отметить, что науке свойственна функция раскрытия сущности предмета (объекта) исследования, она имеет свою закономерную и логическую структуру, свои

приемы, способы и методы. Поэтому нормы, объединенные в какое-либо образование с целью удобства научного изучения, не обязательно отражают существующие различные взаимосвязи в системе правовых норм.

Ключевые слова: юридическая природа, правовое регулирование, международное туристское право, подотрасль права, отрасль права.

Список использованной литературы

1. Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Bakı: Çaşıoğlu, 2007. 440 s.
2. Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı: "UniPrint" nəşriyyat-poliqrafiya müəssisəsi, 2012, 648 s.
3. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı: Qanun, 2012, 368 s.
4. Дементьева С.В. Правовые основы отечественного и международного туризма. Учебное пособие. Томск: Изд.ТПУ, 2002, 114 с.
5. Маркина И.В. Развитие международного туристического права и проблемы его осуществления //Сборник трудов молодых ученых НОУ ВПО «Университет управления «ТИСБИ». Казань: НОУ ВПО «Университет управления «ТИСБИ», 2013, с.175-183.
6. Бирюков П.Н. Международное право. Учебное пособие. М.: Юристъ, 1998, 258 с.
7. Крылов С.Б. Международное право. Учебник для юридических институтов и факультетов. М.:Юриздат, 1947, 213 с.
8. Малинин С.А. Мирное использование атомной энергии. Международно-правовые вопросы. М.: Международные отношения, 1971, 174 с.
9. Маргиев В.И. О системе международного права //Правоведение, Л.: Изд-во Ленингр. ун-та, 1981, № 2, с.75-81.
10. Фельдман Д.И. О системе международного права //Советский ежегодник международного права, 1977. М., 1979, с.91-114.
11. Международное право //Вольфганг Граф Витцум и др. Перевод с нем. М.: Инфотропик Медиа, 2011, 992 с.
12. Лукашук И.И. Международно-правовое регулирование международных отношений. М.: Международные отношения, 1975, 173 с.
13. Усенко Е.Т. Международное и внутригосударственное право //Советский ежегодник международного права, 1977, М., 1979, с.57-90.
14. Shaw M.N. International law. Cambridge University Press, 2003, 1288 r.
15. World Tourism Organization UNWTO// http://www2.unwto.org/ru

Dinara AĞALİYEVA

BEYNƏLXALQ TURİST HÜQUQUNUN HÜQUQİ TƏBİƏTİNİN XÜSUSİYYƏTİ

Xülasə

Məqalədə müasir dövrdə beynəlxalq turizmin dünya iqtisadiyyatının dinamik surətlə inkişaf edən sahələrindən biri olduğu qeyd olunur. Müəllif beynəlxalq turist hüququnun hüquqi təbiətinə dair hüquq ədəbiyyatında mövcud olan müxtəlif yanaşmaları və mövqeləri təhlil edərək belə bir nəticəyə gəlir ki, beynəlxalq turizmin hüquqi nizamlanması beynəlxalq hüquq, beynəlxalq xüsusi hüquq və müxtəlif ölkələrin milli hüquq normalarının qarşılıqlı fəaliyyətinin müəyyən vahid sistemini təşkil edir.

Açar sözlər: hüquqi təbiət, hüquqi nizamlama, beynəlxalq turist hüququ, hüquq yarımsahəsi, hüquq sahəsi.

Dinara AGALIEVA

SPECIAL FEATURE OF JURIDICAL NATURE OF INTERNATIONAL TOURIST RIGHT

Summary

The article notes that in the modern period, international tourism is one of dynamically growing areas of the world economy. The author, analyzing the different approaches available in the legal literature, on the legal nature of international tourism law, comes to the conclusion that the legal regulation of international tourism is a definite integral system of interaction of international law, private international law and national law of different countries.

Keywords: legal nature, legal regulation, international tourist law, sub-sector of law, a branch of law.

УДК 340.15

Ильхам АЛИЕВ
н.с., ИФП НАНА

РАССМОТРЕНИЕ ГОСУДАРСТВЕННО-РЕЛИГИОЗНЫХ ОТНОШЕНИЙ ЧЕРЕЗ ПРИЗМУ НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ*

С древних времен на планете мирно сосуществовали такие религии, как христианство, буддизм, ислам, иудаизм и другие, которые стали стимулирующим фактором развития культуры, образования и науки.

Государственно-религиозные отношения развиваются в рамках общемирового процесса, однако имеют свои особенности, связанные как с историческим прошлым каждого государства, так и проводимой в условиях суверенного развития внутренней политикой.

Неоднократно доказано, что насильственная атеизация общества не привела к исчезновению религии, и это вполне естественно. Как считали мыслители, религия – это убеждение, что все происходящее с нами необычайно важно, и именно поэтому она будет существовать всегда. Причины религиозности людей объективны, и религия в течение многих веков выступала и выступает в качестве регулятора человеческого поведения.

В связи с этим обеспечение свободы совести и вероисповеданий является важной стороной внутренней и внешней политики каждого государства и должно осуществляться в соответствии с характером его государственного устройства, с учетом мировоззренческого и конфессионального многообразия общества, реальной степени его секуляризации. В Конституции Азербайджанской Республики (ст. 7) на высшем законодательном уровне закреплено и провозглашено: "Азербайджанское государство – демократическая, правовая, светская, унитарная республика" (1, с.5).

Сегодня в мире существует несколько типов государственно-религиозных отношений, которые отражают как историю, так и современность.

Отношения государства и религии, культурно-религиозные традиции и их влияние на историю и внутреннюю ситуацию в государстве – одна из фундаментальных проблем, решить которую пытались многие великие умы человечества. Мировая история учит, что государственно-религиозные отношения складывались, складываются и будут складываться как результат социального компромисса между субъектами этих отношений, различными слоями общества, обладающими разными, подчас альтернативными религиозно-мировоззренческими убеждениями и соответствующей им социальной практикой. В силу предназначения, государство призвано выполнять роль посредника и гаранта для достижения такого компромисса, а также поддерживать баланс интересов личности, общества и государства на протяжении всего периода своего существования.

Эти задачи вытекают из сущности понятия «религия», под которой имеют в виду то, что дается человеку при соблюдении правил духовной жизни, а именно возможность единения с источником жизни, истины и блага – Богом (2, с.13).

Духовная сфера - это возвышенная сфера жизнедеятельности общества и человека. Именно духовная деятельность отличает человека от других живых существ.

---

Мамедалиева в химии привлекало также то, что эта наука, изучая вещества и их превращения выше атомного уровня, занимает центральное место в структуре естествознания. Если становление тех или иных веществ определяют физические процессы доатомного уровня, то основу жизненных явлений формируют надатомные химические взаимодействия. Химия в этом отношении является промежуточным звеном между физикой и биологией, и она дает дополнительный аргумент в пользу единства естествознания. Мамедалиеву импонировала мысль немецкого физика Макса Планка о возможности построения теоретической цепочки от физики и химии через биологию и антропологию к социальным наукам.

Глубинная связь физики и химии подтвердилась с появлением квантовой химии. Мамедалиев воспринял это как событие, соответствующее логике развития научного познания. При всей значимости квантовой химии он оправданно считал, что отказаться от экспериментальных исследований не получится, так как абстрактные результаты квантовохимических исследований необходимо подтверждать опытным путем.

Одна из первых его научных работ посвящена изучению природных и нефтяных (попутных) газов и определению их потенциального применения. Так возникли идеи производства искусственного каучука и получения водорода. В 1934 г. Мамедалиев предлагал использовать в двигателях внутреннего сгорания вместо бензина водород. Эта идея намного опередила свое время, ее подлинная ценность осознается только сейчас. При сжигании углеводородных соединений образуется оксид углерода, который, как выяснилось в конце прошлого века, ведет к глобальному потеплению из-за «парниковых» свойств этого трехатомного газа. Сжигание же водорода приводит к образованию безвредного водяного пара.

К концу 30-х годов Мамедалиевым были разработаны методы хлорирования метана до тетрахлорида углерода и получения метиленбромида. В военные годы он исследовал каталитическое алкилирование углеводородов непредельными соединениями, решив задачи производства толуола, других гомологов бензола и качественного авиационного топлива. В последний период жизни ученый проводил широкие исследования по каталитической ароматизации бензиновых фракций, направленному пиролизу и окислению различных нефтяных углеводородов с целью получения мономеров и моющих средств.

Важное стратегическое значение имели обоснование Мамедалиевым способов хлорирования, бромирования и фторирования нефтяных газов, разработка эффективных технологий производства толуола, высокооктанового бензина и полимеров.

Фундаментальным вкладом Мамедалиева в химию стало открытие способов управления реакцией хлорирования алканов, о котором он докладывал в Париже в 1960 г. на конгрессе по катализу.

Мамедалиева интересовали вопросы фармацевтики и медицинской химии. Еще в 30-е годы по просьбе Института паразитологии на основе хлористых соединений он создал препарат для борьбы с инфекционными болезнями, который широко применялся в Средней Азии и Закавказье. Мамедалиев одним из первых всесторонне исследовал

химический состав нафталановой нефти, определил ее лечебные свойства и заложил научные основы нафталановой курортологии.

Организатор науки. В веренице выдающихся ученых имен выделяются гении, обобщившие предшествующие мозаичные знания, поднявшие их на более высокий уровень. Им удавалось провести границу между знанием и незнанием и на этой основе ставить новые, неизведанные проблемы. Однако немногие из этих ученых обладали даром представлять и реализовывать научный поиск как совместную деятельность, как миссию коллективного разума отображать мир. Для них субъектом познания предстает не отдельный человек, а группа ученых. Ведь действительность бесконечна и многообразна. Даже кажущийся простым объект познания имеет множество уровней, неявных связей и отношений. Отдельный человек, несмотря на все способности и старания, не способен все это отобразить. В XX веке стало очевидно, что эффективность науки неизмеримо вырастет, если адекватно действительности организовать научный поиск. Для этого, кроме всего остального, необходим целостный, системный способ мышления. Став Президентом Академии наук, Юсуф Мамедалиев со всей полнотой сумел проявить эти свои замечательные способности. Он определил основные направления исследований в Республике в области естественных, социальных и гуманитарных наук.

Поразительно, что еще 70-80 лет назад природа, ресурсы, истоки культуры Азербайджана во многих отношениях оставались белыми пятнами для науки. Чтобы исследовать этногенез народа, его духовный мир, язык, литературу, искусство были созданы соответствующие подразделения, определены их основные цели и задачи. Особое внимание он уделил созданию Рукописного фонда и Института востоковедения, в исследованиях которых должны быть отражены исторически разносторонние связи азербайджанской культуры.

Конечно, приоритетными направлениями для Азербайджана оставались геология и химия. Мамедалиев поставил задачу создать научную основу превращения Азербайджана из сырьевой базы нефтедобычи в страну с развитой нефтеперерабатывающей промышленностью. Это предполагало интенсивное развитие нефтехимии, химической технологии. Вместе с тем он понимал необходимость основательного развития в Республике фундаментальных областей знания: математики, физики, астрономии. По его инициативе были созданы и оборудованы Шемахинская обсерватория и Вычислительный центр.

Деятельность в области образования. Мамедалиев рано познал особенности преподавательской деятельности. Он стал учителем в 16 лет. И даже будучи академическим ученым, он продолжал оставаться педагогом и просветителем. Мамедалиев не противопоставлял научную и педагогическую деятельность, как это наивно делают многие, он прозорливо видел их единство и эвристический характер взаимодействия. Он обратил внимание на то, что при систематизации известных знаний в образовательных целях ученый может выявить области неизвестного. Образование для него служило дополнительным источником постановки новых вопросов. Он предвидел интенсификацию связей между наукой и образованием, неизбежное уменьшение разрыва между ними.

Мамедалиев многое сделал для повышения качества образования в Азербайджане, содействовал обновлению знаний бывших выпускников высших учебных заведений на различных курсах. По его инициативе была создана Республиканская научно-техническая библиотека, учрежден на азербайджанском языке научно-популярный журнал «Наука и жизнь». Он считал, что образование в условиях беспрецедентного

развития науки не может быть «на всю жизнь», оно должно быть «непрерывным». Именно к этому призывает и современная программа ЮНЕСКО: «Образование через всю жизнь».

Встреча и борьба со злом. Юсуф Мамедалиев отличался принципиальностью, требовательностью, но по природе своей был справедливым и добрым человеком. В академической среде считали, что если ввести меру измерения доброты ученого, то ее эталоном может быть один «Ю.М.».

Добро, однако, всегда встречается со злом: в виде зависти людей, а также социальных неурядиц, войн и других подобных коллизий. Сложность социальных явлений и процессов, их противоречивый характер он осознал очень рано, когда произошло нашествие армянских дашнаков на его родной город. Это нарушило идиллию, которая царила в Ордубаде. Он стал свидетелем хаоса, массового бегства людей, бесчисленных трагических сцен. Ордубадцы, чтобы избежать насилия и геноцида, решили перейти Аракс и поселиться на территории Ирана. Лодок не хватало, и они из подручных средств спешно делали плоты. На одном из таких плотов уместилась вся семья Мамедалиевых. В середине реки плот попал в сильный водоворот. И брат Ильяс, сидевший на краю плота, не удержавшись, упал в воду. Спасать его бросились отец и старший брат. Но тщетно, он моментально исчез в темной пучине Аракса. Картина гибели брата, который был особенно близок Юсуфу, навсегда запечатлелась в его памяти. Для себя он решил, что будет жить и за брата, что должен творить, созидать и за него. Главное, что тогда усвоил Юсуф, - это то, что человеческая жизнь нуждается в защите от сил зла. Эта установка оправдывала его деятельность во время войны в деле обороны страны.

В первые месяцы войны с фашистской Германией немецкие самолеты безжалостно бомбили мирные города, советские же самолеты уступали им в наборе высоты и скорости. Перед ведущими химиками страны Государственным комитетом обороны была поставлена задача: создать качественно новый авиационный бензин с более высоким октановым числом. Мамедалиев, опираясь на свои предшествующие исследования, предложил простое, но эффективное решение данного вопроса. Бензин, получаемый по его технологии, повышал мощность авиационных двигателей на 20-30 % и был морозоустойчивым. Предложение Мамедалиева было одобрено, и он с группой сотрудников днем и ночью работал над его промышленной реализацией. Путь от лаборатории до производства был крайне сжат. Все понимали срочность решения данной проблемы. И вот уже над Сталинградом технически совершенные, считавшиеся лучшими истребителями своего времени «Мессершмитты» не могли угнаться за простыми советскими «Яками». «Яки» не только летали быстрее, но и поднимались гораздо выше. Более того, топливо в них не замерзало, они не падали на землю при сильных морозах. Немецкие инженеры потом наращивали мощности двигателей своих самолетов, создавали дополнительные устройства для утепления их топливной системы. От этого они становились тяжелее, прибавка в скорости и высоте оказывалась незначительной. «Тайну» советских самолетов немцы так и не смогли разгадать.

Велик вклад Мамедалиева в деле создания противотанковых орудий. Он видел в картинах кинохроники, слышал от очевидцев о безнаказанности немецких танкистов. Потери Советской Армии в начале войны были связаны также с нехваткой противотанковых орудий. Немецкие танки безнаказанно разрушали дома, утюжили окопы, охотились за людьми. Мамедалиев представлял ужас, который охватывал безоружного человека перед танком. И он предложил очень эффективное средство для борьбы с ними - синтезированную по его методике горючую смесь, 200 миллилитров

которой было достаточно, чтобы превратить любой танк в горящий факел. Так появился знаменитый «коктейль Молотова» - гроза немецких танков. Образное название ей (горючей смеси) дал Уинстон Черчилль, который впервые услышал от Молотова, что в СССР изобретено средство для уничтожения танков. Во время войны в СССР по технологии Мамедалиева был реализован массовый выпуск таких «коктейлей».

За вклад в победу над фашистской Германией академик Юсуф Мамедалиев был удостоен Сталинской премии, он был приглашен в качестве почетного гостя на Красную площадь на Парад Победы.

Однако и после войны ученый выполнял государственные задания по совершенствованию качества авиационного топлива, участвовал в разработке горючего для различного класса ракет, в создании других вооружений.

Ю.Мамедалиев был в числе «засекреченных» советских ученых. Многие его работы предназначались только для служебного пользования. К сожалению, это сыграло негативную роль, когда решался вопрос о выдвижении его на Нобелевскую премию за исследования в области хлорирования алканов. Научное сообщество единодушно поддерживало его кандидатуру. Однако по существующему тогда в стране положению, он как «засекреченный ученый» не мог быть выдвинут на получение Международной премии.

Жизнь в противоречивом обществе. В советское время, с одной стороны, декларировались высокие цели: строительство общества равенства, справедливости, изобилия. Всемерно поддерживалось развитие науки, образования, художественного творчества. Это вдохновляло людей, создавало оптимистическую духовную атмосферу… С другой же, путь в идиллическое общество представлялся как обязательная борьба с инакомыслием, национализмом, с врагами народа. Причем, эта борьба фетишизировалась, служила при надобности основой обвинения любого человека, что вело к беззаконию, к поощрению насилия. Зависть, свойственная ограниченным людям, в этих условиях создавала условия для доносительства и необоснованных репрессий. То, что зависть людей может привести к трагедиям, Мамедалиев убедился, когда начались аресты его сослуживцев. Он сам стал объектом слежки и «разработки» после того как выступил в защиту академика Гейдара Гусейнова, которого обвинили в национализме.

Обвинение в национализме было коварным и тяжелым, его трудно было опровергнуть. Всякое проявление национальных чувств вызывало подозрение, безосновательное обвинение в «национализме». В 30-е годы в Азербайджане на этой волне была репрессирована целая плеяда азербайджанской интеллигенции, среди них Микаил Мушфиг и Гусейн Джавид. Следует отметить, что этой участи не избежали и представители других Республик Советского Союза, в частности русская интеллигенция. Так, в начале 50-х годов было состряпано «Ленинградское дело», которое основывалось на обвинении руководства города в национализме. Сталин не пощадил даже академика, председателя Госплана, ленинградца Николая Вознесенского, все военные годы рука об руку проработавшего с ним.

В связи с надуманным делом Гусейнова был закрыт философский факультет в университете, что вызвало возмущение Мамедалиева. Это абсурдное решение он считал преднамеренным ограничением возможностей развития свободной мысли в Республике, национального самосознания а также поощрение бездумного технократизма.

Мамедалиев переживал, что во имя торжества вульгарно понимаемого интернационализма, по существу проповедуется манкуртизм, ведущий к утрате, забвению национальной памяти. Он оправданно считал, что подлинный интернационализм никак не может противостоять национализму, под которым он понимал любовь к своему народу, его истории и культуре.

В 50-60-е годы «националисты » уже не подвергались репрессиям, их не расстреливали: они проходили партийную чистку или умирали «естественной» смертью. Мамедалиев, зная обо всем этом, тем не менее продолжал выступать за внедрение азербайджанского языка в государственное делопроизводство, за исследование тюркских истоков азербайджанского народа и его культуры…

Идеи, пронизывающие XXI век. Общенациональный лидер Гейдар Алиев обоснованно считал: «Юсуф Мамедалиев имеет заслуги в развитии всех отраслей науки в республике. И эти заслуги незабываемы, о них помнят в настоящем и будут помнить в будущем».

Действительно, Юсуф Мамедалиев не просто остался в истории науки и культуры Азербайджана. Его научные идеи выверяют созидательный путь современников. Достаточно сказать о его размышлениях и доводах по прогнозированию времени активности синтезированных, искусственных соединений и последствий их разложения, о необходимости создания безотходных производств по аналогии с биосферными процессами, о целесообразности замещения в транспорте и промышленности углеводородного сырья водородом. Эти идеи чрезвычайно актуальны в наши дни, они будут определять стратегию развития науки в технологии в XXI столетии, поскольку нацелены на решение проблем экологии, изменения климата, создания «зеленой экономики», являющиеся предпосылками перехода современного общества к устойчивому развитию. Азербайджанская наука сегодня делает уверенные шаги в этом направлении…

Свою жизненную цель Юсуф Мамедалиев определил, когда ему было 20 лет:

«Из далеких краев,
по просторам дорог,
Не с тем я пришел,
чтобы покой обрести!
В сплетенный народом
свободы венок
Цветок свой
пришел вплести!…»

Можно однозначно сказать: поставленная в юные годы Юсуфом Мамедалиевым цель, несмотря на все перипетии жизни, была чрезвычайно достойно реализована.

Низами МАМЕДОВ
доктор философских наук, профессор, член Международной ассоциации писателей и публицистов, эксперт ЮНЕСКО

OXUCU RƏYİ

HEYDƏR HÜSEYNOV YARADICILIĞINA LAYİQLİ TÖHFƏ

AMEA Fəlsəfə və Hüquq İnstitutunun «Fəlsəfə və İctimai fikir tarixi» şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru Arzu Əşrəf qızı Hacıyevanın oxuculara təqdim etdiyi «Akademik Heydər Hüseynov» (Bakı, «Elm» nəşriyyatı, 2015 ci il) adlı əsəri• həqiqi mənada işıqlı kitablardandır. Çünki çoxdan bəri ehtiyac duyduğumuz və intizarında olduğumuz bir mövzuya, Azərbaycan fəlsəfə tarixinin bir elm kim bünövrəsini qoyan, xalqımızın görkəmli filosof oğlunun həyatı, fəaliyyəti və yaradıcılığına gur işıq salır. Monoqrafiya XXI əsrin sosio-mədəni inkişaf qanunauyğunluqları kontekstində mənəvi mədəniyyətin tarixi səpkidə dərki və yenidən dəyərləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Əvvəlcədən qeyd edək ki, o, Heydər Hüseynovun elmi və fəlsəfi yaradıcılığına XXI əsrdən boylanmaq, filosofun Azərbaycanın ictimai və fəlsəfi fikirinin sonrakı inkişafına sosial-fəlsəfi və ideoloji təsirinin hermenevtik metodologiya vasitələri ilə öyrənilməsi, bu istiqamətdə onun milli mənəvi-mədəni irsimizdəki rolunun və yerinin müəyyənləşdirilməsi baxımından bir çox məziyyətlərə malikdir.

Bu monoqrafiya Heydər Hüseynovun sosial-fəlsəfi görüşlərini, və bütövlükdə yaradıcılığını sistemli və əhatəli şəkildə ehtiva etmiş ilk fundamental tədqiqat əsəridir. Təqdirəlayiqdir ki, A.Hacıyeva Heydər Hüseynovun elmi-fəlsəfi fəaliyyətinin tədqiqindəki «pərakəndəliyə» son qoymuş, onun ideyalar aləminə, yaradıcılığına bütöv tam kimi yanaşmış, sistemləşdirmişdir. O, Heydər Hüseynov yaradıcılığının bütün başlıca məqamlarını, necə deyərlər, eyni məxrəcə gətirmiş, akademikin vahid elmi-fəlsəfi portretini yaratmağa müvəffəq olmuşdur.

Arzu Hacıyeva Heydər Hüseynovun yaradıcılığının şərhinə onun müasiri olduğu dövrün hərtərəfli elmi təhlilini verməklə başlayır. Məntiqi cəhətdən əsaslandırılmış struktura malik monoqrafiyanın «Qısa sürən ömür yolu: dövrün siyasi-ideoloji, elmi-mədəni və mənəvi mənzərəsində» adlandırılan birinci fəslində Heydər Hüseynovun həyat faktları kontekstində həmin dövrün sosio-mədəni mühitinin, humanitar fikrinin aydın mənzərəsi yaradılmışdır. Əsərdə Heydər Hüseynovun yaşayıb yaratdığı dövrün ideya-nəzəri əsasları müqayisəli təhlil edilmiş, bu dövr filosoflarının yaradıcılığını şərtləndirən sosial, ideoloji, əxlaqi, psixoloji, milli, mənəvi amillər araşdırılmışdır.

Qeyd etmək lazımdır ki, monoqrafiyada Azərbaycan tarixinin o zamankı ictimai, siyasi gerçəkliyinə, sosio-mədəni proseslərinə adekvat münasibət ifadə olunur. Müəllif dövrün «ideoloji hüdudlarını» nəzərə alaraq mühakimələr irəli sürür. O, dövrün nəbzini ustalıqla tutur. Heydər Hüseynovla yanaşı onun həmməsləklərinə də diqqət ayırır, dövrün elmi mühitini, yaradıcı ruhunu aydınlaşdırmağa cəhd edir və buna müvəffəq olur.

Əsərin bu fəslində dövrün görkəmli nümayəndələrinin yaradıcılığında fəlsəfi problemlərin üzə çıxarılmasına və təhlilinə də geniş yer verilmişdir. Müəllif həmin dövrdə yaşayıb yaratmış görkəmli elm xadimlərinin, ziyalıların xidmətlərini, elmi nailiyyətlərini nəzərə çatdırmaqla Heydər Hüseynovun fəaliyyət göstərdiyi, yaradıcılıqla məşğul olduğu konkret tarixi şəraitin, mühitin nəzəri modelini yaratmış olur.

Monoqrafiyanı oxuduqca müəllifin yüksək elmi etikaya malik olduğunu aydın sezmək mümkündür. A.Hacıyeva Heydər Hüseynov və onun müasirlərinin yaradıcılığını təhlil və

• Azərbaycan Milli Elmlər Akademiyasının 70-illiyinə həsr olunmuş bu monoqrafiyanın baş məsləhətçisi və elmi redaktoru akademik Akif Əlizadə, redaktoru isə professor İlham Məmmədzadədir.

təfsir edərkən əsərlərindəki nöqsan və qüsurları təkcə görmür, həm də anlamağa çalışır, dövrün, sosial məkan və zamanın yaratdığı konkret şəraitlə əlaqələndirir. O, tədqiqat obyektini zaman və məkanın fövqündə duran mücərrəd varlıq kimi nə idealizə edir, nə də yaradıcılığını dövrə uyğunlaşdırdığı üçün onu qınaq obyektinə çevirir.

Monoqrafiyanın ikinci fəsli ««Çap olunan şey qalacaqdır»: Alimin həyat amalı» adlanır. Bu fəsildə A.Hacıyeva Heydər Hüseynovun çoxşaxəli və zəngin irsini «vərəqləyir», müxtəlif qəbildən olan əsərlərini nəzərdən keçirir; filosofun Azərbaycan mədəniyyətinin, ictimai və fəlsəfi fikrinin görkəmli simalarına həsr etdiyi əsərlərini, müxtəlif məsələlərə dair publisist məqalələrini ətraflı və geniş təhlilə cəlb edir. Onun fikrincə, filosofun marksizm fəlsəfəsi və onun ayrı-ayrı problemlərinin şərhinə həsr olunmuş əsərləri bəhs edilən dövrün nəzəri səviyyəsini öyrənmək baxımından da qiymətli məxəzdir. Çünki Heydər Hüseynov yaradıcılığı konkret tarixi dövrün problemlərini, sosial, fəlsəfi məsələlərin qoyuluşu, təqdimatı, şərhetmə formalarını öyrənməyə imkan verdiyi üçün mühüm əhəmiyyət kəsb edir. A.Hacıyeva bu fəsildə filosofun dünyagörüşünə xas səciyyəvi xüsusiyyətlərini göstərmək üçün empirik-faktik materiallara müraciət edir. Heydər Hüseynovun çoxşaxəli yazılarından iqtibaslar gətirməklə filosof haqqındakı mühakimələrini dərinləşdirir. Monoqrafiyanın ikinci fəslindən aydın olur ki, Heydər Hüseynov yaşayıb yaratdığı dövrün problemlərinə ayıq nəzərlərlə baxmış, elmi, fəlsəfi diskussiyalarda fəal iştirak etmiş, marksist-leninçi fəlsəfənin orijinal şərhçilərindən biri kimi tanınmışdır.

Müəllif haqlı olaraq qeyd edir ki, Heydər Hüseynov «xalqı qarşısında öz tarixi vəzifəsini şərəflə yerinə yetirmişdi. Bugünkü uğurlarımıza görə, biz xalqa xidmət edəcəyinə və doğruluğuna əmin olduğu iş barəsində yuxarıdan göstəriş, «sanksiya» gözləməyib özünü odun-alovun içinə atan qorxmaz, məğrur Heydər Hüseynov kimi şəxsiyyətlərimizə borcluyuq» (s. 127).

Monoqrafiyanın «Azərbaycan fəlsəfəsi elm kimi: Alimin hünər meydanı» adlanan üçüncü fəslində Heydər Hüseynov yaradıcılığının şah əsəri hesab olunan «Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən» kitabı (1949) xüsusi tədqiqat predmetinə çevrilir. A.Hacıyeva müəllifinə şöhrət gətirib, sonda ölümünə bais olan, əbədi zaman daxilində əslində ona mənəvi ölümsüzlük bəxş edən bu məşhur kitabın tarixi taleyi ilə bağlı bütün təfərrüatlara işıq salır. Heydər Hüseynovun müasirləri – zəmanəsinin adlı-sanlı ziyalılarının (İ.Kraçkoski, K.S.Bakradze, N.Musxelavşili, Q.V.Xaçapuridze, N.K.Dimitriyev, L.İ.Klimoviç, A.O.Makolevski, Məmməd Arif Dadaşzadə, Mirzə İbrahimov, Mehdi Hüseyn, A.A.Fadeyev) kitab haqqındakı müsbət fikir və rəylərini, cəmiyyətdə ona münasibətin mənfiyə doğru qəfil dəyişməsinin siyasi, ideoloji, subyektiv və i.a. səbəblərini, nəhayət, bu əsərin ictimai-fəlsəfi və bədii fikrin sonrakı inkişafına təsirini əsaslı şəkildə təhlil edir.

A.Hacıyeva eyni zamanda Heydər Hüseynovun faciəli taleyinin ictimai fikirdə doğurduğu əks-sədanı diqqətdə saxlayır. O, məşhur bəstəkar İsaak Dunayevskinin yaxınlarına yazmış olduğu bir məktubda Heydər Hüseynovun intiharından necə mütəəssir olduğunu göstərməklə, dövrün yaradıcı ziyalıları arasında hökm sürən ağır mənəvi-psixoloji durumu, ümidsizlik əhval-ruhiyyəsini əks etdirir.

Yeri gəlmişkən, mən də A.Hacıyevanın belə bir fikrinə tam şərikəm: Sovet «optimizmi» prinsiplərinə söykənən mənəvi ideallara inamı sarsılmış, vəzifələrindən uzaqlaşdırlmış, «bütün varlığı ilə sevdiyi işlərinə, yaradıcılığa qayıtmağa iynənin ucu qədər də inamı qalmayan, üstəlik həbsə alınaraq yenidən alçaldılmaq, təhqir olunmaq, ona görə dostlarının, ailəsinin güdaza getməsi təhlükəsi ilə real şəkildə qarşı-qarşıya duran Heydər Hüseynov üçün həyat həqiqətən mənasını itirmişdi və intihar etməsi həqiqətən onun şəxsi azadlıq aktını təmsil edirdi» (s. 12).

A.Hacıyeva monoqrafiyanın üçüncü fəslində Heydər Hüseynovun «Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən» kitabında qaldırılan, demək olar ki, bütün problemləri çözələyir, ilkin mənbələrə, tarixi məxəzlərə müraciət edərək müqayisəli təhlillər aparır. Əsər boyu, o, Heydər Hüseynovun tədqiqatçılıq ustalığını və intellektual səviyyəsini dönə-dönə vurğulamaqla yanaşı, dövrün naqisllikləri ilə bağlı qüsurları da üzə çıxarır. Tədqiqatçı alim A.Hacıyeva Heydər Hüseynovun sovet quruluşu illərində hər şeyə, bütün fəaliyyət növlərinə hakim kəsilmiş metodoloji, nəzəri və ideoloji doqmatizm hüdudları ilə müəyyən edilmiş stereotiplərdən kənara çıxmamaq şərtilə Azərbaycanın mənəvi mədəniyyət irsinə və bu irsi yaratmış görkəmli şəxsiyyətlərin – alimlərin, filosofların, yazıçıların yaradıcılığına münasibətini bütün cəhətləri ilə birgə tədqiq və təfsir edir. O, Heydər Hüseynovun Nizami Gəncəvi, Məhəmməd Füzuli, Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Kazım bəy, M.F.Axundov, Həsən bəy Zərdabi kimi mütəfəkkirlərin əsərlərindən gətirdiyi iqtibaslarda müasiri olduğu dövrün bəzi "sosial mərəzlərinin" tənqidinə dair gizli eyhamlardan xəbər verir.

Tədqiqatın dərinliyini göstərmək üçün əyanilik xatirinə bir epizodu xatırladaq. A.Hacıyeva Heydər Hüseynovun Füzulinin fəlsəfi görüşləri haqqında təsəvvür oyatmaq üçün onun «Mətləül-etiqad» traktatından gətirdiyi bir iqtibasda yanlışlıq tapır. İqtibasda Heydər Hüseynov qədim yunan filosofu miletli Falesin ilk ünsürün su olması, torpaq, od və havanın ondan törəməsi barəsindəki fikrindən sonra üç nöqtə qoyub, əlavə etmişdir: "Onun (Falesin – H.H.) taxtı suyun üzərində idi». «Onun» sözünü H.Hüseynovun Falesə aid etməsinin qəribəliyi onu həmin yeri əsərin Zərrinəzadənin tərcüməsi ilə müqayisəyə sövq edir. Və aşkara çıxarır ki, «Onun» sözü əslində Falesə yox, Allaha aid imiş. Belə ki, «Onun ərşi su üzərində idi» sözləri Quranın Hud surəsinin 7-ci ayəsindəndir. Arzu Hacıyeva əvvəlcə, həmin ayənin tam mətni əsasında («Ərşi su üzərində ikən hansınızın daha gözəl əməl (itaət) sahibi olacağınızı sınayıb bilmək üçün göyləri və yeri altı günə yaradan Odur. …» (surə 11, ayə 7)) diqqəti Füzulinin Falesin mülahizəsi ilə Allahın Sözü arasında bənzəyiş tapmasının məntiqliliyinə cəlb edir, çünki ayədən, suyun Allahın altı günə yaratdığı göylərdən və yerdən əvvəl mövcud olduğu aydın görünür. Daha sonra H.Hüseynovun səhvinin müxtəlif mümkün səbəblərini araşdırır. Sonda belə nəticəyə gəlir ki, bu, taktiki mülahizə ilə, yəni bilərəkdən yol verilmiş səhvdir, çünki kortəbii materialist olan filosof Falesin fikirlərinin Quran ayəsi ilə sübut və təsdiq edilməsi ateist dövlətində yolverilməz idi və Füzulinin özünü hörmətdən sala bilərdi (s. 169-170).

Kitabda belə təfsir məqamları çoxdur.

Monoqrafiyada çoxlu sayda elmi və bədii ədəbiyyata, o cümlədən ilk mənbələrə, yeni elmi məlumatlara istinad olunmuşdur. A.Hacıyeva Heydər Hüseynovun həyat və fəaliyyətinə həsr edilmiş məqalə və yazıları diqqətdən kənarda saxlamır, onlara öz münasibətini bildirir, təhlil və təfsir vasitəsilə tədqiqat obyektinin təsvirinə yeni ştrixlər əlavə etməklə onun tamamlanmış portretini yaratmağa nail olur.

Təqdirəlayiq haldır ki, müəllif Heydər Hüseynov yaradıcılığına bu və ya digər dərəcədə toxunmuş tədqiqatçıların fikirlərinə hörmətlə yanaşır, adekvat şəkildə əks etdirir. Bu baxış bucağından H.Hüseynov haqqında Z.Quluzadənin, C.Əhmədlinin və digərlərinin elmi araşdırmaları ətraflı təhlil edilir.

Bütövlükdə A.Hacıyeva əsərində Heydər Hüseynovun irsini nəzəri, ideoloji, metodoloji plüralizm prinsiplərinə söykənərək, xüsusilə hermenevtik metodologiyanın imkanlarından istifadə etməklə adekvat tədqiqat aparmağa müvəffəq olmuşdur. «Akademik Heydər Hüseynov» onun səmimi hisslərinin məcmusundan yaranmışdır. Müəllif tədqiqat predmetini sevərək öyrənir. Məhz bu sevgi, Heydər Hüseynov şəxsiyyətinə ehtiram müəllifin mövzuya yanaşma üslubunu müəyyənləşdirir.

Monoqrafiyanın «Sözardı» adlanan hissəsində müəllif haqlı olaraq qeyd edir ki, «Burada söhbət təkcə tənqiddən və ya tərifdən getmir, mətnin mənasını hər hansı konsepsiyaya uyğunlaşdırmaqdan yaxud onda istədiyini tapmaqdan yox anlamaqdan, həm də təkcə bəyəndiyini deyil, səhv hesab etdiyini, razılaşmadığını da anlamaqdan gedir, digər tərəfdən, dövrlər arasında körpü yarada bilir. ...Çünki hər bir şair, ədib, mütəfəkkir yaşadığı zamanın təkrarolunmaz ruhunu daşıyır, onun əsərlərində mühitin digər dövrlər üçün anlaşılmaz ola bilən izləri öz əksini tapır» (s. 212).

Monoqrafiya ciddi elmi və tədqiqi maraq doğurur. Çünki monoqrafiyada qoyulan bir sıra yeni problemlər, şübhəsiz, bu istiqamətdə sonrakı tədqiqatçılar üçün araşdırma obyektinə çevrilə və perspektivdə bu səpkidə aparılacaq tədqiqatlar üçün səmərəli zəmin ola, gələcəkdə ictimai və fəlsəfi fikir tarixinə dair monoqrafik və kollektiv əsərlər üçün faydalı nəzəri və metodoloji əsas rolunda çıxış edə bilər.

Yekunda vurğulamaq istərdik ki, Arzu Hacıyevanın «Akademik Heydər Hüseynov» mövzusundakı monoqrafiyası orijinal, sanballı əsər kimi məmnunluq hissi doğurur, böyük maraqla oxunur. Bu monoqrafiya Azərbaycanın fəlsəfə və ictimai fikir tarixinin tədqiqinə, bütövlükdə mənəvi mədəniyyətimizə qiymətli töhfədir.

Vaxtilə böyük fransız mütəfəkkiri Volter çox incə bir məqama toxunaraq demişdi: «Yaxşı kitabı birinci dəfə oxuyarkən, bizə elə gəlir ki, özümüzə yeni dost qazanmışıq. Artıq oxuduğun kitabı yenidən oxumaq – köhnə dostla yenidən görüşməkdir». Elmi ictimaiyyət tərəfindən maraqla qarşılanan monoqrafiya, zənnimizcə, «köhnə dost»a çeriləcək, Heydər Hüseynov sevərlərin stolüstü kitabı olacaqdır.

Afaq MƏMMƏDOVA
ADİU-nun dosenti,
fəlsəfə üzrə fəlsəfə doktoru

ELMİ HƏYAT

* * *

Sofia-Antipolis Universitetinin (Fransa, Nitsa şəh.) Hüquq və Siyasi Elmlər fakültəsində AMEA Fəlsəfə və Hüquq İnstitutu ilə birgə "İnsan ləyaqəti" nə həsr olunmuş Beynəlxalq Konfrans keçirilmişdir. Konfransda Fəlsəfə və Hüquq İnstitutunun direktoru, fəlsəfə ü.e.d., professor İlham Məmmədzadə "Müasir Azərbaycan maarifçiliyi insan problemi kontekstində", institutun əməkdaşlarından filologiya ü.f.d. Zöhrə Əliyeva "İslamda qadının şərəf və ləyaqəti", hüquq ü.e.d., professor İsaxan Vəliyev "Azərbaycanda insanın şərəf və ləyaqətinin hüquqi təminatı", fəlsəfə ü.f.d. Elsevər Səmədov "İslamda insan problemi: müasir İslam düşüncəsində İslam ləyaqəti konsepsiyası" mövzuları ilə çıxış etmişlər. Konfransdan əvvəl İlham Məmmədzadə, Zöhrə Əliyeva və İsaxan Vəliyevə təntənəli şəkildə Sofia-Antipolis Universitetinin fəxri professoru adı verilmişdir.

* * *

Venesiya şəhəri Ka Foskari Universitetində "Multikulturalizmin Azərbaycan və İtaliya perspektivləri"nə həsr olunmuş Beynəlxalq Konfrans keçirilmişdir. Tədbiri açan Ka Foskari Universitetinin birinci prorektoru Tiziana Lippiello təmsil etdiyi təhsil ocağında Azərbaycan dilinin və mədəniyyətinin tədrisini yüksək qiymətləndirib. Diqqətə çatdırıb ki, italiyalı alim və tədqiqatçılar Azərbaycan dili və mədəniyyətini araşdırmağa böyük maraq göstərirlər. Bu, ölkələrimiz arasında əməkdaşlığın genişlənməsindən xəbər verir.

Azərbaycanın multikultural dəyərlərin kök saldığı ölkə olduğunu qeyd edən T.Lippiello vurğulayıb ki, belə tədbirlər vasitəsilə bu ölkənin mədəniyyətlərarası dialoqa verdiyi töhfə ilə yaxından tanış olmaq imkanı əldə edilir. Tədbirdə AMEA FHİ-nin direktoru, professor İlham Məmmədzadənin "Azərbaycanda multikulturalizm və mədəniyyətlərarası dialoq", Ka Foskari Universitetində azərbaycanşünaslıq fənnini tədris edən dil və ədəbiyyat üzrə professor Campiyero Bellincerinin "Multikulturalizmin retro perspektivləri", Ka Foskari Universitetinin Asiya ölkələri üzrə professoru Antonio Riqopoulosun "Multikulturalizmin əsas komponentləri", AMEA FHİ-nin beynəlxalq əlaqələr şöbəsinin müdiri, fəlsəfə doktoru Zöhrə Əliyevanın "Dinlərarası dialoqun fəlsəfi aspektləri", Ka Foskari Universitetinin Qafqaz üzrə professoru Aldo Ferrarinin "Cənubi Qafqazda multikulturalizm", AMEA-nın böyük elmi işçisi, fəlsəfə doktoru Zemfira Məmmədzadənin "Azərbaycanda maarifçiliyin iki mərhələsi" və AMEA FHİ-nin hüquq şöbəsinin müdiri, professor İsaxan Vəliyevin "Hüquq mədəniyyəti mədəniyyətlərarası dialoqun açar komponenti kimi" mövzularında məruzələri dinlənilib. Konfransda çıxış edən səfirliyimizin əməkdaşı Samir Allahverdiyev müzakirə edilən mövzunun Azərbaycan üçün prioritet məsələlərdən biri olduğunu bildirib. O deyib ki, əhalisinin əksəriyyətini müsəlmanların təşkil etdiyi Azərbaycanın Konstitusiyasına əsasən ölkədə dinindən asılı olmayaraq hər bir vətəndaş bərabər hüquqlara malikdir. Azərbaycanda müxtəlif dinlərin nümayəndələri harmoniya halında birgəyaşayış nümayiş etdirirlər.

* * *

AMEA FHİ-də Ulu Öndər, görkəmli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışının 22-ci ildönümü – "Azərbaycan xalqının Milli Qurtuluş günü" münasibəti ilə dəyirmi masa keçirilib. Tədbiri giriş sözü ilə açan institutun direktoru, fəlsəfə ü.e. d., professor İlham Məmmədzadə Milli Qurtuluş Gününün dövlətçilik tariximizə dönüş nöqtəsi kimi daxil olduğunu qeyd etdi. Natiq bildirdi ki, 22 il əvvəl - xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev böyük xilaskarlıq missiyasını öz üzərinə götürməklə xalqımızın, dövlətçiliyimizin sonrakı taleyində həlledici mərhələnin təməlini qoydu. Sonra institutun elmi işlər üzrə direktor müavini, hüquq ü.e.d. Bəhram Zahidov Qurtuluş Gününün mahiyyətindən danışaraq bu günün əhəmiyyətini diqqətə çatdirdi. Daha sonra çıxış edənlərdən fəlsəfə ü.e.d., əməkdar elm xadimi Rəfiqə Əzimova, hüquq ü.e.d. Xaliq Əhmədzadə, ümumi işlər üzrə direktor müavini Qabil Camalov və çıxış edən digər natiqlər də 1993-cü il 15 iyunu tarixi qayıdış kimi qiymətləndirdilər.

* * *

Məlum olduğu kimi, 18 iyun ölkəmizdə Milli İnsan Hüquqları günü kimi qeyd edilir. Bu münasibətlə AMEA FHİ-nin "Dövlət və hüquq nəzəriyyəsi, mülki hüququ və mülki proses" şöbəsinin əməkdaşları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18.06.2007-ci il tarixli Sərəncamına uyğun olaraq "İnsan Hüquqları günü" ilə əlaqədar olaraq respublikamızın müxtəlif bölgələrində əhali ilə görüşlər keçiriblər. Görüşlər zamanı institut əməkdaşları Azərbaycanda insan hüquqlarının qorunmasına yüksək diqqətin göstərilməsi, müstəqillik dövründə insan hüquq və azadlıqlarının qorunması sahəsində əldə olunan irəliləyişlər, eyni zamanda ölkədə hamı üçün bərabər imkanların yaradılması və hüquqların təmin edilməsi barəsində çıxışlar ediblər. Həmçinin Lənkəran, Cəlilabad, Biləsuvar, Salyan, Xaçmaz, Quba, Şabran, İsmayıllı, Abşeron və Bakı şəhərinin Qarabağ və Binəqədi rayonlarının əhalisinin müxtəlif təbəqələri ilə 15 görüş keçirən institut əməkdaşları əhalini maraqlandıran problemlər və sualları cavablandırıblar.

* * *

18-19 aprel 2015-ci il tarixlərində İstanbulda Dünya Azərbaycanlıları Konqresinin XIII qurultayı keçirilib. Qurultaya dünyanın bir çox ölkələrindən, xüsusilə ABŞ, Avstraliya, Almaniya, İsveçrə, Türkiyə, Rusiya, Almaniya, Ukrayna, Gürcüstan, Polşa, Çexiya, İraq, Şimali Kipr Türk Respublikası da daxil olmaqla nümayəndələr iştirak ediblər. DAK-ın XIII qurultayına AMEA FHİ-nin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərov da dəvət edilmişdi. Qurultayda "Azərbaycan xalqının və Türk Dünyasının milli-mənəvi birliyi və inkişafı yolunda göstərdiyi xidmətlərinə görə Dünya Azərbaycanlıları Konqresinin təşəkkür bəlgəsi ilə təltif" olunan Faiq Ələkbərov çıxışında bildirb ki, Türk Dünyası yeni bir mərhələyə qədəm qoymuşdur. Ona görə, XXI əsrdə türklərin yenidən toparlanması və əcdadlarına layiq övladlar kimi özlərini ifadə etmələrinin zamanıdır. DAK-ın Qurultayın sonunda Məşvərət Məclisinə yeni üzvlər seçilmişdir ki, onlardan biri də Faiq Ələkbərov olmuşdur.

* * *

AMEA FHİ-nin aparıcı elmi işçisi, fəlsəfə doktoru Faiq Ələkbərov 23-24 aprel 2015-ci il tarixlərində Türkiyənin Tekirdağ vilayətində keçirilmiş "Çanaqqala döyüşlərində Tekirdağ" mövzusunda beynəlxalq simpoziumda iştirak edib. Tekirdağ Böyükşəhər Bələdiyyəsi Mədəniyyət və Sosial İşlər Dairə Başçılığının təşkil etdiyi simpoziumda F.Ələkbərov "Çanaqqala müharibəsində mübarizə aparmış Azərbaycan Türk ziyalıları" adlı məruzəsi ilə çıxış edib. O məruzəsində bildirib ki, Birinci Dünya Müharibəsinin gedişatını dəyişən bu döyüşlər Türkiyə qədər Azərbaycan tarixində də mühüm rol oynayıb. Çanaqqala müharibəsində iki qardaş ölkənin əsgərləri birlik nümayiş etdirərək döyüş meydanında mübarizə apardıqları bir zamanda Məhəmməd Əmin Rəsulzadə, Ömər Faiq Nemanzadə, Əhməd Cavad, Yusif Ziya Talıbzadə, Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev kimi azərbaycanlı ziyalılar və milyonçular da Türkiyəyə maddi və mənəvi yardımlarını əsirgəməyiblər.

* * *

AMEA FHİ-nin bir qrup alimi H.Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın "Xocalıya ədalət" kampaniyasına qoşularaq Türkiyə Cümhuriyyətinin Qazi, İstanbul, Məlikşah və Zirvə Universitetlərində, Ankara Strateji İnstitutunda silsilə görüşlər keçirmiş, mühazirələr oxumuş, sualları cavablandırmış və Anlaşma Memorandumları imzalamışlar. Türkiyənin və Azərbaycanın kütləvi informasiya vasitələri bütün bu tədbirləri geniş formada işıqlandırmış, nümayəndə heyətinin bütün üzvləri öz elmi uğurlarına görə mükafatlandırılmışlar. Səfər zamanı AMEA Fəlsəfə və Hüquq İnstitutu direktorunun elmi işlər üzrə müavini, hüquq ü.e.d., professor Bəhram Zahidovun "Xocalı soyqırımı – hüquqi baxış", "Beynəlxalq hüquqda soyqırım cinayətlərinə görə məsuliyyət", "Türkiyəyə qarşı – uydurma erməni soyqırımı iddialarına Xocalı şəhərindən hüquqi baxış" və s. bu kimi elmi məruzə və çıxışları böyük marağa səbəb olmuşdur.

* * *

Ümummilli lider, görkəmli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə və Azərbaycan Respublikası Konstitusiyasının 20 illiyinə həsr edilmiş "Hüquqi, demokratik dövlət: nəzəriyyə və təcrübənin aktual problemləri" mövzusunda 1 may 2015-ci il tarixdə keçirilən III Beynəlxalq Elmi Konfransın işində Rusiyanın, Belorusun, Ukraynanın, Almaniyanın, Makedoniyanın, Türkiyənin və bir sıra digər ölkələrin görkəmli alimləri və ictimai-siyasi xadimləri iştirak etmişdir. Konfrans beynəlxalq səviyyədə böyük marağa səbəb olmuşdur.

* * *

AMEA FHİ-də Azərbaycan Milli Elmlər Akademiyasının 70 illiyinə həsr olunmuş iclasda ölkə prezidenti cənab İlham Əliyevin məruzəsi ilə əlaqədar olaraq "Fəlsəfə və Hüquq İnstitutu qarşısında duran vəzifələr və onların həlli yolları"na həsr olunmuş ümumi iclas keçirilmişdir.

İclası giriş məruzəsi ilə açan institut direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə Milli Elmlər Akademiyasının 70 illik yubileyinin yüksək səviyyədə keçirilməsi barədə ətraflı məlumat vermişdir. O qeyd etmişdir ki, yubiley tədbirlərində ölkə Prezidenti cənab İlham Əliyevin proqram əhəmiyyətli, dərin məzmunlu məruzəsi alimlər

qarşısında yeni və mühüm vəzifələr qoymuşdur. Elmin inkişafı üzrə yeni dövr üçün strategiyanın və Dövlət Proqramının hazırlanmasının vacibliyi əsaslandırılmışdır. Qeyd olunmuşdur ki, bu Proqramın fəlsəfə və hüquq elmlərinə aid olan hissəsi institutumuzun alimləri tərəfindən kompleks şəkildə hazırlanmalı və həyata keçirilməlidir. O əsaslandırmışdır ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz məruzəsində humanitar və ictimai elmlər sahəsində əldə edilmiş nailiyyətlərə yüksək qiymət verərək ölkəmizin hazırda dünyanın multikulturalizm mərkəzinə çevrilməsini qürur hissi ilə vurğulamış, multikulturalizmin tarixinin, müasir vəziyyətinin, inkişaf meyillərinin tədqiq olunmasını alimlər qarşısında bir vəzifə kimi irəli sürmüşdür. Azərbaycan dilinin inkişafı, qorunub saxlanması, tətbiqi sahəsində müstəqillik illərində mühüm tədbirlər həyata keçirilsə də, ölkə Prezidenti bu işlərin daha da genişləndirilməsini və qətiyyətlə həyata keçirilməsini vacib hesab etmişdir. Cənab Prezident öz çıxışında gələn il Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25 illiyinin tamam olacağını xüsusi olaraq vurğulamış, müstəqillik tariximizin müxtəlif elm sahələri tərəfindən araşdırılmasını, təhlil edilməsini və sanballı monoqrafiyaların yazılmasını vacib hesab etmişdir. Buna görə də biz fəlsəfə və hüquq elmlərinin tarixini, müasir vəziyyətini və perspektivlərini yenidən hazırlamalı və ayrıca monoqrafiya buraxılmasını təmin etməliyik. İnstitutumuzun 70 illik yubileyi ilə əlaqədar olaraq da biz yeni bir kitab hazırlamalı, əsaslı struktur dəyişiklikləri aparmalıyıq.

Akademiyanın Rəyasət Heyəti tərəfindən qəbul olunmuş "Müasir dünya fəlsəfəsi kontekstində Azərbaycan fəlsəfəsinin prioritetləri" barədə 20 may 2015-ci il tarixli 1 №-li Qərarında nəzərdə tutulan vəzifələrin həyata keçirilməsi də vacibdir. Ulu Öndər Heydər Əliyevin "Azərbaycançılıq ideologiyasının multikulturalizm modeli", "Azərbaycançılıq məfkurəsində mültikulturalizm modelinin nəzəri konseptual əsasları", "Azərbaycanda multikulturalizm və tolerantlıq: fəlsəfi və hüquqi baxış" mövzularında araşdırmaların aparılmasına diqqət artırılmalıdır. Hüquq ixtisasları üzrə də kompleks tədbirlər planı hazırlanıb həyata keçirilməsi qarşıya mühüm vəzifələr kimi qoyulmuşdur.

Hüquqi dövlət quruculuğu mərhələsində institutun qarşısında duran vəzifələr barədə institut direktorunun elmi işlər üzrə müavini, hüquq ü.e.d., professor Bəhram Zahidov məruzə etmiş və ölkə Prezidenti cənab İlham Əliyevin yubiley tədbirlərindəki çıxışı ilə əlaqədar olaraq kompleks tədbirlərin hazırlanıb həyata keçirilməsinin vacibliyini əsaslandırmışdır. Sonra çıxış edən fəlsəfə ü.e.d. Füzuli Qurbanov elmlərarası, fənlərarası tədqiqatların vacibliyi və əhəmiyyəti barədə danışaraq multidisiplinar baxımdan yeni elmi metodların tətbiqini vacib hesab etmişdir.

Daha sonra iclasda elmi katib, f.ü.f.d. Səidə Əliyeva, elmi işlər üzrə direktor müavini f.ü.f.d., dosent Roida Rzayeva, f.ü.e.d. Rəna Mirzəzadə, h.ü.e.d., prof. İsaxan Vəliyev, h.ü.e.d. Mirağa Cəfərov, h.ü.e.d., prof. Habil Qurbanov və başqaları çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin məruzəsindən irəli gələn vəzifələrin vaxtında, keyfiyyətli və yüksək səviyyədə icrasını vacib hesab etmişlər.

* * *

Qazaxıstanın paytaxtı Astanada Beynəlxalq Sosioloji Forum keçirilmişdir. Forumu Qazaxıstan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini B.Maylıbayev açaraq Forum iştirakçılarını salamlamış və forumun işinə uğurlar arzulamışdır. Qazaxıstan Respublikası Elm və Təhsil naziri A.Şarinjipovun çıxışından sonra söz alan digər dövlət rəsmiləri öz arzu və fikirlərini çatdırmışlar. Plenar iclasda prof. Z.Şaykenova, prof. Y.Zdravomıslova, prof. L.Qureviç, prof. İ.Məmmədzadə, prof. J.Kusmanqaliyeva, prof. İ.Kotlyarov, prof. A.Zabirova, prof. B.Kozlevskiy, prof. A.Sadvokasova və b. məruzələrlə çıxış etmişlər. Məruzələrdə liderlik təşəbbüslərinin aktual tədqiqatları, sosiologiyanın

statusunun artırılması, fənlərarası tədqiqatlarda sosiologiyanın yeri, müasir sosiologiya mövzuları, gənclərin əmək bazarına adaptasiyası, sivilizasiya yollarının axtarışı, etnososial mühit və s. məsələlərə toxunulmuş, maraqlı müzakirələr olmuşdur. Sonra Forum öz işini panel sessiyalarda davam etdirmişdir.

* * *

AMEA FHİ-nin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Faiq Ələkbərov 25-26 aprel 2015-ci il tarixlərində Türkiyənin İstanbul şəhərində sayca dördüncü dəfə keçirilmiş "İslami-Türk ədəbiyyatı" simpoziumunda iştirak edib. Türkiyənin "Yağmur" dil, mədəniyyət və ədəbiyyat jurnalının təşkil etdiyi tədbirdə Faiq Ələkbərov "Azərbaycan ədəbiyyatında Qurani-Kərim" adlı məruzəsi ilə çıxış edib. O, XIX əsrin sonu XX əsrin əvvəlində Azərbaycan ədəbiyyatında Qurani-Kərimin bədii-fəlsəfi dərkinə aid fikirlərin daha çox yer aldığını bildirib. F.Ələkbərov bu dövrdə Şeyx Cəmaləddin Əfqani, Məhəmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu kimi Azərbaycan ziyalılarının bu istiqamətdə gördükləri işlərindən danışıb.

* * *

6-8 may 2015-ci il tarixlərində Türkiyənin Ərzurum şəhərində Atatürk Universitetində keçirilmiş «Sevk ve İskân Kanunu'nun 100. Yılında II. Uluslararası Türk-Ermeni İlişkileri ve Büyük Güçler Sempozyumu»nda AMEA FHİ-nin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərov da iştirak edib. F.Ələkbərov simpozumda «XX yüzildə Türkiyədə və Azərbaycanda "Erməni məsələsi"ndə Xristian birligi faktoru» mövzusunda çıxış edib. O bildirib ki, Türkiyə və Azərbaycan torpaqları hesabına «Böyük Ermənistan» yaratmaq üçün ilk növbədə, ermənilər özlərini «yazıq və bədbəxt millət» şəklinə salaraq Rusiya, Fransa, İngiltərə, ABŞ və başqa super dövlətlərin timsalında güclü himayədarlar axtarmağa başlayblar. Məruzə simpozium iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

* * *

Rusiya Federasiyası Başqırdıstan Respublikasının paytaxtı Ufa şəhərində Rusiya filosoflarının VII Konqresi keçirilmişdir. Konqresdə Rusiyanın, MDB-nin və digər xarici olkələrin 1000-dən artıq nümayəndəsi iştirak etmişdir. AMEA FHİ-nin "Müasir fəlsəfə problemləri" şöbəsinin aparıcı elmi işçisi fəlsəfə ü.f.d. Rövşən Hacıyev Konqresin işində fəal iştirak edərək, iki bölmədə ("Tarixin fəlsəfəsi" və "Sosial fəlsəfə" bölmələrində) və iki («Etnosun fəlsəfəsi» və «Bəşəriyyət hara gedir?») dəyirmi masada çıxış etmişdir. R.Hacıyevin çıxışları maraqla dinlənilmişdir. Konqresin son günündə keçirilmiş yekun toplantıda "Sosial fəlsəfə" bölməsinin moderatoru professor C.B.Tokareva R.Hacıyevin çıxışını xüsusi olaraq qeyd etmiş, mövzunun ("Tarixi prosesin bir qanunauyğunluğu haqqında") orijinallığından söhbət açmışdır.

* * *

AMEA FHİ-də "Dünyanın mənzərəsi və çağırışlar" mövzusunda keçirilən seminarı giriş sözü ilə AMEA FHİ "Sosiologiya və və sosial psixologiya" şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru, əməkdar elm xadimi Rəfiqə Əzimova açaraq geniş məruzə ilə çıxış etmişdir. R.Əzimova məruzəsində bir sıra problemlərlə yanaşı, sivilizasiyaların böhran

vəziyyətinə düşməsi, ekoloji sistemin vəziyyəti, yeni elmi paradiqmaların və təfəkkür tərzinin transformasiyası və s. mövzular haqqında geniş məlumat vermişdir. R.Əzimova bu problemlərin həlli istiqamətində elmi işlərin aparılması üçün təkliflərini vermişdir.

Sonra çıxış edən AMEA FHİ-nin direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə mövzu ətrafında çıxış edərək qoyulan problemlərə öz münasibətini bildirdi. Natiq həmçinin, bu məsələlərə diqqətin artırılmasını və bu problemlərin həllinə elmi yanaşmanın vacib olduğunu bildirib. Daha sonra çıxış edən institutun alimləri də qoyulan mövzu ətrafında çıxış edərək problemin həlli yolları barəsində fikir və təkliflər irəli sürmüşlər.

* * *

7-9 may 2015-ci il tarixlərində Türkiyənin Çorum şəhərində Hitit Universitetində IV Uluslararası Türk Dünyası Ekonomi Forumu keçirilib. Həmin forumda iştirak edən AMEA FHİ-nin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərovun «İsmayıl bəy Qaspıralının "dildə, fikirdə və işdə birlik" fəlsəfəsi və Türik Dünyası» mövzusundakı məruzəsi maraqla qarşılanmışdır. Azərbaycan alimi bildirib ki, Qaspıralı siyasi-ideoloji baxışlarına görə daha çox liberalist olub, daha çox Rusiya birliyi çərçivəsində türklərin milli-mədəni muxtariyyətinə və birliyinə çalışmışdı. Hətta, o, bu baxışlarına görə digər türkçü ideoloqlar tərəfindən dəfələrlə tənqid də olunmuşdur. Maraqlıdır ki, Qaspıralı İstanbulda «Gənc türklər» («İttihad və tərəqqi» partiyası) tərəfindən Məclis üzvlüyünə namizəd kimi irəli sürülməsini də qəbul etməmişdir. F.Ələkbərov bugün də Qaspıralının ideyalarının öz əhəmiyyətini saxladığını və daima da saxlayacağına inamımı ifadə edib.

* * *

13-14 may 2015-ci il tarixlərində Türkiyənin Bartın şəhərində Bartın Universitetində keçirilmiş «Geçmişten Günümüze Ahlak" Sempozyumu»nda Azərbaycanı AMEA FHİ-nin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərov təmsil etmişdir. Həmin simpoziumda F.Ələkbərovun «Milli əxlaqın formalaşmasında «Ailə fəlsəfəsi»nin rolu» mövzusundakı məruzəsi maraqla qarşılanmışdır. O məruzəsində bildirib ki, qədim dövrlərdə olduğu kimi, bu gün də Türk millətinin etnik kimliyi, dini kimliyi, ədəbiyyatı, tarixi, mədəniyyəti, əxlaqı, adət-ənənələri ilk növbədə ailədən başlayır. Ailə məktəbi uşaqlar üçün kimlik, tarix və mədəniyyət məktəbidir.

* * *

Avropa İnsan Hüquqları Məhkəməsinin Böyük Palatası "Çıraqov və digərləri Ermənistana qarşı" işi ilə bağlı qərarını elan etmişdir. Sözügedən iş erməni təcavüzü dövründə Azərbaycanın Laçın rayonu ərazisindən məcburi köçgün düşən altı Azərbaycan vətəndaşının Ermənistan Respublikasına qarşı 6 aprel 2005-ci il tarixli iddia müraciətinə əsaslanır. Bu münasibətlə AMEA FHİ-də dəyirmi masa keçirilmişdir.

Tədbiri FHİ-nin direktoru, fəlsəfə ü.e.d., professor İlham Məmmədzadə açaraq qərarla bağlı çıxış etmiş və bu haqda fikirlərini dəyirmi masa iştirakçılarının diqqətinə çatdırmışdır. Onun sözlərinə görə, Avropa Məhkəməsinin bu qərarı Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ikili standartların tətbiqini aradan qaldırmaq istiqamətində mühüm addım hesab oluna bilər.

Mövzu ilə bağlı müzakirələrdə institutun elmi işlər üzrə direktor müavini, hüquq ü.e.d., professor Bəhram Zahidov və hüquq ü.f.d., dosent Rauf Qarayev maraqlı fikirlər səsləndiriblər.

* * *

AMEA FHİ-də "Cinayət hüququ və cinayət prosesi" şöbəsinin baş elmi işçisi, hüquq ü.e.d., professor Mirağa Cəfərquliyevin 75 illik yubileyi qeyd olundu. Tədbirdə çıxış edən AMEA FHİ-nin direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə qonaqları salamlayaraq görkəmli alim Mirağa Cəfərquliyevin Azərbaycan hüquq elminin gözəl nümunəsi olduğunu, alimin keçdiyi ömür yolundan, zəngin elmi fəaliyyətindən söz açıb. Mirağa Cəfərquliyevin yubileyinin daha böyük auditoriyalarda keçirilməyə layiq olduğunu deyən İlham Məmmədzadə, alimin hüquq sahəsində bir çox tələbələr yetişdirdiyini də tədbir iştirakçılarının diqqətinə çatdırdı. Daha sonra institutun əməkdaşları və digər qonaqlar çıxış edərək M.Cəfərquliyev haqqında ürək sözlərini bildirib alimə elmi yaradıcılığında uğurlar arzulayıblar. Sonda çıxış edən yubilyar ona ünvanlanan təbriklərə və xoş sözlərə görə institutun direktoru İlham Məmmədzadəyə və institutun kollektivinə və digər qonaqlara minnətdarlığını bildirdi.

* * *

14-16 may 2015-ci il tarixlərində Türkiyənin Konya şəhərində Səlcuq Universiteti Türk Əl Sənətləri Araşdırma və Tətbiqetmə Mərkəzi, Konya Böyükşəhər Bələdiyyəsi, İtaliyanın Beynəlxalq Mədəni İrsin Konservasiyasında Gənclər Assosasiyası (YOCOCU), MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin(Azərbaycan) birgə təşkil edildiyi beynəlxalq simpozium keçrilib. Simpozumda 10 ölkədən 150-dək nümayəndənin, o cümlədən Azərbaycan, Türkiyə, İtaliya, Ukrayna, İran, Gürcüstan, Makedoniya və digər ölkələrdən alim və mütəxəssislərin məruzələri dinlənilib. Həmin simpozumda AMEA FHİ-nin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərov "Türk toplumlarında milliləşmə (türkçülük) və qloballaşma (qərbləşmə) prosesinə tarixi-fəlsəfi baxış" mövzusunda məruzə edib. Çıxış maraqla qarşılanıb.

* * *

15-17 may 2015-ci il tarixlərində Türkiyənin Bursa şəhərində Uludağ Universitetinin təşkilatçılığı ilə keçirilmiş «V Mantık Çalıştayı»nda Azərbaycanı AMEA FHİ-nin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərov təmsil etmişdir. F.Ələkbərovun həmin çalıştayda «Orta Çağ Azərbaycan filiosoflarının məntiqlə bağlı əsərləri» mövzusundakı məruzəsi maraqla qarşılanmışdır. O, məruzədə Orta Çağ Azərbaycan filosoflarından Xətib Təbrizi, Eynəlqüzat Miyanəci, Əbülhəsən Bəhmənyar, Siracəddin Urməvi, Şihabəddin Sührəvərdi, Nəsrəddin Tusi və başqalarının yaradıcılığında məntilə bağlı əsərlərinə və baxışlarına toxunmuşdur. Eyni zamnda günümüzdə məntiqin əhəmiyyətindən bəhs edən F.Ələkbərov, məntiqlə bağlı növbəti çalışmalardan birinin Azərbaycanda keçirilməsi fikrini də irəli sürüb.

* * *

AMEA FHİ-nin elmi işlər üzrə direktor müavini, fəlsəfə ü.f.d., dosent Roida Rzayeva impakt faktorlu "American Journal of Educational Research" beynəlxalq jurnalının redaksiya heyətinə üzv seçilib. Qeyd edək ki, jurnalın əsasən Amerika və Avropa ölkələrinin nümayəndələrindən ibarət redaksiya heyətində Roida Rzayeva Azərbaycandan yeganə təmsilçidir.

* * *

AMEA FHİ-nin Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses şöbəsinin müdiri, hüquq elmləri doktoru Habil Qurbanov Rusiyanın paytaxtı Moskvada keçirilmiş "Qanunvericilik, informasiya hüququ və informasiya təhlükəsizliyinin sistemləşdirilməsi ilə bağlı aktual problemlər" mövzusunda beynəlxalq elmi-praktik konfransda iştirak edib. Rusiya Federasiyası Ədliyyə Nazirliyinin Hüquqi İnformasiya Elmi Mərkəzinin təşkil etdiyi konfransa Belarus, Ukrayna, Dağıstan, Azərbaycan və digər ölkələrdən alim və mütəxəssislər qatılıb. Tədbirdə Habil Qurbanov "Azərbaycanda qadın hüquqları ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinin aktual problemləri" adlı məruzəsi ilə çıxış edib. O, məruzəsində xarici ölkələrdə olduğu kimi, Azərbaycanda da ailə məsələləri ilə bağlı xüsusi məhkəmələrin yaradılmasının, ailə məsələləri üzrə müvəkkilin (Ombudsman) təsis edilməsi məsələsinin vacibliyini vurğulayıb.

* * *

22-24 oktyabr 2015-ci il tarixlərində Türkiyənin Kırıkkale şəhərinin Kırıkkale Universitetində Birinci Dünya Müharibəsinə həsr olunmuş beynəlxalq simpozium keçirilib. "Birinci Dünya Müharibəsində Mevləvi alayı və könüllü birliklər" adlı simpozium da Azərbaycandan AMEA FHİ-nin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərov və başqaları iştirak ediblər. F.Ələkbərov simpoziumda "Azərbaycan Türk könüllüləri Çanaqqala savaşlarında" mövzusunda məruzə edib. Gənc alim məruzəsində bildirib ki, 100 il bundan öncə – 1915-ci ildə Türk ulusunun tarixində çox önəmli savaşlardan biri Çanaqqla savaşları baş verib. Əslində Çanaqqalasavaşları yalnız I Dünya Savaşının gedişatını və Türkiyənin qədərini dəyiştirməklə qalmamış, bütün Türklüyün gələcəyinə böyük ölçüdə yeni bir yön vermişdir. Bu anlamda Çanaqqala savaşlarının rolunu Türkiyəylə məhdudlaşdırmaq doğru deyildir. Özəlliklə, Azərbaycan türkləri Çanaqqala savaşlarında yaxından ilgilənmiş istər mənəvi, istərsə də maddi yardımlar da bulunublar. Çünki həmin zamanlarda Osmanlı dövlətinin güclü olması, bunun müqabilində Çar Rusiyasının çökməsi əsarətdə olan bütün türklər kimi Azərbaycan türkləri üçün də son dərəcə önəmli idi.

* * *

05-06 noyabr 2015-ci il tarixlərində Türkiyənin İstanbul şəhərində Türkiyə Asiya Strateji Araştırmalar Mərkəzinin (TASAM) rəhbərliyi ilə Mədəniyyət İnşaası – Türkiyə Vizyonu Beynəlxalq Konqresi keçirilib. TASAM-ın dəvətlisi olaraq Konqresdə AMEA FHİ-nin aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Ələkbərov da iştirak edib. Konqresdə Türkiyənin və bir çox ölkələrin alimləri ilə yanaşı, Türkiyənin tanınmış dövlət xadimləri, o cümlədən keçmiş TBBM başqanı, AKP-nin qurucularından Bülent Arınç da qatılıblar. Öncə TASAM-ın başqanı Süleyman Şensoy çıxış edərək Türkiyə üçün yeni mədəniyyət inşaasının təməl prinsiplərini açıqlayıb. Bülent Arınç isə məruzəsində daha çox Türkiyənin 2023 vizyonunda Mədəniyyətin rolundan danışıb. Arınça görə mədəniyyəti yalnız iqtisadi inkişaf kimi anlamaq doğru deyildir. Azərbaycan alimi Faiq Ələkbərov isə Konqresdə "Türkiyədə iki böyük mədəniyyət mücadiləsi: "Şərq-İslam" və "Qərb-Xristian" mövzusunda məruzə edib. Gənc alimə görə, anlayışların üzərində dayanmaqdan daha çox, onun dərin mahiyyətini üzə çıxartmaq önəmlidir. O bildirib ki, Türk mədəniyyətinin və Türk fəlsəfəsinin yenidən dəyərləndirilməsinə, yazılmasına ciddi ehtiyac vardır.

* * *

26-28 noyabr 2015-ci il tarixlərində İzmirdə "Türkiyə Respublikasının iqtisadi və sosial tarixi" adlı beynəlxalq simpozium keçirilib. Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumu, Atatürk Araşdırma Mərkəzi və Doqquz Eylül Üniversitetinin birgə təşkilatçılığı ilə keçirilən Simpozumda AMEA FHİ-nin aparıcı elmi işçisi, fəlsəfə doktoru Faiq Ələkbərov da iştirak edb. F.Ələkbərov simpozumda "Türk ulusunun toplumsal dəyişimində Ziya Gökalp və Atatürkün rolu" mövzusunda çıxış edib. Gənc alim məruzəsində Osmanlıdan sonra qurulan Türkiyə Respublikasında baş verən sosial dəyişimləri, bu dəyişimlərdə Ziya Gökalp və Atatürkün oynadığı rola diqqət çəkib.

* * *

AMEA FHİ-də Dünya Fəlsəfə Günü ilə əlaqədar "Müasir dövrdə fəlsəfənin statusu və tədrisinin problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Azərbaycan, Fransa və digər ölkələrdən olan nümayəndələrin iştirak etdikləri tədbirdə institutun direktoru professor İlham Məmmədzadə müasir dünyada elmin mühüm rolundan danışıb, Prezident İlham Əliyevin bu sahənin inkişafına daim böyük önəm verdiyini vurğulayıb.

İ.Məmmədzadə, eyni zamanda, UNESCO-nun təsis etdiyi Dünya Fəlsəfə Gününün qeyd olunmasının əhəmiyyətini diqqətə çatdırıb, mövzu ilə bağlı fikirlərini bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oqtay Səmədov, AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademiyanın müxbir üzvü Nərgiz Axundova ölkəmizdə elm sahəsinə göstərilən dövlət qayğısından, Azərbaycan-Fransa elmi əlaqələrindən danışıblar.

Mərakeşin Azərbaycandakı səfiri Həsən Hami, Fransanın Sofiya Antipolis Universitetinin Departament rəhbəri Kristian Vallar beynəlxalq elmi konfransın əhəmiyyətini qeyd ediblər.

Sonra "Fəlsəfi yaradıcılıqda azadlıq, müdriklik və manipulyasiya" və digər mövzularda məruzələr dinlənilib, müzakirələr aparılıb.

Tədbirdə K.Vallara Fəlsəfə və Hüquq İnstitutunun fəxri doktoru diplomu təqdim olunub.

* * *

AMEA FHİ-də Ulu Öndər Heydər Əliyevin anım mərasiminə həsr olunmuş «Ulu Öndər Heydər Əliyevin irsi və müasir fəlsəfənin çağırışları» mövzusunda elmi konfrans keçirilib. Konfransı giriş sözü ilə açan institutun direktoru professor İlham Məmmədzadə Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətlərindən, çoxşaxəli ictimai-siyasi fəaliyyətindən söz açıb. Bildirilib ki, bütün ömrünü xalqımızın, dövlətimizin inkişafına, tərəqqisinə həsr edən Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanın milli maraqlarını daim uca tutub. Ümummilli Lider Azərbaycan dövlətinin, xalqının mənafeyi və bütövlüyü uğrunda, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, demokratiyanın genişləndirilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün fədakarlıqla çalışıb. O, görkəmli dövlət xadiminin irsinin öyrənilməsinin həm ölkəmizdə, həm də beynəlxalq aləmdə xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Tədbirdə «Heydər Əliyev və hüquqi dövlət quruculuğu» mövzusunda məruzə ilə çıxış edən institutun elmi işlər üzrə direktor müavini professor Bəhram Zahidov Ulu Öndər Heydər Əliyevin Azərbaycanın hüquqi dövlət kimi formalaşmasındakı fəaliyyətindən söz açıb, müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunması kimi mühüm islahatları qüdrətli dövlətçiliyimiz yolunda əvəzolunmaz addımlar kimi səciyyələndirib.

Sonra çıxış edən institutun əməkdaşları - fəlsəfə üzrə elmlər doktorları Azər Mustafayev, Fizuli Qurbanov, aparıcı elmi işçi Hacı Xaliq Bəşər, fəlsəfə doktoru Sənan Həsənov və başqaları bildiriblər ki, bütün mənalı həyatını öz xalqına həsr edən Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrilib. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq.

YENİ NƏŞRLƏR

Ильхам Мамедзаде, Земфира Геюшева. Модерн, просветительские идеи Гасанбека Зардаби и философия просвещения. Баку: Тэкнур, 2015, 128 с.

После распада Советского Союза тема модерна стала актуальной на постсоветском пространстве. Однако определенное время никто и не вспоминал, что эпоха модерна в Европе началась с философии Просвещения и в определенном смысле, по крайней мере как считали некоторые из философов, завершение Просвещения означало завершение модерна. Однако отнюдь не все так считали и продолжают считать. И дело не только в том, что думают в Европе, важно, как складывались отношения между ними в неевропейской или в не совсем европейской действительности.

В Азербайджане тоже была эпоха Просвещения. Как правило наши философы признают значимость идей Гасанбека Зардаби и других просветителей. Настало время задуматься над тем, почему у нас не сформировалась целостная философия Просвещения и каким должно быть наше отношение к ней в нынешнем модерне. Ведь несмотря на то, что модерн в Европе начался с эпохи Просвещения, отношения между тем, что называется модерном, и Просвещением не были однозначными: нередко экономика и политика модерна вытесняли Просвещение на обочину, заключая его в определенные рамки. Этим, к примеру, грешил советский марксизм. Теперь становится понятным, что тема Просвещения не является лишь сферой истории философии, она остается значимой для философии нашего времени, стремящейся понять современность. И даже тогда, когда мы в рамках истории философии обращаемся к этой теме, следует по-новому увидеть и обрисовать данную проблему. В этом новизна философского анализа модерна XIX-XX веков и эпохи Просвещения.

Роида Рзаева. «Постмодерн и мультикультурализм: междисциплинарный дискурс. Баку: Элм ве тахсил, 2015, 300 с.

Монография посвящена междисциплинарному осмыслению феномена постмодерна, его дериватов и мультикультурализма.

Предлагаемая книга является продолжением исследования, в рамках которого изданы главы отдельных книг и статьи в международных изданиях. Первые исследования в этом направлении датированы 2001 годом. Отдельные тезисы исследования также нашли своё освещение в свыше 120 публикациях автора по проблемам вызовов современности на Азербайджанском, русском, турецком и английском языках в республиканских, международных и зарубежных изданиях. Научные результаты работы были представлены на международных конференциях в 15 странах мира (Англия, Италия, Франция, Южная Корея, Греция, Дания, Турция, Россия, Литва, Кипр, Беларусь и др.).

В качестве метаязыка исследования использован философский анализ. В издании представлен аналитический инструментарий постмодерна и ряда проблем современной философии, освещаются научно-методологические основы мультикультурализма и его корреляция с философскими основаниями постмодернизма. В книге анализируются такие вопросы, как современное общество и сознание, междисциплинарный диалог, корреляция модерна и постмодерна, поструктурализм, философия диалога, глокализация, деконструкция, «Другое» в постмодернистской нарратологии и др.

Монография посвящена актуальной и крайне дискуссионной проблеме – постмодернизму. Современная западная философия, в особенности современные западные философские тенденции и течения, и их экстраполирование на другие области и общества помимо Запада остаются малоисследованными вопросами в отечественной литературе. В частности постмодернизм остается малоизученной проблемой в Азербайджане концептуально и как социальная проекция. Отдельные отмеченные положения и тезисы как составляющие парадигмального анализа постмодернизма будут развиты во втором томе исследования.

Роида Рзаева. Незападная современность в дискурсе постмодерна и культурной полифонии. Баку: Елм ве тахсил, 2015, 325 с.

Монография посвящена философскому осмыслению постмодернистских индикаторов в незападных странах в условиях изменившегося культурного контекста на примере турецкого общества через призму междисциплинарного подхода.

Книга представляет собой самостоятельное исследование, развивающее идеи предыдущей монографии «Постмодерн и мультикультурализм: междисциплинарный дискурс».

В предлагаемой книге анализируются вопросы трансформации общественного сознания, религии в постмодернистской нарратологии, габитуса, идентичности, политики тела, символической репрезентативности и др. Издание освещает дихотомию «Запад – не-Запад», а также постсоветские общества в контексте постмодерна, обусловленного вариабельностью социокультурного контента.

Zümrüd Əliqulu qızı Quluzadə. Biobiblioqrafik göstərici. Bakı, 2015, 153 s.

Kitabda əməkdar elm xadimi, fəlsəfə ü.e.d. Zümrüd Əliqulu qızı Quluzadənin Azərbaycan, rus, ingilis və digər dillərdə nəşr edilmiş və internetdə yayımlanmış əsərlərinin biobiblioqrafiyası öz əksini tapıb.

Əlikram Tağıyev. Azərbaycanın fəlsəfi və sosial-siyasi fikir tarixi oçerkləri. Bakı, 2015, 108 s.

Təqdim olunan kitab fəlsəfi və sosial-siyasi fikir tariximizə dair bir neçə oçerkdən ibarətdir. Müəllif burada Orta əsrlərin və yeni dövrün irsini nəzərdən keçirmiş, bu dövrlərin mütəfəkkirləri haqqında yeni söz deməyə çalışmışdır. XIX əsrin sonu XX əsrin əvvəllərinə xüsusi diqqət yetirilmiş, çünki bu dövr və eləcə də onun nümayəndələri haqqında nə qədər yazılmış olsa da onlar haqqında yenə də yazmağa dəyər. Həmçinin, Azərbaycan maarifçilərinin xarakter xüsusiyyətləri və onu Avropa və rus maarifçilərindən fərqləndirən cəhətlər qeyd edilmişdir. «Molla Nəsrəddin» və «Füyuzat», islamçılar, türkçülər və azərbaycançılar yeni təfəkkür baxımından elmi təhlil süzgəcindən keçirilir və təhlil olunur. Əsərdə maarifçilərin «vahid axın» spektirində olan ideya-siyasi baxışları azərbaycançılıq fəlsəfəsi mövqelərindən tədqiqata cəlb olunmuşdur.

Arzu Hacıyeva. Akademik Heydər Hüseynov. Bakı: Elm, 2015, 240 s.

AMEA Fəlsəfə və Hüquq İnstitutunun şöbə müdiri, fəlsəfə üzrə elmlər doktoru Arzu Əşrəf qızı Hacıyevanın Azərbaycan filosofu, taleyinin yaşadığı zamanın, cəmiyyətin

ziddiyyətlərini özündə sanki güzgüdəki kimi əks etdirdiyi elm tariximizin faciəvi və məğrur siması, akademik Heydər Hüseynov haqqında monoqrafiyası ilk dəfə olaraq alimin həyatı, fəaliyyəti və elmi yaradıcılığını onların daxili qarşılıqlı əlaqəsinin bütövlüyündə, vəhdətində təqdim edir. Tədqiqata keşməkeşli ömür yoluna işıq salan çoxlu yeni materiallar cəlb edilmişdir. Əsər bəhs edilən dövrün ümumilikdə tarixinin, xüsusilə də elm və mədəniyyət tarixinin fəlsəfi mənalandırılması, görkəmli filosofun irsinin hermenevtik şərh və təfsiri məcrasında yazılmışdır.

Babək Qurbanov. Musiqi dünyasının unudulmazları. Bakı: «Avropa», 2015, 292 s.

«Musiqi dünyasının unudulmazları» əsəri prof. Dr. Babək Qurbanovun Azərbaycan mədəniyyətinə ərmağan etdiyi 33-cü kitabıdır.

Əsərdə dünya çoxsəsli musiqi mədəniyyətində önəmli rol oynamış İ.S.Bax, V.A.Motsart, L.V.Bethoven, F.Şopen, R.İ.Çaykovski, B.Asafyev, həmçinin Ü.Hacıbəyli, Ə.Bədəlbəyli, F.Əmirov, Q.Qarayev, Niyazi, C.Hacıyev, R.Hacıyev, S.Rüstəmov, A.Məlikov, A.Rzayev, A.Sultanova kimi dahi sənətkarların həyat və yaradıcılıq yolundan bəhs edilir.

Fərman İsmayılov. Müqəddəs od yaxud fəlsəfənin fəlsəfəsi. Bakı: «Elm və təhsil», 2015, 544 s.

Kitab fəlsəfə, onun təbiət və mahiyyəti, cəmiyyət və insan həyatında rolu, elmi və metodoloji funksiyası və s. kimi metafəlsəfi problemlərin analizinə həsr edilmişdir. Lakin fəlsəfə öz epoxası ilə eyni olduğuna görə onun təbiət və mahiyyətinə, müasir dünyada mövqeyinə aktual ümumbəşəri problemlərdən kənarda baxıla bilməz. Ona görə də kitabda müasir ekzisteksional böhran və ondan çıxış yollarının nəzəri məsələləri araşdırılır, göstərilir ki, müasir ruhun böhranı əslində fəlsəfəyə nihilist münasibətin nəticəsidir. Bəşəriyyət ya üzünü fəlsəfəyə çevirərək təfəkkürünü fəlsəfiləşdirməli, ya da total fəlakətin qarşısıalınmaz olacaqdır. Kitabda bu məsələ ilə əlaqədar olaraq Qərbin intellektuallarının ideya və mülahizələri nəzərdən keçirilir.

Könül Bünyadzadə. İnsan: kamilliyin arxitektonikası. Bakı: Zərdabi LTD, 2014, 496 s.

Kitabda kamillik problemi əvvəlcə bir ideya və ruh hadisəsi kimi fəlsəfə tarixi kontekstində, daha sonra isə ictimai bir hadisəsi kimi sosial fəlsəfə kontekstində araşdırılır. Kamillik prinsipinin keçdiyi inkişaf yolu Orta əsrlər, Yeni dövr və müasir dövrün meyarları və prinsipləri işığında ayrı-ayrılıqda nəzərdən keçirilir və problemin ümumi elmi mənzərəsi yaradılır.

Габиль Гурбанов. Обстоятельства, исключающие преступность деяния. Германия: Palmarium Academic Publishing, 2015, 262 с.

Монография посвящена уголовно-правовому изучению и анализу одной из центральных тем науки уголовного права, обстоятельствам исключающих преступность деяния. После основательного обновления уголовного законодательства Азербайджанской Республики для решения и исследования вышеуказанной проблемы, проведено чрезвычайно мало анализов и они не могут считаться достаточными с точки зрения современных требований. Так, в книге особое внимание было уделено историческим

аспектам, понятию, вопросам социально-правовой природы и значимости обстоятельств, исключающих преступность деяния.

Habil Həmidov. Azərbaycanın ədəbi-mədəni abidələrinə erməni təcavüzü sənədlərin dili ilə (Azərbaycan, rus, ingilis dillərində). Bakı: «Qartal», 2015, 100 s.

Çağdaş zəmanəmizdə saxta tarix yaratmağa çalışan, heç bir kökü məlum olmayan törəmə erməni köçəri tayfaları guya qədim dövlətçilik tarixlərinin olduğunu yalançı faktlarla dünya ictimaiyyətinə sırımağa cəhd göstərirlər. Təqdim olunan kitabda muəllif ermənilərin bu yersiz iddialarının heç bir əsasının olmadığını sənədlərin dili ilə sübuta yetirməyə çalışır və saxta iddiaçıları faktlar qarşısında qoyur. Yəni, həmin erməni uydurmaları elə ermənilərin müxtəlif dövrlərdəki yazılarında öz etiraflarına, fundamental tarixi əsərlərə istinadən sübuta yetirməklə oxuculara təqdim olunur.

Elnur Hacalıyev. Siyasi demokratiya və cəmiyyətin siyasi modernləşdirilməsi. Monoqrafiya. Bakı: «Mütərcim», 2015, 356 s.

Kitabda siyasi demokratiyanın mahiyyəti, məzmunu və xüsusiyyətləri araşdırılır. Siyasi demokratikləşmə şəraitində cəmiyyətin siyasi modernləşməsi təhlil olunur. Azərbaycan Respublikasında yeni siyasi və iqtisadi sistemin modernləşməsi istiqamətlərinə baxış keçirilir və onun məzmun və xüsusiyyətlərinə münasibət bildirilir.

Habil Həmidov. Azərbaycanlıların soyqırımı erməni terrorizminin tərkib hissəsi kimi (Azərbaycan, rus, ingilis dillərində). Bakı: «Qartal», 2015, 60 s.

Kitabda müxtəlif dövrlərdə erməni terrorlarının qurbanına çevrilmiş azərbaycanlıların soyqırımı hadisələri, bu faciələrə gedən yollar, ermənilərin məkrli siyasəti, təcavüz faktları və s. məsələlər təqdiqata cəlb olunmuşdur.

Fikrət Nəbiyev. Hüquqi təfəkkür: sosial determinantları və dərketmə metodları. Bakı, 2015, 142 s.

Hüquqi təfəkkür insanlar arasındakı münasibətlərin formalaşmasına, həlli zəruri olan hüquqi problemlərin irəli sürülməsinə, mövcud həyat şəraitinə uyğun qaydaların yaradılmasına istiqamətlənən idrak prosesidir.

Problemin araşdırılması bir tərəfdən hüquq elminin inkişafına xidmət edirsə, başqa bir tərəfdən hüquqi təhsilin metodoloji cəhətdən təkmilləşməsinə xidmət edir.

Ölkəmizdə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən hüquqi dövlət quruculuğu problemi hüquqi təfəkkürün inkişafı prosesində aktual əhəmiyyət kəsb edir.

Rövşən Hacıyev. Tarixi prosesin inkişaf dinamikası və ya qloballaşmaya aparan intellektual təkamül yolu. Bakı: Xəzər Universiteti, 2015, 352 s.

Monoqrafiya müəllif tərəfindən irəli sürülən və tarixi prosesin daha bir inkişaf qanunauyğunluğunu özündə əks etdirən *bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezasının* geniş elmi faktlar əsasında araşdırılmasına həsr olunmuşdur. Tədqiqat işində tarixi prosesdə mərhələli və sinxron şəkildə təzahür etmiş, lakin indiyə qədər

öz həllini tapmamış qlobal əhəmiyyətli hadisələrin bəşəriyyətin intellektual təkamülünün yaş dövrləşdirilməsi hipotezası zəminində izahına səy göstərilmişdir.

Məmmədağa Sərdarov. Azərbaycan Milli Elmlər Akademiyası – 70 il. Bakı: «Avropa», 2015, 43 s.

Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyi ilə əlaqədar hazırlanan bu kitabda Akademiyanın keçdiyi tarixi yola qısa ekskurs edilir, faşizm üzərində qələbənin qazanılmasında alimlərimizin xidmətlərindən danışılır. Eyni zamanda, kitabda dahi şəxsiyyət və mütəfəkkirlərin elm və alim haqqında dəyərli fikirləri hörmətli oxucuların diqqətinə çatdırılır.

Afaq Əsədova. Ədəbiyyatlaşan dünya. Türkiyə, İstanbul: «Kobalcı Yayıncılık», 2015, 315 s. (Türk dilində).

Kitabda postmodernizm anlayışının mahiyyəti izah olunur, təsəvvüf və postmodernizm arasında müqayisələr aparılır. Postmodernizmdə din, insan, sənət anlayışlarına yanaşmanın özəllikləri təhlil olunur. Azərbaycan və tükr ədəbiyyatında postmodernizmə münasibət araşdırılır.

Zaur Əliyev. Xocalı soyqırımı beynəlxalq cinayət kimi (6 dildə). Bakı: Avropa nəşriyyatı, 2015, 98 s.

Keçmişini unudanların onu yenidən yaşamaq məcburiyyətində qalması tarixin ibrət dərsidir. Azərbaycanın çağdaş tarixində də unudulması mümkün olmayan, bütövlükdə xalqın şüuruna dərin iz salaraq onu daim mübarizə ruhunda köklayən elə faciəli hadisələr var ki, heç zaman xalqın qan yaddaşından silinməyəcəkdir. Xocalı soyqırımı da məhz unudulması mümkün olmayan dəhşətli hadisələrdəndir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə amansız cinayətə rəvac vermiş ermənilər dünyanın ən əzazil, qəddar və qaniçən millət olduqlarını, terroru dövlət siyasətinə çevirdiklərini bir daha təsdiq etmişlər. Təqdim edilən kitab əsrin faciəsinin beynəlxalq hüquqi aspektlərinə həsr edilib.

Etibar Əliyev. Yeni təhsil, tərbiyə və elm antologiyası. Bakı: «OL» MMC, 2015, 396s.

Kitabda görkəmli filosoflar, pedaqoqlar və nüfuzlu alimlər: İ.Kant, A.Şopenhauer, V.Hüqo, Ə.Hüseynzadə, C.Dyüi, Ə.Ağaoğlu, X.Qasset, H.Cavid, A.Maçado, L.Vitgenşteyn, M.Haydegger, A.Eynşteyn, R.Feynman, Y.Habermas, S.Xəlilov, Ə.Zevayl, H.Quliyev, J.Liotar, Q.Quliyev, V.Benyamin, J.Piaje, C.Qudled, Ə.Ağayev, Ş.Əsgərov və başqalarının əsərləri və onlar haqqında məqalələr toplanmışdır.

La dignité humaine saisie par le droit. Université Nice Sophia Antipolis, Faculté de Droit et Science Politique. Et L'Institut de Droit et de Philosophie de l'Académie des Sciences d'Azerbaidjan. Nice le 1er juillet 2015, France. (Sofia-Antipolis Universiteti (Fransa, Nitsa şəh.) Hüquq və Siyasi Elmlər fakültəsində AMEA Fəlsəfə və Hüquq İnstitutu ilə birgə "İnsan ləyaqəti" nə həsr olunmuş Beynəlxalq konfransın materialları. Paris, 2015).

Kitabda digər müəlliflərlə bərabər AMEA FHİ-nin əməkdaşları fəlsəfə ü.e.d., professor İlham Məmmədzadənin "Müasir Azərbaycan maarifçiliyi insan problemi kontekstində", filologiya ü.f.d. Zöhrə Əliyevanın "İslamda qadının şərəf və ləyaqəti", hüquq ü.e.d., professor İsaxan Vəliyevin "Azərbaycanda insanın şərəf və ləyaqətinin hüquqi təminatı", fəlsəfə ü.f.d. Elsevər Səmədovun "İslamda insan problemi: müasir İslam düşüncəsində İslam ləyaqəti konsepsiyası" məqalələridə dərc olunmuşdur.

Yeni idraki pradiqmalar və fənlərarası yanaşma. Bakı: «Təknur», 2015, 352 s.

Toplu Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun «İdrak nəzəriyyəsi və elmin fəlsəfəsi» şöbəsi tərəfindən çapa hazırlanmışdır.

Topluda mövzular müasir elmi idrakda müşahidə edilən bir sıra dəyişikliklərlə əlaqəlidir. Onlar müxtəlif aspektlərdə fənlərarası yanaşma ilə əlaqələndirilməyə çalışılmışdır. Fənlərarası metodologiyanın təşəkkülü və elmlərin konvregensiyası kimi məsələlər təhlil edilmişdir.

YUNESKO-nun təsis etdiyi «Ümumdünya fəlsəfə günü»nə həsr olunmuş «Müasir dünyada fəlsəfənin mənəvi funksiyası» mövzusunda Beynəlxalq Elmi Konfransın materialları. Bakı: «Təknur», 2014, 216 s.

Təqdim edilmiş toplu YUNESKO-nun təsis etdiyi «Ümumdünya Fəlsəfə Günü»nə həsr olunan «Müasir dövrdə fəlsəfənin mənəvi funksiyası» mövzusunda Beynəlxalq Elmi Konfransda səslənmiş və çapa təqdim edilmiş məqalələrin mətnlərini ehtiva edir.

Azərbaycanda hüquqi dövlət quruculuğunun aktual problemləri: fəlsəfi, sosioloji və hüquqi təhlil və proqnozlaşdırma. II Beynəlxalq Konfransın materialları. Bakı: «Təknur», 2014, 349 s.

AMEA FHİ, Qafqaz Universiteti, Məlikşah Universiteti (Türkiyə), Zirvə Universiteti (Türkiyə) və ARDİN Polis Akademiyasının təşkil etdiyi konfrans materiallarında həmin konfransda edilən məruzələr, çıxışlar öz əksini tapıb. Konfransda əxlaq və hüquq, dövlət ittihamı, insan hüquqları sahəsində keçirilən islahatlar, əqli və sənaye mülkiyyəti, qanunvericiliyin təkmilləşdirilməsi, vəkillik institutu, hüquqi dövlətin idarə olunması, sosial siyasət, qanunvericiliyin gender təhlili, məhkəmə nəzarəti, işçilərin əmək hüquqları, sosial müdafiə və s. mövzularda edilmiş məruzələr böyük marağa səbəb olmuşdu.

Siyasi sosiologiyanın müasir problemlərinə dair. Bakı: «Təknur», 2014, 190 s.

Fəlsəfə və Hüquq İnstitutunun «Siyasi nəzəriyyələr» (keçmiş «Politologiya və siyasi sosiologiya») şöbəsinin əməkdaşlarının 2014-cü il plan işi əsasında təqdim olunan topluda «Azərbaycan 2020 – Gələcəyə Baxış İnkişaf Konsepsiyası» kontekstində siyasi sosiologiyanın müasir problemləri öyrənilmişdir. Kitabda qlobal siyasi nizamın strukturunun öyrənilməsində siyasi qlobalistikanın bir elm kimi rolu, siyasi sosiologiyanın bir elm kimi formalaşması, obyekti, predmeti və strukturunun müəyyənləşdirilməsi, mahiyyəti və xüsusiyyətləri nəzəri metodları və əsas inkişaf istiqamətləri, siyasi sosiologiyanın əsas ideyalarının təkamülünün Qərb və Şərq ənənələri, siyasətin sosiologiyasında nəzəri metodlarının XXI əsrdə əsas inkişaf istiqamətləri, Azərbaycanda siyasi sosiologiyanın yaranması və inkişafı, ictimai həyatda siyasi sosiologiyanın yeri, siyasi sosiallaşma prosesində ideologiyaların yeri kimi məsələlər geniş tədqiqata cəlb olunmuşdur.

Cəmiyyət və din: tarix və müasirlik. Məqalələr toplusu. Bakı: «Təknur», 2015, 524 s.

Toplu AMEA Fəlsəfə və Hüquq İnstitutunun «Müasir fəlsəfə problemləri» şöbəsində nəşrə hazırlanmışdır.

Topluda cəmiyyətdə dinin rolu, din və dövlət münasibətləri, İslam iqtisadiyyatı, milli ideologiyanın formalaşmasında dini-mənəvi dəyərlər, din və təhlükəsizlik, tərbiyə və din, dini tolerantlıq, etnik proseslərə dinin təsiri, ailə və din və s. mövzularda maraqlı məqalələr dərc olunub.

Müasir dövrdə beynəlxalq münasibətlər və beynəlxalq hüququn bəzi problemləri. Məqalələr toplusu. Bakı: «Şərq-Qərb», 2014, 368 s.

Toplu AMEA Fəlsəfə və Hüquq İnstitutunun «Beynəlxalq münasibətlər və beynəlxalq hüquq» şöbəsinin əməkdaşları tərəfindən hazırlanıb.

Topluda diplomatiya, beynəlxalq təhlükəsizlik, Azərbaycan-Rusiya, Çin-İsrail münasibətləri, beynəlxalq antiterror koalisiyasının fəaliyyəti, sərhədlərin toxunulmazlığı, qloballaşmanın mahiyyəti, beynəlxalq hüququn aktual problemləri barəsində müzakirə doğuracaq məqalələr öz əksini tapmışdır.

Siyasi elmin bəzi aktual məsələləri (elmi məqalələr toplusu). AMEA FHİ «Siyasi nəzəriyyələr» şöbəsi, V buraxılış. Bakı: «Avropa», 2015, 268 s.

Topluda siyasi elmin sıra məsələlərinə baxış keçirilir, yeni fikirlər irəli sürülür. Məqalələrdə informasiya cəmiyyətinə, qanunçuluğun inkişafında Heydər Əliyevin roluna, fəlsəfə və elmin qarşılıqlı münasibətinə, ailə, qadın və uşaq siyasətinə, milli elmimizə, mədəniyyətlərin inteqrasiyasına, siyasi qloballaşmaya dair maraqlı məqalələr öz əksini tapmışdır.

«Elmi əsərlər». Beynəlxalq elmi-nəzəri jurnal, № 2(23), 2014, AMEA Fəlsəfə və Hüquq İnstitutu.

Jurnalın bu sayının fəlsəfə, sosiologiya, psixologiya, siyasi elmlər, dinşünaslıq və hüquq bölməsində maraqlı məqalələr dərc olunub. Məqalələr içərisində postmodernizm, şeyxilik hərəkatı, elmi idrak, teoloji, təkamül, qadın identikliyi və feminizm ideyaları, ekoloji siyasət,

etika və siyasət, siyasi elitanın formalaşması, müharibə və sülh problemi, informasiya siyasəti, hüquqi problemlər, söz və fikir azadlığı və s. mövzuda məqalələr öz əksini tapmışdır.

«Elmi əsərlər». Beynəlxalq elmi-nəzəri jurnal, № 1(24), 2015, AMEA Fəlsəfə və Hüquq İnstitutu.

Jurnalın AMEA-nın 70 illiyinə həsr olunmuş bu sayında humanitar və ictimai elmlər sahəsini əhatə edən maraqlı məqalələr işıq üzü görmüşdür. Müəlliflər öz yazılarında qloballaşma diskursunda postmodern, rasional idrak, suverenliyin transformasiyası, azərbaycançılıq ideologiyası, klassik yunan fəlsəfəsi, transsendental praqmatiklik, müsəlman hüquq mənbələri, hüquq sosial normalar sistemində, qloballaşmanın sosial-siyasi aspektləri ilə bağlı fikirlərini bölüşüblər.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında məqalələrin qəbulu ilə bağlı qoyduğu tələblər:

1. Məqalələr Azərbaycan, rus, türk və ingilis dillərində çap olunmuş şəkildə və elektron variantda təqdim olunmalıdır. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir. Məqalələrin həcminin 8-10 səhifə, xülasələrin 5-8 sətir olması tövsiyə olunur.
2. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunur.
3. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə yaxud istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s.119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
4. Məqalə müəllifin işlədiyi kafedrada yaxud şöbədə müzakirə olunmalı və iclasın protokolundan çaxarış redaksiyaya təqdim edilməlidir.
5. Məqalələrin mətnləri Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 14 şrifti ilə 1,5 intervalla yığılmalıdır.
6. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa təqdim olunur.
7. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə verilməlidir.
9. Məqalələrdə müəllif(lər)in adı və soyadı, işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.
10. Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalar və s. istinadlara üstünlük verilməlidir.
11. Jurnalda baxılan elm sahəsində qabaqçıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına da yer verilir.
12. Jurnal yalnız öz profilinə uyğun məqalələri dərc edir.

Yuxarıda göstərilən şərtlərə uyğun olmayan məqalələr redaksiya heyəti tərəfindən qəbul edilmir

Требования Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики к научным изданиям при приеме статей, отражающих основное содержание диссертации

1. Статьи должны быть представлены на азербайджанском, русском, турецком, английском языках в напечатанном виде и электронном варианте. К статье, написанной на одном языке, должны быть даны резюме на двух языках. Рекомендуется статьи представлять объемом 8-10 страниц, а резюме 5-8 строчек.

2. Резюме к статьям на различных языках должны быть идентичные и соответствовать содержанию статьи. Статьи должны быть тщательно отредактированы с научной и грамматической точек зрения.

3. Должны быть ссылки на научные источники, связанные с темой. Список литературы, приведенный в конце статьи должен быть дан в алфавитном порядке или пронумерован в порядке встречающейся в тексте ссылки на литературу, как например, (1) или (1, с.119). Если в статье встречаются повторные ссылки на одну и ту же литературу, тогда эта литература должна быть дана под предыдущим номером.

4. Статья должна быть обсуждена на кафедре или отделе, где работает автор и выписка из протокола собрания должна быть представлена редакции.

5. Текст статей на азербайджанском языке должен быть дан латинским алфавитом; на русском языке – кириллицей; английском языке – английским алфавитом (США), Times New Roman – 14 шрифтом 1,5 интервала.

6. Статьи могут быть представлены к печати после получения тайного отзыва со стороны отраслевого редактора или специалиста из членов редакционного совета.

7. В конце статьи автор должен сказать о научной новизне работы, прикладном значении, экономической пользе, соответсвующей характеру статьи.

8. В каждой статье должны быть даны индексы типа УДК и PACS, а также ключевые слова на трех языках.

9. В статье должны быть указаны имя и фамилия, место работы и его адрес и электронная почта.

10. В списке литературы предпочтение должно быть дано ссылкам из статей, монографий и т.д., написанных за последние 5-10 лет.

11. В журнале помещаются статьи, поступающие из разных стран мира с развитой наукой.

12. Журнал печатает статьи, соответствующие его профилю.

Статьи, не отвечающие вышеизложенным требованиям, не принимаются редакционным советом.

Requirements of the Supreme Attestation Commission under the Azerbaijan Republic President to be fulfilled at acceptance of the articles comprising the basic conclusions of the theses by the scientific editions recommended for publication

1. Articles should be submitted in Azerbaijani, Russian, Turkish, English languages in printed form and electronic version. In addition to the article written in one language, two summaries of it in other languages are to be presented. It is recommended to present an 8-10 page articles and summary in 5-8 lines.

2. Summaries to articles in different languages should be identical and in conformity with the contents of the article. The articles should be carefully edited from the scientific and grammar point of view.

3. There should be references to the scientific sources connected to the theme. Literature list cited at the end of the article is to be given either alphabetically or numbered in order of reference to literature met in the text, as for instance (1) or (1, p.119). If in the article there are met the repeated references to one and the same literature, this literature should be given under the previous number.

4. Article is to be discussed in a chair or department where the author works, an extract from the minutes is to be submitted to the editorial board.

5. Text of the articles in Azerbaijani should be typed by Latin alphabet, in Russian – by Cyrillic alphabet, in English – by English alphabet (USA), Times New Roman – 14 font, 1,5 line spaced.

6. Articles may be submitted to the press after receiving the secret reference on the side of the branch editor or an expert from the members of the editorial staff.

7. In conclusion of the article the scientific innovation of the work, importance of applying, economic advantage corresponding to the scientific field and character of the work should be clearly indicated.

8. In every article the indices of UDC and PACS type, as well the keywords in three languages should be indicated.

9. In article an author's name, surname, his work and home addresses and e-mail are to be indicated.

10. In Literature List the preference should be given to references from the articles, monographs and oth. written for last 5-10 years.

11. In the journal there is a room for the articles coming in from the different countries of the work with advanced science.

12. The journal publishes only those articles which are in conformity with its profile.

Articles not meeting the above mentioned reguirements are not accepted by the editorial board.

ELMİ
ƏSƏRLƏR

Beynəlxalq elmi-nəzəri jurnal

№ 2 (25), 2015

Redaktorlar:

AYTƏN VƏLİYEVA, RƏHİLƏ HƏSƏNOVA, SOLMAZ QURBANOVA, SVETLANA CABBARLI, GÜLARƏ AXUNDOVA, XURAMAN TURABOVA, VİDADİ VƏLİYEV, ŞƏFƏQ HACIYEVA, SƏBİNƏ MUSTAFAZADƏ, MƏLAHƏT TAĞIYEVA, ALMAZ HƏSƏNOVA

Kompyuter tərtibatı və dizayn:

MEHRİBAN ƏLİYEVA, AYNUR ƏLİYEVA

Texniki redaktor:

OKTAY YUSİFOV

SCIENTIFIC WORKS

The international scientific and theoretical journal

№ 2 (25), 2015

Editors:

AYTAN VELIYEVA, RAHILA HASANOVA, SOLMAZ GURBANOVA, SVETLANA JABBARLY, GULARA AKHUNDOVA, KHURAMAN TURABOVA, VIDADI VELIYEV, SHAFAG HAJIYEVA, SABINA MUSTAFAZADE, MALAHAT TAGIYEVA, ALMAZ HASANOVA

Printing and design:

MEHRIBAN ALIYEVA, AYNUR ALIYEVA

Technical editor:

OKTAY YUSIFOV

Yığılmağa verilmişdir: 06.11.2015
Çapa imzalanmışdır: 23.12.2015
Kağız formatı: 60x84 16/1. Çap vərəqi: 20,6. Tirajı 200.
Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun İnformasiya və Nəşriyyat şöbəsində nəşr olunmuşdur. Şöbə müdiri: fəlsəfə doktoru **Adil Həşimov** tel.: 050-337-74-33 Ünvan: H.Cavid pr-ti 31.
Tel.: (99412)539-28-74
E-mail: phillaw@phill.ab.az

Submitted to collection: 06.11.2015
Sent to the press: 23.12.2015
Paper format: 60x84 16/1
Print sheet: 20,6. Copies: 200
Published in the Information and Publishing department of IPL of ANAS, department chief: doctor of philosophy **Adil Hashimov** phone: 050-337-74-33 Address: H.Javid ave. 31. Phone: (99412) 539-28-74
E-mail: phillaw@phill.ab.az